# MAHMUD İSMAYILOV

# QARA YUSİF

(ROMAN)

YAZIÇI
BAKI-1991

Van gölünün ətrafında məskunlaşmış Qaraqoyunlu qəbilə birləşməsinin başçısı Bayram Xoca Ala dağı, Ala kilsəni, Sürməlini, Xoyu və Naxçıvan ətrafı yerləri ələ keçirərək Cəlayirlərə vergi verməkdən, onlara tabe olmaqdan boyun qaçırırdı. O, Təbrizi özlərinə paytaxt etmiş Cəlayir hökmdarlarından sultan Hüseynin dəfərlərlə xəbərdarlıq etməsinə baxmayaraq onun hakimiyyətini qəbul etmək istəmirdi. Lakin bu il sultan Hüseyn hədədən işə keçmişdi. O, Bayram Xocanın yanına elçilərini bir də göndərmişdi. Elçilərlə danışmaq belə istəməyən Bayram Xoca Qaraqoyunlu qəbilələrinin başçılarını yanına çağırdığı zaman sultan Hüseynin onun üzərinə qoşun yeritməsi xəbərini aldı. Bayram Xoca qəbilə başçılarının vaxtında gəlib çıxa bilməyəcəklərini nəzərə alıb sultan Hüseynin hücumuna hazır olmaq barədə sərəncam verdi. Həmin gün qardaşı oğlu, Ərkiş hakimi Qara Məhəmməd onun yanına gəldi. Bayram Xoca onun gəlişindən narazı qaldı:

— Mənim əziz qardaşımın oğlu, igid Qara Məhəmməd, düşmən üstümüzə xəlir, sənsə qalanı başsız qoyub, gəlmisən bura.

Qara Məhəmməd sultan Hüseynlə əmisinin münasibətlərindən xəbərdar idi. O, sultan Hüseyni boş-boşuna guruldayıb yağış tökmədən ötüşən buluda bənzədirdi. Neçə il idi ki, sultan Hüseyn hədə-qorxu gəlməkdən başqa bir iş görmürdü. Ona görə də Qara Məhəmməd əmisinin sözlərini ciddi qəbul etmədi:

— Ay əmi, sultan Hüseynin qeyrətinə çoxdan bələdik, o bu dəfə də hədə-qorxu gəlir, hücuma keçən deyil.

Bayram Xocanın sifətindəki narazılıq ifadəsi daha da artdı. O, qeyzini boğa bilmədi:

— Yox, Qara Məhəmməd, bu dəfə sən fikirləşdiyin kimi deyil. Qlavuzlarımız lap səhih xəbər gətiriblər. Sultan Hüseynin qoşunları yoldadır, birbaşa üstümüzə gəlir.

Qara Məhəmməd yenə kefini pozmadı:

— Narahat olma, Bayram Xoca, öhdəsindən gələrik onun. Sənin yanına gəlişimin səbəbi başqadır, xeyir işdir. İstəyirəm nökərin Qara Yusifi evləndirim.

Bayram Xoca daha da əsəbiləşdi:

— Qara Məhəmməd, zarafatın vaxtı deyil. Sultan Hüseyn çox qəzəblidir, özü də qoşunlarının sayı lap çoxdur. Sənsə başlamısan, nə bilim, öhdəsindən gələrik, Qara Yusifi evləndirirəm.

Qara Məhəmməd ciddiləşdi, ancaq əmisinin sözlərini cavabsız buraxdı. Bayram Xoca çox sevdiyi igid, bacarıqlı sərkərdə atan qardaşı oğlunun incidiyini zənn edib yumşaldı:

— İstəkli balam, Qara Məhəmməd sultan Hüseynlə bu savaşın nəticəsi bizdən ötrü çox vacibdir. Bu savaşı udsaq yerli camaatla qaynayıb qarışmış dağınıq soylarımızı bir dövlətdə birləşdirməyə başlaya bilərik. İndi pərakəndəyik, ona görə də sultan Hüseynin öhdəsindən gəlmək çətin olacaq. Qara Məhəmmədin dinmədiyini, gözlərini ondan çəkmədiyini görüb sözünə davam etdi,

—Yaxşı, kimi almaq istəyirsən oğlanlarının ən dəliqanlısına, ay Qara Məhəmməd?

Qara Məhəmməd əmisinin sorğusuna birbaşa cavab vermədi:

—Sən lap səhih buyurdun, Bayram Xoca. Sultan Hüseyni üstələyə bilsək, Təbriz taxtını tutarıq, özümüzün dövlətini, Qaraqoyunlu dövlətini yaradarıq, — dedi, gülümsündü, əmisinə sarı bir addım da atıb dayandı və əlavə etdi, — o ki qaldı Qara Yusifə, o, bir rəiyyət qızını bəyənib. Deyir ki, ölsəm də, qalsam da onu alacağam.

Qara Məhəmmədin sözləri Bayram Xocaya xoş gəlmədi, soruşdu:

— Qara Məhəmməd, Yusifin neçə yaşı var?

Əmisinin Qara Yusifnn yaşını soruşması Qara Məhəmmədə qəribə göründü:

— Necə bəyəm? Yusifin iyirmi yaşı bitib, iyirmi bir yaşına keçib.

— O, iyirmi yaşında elə ağızbəhəm eləyib ki, sənin sözünə baxmır? Özü istədiyi kimi eləyir?

Qara Məhəmməd çiyinlərini çəkdi:

— Yox, əmi, o mənim bir sözümü iki eləyən deyil.

— Bəs onda niyə sənin sözünə baxmır? Adi rəiyyət qızına evlənmək istəyir?

Qara Məhəmməd əmisinin təkəbbürlü, yalnız qəbilə başçıları, qəbilə əyanları ilə qız alıb vermək tərəfdarı olduğunu yaxşı bilsə də, fikrini birbaşa söyləməyi lazım bildi:

—Bayram Xoca, bu işdə də Qara Yusif mənim sözümdən çıxmaz. Mən onun bu istəyinin əleyhinə deyiləm. Qızın atası ağa deyil, adi kəndlidir. Nə olar ki? Bəs, allah bizim hamımızı bərabər yaradıb deyirik həmişə, qazılar, mollalar da bunu deyirlər. Ela isə belə işlərdə biz kasıb qan qardaşlarımıza niyə yuxarıdan baxırıq?

—Qara Məhəmməd indicə əmisinin onun üstünə düşəcəyindən, əsəbiləşəcəyindən ehtiyat edərək, tez özünə bəraət qazandırmağa çalışdı:

— Bir də qızın atasını sən lap yaxşı tanıyırsan, çox kişi adamdır. Alı kişini deyirəm. O bir vaxt səni ölümün ağzından alıb.

Bayram Xocanın dodaqları qacdı:

— Belə de da... Elə də Alı kişi deyirsən ki, elə bil o, dünənki cavan oğlan deyil. Onun elə yetgin qızı var?

Qara Məhəmməd güldü:

— Ay əmi, birdir-ikidir məgər? Alı kişinin beş qızı var, üçünü köçürüb ər evinə. Yaxşı bilirsən ki, kasıba allah heç nə verməsə də, uşaqı başından tökür.

Bayram Xoca ciddiləşdi:

— Yaxşı, qoy bu Sultan Hüseynlə qurtaraq, oğlun Qara Yusiflə mənim xilaskarım Alının qızına bir toy vurarıq ki. gurultusu bütün Qaraqoyunlu soylarında eşidilsin. Günü sabah qayıt Ərkişə, qalanı möhkəmlət. Çox güman ki, sultan Hüseynin qoşunları əvvəl Ərkişə soxulmağa çalışar. Elə olsa, buradan, Mosuldan sənə kömək göndərəcəyəm.

...Qara Məhəmməd Mosuldan Ərkişə yola düşəndə Bayram Xoca onu qucaqladı. Xocanın əlləri titrəyirdi. Qara Məhəmməd əmisinin xeyli

qocalmasını yalnız indi hiss etdi. Bayram Xoca onu qollarının arasından buraxıb dedi:

— Mənim oğlum Qara Məhəmməd, bilirsən ki, mənim balam yoxdur. Məndən sonra ümid sənədir. Doğrudur, adətimizə görə yerimə qardaşım Berdi Xoca keçməlidir. Ancaq məsələ burasındadır ki, o da cavan deyil. Bir də, axı o bacarıqsızdır.

Qara Məhəmməd əmisinin sözlərindən mütəəssir oldu:

— Bayram Xoca, əziz əmim, həmd olsun allaha, lap qıvraqsan. Ancaq mənim də cavanlığım ötüb keçib.

Saqqalını sığallamağı xoşlamayan Bayram Xoca bilaixtiyar sağ əlini azca seyrəkləşmiş ağ saqqalına apardı:

— Yaxşı, sən də başlama. Sənə nə olub ki? Hələ heç cavanlıq təravətini itirməmisən. Bir də başçı üçün cavanlıqdan çox, ağıl, fərasət gərəkdir. O da ki səndə nə qədər istəsən, — dedi, Qara Məhəmmədin kürəyindən ehmalca itələyib: —Get, oğlum, işin avand olsun, məni toya mütləq çağır, — dedi.

Qara Məhəmməd Ərkişə gələndə sultan Hüseynin qoşunlarının qalanın bir ağaclığında olması xəbərini aldı və Bayram Xocadan kömək istəməkdən ötrü Mosula adam göndərdi. Ertəsi gün sultan Hüseynin elçiləri Ərkişə gəldilər. Qara Məhəmməd onları hörmətlə qarşıladı və dedi:

— Əlahəzrətə yetirin ki, mən onun rəiyyəti olmaqdan heç vaxt boyun qaçırmamışam, indi də qaçırmıram. Söyləyin ki, mənə iki həftə möhlət versin, vergiləri yığıb hüzuruna gətirim.

Qara Məhəmməd elçiləri yola salıb yanında olan oğlanlarının, xüsusən Qara Yusifin ona heyrətlə baxmasına gülümsünub dedi:

— Ayrı əlacımız yoxdur.

Birinci Qara Yusif dilləndi:

— Babam, sən bilən yaxşıdır, necə söyləsən, elə də olacaq, bizim həddimiz nədir ki, sözünün qabağına söz qoyaq. Ancaq... — Qara Məhəmməd soruşlu:

— Hə, sözünün ardını söylə, nə ancaq?

— Ancaq sənin elçilərə söylədiklərin mənim xoşuma gəlmədi. Biz sultan Hüseynə tabe olacağıq?

Qara Məhəmməd oğlanlarını sınamaq üçün əlinə düşmüş bu imkandan istifadə etmək məqsədilə:

— Bəs neynəyəydim, bizim sultan Hüseynin qoşunlarına gücümüz çatar? — soruşdu.

Yenə Qara Yusif cavab verdi:

— Çatar, babam, çatar. Vuruşarıq, gücümüz çatmasa, savaş meydanında şərəflə ölərik.

Qara Məhəmməd güldü:

— Ölmək niyə, ay oğul? Mən sənin toyunu eləməyə hazırlaşıram, — dedi və çox dərin getdiyini görüb həqiqəti oğlanlarına açmalı oldu.

— Məqsədim vaxt qazanmaqdır. Bayram Xocanın göndərəcəyi kömək yetişənə kimi vaxt qazanmaq lazımdır.

Qara Yusif gülümsündü, onun sərt baxışları mülayimləşdi, həlimləşdi, şabalıdı gözləri güldü, uca qamətini daha da dikəldib atasının önünə keçdi:

— Babam, sultan Hüseynin qoşunları Ərkişə yaxınlaşanda izn versən yüz çəri ilə savaş meydanına girərəm. Onda görərsən ki, biz sultan Hüseynlə bacara bilərik.

Qara Məhəmməd böyük məhəbbət bəslədiyi bu igid, igidliyi qədər də ağıllı, lakin hələ savaş meydanı görməmiş oğlunun dəliqanlılara məxsus sadəlövhlüyünə gülümsündü, bir söz demədi.

...İki həftəlik möhlət bitdi. Qara Məhəmməddən səs çıxmadığını görən sultan Hüseynin sərkərdəsi qoşunlarını hücuma apardı. Qara Məhəmməd müqavimət göstərdi. Düşmən qoşunları qalaya bata bilməyib geri çəkilən zaman Bayram Xocanın Qara Məhəmmədə köməyə göndərdiyi kiçik qoşun dəstəsi ilə rastlaşdı. Qanlı döyüş başlandı. Qala bürcünün üstündən bu döyüş səhnəsinin şahidi olmuş Qara Yusif atasının yanına yüyürdü:

— Babam, Bayram Xocanın göndərdiyi kömək yetişib, amma düşüb düşmən qoşunlarının əhatəsinə. Mənə yüz nəfər çəri ver, qoy onların hovuna yetişim, mühasirədən qurtarım.

Qara Məhəmməd oğlunun iki həftə əvvəl dediyi sözləri yadına saldı, cavab vermədi, onunla birlikdə bürcün üstünə gəldi, döyüşə baxıb tərəddüd etmədən dedi:

— Get, oğlum, get, allah köməyin olsun, iki yüz atlı götür get, yoxsa onların hamısını qırıb tökərlər.

Qara Yusif sevincək bürcdən düşdü, hazır dayanmış atına sıçradı, iki yüz döyüşçünün də hazır atlara süvar olması çox vaxt almadı.

Qara Məhəmməd bürcdən enmədi, oğlunun ilk savaşına, düşmən qoşunlarını bicib-tökməsinə qürur hissi ilə baxdı. Nəhayət, Qara Yusif mühasirədə olanları xilas edib onlarla birlikdə qalaya çəkilə bildi. Ancaq əllicə nəfər əsir alınmışdı.

Qara Məhəmməd qələbə ilə geri qayıtmış oğlunu qucaqladı, ona əhsən dedi, lakin qalabəyini çağırıb:

— Qalanın ən uca bürcündə al bayraq qaldır, — dedi.

Bunun düşmənə təslim olmaq əlaməti olduğunu yaxşı başa düşən Qara Yusif və digər atlılar Qara Məhəmmədə təəccüblə baxdılar. Qara Məhəmməd qısaca:

— Ayrı əlacımız yoxdur, — dedi, atına mindi və əlavə etdi,— bizim tabeliyimiz təkcə vergi verməkdən ibarət olacaqdır. Həm də kim bilir sabah nələr baş verəcək Təbrizdə?

Qara Məhəmməd atını tərpətməzdən qabaq yenə qalabəyinə döndü və dedi:

— Bayrağı qaldırandan sonra adam göndər, bildir ki, vergini birbaşa Təbrizə gətirəcəyik.

Göndərilmiş elçi axşama az qalmış qayıdıb bildirdi ki, sultan Hüseyn Qara Məhəmmədin gunahlarından keçir, onu Ərkişdə hakim saxlayır və vergiləri bağışlayır.

Qara Məhəmməddən sonra digər əmirlər, həmçinin Bayram Xoca üzdə də olsa, sultan Hüseynin hakimiyyətini qəbul etdilər. Lakin bu asılılıq yalnız vergi

verməyi boyunlarına götürməkdən ibarət oldu. Ancaq Qaraqoyunlu əmirləri sultan Hüseynə bir il də vergi vermədilər.

Sultan Hüseyn qoşunlarını çəkib gedəndən sonra Qara Məhəmməd oğlu Yusifin toy tədarükünə başladı. Qarşıdan qış gəldiyindən Qara Məhəmməd çox gözləməyi lazım bilmədi, toy gününü müəyyənləşdirdi. Bayram Xocanı toya çağırmaq üçün atlı göndərdi.

Toya bir neçə gün qalmış Qaraqoyunlu qəbilələrindən qonaqlar axışıb gəlməyə başladılar. Qonaqlar o qədər çox, onların gətirdiyi hədiyyələr, xüsusən mal-qara o qədər idi ki, Ərkiş qalasında tərpənməyə yer yox idi. Bayram Xoca toy gününün ərəfəsində gəlib çıxdı. O, bir neçə dəvə, neçə baş qaramal, min baş qoyun hədiyyə gətirmişdi.

Qonaqların, toy iştirakçılarının çoxluğunu nəzərə alan Qara Məhəmməd qalanın ətrafında, bir qələr əvvəl döyüş meydanı olmuş düzənlikdə mağarlar qurdurdu. Toy günü kəsilən qoyunların, cöngələrin sayı-hesabı yox idi, gəlin gələndə isə onun ayağının altında dəvə kəsdilər. Mağarların hamısında zurnaçıları aşıqlar, aşıqları gözəl səsli xanəndələr əvəz edirdi. Mağarların birində əyləşmiş Bayram Xoca daha cox xanəndələrin oxumasından ləzzət alırdı, o, muğamat aşiqi idi. Bu mağara çağırılmış ustad xanəndənin gözəl səsi dalğa-dalğa yayılır, eşidənlərin qəlbinə, beyninə yol tapır, onları valeh edirdi. Xanəndə növbəti muğamını oxuyandan sonra Bayram Xoca ona ənam verdi və dedi:

— Sən necə də gözəl oxudun, xanəndə. Səni dinlədikcə musiqinin, doğrudan da insanın ən ulu arzularının, ən ülvi hisslərinin, duyğularının şairanə inikası olmasına heyrətlənirsən.

Qara Yusifin toyu düz bir həftə davam etdi. Alı kişinin gözəl qızı Qara Yusifin evinə köçdü

* * *

Qara Məhəmməd bu gün yenə fikirli idi. Hələ dünən onu şad- xürrəm görmüş Qara Yusif, soy başçıları bu gün onun birdən-birə bikeflənməsinin səbəbsiz olmadığını duyur, ancaq ürək edib hec nə soruşmurdular. Yazılmamış qanuna, dədə-babadan qalma ənənəyə görə böyüyün kədərli, fikirli olmasına və ya hər hansı bir şeyə görə ona sual vermək adət deyildi. Qara Yusif də, Qara Məhəmmədin əhatəsində olanlar da onun narahatlığı ücün əsas görmürdülər. Axı hələ bir həftə əvvəl Qara Yusifin oğlu olmuş, adını da İsfəndiyar qoymuşdular. Bir də dünən Qara Məhəmməd əmisi Bayram Xocadan məktub almışdı. Bu məktubda bildirilirdi ki, Qaraqoyunlu soyları sultan Hüseynə vergi verməkdən imtina edirlər, o da vergi verməməlidir. Doğrudur, Qaraqoyunlu soyları bir dəfə də olsun sultan Hüseynin xəzinəsinə vergi göndərməmişdilər, ancaq sultan Hüseyn onları borclu hesab edir və vergi yığanlarını hər vaxt göndərə bilərdi. İndi Bayram Xoca bundan imtina edirdi, vergi yığanların gələcəyi təqdirdə Qara Məhəmməd onları qova da bilərdi. Demək, Cəlayirlərdən, üzdə də olsa olan asılılıq ləğv olunurdu.

Son bir həftə ərzində baş vermiş bu iki xoş xəbər Qara Məhəmmədin də, əmirlərin də ürəyindən olub əhval-ruhiyyələrini qaldırmışdı. Bəs onda Qara Məhəmməd bu gün niyə belə pərt idi? Məsələ burasında idi ki, Bayram Xocanın məktubunu oxutmuş Qara Məhəmməd əmisinin səhhətindən şikayətlənməsinə əhəmiyyət verməmiş, gecə isə onu yuxusunda, ölüm yatağında görmüşdü; əmisi gözlərini ona zilləyib, nəsə demək istəmiş, ancaq bir kəlmə də söyləyə bilməmişdi. Elə beləcə də gözlərini əbədilik yummuşdu. Qara Məhəmməd vaxtilə əmisinin ona etdiyi vəsiyyəti yadına salıb ölüm yatağının yanında onunla yanaşı dayanıb qardaşına baxan o biri əmisi Berdi Xocaya çevrildi. Berdi Xoca ona baxıb acıqlı-acıqlı dedi:

– Nə gözlərini zilləmisən mənə? Yoxsa əminin qanuni hüququnu əlindən almaq, onun əvəzinə Qaraqoyunlu soylarının başcısı olmaq fikrinə düşmüsən?

Qara Məhəmməd Bayram Xocanın vəsiyyətini Berdi Xocaya danışmaq istəmədi, düşündü ki, əmisi ona inanmayacaq, sözlərini uydurma hesab

edəcəkdir. O, sakitcə başını bulamaqla kifayətləndi və yuxudan ayıldı. Onu daha yuxu aparmadı, səhəri diri- gözlü açdı, yatağından fikirli qalxdı, nə qədər çalışdısa, yuxuda gördüklərini özündən uzaqlaşdıra bilmədi.

Qara Məhəmməd əhvalının ətrafındakılara təsirsiz qalmadığını görür, ancaq özünü ələ ala bilmirdi: «Axı hələ elə bir şey olmayıb, əmimdən hələ dünən namə almışam, deməк sağdır» — fikirləşdi, sadəlövlüyünə gülümsündü, — «qasid naməni gətirmək ücün bir həftə yol gəlib, bu müddətdə hər şey ola bilər, yuxunu boş yerə görməmişdir. O ki qaldı Berdi Xocaya, mən onun əleyhinə çıxmaram, yaşlı əmimdir, Bayram Xocanı da o əvəz etməlidir. Bunun mənə heç bir ziyanı yoxdur. Onsuz da bütün işlər mənim əlimdə olacaq. O zəifdir, idarə işlərindən də başı çıxmır, mənə mane olmaz».

Qara Məhəmməd, nəhayət, başını qaldırdı, ona dikilmiş narahat gözlərə baxıb gülümsündü:

— Yamanca aparmışdı məni fikir, — dedi.

Atasının ona olan xüsusi məhəbbətindən istifadə edib söz deməkdən çəkinməyən Qara Yusif dilləndi:

— Elə fikrə getmişdin ki, elə bil nəsə pis bir xəbər almısan.

Qara Məhəmməd:

— Pis xəbər almamışam, ancaq belə görünür ki, bu gün, yaxud sabah alacağıq. Bağyada görmüşəm ki, Bayram Xoca ölüb, — deyib yerindən qalxdı və — evin havası bizi boğdu, bir həyətə cıxaq, — deyib qapıya sarı getdi. Hamı onunla birlikdə eyvana cıxıb həyətə düşdü. Qara Məhəmməd həyətdəki qocaman ağacın altında cox sevdiyi yerdə oturmazdan qabaq bir az aralıda su ilə oynayan pişiyə və heyvana baxıb dedi:

— Deyəsən hava dəyişəcək.

Qara Yusif göyə baxdı, orada havanın dəyişəcəyini xəbər verə biləcək bir əlamət görməyib soruşdu:

— Nədən bildin?

Qara Məhəmməd balaca çarhovuzun yanındakı pişiyi göstərib dedi:

— Görmürsən pişik su ilə oynayır.

Qara Yusif istədi desin ki, nə olsun ki, ancaq demədi, çəkindi. Qara Məhəmməd davam etdi:

— Pişik ki, suya yaxın getdi, mütləq yağış yağar.

Qara Məhəmməd rahatlanmağa macal tapmamış qoruqçubaşı çaparın gəldiyini bildirdi. Qara Məhəmməd çaparı tanıyan kimi cəld ayağa durub soruşdu:

— Bayram Xocaya nə olub?

Çapar pıçıltı ilə:

— Rəhmətə getdi Bayram Xoca. Berdi Xoca deyir ki, tez Mosula gələsən.

Qara Yusif, onun həndəvərindəkilər gah Qara Məhəmmədə, gah da çapara baxır, Qara Məhəmmədin sözlərini yada salır, onun Bayram Xocanın öldüyünü qabaqcadan xəbər verməsinə heyrət edirdilər. Qara Məhəmməd oğlanlarına:

— Qara Yusif mənimlə gedəcək. Siz camaatı Naxçıvana tərəf aparın, ancaq Ərkiş qalasını yiyəsiz qoymayın, — deyib evə girdi, geyindi, atını istədi. Bir neçə dəqiqədən sonra Qara Məhəmməd, Qara Yusif iki yüz atlının müşayiəti ilə Ərkiş qalasını tərk etdilər.

...Qara Məhəmməd Mosula yetişəndə Bayram Xocanı artıq dəfn etmişdilər. Berdi Xoca Qara Məhəmmədi mehribanlıqla qarşıladı, qırx gün yanında saxladı, qardaşının qırxının çıxmasından üç gün sonra Qara Məhəmmədlə Qara Yusifi yanına çağırdı. Onlar Berdi Xocanın oturduğu otağa girəndə onun oğlu Yarəlini də orada gördülər. Berdi Xoca qardaşı oğlu ilə Qara Yusifi gülərüzlə qarşıladı, hörmət göstərdi. Yarəli nəinki qımıldanmadı, hətta Qara Məhəmmədlə Qara Yusifə çəp-çəp baxdı. Qara Məhəmmad əmisi oğlunun hərəkətlərini nəzərindən qaçırmadı, əksinə, əmisinə hörmətsizlik olsa da ona iki kəlmə deməyi lazım bildi:

— Yarəli, atanın evinə qonaq gəlmişik. Gördün ki, qoca atan adətimizə görə qonağa necə hörmət eləyir? Sən də bunu öyrənməli idin, maşallah, artıq yekə kişisən.

Berdi Xoca da oğlunun qonaqlarla saymamazlıq etdiyini görmüş və hirslənmişdi. Lakin bununla belə o, dura-dura Qara Məhəmmədin öyüd-nəsihətə keçməsi ona xoş gəlmədi. Berdi Xoca Qara Məhəmmədə bir söz demadisə də, narazı baxışlarını ovdan gizlətmədi. Üzünü əmisinə tutmuş Qara Məhəmməd bunu görmürmüş kimi Berdi Xocaya gülümsündü və:

— Cavanlarımız korlanıblar, böyük-kiçik bilmirlər, — dedi.

Berdi Xoca Qara Məhəmmədnn sözlərinə əhəmiyyət verməyib nəzərlərinn bir-birinə düşmən kimi baxan oğluna və Qara Yusifə dikdi. Qara Məhəmməd onlara baxmasa da, oğlu ilə Yarəlinin arasındakı münasibəti hiss etdi.

Berdi Xoca yaranmış gərginliyi aradan qaldırmaq ücün bir şey fikirləşə bilmədi və birbaşa mətləbə keçdi:

—Oğlum, Qara Məhəmməd, Qaraqoyunlu soylarına başçılıq irsən mənə keçir. Ancaq mən qocalmışam, həm də, düzünü axtarsam, məndə mərhum qardaşımı əvəz eləmək qabiliyyəti yoxdur. Qardaşım demişdi ki, sən hər barədə bu iş üçün yaxşısan, sənin adıca nahaq yer Qara sözü əlavə olunmayıb. İndi necə deyirsən, Qaraqoyunluların başçısı olursan, yoxsa mənim dünyadan köçməyimi gözləyirsən? Gözləsən də, əslində başçı sən olacaqsan, ad mənim olacaq, iş sənin.

Qara Məhəmməd yuxusunu yadına saldı, əmisinin dediklərnnə sevindi, Yarəliyə baxdı və:

— Berdi Xoca, sən necə söyləsən, elə də olacaq. Sən bizim böyüyümüzsən, sözlərin bizdən ötrü qanundur.

Yarəli dözmədi, irəli çıxdı və qeyzlə dedi:

— Sən nə eləyirsən, babam? Mənim varislik hüququmu niyə başqasına verirsən?

Berdi Xoca oğlunun hərəkətindən bərk əsəbiləşdi:

— İtil gözlərimdən, küçük, səni kim varis elədi? Qanuni varis odur, Qara Məhəmməd. Bayram Xocadan və məndən sonra nəslimizdə ən yaşlısı, ən ağıllısı. Bayram Xoca məndən sonra onu varis elan eləyib, onun vəsiyyəti

hamımızdan ötrü qanundur. O, vəsiyyət eləməsəydi də belə olacaqdı. Qara Məhəmmədin atası Qara Mahmud bizim böyük qardaşımız olub. Onun böyük oğlunun yeganə varislik hüququ var.

Yarəli atasına cavab vermədi, lakin onun baxışları daha da amansızlaşdı. Berdi Xoca nəzərlərini oğlundan çəkmədən davam etdi:

— Mən eyni zamanda Mosul valisi kimi qalacağam. Bax bu işdə mənim varisim, xələfim sənsən. Məndən sonra Mosulun valisi sən olacaqsan.

Qara Məhəmməd söhbəti uzatmağı lazım bilməyib dedi:

— Berdi Xoca, izn ver biz yola düşək.

Berdi Xoca ayağa durdu, Qara Məhəmməd də qalxdı. Bayaqdan ayaq üstündə olan Qara Yusif onlara yaxınlaşdı, Berdi Xoca əvvəlcə Qara Məhəmmədi, sonra isə Qara Yusifi qucaqladı və:

— Allah amanatı, — dedi, onlarla birlikdə qapıdan çıxdı və soruşdu:

— Harada olacaqsan, Qara Məhəmməd, Ərkişdə, yoxsa Naxçıvanda?

—Naxçıvana gedirik, orada olacağıq.

* * *

1382-ci ilin yayının son ayı idi.

Günorta namazından sonra Təbriz bazarında həmişəki canlanma yox idi. Səhər ertədən axşam düşənə qədər bazarı gur olan şəhərdə indi dükanların çoxu bağlı idi. Son illərdə başıbəlalı Təbrizin üzərindən qovğa sovuşmadığından, şəhər camaatı səksəkəli olmuş və bir xoşagəlməyən xəbər eşidən kimi təhlükəsiz hesab etdikləri evlərinə çəkilirdilər. Bu gün də günortaya yaxın aldıqları xəbərdən qorxuya düşmüş şəhərlilər küçələrdən əl-ayağını çəkmiş, sənətkarlar, dükançılar dükanlarını açmamışdılar. Həmişə olduğu kimi, bu dəfə də onlar səhv etməmişdilər. Hələ qüruba xeyli qalmış Təbrizik küçələri, xüsusən bazardan çox da uzaqda olmayan saraya gedən yollar əsgərlərlə doldu. Bir qədər keçəndən sonra isə başqa qoşun dəstələri göründü, əsgərlərlə təzə

gəlmiş qoşun arasında qısa müddətli vuruşma baş verdi. Sonradan gəlmiş qoşun dəstələri onlara müqavimət göstərən əsgərləri asanlıqla məğlub və tərksilah etdilər, saraya girdilər. Yay günəşi öz ömrünü bitirib mövqelərini qaranlığa təslim edəndə Təbriz küçələrinə sükut çökdü. Lakin Təbriz evlərinin bir çoxu həyəcan icərisində idi. Həmin evlərin sakinləri sarayda baş verənlərin mahiyyətini olduğu kimi dərk etməsələr də, qoşunun işə qarışmasından orada ciddi dəyişikliklər olacağını bilirdilər. Bu dəyişikliklərin onların — sarayla bağlı ailələrin gələcək taleyinə necə təsir göstərəcəyini böyük narahatlıq və iztirabla gözləyirdilər.

Saraya yaxın küçələrdən birində, uca hasar içindəki bağlı- bağatlı həyətdə ikimərtəbəli binanın yalnız birinci mərtəbəsindən, həyət darvazasına yaxın otağın kiçik pəncərəsindən işıq gəlirdi. Burada ortayaşlı bir kişi ilə bığ yeri yenicə tərləmiş cavan bir oğlan otağın döşəməsinə sərilmiş həsirin üstündəki keçədə əyləşib pıçıltı ilə söhbət edirdilər. Onlar danışıqlarının kiminsə eşidə biləcəyindən ehtiyat edirmiş kimi tez-tez zülmət içində olan həyətə boylanırdılar. Əslinda təkcə ortayaşlı kişi artıq dən düşmüş sapqalını, bığlapını sığallaya-sığallaya danışırdı, cavan isə ona qulaq asır, hörmət əlaməti olaraq tez-tez başını tərpədirdi. Lakin kişi birdən danışığına ara verib cəld qalxdı, həyətə çıxdı. Cavan oğlan onun arxasınca getdi və:

— Ata, mən də eşitdim o qışqırığı, — dedi, atasının onun sözlərinə əhəmiyyət verməyib, gözlərini qaranlığa zilləyərək diqqətlə uzaqlara baxdığını görüb susdu. Ata bir xeyli qulaq verdikdən, daha heç bir səs-səmir kəlmədiyini yəqin etdikdən sonra otağa qayıtmaq istəyəndə üst mərtəbədəki pəncərədən səsləndiyili eşidib çarhovuzun yanına tələsdi. Pəncərədən boylanan ev sahnbini görüb:

— Ağa, məni cağırdın? — soruşdu.

— Hə, çağırdım, Əliabbas. Bir az bundan qabaq lap yaxından gələn fəryad səsini eşitdin?

Əliabbas başını tərpədib dedi:

— Eşitdim. ağa, eşitdim. Deyəsən saray tərəfdən gəlirdi o səs.

Pəncərədən boylanan baş itdi. Bir azdan həmin başın sahibi eyvanda göründü. O, pillələrlə aşağı düşdu, Əliabas kişinin yanına gəldi, çarhovuzun kənarında oturdu, fikirli-fikirli soruşdu:

— Deyirsən saray tərəfdən kəldi o səs? — O, həmsöhbətinin başını tərpətməsinə məhəl qoymayıb dedi, — yox, ay Əliabbas, səsi eşidən kimi mən pəncərədən diqqət elədim, səs cox da uzaqdan, sən deyən kimi, saraya yaxın yerdən gəlmirdi. Deyəsən Mustafa bəyin evindən gəlirdi.

Əliabbas kişi ciynnlərini çəkdi:

— Nə deyim, vallah, oğlum Rəşidlə oturub dərdləşirdik. Birdən fəryad eşidib cəld evdən çıxdım. Mənə elə gəldi ki, fəryad saray tərəfdən gəldi. Mustafa bəyin də evi o tərəfdədir. Çox ola bilər ki, sən düz eşitmisən.

Sultan Hüseynin sarayında vəzirinköməkçisi olan ev sahibi Mahmud Ağa həyəcanla:

— Mustafa bəy sultan Hüseynin yaxın adamıdır. Fəryad həqiqətən də onun evindən gəlirdisə, demək sarayda ciddi dəyişiklik olub. Yoxsa kimin nə həddi var idi ki, sultana cox yaxın adam olan Mustafa bəyin evinə soxulaydı.

Mahmud Ağa susdu. Qeyri-ixtiyari yerindən qalxdı, yenə oturdu. Əllərini çarhovuza salıb, suyu ətrafa sıçradaraq yavaşdan, öz-özü ilə danışırmış kimi dilləndi:

— Görəsən vəzirlə necə rəftar elədilər? Bu cox vacibdir, uşaqlarımın müqəddəratı bundan asılıdır.

Ev sahibinə böyük hörmət bəsləyən Əliabbas kişi ona təskinlik verməyə çalışdı:

— Sən ki heç vaxt heç kimin toyuğuna kiş də deməmisən, səninlə onların nə işi?

Mahmud Ağa acı-acı gülümsündü. Onun ailəsinə sədaqətlə xidmət edən bu təmiz qəlbli kişinin sadəlövlüyünə təəccüblənmədi:

— Eh, ay Əliabbas, sən bilmirsən sarayda taxt üstündə boğuşanlar baxmırlar ki, kim necə adamdır. Onlar kimin adamı olmağına fikir verirlər. Bax, mən vəzirin köməkçisiyəm, onun adamı hesab olunuram, amma ondan heç xoşum gəlmir. Cox hiyləgər, ikiüzlü adamdır. Ancaq kimin nə vecinə ki, mən vaziri xoşlamıram. Onu yaxalasalar, məni də onun yaxın adamı kimi tutacaqlar.

Əliabbas dilləndi:

— Ağa, bəlkə səs heç də bizim fikirləşdiyimiz kimi Mustafa bəyin evindən gəlmirdi, — dedi, bir qədər fikirləşib davam etdi, — istəyirsən Rəşidi göndərim gedib öyrənsin görək həndəvərimizdə nələr baş verir.

Mahmud Ağa qətiyyətlə:

— Yox, yox. İndi onu heç yerə göndərmək olmaz, bu cox təhlükəlidir.

Əliabbas gülümsündu:

— Qorxma, ağa, Rəşid hər adama yaxa verməz.

Mahmud Ağa eyni qətiyyətlə dedi:

— Yox. Olmaz. Bilirəm, Rəşid adına layiq cavandır. Ancaq ehtiyatı əldən vermək olmaz.

Əliabbasla Mahmud Ağanın mübahisəsini həyət darvazasının döyülməsi kəsdi. Rəşid yüyürüb gəldi. Mahmud Ağanın rəngi dəyişdi. Doğrudur, bu, qaranlıqda görünmədi, lakin onun halının dəyişməsini qaranlıq da gizlədə bilmədi. Əliabbas kişi dilləndi:

— Vallah, ay ağa, darvazanı döyən pis niyyətli adama oxşamır. Yoxsa, allah eləməmiş, başqa niyyətlə gəlsəydilər ayrı cür döyərdilər. Fikir ver, gör darvazanın döyülməsindən nə qədər keçib, amma ikinci dəfə döyməyə cürət eləmirlər.

Əliabbas kişinin sözləri Mahmud Ağanın ağlına batdı. Bu vaxt darvaza bir də döyüldü. Mahmud Ağa Rəşidə:

— Darvazanı aç, gör kimdir, oğlum, — dedi.

Rəşid cəld darvazaya getdi və bir nəfərlə geri qayıtdı. Gələn adam Mahmud Ağaya dedi:

— Ağa, sultan Əhməd və vəzir həzrətləri buyurdular ki, saraya təşrif gətirəsən.

Sarayın nümayəndəsi pəncərədən düşən işıqda onun yanında dayanmış Əliabbasa, darvazanı açanda qaranlıq olduğundan üzünü yaxşı seçə bilmədiyi Rəşidə baxdı, nəzərlərini yenə Mahmud Ağaya çevirdi:

— İzn ver mən gedim. - deyib cavab almadan darvazaya sarı yönəldi. Rəşid onun ardınca darvazanı bağlayıb qayıdanda Mahmud Ağanın onun atasına:

— Hə, əzizim, elə görünür ki, Əhməd padşah qardaşını itələyib taxtında əyləşib, — dediyini eşitdi. Rəşnd gədib atasının yanında dayandı. Mahmud Ağanın sözlərinin ardanı dinlədi, — düzünü axtarsan, sultan Hüseyn heç padşahlığa layiq də deyildi, zəif adam idi.

Mahmud Ağanın yenə nəsə demək, sözünə davam etmək istədiyi aydın görünürdü, ancaq ehtiyat edirdi. Mahmud Ağa, albəttə, Rəşidin və atasının ona sadiq olmalarına əmin idi, lakin buna baxmayaraq tərəddüd edirdi:

— Bilirsən, ay Əliabbas, əslində sultan Hüseyn deyil, vəzir padşahlıq edirdi. Vəzir də ki, dediyim kimi hec düz adam deyil.. Heç başa düşmürəm ki, Əhməd padşah onu yaxşı tanıya-tanıya vəzir qalmasına necə razı olub?

Mahmud Ağa susdu. Pəncərədən kölgə keçdi, qapı açıldı, ev sahibinin qızı Xavər eyvana çıxdı, narahatlıqla ətrafa boylandı və yavaşdan:

— Ağa, haradasan, ağa?

Mahmud Ağa qızına səs verməyə tələsdi:

— Buradayam, qızım, Xavər.

Rəşidlə atasının nəzərləri səs gələn tərəfə çevrildi. Eyvan qaranlıq olduğundan onlar səs sahibini çörə bilmədilər. Bu an Mahmud Ağa ilə Əliabbas Rəşidə baxsaydılar, pəncərədən düşən zəif işıqda belə onun sifətində əmələ gəlmiş dəyişikliyi sezərdilər. Rəşid də bunu hiss etdi, bir addım geri çəkilib gözlərini eyvandan çəkmədən ağaca söykəndi. Buraya pəncərədən işıq düşmürdü. Bu an qapıdan düşən işıq Xavərin üzünü işıqlandırdı. Rəşidə elə gəldi ki, eyvan evdən düşmüş işıqdan deyil, Xavərin səma rəngli gözlərinin

alovundan işıqlandı. Xavər evə girib qapını örtdü, eyvana yenə qaranlıq çökdü. Mahmud Ağa Əliabbasa:

— Yaxşı, Əliabbas, sən də get hazırlaş, mənimlə birlikdə saraya gedəcəksən.

Mahmud Ağa ilə Əliabbas evdən çıxıb saraya gedəndə gecə yarıdan keçmişdi.

* * *

Hər gün olduğu kimi bu gün də sultan Hüseyn Cəlayir yatağından lap gec qalxdı. Gecəni pis yatmışdı, qarmaqarışıq yuxular görmüşdü. Görmüşdü ki, öz məiyyəti ilə yelkənli gəmidə Xəzərdə üzür. Birdən elə külək qalxdı ki, gəmini idarə etmək mümkün olmadı. Böyük bir dalğa nəhəng ağızlı dəhşətli bir əjdahaya çevrilib gəmini uddu, məiyyətinin çoxu yoxa çıxdı. O, vəzir və bir neçə nəfərlə suyun üzündə iri bir tirin üstündə qaldı. Tezliklə dalğalar onların hamısını tirin üstündən aşırdı. Onlar üzməyə başladılar. Bu vaxt dalğa onların qarşısına bir taxta gətirdi. Sultan da, vəzir də bu xilasedici taxtadan bərk- bərk yapışdılar. Lakin taxta onların ikisini də saxlaya bilmədi, sultan vəziri kənara itələmək istədi, ancaq vəzir daha cəld tərpənib onu suya basdı. Sultan boğulmağa başladı və həmin an ayıldı. O, bərk qorxmuşdu, ürəyi şiddətlə döyünürdü. Sultanın ayıldığını görən sadiq keşikçisi, yuxusuzluqdan gicişən gözlərini ovuşdura-ovuşdura içəri girdi. Keşikçi sultanın əhvalının yaxşı olmadığını gördüsə də buna əhəmiyyət vermədi, o, padşahının belə vəziyyətə düşməsini çox görmüş və buna alışmışdı. Sultan Hüseyn qorxudan böyümüş gözlərini keşikçinin üzünə dikib dedi:

— Nə durub gözlərini döyürsən, get tez vəziri çağır.

Sultan Hüseynin adətinə xilaf olaraq geyinib yuyunmamış və səhər yeməyini yeməmiş vəziri cağırması gözətçiyə qeyri-adi görünsə də, bir söz demədi. Vəzir özünü gözlətməyə məcbur etmədi, tələsik padşahın yataq otağına girdi, gözlərinə dolmuş nigarançılığı göstərməməyə çalışaraq:

— Olmasın azar, padşahım, naxoşlamısan, nədir, niyə yatağından durmursan? — soruşdu, keçib sultanın yaqağının yanında qoyulmuş kürsüdə oturdu. Sultan Hüseyn vəzirini dünən görməyibmiş kimi dinməzcə diqqətlə süzdü. Vəzir də dinmədi, ona baxmaqla kifayətləndi, sultanın danışmasını gözlədi. Aydın görünürdü ki, cox narahatdır, o, tez-tez padşahın yataq otağından həyətə açılan pəncərəyə baxırdı. Üz-gözünü soyuq tər basmışdı. Vəzir gözlərini ona zilləmiş sultan Hüseyndən həyəcanını nə qədər gizlətməyə çalışsa da sultanın qəflətən:

— Vəzir, nə yaman tərləmisən? — deyə verdiyi sualdan diksindi, ancaq özünü itirmədi, zorla gülümsəyərək cavab verdi:

— Sən də yamanca tərləmisən, əlahəzrət, alnından, üzündən tər süzülür. İstidir.

Sultan Hüseyn bilaixtiyar yanındakı iri yaylığı götürdü, alnını və üzünü silib dedi:

— Məni belə tər aparması istidən deyil, vəzir, qorxudandır, narahatlıqdandır.

Vəzirin rəngi dəyişdi, lap qorxuya düşdu: «Görən nədən qorxur sultan, niyə narahat olur? Yoxsa hər şeyi bilir?». Xoşbəxtliyindən sultan ona baxmırdı. Vəzir bu dəfə də özünü tez ələ ala bildi, yaylığını çıxardı, tərini sildi və soruşdu:

— Hökmdarı narahat eləyən nədir? Şükur ki, əlahəzrət, sağ- salamətsən. Bir balaca azarlamağın səni niyə belə qorxudur?

Sultan Hüseyn dərindən köks ötürdü:

— Çox pis, qorxulu yuxular görmüşəm, vəzir.

Vəzir padşahın narahatlığının əsl səbəbini bilib çiynindəki ağır yükü yerə qoymuş adam kimi dərindən köks ötürüb dedi:

— Padşahım, yuxu görmək nə olan şeydir ki, rahatlığını əlindən alıb? Görünür, yatağa girməmişdən qabaq yeməyini qarışdırmısan, bu, mədadə ağırlıq eləyib, ona görə də narahat yuxular görmüsən.

Sultan Hüseyn onun sözünü kəsdi, aramla yuxusunu başdan-başa danışdı və axırda dedi:

— Vəzir, yuxuda sən məni suya basıb boğmaq istəyirdin.

Sultan Hüseyn yuxusunu danışanda vəzirin halı yenə dəyişdi. Daha narahatlığını cilovlaya bilmədi. Vəzirinin haldan- hala düşməsi sultan Hüseyin diqqətini cəlb etdi:

— Görürsənmi, vəzir, yuxum sənin də halını dəyişdi.

Vəzir özünü yığışdırdı:

— Yox, qibleyi-aləm, nəsə birdən ürəyim bulandı, səhər-səhər yeməyimi qarışdırmışam, — dedi, yenə narahatlıqla nəzərlərini açıq pəncərədən həyətə saldı. Hiss olunurdu ki, o, həyət tərəfdən kiminsə gəlməsini, yaxud da həyətdə bir hadisə baş verəcəyini gözləyir. Sultan Hüseyn də nəzərlərini həyət tərəfə çevirdi. Vəzir sultan Hüseyni sakitləşdirməyə çalışdı və buna müvəffəq oldu. Sultan Hüseyn yatağından durdu. Xidmətçiləri çağırdı, onu geyindirdilər. Sultan vəzirinə döndü:

— Vəzir, o biri otağa keç, bir yerdə səhər yeməyi yeyək.

Vəzir gülümsündü:

— İndi nahar vaxtıdır, qibleyi-aləm.

— Nə fərqi varmış, yemək yeməkdir də...

Nahardan sonra sultan Hüseyn yenə narahat olmağa başladı, yenə yuxusunu yazına saldı, taxt-tac salonuna keçmədi, vəziri də yanından buraxmadı. Onlar xeyli oturdular. Sultan Hüseyn elə hey yuxusundan danışır, həyəcanlanırdı. Birdən saray mühafizə dəstəsinin başçısı içəri girdi və:

— Sultanım, xəyanət baş verib, qardaşın şahzadə Əhməd sarayı mühasirəyə alıb, saraydan kənarda vuruşma gedir, — dedi.

Sultan Hüseyn dik atıldı və qışqırdı:

— Tez əmir-sipəhsaları buraya çağır.

— Əmir-sipəhsalar sarayda yoxdur, sənə sadiq olan qoşun başsız qalmışdı. Onlara başçılığı saraya gəlmiş minbaşılardan biri öz üzərinə götürmüşdür.

Sultan Hüseynin əlləri yanına düşdü, gözləri yol çəkə-çəkə oturub:

— Vəzir, deyəsən yuxum çin oldu. Bu haramzada Əhmədin gözləri həmişə taxt-tacda olub. Onu o dünyalıq eləmək istəyirdim. Sən qoymadın. Belə çıxır ki,

yuxumda boğulan zaman məni çiynimdən basmağın düz imiş, — deyib yerindən sıçradı və qeyri- ixtiyari qışqırdı:

– Cəllad!

Sultanın keşikçisi içəri girdi. Sultan Hüseyn qışqıra- qışqıra:

—Tez ol, tez, cəlladı cağır, Əhməd gəlib buraya çıxana kimi bu satqının başı kəsilməlidir, — deyib vəziri göstərdi.

Bu vaxt lap yaxınlıqda qılıncların, qalxanların bir-birinə toqquşması eşidildi və əmir-sipəhsalar qapıda göründü. Vəzir ayağa qalxdı, gülümsündü və:

—Qibleyi-aləm, deyəsən çağırdığın cəllad mənim əvəzimə sənin başını kəsməli olacaq. Özü də sultan Əhməd həzrətləri gəlib çıxana kimi yox, o, təşrif buyurandan sonra.

Vəzir bir anlığa susdu, əmir-sipəhsalara yaxınlaşıb ondan nəsə soruşdu, məmnun halda əlini əlinə sürtdü və davam etdi:

– Qibleyi-aləm, sultan Əhməd səni cox gözlətməz, indicə gəlib çıxar.

Sultan Hüseynin sifəti öymədərən çiçəyinin rəngini aldı. Gözünü vəzirdən çəkməyərək pıçıltı ilə dedi:

– Mənə indi aydın olur ki, bütün işlərin mayeyn-fəsadı sən imişsən, satqın, bişərəf. Yuxum necə də düz çıxdı.

Vəzir gülə-gülə:

– Elədir, yuxun lap çin oldu, — dedi, üzünü yana çevirəndə minbaşı əmir-sipəhsalara yaxınlaşıb dedi:

– Qibleyi-aləm, sultan Əhməd dedi ki, sultan Hüseyni oraya, onun yanına aparasan. Vəziri də tapıb oraya cağırasan.

– Haraya gəlməyimizi buyurdu qibleyi-aləm? — Əmir-sipəhsalar soruşdu.

– Taxt-tac salonuna, indi o, taxtda əyləşib.

Əmir-snpəhsalar sultan Hüseynə yaxınlaşdı. Sultan Hüseyn onunla getməkdən imtina etmək istədi, ancaq qardaşından aman diləməyi qərara alıb qabağa düşdü. Onlar taxt-tac salonuna daxil olanda orada xeyli adam — sərkərdə, əyan gördülər. Sultan Əhməd vəziri çağırdı, yanında, vəzirə məxsus

kürsüdə oturtdu. Vəzir oturmamışdan qabaq sultan Əhmədin əlindən öpdü. Sultan Əhməd qardaşı sultan Hüseyni də yanına çağırdı, kürsü qoydurdu:

— Otur, sultan, — dedi. — Sən əvvəldən padşahlığa layiq deyildin, başın boşdur. Dedim sənə olma sultan, sözümə baxmadın. Gördüm səltənət əldən gedir, bacarmırsan padşahlıqla, ona görə də məcbur oldum taxtı zorla tutam.

Sultan Hüseyn göstərilən yerdə oturdu, qardaşına cavab vermədi. Sultan Əhməd vəzirə baxıb bic-bic gülümsündü və sözünə davam etdi:

— Deyərdim qal mənimlə, köməkləşib səltənəti dolandıraq, ancaq görürəm ki, kütbeyinsən, bunu da bacarmazsan. Oturarsan sarayların birində, hərəmlərini başına yığıb istədiyin kimi ömür sürərsən. Elə onların padşahı olsan, bəsindər, — Sultan Əhməd yenə danışığına ara verdi, həndəvərindəkilərə, sonra vəzirinə baxıb göz vurdu:

— Bir özünə də, mənə də yaxşı-yaxşı bax. Yaşın mənimkindən çoxdur, düz yeddi il ancaq məndən cahıl görünürsən. Niyə? Ona görə ki, yelbeyinsən, səni dövlət işləri maraqlandırmır, səltənət dərdi çəkmirsən, olmayan ağlını işlətmirsən.

Sultan Əhməd qəflətən sözlərinin istiqamətini dəyişdi, üzünü onun başına dolanan əyana cevirib:

—Səni sarayın əmiri təyin eləyirəm. Bundan sonra sarayda ziyafətlər düzəltmək, qonaq, elçi qəbul elmək, nə bilim o qədər iş var ki. Bütün bunlara sən cavab verəcəksən. İndi isə tələsik bir ziyafət düzəltdir. İstəyirəm əziz qardaşımı dincəlməyə təntənə ilə göndərəm.

Tezliklə ziyafət məclisi qızışdı. Sultan Əhməd bulaq kimi axan şərabdan içir, qardaşı sultan Hüseyni də içməyə məcbur edirdi. Sultan Hüseyn tezliklə kefləndi, sultan Əhməd isə ondan qat-qat artıq içməsinə baxmayaraq keflənməmişdi. Onun başı yemək-içməyə, qardaşını içirtməyə qarışsa da, yenicə saraya gəlmiş və birbaşa ziyafətə düşmüş Mahmud Ağanı gördü. Onun kim olmasını vəzirdən soruşmağa imkan tapdı. Hamı yeyib içirdi. Rəqqasələr gəldi, onlar əlvan qanadlı kəpənəklər kimi sultan Əhmədin qarşısında

uçuşurdular. Hələ dünən sultan Hüseynin xoşuna gəlmək üçün dəridən çıxan rəqqasələr bu gün onun tərəfinə heç baxmırdılar da. Nəhayət, sultan Əhməd yoruldu, hamını azad etdi. Onun yanında vəzir, bir də hamı ilə birlikdə qapıya tərəf getmək istərkən vəzirin əylədiyi Mahmud Ağa qaldılar. Sultan Əhməd əyri-əyri vəzirinə baxdı. Vəzir bunun səbəbini başa düşdü:

— Qibleyi-aləm, görmürsən necə nurani kişidir Mahmud Ağa? Onun yanında hər sözünü deyə bilərsən.

Sultan xumarlanan gözləri ilə Mahmud Ağanı bir də diqqətlə süzəndən sonra:

— Görünür, sənə inanmaq olar, — dedi, üzünü vəzirə çevirib davam etdi, — vəzir, bu kişi ağıllı adama oxşayır, qoy sən deyən olsun, — Sonra yenə üzünü Mahmud Ağaya çevirdi:

—Sən olacaqsan mənim məsləhətçim, sarayda vəzirdən sonra ikinci adam.

Mahmud Ağa əllərini döşündə çarpazladı:

— Sən çox lütfkarsan, əlahəzrət, — deyib, vəzirin işarəsilə üzü padşaha qapıya tərəf çəkilib bayıra çıxdı. Sultan Əhməd onu nəzərlərilə yola salıb:

— Yaxşı düzüb-qoşdun, vəzir. Sənin mənə göstərdiyin bu xidməti heç vaxt unutmaram. İndi bir işimiz qalır, sultan Hüseyni dincəltmək. Elə elə ki, səs çıxmasın.

...Vəzir sultan Hüseynin meyidini gecə ikən saraydan çıxardı, səhəri gün isə şayiə yaydı ki, sultan Hüseyn gecə qaçıb.

... Yay keçdi, payız gəldi, onu qış əvəz etdi, onun da ömrü uzun olmadı. Yaz günəşinin ilıq şüaları bütün yolları, damları, hər yeri ağ rəngə boyamış qalın qar qatını axar suya döndərib Şeşgilan cayına axıdıb qurtarmamışdı ki, bir gün təbrizlilər sultan Əhmədin sarayına doğru ağ atlının çapdığını gördülər. Onsuz da narahatlıq içində olan şəhərlilər bu ağ atlının onların başına gələcək yeni müsibətlər müjdəçisi olduğuna şübhə etmirdilər. Sürətlə çapan atlı, palçığı ətrafa sıçrala-sıçrada tezliklə saray darvazasının arxasında görünməz oldu. Bundan heç bir saat keçməmişdi ki, Təbriz küçələri qoşunla doldu. Carçı sultan Əhmədin böyük qardaşı Şeyx Əlinin böyük qoşunla Bağdaddan çıxaraq Təbriz

üzərinə gəldiyini, qardaşının taxtını onun əlindən almaq istədiyini bildirdi. Təbriz darvazaları bağlandı, şəhər əhalisi əsgərlərlə birlikdə qala divarlarının üstündə, bürclərdə mövqe tutmalı oldu. Günortadan sonra sultan Əhməd padşah bir neçə sərkərdəni, o cümlədən Ömər Qipçağının, həmçinin vəzirin, Mahmud Ağanın, bir necə əyanın müşayiəti ilə şəhər meydanına gəldi. Vəzir ona şəhər camaatına müraciət etməyi, xoş günlər vəd etməklə onları öz tərəfinə çəkməyi məsləhət görmüşdü. Sultan meydanda düzəldilmiş hündür yerə qalxdı. O, şəhərlilərin onu gurultulu alqışlarla qarşılayacağını gözləyirdi, zor gücünə meydana toplaşan təbrizlilər isə onu sükut içində qarşıladılar. Bu, sultana toxundu, ancaq narazılığını gizlətməli oldu, uddu. O, camaata müraciət etməkdən də qəti imtina etdi və yavaşdan vəzirə dedi:

– Sən, sən danış, vəzir. Mən bu qoyun sürüsünə söz söyləmək istəmirəm. Mən onların heç birinə inanmıram, onların bizə kömək edəcəklərini də gözləmirəm.

Vəzir əmir-sipəhsalar:

—Hələlik sən Şeyx Əlinin hücumu barəsində danış, — deyib onu irəli verəndən sonraq sultan Əhmədə döndü və ondan başqa heç kimin eşidə bilməyəcəyi pıçıltı ilə dedi:

– Mən sənə demirəm ki, Təbriz camaatı səni istəyir, sənə kömək əlini uzadacaq. Sənin onlarla bir ata kimi danışmağının xeyri ola bilər, onlar sənə inanar, şəhər darvazalarını qardaşının üzünə açmağa cəhd eləməzlər.

Vəzir padşahdan əmir-sipəhsalara döndü, onun danışmaqda davam etməsini görüb:

—Düzünü axtarsan, onların darvazaları açacaqlarından ehtiyat eləməyə də dəyməz. Onlar səni sevmədikləri kimi qardaşın Şeyx Əliyə də meyl eləməzlər. Ancaq hər halda şəhər camaatını əldə saxlamaq gərəkdir, ona görə də sənin bir neçə kəlmə xoş söz söyləməyin vacibdir.

Vəzir çox dedi, sultan Əhməd az eşitdi. Onların arasındakı mübahisəni Təbriz darvazalarından birinin yanındakı bürcdə mövqe tutmuş qoşunların

minbaşısı ilə yüzbaşısının gəlişi kəsdi. Minbaşı sultanın mühafizə dəstəsi rəisinin ona mane olmaq istəməsinə əhəmiyyət verməyib irəliləyəndə qarşısını sərkərdə əmir Qipcaği gəldi. Minbaşı yüzbaşını göstərib gəlişinin səbəbini söylədikdən sonra Qipcaqi vəzirlə padşaha yaxınlaşıb onlara nəsə dedi. Sultan Əhməd əlinin işarəsilə minbaşı ilə yüzbaşını yarına çağırdı və:

— Nə deyir o elçi?—soruşdu.

Minbaşı yüzbaşını göstərib dedi:

— Yüzbaşı deyir ki, üç atlı ağ bayraqlarla qala darvazalarının qarşısında dayanıblar. Onlar səninlə görüşmək, sultan Şeyx Əlinin sözlərini sənə çatdırmaq istəyirlər.

Sultan Əhməd minbaşıya qışqırdı:

— Sultan Şeyx Əli kimdir? Mən bu adda sultan tanımıram. Hacandan bəri o sultan oldu?

Minbaşı susub başını aşağı dikdi. Vəzir sultan Əhmədin əvəzinə yüzbaşıya dedi:

— Get o elçiləri darvazadan içəri sal və birbaşa saraya apar. Biz də indicə gəlirik.

Vəzir sultan Əhmədin camaata bir neçə kəlmə söz deməkdən qəti boyun qaçırdığını görüb özü danışmalı oldu. Ancaq camaat onu da, verdiyi yağlı vədləri də etinasız qarşıladı, hətta bəziləri ehtiyatla olsa da narazılıq elədi. Padşahın və onun məiyyətinin dayandığı yerdən bir qədər aralıda durmuş papaqçı Məhəmməd yanındakı başmaqçı Məhəmmədə dedi:

— Bir bu tülküyə bax, sən allah, sultan Hüseyni keçi qiymətinə satdı, Şeyx Əli şəhərə girə bilsə, sultan Əhməddən də üz döndərib onun tərəfinə keçəcək. Ancaq gör indi necə canfəşanlıqla dil tökür bizə?

Başmaqçı Məhəmməd laqeydliklə:

— Ay Məhəmməd, bizim üçün nə fərqi, sultan Şeyx Əli olacaq, yoxsa sultan Əhməd. Onların qayəsi birdir — bizi soymaq. Biz özümüzə, arvad-uşağımıza

görə çalışmalıyıq ki, indi şəhərdə olan qoşunu gələn qoşun üstələməsin, cünki təzə gələn qoşun qarətə girişəcək, camaat yenə ayaq altında qalacaq.

Papaqçı Məhəmməd başmaqçı Məhəmmədlə razı olduğunu bildirmək üçün başını tərpətdi, yenə söz söyləmək üçün ağzını doldurdu, lakin padşahın əsabələri ilə birlikdə pillələrə tərəf getdiyini, mühafizə dəstəsinin camaatı itələyə-itələyə onlara yol açdığını görüb danışmadı. O da dağılışmağa başlamış camaata qoşulub öz dükanına tərəf addımladı. Ertəsi gün isə gecəni həyəcan və qorxu içində keçirmiş təbrizlilər, şəhər darvazalarının açılmasını, qoşunların şəhərdən çıxmasını görəndə daha da narahat oldular. Onlar elə zənn etdilər ki, sultan Əhməd şəhəri döyüşsüz qardaşına təslim etmiş və indicə Şeyx Əlinin əsgərləri şəhərə doluşub camaatı soyacaqdır, Ancaq şəhər hasarları ustünə qalxıb qoşunların hərəkətinə tamaşa eləyənlər, onların Təbriz yaxınlığındakı Həft-Rudda səf- səf düzülməsinin şahidi olandan sonra iki qardaşın burada qarşılaşacağını yəqin edib, bir qədər rahatlandılar. Lakin onların bu rahatlığı nisbi idi. Şəhər camaatı Həft-Rud savaşının kimin xeyrinə qurtarmasından asılı olmayaraq qalib qoşunlarının şəhərlilərin evlərinə, malına, canına daraşacağını fikirləşir, qapı-bacanı bərk-bərk bağlayır, hər ehtimala qarşı hazır olmaq üçün tədbirlər görürdü.

Mahmud Ağa ilə Əliabbasın da evlərində bir çaxnaşma hökm sürürdü. Sultan Əhmədin baş məsləhətçisi, sarayda ən nüfuzlu adamlardan biri olmuş Mahmud Ağa hamıdan cox narahat idi. O, naxoş olmasını bəhanə eləyib evdən çıxmamış, saraya getməmişdi. Mahmud Ağa Əhməd padşahın qalib gələcəyinə inanmırdı, ətrafına toplaşmış bəzi əmirlərin, sərkərdələrin onu sevməməsini, fürsət düşən kimi ondan üz döndərəcəyini bilirdi. Sultan Əhməd qardaşı sultan Hüseynin taxtını zəbt etdiyi gündə olduğu kimi, bu gündə Mahmud Ağa çarhovuzun kənarında oturub Əliabbasla dərdləşirdi. Kecən dəfədən fərqli olaraq onlar gecə yarısı deyil, günortadan bir qədər keçmiş söhbətə oturmuşdular. Əliabbasın oğlu Rəşid də onların yanında idi. Kecən yeddi-səkkiz ayın ərzində o daha da kişiləşmiş, bığları çıxmış, sifətində bnr

qətiyyət yaranmışdı. Sultan Əhməd Təbrizdə səfərbərlik kecirəndə onu da əsgər aparmaq istəmişdilər. Ancaq Mahmud Ağa buna mane olmuş, bununla ona hədsiz sadiq olan Əliabbasa yaxşılıq eləmək istəmişdi. O, Əliabbasa demişdi ki, əlbəttə, Rəşidi vətəni yağılardan qorumaqdan ötrü səfərbər etsəydilər, o bu işə qəti mane olmazdı. Hec Rəşidin özü də bu işə razılığını verməzdi, onu zəncirləsəydilər də dayanmazdı. Ancaq bu müharibə, qardaşlar arasında taxt üstündə gedən bir savaş, şərəfsiz müharibə idi. Rəşid bu müharibədə iştirak etmək istəmirdi. Əliabbas üç qızının yeganə qardaşı olan Rəşidi səfərbərlikdən azad etdirə bilmiş Mahmud Ağaya necə minnətdarlıq edəcəyini bilmirdi. Oğlunu orduya aparmaq ücün üç əsgərin evlərinə soxulmasından, Rəşidi aparmalarından, Mahmud Ağanın işə qarışıb Rəşidi azad etdirməsindən bir həftədən çox keçirdi. Əliabbas kişi Mahmud Ağanı ötəri görsə də, onu saraya yola salanda ayaqüstü cəmi bir neçə kəlmə deyə bilmişdi. Bircə bu gün Əliabbas kişi dil-ağız etməyə imkan tapmışdı. Doğrudur, Mahmud Ağa onun sözünü kəsməyə, gördüyü işə belə böyük qiymət verməsinə mane olmağa çalışdı. Ancaq buna müvəffəq olmadı, Əliabbas kişi ürəyindəkiləri deyib qurtarana kimi əl çəkmədi. Mahmud Ağa Rəşidi də oturmağa dəvət etdi və dedi:

— Oğlum, Rəşid, atan da qocalıb, mənim də sabahkı günə etibarım yoxdur. Bir şey olsa, başıma bir iş gəlsə, üç qızıma, qızlarımın anasına hami ola biləcək bir adamım yoxdur, ümidim bircə sənədir.

Rəşid Mahmud Ağanın nagahani dediyi sözlərdən özünü itirdi. O, Mahmud Ağanın böyük qızını gözləri önünə gətirdi, ürəyini çoxdan doldurmuş məhəbbət alovu şöləndi. Xavərin bəzən pəncərədən ona baxmasını, sarışın saçlarını lalə yanaqlarından yığışdıra-yığışdıra ala gözlərini ona zilləməsini, bu gözləri görəndə özünü itirib nəzərlərini ondan çəkə bilməməsini, dünən isə Xavərin pəncərədən ona baxıb gülümsəməsini yad etdi.. Rəşid bir ilə yaxın idi ki, Xavəri sevirdi. Ancaq o bu sevgini ürəyindən çıxarıb atmağa çalışırdı. O fikirləşirdi ki, sarayda yüksək mövqe sahibi olan Mahmud Ağanın qızı hara və əslində onun

nökəri olan Əliabbas kişinin kasıb oğlu Rəşid hara? Mahmua Ağa nə qədər yaxşı adam olsa da, o, saray adamıdır və qızını heç vaxt ona verməyə razı olmaz. Lakin onun bütün cəhdləri boşa çıxırdı. O nəinki Xavərin məhəbbətini ürəyindən çıxara bilirdi, əksinə, gündən-günə daha artıq şölələnən məhəbbət alovunun dilləri onun ürəyini yandırır, qovururdu. İndi Mahmud Ağa bütün ailəsini, o cümlədən Xavəri ona tapşırırdı, demək sevgilisinə qovuşmaq ümidi yaranırdı. Ancaq nəyin bahasına? Mahmud Ağanın başına fəlakət gəlməsi bahasınamı? Yox, o bunu istəmir. Mahmud Ağa gözəl insandır, tanrı onu xata-bəladan uzaq eləsin, — fikirləşdi. Rəşid gözlərini yenə Mahmud Ağanın ağzına dikdi. Əliabbas kişi bir oğluna, bir Mahmud Ağaya baxıb dilləndi:

— Ağa, elə danışdın ki, vallah, bir şey başa düşə bilmədim. Şükr olsun bir olan tanrıya, nə olub ki? İnşallah hər şey qaydasında olacaq. Sultan Əhməd basılsa da, o vəzir ki var ha... onun qardaşı Şeyx Əlinin də ürəyinə yol tapa biləcək. O da ki, sənsiz bir addım da atmaq istəmir.

Mahmud Ağa Əliabbas kişiyə baxıb gülümsündü. Əliabbas kişi Mahmud Ağanın bu təbəssümündə şadlıqdan daha cox kədər gördü. Mahmud Ağa dedi:

— Əliabbas, atalar deyib ki, şər deməsən xeyir gəlməz. Məgər hər vəsiyyət eləyən o saat ölür? Ehtiyat yaxşıdır. Görürsən ki, iki qoşun üz-üzə dayanıb, qan su yerinə axacaq, onlardan biri basılacaq. Ancaq hansı? Bax mənimki bundan asılıdır. Ona görə də ehtiyatlı olmalıyam.

Mahmud Ağa sözünə bir qədər ara verdi, əlini cibinə atıb oradan iki kisə çıxardı. Kisələrdən biri iri, o biri isə nisbətən kiçik idi. O, kisələri Əliabbas kişiyə uzadıb dedi:

— Böyük kisədəki qızıl pullardır, kiçik kisədəki isə ləl- cəvahiratdır. Al bunları saxla, başıma bir iş gəlsə, uşaqlar korluq çəkməsinlər. Sən də mənim kimi qızdan bolsan, üçü mənimki, üçü də səninki.

Əliabbas xeyli mütəəssir oldu:

— Ay ağa, başına dönüm, qoy görək nə olur? Bir də sən hələ keçən il mənə bir kisə qızıl vermisən saxlamağa. O qızılları balaca küpəyə yığıb basdırmışam. Yerini bircə Rəşid bilir, bu günlərdə demişəm.

Hava qaralanda şəhərə səs-küy düşdü, Təbrizə qoşun doluşdu. Rəşid cəld küçəyə yüyürdü və yalnız axşamdan xeyli keçəndən sonra geri döndü. O, atası ilə Mahmud Ağanı yenə əvvəlki yerlərində, çarhovuzun yanında gördü. Onlar nigaranlıqla Rəşidin qayıtmasını gözləyirdilər. Rəşid oturmadan gözlərini ona dikib danışmasını gözləyən atasına və Mahmud Ağaya dedi:

— Hər şeyi öyrənincə cox vaxt keçdi. Həft-Rudda dava olmayıb. Sultan Əhməd qoşunlarının sol cinahına başçılıq etməyi əmir Ömər Qipçaqiyə tapşırıbmış. O, sultan Əhməddən üz döndərib Şeyx Əlinin tərəfinə keçib. Bunu bilən sultan Əhməd o biri əmirlərinə də inanmayıb bir dəstə qoşunla Naxçıvana, qaraqoyunluların başçısı, damadı Qapa Məhəmmədin yanına qaçıb.

Mahmud Ağa cəld soruşdu:

— Bəs vəzir, o da qaçıbmı?

Rəşid başını tərpətdi, Mahmud Ağanın əhvalı dəyişdi. O özünü ələ almağa çalışaraq soruşdu:

— Şeyx Əlinin qoşunları şəhəri talan eləyib?

— Yox, hec kimə əl vurmayıblar. Sultan Şeyx Əli əmr edib ki, şəhər camaatına dəyib-toxunan olmasın.

Mahmud Ağa daha bir söz demədi, ayağa qalxıb yavaş addımlarla evə tərəf getdi. Bu vaxt qapı döyüldü. Mahmud Ağa diksinib ayaq saxladı. O, gözlərini ona dikib müntəzir dayanmış Rəşidə dedi:

— Darvazanı aç, oğlum.

Rəşid darvazanı açdı, içəri bir yüzbaşı və iki silahlı əsgər girdi. Mahmud Ağa yüzbaşını tanıdı, o, əmir Ömər Qipcçaqinin yüzbaşılarından idi. Yüzbaşı Mahmud Ağaya yaxınlaşıb:

— Ağa, sən dustaqsan, bizimlə getməlisən, — dedi.

Artıq pillələrə yaxınlaşmış Mahmud Ağa evə qalxmağı lazım bilmədi, Rəşidlə onun atasına ötəri nəzər salıb yüzbaşının qabağına düşdü, darvazaya sarı getdi.

* * *

Yazın girməsindən iki həftədən cox keçməsinə baxmayaraq Naxçıvanda qış hələ də öz mövqelərini əldən verməmişdi. İki yüz mindən cox əhalisi olan şəhərin, əsasən birmərtəbəli və kürsülü evlərinin damları da küçələri kimi ağ örtük altında idi. Yalnız sənətkarların, bəzzazların, xırda alverçilərin dükanlarının qabağı süpürülub qardan təmizlənmişdi. Bu təmizlənmiş yerlər yuxarıdan baxanda böyük ağ örtük üzərində xırda qara ləkələrə bənzəyirdi. Havanın şaxtalı olmasına baxmayaraq, Naxçıvanın basma naxışlı, qələmkar, dəstərxan-cit süfrələr, ipək parçalar toxuyan, ayaqqabı tikən ustaları, dulusçuları, misgərləri və digər sənət sahiblərn manqallarda közərən kömurün istisi ilə qızdırılan dükanlarında əyləşib işləyir, hərdənbir işdən əl saxlayıb, dükana gəlmiş müştəriləri yola salırdılar. Xırdavat, meyvə-tərəvəz dükanları da açıq idi. Şəhərin mərkəzində, bazarın lap yaxınlığındakı və ondan bir qədər aralıdakı karvansaralarda qalan başqa şəhərlərdən gəlmiş tacirlər də artıq ayaq üstündə idilər. Onların bəziləri gətirdikləri malları satıb, Naxçıvan duzu, yaxud yerli sənətkarların məhsulları ilə yüklənmiş karvanları ilə yola çıxmağa hazırlaşır, digərləri yerli tacirlərlə sövdələşir, üçüncüləri isə şəhərə yenicə gəldiklərindən dəvələrə yüklənmiş yükləri boşaldırdılar. Hələ 1376-cı ildə sultan Hüseynin canişinlərindən olan Müzəffərəddin şah Şuca öz sultanına qarşı çıxıb Təbrizi tutandan sonra sərkərdələrindən biri olan əmir Fərəci iki min qoşunla Naxcıvana göndərmişdi. O vaxtdan şəhərdə əmin-amanlıq idi. Doğrudur, Müzəffərəddin şah Şucanın hakimiyyətinin ömrü uzun olmamış, sultan Hüseyn Təbrizi təzədən tuta bilmiş, sonra isə onu sultan Əhməd ələ keçirmişdi. Lakin baş vermiş bu dəyişikliklər hələlik Naxçıvana toxunmamışdı. Bu, şəhərdə əmin-amanlığın davam etməsinə, canlanmaya, ticarət və

sənətkarlığın rəvac tapmasına şərait yaratmışdı. Buna baxmayaraq, Naxçıvan camaatı ətrafda baş verən hadisələrə biganə qala bilmir, Təbriz taxtı üstündə Cəlayirlər sülaləsindən olan üç qardaşın—sultan Hüseynin, sultan Əhmədin və Şeyx Əlinin bir-biri ilə vuruşması, sultan Əhmədin qardaşı sultan Hüseyni öldürməsi, Şeyx Əlinin sultan Əhmədin üzərinə yürüş etməsi xəbəri onları xeyli narahat edirdi. Onlar Naxçıvanın bu toqquşmalardan kənarda qalmayacağına, qalib hökmdarın onların da şəhərinə əl atacağına şübhə etmirdilər.

Naxçıvan camaatını bir tərəfdən də Qara Məhəmmədin Naxçıvanda hakimiyyəti ələ keçirməyə çalışması və bəzi yerlərdə buna nail ola bilməsi də narahat edirdi. Sədlu soyu Naxçıvanda və onun ətrafındakı torpaqlarda məskunlaşmışdı. Bu qəbilə adını özünün ilk başçısı Sədin adından almışdı. Səllu səyunun yerləşdiyi ərazi isə Səd Çuxuru adlandırılmışdı. Naxçıvan camaatını əslində Qara Məhəmmədin Naxçıvanda hakimiyyətə can atması deyil o, hakimiyyəti ələ kecirəcəyi təqdirdə Cəlayir hökmdarlarının Naxçıvana basqın edə biləcəyi qorxudurdu.

Qorxan gözə çöp düşər deyiblər. Naxçıvanlılar bir yaz səhəri yataqlarından qalxanda sultan Əhmədi kiçik qoşun dəstəsi ila Naxçıvanda gördülər. Şəhərlilərin xoşbaxtlığından o Naxçıvana talan salmağa deyil, damadı Qara Məhəmmədin yanına gəlmişdi.

Qara Məhəmməd qayınatası sultan Əhmədi Naxçıvandan bir qədər aralı, düzənlikdə saldığı düşərgəsində qarşıladı. Təbrizdə və Bağdadda cah-cəlallı saraylarda yaşamağa adət etmiş sultan Əhməd, bayırda günəşin işıq saçmasına baxmayaraq, içərisi alaqaranlıq olan çadıra girəndə yan-yörəsini yaxşı seçə bilmədi. Qara Məhəmməd onun qolundan tutub özü ilə yanaşı qalın kecənin üstündə əyləşdirdi. Qara Məhəmməd qayınatasının hələ dünən axşam Naxçıvan yaxınlığında olduğunu, şəhərdən çox da aralı olmayan kənddə gecələməyini bilsə də, o, padşah qayınatasını qarşılamağı lazım bilməmişdi. Sədlu, Düarlı, Qaramanlı, Alpavut, Cekirli, Ayinli, Hacılı, Ağacəri, Bayramlı soylarını özündə birləşdirən Qaraqoyunlular qəbiləsinə başçılıq eləyən Qara

Məhəmməd sultan Əhmədlə qardaşları arasında hakimiyyət uğrunda gedən vuruşmalardan xəbərdar idi və Şeyx Əlinin Bağdaddan gəlib qardaşını Təbrizdən qovmasını bilirdi. Qara Məhəmməd ondan da xəbərdar idi ki, sultan Əhməd onun yanına kömək istəməyə gəlir və o, qarşısına qoyduğu məqsədə yetməkdən ötrü qayınatasına kömək əli uzatmağa. onu təzədən Təbriz taxtına çıxarmağa hazır idi. Qara Məhəmməd bu yolla gələcəkdə Təbriz taxtını tutmaq, beləliklə bütün Azərbaycanı öz hakimnyyəti altında birləşdirmək istəyirdi. O belə hesab edirdi ki, onun buna hüququ sultan Əhməddən çoxdur, belə ki, Azərbaycan torpaqlarının bir çox yerində Qaraqoyunlu soyları məskunlaşmışdı və o, Qara Məhəmmədi öz başçıları hesab eləyən bu soyların, onların başçılarının köməyilə Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirə bilər.

Qara Məhəmməd, demək olar ki, bütün gecəni cimir almamış, bu barədə fikirləşmiş və Qaraqoyunlu soylarının məskunlaşdığı yerləri, onların başçılarını, onlarla münasibətlərini xəyalından kecirmişdi. O fikirləşirdi ki, əslində Naxçıvan, onun ətrafı, Səd Çuxur onun ixtiyarındadır. Həmədan, onun həndəvərindəki Baharlı qalasında Baharlı soyu, bu qəbilə ilə lan qonşuluqda Alpavut soyu, Gəncə və Bərdə ətrafında yaşayan Qaramanlı soyu. Ərdəbil və onun yaxınlığında Cagirlər soyu, Diyarbəkirdə, Ərzurumda və Anadolunun künçıxarında məskunlaşmış Düharlı, Aynalı və Hacılı soyları, Xoy ətrafında məskən salmış Bayramlı soyu oturduqları torpaqların sahibidirlər, yaxud da həmin yerlərin sahibi ola bilərlər. Belə olan surətdə, bir ucu Qaf dağları, o biri ucu Həmədana, bir ucu Xəzər dənizi, o biri ucu Anadolunun günçıxarına və Diyarbəkrə kimi uzanan bir ərazini ələ keçirib öz dövlətini — Qaraqoyunlular dövlətini yarada bilər. Ancaq Qara Məhəmməd hələ öz fikirlərini soyların başşılarına söyləməmişdi. Bir də o, adlı- sanlı şah nəslindən deyildi. Bilirdi ki, padşah nəslindən olmayan, özünü şah, sultan elan eləyə bilməz, xəlifə onun hökmdarlığını təsdiq eləməz. Bu sonuncu Qara Məhəmmədi cox narahat edirdi. Ancaq o, yuxusuz gecələrin birində bunun da əlacını tapmışdı. O bu çarənn

fikirləşəndən sonra gülümsünmüş və pıçıldamışdı: «Buna bax, sən allah, gör bu qədər sadə olan bir şey məni nə qədər düşünməyə məcbur eləyib. Hər şeyi zor həll edir. Bütün Azərbaycanı, hələ bəlkə İranı da, Anadolunu da tuta bilsəm mənim qabağımda kim dayana bilər ki? Onda sultan Əhmədin qızından olan oğlumu padşah elan eləyə bilmərəm? Niyə bilmirəm ki? Onun damarından mənim qanımla bərabər padşah qızının da qanı axmırmı? Onun qanı, mənim zorum. Kim dura bilər qarşımda? Hec kim. Ancaq hələlik sultan Əhmədə kömək əlimi uzatmalıyam. Hər halda Təbriz taxtında Şeyx Əli deyil, mənim qayınatamın oturması məsləhətdir».

Bütün gecəni xəyal içində keçirib, qəti qərar qəbul etmiş Qara Məhəmməd qayınatasının pişvazına çıxmamaqla sultan Əhmədin ondan asılı olduğunu andırmaq və vaxtı ilə onun padşah nəslindən olmamasına görə sultan Əhmədin qızını ona verməməyə könlü olmadığını yadına salıb, hazırki vəziyyətdə mövqeyinin onunkundan əlverişli olmasını da sultan Əhmədə göstərmək istəmişdi.

...Sultan Əhməd Qara Məhəmmədin onun əlinin öpməməsindən narazı qaldısa da, bunu büruzə vermədi. O, damadının göstərdiyi keçənin üstündə əyləşdi. Qara Məhəmməd də oturdu, çadırına çağırdığı yaxın adamlarına da oturmağa icazə verdi. Qara Məhəmmədin oğlanları onun sağında və solunda əyləşdilər. Sultan Əhməd ona edilən bu hörmətsizliyin də açısını udmalı oldu. Doğrudur, Qara Məhəmmədin çadırında əyləşənlərin hamısı əyanlar və qoşun başçıları idi, ancaq Qara Məhəmməd onlara oturmağı təklif etməmişdən qabaq ondan izn almalıydı.

Çadırdakıların hamısı oturdu. Sultan Əhməd damadından qızını soruşdu, əhval-pürsan tutdu və çadıra sükut çökdü. Sultan Əhməd götür-qoy edir, haradan və nədən başlamağı müəyyənləşdirə bilmirdi. Qara Məhəmməd onun vəziyyətini görürdü, hətta kömək əli də uzatmağa hazır idi. Ancaq o bunu eləyə bilməzdi, ev sahibinin qonaqdan nəyə görə gəldiyini soruşması adət deyildi, bu qəbahət sayılırdı. Qonaq «allah qonağıdır» və düşdüyü evin sahibinin gözləri

üstündə yeri var. Bu adəti uzun illər boyu dədə-babalar qoruyub saxlamışdılar və hec kimin onu pozmağa ixtiyarı yoxdu.

Nəhayət, sultan Əhməd dilləndi:

— Qara Məhəmməd, səni deyib gəlmişəm.

Qara Məhəmməd özünü bilməməzliyə vurdu və dedi:

– Xoş gəlib, səfa gətirmisən, bizə böyük xəcalət vermisən. Bir də öz qızının evidir, haçan istəsən buyura bilərsən. Ancaq sənin sözlərinn ala bilmədim.

Sultan Əhməd Qara Məhəmmədin özünü bilməməzliyə vurmasını hiss etdisə də, ou dəfə də udmalı oldu. O, yarımqaranlıq çadırda oturanların hamısını nəzərdən keçirəndən sonra üzünü yenə damadına çevirdi:

– Bilirsən Şeyx Əli mənim başıma nə oyun açıb?

Qara Məhəmməd çiyinlərini çəkməklə kifayətləndi. Sultan Əhməd hirsləndi. O, hirsini Qara Məhəmmədin üstünə tökə bilməyəcəyini nəzərə alıb əsəblərini cilovlamağa çalışdısa da bir şey çıxmadı. Əsəbi halda dedi:

– O xain, əclaf, bişərəf Ömər Qipcaqi mənə xəyanət eləməsəydi, mən Şeyx Əlini təkbətək döyüşə çağırıb o dünyalıq eləyəcəkdim. ancaq...

Sultan Əhməd artıq danışmağa yol verdiyini başa düşüb sözünü yarımçıq qoydu. Ona yaxşı məlum idi ki, çadırda oturanların hec biri onun qardaşını təkbətək savaşa çağırmaq istəməsinə inanmır. Qara Məhəmməd isə onun sözünü kəsmir, cavab vermir, sultanın hirslənməsindən zövq alır, onu daha da əsəbiləşdirməyə, haldan çıxarmağa çalışırdı:

– Sultan, bir açıq danış, başa düşək, görək nə söyləmək istəyirsən? Ömər Qipçaqi sənin ən yaxın adamlarından, əmirlərindən biridir. O nə eləyib ki?

Taxtda oturmağa adət etdiyindən gecə üstündə bardaş qurub oturmaqdan beli ağrıyan, yerində qurcalanan sultan Əhməd dişlərini bir-birinə kip sıxıb əlindəki xəncərin qızıl qəbzəsindən bərk-bərk yanışdu, yerindən sıçrayıb durmaq istədi, ancaq son anda özünü ələ ala bildisə də səsini dəyişə bilmədi, bağıra- bağıra:

– Qara Məhəmməd, qonağa belə hörmətsizlik eləməzlər. Bir də axı mən, axı mən...

Qara Məhəmməd çox zilə çıxdığını başa düşdü, sultanı sakitləşdirməyə çalışdı:

— Sən nə danışırsan, əlahəzrət. Biz hamımız sənin təbəələrinik. Bizim həddimiz nədir sənə, özü də öz evimidə hörmətsizlik eləyək. Sən olanı açıb demirsən, biz də...

Sultan Əhməd Qara Məhəmmədin sözünü kəsdi:

— Qara Məhəmməd, yenə sözün düzünü söyləmirsən. Sən şeytana da kələk gələ bilərsən.

Qara Məhəmməd dinmədi. Sultan Əhməd yanında əyləşib onunla Qara Məhəmmədin söhbətinə diqqətlə qulaq asan, bir kəlmə də olsun danışmayan vəzirinə baxıb davam etdi:

— Sən hər şeyi bilirsən. Onu da yaxşı bilirsən ki, sənin yanına kömək istəməyə gəlmişəm. İndi açığını söylə, mənə kömək əlini uzada bilərsənmi?

Qara Məhəmməd cavabı birbaşa vermədi:

— Gərək bir necə gün gözləyəsən, mən soy başçıları ilə məsləhətləşməliyəm.

Sultan Əhmədin razılığını bildirməkdən başqa çarəsi qalmadı. O, Naxçıvanda Qara Məhəmmədin ailəsinə məxsus olan evdə yerləşdi. Düz on gündən sonra Qara Məhəmməd qayınatasının yanına gələrək gülə-gülə dedi.

— Soy başçılarının hamısı sənə kömək əli uzatmağa razı oldu. —Sonra susdu, bığlarına sığal verdi, dodaqlarından təbəssüm çəkildi, ciddi görkəm aldı:

—Biz sənin üçün bu xüsusda çalışacağıq və savaşacağıq. Bir şərtlə ki, sən nökərlərinlə və əsgərlərinlə qımıldanmayaraq öz yerində durasan. Şərtimizin biri də budur ki, düşməndən əldə ediləcək qənimət ancaq bizə aid olacaq və sənin əsgərlərinin onda gözləri olmayacaq və ona tamah salmayacaqdır.

Ertəsi gün sultan Əhməd Naxçıvan darvazalarından çıxanda Qara Məhəmmədin beş min nəfərlik qoşununun səfləri ilə rastlaşdı. Qoşun hər biri üç yüz nəfərdən ibarət bölüklərə ayrılmışdı. Hər bölüyün önündə onun başçısı dayanmışdı. Hər bölük otuz manqadan ibarət idi. Hər manqanın başçısı öz manqasının önündə dayanmışdı. Cəmisi on altı bölükdən ibarət olan qoşunun hər dörd bölüyünə bir əmir başçılıq edirdi. Sultan Əhməd onlardan ikisini tanıyırdı — biri Qara Məhəmmədin oğlu Qara Yusif, digəri isə qardaşı oğlu Pir

Həsən idi. Nizə və qalxanlarla silahlanmış on altı bölükdən başqa iki yüz əsgərdən ibarət bir dəstə isə lap arxada düzülmüşdu. Onlar təkcə oxlarla və yayla silahlanmışdılar. Qoşunlara Qara Məhəmmədin özü başçılıq edirdi. Sultan Əhməd qoşunların səflərindən, silahlarından razı qaldısa da, çiyinlərini çəkib dedi:

– Qara Məhəmməd, qoşunun yaxşıdır, ancaq azdır. Şeyx Əli sənin qabağına ən azı on beş min qoşun çıxaracaq. Onun hər üç əsgərinə sənin bir əsgərin düşür.

Qara Məhəmməd qoşun başçılarına irəliləmək əmri verəndən sonra atını tərpətdi, artıq ondan aralanmış sultan Əhmədə yaxınlaşdı və dedi:

– Mənim əsgərlərimin hər biri Şeyx Əlinin əsgərlərinnn onuna cavab verər.

Sultan Əhməd Qara Məhəmmədin cavabından razı qalmadıqını gizlətmədi:

– Düşmənin gücünü qiymətləndirməmək sərkərdəni zinətləndirmir, Qara Məhəmməd.

Qara Məhəmməd sultan Əhmədin bir qədər kobud deyilmiş sözlərindən incimədi. O da bu sözlərin bir həqiqət olmasını yaxşı bilirdn:

– Zarafat eləyirdim, əlahəzrət. Sənin söylədiklərin şübhəsizdir. Ancaq mən öz əsgərlərimə əminəm. Bir də axı Şeyx Əliyə qarşı səninlə birlikdə gedirik. Şübhə eləmirəm ki, bizim sərkərdəlik qabiliyyətimiz onunkundan yaxşıdır. Yaxşı, ağıllı, tədbirli sərkərdə kiçik qoşunuyla yelbeyin sərkərdənin iki-üç qat artıq qoşununu üstələyə bilər.

Sultan Əhməd başını tərpətdi:

—Elədir, düz sözdür. Mən özümü kənara qoyuram, çünki qoşunum yoxdur. Sənin sərkərdəlik bacarığın səni tanıyanların hamısına məlumdur. Ancaq Şeyx Əlinin də yanında əmir Ömər Qipcaqi kimi bacarıqlı sərkərdə var.

Qara Məhəmməd tam ciddiyyətlə:

– Bəli, düz buyurursan. Mən bu barədə fikirləşmişəm. Doğrudur, əmir Ömər Qipcaği bacarıqlı sərkərdədir. Şeyx Əlinin yanında başqa bacarıqlı sərkərdələr də var. Ancaq onlar özləri bildikləri kimi hərəkət eləyə bilməyəcəklər, istədikləri kimn hücuma keçib lazım gələndə geri çəkilə də bilməyəcəklər. Şeyx

Əlinin ağzına baxmalı olacaqlar, onun əmrini gözləyəcəklər. O isə bir sərkərdə kimi cox fərasətsizdir.

Qara Məhəmməd qayınatasına sözlərini deyib qurtarandan sonra atının başını çəkib geri qaldı, qoşun başçılarının biri ilə bərabərləşdi, ona nəsə dedi, atını mahmızladı, sultan Əhmədlə yenə bərabərləşdi, gülə-gülə dedi:

– Düzünü axtarsan, sənin o adı da Şeyx, özü də şeyxə oxşayan qardaşın mollalıq eləsəydi daha yaxşı olardı. Bununla o həm Şeyx adını doğrultmuş olardı, həm də savab yiyəsi olardı, tanrının yanında hörmət-izzət qazanardı.

Sultan Əhməd cavab vermədi. Onlar on gün yanaşı at sürdülər. Bu on gündə sultan Əhməd on kəlmə də danışmadı. Təbrizə bir mənzil qalmış Qara Məhəmməd qoşunlarını əylədi. Onlara dincəlməyə vaxt verdi, irəli kəşfiyyatçılar göndərdi. Kəşfiyyatçılar tez qayıtdılar, onların gətirdiyi xəbər sultan Əhmədin kefini pozdu, Qara Məhəmməd isə gülümsündü və dedi:

– Kəşfiyyatçıların gətirdikləri xəbərdə Şeyxin qoşunlarının sayı barəsində təzə bir söz yoxdur. Hələ Naxçıvandan çıxanda özün söyləmişdin ki, qardaşının on beş minlik qoşunu var. Onların tutduqları mövqe barəsindəki xəbərin isə qiyməti yoxdur. Kəşfiyyatçılara ənam vermək gərəkdir.

Ertəsi gün Qara Məhəmməd qoşunlarını hücuma apardı. O, döyüş meydanına çatan kimi iki yüz nəfərlik oxatanlar dəstəsinin əmirini yanına çağırdı:

– Hücuma birinci sənin dəstən keçəcək. Bütün qoşunlarla bərabər, sağ cinah qoşunlarının döyuş əməliyyatına başçılığı Şeyx Əli öz üzərinə götürüb. Sənin ox atanların qəflətən onun qoşunlarının sağ cinahına soxulmalı, düşmənin üzərinə ox yağışı yağdırıb geriyə, qoşunlarımızın dayandığı yerə sarı qaçmalıdır. Qoşunlarımızın əsas qüvvələrinin yeri düşməndən gizli saxlanılacaq.

Oxatanlar dəstəsinin əmiri «baş üstə» — deyib getdi. Bir neçə dəqiqədən sonra oxatanlar qışqıra-qışqıra düşmən üzərina yüyürdülər, ox mənzilinə çatandan sonra isə ox yağdırıb geriyə qaçdılar. Qara Məhəmmədin qurduğu tələdən xəbəri olmayan Şeyx Əli qaçanları təqib etməyi əmr etdi və tələyə

düşdü. Düşmənin sağ cinahı qısa vaxtda tarmar edildi, Qara Məhəmməd, demək olar ki, heç bir itgiyə yol vermədi, qüvvələrini qoruyub saxlaya bildi. Düşmənin iki mindən çox əsgərinin, başçıları Şeyx Əli ilə birlikdə meyidi döyüş meydanında qaldı. Başçılarının ölümü qoşunların qalanlarının pərən-pərən düşməsinə, dağılmasına gətirib çıxartdı. Sultan Əhməd Təbrizə girdi. Qara Məhəmməd isə əldə edilmiş qəniməti yığışdırıb geri qayıtdı.

* * *

Mahmud Ağanı Şeyx Əlinin adamları aparandan sonra ata ilə oğul — Əliabbasla Rəşid özlərini tamam itirdilər, bir müddət yerlərində donub qaldılar, bir-birilə danışmağa belə taqətləri olmadı, nitqləri batdı. Özünü atasından tez ələ ala bilmiş Rəşid, Mahmud Ağanın evinin işıq gələn pəncərəsinə baxdı. Orada bir dəyişiklik görməyib, Mahmud Ağanın nə arvadının, nə də üç qızının Şeyx Əlinin adamlarının gəlməsindən, atalarının həbs olunmasından duyuq düşmədiyini yəqin etdi. Atasına sarı bir addım atmamışdı ki, arxadan Xavərin:

— Ağa, ay ağa, haradasan? — səsini eşidib dayandı, geriyə qanrıldı, Xavəri eyvanda durub ətrafa boylanan gördü Eyvan qaranlıq idi, ancaq ki. pəncərdən düşən işıq Xavəri görməyə imkan verirdi. Onun sarışın saçları, hava bir qədər soyuq olduğundan çiyninə saldığı örpəyin üstünə dağılmışdı. Xavərin hərəkətlərindo heç bir qeyri-adilik hiss olunmurdu. O bir də atasını səslədi:

— Ağa, haradasan, sənə soyutdursa çiyninə salmağa bir şey gətirim?

Şeyx Əlinin adamları Mahmud Ağanı aparanda Rəşidlə atası onun ardınca darvazaya sarı getdiklərindən, evdən düşən işıqla az da olsa işıqlanan çarhovuzun yanından aralanmışdılar, ona görə də Xəvər onları görmürdü. Xanər atasını ikinci dəfə səsləyəndən sonra Rəşid atasına yaxınlaşıb pıçıldadı:

– Ata, necə eləyək? Axı qız nigarandır atasından. Gedib qəzavü-qədərdən onu xəbərdar edimmi?

Rəşid sevgilisini onsuz da yaxından çox görməmişdi. Son bir il ərzində, Xavər artıq yetkin qız olandan sonra Rəşid onunla heç bir kəlmə də olsun danışmamışdı, danışa bilməmişdi, buna cürəti çatmamışdı, Rəşid onunla Xavər arasında keçilməz uçurum olduğunu anlasa da, izdivacın baş tuta biləcəyini möcüzə saysa da, Xavərin də onu sevib-sevmədiyini, məhəbbətinin qarşılıqlı olub-olmadığını da bilmək istəyirdi. Doğrudur, Xavər bir-iki dəfə ona tərəf baxmışdı, elə bu gün də pəncərədən boylanıb gülümsünmüşdü. Bu təbəssümlər, əlbəttə, Rəşidin qəlbini isitmişdi, ancaq o bunu qarşılıqlı məhəbbətin təcəssümü kimi qəbul etməmişdi. Nədənsə Rəşidin beyninə belə bir fikir hakim kəsilmişdi ki, ağa qızı, saray adamının qızı rəiyyət oğlunu, kasıb bir şəhərlinin oğlunu sevə bilməz, sevməz. Rəşid bütün bunları beynində götür-qoy edə-edə Xəvərdən uzaq gəzməyə çalışsa da, onunla görüşməyə kiçik bir imkan düşən kimi, onu əldən verməməyə çalışırdı. İndi belə bir fürsət ələ düşmüşdü, özü də elə bir fürsət ki, o, təkcə onu yaxından görmək deyil, danışdıra da bilərdi. Lakin atasının:

– Sən dayan, onunla mən özüm danışaram, başa salaram, — deməsi Rəşidin uçmaq üçün gərilmiş qanadını qırıb yanına saldı. Əliabbas kişi cavan oğlunun atası həbs edilmiş naməhrəm yetgin qızla görüşüb danışmasını istəmədi, o bunu el adətinə xor baxmaq kimi qiymətləndirdi və eyvana sarı addımladı. Xavər Əliabbas kişini görüb pillələrin başına gəldi və:

— Əliabbas əmi, ağam haradadır, səsləyirəm, cavab vermir. Qorxuram ona soyuq dəyə, — dedi.

Əliabbas kişi bir anlığa dayanıb, baş vermiş hadisəni Mahmud Ağanın qızına necə söyləməyi fikirləşdi. Əliabbas kişidən səs çıxmadığını görən Xavər özü iki pillə aşaği düşdü və:

– Əliabbas əmi, niyə dinmirsən? Ağam bir az əvvəl səninlə çarhovuzun yanında oturub söhbətləşirdi. Bəs o necə oldu, haraya getdi? — soruşdu.

Rəşid özünü saxlaya bilməyib atasının yanına gəldi və gözlərini pəncərədən süzülən işıqda yaxşı görünən Xavərin üzünü dikdi. Əliabbas kişi oğlunun onun yanına gəlməsindən, gözlərini Mahmud Ağanın qızına dikməsindən narazı qaldısa da dinmədi. O, oğlunun Xavərə vurulmasından xəbərsiz idi. Rəşidi görmüş Xavərin sifətində yalnız sevgilisinin gözə biləcəyi dəyişiklik əmələ gəldi, onun baxışları dəyişdi, Bu baxışlar Rəşidin ürəyinə, bütün varlığına sanki nur ələdi. Əliabbas kişi yenə nəzərlərini Xavərə çevirdi və tərəddüd etmədən dedi:

– Qızım, qorxma, elə bir şey yoxdur.

Xavər Əliabbas kişinin sözlərindən diksindi. Gah Rəşidə, gah da Əliabbas kişiyə baxdı, nəhayət, həyəcanla:

– Əliabbas əmi, nədən qorxmalıyam ki, yoxsa ağamın başına bir iş gəlib? — soruşdu.

Əliabbas kişi qaş qayırdıqı yerdə vurub gözü də çıxartdığını başa düşdü:

– Yox, qızım, qorxma, nə ola bilər ki, bir az əvvəl onu padşah adamları apardılar.

Sarayda baş vermiş hadisələrdən xəbəri olmayan Xavər sakitləşdi. Gülə-gülə dedi:

– Ay Əliabbas əmi, elə hey qorxma, qorxma deyib məni yamanca qorxuzdun. Gedib, gedib də... həmişə getdiyi saray deyil? Ancaq o belə hallarda bizi həmişə xəbərdar eləyirdi. Bir də axı çiyninə bir şey salmalı idi, hava soyuqlaşıb.

Əliabbas kişi qıza evdəkiləri narahat etməmək üçün əsl həqiqəti indi deməməyi, bunu sabaha saxlamağı lazım bildi:

– Hə, qızım, get yat, gecdir. Biz də gedək.

Xavər oğrun-oğrun Rəşidə baxdı, düşdüyü iki pilləni yenidən qalxdı, eyvanda bir anlığa dayandı, evə sarı gedib, qapını açdı, kandarda durub üzünü yenə Rəşidlə atasına çevirdi, gülümsündü və soruşdu:

– Əliabbas əmi, bəs demədi ki, haçan gələcək?

Açıq ev qapısından düşən işıqda sərv boylu, sarışın saçlı, ağ bənizli, ala gözlü Xavər daha da cazibədar görünürdü. O, sualını Əliabbas kişiyə verdisə də, nəzərlərini Rəşiddən çəkmədi. Qızın qualına cavab axtaran Əliabbas kişi başını aşağı dikdiyindən Xavərnn baxışlarının hara tuşlandığını görmürdü. Nəhayət, o, başını qaldırdı və dedi:

—Qızım, bizə bir söz demədi. Çox güman ki, sarayda gecələyəcək.

Xavər Əliabbas kişinin gözlərini yenə yerə dikdiyini görüb Rəşidə gülümsündü, içəri girib qapını örtdü. Eyvana qaranlıq çökdü. Əliabbas kişi Rəşidə:

— Oğlum, darvazanı daldan vur, gedək yataq, görək başımıza sabah nə gələcək.

Dan yeri sökülәndən bir az sonra Əliabbas kişi qapının döyülməsinə oyandı, cəld yatağından qalxıb geyindi. O bilirdi ki, həyət darvazası bağlıdır və bu vaxt onun qapısını yalnız Mahmud Ağanın arvadı, yaxud qızı döyə bilər. Əliabbas kişi səhv etməmişdi, qapını açanda qarşısında Mahmud Ağanın arvadını gördü. Əliabbas bu qadını dəfələrlə görmüşdü, həyətlərində qarşılaşmışdı, lakin heç vaxt onunla belə yaxın, üz-üzə dayanmamışdı. Həcər xanım hər dəfə onunla rastlaşanda olduğu kimi baş yaylığının kənarını qaldırıb üzünü gizlətməyə çalışırdı. İndi aydın görünürdü ki, o, çox narahatdır:

— Əliabbas qardaş, uşaqların atası bu vaxta kimi sarayda gecələməyib. Xavər axşam dedi ki, sən onun sarayda gecələyəcəyini söyləmisən. Heç bilmirəm bu nə olan işdir?

Əliabbas kişi evdən bayıra çıxıb qapını örtdü və yavaşdan dedi:

— Bacım, sarayda indi sultan Əhməd yoxdur, o, Naxçıvana qaçıb. Mahmud Ağanı dünən axşam təzə sultanın adamları apardılar.

Həcər xanım ağlamağa başladı. Onun yaylığının ucu əlindən sürüşdü. Əliabbas kişi onun ala gözlərindən yaş damlalarının gözəl, hələ cavanlıq

təravətini qoruyub saxlamış sifəti boyu yuvarlandığını gördü. O, ağlaya-ağlaya:

– Əliabbas qardaş, bəs necə olacaq? Onu haraya apardılar? Ürəyimə dammışdı, bütün gecəni cimir almamışam.

Əliabbas kişi Həcər xanıma təskinlik verməyə çalışdı:

– Narahat olma, bacım, allah kərimdir. Tanrı dadımıza yetişsin. Qoy bir az keçsin, səhər açılsın, gedib öyrənməyə çalışaram. Görək hara aparıblar?

Həcər xanım dönüb getmək istəyəndə Əliabbas yenə dilləndi:

– Bacım, uşaqlara hələlik bir söz demə, söylə ki, padşahın tapşırığı ilə başqa şəhərə gedib.

Həcər xanım başını tərpətdi. O, ağlamaqda davam edirdi. Əliabbas kişi onun:

– Uşaqlarım başsız qaldılar, — pıçıltısını eşidib kövrəldi.

Əliabbas kişi evə qayıtmadı, çarhovuzun yanına gəldi, dəstəmaz aldı, eyvana çıxıb namaza durdu. O, namazını bitirəndə Xavərin yaşıdı olan böyük qızı həyətə çıxdı. Onlar bir yerdə mal-qaranı rahatladılar. Bir qədər keçəndən sonra isə bütün ev əhli artıq ayaq üstündə idi — Rəşid də ,onun iki bacısı da, anası da, Mahmud Ağanın qızları Xavər də, onun özündən kiçik iki bacısı da. Həcər xanım isə onlardan da qabaq. O, Əliabbas kişiyə verdiyi vədə əməl etmiş, qızlarına bir söz deməmiş, özünü də ələ ala bilmişdi.

Əliabbas kişi səhər yeməyindən sonra şəhərə çıxdı, saraya getmək istədi, ancaq mənzilə xeyli qalmış onu silahlı əsgərlər qarşılayıb geri qaytardılar. O, bazara tərəf döndü. Əliabbas kişi bilirdi ki, şəhərdə baş vermiş bütün hadisələr barəsində bazarda məlumat toplamaq mümkündür. Həqiqətən də elə oldu. Başmaqçı dostunun dükanına gələn kimi usta soruşdu:

—Əliabbas, deyirlər sənin ağanı da aparıblar, elədir?

Əliabbas kişi köksünü ötürdü, dostunun yanındakı boş kürsüdə oturub başını tərpətdi və dedi:

– Elədir, gecə gəlib apardılar.

— Deyirlər bu gecə çox adamı dustaq eləyiblər.

— Bilmirsən, dustaqları harada saxlayırlar?

— Bilmirəm. Bircə onu bilirəm ki, tutulanların heç birinin burnu da qanamayıb. Deyirlər sultan Şeyx Əli onlara qardaşının sultanlığı zamanında gördüklərn işlərlə məşğul olmağı təklif eləyəcək.

Başmaqçı işləyə-işləyə danışır, hərdənbir Əliabbasa baxırdı. Dostunun cavab vermədiyini görüb davam etdi:

— Onlardan ötrü nə fərqi varmış? Olmasın sultan Əhməd, olsun sultan Şeyx Əli.

Əliabbas kişi yenə dinmədi, ancaq xeyli yüngülləşdi. Mahmud Ağanın sultan Şeyx Əliyə qulluq eləyib-eləməyəcəyini bilməsə də, ona elə gəldi ki, ağasının başı üstündəki duman bir o qədər də qatı deyil. Başmaqçı isə elə hey doğrayıb tökürdü:

— İnsafən sultan Şeyx Əlinin əsgərləri camaatı soymadı. Görürsən, hamı öz dükanını açıb, əli işdədir. Demək arxayınçılıqdır. Ancaq onu da deyirlər ki, sultan Əhməd Naxçıvana, damadı Qara Məhəmmədin yanına gedib ki, ondan kömək istəsin. Bilirsən ki, Qara Məhəmməa zor adamdır, əgər o, qayınatasına kömək əli uzatmağa razı olsa, yenə bizim şəhərimizdə qırğın düşə bilər.

Əliabbas başmaqçıdan cox şey öyrəndi, onunla xudahafizləşib, bazarda gəzişəndə sarayda qoruqculuq elayən bir tanışı ilə rastlaşdı, çox sevindi:

— Nə yaxşı oldu sənə ürcah düşdüm, ə... bilmirsən Mahmud Ağanı hansı dustaqxanaya salıblar?

Qoruqcu Əliabbas kişini bir kənara çəkdi: .

— Ay kişi, bir yavaşdan danışsana, bilmirsən ki, bu dər-divar da sultana casusluq eləyir? — dedi, ətrafa boylanıb davam etdi, — Mahmud Ağa sarayın zirzəmisindədir. İşdir, əgər sultan Şeyx Əliyə də məsləhətçi olmağa razılıq verməsə işi lap qüllabi olacaq. Deyirlər, sultan Şeyx Əli bir necə günlüyə Bağdada gedir. O qayıdıb gələnə qədər dustaqlara dəyib-dolaşan olmayacaq.

Əliabbas kişi qoruqçu ilə söhbətindən sonra lap sakitləşdi, ondan ayrılıb evə tələsdi. O, Mahmud Ağadan Qara Məhəmməd, Qaraqoyunlular barəsində eşitmişdi. Hətta Mahmud Ağa ona demişdi ki, bir vaxt gələcək Qaraqoyunlular bütün Azərbaycanı Təbriz qarışıq tutub öz dövlətlərini yaradacaqlar. Onda əmin-amanlıq yaranacaq, camaata da nisbətən yaxşı olacaq, çünki Qaraqoyunlular da bizlərdəndi. Əliabbas kişiyə elə gəldi ki, Qara Məhəmməd qayınatası sultan Əhmədə mütləq kömək edəcəkdir. O buna əmin idi, ancaq nə qədər fikirləşdisə, bu əminliyin səbəbini özünə agah eləyə bilmədi. Əliabbas həyət darvazasından içəri girən kimi Həcər xanımı çağırdı, eşitdiklərini ona danışdı və sözlərini tez qurtarmağa tələsdi:

— Yəqin ki, sultan Şeyx Əli səfərdən qayıdıb dustaqlarla məşğul olmağa vaxt tapana kimi sultan Əhmədlə Qara Məhəmmədin qoşunları özlərini Təbrizə yetirəcəklər...

Həcər xanımla Əliabbas kişi arasındakı bu söhbətdən heç iyirmi gün keçməmişdi ki, bir səhər Təbriz camaatı yenə həft-Rudda iki qoşunun rastlaşmasının, sultan Əhmədin şəhərə girməsinin şahidi oldu. Həmin günün axşamı Mahmud Ağa evə qayıtdı. Mahmud Ağa bu münasibətlə böyük ziyafət düzəldib Əliabbas kişini bütün ailəsilə birlikdə qonaq etdi. Əliabbas kişi, onun ailə üzvləri uzun müddət bir həyətdə yaşamalarına baxmayaraq, Mahmud Ağanın süfrəsinin ətrafında birinci dəfə əyləşirdilər. Ev sahibləri o qədər şad-xürrəm idilər ki, Əliabbas kişiyə, onun ailə üzvlərinə o qədər hörmət göstərdilər ki, kənardan baxana elə gələ bilərdi ki, ev sahibləri xidmətçidirlər və ağalarına xidmət göstərirlər. Xavər xüsusilə şad idi. Rəşidin isə təkcə qanadları çatmırdı, Ancaq o öz hisslərini cilovlamağa çalışır, atasından, xüsusən qonağı olduğu Mahmud Ağadan çəkinirdi. Qonaq olduğu evin qadın-qızını ancaq ana-bacı hesab eləməkdən qeyri fikir eləmək, ev sahibini ən ağır təhqirə məruz qoymaq hesab edilirdi. Belə təhqirə yol verənin isə bircə cəzası var idi — ölüm. Rəşid, Xavərin həddən ziyadə şad olmasını atasının sağ-salamat qayıtması ilə bağlayırdı, o, Xavərin ona baxan gözlərini heç vaxt

belə yaxından görməmişdi və o bu baxışlarda nəsə başqa bir sevinc də görürdü. Məgər Xavərin gözləri öz qəlbinin güzgüsü deyildimi? Rəşidə elə gəlirdi ki, o bu gözlərdə öz əksini, Xavərin qəlbində yaşadıb gözlərinə köçürdüyü əksini görür. Getdikcə Rəşiddə Xavərin ona biganə olmadığına bir əminlik yarandı. Axı onun baxışlarındakı sevinc adi sevinc deyildi. Rəşid bu baxışlarda sevinclə bahəm məhəbbət, yalvarış da görürdü. Rəşid də sevgilisinə həmin baxışlarla cavab verməkistərdi. Ancaq heyf ki, bu mümkün deyildi.

Rəşid başıaşağı oturmuş, gözlərini süfrəyə dikmiş, hərdənbir baxışlarını onunla yanaşı oturmuş atasına və Mahmud Ağaya qaldırır, Xavərin nəzərlərini isə gözlərinin kənarı ilə çəpəkn baxmaqla tuta bilirdi. Mahmud Ağa ilə Əliabbas kişi öz aralarında dil-boğaza qoymadan danışdıqlarından, yalnız bir-birini görür, ətrafda baş verənlərdən xəbərsiz idilər. Ancaq necə oldusa, birdən Mahmud Ağanın nəzərləri qızına sataşdı və onun Rəşidə tuşlanmış oğrun baxışlarını tutdu. Bunu Həcər xanım da gördü. Bundan sonra Mahmud Ağa məclisə olan marağını tamam itirdi. Əliabbas kişi Mahmud Ağanın əhvalının dəyişməsini gördü, odur ki:

—Daha bəsdir, biz gedək, — deyib qalxdı. hamı durdu, xudahafizləşdi. Rəşid otaqdan çıxarkən qızının üzünə çökən təəssüf kölgəsi də Mahmud Ağanın nəzərindən qaçmadı.

* * *

1385-ci ilin dekabr ayının son günləri idi. Adətən bu vaxtlar ağ dona bürünən şəhərə bir zərrə də olsun qar düşməmişdi. Buna baxmayaraq soyuq idi. Gah həzin, gah da şiddətlə əsən külək qorxu və intizar içində olub gecələr cimir ala bilməyən təbrizlilərin evlərinin qapı-pəncərələrini döyür, onları daha da səksəkəli edirdi. Səhərin müjdəcisi xoruzların banından xeyli keçməsinə baxmayaraq, küçələrdə məscidlərə tələsən mömin müsəlmanlara da tək-tük rast gəlmək olurdu. Artıq bir həftəyə yaxın idi ki, Qızıl Orda hökmdarı Toxtamış

xanın Şirvan torpaqlarının dəniz sahili boyu şəhər və kəndlərini talan edib Təbrizə üz qoyması xəbərini almış sənətkarlar nə dükanlarına, emalatxanalarına gedir, nə də onları, açmağa tələsirdilər. Səhər işıqlanar - işıqlanmaz, Təbrizin bütün darvazaları taybatay açılan kimi ətraf kənd və şəhərlərdən öz matahlarını satmağa gələnlərin sayı o qədər azalmışdı ki, çox vaxt bazarlar tamam boş olurdu. Təbrizə gələn əcnəbi tacirlərnn də ayaqları kəsilmişdi. Şəhərin Rey, Qala, Səncəran, Şirvan, Tağ, Nərmiyan, Rum, İraq və başqa darvazaları axşam qaranlığı düşməsinə xeyli qalmış möhkəm bağlanır, darvazaların yanındakı bürclərdə gözətcilər mövqe tutaraq keşik çəkirdilər.

Təbriz hasarları sonuncu dəfə Qazan xanın dövründə bərpa edildikdən sonra şəhər xeyli böyümüş, hasarlardan kənara çıxmışdı. İndi buralarda xeyli adam yaşayırdı və Toxtamışın şimaldan cənuba yürüşü müdafiə sığnağı olmayan bu camaatı daha çox narahat edirdi.

Təbriz camaatının belə narahat günlərindən birində adətə görə səhər tezdən saraya getməyə hazırlaşan Mahmud Ağa həyətə düşəndə hər gün olduğu kimi Əliabbas kişini çarhovuzun kənarında dəstəmaz alan görmədi. O buna əhəmiyyət vermədi, dəstəmaz alıb geri qayıdaraq evə girdi, namaza durdu. O, namaz qıla-qıla nəzərlərini çarhovuzda çəkmədi, namazını bir dəfə də ötürməyən Əliabbas kişinin dəstəmaz almağa çıxmaması onun diqqətini cəlb etdi, xeyli narahat oldu. O geyinib həyətə düşəndə Rəşidlə rastlaşdı. Onun üz-gözündən aydın görünürdü ki, gecəni narahat yatıb. Rəşid Mahmud Ağa ilə salamlaşıb dedi:

—Atam bu gecəni sübhə kimi cimir almayıb, səhərə kimi capalayıb, onu bərk sancı tutmuşdu. Bir az olar ki, sakitləşib yatıb.

Mahmud Ağa bir az fikirləşəndən sonra dedi:

— Bəlkə yeməyini qarışdırıb?

— Nə deyim vallah, şəhri-Rəşiddən qonağımız gəlmişdi, ayın-oyun gətirmişdi. Onunla xeyli oturdular, söhbətləşdilər, yatmağa gedəndə başladı nə başladı.

Mahmud Ağanı şəhri-Rəşiddən adam kəlməsi xəbəri sevindirdi:

– Rəşid, oğlum, atana deyəcəkdim, ancaq indi onu narahat eləmək olmaz. Ya qonağınız gedəndə ona tapşır, ya da özün get onunla, şəhri-Rəşidin və Qazaniyyənin kələntərlərinə çatdırın ki, bu gün günortadan sonra saraya gəlsinlər, vəzirin yanına.

Rəşid iki ildən bəri, dustaqxanadan çıxdığı vaxt şənlik keçirdikləri gecədən sonra hər dəfə onunla rastlaşanda qaş- qabaq tökən, bir dəfə də olsun onunla danışmayan Mahmud Ağanın indi belə mehribanlıq göstərməsinə sevindi və cəld dedi:

– Ağa, istəyirsən lap indicə gedim. Qonağımız təzəcə yuxuya gedib, gec durar.

— İndi şəhər darvazaları bağlıdır, bir azdan gedərsən.

– Baş üstə.

Mahmud Ağa əlini onun çiyninə qoyub gülümsündü:

– Maşallah, lap kişi olmusan, — dedi və dönüb getdi.

Rəşid çarhovuzun yanına gəldi. Onun məqsədi dəstəmaz alıb namaz qılmaq idi. Lakin o, əl-üzünə su vurandan sonra namaz qılmaq fikrindən daşındı. Rəşid dindar deyildi və çox vaxt namazı atasının üzünə qılırdı. Mahmud Ağa ilə danışandan sonra xəyalı həmişəkindən daha çox sevgilisi Xavərin yanında cövlan etməyə başladı. Mahmud Ağanın əlini çiyninə qoyması, mehribanlıq göstərməsi onu ürəkləndirmişdi.

Ziyafət gecəsindən sonra Rəşid uzun müddət Xavəri nə görə bildi, nə də görməyə səy göstərdi. Mahmud Ağanın o gecə birdən-birə dəyişməsinin səbəbini başa düşmüşdü və bu onu ruhdan salmışdı. İçində bir boşluq əmələ gəlmişdi. Rəşid Mahmud Ağanın evindən çıxdıqdan sonra çox fikirləşdi, yatağa girəndən sonra da rahat olmadı: «Onsuz da bilirdim ki, Mahmud Ağa qızını heç vaxt mənə verməz. Bircə onu öyrəndim ki, mənim məhəbbətim birtərəfli deyildi, Xavərin də mənə meyli var. Bu gün, bu axşam hər şey məlum oldu. Sevgilimin baxışlarından məhəbbət süzülürdü. Ancaq... ancaq nə olsun ki, əsas

atasıdır. O isə hələ ortada bir şey olmaya-olmaya belə dəyişdi. Ona sözmü demək olar? Atam da bu işə yaxşı baxmır, əslində yaxşı baxsa da əlindən nə gələr ki? O cürət edib heç Mahmud Ağaya dəxil də düşməz». Rəşid bütün gecəni yatağında fırlandı, cimir ala bilmədi. Rəşid həmin gecədən bir neçə gün sonra atasının ona dediklərini yadına qaldı: «Ay oğul, maşallah, dağ boyda igid olmusan. Heç bəylərin, xanların, ağaların çoxunun sənin kimi oğlanları yoxdur. Onlardan birinin oğlu olsaydı, sənin üzünə lap padşah evlərinin də qapıları açıq olardı. Ancaq nə eləyək ki, sən rəiyyətsən, rəiyyət oğlusan, necə olursan ol, sənin ağa qapısına göz dikməyə haqqın yoxdur. Ağa səninlə yaxın da ola bilər, lap dostluq da eləyər, ancaq qohum olmaz, olmaq istəməz. Bu onun ağalıq şəninə sığışmaz».

Onda Rəşid atasına bir söz deməmiş, başını qaldırıb onun üzünə də baxmamışdı. Qərara gəlmişdi ki, necə olursa-olsun Xavərin məhəbbətini ürəyindən çıxarmalıdır. Lakin günlər keçdikcə Rəşid hiss etdi ki, bu mümkün deyildir, o, Xavərin məhəbbətini sinəsindən yalnız ürəyi ilə birlikdə çıxarıb ata bilər. Bununla belə Rəşid Xavəri görməyə, onun gözlərinə görünməməyə çalışdı, bir müddət buna nail ola bildi də. Ancaq o yaz səhəri...

Rəşidi birdən titrəmə tutdu. O, çarhovuzun kənarında xəyala daldığını unudub əlini yana atanda suya toxundu, diksindi, başını həyətə sarı, bayaq Mahmud Ağanın girdiyi qapıya sarı çevirdi, yenə xəyal onu qanadlarına aldı.

...Nə gözəl səhər idi o yaz səhəri. Mahmud Ağa harasa səfərə getmişdi, atası da evdə yox idi. O, çarhovuzun yanına gəlib əl- üzünə su çırpmağa macal tapmamış pillələrdən gələn ayaq səslərini eşidib geri qanrıldı, Xavəri görüb özünü itirdi. Elə vəziyyətə düşdü ki, az qaldı yıxılsın. İçinə haray düşdü, ürəyi elə çırpınmağa başladı ki, az qaldı sinəsindən bayıra çıxsın. Xavər gülə-gülə ona yaxınlaşıb nəsə dedi. Rəşid onun səsini eşitdi. Ona elə gəldi ki, ən çox sevdiyi, saatlarla dinləməyə hazır olduğu qonşusu Qulunun oxuduğu «Bayatı kürd» muğamının sədalarından da zərif, qəlblərə alov salan bir səs eşitdi, ancaq mahiyyətini ala bilmədi. Xavər onun bu halını görür, bunun səbəbini

başa düşür, gülümsünməkdə davam edirdi. Rəşid isə özünə gələ bilmirdi. Bircə gözlərindən yaşın axıb sinəsinə damdığını hiss etdi. Xavər isə hey gülür, nəsə deyirdi. O, Rəşidin göz yaşlarını görcək yaxın dayanmasına baxmayaraq, bir addım da irəlilədi, onun gözlərinin kənarlarında yumrulanmış yaş damlalarını əlinin kəfəsi ilə silə-silə pıçıldadı:

— Ağla, mən çox ağlamışam, lap çox. Sən isə səsimi eşitməmisən, gözlərimdən axan yaşı da görməmisən. Ağla. Elə bilirdim ki, sənə, sənin kimi pəhləvan oğlana ağlamaq yaraşmaz, görürəm səhv eləmişəm, sənə ağlamaq yaraşır.

Sevgilisinin pıçıltı ilə dediyi sözlərdən, nəfəsinin istisindən məst olmağa başlamış Rəşid, nəhayət, özünü əl ala bildi;

—Bu doğrudanmı sənsən, yoxsa mən yuxu görürəm? Düzü, bunu yuxumda da görsəydim inanmazdım.

Xavər gülümsünməkdə davam edirdi. Onun həsrətli baxışları dəniz kimi dalğalanırdı:

– Niyə, əzizim, bilmirdinmi ki, yer üzündə mənim üçün səndən əziz bir varlıq yoxdur?

Rəşid cavab üçün söz tapmadı. Xavər davam etdi:

– Haradan biləsən? Axı bir dəfə də olsun mənə yaxınlaşmamısan, yaxınlaşmağa cürət eləməmisən. Axırı məni məcbur elədin ki, yaxınlaşım sənə.

Rəşid onları kiminsə görə biləcəyindən ehtiyat edib ətrafa göz gəzdirdi. O, Mahmud Ağanın başqa şəhərə getməyindən xəbərsiz olduğu üçün onun gəlib çıxa biləcəyindən ehtiyat edirdi. Xavər Rəşidin narahatlığının səbəbini başa düşdü:

– Qorxma, ağam evdə deyil, anamdan da ki, ehtiyat eləmək gərək deyil. Mən ürəyimi ona açmışam, o səni çox xoşlayır.

Rəşid Xavərin anası Həcər xanımın varlı ailədən olmamasını, Təbrizin Qazaniyyə məhəlləsində yaşayan bir sənətkarın qızı olduğunu, Mahmud Ağanın onu görüb xoşlamasını, sonra evlənməsini bilirdi. Rəşnd, qızının rəiyyət oğlunu

sevməsinə Həcər xanımın əngəl olmayacağına sevindisə də, bunun bir elə əhəmiyət kəsb etmədiyini də fikirləşdi. Kimdir arvad ağzına baxan? Nəinki rəiyyətlərin, ağaların da evlərində söz kişilərindir, onlar həll edirlər hər şeyi. Bununla belə Rəşid onu da bilirdi ki, illərin keçməsinə, Hhəcər xanımın uç qız anası olmasına baxmayaraq o, öz gözəlliyini qoruyub saxlaya bilmişdir və Mahmud Ağanın ona bəslədiyi məhəbbətin alovu hələ də şöləl期ənməkdədir. Demək, o, ərinə təsir göstərə bilər. Bu ümid qığılcımı Rəşidin ürəyində yenicə közərməyə başlamışdı ki, Xavər dilləndi:

— Anam deyir ki, o, ağamla danışacaq, imkan düşən kimi, saatın xoş çağında danışacaq.

Xavərlə Rəşid çarhovuzun yanında xeyli oturdular. Onların sevincinin hüdudu yox idi. Ancaq bu görüş bir daha təkrar olunmadı. Rəşid nə qədər vurnuxdusa da, Xavəri yalnız uzaqdan görə bildi və ona elə gəldi ki, sevgilisinin ala gözləri ona baxanda həmişə nəmli olur. Xavərlə görüşdən bir necə gün sonra atası Rəşidə dedi ki, bir neçə müddət Rəşidəddin şəhərciyində qohumlarının evində qalsın. Rəşid bunun səbəbini atasından soruşdu, ancaq o, cavab əvəzinə əllərini yellətməklə kifayətləndi. Atasının bir sözünü iki eləməyən Rəşid altı aydan artıq şəhri-Rəşiddə qaldı, payızın ortalarına kimi. Payızın sonlarında bacılarından böyüyü, Xavərlə yaşıd bacısı ərə gedəndə Rəşid toya gəldn va atası bir daha onu qohumlarının evinə qaytarmadı.

Artıq üç aydan çox idi ki, o, evlərinə qayıtmışdı, lakin bu müddət ərzində Xavərini bir neçə dəfə ötəri, pəncərədən görə bilmişdi. Birinci iki ayda Rəşid uzaqdan-uzağa da olsa Xavərin gözlərinin daim kədərli olduğunu hiss edirdi. Son vaxtlar isə Rəşid onu pəncərədən daha tez-tez görürdü, indi bu gözlərdəki kədər kölkəsi sevinc işartıları ilə əvəz olunmuşdu. Rəşid bu gözlərdə tez-tez ümid qığılcımlarInın parladığını da görürdü. O, bütün bunları yaxşı əlamət kimi qəbul etsə də, qəti fikir hasil eləyə bilmirdi. Bu gün Mahmud Ağanın əlini çiyninə qoyub nəvaziş göstərməsi onda əvvəlcə adi sevincə səbəb olmuşdu. İndi, çarhovuzun kənarında oturub dərin xəyala getdiyi halda o,

birdən gülümsündü və pıçıldadı: «Necə olub ki, bu adi bir şeyi başa düşə bilməmişəm? Yəqin ki, Xavərin eyninin açılması ilə bu nəvaziş arasında bağlılıq var. Ancaq nə?». Rəşid öz-özünə bu sualı verəndə xəyaldan ayıldı, onda ani bir yüngüllük əmələ gəldi, çarhovuzun yanınaa oturduğu yerdən durdu və Mahmud Ağanın tapşırığını yerinə yetirməkdən ötrü qapıya sarı getdi.

Rəşid əvvəlcə Qazaniyyəyə getməyi qərarlaşdırdı, ancaq o, yolu əlinə alan kimi yenə xəyala daldı və özü də hiss etmədən şəhərin İraq darvazasına aparan Surxab məhəlləsi ilə irəlilədi. O, darvazaya çatıb bayıra çıxmaq istərkən istiqamətini səhv saldığını başa düşüb geriyə döndü, Təbrizin günbatarına, Ağcaçay tərəfə yollandı.

Rəşid çaya xeyli qalmış şəhər qalası içindəki ikinci qalanın darvazasından içəri girdi. Təbrizin Şam və Şəmb adlanan iki ən böyük və qədim məhəllələrinin yerində salınıb hasara alınmış bu Qazaniyyə adlanan şəhərciyin kələntərinin iqamətgahı Şəmb məhəlləsində idi. Rəşid bu məhəlləyə Ağcaçay sahili ilə gəldi, kələntərlə görüşüb Mahmud Ağanın sözlərini ona çatdırdı və dedi:

— Necə deyərlər, yol uzaq, mənzil ondan da uzaq. Buradan şəhri-Rəşidə getməliyəm. Bilirsən ki, ora Təbrizin lap əks istiqamətindədir. Qorxuram piyada getsəm Mahmud Ağanın sözlərini oranın kələntərinə vaxtında çatdıra bilməyəm, o da saraya gecikə. Mümkündürsə, mənə bir at ver.

Kələntər Rəşidə cavab əvəzi yanında dayanmış oğlana dönüb:

— Gedib Alı kişiyə deginən bir at gətirsin,—dedi.

Rəşid Alı kişinin gətirdiyi ata minib şəhərin şimal-qərbinə üz tutdu, Şirvan darvazalarından çıxıb atının başını sola çevirdi və bir azdan sonra hasar içində olan şəhri-Rəşidin darvazasından içəri girdi. Rəşid əvvəllər bu yerlərin təbrizlilərin bağ yeri olduğunu bilirdi. Atrsı ona danışmışdı ki, böyük alim Fəzlullah Rəşidəddin Təbriz barılarına dirənən həmin bağların yerində yeni böyük şəhər salmışdır. Rəşid əvvəl atının başını şəhri-Rəşidin

içərilərinə, bacısıgilin evinə tərəf döndərmək istədi. Onun bacısı burada olan məhəllələrin ən böyüyü Salehiyyə məhəlləsində yaşayırdı. Rəşid eyni zamanda burada yerləşən, yeddi min tələbəsi və dörd yüz əlli müəllimi olan ali məktəbin gözəl binasına, həmçinin təzəcə tikilmiş üçmərtəbəli karvansaraya, məscidlərə, zərbxanaya, bazarlara baxmaq istəyirdi. Ancaq o bu fikrindən daşınmalı oldu, kələntərə yetirəcəyi xəbəri gecikdirə biləcəyindən ehtiyat etdi. O bilirdi ki, Rəşidiyyə şəhərinin kələntərinin iqamətgahı dövlət müəssisələrinin, idarələrin, emalatxanaların yerləşdiyi «Rəbn Rəşid» adlanan digər hissəsindədir. O, atını həmin istiqamətə sürdü. Otuz min evi, iyirmi dörd karvansarası, min beş yüz dükanı olan Rəbi-Roşiddə kələntərin iqamətgahını tapmaq o qədər də asan olmadı.

Mahmud Ağanın tapşırıqlarını yerinə yetirəndən sonra Rəşiddə şəhərin görməli yerlərinə baxmaq həvəsi söndü, atı bacısıgilə sürdü. Sonra Qazaniyyəyə qayıdıb, atı sahibinə qaytardı. Rəşid öz evlərinə şər qarışana gəlib çıxa bildi.

Həyətə girəndə hamını narahat, həyəcan içində gördü. O, tezliklə bunun səbəbini öyrəndi. Toxtamış xanın qoşunları Təbrizdən cəmisi yeddi ağaclıq masafədə düşərgə qurmuşdu. Sultan Əhməd bu xəbəri alan kimi Təbrizi qoyub qaçmış, vəzir də onunla getmişdi. Şəhər başsız qalmışdı. Vəzir Mahmud Ağaya da ailəsini götürüb onlarla birlikdə Bağdada qaçmaq təklifi etmiş və rədd cavabı almışdı.

Düşmənin şəhərə ən tezi sabah yaxın düşə biləcəyini, düşünməyə hələ bir gün vaxt olmasını fikirləşən camaat axşam qaranlığı düşən kimi evlərə çəkildi. Təkcə şəhər müdafiəçiləri növbə ilə keşik çəkməyə qaldı. Ertəsi gün dan yeri sökülər-sökülməz səksəkə içində çimir almış camaat küçələrə çıxanda onu ağ örtük altında gördü. Bu ilin ilk qarı Təbrizə çox gec, şəhərin başı üzərini çox böyük təhlükə aldığı bir vaxtda yağmışdı. Bu, 1386-cı il yanvarın üçündə olmuşdu.

Həmin gün Toxtamış Təbrizə hücum etmədi, axşam qaranlığı düşəndən sonra camaat yenə narahatlıq içində yatağına girdi, səhəri dirigözlü açdı. Sübh vaxtı artıq bütün şəhər camaatı ayaq üstündə idi. Həmin gün Toxtamışın qoşunları Təbrizə yaxınlaşdılar və qala divarlarının lap yaxınlığında ordugah qurdular. Şəhər ətrafındakı, artıq yarpaqlarını çoxdan töküb çılpaqlığını qar altında gizlədə bilmiş qollu-budaqlı ağacları olan bağların hamısı qoşunla dolmuşdu. Papaqtikənlər bağındakı qoşun qar meyvə ağaclarını qırıb bir neçə yerdə tonqal yandırmışdılar. Pir Məhəmməd Sərrac bağı, Əsvəran bağı, həkim Sədəddin bağı, Şeyx Xocənd bağı, Əhmədabad və Dəməşqiyyə bağlarında da tonqalların alovu adam boyu ucalırdı. Təbrizin bütün darvazalarının yanındakı bürclərdə, hasarların üstündə qərar tutmuş şəhər müdafiaçiləri bağların qırılıb yandırılmasına heyfslənir və deyinirdilər. Şirvan darvazası yanındakı bürcdəki müdafiəçilərdən biri yana-yana yanındakı yoldaşına deyirdi:

— Bir onlara bax, sən allah. Allahsızlar bağları kor qoydular. Kecən payız Dəməşqiyyə bağında da olmuşam, başqa bağlarda da olmuşam. Vallah, elə bil cənnətin bir guşəsində idim. Bağdan olmazmış? Hər şey, özü də ehsan.

O biri müdafiəçi dilləndi:

— Böyük bağ lap qonşuluğumdadır. Mahmud Ağa bağında da, Türk Əhməd bağında da olmuşam. Bu bağları salmaq, onları becərmək üçün kişilər nə qədər zəhmət çəkiblər. İndi bu qırılmışlar bir hovuzun içində onları kor qoydular. Hələ heç Leyləva bağını, Burc bağını, Şəmsabad, Xələfi, Şəmsiyyə bağlarını demirəm... Onların da hər biri yer üzünün cənnəti deyilmi?

— Heyif olsun ki, indi o cənnətlərin hamısı dönüb cəhənnəm olub, xarabaya dönübdür.

Qarlı, şaxtalı hava olmasına baxmayaraq göyün üzündə əlcim boyda da bulud yox idi. Günəş üfüqdən boylananda üz-üzə dayanıb dərdləşən şəhər müdafiəçilərindən biri qəflətən söhbətin məcrasından çıxdı:

— Əəəə... Bir ora bax, dörd atlı birbaş bizim Şirvan darvazalarına sarı çapır, deyəsən əllərində ağ bayraq var.

Yüzbaşı gəlib çıxmamış düşmən atlıları Şirvan darvazasının qabağına çatıb dayandılar. Onlardan biri dilləndi:

– Açın darvazaları, bizi böyüyünuzün yanına aparın, böyük xaqan Toxtamış xanın sözlərini ona çatdırmalıyıq.

Bu vaxt yüzbaşı göründü. O, elçilərin sözlərini eşitmişdi. Yüzbaşı əsgərlərdən birinə:

– Darvazaları açın,—deyib bürcdən aşağı düşdü, atına mindi, içəri girmiş elçilərə:

– Ardımca gəlin,—deyib atını tərpətdi.

Yüzbaşı süvariləri birbaş saraya gətirdi. O, sultan Əhmədin qaçmasından xəbərdar idi, lakin o, Mahmud Ağanın əmir-sipəhsaları, digər sərkərdələri saraya yığdığını, şəhərin müdafiəsinə başçılıq etdiyini bilirdi. Yüzbaşını hasar içində yerləşən sarayın həyət darvazasının önündə tanımadığı bir cavan qarşıladı və:

— Sənə sarayda nə lazımdır?—soruşdu.

Yüzbaşı onun sualına sualla cavab vermək, «Sən kimsən?» — deyə soruşmaq istədi. Ancaq bu sualın yersiz olduğunu dərk edib mətləbə keçdi;

—Bunlar elçilərdir, — deyib onunla gəlmiş dörd atlını göstərdi və davam etdi.

—Toxtamış xanın elçiləri. Toxtamış xanın sözlərini başçımıza çatdırmaq fikrindədirlər.

Cavan oğlan — bu Rəşid idi:

– Gözləyin, gedim soruşum, — deyib darvazanın arxasında görünməz oldu. Bir neçə dəqiqədən sonra isə elçilər artıq sarayda idilər. Mahmud Ağa onları dinləməyi əmir-sipəhsalara məsləhət gördü. O, elçilər olan salona girdi, əyləşdi və:

– Buyurun, sizə qulaq asıram, — dedi.

Salonun bir tərəfində salınmış döşəklərdə oturmuş elçilərdən biri ayağa durdu, əmir-sipəhsalara sarı iki addım atıb dayandı və dedi:

— Böyuk xaqan Toxtamış xan deyir ki, sultan Əhmədin qaçmasilə başsız qalmış şəhəri təslim etsəniz, nahaq yerə qırğın salmasanız, o, camaata aman verəcək, təbrizlilərin əmin-amanlığını təmin eləyəcək, talana, qırğına yol verməyəcək.

Əmir-sipəhsalar Toxtamış xana müqavimət göstərməyin əleyhinə idi, odur ki, onun elçilərinin təklifini qəbul etməyə hazır idi. Ancaq sərkərdələr, əmirlər arasında fikir birliyi yox idi, Mahmud Ağa isə tərəddüd içində idi. Bütün bunları fikirləşən əmir-sipəhsalar elçilərə birbaşa cavab verə bilməyəcəyini, nə hə, nə də yox deməyə hüququ olmadığını nəzərə alıb aralarındakı fikir ayrılığını elçilərə hiss etdirməmək ücün nəsə bir söz söyləmək və yenə məsləhətləşməkdən ötrü vaxt qazanmaq xatirinə dedi:

— Böyük xaqanın müdrik sözləri, təbrizlilərə alicənablıqla aman təklifini irəli sürməsi bizi sevindirir. Mən başqa əmirlərlə də məsləhətləşməliyəm. Xahiş eləyirəm Toxtamış xanın fərmanını verəsiniz ki, onlara göstərim.

Əmir-sipəhsalar elçilərin belə bir fərman, yaxud namə gətirmədiklərinə əmin idi, əks halda onlar sözə başlamamışdan qabaq onu təqdim edərdilər. Sipəhsaların sözlərini diqqətlə dinləyən elçibaşı əllərini oynada-oynada dedi:

— Xaqan bizimlə heç bir namə göndərməyib, elə-beləcə, sözlərini sizə çatdırmağı buyurub.

Əmir-sipəhsalar cavabdan razı qaldı, demək vaxt qazanmaq imkanı vardı, odur ki, elçiləri duyuq və narazı salmadan:

— Bayaq ərz elədim ki, böyük xaqan Toxtamış xanın fərmayişi bizdən ötrü çox qiymətlidir. Ancaq biz nədən bilək ki, sən və səninlə gələnləri məhz böyük xaqan vəkil eləyib göndərib, bəlkə özbaşına gəlmisiniz?

Elcibaşı nəsə söyləməkdən ötrü ağzını doldurdu, ancaq əmir- sipəhsalar ona danışmağa imkan vermədi:

— Bilirəm nə söyləyəcəksən. Ancaq sözlərinin hec bir əhəmiyyəti olmayacaq. Sultan Əhməd Bağdada gedəndən sonra biz şəhəri müdafiə şurası yaratmışıq.

Mən şuraya böyük xaqan Toxtamış xanın naməsini göstərməsəm, mənə qulaq asan olmaz.

Elçibaşı naəlac qalıb oturub ona baxan yoldaşlarına döndü, onlar qalxdılar və öz başçıları ilə birlikdə çıxışa doğru getdilər. Əmir-sipəhsalar onların ardınca:

— Böyük xaqanın naməsini gözləyirik, — dedi.

Elcibaşı ayaq saxladı, geriyə qanrılıb dedi:

— Böyük xaqan zarafatı xoşlamır, o, sözünü bir dəfə söyləyir, o daha heç bir fərman, namə göndərməz.

Elçibaşı səhv etməmişdi. Elçilər gedəndən heç iki saat keçməmişdi ki, Toxtamış xanın qoşunları hərəkətə gəldi. Bu müddət ərzində şəhərin müdafiəsnnə başçılıq eləyənlər qəti fikrə gələ bilmədilər. Bunun başlıca səbəbi Mahmud Aqanın qətiyyətsizliyi idi. Sərkərdələrin və əmirlərin çoxu şəhəri müdafiə etmək tərəfdarı olduğundan qoşunları döyüşə hazır vəziyyətə gətirdi.

Toxtamış xanın ilk həmlələri elə bir nəticə vermədi, o, itgi verib geri çəkilməyə məcbur oldu. Döyüşün ikinci günü də Toxtamış xan elə bir müvəffəqiyyət qazana bilmədisə də, neft hopdurulub yandırılmış təzək və kecə parçalarının mancanaqların köməyilə atılması Təbrizin bəzi yerlərində yanğın törətdi. Bu, şəhəri döyüşsüz təslim vermək tərəfdarlarının dil çıxarmasına imkan yaratdı və Təbriz darvazalarının yarısının müdafiəsinə başçılıq eləyən əmirlər ertəsi gün müqavimət göstərməyi lazım bilməyib darvazaları açmağı əmr etdilər. Toxtamış xanın qoşunları şəhərə doluşdu, qarət başlandı. Təbrizin bəzi məhəllələrinin, xüsusilə Vəlidülə məhəlləsinin camaatı Toxtamış xanın qoşununa müqavimət göstərdi. Hürufilik təriqətinin əsasını qoymuş Fəzüllah Nəimi bu məhəllədz yaşamış, hürufiliyi də burada yaymağa başlamışdı. O, indi Təbrizdə yox idi, oradan getmişdi və bu məhəllədə hürufilərə Nəiminin yaxın silahdaşı Əbülhəsən başçılıq edirdi. Toxtamışın qoşunlarının o biri darvazalardan şəhərə dolması xəbərini almış Əbülhəsən ən yaxın adamlarını başına yığdı:

– Böyük ustadımız Fəzlüllah Nəimi qan tökməyin əleyhinədir. Ancaq bir olan allah şahiddir ki, qan tökülməsində biz deyil, o dinsiz Toxtamış təqsirkardır. Darvazaların müqavimətsiz açılmasına baxmayaraq, o bizim qardaşlarımızın qanını axıdır, şəhərə talan salıb. Biz Toxtamış xanın qoşunları ilə savaşa girəcəyik. O biri məhəllələrə də adamlarımızı göndərib, onların sakinlərini də silahı yerə qoymamağa çağıracağıq.

Təbrizin bir necə məhəlləsinin camaatı silahı yerə qoymadı, Toxtamış xana müqavimət göstərdi. Lakin düşmən güclü idi, tezliklə təbrizlilərin hamısının müqavimətinə son qoyuldu. Vəlidülə məhəlləsinin camaatı hamıdan çox, yeddi gün müqavimət göstərdi. Yalnız səkkizinci kün, Təbriz bütövlüklə ələ keçiriləndən sonra Toxtamış xan saraya kəldi. O, sərkərdələrinə bildirmişdi ki, şəhərdə tam sakitlik yaranmayınca saraya ayaq basmayacaq, Xələfan bağında qurulmuş çadırında qalacaq. Toxtamışın sərkərdələri şəhər camaatını talan etməklə eyni vaxtda sultan Əhmədin Təbrizdə qalmış tərəfdarlarını, saray adamlarını, o cümlədən Mahmud Ağanı və Toxtamışın basqını başlanan zaman Mahmud Ağanın özü ilə saraya gətirdiyi Rəşidi həbs etdilər.

Toxtamış xan qədəmlərini saray qapısının kandarından içəri qoyub sultan Əhmədin taxtında qərar tutan kimi qoşun sərkərdələrini başına yığdı, qarət edilmiş qiymətli şeyləri toplayıb paytaxt şəhəri Saraya göndərmək əmrini verdi və sonra dedi:

– Söyləyirlər əmir Teymur Səmərqənddən bu tərəflərə üz tutub. Tələsin, o biri şəhərlərə də tələsin yoxsa özünü yetirib var-dövləti o, əlinə keçirəcək. Biz əmir Teymurla üzləşə bilmərik. Onun bu yerlərə yaxın düşməsi xəbərini alan kimi, məmləkətimizə dönməliyik.

Toxtamış xan ətrafındakıları gözdən keçirdi, ondan qabaq saraya gəlmiş vəzirinə döndü:

– Burada özümüzkülərdən başqa heç kəsi görmürəm, məgər Təbriz əyanlarından bizim tərəfə keçən olmayıb?

Vəzir də salonda olanları görməyibmiş kimi ətrafına göz gəzdirdi və dedi:

– Böyük xaqan, meşə caqqalsız olmur, bizim tərəfə keçənlər də yox deyil, ancaq çox az.

Toxtamış xan üzünü turşuqdu:

– Demək ətrafında olanların hamısı olmasa da, çoxu qeyri- sadiqdir? Elə sənin özün başqa hökmdara can-başla qulluq eləyib, sonra mənim yanıma qaçmamısınız? Sən onlara inan, indi də olsa inan, onlar zora qulluq göstərən adamlardır, zor isə hələlik bizdədir. Onlara mehribanlıq elə, saraya çağır.

– Bəs dustaqlarla nə eləyim?

– Kimdirlər onlar?

– Bilmirəm. Bir şey aydındır ki, onların hamısı saray adamları və sərkərdələrdir.

– Onlarla görüş, bizim tərəfə keçmək istəyənləri azad elə, istəməyənləri isə sabah Sahibabad meydanında asdırarsan.

Toxtamış xan taxtından qalxıb:

—Bərk yorulmuşam, gedim dincəlim, — deyib taxtın arxasındakı qapıya tərəf edəndə bir minbaşının tələsik taxt salonuna girdiyini gördu, ayaq saxladı və sual dolu gözlərini ona çevirdi. Minbaşı ona yaxınlaşıb təzim etdi və dedi:

—Böyük xaqan, indicə xəbər gətirdilər ki, Sahibqran böyük qoşunla Təbriz üzərinə gəlir.

Toxtamış xan əsəbi halda:

– Sahibqran kimdir? — qışqırdı.

Vəzir gülümsündü:

– Onu qınama, böyük hökmdar, əmir Teymura bu yerlərdə Sahibqran da deyirlər.

Toxtamış xan yenə minbaşıya qışqırdı:

– Nə çərənləyirsən? Əmir Teymurun qışın bu oğlan çağında səfərə çıxması olmayıb.

Özünü itirmiş minbaşı kəkələdi:

– Sənə fəda olum, böyük xaqan, kəşfiyyatçılar indicə xəbər gətirdilər. Onları Saraydan Təbrizə yola düşdüyümüz vaxt mən göndərmişdim o tərəflərə. Qulağıma səs dəymişdi, inanmamışdım, yoxlamaq istəmişdim. Onlar gözləri ilə görüblər Sahibqranın... əmir Teymurun qoşunlarını.

– Harada görüblər Əmir Teymurun qoşunlarını?

– Lap Səmərqəndin özündə.

Toxtamış xan yenə özündən çıxdı, səsini qaldırdı:

– Sən nə çərənləyirsən? Əmir Teymurun qoşunları Səmərqənddən başqa harada olmalı idi ki?

– Onlar qoşunları hazırlaşan görüblər, soruşub öyrəniblər ki, Sahib... Əmir Teymur sənin üstünə gəlir.

– Bəs sonra əmir Teymurun qoşunlarının Səmərqənddən çıxmasını necə öyrəniblər?

– Bunu öyrənməyə vaxtları olmayıb. Xəbəri eşidən kimi Səmərqənddən birbaşa bura, Təbrizə gəliblər. Toxtamış xan fikrə getdi. Xaqanla minbaşının deyişməsini diqqətlə dinləyən vəzir sözə qarışdı:

— Böyük xaqan, onsuz da biz Təbrizdə qalmaq, əmir Teymurla əlbəyaxa olmaq fikrində deyilik. Sabah, yaxud o biri gün olmasa da əmir Teymurun qoşunları özlərini Təbrizə yetirəcəklər. Filan qədər mal-dövlət ələ kecirmişik. Yaxşı olmaz ki, vaxtında öz yurdumuza dönək?!

Toxtamış xan bir xeyln fikirləşəndən sonra:

– Yaxşı, sən deyən olsun, sabah geriyə qayıdırıq.

Vəzir cəld soruşdu:

– Bəs dustaqları necə eləyək?

Toxtamış xan sağ əlinn oynatmaqla kifayətləndi və o biri otağa keçdi. Vəzir əmir sinəhsalara:

– Get hazırlaş, lap sübhdən yola çıxırıq, — dedi və tezliklə dustaqları unutdu.

Ertəsi gün daima intizar içində olan Təbriz camaatı Totamış xanın qoşunlarının şəhəri tərk etdiyini görüb təəccübləndi. Axırıncı dəstələr şəhəri tərk edən kimi camaat küçələrə töküldü, şadyanalıq başlandı. Mahmud Ağa ilə Əliabbas kişinin evlərində isə onların dustaqlıqdan azad olmaları ilə əlaqədar olaraq ikiqat şadlıq idi.

İki il əvvəl olduğu kimi, bu gün də Xavərin uçmağa bircə qanadları çatışmırdı. Niyə də sevinməyəydi? Atası ilə sevgilisi ölüm kabusunun dəhşətli caynağından qopub evlərinə qayıtmışdılar. Həm də iki evin adamlarının hamısı bir yerə — Mahmud Ağanın geniş evinə toplaşmışdı. Şadlıqda Mahmud ağanın arvadı və üç qızı ilə birlikdə Əliabbas kişi, Rəşid, anası, iki bacısı və bir də ərdə olan yeznəsi iştirak edirdi. Şadlıq, sevinc mərhəmət də gətirmişdi. Qadınların heç biri üzünü naməhrəm kişilərdən gizlətmir, kişilərlə birlikdə gülür, danışırdı. Rəşidlə Xavərin hədsiz sevincinin əsas səbəbi isa o idi ki, Mahmud Ağa qızının Rəşidə ərə getməsinə razılıq vermişdi. Sevimli arvadının son bir il ərzində dedikləri, nəhayət, Mahmud Ağaya təsir göstərmiş və o, Toxtamış xanın Təbrizə girməsindən bir neçə gün əvvəl öz razılığını bildirmişdi. Təkcə Əliabbas kişinin elçi düşməsi və toy gününün müəyyənləşdirilməsi qalırdı. Lakin Toxtamış xanın Təbrizə girməsi ilə Mahmud Ağanın və onun özü ilə saraya aparıb, saray işlərinə cəlb etmək istədiyi gələcək damadının həbs olunması hər şeyi alt-üst etmişdi.

Bu gün Əliabbas kişini tanımaq olmurdu. Həmişə sakit, təmkinli olmuş Əliabbas kişinin bütün varlığından sevinc bulaq kimi fəvvarə vururdu. Sevinc sanki ömrüboyu qayğıdan, əziyyətdən üzə çıxmağa macal tapmayan bu çeşmənin üstündəki qalın qəm-qüssə qatını dəlib deşərək coşub-daşmağa indi imkan tapmışdı.

Əliabbas kişi elə buradaca oğlunun elçiliyini etməyi qət edərək sözə başladı:

– Mahmud Ağa, bu gün mənim ömrüm boyu gördüyüm tək-tük xürrəm günlərimdən ən xürrəmidir. İstəyirəm... — deyib dayandı, demək istədiyini

söyləməkdən qabaq bəzi şeyləri soruşmağı lazım bildi: - Mahmud Ağa, necə oldu ki, bu dinsiz talançılar birdən- birə öz xoşlarına Təbrizdən çıxıb getdilər?

Mahmud Ağa cavanların şadlığına, yeyib-içməsinə mane olmamaq üçün iri bir döşək üstündə yanaşı oturduğu Əliabbasa bir az da yaxınlaşdı. O bu sualın cavabının uzun olacağını, cavabın gedişində yeni suallar meydana çıxa biləcəyini nəzərə almışdı:

—Yox, ay Əliabbas, onlar öz xoşlarına getmədilər, getməyə məcbur oldular. Ancaq bir az tələsdilər. Onların kəşfiyyatçıları əmir Teymurun Səmərqənddən Tabriz üzərinə hərəkət etməsi xəbərini gətirmişdi. Toxtamış xan onunla rastlaşmağa qorxdu, tez başını götürüb qaçdı. Ancaq o bilmədi ki, qlavuzlarının Səmərqənddə gördükləri yalnız hazırlıq idi. Əmir Teymur hələ də Səmərqənddən çıxmayıb.

Mahmud Ağa susdu, gülüb danışan cavanlara baxdı, sonra üzünü yenə Əliabbas kişiyə çevirdi, acı-acı gülümsünüb davam etdi:

– Qəribədir bu dünyanın işi. Toxtamış xan qlavuzlarının gətirdiyi xəbərdən səhv nəticə çıxarıb Təbrizdən çıxmağa tələsməsəydi, bu gün bu evdəki sevincin, şadlığın əvəzinə yas məclisi qurulacaqdı, bizi bu gün səhər asmalı idilər.

Mahmud Ağanın son sözlərindən Əliabbas kişi diksindi. Onun sifətindəki sevinc ifadəsi birdən-birə qeyb oldu, elə bil yenicə açılmış çeşmənin ağzına iri bir daş basdılar. Ancaq o, bir söz demədi, Mahmud Ağaya baxmaqda davam etdi. Mahmud Ağa ƏlІabbas kişinin tamam dəyişdiyini sezdisə də söhbətinin istiqamətini dəyişmədi:

— Uşaqlar şadlanırlar, qoy şadlansınlar. Onlar daha böyük bir bəlanın ayaq tutub üstümüzə yeriməsindən xəbərsizdirlər. Kim bilir, ən çoxu üç-dörd aydan, yaz girəndən sonra Təbriz camaatının, o cümlədən bizim, bizim bu qayğısızlıqla deyib-gülən, sevinən balalarımızın başına nələr gələcək?

Mahmud Ağanın sözləri Əliabbas kişinin ovqatını lap təlx etdi. O, elçi düşmək fikrindən tamamilə daşındı, ancaq bu işi onun əvəzinə Mahmud Ağanın özü gördü:

― Əliabbas, biz səninlə indi lap yaxın qohum oluruq. Bu evdə cəmi-cümlətanı üç kişi var — sən, mən, bir də Rəşid. Mənə elə gəlir ki, biz uşaqları nişanlamalıyıq ki, bir ailə olaq, bərkə-boşa düşəndə bir-birimizə kömək duraq. Birimizin başına bir iş gəlsə, o birimiz bu böyük ailəyə yiyə dursun. Qabaqda bizi çox çətin, böyük imtahanlar, məşəqqətli günlər gözləyir.

Əliabbas Mahmud Ağanın susmasından istifadə edib soruşdu:

― Bu əmir Teymurun öhdəsindən gələ bilən bir padşah yoxdur?

Mahmud Ağa bu sadə, qəlbitəmiz insanın sadəlövh sualına cavab verməyə çətinlik çəkdi:

― Birlik yoxdur məmləkətdə, Əliabbas. hər yerindən duran Azərbaycanı zəbt etmək, yaxud özünü onun padşahı görmək istəyir. Sultan Əhmədin əsas yeri İraqda — Bağdaddadır. Azərbaycan paytaxtından da əl çəkmək fikrində deyil. Qara Məhəmməd də gözlərini Azərbaycan taxtına dikib. Bax o, bütün qüvvələrini, zorunu cəm eləsə, butün Azərbaycanı ələ keçirə bilsə, əmir Teymurun qabağına çıxa bilər. Bir də belə bir fikri söyləmək ücün əmir Teymurun nə qədər qoşunla gələcəyini bilmək gərəkdir. Bir şey tamamilə aydındır ki, qarşımızda cox böyük təhlükə var. Allah xeyir eləsin.

* * *

Mahmud Ağa ilə Əliabbas kişi arasındakı söhbətdən üç ay keçmiş Təbriz artıq yaz paltarı geyinmişdi. Teymurləngin Təbriz üzərinə gəlməsi xəbərini almış Təbriz camaatı cox narahat və həyəcanlı olmasına baxmayaraq, Novruz bayramına həmişəki kimi yaxşı hazırlaşmışdı. Bayram günlərində hamı şadlanır, güsülülər barışır, qohumlarının görüşünə gedir, şirniyyat aparmağı da unutmurdular. Mahmud Ağa ilə Əliabbas kişinin də evlərində bayram əhval-ruhiyyəsi var idi. Əliabbasın arvadı müxtəlif şirniyyatlar bişirib oğlunun nişanlısı Xavərgilə bayram xoncası göndərmişdi.

Novruz bayramından bir həftə keçməsinə, hər yerdə yaz nəfəsinin duyulmasına, ağacların bir qisminin çiçəklənməsinə — badam ağaclarının çəhrayı, alça ağaclarının ağ çiçəkdən don geyməsinə baxmayaraq birdən-birə

hava kəskin surətdə dəyişdi, quşbaşı qar yağdı, bütün Təbriz, şəhərətrafı bağlar ağ örtük altında qaldı. Ancaq şəhər camaatı səhər gözlərini açan kimi küçələrə töküldü, hərə öz işinin ardınca getdi. Hamı işləyirdi—misgərlər və dəmirçilər çəkic vurur, zərgərlər bəzək şeyləri qayırır, toxucular pambıq, yaxud yun parça toxuyur, başmaqçılar başmaq tikirdilər. Onlar zahirən sakit görünsələr də baxışlarında qorxu həkk olunmuşdu. Təbrizlilər əmir Teymurun Səmərqənddən çıxdığını, birbaş Təbrizə üz tutub irəlilədiyini bilirdilər. Sarayda, onun ətrafında çox qələbəlik idi, qoşun, əsgər əlindən tərpənməyə yer yox idi. Sarayın özündə nsə hələ dünən başlanmış mübahisə bu gün daha da qızışmışdı. Sərkərdələrin bir çoxu əmir Teymurun qoşunlarının müzəffər səfərlərindən xəbərdar olsalar da, onunla bilavasitə toqquşmadıqlarından elə zənn edirdilər ki, əmir Teymurun zoru, imkanı şişirdilir və o, Təbriz kimi möhkəmləndirilmiş şəhəri ala bilməz. Həmin sərkərdələr, əmirlər əmir Teymura müqavimət göstərməyi israr edirdilər. Lakin sultan Əhmədin özü Bağdaddan Təbrizə gəlməyə qorxduğundan saraya göndərdiyi vəziri, Mahmud Ağa, bəzi sərkərdələr və əmirlər isə əmir Teymura müqavimət göstərməyin yersiz olmasını iddia edir, müqavimətin, əmir Teymurun şəhəri alacağı təqdirdə, əhaliyə cox baha başa glə biləcəyini söyləyirdilər. Onların yığışdıqları salonun qapısı arxasında dayanmış və indi vəzirlə Mahmud Ağanın şəxsi mühafizə dəstəsinin başçısı təyin olunmuş Rəşid danışıqların hamısını eşidirdi. O, şəhəri müdafiə etmək tərəfdarları danışanda həyəcanlanır, qanı qaynayır, Təbrizi döyüşsüz təslim etmək barəsində söhbət gedəndə isə əsəbiləşir, öz-özünə deyinirdi. O, Mahmud Ağaya çox inanırdı, onu tədbirli adam kimi tanıyırdı. Bununla belə Rəşid də o fikirdə idi ki, fələk də gəlsə Təbriz kimi möhkəmləndirilmiş bir şəhəri əmir Teymurun qoşunları tuta bilməz. Şəhəri müdafiə etmək tərəfdarlarının fikri o birilərinkini üstələyəndə o, az qalırdı sevincindən qışqırsın. Yığıncaq Təbriz uğrunda sona kimi çarpışmağı qət edəndə isə Rəşid özünü saxlaya bilmədi, sevincindən uşaq

kimi atılıb düşdü. Şəhərin müdafiəsinə vəzir, əmir-sipəhsalar və Mahmud Ağadan ibarət üçlüyün başçılıq etməsi qərara alındı.

Üçlüyün əmrilə şəhəri Teymurləngin hücumlarından müdafiə tədbirləri həyata keçirilməyə başlandı. Bürclərin üstünə iri daşlar, neftlə dolu qablar, yandırıb düşmənin üstünə atmaq üçün təzək və köhnə cır-cındır yığdılar. Təbrizin bütün əli silah tuta biləcək kişiləri səfərbər edildilər. Üçlük hər gün müdafiəyə hazırlığın gedişini yoxlayır, axşamlar saraya toplaşıb sərkərdələrin məlumatını dinləyirdi. Belə yığıncaqlardan birində sərkədələrdən biri dedi:

– Biz şəhərin müdafiəsinə ciddi hazırlaşırıq, bu çox yaxşı. Bəs şəhərdən kənarda qalmış məhəllələrin, kəndlərin, mahalların taleyi necə olacaq? Yəqin ki, əmir Teymur həmin müdafiəsiz yerləri ələ keçirib kor qoyacaq.

Sərkərdəyə vəzir cavab verdi:

– Nə gələ bilər bizim əlimizdən? Biz Təbrizi döyüşsüz belə təhvil versək, əmir Teymurun qoşunları yolları üstündəki kəndləri, mahalları talan etməkdən çəkinməyəcək. Sən hansı kəndləri, mahalları nəzərdə tutursan?

– Hansı mahallardan söhbət getməsi hamınıza məlumdur. Mən Təbrizi dövrələmə əhatə eləyən Mehranrud, Sərdrud, Bavilhrud, Ərvang, Rudqat, Xacımrul, Bədvəstan, Ucan, Təsuc mahallarını nəzərdə tuturam.

Sərkərdə sözünü bitirdi, vəzir ona cavab vermədi, əmir-sipəhsalar dilləndi:

—Yaxınlıqda olan mahalın, məsələn, Sərdrudun camaatını Təbrizə köçürmək olar, yaxındadır, məsafə Təbrizdən cəmi bir ağacdır.

Vəzir əmir-sipəhsaların sözünü kəsdi:

—Bu, çıxış yolu ola bilməz. Təbrizdə camaat onsuz da həddən artıqdır. Biz bu yolla getməli olsaq, gərək bütün Azərbaycanı Təbrizə, Təbriz kimi qalalara köçürək, çünki bütün Azərbaycan torpaqları əmir Teymurun qoşunlarının tapdağı olacaq. Yenə təkrar eləyirəm, bizim əlimizdən heç nə gəlməz, biz təkcə Təbriz barəsində fikirləşə bilərik. Biz bütün kəndlər, mahallar barəsində fikirləşməli olsaq, qüvvələrimiz parçalanar, heç Təbrizi də müdafiə eləyə

bilmərik. —Vəzir bir anlığa susdu. Səsini cox ucaltdığını başa düşdü və pıçıltıya bənzər səslə davam etdi.

—Hələ görək Təbrizi qoruyub saxlaya biləcəyik?

...Təbiətin ən gözəl çağı, yazın ortaları idi. Təbrizi üzük qaşı kimi dövrəyə almış bağlar yaşıllıq içində idi, sanki Təbriz belinə yaşıl kəmər bağlamışdı. Göz işlədikcə uzanan bu bağlar necə də gözəl, necə də gözoxşayan idi. Təbiətin gözəlliyi insanı məst elədiyi belə günlərin birində Təbrizə ildırım sürətilə, camaatı lərzəyə salan xəbər yayıldı: əmir Teymurun qoşunları Təbrizdən beş ağac aralı olan Mehranrud mahalının Canqur, Qasımkənd, Yuxarı Kəvanlıq, Nəhənd, Üsbənc, Kəlixan, Zırnıt, Qaraçöl və başqa kəndlərini talan edə-edə şəhərə yaxınlaşır. Bir qədər keçəndən sonra isə artıq Teymurləngin Təbrizdən cəmi bir ağac aralıda düşərgə saldığı məlum oldu. Əmir Teymur çadırında özünü rahatlayandan sonra bəzi sərkərdələrinn yanına çağırdı:

— Qoyun bu gün də, sabah da qoşunlar dincəlsinlər. Biri gün onları hücuma aparacağam.

Vəzir böyük ehtiyatla soruşdu:

— Sənə fəda olum, böyük Sahibqran, bəs Təbrizə təslim olmaq təklifi göndərməyəcəksən?

Teymurləng taxtında dirsəkləndi, şikəst qıçını bir qədər irəli verib ovxaladı, sonra sarıya çalan saqqalını ovcuna yığaraq soyuq göy gözləri ilə vəzirə baxdı:

— Yox, vəzir, göndərməyəcəyəm. Qoy Təbrizi başsız qoyub qaçmış Əhmədin o ağıllı vəziri mən çağırış göndərmədən özü yanıma gəlib şəhər üçün, şəhər camaatı üçün aman istəsin. Bəlkə onda Təbrizi hücumsuz almağa razı oldum.

Vəzir ehtiyatı əldən verməməyə çalışa-çalışa:

— Böyük Sahibqran, yaxşı olmazmı ki, sənin bu sözlərini sultan Əhmədin vəzirinə çatdıraq?

Teymurləng vəzirinə cavab vermədi, göy gözlərini ona zilləməklə kifayətləndi. Teymurləngin fikirlərini onun çox vaxt heç nə ifadə etməyən

gözlərindən oxumağa çoxdan adət etmiş vəzir daha bir söz demədi. Teymurləng taxtın söykənəcəyinə yayxandı və əlinin işarəsilə çadırında olanları azad etdi.

Ertəsi gün günortaya kimi əmir Teymur heç kimi yanına çağırmadı. Vəzir də, sərkərdələr də Sahibqranın hər dəqiqə onları çağıra biləcəyindən əmrə müntəzir dayanmışdılar. Teymurləng isə onları günortadan xeyli keçmiş öz yanına dəvət etdi. Onun əsəbi olması göz önündə idi. Belə hallarda o, sağ qolunu ovuşdurmağa adət etmişdi. Teymurləng işarə ilə oturmağa icazə verdi. Hamı əyləşdi, gözlər alaqaranlıq çadırda Teymurləngi yönəldi. Sahibqran uzun müddət susandan sonra:

– Gördünmü, vəzir, Əhmədin vəziri əlində yalın qılınc, boynunda kəfən şəhər üçün aman diləməyə gəlmədi, —dedi. Əmir Teymur bu sözləri sakit söylədi və birdən coşdu.

—Sabah Təbriz camaatına bir divan tutum ki, illər, qərinələr keçəndən sonra da nəsillər onu unuda bilməsin. Təbriz camaatının başlarından elə bir ehram düzəldim ki, Misir fironlarının ehramları onun yanında yalan olsun. Bu ehramın lap təpəsində vəzirin, Əhmədin vəzirinin başını qoyduracağam.

Teymurləng sözünü deyib qurtarıbmış kimi susdu, çadırda oturanların heç biri dinmədi. Əmir Teymur üzünü sərkərdələrdən birinə çevirdi:

– Qara Məhəmməddən nə xəbər var? Söyləyirlər ri, iki il əvvəl Mardin hakimi Məlik İsanın üstünə qılınc çəkib, qızını aparıb.

Sərkərdə cavabı gecikdirdi, o, Sahibqranın sözünü bitirmədiyini zənn etdi. Teymurləng nəzərlərini ona qaldıran kimi sərkərdə dedi:

– Qara Məhəmməd Naxçıvan, Səd Çuxur tərəfdə sənin tacir karvanlarının qabağını kəsib, soyğunçuluq eləyir.

Sahibqran çadırdakıların təəccübünə səbəb olmuş təmkinlə dedi:

– Təbrizdən sonra yolumuzu Naxçıvandan salarıq, ona qulaqburması verərik. Bir ehram da Naxçıvanda düzəldib Qara Məhəmmədin başını o ehramın təpəsinə qoyarıq, onu şərəfə yetirərik.

Teymurləng bir qədər fikirləşəndən sonra dedi:

—Yaxşı, gedin, öz işinizdə olun. Sabah dan yeri sökülən kimi Təbrizə hücuma keçirik. Günortadan sonra mən Təbriz sarayında, Azərbaycan taxtında oturacağam.

Teymurləngin müəyyənləşdirdiyi vaxt onun qoşunları hücuma başladı. Lakin Teymurləngin qoşunları nə həmin, nə sonrakı gün Təbrizə girə bildi, nə də özü Azərbaycan taxtında otura bildi. Təbrizlilər əmir Teymurun qoşunlarının bütün hücumlarını dəf edə bildilər. Teymurləngin qoçbaşıları işə salması, mancanaqlarla şəhərə yandırılmış şeylər tullayıb yanğınlar törətməsi belə Təbriz müdafiəçilərinin əzmini qıra bilmədi. Teymurləng yalnız dördüncü gün Şeşgilan məhəlləsinə açılan darvazaları yandırıb qoşunlarını şəhərə doldura bildi. Şəhərə girmiş qoşunlar tezliklə o biri darvazaları aça bildi. Təbriz şəhəri Teymurləngin qoşunlarının əlinə keçdi, talan, qırğın başlandı.

Teymurləngin qoşunlarının şəhərə həmlələri başlanan gün sarayda Mahmud Ağa ilə vəzirin mühafizə dəstəsinin rəisi Rəşid, axşam düşən kimi Mahmud Ağa ilə birlikdə evə gələndən sonra ona dedi:

—Ağa, hələlik saraya hücum təhlükəsi yoxdu. Mən istərdim ki, dəstəmlə şəhər bürclərindən birinin üstündə olaydım, yağılarla savaşda iştirak eləyəydim.

Mahmud Ağa gələcək kürəkəninin qızğınlıqla dediyi sözlərə gülümsündü:

— Bilirəm, dəliqanlı çağındır, ancaq sən yalnız vəzirin icazəsilə başqa iş görə bilərsən, sabah onunla danışaram.

Mahmud Ağa Rəşidə verdiyi vədə əməl eləyə bilmədi, o, ertəsi gün səhər tezdən saraya gələndə vəzirin bir necə sərkərdə ilə birlikdə şəhərdən qaçması xəbərini aldı. Mahmud Ağa onu sarayda qarşılamış Rəşiddən soruşdu:

— Gecə keşikçilərin yatmışdılar?

— Əlbəttə, yox.

— Bəs onlar vəzirin getməsini görməyiblər?

— Mən də yatmamışdım, hamımız görmüşük o gedəndə. Mən onun ardınca getmək istəyəndə dedi ki, ehtiyac yoxdur. O, sərkərdələrlə birlikdə bürcləri yoxlamağa getdiyini söylədi.

Mahmud Ağa fikirli:

— Hmm... aydındır, — dedi, saraydakı otağına addımladı. Rəşidin də gəldiyini görüb dedi:

— Rəşid, oğlum, sənin daha sarayda bir işin qalmadı, dəstənlə istədiyin yerə gedib savaşda iştirak eləyə bilərsən, — dedi.

Rəşid gülümsündü, dəstəsini götürüb Şirvan darvazalarının yanındakı bürcə gəldi və əmir Teymurun qoşunları şəhərə doluşana kimi oradan getmədi, bir dəfə də olsun evə dəymədi. Teymurləngin qoşunları Şirvan darvazalarına yaxınlaşanda, Rəşid, düşmən qüvvələrinin onlardan qat-qat çox olmasını, müqavimətin əhəmiyyətsiz olduğunu görüb döyüş yoldaşlarına:

— Biz o köpək ilxısı ilə əlbəyaxa ola bilmərik, ancaq bu xeyirsiz olar. Boş-boşuna ölməkdən nə çıxar? Qaçıb dağılın, ələ keçməyin,—dedi və bürcdən düşüb xəlvəti yolla evlərinə tələsdi. Birdən canına həyəcan doldu, onu ata-anasının, sevgilisinin, bacılarının taleyi narahat etdi, qaçmağa başladı. O, həyət darvazalarını taybatay görəndə ürəyi ağzına gəldi. Rəşid təngnəfəs həyətə girdi. O, ikinci mərtəbədə Mahmud Ağanın evinin qapısını açıq görüb pillələri sürətlə qalxıb evə girdi. O, iki qızın özündən getmiş Həcər xanımın üstünə qapanıb ağladığını, evin talan olunduğunu, bacısının_və anasının ayaq üstə dovub qaldıqlarını gördü. Anası Rəşidi görüb hönkürdü:

— Evimiz yıxıldı, ay oğul, Xavəri apardılar, atandan da heç bir xəbər yoxdur,—dedi.

— Kim, haçan apardı?—Rəşid sualının yersiz olduğunu başa düşüb cavab almadan yenə soruşdu,—bəs Mahmud Ağa hanı?

— O, saraydan hələ gəlməyib.

Rəşid özünü itirdi, nə edəcəyini bilmədi, Bu vaxt Həcər xanım gözlərini açdı, ətrafına boylandı, Rəşidi görüb hönkürdü:

— Qızımı apardılar, sürüyə-sürüyə apardılar, Rəşid, amandır, oğlum, ağanı tap,  ona de ki, qızı apardılar.

Rəşid anasına:

— Gəl darvazanı bağla, döyən olsa, kim olduğunu bilməmiş açma, lap tez qayıdıb gələcəyəm,—deyib pillələri sürətlə düşüb həyətdən çıxdı. Həcər xanım, Rəşidin anası, bacıları, qızından nigaran qalaraq Rəşidiyyə şəhərinə gedib qayıda bilmiş Əliabbas kişi, həmçinin saraya soxulmuş qoşunlardan gizlənib, gecənin qaranlığında xəlvəti yollarla evə qayıda bilmiş Mahmud Ağa çox gözləməli oldular, Rəşid isə gəlib çıxmadı ki, çıxmadı. Rəşndin anasının. bacılarının göz yaşları Həcər xanımın, onun qızlarının göz yaşlarına qarışdı. Mahmud Ağa ilə Əliabbas kişi də göz yaşlarını gizlətmirdilər. Onların heç biri sübhə kimi çimir almadı. Səhər açılan kimi Əliabbas kişi Mahmud Ağaya dedi:

— Sən evdən tərpənmə, tanınmış adamsan, tutub səni də dustaq eləyərlər. Mən gedib meydana baş çəkib gəlim. Çox vaxt aparılan əsirləri oraya yığırlar.

Mahmud Ağa əmir Teymurun təbrizlilərin başlarından ehram düzəldəcəyinə and içdiyini Əliabbas kişiyə demədi. O buna təkcə Əliabbas kişiyə görə deyil, Həcər xanıma, Rəşidin anasına görə də ürək eləmədi. Mahmud Ağa əmir Teymurun cavan, gözəl qızları və oğlanları öldürməyib, Səmərqəndə apardığından xəbərdar olduğu üçün Xavərlə Rəşidin sağ-salamat olmalarına əmin idi. Ancaq nə Həcər xanımı, nə də Əliabbas kişi ilə onun arvadını buna inandıra bilməyəcəkdi. O, Əliabbas kişinin getməsinin də əleyhinə idi, onun da başını kəsib ehrama qoya biləcəklərindən ehtiyat edirdi:

— Hara gedirsən, ay kişi? Təbriz boyda yerdə onların yerini haradan, kimdən öyrənə biləcəksən? Meydana da getməyə dəyməz.

Əliabbas kişi Mahmud Ağanı axıra kimi dinləmədi, tələsik darvazaya sarı getdi.

...Əliabbas kişi meydanda təbrizlilərin başlarından ucaldılmış ehramı görüb dəhşətə gəldi, o, əlləri ilə üzünü, gözlərini qapayıb bilaixtiyar geri döndü, onu öyümə tutdu, səndələməyə başladı. Bir anın içində azı on yaş qocalmış,

tanınmazlıq dərəcəsinə gəlmiş Əliabbas kişi həyətə girəndə ilk qarşılaşdığı arvadı ilə qızı oldu. Kişinin vəziyyətinin cox pis olduğunu görmüş ana, bunu oğlunun başına bir iş gəlməsi ilə bağlayıb nalə qopardı. Mahmud Ağa, Həcər xanım, onun qızları həyətə yüyürüşdülər. Həcər xanımla qızları da onlara qoşulub ağlaşdılar. Mahmud Ağa ətrafındakı səhnədən bezikib Əliabbas kişini silkələdi:

— Ay kişi, bir özünü ələ al, axı sən kişisən,—dedi.

Əliabbas kişi həndəvərindəkiləri dərk edəcək halda deyildi. Mahmud Ağa bir neçə dəfə qışqırıb, onu bərk-bərk silkələməli oldu. Nəhayət, Əliabbas kişi özünü ələ ala bildi, arvadının, Həcər xanımın halını gördü:

— Uşaqları görə bilmədim, tapmadım,—dedi və arvadına,qızlarına qoşulub hönkürdü.

* * *

Teymurləngin Təbrizə yürüşü xəbərini almış Qara Məhəmməd şəhərin kənarında, hasarlardan qıraqda çadır qurub düşərgə salmış elini Naxçıvanda cəmləşdirəndən sonra oğlanları Misir Xocanı, Qara Yusifi, qardaşı Berdi Xocanı, onun oğlu Pir Həsəni yanına çağırdı. Onlar Qara Məhəmmədin hüzuruna gələndə artıq şər qarışmışdı. Dəvət olunanlar Qara Məhəmmədin şamların zəif işığında, çox bikef, fikirli oturmuş gördülər. Nə Berdi Xoca ilə onun oğlu Pir Həsən, nə Qara Yusiflə Misir Xoca Qara Məhəmmədi belə bikef olan görməmişdilər. Həmişə şən olmağı xoşlayan, ən ağır anlarında belə özünü sındırmamağı bacaran Qara Məhəmmədin bu pərtliyi onların təəccübünə səbəb oldu. Onların dördü də Qara Məhəmmədlə yanaşı, gecələrdə oturdular. Burada divar boyu salınmış döşəklərdə Naxçıvanın kələntəri və böyük məhəllələrinin ağsaqqalları da əyləşmişdilər. Qara Məhəmməd içəri girmiş qardaşını, onun oğlunu və öz oğlanlarını gözdən keçirməklə kifayətləndi, onların salamına başını tərpətdi, dinib-danışmadı. Sükutu birinci Berdi Xoca pozdu:

— Qardaşım Qara Məhəmməd, bizi çağırmısan, indi buyur sözünü söylə, bizim hamımız sənin sözlərinə müntəzirik. Nə olub, bir hadisə baş verməyib ki?

Qara Məhəmməd oturduğu yerdə qurcalandı və sağ əlini divar boyu sıra ilə oturmuş Naxçıvan kübarlarına uzadıb dedi:

— Bu ağalar çox narahatdırlar, gəliblər bizimlə məsləhətə. Mən də məsləhət üçün sizi çağırdım.

Berdi Xoca Qara Məhəmmədin göstərdiyi Naxçıvan kübarlarının çoxunu tanıyırdı, onlarla birinci dəfə rastlaşmırdı. Berdi Xoca onları bir də gözdən keçirib təəccüblə soruşdu:

— Elə nə böyük bir hadisə baş verib ki, bu qədər adamı məsləhətə yığmısan?

Qardaşının sözləri xoşuna gəlmədisə də, Qara Məhdmməd bunu büruzə vermədi və təmkinlə:

— Bu ağalar deyirlər ki, əmir Teymur, Teymurləng Təbrizi tutub, camaatın başlarından uca bir ehram düzəldib.

Teymurləngin adını ilk dəfə eşidən, onun barəsində heç bir məlumatı olmayan, qabağından yeməyi xoşlamayan dəliqanlı Pir Həsən yerindən dilləndi:

— Təbrizlilər əfəldirlər ki, o, Təbrizi tuta bilib, axı Təbriz şəhəri çox möhkəmləndirilmiş qaladı. O əmir Teymur dediyinizin hünəri var, bu yerlərə ayaq qoysun.

Qara Məhəmməd yerə dikilmiş başını qaldırıb əvvəl Berdi Xocaya, sonra isə Pir Həsənə tərs-tərs baxdı. Berdi Xoca da eyni zamanda ona əsəbi nəzər saldı. Atasının qardaşını sevməyən, onun oğlanlarına da hörmət qoymayan Pir həsən qəzəbli baxışlara əhəmiyyət verməyib dedi:

— Niyə hamınız mənə əyri-əyri baxırsınız? Məsləhətə yığışmışıq. Gördum heç kim danışmır, mən fikrimi söylədim. Hamının nitqi elə quruyub ki, elə bil nə olub. Ayağı, qıçı salamat olanların çoxunu çolaq eləyib yola salmışıq. İndi Təbrizə bir topal gəlib, onun Naxçıvana gəlib-gəlməyəcəyini bilməyə-bilməyə belə qorxu keçirmək nəyə gərəkdir? Bura gələr çıxar, o biri qıçını da topal eləyib yola salarıq.

Qara Məhəmməd hirsini boğub Pir Həsənin sözünü kəsmədi. O bilirdi ki, nə oğlanları, nə də qardaşı oğlu Teymurləngi tanımırlar, adını uzaqdan-uzağa eşidiblər. Qardaşı Berdi Xocanın da əmir Teymurun qüdrətindən bir o qədər xəbəri yoxdur:

– Əmir Teymur böyük sərkərdədir. Göydə ulduzların sayı var, amma onun qoşunlarının sayı-hesabı yoxdur. O, on beş il əvvəl özünü Səmərqənddə Sahibqran elan eləyəndən bəri qarşısında dayana bilən olmayıb. Sultan Əhməd kimi qüdrətli bir hökmdar da ondan qorxub, qabağından Bağdada qaçıb.

Pir Hhəsən yenə dilləndi:

— Sultan Əhməd də əfəlin biridir. Özü də o, əmir Teymurun qabağından qacmayıb, Toxtamış xanın qabağından qaçıb.

Qara Məhəmməd dözmədi:

– Yaxşı. Söz güləşdirməyə yığışmamışıq. Biz, bax burada oturmuş ağalara nə söyləyək? Onlarla birlikdə Naxçıvanı qoruyacağıq, yoxsa necə eləyəcəyik?

Pir Həsən yerində qurcalandı. Berdi Xoca oğluna tərs-tərs baxdı və dedi:

– Qara Məhəmməd, sən bizim böyüyümüzsən, sən necə söyləsən, elə də olacaq.

Qara Yusif yaşca hamıdan kiçik olduğundan söz deməyə cürət etmirdi. Aydın görünürdü ki, Pir Həsəndən də dəliqanlı, lakin ağıllı və tədbirli olan Qara Yusif də qaynayır. Qara Məhəmməd sevimli oğlunun qurcalandığını gördü:

—Söylə, oğlum, görürəm, nəsə demək istəyirsən.

Qara Yusif cürətlə qalxdı:

—Babam, əmim buyurdu ki, hamımızın, bütün Qaraqoyunlu soylarının böyüyüsən, necə söyləsən, elə də olacaq,—dedi, susdu, əmisinə, özü də bilmədən ona düşmən kəsilmiş Pir Həsənə baxıb atasına döndü.—Babam, əlbəttə ki, əmir Teymur gəlib bu yerlərə çıxa bilsə, biz Naxçıvanı, Naxçıvan camaatını qorumalıyıq. Ancaq, indi, məncə məsələ bunda deyil, biz indi bu barədə fikirləşməmliyik. Biz... —Qara Yusif yenə susdu, ancaq bir anlığa. hamının, hətta Pir Həsənin də ona diqqətlə qulaq asdığını görüb davam etdi.

—Babam, bəlkə də Pir Həsən doğru söyləyirdi ki, sultan Əhməd əfəldir. Mən onun söylədiklərini başqa cür demək istəyirəm. Sultan Əhmədi Təbriz taxtından daha çox Bağdad taxtı maraqlandırır. Əslində onun üçün Azərbaycan, Təbriz yaddır. Bu yerlərin camaatı bizdəndir. Dilimiz də birdir, dinimiz də. Özü də biz zorluyuq. Demək Təbriz taxtına, Azərbaycan taxtında oturmağa bizim haqqımız daha çoxdur.

Pir Həsən kinayə ilə:

– Bir iştahaya bax ha... Yoxsa Azərbaycan taxtında oturmaq xəyalına düşmüsən?—dedi.

Hamı Pir Həsənə döndü. Qara Məhəmməd əsəbi halda ağzını doldurdu. Qara Yusif vəziyyətin gərginləşməsini görüb gülümsünə-gülümsünə Pir Həsənə baxdı və:

– Mən niyə? Mən hamıdan kiçiyəm. Birinci, babam Qara Məhəmməd, Qaraqoyunluların başçısı var. Sonra əmim, böyük qardaşım, daha sonra da sən varsan,—deyib üzünü atasına çevirdi, onun da, əmisinin də dodağının qaçdığını gördü, özü də gülümsündü:

—Babam, mən onu demək istəyirəm ki, biz əmir Teymurun bu yerlərə gəlməsini gözləyəmmərik. Zorumuz var, yığışaq gedək Təbriz tərəfə, əmir Teymurun üstunə. Naxçıvanda iki yüz min camaat var, bir iyirmi min adam da Naxçıvan verər.

Qara Yusif üzünü divar boyu oturmuş naxçıvanlılara çevirib soruşdu:

– Elə deyilmi?

Naxçıvan kübarlarından səs çıxmadı. Bunun səbəbini bilən Qara Məhəmməd oğluna özü cavab verdi:

– Oğlum, Azərbaycan barəsində, Təbriz barəsində düz fikirləşmisən, elə bil mən düşündüklərimi qabaqcadan sənə söyləmişəm. Mən, mən olmasam Berdi Xoca, Misir Xoca, Pir Həsən, yaxud sən bu işi görməlisiniz. Yerli camaat bu işdə bizə əlindən gələn göməyi eləyər. Onlar yaxşı başa düşürlər ki, biz onlardanıq, onlar da bizlərdən. Dilimiz, dinimiz birdir. Ancaq biz əmir

Teymurun üstünə gedə bilmərik, zorumuz çatmaz. Əmir Teymur çox zorludur, həm də o, çox ağıllı çəribaşıdır, sərkərdədar.

Pir Həsən əmisinə olan küdurətini yenə büruzə verdi:

— Bir yandan söyləyirsən Təbriz taxtı bizim olmalıdır, o biri yandan da deyirsən ki, topal Teymur belədir, elədir. Açıq söylə ki, qorxursan ondan.

Pir Həsənin son sözlərinin ağzından çıxması ilə Qara Yusifin xəncərini çəkib onun üstünə şığıması bir oldu. O, bir an içində Pir Həsəni dizləri altına aldı:

— Çox baş aparırsan. Sənin o başını indicə üzərəm.

Qara Məhəmməd Qara Yusifin üstünə elə bağırdı ki, ev titrədi:

— Sən nə eləyirsən? İtil buradan.

Qara Yusif Pir Həsəni dizləri altından buraxdı, ayağa qalxdı və üzünü atasına tutub dedi:

— Babam, özün öyrətmisən ki, böyüyə ağ olan ölməlidir, elimizin adəti belədir.

Berdi Xoca gah Qara Məhəmmədə, gah da onun ötkəm oğlu Qara Yusifə baxa-baxa dedi:

— Qardaşım, bağışla onu, bir qələtdir elədi.

Pir Həsən xəncərinin qəbzəsindən bərk-bərk yapışıb qapıya tərəf getdi, qapını açdı və:

— Yaxşı, sən sən ol, mən də mən,—deyib qapı arxasında görünməz oldu.

Qara Məhəmməd söhbəti davam etdirməyə ehtiyac görməyib üzünü Naxçıvan kübarlarına tutub dedi:

— Bizim hamımız bu fikirdəyik ki, əgər əmir Teymur üzünü bu tərəflərə çevirəsi olsa, bizim bircə yolumuz qalır: o da Naxçıvanı müdafiə eləmək. Siz də şəhər camaatını hazır vəziyyətdə saxlayın.

Naxçıvan kübarları Pir Həsənin yaratdığı gərginliyin tez aradan qalxmasına sevindilər. Onlar durub gedəndə Qara Məhəmməd dedi:

— Mən camaatımızın hamısını şəhərə köçürəcəyəm.

Naxçıvanlılar razılıq əlaməti olaraq başlarını tərpədə-tərpədə otaqdan çıxdılar.

Qara Məhəmmədin Naxçıvanlılarla görüşündən, Pir Həsənin açıq eləyib Naxçıvandan getməsindən, başına böyük qoşun dəstəsi toplayıb əmisinə, əmisi oğlanlarına düşmən kəsilməsindən bir neçə vaxt sonra əmir Teymurun qoşunlarının Naxçıvan üzərinə gəlməsi xəbəri şəhərə sürətlə yayıldı. Qara Məhəmmədlə danışıq apardıqdan, onun kömək vəd etməsindən sonra Teymurlənki qarşılamağa cox ciddi hazırlıq görmüş şəhər kələntəri, əmir Teymurun qoşunlarının Naxçıvanın cəmi on-on beş fərsəxliyində olmasını eşidən kimi şəhəri müdafiə etmək fikrindən vaz keçdi. O məhəllələrin kələntərlərini, qoşun başcılarını, şəhər əyanlarını yanına çağırdı və birbaşa mətləbə keçdi:

– Əmir Teymurun qoşunları qapımızın ağzındadır. Qara Məhəmmədlə danışıqlardan xəbərdarsınız. Ancaq mən fikrnmi dəyişmişəm. Ötən ilin qışında Toxtamış xanın öhdəsindən gələ bilmədik, şəhər camaatı qarət olundu, var-yoxdan çıxdı. Deyirlər, Toxtamış xan əmir Teymurdan qorxub qaçıb. Toxtamış xan kimi yüz minə yaxın qoşunu olan bir sərkərdənin Teymurləngin qarşısından qaçması o deməkdir ki, biz onun qabağına çıxası halda deyilik. Naxçıvanı döyüşsüz təslim eləsək, bəlkə əmir Teymur camaatımıza aman verdi.

Sərkərdələrdən biri dilləndi:

– Düz buyurursan, ancaq Qara Məhəmməd də Qara Məhəmməddir, indi o çox zorludur. Biz onun rizası olmadan şəhəri əmir Teymura təslim eləyə bilmərik. Qorxuram sənin bu məramından xəbər tutmuş Qara Məhəmməd açıqlanıb Naxçıvanı qoşunlarının qarətinə verə.

Kələntər fikrə getdi və dedi:

– Düz deyirsən. Mən Qara Məhəmmədin yanına gedərəm, çalışaram onu razı salım. Bir də biz Əlincə qalasına adam göndərməliyik. Orada sultan Əhmədin qoşunları var, qoşunların başçısı əmir Altun var. Axı biz birbaş ona tabeyik. Qoy görək o nə deyir?

Bu fikri bəyənən olmadı. Bayaqkı sərkərdə dedi:

– Əmir Altunun cəmi-cümlətanı üç yüz nəfərlik kiçik bir dəstəsi var. Qala alınmazdır. Sultan Əhməd qaçanda xəzinəsini boş yerə oraya daşıtmayıb. Əmir Altunun fikri-xəyalı o xəzinəni qorumaqla məşğuldur.

Kələntər onunla razı olduğunu bildirdi:

– Yaxşı, qoy elə olsun. Gedim Qara Məhəmmədlə görüşüm,— deyib qalxdı.

Kələntər Naxçıvan hasarlarının çox da möhkəm olmamasını, qoşun başçılarının vuruşmaq istəməməsini, qalanı möhkəmləndirməyin qeyri-mümkünlüyünü bəhanə edib Qara Məhəmmədə dedi:

– Şəhər camaatını bir il əvvəl Toxtamış xanın qoşunları qarət eləyiblər. İndi əmir Teymuru qeyzləndirmək şəhərin viranəyə çevrilməsinə səbəb ola bilər. Yaxşısı budur ki, şəhəri təhvil verək, bəlkə camaata aman verdi.

Qara Məhəmməd kələntərin sözlərindən çox narazı qaldısa da ona haqq da qazandırdı. Qara Məhəmməd açıq döyüşdə məğlubiyyətə düçar ola biləcəyini də fikirləşdi. O, Teymurləngin qoşunlarına dağların arasında tələ qurmaq, bu yolla onu məğlubiyyətə uğratmaq fikrinə düşdü. Qara Məhəmməd dedi:

– Yaxşı, qoy sən deyən, olsun, ancaq o topaldan nahaq yerə aman gözləyirsən. Onun ürəyini almaq istəyirsənsə, boynuna kəfən sal, əlinə yalın qılınc götür və qabağına çıx. Mənim də qılıncım yalın olacaq, ancaq aman istəməkdən ötrü yox, aman verməmək üçün. Mən günü bu gün Naxçıvandan çıxıb gedərəm.

Kələntər Qara Məhəmmədin onunla çox asanlıqla razılaşmasına sevindi. İki gündən sonra əmir Teymurun qoşunları Naxçıvan yaxınlığında görünən kimi bütün məhəllələrin aqsaqqallarının, qoşun başçılarının boyunlarına kəfən saldırıb, əllərinə yalın qılınc götüzdürərək özü də boynu kəfənli, əli yalın qılınclı Teymurləngin qarşısına çıxdı. Onlar əmir Teymurun atı ilə bərabərləşən kimi üz üstə qapandılar. Kələntər yalnız əmir Teymurun xırıltılı səslə:

– Qalx ayaqa, sözünü söylə,—deməsindən sonra dizi üstə qalxdı və dedi:

—Ey böyük Sahibqran, Naxçıvana xoş gəlib, səfa gətirmimisən. Bizim hamımız sənə fəda olmağa hazırıq, kəfənlərimnzn çiynimizdə, boynumuzu vurdurmağa yalın qılıncımız əlimizdədir.

Kələntər əmir Teymurun heç nə ifadə eləməyən göy gözlərinə baxdı, canına üşütmə düşdü. Teymurləng yenə xırıldadı:

– Yaxşı, qalxın, Naxçıvana aman verirəm, ancaq bir şərtlə...—O susdu, hələ də dizi üstünaə olan kələntəri, onun müşayiətçilərini bir də gözdən keçirdi, onların yazıq görkəmindən həzz aldı və sözünə davam etdi.—Bir şərtlə ki, o mənim tacirlərimi, karvanlarımı soymağa cürət eləmiş Qara Məhəmmədi qolları bağlı hüzuruma gətirəsiniz,

Kələntər qorxa-qorxa:

— Sənə fəda olum, böyük Sahibqran. Qara Məhəmməd sənin qoşunlarının Naxçıvana yaxınlaşmasından xəbər tutan kimi başını götürüb qaçdı. O özü ilə qoşunlarını da, bütün camaatını da apardı.

Teymurləng atını tərpətdi, başını Naxçıvana tərəf çevirdi, hələ iki gün əvvəl Qara Məhəmmədin əyləşdiyi evin həyətinə girdi, atından düşdü və cəld sanki bir qıçı heç topal deyilmiş kimi pillələri qalxıb evə girdi. Evi qabaqca hazırlamış qoruqçubaşı Sahibqranın çiyninə saldığı kürkü ondan aldı. Teymurləng otağı diqqətlə gözdən keçirib, onun üçün hazırlanmış yerdə əyləşdi və xırıldadı:

– Lələ Xocanı çağır.

Teymurləngi müşayiət eləyən əyanlar, sərkərdələr bayırda əmrə müntəzir dayanmışdılar. Lələ Xoca tələsik içəri girib əlləri sinəsində çarpazlanmış halda dayandı. Teymurləng Lələ Xocanı xeyli gözlətdi. O, başını yerə dikmiş, sol əlilə sağ qolunu ovuşdura-ovuşdura xəyala dalmışdı. Lələ Xoca belə hallarda nəinki heç kimin öskürməyə, hətta dərindən nəfəs almağa ixtiyarı olmadığını gözəl bilirdi. O, sükutu pozmamağa xüsusi səy göstərirdi, ancaq ömrü boyu öskürməynn nə olduğunu bilməyən Lələ Xocanı birdən öskürək tutdu. 0, əlilə ağzını bərk-bərk tutub, öskürəyini udmağa çalışdı. Boğazı acışır, boğulurdu. Teymurləngin başını qaldırıb sevimli sərkərdəsinə baxması, onu oturmağa

dəvət etməsi, Lələ Xocanı cəhənnəm əzabından xilas etdi. O, dərindən nəfəs aldı, boğazını arıtladı, öskürməsi bnr anın içində keçib getdi. Lələ Xoca Teymurləngin işarəsilə oturdu. Əmir Teymur dedi:

– Lələ Xoca, Qara Məhəmməd qaçdı, əlimizdən çıxdı. Onu uzağa getməyə qoymaq olmaz. Ağıllı, bilici adamdır, həm də zorludur. Gələcəkdə bizdən ötrü böyük təhlükə ola bilər. Qoşun götürüb onun ardınca get, günü bu gün get, onu tapıb başını gətir.

Lələ Xoca tez qalxdı:

– Baş üstə, böyük Sahibqran. O, yerin təkinə də kecsə tapıb çıxararam, başını elə bu evin özündə sənin mübarək ayaqlarının altına ataram,—dedi.

Teymurləng Lələ Xocanın qızğınlıqla dediyi sözlərdən xoşhal oldu, kürən bığları titrədi, gözləri nəmləndi. Lələ Xoca Sahibqranın kefi durulanda bığlarının titrəməsi və gözlərinin nəmlənməsi şakərini bilirdi. O, xeyli ürəkləndi.

– İzn ver yola düşüm, böyük Sahibqran,—dedi.

Teymurləng başını tərpətdi və dedi:

– Geri qayıdanda Naxçıvana gəlmə, mən burada çox qalmayacağam, Qarabağda olacağam, əmir İbrahimlə görüşüb orada qışlayacağam. Üzü yaza dönəndə Toxtamışla haqq-hesabı çürütməyə gedəcəyəm. Qara Məhəmmədi o dünyalıq eləyəndən sonra Qarabağa gələrsən.

Lələ Xoca “baş üstə” deyərək dalı-dalı yeriyib çıxdı.

Teymurləng Naxçıvanda bir həftə qaldı, lakin o, Lələ Xocaya dediyi kimi birbaşa Qarabağa getmədi, Əlincə qalasını, sultan Əhmədin oradakı xəzinəsini ələ keçirməyi, qalanı uçurub yerlə-yeksan etməyi qərara aldı və qoşununu qala üzərinə apardı. Teymurləng bütün sərkərdəlik qabiliyyətinn işə saldısa da, əmir Altunun başçılıq etdiyi üç yüz nəfərlik qala müdafiəçilərinin müqavimətini qıra bilmədi. O, qalanı mühasirədə saxlamaq, Əlincə müdafiəçilərini ac və susuz qoymaqla onların müqavimətini qıra biləcəyini güman edib burada böyük qoşun dəstəsi qoyaraq, Naxçıvanı tərk etdi.

* * *

Qara Məhəmməd Naxçıvan civarını tərk edəndən sonra böyük sürətlə Capaqcur adlanan yerə baş aldı. O, Capaqcura çatıb düşərgə saldı, oğlanlarını, qardaşlarını, qoşun başçılarını, əmirləri yanına çağırdı və təmkinlə dedi:

— Əmir Teymurun, bizi Naxçıvanda görməyib arxamızca qoşun göndərəcəyi şübhəsizdir. Mən Naxçıvandan çıxanda orada öz adamlarımı qoymuşam. Teymurləng üzərimizə qoşun göndərəcəyi təqdirdə onlar özlərini buraya yetirib xəbər gətirəcəklər.

Qara Məhəmməd üzünü oğlu Qara Yusifə çevirdi:

— Naxçıvandan xəbər çıxmasını gözləmədən, sən sabah öz atlılarınla qarşıdakı dar keçidin hər iki tərəfindəki təpələrin başında, gözdən kənarda əlverişli yer seçərkən, oraya çoxlu iri daş yığdırarsan və düşməni gözləyərsən,—dedi.

Qara Yusif atasının sözlərinə yalnız «baş üstə» deməyə alışmışdı. O bu dəfə də həmin sözləri təkrar etdi, ancaq gözləri oğlunda olan Qara Məhəmməd onda nəsə demək istədiyini duydu və dedi:

— Sözlü adama oxşayırsan.

Qara Yusif ehtiyatla:

— Babam, bəlkə əmir Teymur heç ardımızca qoşun göndərmədi, camaatımızı niyə nahaq yerə incidək, onlara uca təpələrin başına daş daşıtdıraq?

Qara Məhəmməd oğlunun sözlərinə gülümsündü:

— Oğlum, sözlərində həqiqət var. Ancaq qoşun başçısı qabağı görməyi bacarmalıdır. Teymurləngin ardımızca qoşun göndərəcəyinə şübhə eləmirəm, buna görə də hər ehtimala qarşı hazır olmaq lazımdır.

Qara Yusif atasına cavab vermədi. Ertəsi gün səhər tezdən öz adamları ilə atasının dediyi yerə yollandı.

Qara Yusifin yola düşməsindən üç gün sonra, Qara Məhəmmədin Naxçıvanda qoyduğu kəşfiyyatçılar gəlib çıxdılar, əmir Teymurun Lələ Xocanın başçılığı altında böyük qoşunla onların üzərinə yeriməsi xəbərini gətirdilər. Qara

Məhəmməd Misir Xocanı, qardaşı Berdi Xocanı, digər sərkərdə və əmirlərə yanına çağırdı:

– İndicə yığışın. Qara Yusifin tutduğu mövqedən bizə tərəf olan keçidlərin sağında və solunda, gözdən iraq yerdə mövqe tutub, Lələ Xocanın qoşunlarını irəli buraxacağıq. Onları birinci Qara Yusif qarşılayıb, təpələrin başına yığdığı daşları üstlərinə yuvarlayıb qurtarandan sonra atlılarını dağ seli kimi onun üstünə tökəcək, Lələ Xocanın qoşunları vahiməyə düşüb geriyə qaçacaq. Bax onda biz onların üstünə hücuma keçəcəyik.

Berdi Xoca qardaşını diqqətlə dinləyən sərkərdələrə baxıb yenə Qara Məhəmmədə döndü və dedi:

– Qardaşım, Lələ Xoca çox usta çəribaşıdır. O sənin fikirləşdiyin kimi asanlıqla tələyə girən kəsəyənlərdən deyil.

Qara Məhəmməd qardaşı ilə razı olduğunu bildirdi, o da sərkərdələrə baxıb davam etdi:

—Xocanın bizim ona müqavimət göstərməyə hazırlaşmamıza heç olmasa bir balaca əminliyi olaydı. Çox da böyük müqavimətə rast gəlmədən bir-birinin ardınca qazanılmış qələbələr, Lələ Xocanı arxayın salmamış deyil. Lələ Xoca bizi zəif düşmən hesab eləyir. Onun fikrincə, bizi haqlayıb açıq döyüşdə tarmar eləyəcəkdir. Bununla belə, yenə təkrar eləyirəm ki, sözündə həqiqət çoxdur. Lələ Xoca kəşfiyyatçılar göndərəcəkdir. Bizim gözlərimiz dörd olmalıdır ki, onları nəzərimizdən qaçırmayaq.

Berdi Xoca daha dinmədi. Bu an Qara Məhəmmədin üzü birdən- birə dəyişib, qorxunc bir ifadə aldı. Bu heç kimin, o cümlədən sözlərini deyib qurtarmış, lakin gözləri hələ də qardaşında olan Berdi Xocanın nəzərindən qaçmadı. Qara Məhəmməd xeyli fikirləşəndən sonra başını yavaş-yavaş qaldırıb gözlərini qardaşına çevirdi:

– Berdi Xoca, məni düşmən qlavuzlarından daha çox sənin oğlun Pir Həsən narahat eləyir. Cox güman ki, o bizim bütün hərəkətlərimizi izləyir, haraya və necə getməyimizi bilir. Əgər o...

Berdi Xoca dözmədi:

— Sən nə söyləyirsən, qardaşım? Söyləmək istəyirsən o bizə xəyanət eləyib Lələ Xocaya yol göstərə bilər?

Qara Məhəmməd qardaşına baxmadan:

— O belə bir iş tutsa, ona aman verməyəcəyəm, qardaşım.

Berdi Xoca qızğınlıqla:

— O belə bir iş tutsa, öz soyuna xəyanət eləsə, mən onu öz əllərimlə öldürərəm,—dedi.

Qara Məhəmməd söhbəti dəyişdi, onları dövrəyə almış əmirlərdən birinə dedi:

— Oğlum, Qara Yusifə tapşırmadım ki, daşları düşmənin üzərinə yuvarlayandan sonra, öz atlıları ilə hücuma keçsin. Get mənim bu tapşırığımı ona yetir.

Əmir «baş üstə» — deyib yola düzəldisə də, Qara Məhəmmədin onu oğlunun yanına nahaq yerə göndərməsini fikirləşdi. O əmin idi ki, Qara Yusif kimi ağıllı qoşun başçısı belə bir işi özü dərk eləməyə bilməz.

İki gündən sonra Lələ Xocanın qoşunları Qara Məhəmmədin qoşunlarının sağında və solunda gizləndiyi keçiddən keçdilər. Onlar gözdən itən kimi Qara Məhəmməd qoşunlarını döyüş vəziyyətinə gətirdi və əmirlərinə dedi:

— Lələ Xoca bir azdan Qara Yusifin olduğu yerə yaxınlaşacaq, demək biz onu ən uzağı günortaya yaxın burada gözləməliyik.

Lələ Xocanın qoşunları keçiddə irəliləyərkən onları nəzərləri ilə müşayiət eləyə bilmiş kəşfiyyat rəisi Qara Məhəmmədə dedi:

— Məhəmməd xoca, mən Lələ Xocanın qoşunlarının önündə və arxasında qoşunlardan fərqli geyimdə iki böyük dəstənin də irəlilədiyini gördüm. Mənə belə gəldi ki, onlar silahlı deyildilər, əlləri arxalarına bağlanmış halda silahlı gözətçilərin nəzarəti altında gedirdilər.

Qara Məhəmməd bir an belə düşünmədən:

— Ay namərdlər. Bu hiyləgər Lələ Xocamın işidir. O, qoşununa irəlidən və ya arxadan hücum edilə biləcəyini fikirləşmiş, ilk zərbənin qarşısına əsirləri

verməyi qət etmişdir. Bilirsiniz ki, əmir Teymur Təbrizdən xeyli əsir gətirmişdir. — Qara Məhəmməd sözünə bir qədər ara verib davam etdi.

—Bu bizdən hərəkətlərimizdə dəyişiklik eləməyi tələb edir. Yığışın, biz onların ardınca gedirik. Onlar Qara Yusifin zərbəsinin qarşısına əsirləri verib öz qüvvələrini qoruyub saxlaya biləcəklər. Bu isə Qara Yusifin vəziyyətini xeyli ağırlaşdıracaq. Axı onlar sayca çoxdurlar. Bir də Lələ Xoca arxadan zərbə gözləmir. Biz keçidlə deyil, onun sağında və solundakı təpələrin arxası ilə Lələ Xocaya yaxınlaşmalı, Qara Yusiflə eyni çağda onun qoşunlarının üstünə tökülməliyik. Çalışmalıyıq ki, təpələrin arxasından düşmən üzərinə hücuma keçəndə əsirləri qoşundan ayırıb onları öz arxamıza keçirək. Onların əllərini tez açmalıyıq. Mən əminəm ki, əsirlər ölənlərin və yaralananların silahlarını götürüb düşmənin üzərinə tərlan kimi şığıyacaqlar. Onlar Əmir Teymurun Təbrizə tutduğu divanın heyfini almaq üçün canlarını belə əsirgəməyəcəklər, Lələ Xocanın qoşunlarına aman verməyəcəklər.

Qara Məhəmmədin qoşunları tələsik yola girdilər. Qoşunlar çox ehtiyatla, oğrun-oğrun irəliləyirdilər. Buna baxmayaraq, Lələ Xoca Qara Yusifin mövqeyinə yaxınlaşanda, arxasınca qoşun gəldiyindən xəbər tutub dayandı, qoşununu əylədi. Lakin o, arxasınca Qara Məhəmmədin irəliləməsini, öz qoşununun sayca onunkundan xeyli çox olmasını bilsə də hücum əmri vermədi. O başa düşdü ki, Qara Məhəmmədin qoşunları keçidin həm sağında, həm də solunda təpələrin arxası ilə irəlilədiyindən, onların mövqeyi əlverişlidir və onun qoşunu hücum edərsə, asanlıqla dəf olunub, böyük itgi verə bilər. Bir yandan da Lələ Xocanı əsirlər qorxuya saldı. O, iki mindən artıq əsirin indi ona xeyirdən daha çox buxov olmasını başa düşüb onları bir yerə yığdıraraq nəzarət altına aldı. Bundan sonra Lələ Xoca minbaşıları çağırıb onlarla məsləhətləşdi və belə qərara gəldi ki, hələlik hücuma keçməsin, düşmənin hücum etməsini gözləsin. Təcrübəli sərkərdə olan Lələ Xoca sonda dedi:

– Onlar çox gözləməyəcəklər, gözləyə bilməyəcəklər. Qara Məhəmməd tədbirlidir, ancaq oğlu Qara Yusif dəliqanlıdır, dözə bilməyəcək, qoşununu

üstümüzə tökəcək. Bizə də bu lazımdır. Biz burada, keçiddə onların öhdəsindən gələ bilərik.

Qara Məhəmməd isə başqa cür fikirləşirdi. O, ilk növbədə gözdən bir qədər aralıda toplanmış əsirləri azad etməyi, onları silahlandırmağı məhz həmin yerdən, Lələ Xocanın gözləmədiyi yerdən hücuma keçməyi qərara aldı və oğlu Qara Yusifə xəbər göndərdi ki, özünü göstərməsin, döyüş qızışan kimi qəflətən arxadan düşmənin üstünə düşsün.

Qara Məhəmməd Lələ Xocanın tərəddüd içində olmasını hiss etdi, gülümsündü və öz-özünə pıçıldadı:

— Çəribaşının tərəddüd içində olması onu çaşqın salar, döyüş meydanında isə çaşqınlıq məğlubiyyətin başlanğıcıdır. Mən bundan istifadə etməyə çalışmalıyam.

Qara Məhəmməd əsirləri azad etmək əməliyyatını qəsdən gecikdirib Lələ Xocanın tərəddüdünü daha da artırdı. Lələ Xoca qəfəsə salınmış şir kimi çadırında var-gəl eləyir, tez tez yanındakı əmirlərdən soruşurdu:

— Necə eləyək, necə? Nə hücum eləyə, nə də bir başqa tədbir görə bilərik. Biz heç geriyə də çəkilə bilmərik. Bu dar yolda qoşun səpələnər, qüvvələr parçalanar, bizi qırarlar. Neyləyək, necə eləyək?

Sərkərdələr, əmirlər, digər qoşun başçıları susur, onun sualına cavab tapa bilmirdilər. Nəhayət, sərkərdələrdən ən təcrübəlisi dilləndi:

— Lələ Xoca, mənim başıma bir dəfə belə iş gəlib. Sayca çox qoşunum ola-ola elə vəziyyətə düşmüşəm ki, hücuma keçmək imkanım olmayıb. Onda cavan idim, yaşlı bir köməkçim var idi. O zaman sənin kimi tez tez təkrar elədiyim «necə eləyək» sualıma çox qısa cavab vermişdi. O demişdi ki, gözlə, gözlə ki, düşmən hücuma keçsin, onda üstünlük sənin tərəfinaə olacaq. Həqiqətən də elə oldu. Üç gün gözlədim, hövsələmi basıb gözlədim. Düşmənin çəribaşısı daha dözümsüz, darqursaq oldu, hücum elədi, payını aldı.

Hər iki tərəf axşama kimi gözlədi, hücuma keçmədi. İkinci gün də sakit keçdi. Lakin bu sakitlik nisbi idi, əsəblər mübarizəsi gedirdi, hər iki tərəfin səbr kasası

dolmaq üzrə idi. Axşam qaranlığı düşən kimi Qara Məhəmməd qoşun başçılarırını çağırdı və dedi:
Sabah sübhdən hücuma keçirik. Hamımızın həm sağ, həm də sol cinahda olan qoşunların bir hədəfi olacaq. Hücum eyni zamanda başlanacaq, günəşin şüaları qarşısında böyük qarağacın lap təpəsinə düşən kimi. Berdi Xoca əsirlər olan yerə həmlə eləyib onları qurtaracaq. Onun əsgərləriniən iki min nəfərinin hər biri iki dəst silah götürməlidir. Əsirləri azad eləyən kimi onlara silah paylayır və onlarla birlikdə Lələ Xocanın toşunlarının üstünə tökülür. Həmin an Misir Xoca sol cinahdan hücuma keçəcək. Mənim qoşunlarım ehtiyatda qalacaq. Siz hücuma kecən vaxt Qara Yusif də öz işini görməyə başlayacaq.

Səhər acılanda közlərinn köyə dikmiş Qara Məhəmməd nara- hat oldu, köyün üzü qara buluda bürünmüşdü, demək qarağacın başı künəşin ziyasında yuyuna bilməyəcəkdi. Qara Məhəmməd Misir Xocaya tə'cili xəbər köndərdi və bildirdi ki, həmin qara- ğacın başında ağ bayraq körən kimi hücuma kecsin. Qara Məhəm- məd eyni zamanda qarağacın başına ağ bayraq sancmaqdan ötrü iki adam cağırdı və bayraq ağacın başında yellənməyə başla- yana kimi közlərini hədəfdən cəkmədi.

Ağ bayraq yellənən kimi Misir Xoca ilə Berdi Xoca eyni vaxtda hücuma keçdilər. Lələ Xoca Qara Məhəmmədin hücumunun qarşısını almağa hazır idi. Ancaq heç ağlına da gətirmirdi ki, onun qoşunları hücuma əsirlər olan yerdən başlayacaqlar və ona görə də oraya cox cüzi qoşun toplamışdı. Berdi Xoca əsirləri asanlıqla azad edib silahlandıra bildi, onları hücuma apardı. Azad edilmiş əsirlərin hesabına qüvvələri birə-iki artmış Berdi Xoca ciddi həmlə ilə düşmən qoşunlarını sıxışdırdı. Lakin tezliklə Lələ Xoca Misir Xocanın qoşunlarını mühasirəyə aldı. Qara Yusifdən isə xəbər-ətər yox idi, o, düşmənin ona tərəf sıxışdırılacağını gözləyirdi. Qara Məhəmməd oğlunun bu fikrini başa düşdü, o, mühasirəyə düşmüş Misir Xocanın köməyinə qoşmaq əvəzinə təpələrin arxası ilə sürətlə irəli getdi və Lələ Xocanın qoşunlarının ön dəstəsinə hücum edib onu Qara Yusifə sarı sıxışdırdı. Qara Yusifin atlıları düşmənin üzərinə töküldü.



Ata ilə oğul yanaşı vuruşa-vuruşa öz dəstələri ilə Misir Xocanın köməyinə yetişdilər, onu mühasirədən qurtardılar. Düşmən böyük itgi versə də hələ xeyli güclü idi. Qoşunların böyük bir dəstəsi keçidin sağı və solu boyu uzanan təpələrdən ikisinin arasındakı geniş talada üz-üzə vuruşan zaman Lələ Xoca ağ atının üstündə irəli çıxdı və qışqırdı:

— Haradasan. Qara Məhəmməd, nə yaşınmısan qoşunlarının dalında, çıx meydana qılınc oynat.

Qara Məhəmməd uzaqda olduğundan Lələ Xocanın çağırışını eşidə bilmədi, meydana Berdi Xoca çıxdı:

— Qara Məhəmməd uzaqdadır, səni eşitmir. Səninlə qılınc oynatmağa hazıram. Mən Qara Məhəmmədin qardaşı Berdi Xocayam.

Lələ Xoca Berdi Xocanı diqqətlə gözdən keçirib dedi:

— Səninlə meydana girmərəm, çəlimsizsən.

Berdi Xoca atını meydana sürdü:

— Hərzə danışma, qılıncını sıyır,—qışqırdı.

Hər iki tərəfin qoşunları əl saxladı. Lələ Xoca atını Berdi Xocaya sarı surdu. Berdi Xoca qalxanını üzünə qaldırdı, əmudunu irəli tutub atını rəqibinə doğru çapdı. Hər iki rəqibin əmud zərbəsini qalxanlar dəf etdi. Təkbətək döyüş cox da uzun cəkmədi, Lələ Xoca imkan tapıb əmudunu Berdi Xocanın sol böyrünə vura bildi. Berdi Xocanın aldığı yara ağır oldu, o, atından aşdı və tezliklə canını təslim etdi. Lələ Xoca atının üstündə, bir əlində əmud, o biri əli belində qürurla ətrafa boylandı və səsi gəldikcə qışqırdı:

— Haradasan, Qara Məhəmməd, meydana çıx.

Misir Xocanı mühasirədən çıxandan sonra Qara Məhəmməd onunla yanaşı qılınc çalan oğlu Qara Yusiflə birlikdə Lələ Xoca ilə Berdi Xocanın vuruşduğu talaya yaxınlaşdı. Qara Məhəmmədlə Qara Yusif talada təkbətək döyüş getdiyindən xəbərdar deyildilər. Onlar Berdi Xocanın atdan yıxılmasını da görmədilər, yalnız Lələ Xocanın çağırışını eşit-dilər. Qara Məhəmməd atının başını çəkib oğlu Qara Yusifə baxdı və dedi:

– Deyəsən kimsə məni səsləyir.

Qara Yusif başını tərpətdi:

– Elədir, babam, səs qarşıdakı taladan gəlir. Şağıran Lələ Xocadır, səni təkbətək döyuşə çağırır.

Qara Məhəmməd atının başını talaya sarı çevirdi, Qara Yusif onun ardınca götürüldü. Qara Məhəmmədi görən qoşunlar aralanıb ona yol verdilər. Qara Məhəmməd qoşunların önünə çıxanda Lələ Xocanı talanın ortasında at üstündə oturub onu döyüşə səslədiyini gördü. Qara Məhəmməd hələ qardaşının öldürülməsini bilmirdi və Lələ Xocanın çağırışını qəbul edir atını ona sarı sürmək istədi. Qoşun başçılarından biri onun qarşısına keçib dedi:

– Dayan, Qara Məhəmməd, atın Berdi Xocanın meyitini ayaqlayar, qoy onu götürək. \

Qara Məhəmməd təəcüblə:

– Nə dedin?—soruşdu.

Minbaşı məsələnin nə yerdə olmasını qısaca Qara Məhəmmədə söylədi və arxasında dayanmış yüzbaşıya döndü:

—Dörd-beş əskər götür, get Berdi Xocanın meyidini gətir,—dedi, o döyüşə girmək, qardaşının intiqamını almağa tələsirdi. Lakin nə Qara Yusif, nə də digər qoşun başçıları Qara Məhəmmədin özündən xeyli cavan, qat-qat çevik və güclü Lələ Xoca ilə döyüşə girməsinə razı olmadılar. Qara Məhəmməd israr edir, onlar isə qoymur, mane olurdular. Nəhayət, heç vaxt atasının bir sözünü iki etməmiş Qara Yusif dözmədi:

– Babam, boş-boşuna ölümə getməyin nə xeyri? O səndən qat- qat-qat çevik və zorludur, çünki səndən xeyli cavandır. Sən onun öhdəsindən gələ bilməzsən. Bu qədər adamın dediyinin əleyhinə niyə gedirsən?—dedi, susdu, atasının daha coşmadığını görüb davam etdi:

– Babam, izn ver, onunla savaşa mən girim..

Qara Məhəmməd razılıq əlaməti olaraq başını tərpətdi, Qara Yusif atını Lələ Xocanın dayandığı yerə sürdü və onun on addımlığında atının başını çəkdi.

Lələ Xoca özü kimi pəhləvan cüssəli, lakin hələ cox cavan olan Qara Yusifi başdan-ayağa süzüb kinayə ilə gülümsündü və dedi:

– Sənin ki, ağzından süd iyi gəlir. Belə görunür ki, Qara Məhəmməd öz qardaşına, oğluna qiymət qoymur, onları nahaq ölümə göndərir.

Qara Yusif Lələ Xocanı heç vaxt görməmişdi, ancaq barəsində çox eşitmişdi. O, Lələ Xocanın, əmir Teymurun bu sevimli çəribaşısının sərkərdəlik bacarığından da xəbərsiz deyildi. Ancaq onun təkbətək döyüşdə nə hünərin sahibi olmasını bilmirdi. Qara Yusif onun dağ gövdəsinə bir də nəzər saldı və onunla savaşın çox ağır olacağını qət etdi. Lələ Xocanın onun əmisi Berdi Xocanın öhdəsindən çox asanlıqla gələ bilməsindən xəbəri olan Qara Yusif bütün qüvvə və bacarığını səfərbər etmək, yalnız Lələ Xocanı yorandan sonra qətr hücuma keçməyi qərarlaşdırıb dedi:

– Buyur, Lələ Xoca, bu meydan, bu da şeytan. Nə ilə vuruşacağıq, əmudla, yoxsa qılıncla?

Berdi Xocaya əmudla qalib gələ bilmiş Lələ Xoca, əlbəttə, əmuda üstünlük verirdi. Lakin o bunu rəqibinə bildirməmək, öz üstünluyünü nümayiş etdirmək üçün dedi:

– Sən seç, ağzından süd iyi gələn oğlan, gərək ki, adın Qara Yusifdir. İstədiyin yarağı seç.

Qara Yusif də əmuda üstünlük verirdi, ancaq o bunu açıq söyləməyi lazım bilmədi:

– Mənim qoca əmimi, Berdi Xocanı deyirəm, əmudla üstələmisən, yəqin ki, mənimlə də vuruşmada əmuda üstünlük vermək istərdin. Buyura bilərsən.

Lələ Qoca qalxanını üzünə qaldırıb Qara Yusifin üstünə şığıdı. Zərbələr eyni anda endirildi, hər iki zərbəni qalxanlar qəbul etdi. Bundan sonra da rəqiblər atlarını bir neçə dəfə qoşunların dayandığı yerə sürərək, yenidən bir-birinin üstunə şığıdılar. Lakin sonrakı dəfələrdə yalnız Lələ Xoca zərbə endirdi. Qara Yusif isə əmudunu işlətmir, zərbədən yayınmaqla kifayətlənirdi. O, beləliklə Lələ Xocanı xeyli yordu, eyni zamanda onu öz sayıqlığını itirməyə

məcbur etdi və həmlələrən birində əmudunu işə salıb onu Lələ Xocanın boğazına keçirdi. Lələ Xoca atından yıxılıb öldü. Lələ Xocanın qoşunlarında çaşqınlıq yarandı, onlar qaçmağa başladılar. Buna baxmayaraq vuruşma axşam qaranlığı düşənə kimi davam etdi.

Ertəsi gün səhər açılanda Qara Məhəmməd ətrafda düşmən əsgərlərini görmədi. Onlar yaralılarını və ölülərini, o cümlədən Lələ Xocanın meyidini döyüş meydanından götürüb gecə ikən bu yerləri tərk etmişdilər.

Oğlu Qara Yusifin təcrübəli, hiyləgər, güclü sərkərdə Lələ Xoca ilə təkbətək döyüşünü böyük həyəcanla izləmiş, Qara Yusifin tədbirlərindən xəbərsiz olaraq, onun zərbə endirməyib, Lələ Xocanın zərbələrindən yayınmasından bəzən hirslənmiş, lakin sonra qəti zərbə ilə rəqibini atdan salmasından xeyli şad olmuş Qara Məhəmməd, döyüş başa catan kimi oğlanları Misir Xoca ilə Qara Yusifi, digər qoşun başçılarını və əmirləri yanına çağırdı. Xeyli itgiyə məruz qalmasına, Berdi Xocanın öldürülməsinə baxmayaraq, Qara Məhəmmədin kefi kök idi. O, çağırılanları gülərüzlə qarşıladı, çadırında oturmağa yer göstərdi və dedi:

— Biz cox zor düşmən üzərində böyük qələbə qazandıq. Bu bizim düşmən üzərində birinci qələbəmiz deyil. Ancaq bu qələbə heç nə ilə ölçülə bilməz. Bu qələbə bizim böyük məqsəd yolunda atdığımız birinci və ən böyük, dəyərli addımdır. Bəli, indi biz Təbriz üzərinə gedə bilərik, Azərbaycan taxtı uğrunda çarpışa bilərik.

Çox danışmağı xoşlamayan, danışanları dinləməyə üstünlük verən Misir Xoca atası sözünü deyib qurtaran kimi dedi;

— Babam, yəqin ki, özun də gördün ki, əsirlikdən qurtardığımız təbrizlilər necə vuruşurdular. Onlar özlərini savaşın ən şiddətli yerlərinə soxurdular.

Qara Yusif atasının qardaşına cavabını gözləməyib qızğınlıqla dedi:

— Elədir, qardaşım. Biz babamla birlikdə sənin qoşunlarını düşmən mühasirəsindən qurtarmağa gələndə, onların sizə necə köməyə qoşulmasının, özlərini oda-alova vurmasının şahidi olduq.

Misir Xoca qardaşının sözlərindən daha da ürəklənibmiş kimi:

—Babam, mən onların, o igidlərin heç birinin adını bilmirəm, ancaq onlar tez-tez kimisə Rəşid deyə çağırır, Rəşid isə öz növbəsində həmyerlilərini öz ardınca səsləyir, çarpışmanın qızğın yerinə aparırdı. İş elə gətirdi ki, düşmən mühasirə həlqəsini lap sıxanda Rəşid çağırılan cavan, ucaboylu, enlikürək, nazik bığlı bir igid öz adamları ilə birlikdə mənim sağ cinahımda mühasirəni yara bildi. O mənimlə lap yanaşı vuruşurdu, sanki tanrı onu, onun həmşəhərlilərini məni hifz etməyə göndərmişdi.

Qara Məhəmməd söhbətin təbrizlilərdən düşməsindən razı qaldı. Bu onun Təbriz üzərinə yerimək fikri ilə uyğun gəlirdi. Qara Məhəmməd onlardan bu yürüşdə istifadə etmək fikrində idi. Lakin o bu mövzu ətrafında söhbətin xeyli uzanmasını görüb gülümsündü:

– Yaxşı, bəsdir təbrizliləri tərifədiniz, belə çıxır ki, Lələ Xocanı onlar məğlubiyyətə uğradıblar?—deyə zarafat etdi və ciddi görkəm alıb davam etdi,—indi yolumuz Təbrizədir, ancaq tələsmək gərək deyil. Yaxşı-yaxşı hazırlıq görməliyik. İndi isə qoy yemək-içmək gətirsinlər, sonra isə dincələk, hamımız yorğunuq.

Şamdan sonra hərə öz çadırına gedəndə Qara Məhəmməd Misir Xocaya dedi:

– Sabah o Rəşid dediyin igidi yanıma gətirərsən.

* * *

Rəşid evdən çıxanda hara gedəcəyini qət etməmişdi. O, sevgilisini tapmaqdan ötrü özünü oda da, suya da vurmağa hazır idi. Həyət darvazasından çıxan kimi Xavər gəlib gözlərinin qarşısında dayandı. Ona elə gəldi ki, indi sevgilisi haradasa Teymurləngin əsgərlərinin arasındadır, çərilərin həris gözləri ona dikilmişdir. O isə ağlayır, sızlayır, gah ala gözlərini göyə dikib allaha yalvarır, ondan kömək diləyir, gah da əllərini irəli uzadıb onu çağırır: «Rəşid, Rəşidim, gəl, gəl məni qurtar, ölərəm, namusuma toxunmağa yol verməręm, mənim Rəşidim»,—deyir, fəryad qoparır. Rəşid haraya getməsinə əhəmiyyət verməyib

irəliləyir ,onu dəhşətə gətirən bu ağır fikirlərdən uzaqlaşmağa çalışır, Xavərin yerini öyrənmək üçün yollar axtarırdı.

Rəşid başını qaldıranda qarşısında sarayı gördü. O, Mahmud Ağanın sarayda olduğunu bilirdi, sarayın Teymurləng qoşunları qərəfindən tutulmasından da xəbərdar idi. Ona görə də Mahmud Ağanın ona çox lazım olmasına baxmayaraq tərəddüd içində dayandı. Rəşid elə zənn edirdi ki, Mahmud Ağa Xavərin yerini öyrənməkdə hətta onu xilas etməkdə böyük iş görə bilər. Ancaq indi Mahmud Ağanın özü nə vəziyyətdədir?

Saraya soxulmuş Teymurləng, onun qoşunları Mahmud Ağa ilə necə rəftar etmişlər? Rəşid tezliklə bu suallarına özü cavab tapdı. O, Mahmud Ağanı yaxşı tanıyırdı. Gələcək qayınatasının Teymurləngin tərəfinə keçəcəyi ona gün kimi aydın idi. Demək o ya həbsə alınmış, ya da bir yerdə gizlənə bilmişdi sarayda yoxdu. Rəşid cəld oradan uzaqlaşdı. Artıq o, fikrini cəmləşdirə bilmiş, ələ keçə biləcəyindən ehtiyat etməyə başlamışdı. Saraydan xeyli aralanandan sonra meydan yolundan ona sarı gələn beş düşmən əsgərini görüb cəld qarşısına çıxan ilk qapını itələyib içəri girərək arxasında gizləndi. Teymurləngin əsgərləri uzaqlaşandan sonra darvaza arxasından çıxdı, bir addım atmamışdı ki, arxasında əsəs eşidib diksindi, geriyə qanrıldı. Girdiyi həyətin sahibinin oğlu Rəşidlə birlikdə bürclərdə vuruşmuş Əroğlan idi onu səsləyən:

— Səndən nə əcəb, Rəşid, bizim həyətə gəlmisən?

Rəşid onların həyətinə girməsinin səbəbini dedi və əlavə etdi:

— Mahmud Ağanın qızını bu gün aparıblar, onu axtarıram, yerini öyrənmək istəyirəm.

Rəşidin həmyaşıdı olan Əroğlan əllərini oynatdı, dərindən köks ötürüb dedi:

— Bizim də evə soxulmuşdular, qarət eləyiblər. Yaxşı ki, körpələrə toxunmayıblar. Bir az əvvəl mən evə gələndə o quldurlar bir dəstə qız-gəlini qabaqlarına qatıb aparırdılar. Bəlkə Mahmud Ağanın qızı da onların arasında olub.

Rəşid həyəcanla:

— Görmədin hara apardılar?—soruşdu.

— Vallah, dəqiq deyə bilmərəm, ancaq yolları düz Sahibabad meydanına tərəf idi.

Əroğlan çağırandan sonra həyətə girmiş Rəşid qapıya sarı getdi. Ev sahibi onun ardınca:

— Hara gedirsən? Kim bilir onları haraya apardılar? Bir də ki, niyə, öz ayaqlarınla tələyə girirsən? Onlara sənin kimi cavanlar lazımdır ki, əsir eləyib satsınlar,—dedi.

Rəşid Əroğlanın sözlərinə əhəmiyyət vermədi, düz yolla deyil, həyətlər arası, gizlənə-gizlənə Sahibabad meydanına üz qoydu. O, Əroğlangildən on-on beş həyət aralanmamışdı ki, tükürpərdici bir qışqırıq eşidib diksindi, ona elə gəldi ki, sevgilisi fəryad edib onu köməyə çağırdı. Rəşid ehtiyatı əldən verməyib həyətlər arası qışırıq gələn yerə qaçdı. O, qarşısına çıxan həyətdə Teymurləngin beş əsgərinin yaşlı bir qadını itələyib yıxdıqlarını, cavan bir qızı darta-darta apardıqlarını gördü. Rəşid gizləndiyi yerdən dikəldi, yaşlı qadından bir qədər aralı ixtiyar kişi ilə dörd-beş yaşlı qız uşağının al-qan içində yerdə uzandıqlarını görub özunu saxlaya bilmədi, yanındakı çəpərə əl atıb bir paya çıxardı,həyətə atıldı və qızı sürüyüb aparan əsgərlərdən birini elə vurdu ki, o, həmin an yerə sərildi. Rəşid ikikci əsgəri vurmaq istəyəndə arxadan aldığı zərbədən səndələyib yıxıldı. Huşunu itirdi. Gözlərini açanda başının üstündə üç əsgərin dayanıb hırıldadığını gördü. Rəşid başını çevirib gözlərini fırladı, qızı axtardı. Qız bir tərəfdə oturub ağlayırdı. Rəşid başını sağa çevirdi, vurub yıxdığı əsgər yanında oturub gözlərini ovuşdururdu. Birdən onların baxışları rastlaşdı, əsgər ilan vurmuş kimi yerindən sıçrayaraq xəncərini çəkib Rəşidin üstünə cumdu:

— Sən, murdar it, məni vurdun? Köpəkoğlu,—deyib xəncəri Rəşidin sinəsinə endirmək istəyəndə yoldaşları onu tutdular:

— Sən neynəyirsən? Heç bilirsən onu neçəyə sata bilərik?— dedilər.

Gözləri qızmış əsgər dartınıb qışqırdı:

— Buraxın məni, onun qanını içməsəm ürəyim soyumaz.

Yoldaşlarından biri onun üstünə çəmkirdn:

– Başa düş ki, o hamımızın əsiridir, satıb pulunu ata malı kimi bölüşdürəcəyik. Pulun varsa bizə düşəcək payı ver, sonra onunla nə istəyirsən elə.

Coşmuş əsgər sakitləşməyə məcbur oldu, ancaq həyətdən çıxarkən əlləri arxadan bağlanmış Rəşidə gücü gəldikcə təpik ilişdirməyi unutmadı. Talançı əsgərlər irəlidə qızı, onun ardınca Rəşidi aparırdıdar. Onların hamısının çiynində ağzına kimi dolu torba var idi. Rəşid əsgərlərin onları meydana tərəf apardıqlarını görub sevindi. Qəlbində sevgilisini orada görmək ümidi közərdi. O, bilaixtiyar addımlarını yeyinlətdi, lakin əsgərlərdən biri onu dartışdırdı. Rəşid yavaşıdı. O, baxışlarını qarşısında gedən qızda cəmləşdirdi. Qız gözəl deyildi, ancaq boylu-buxunlu, yaraşıqlı, sağlam bədənli, yapışıqlı idi. O, hərdənbir geriyə dönub Rəşidə baxırdı. Gözlərindən kədər və nifrət yağırdı. Rəşid və onun müşayiətçiləri getdikləri küçənin başqa bir küçə ilə kəsişdiyi yerə çatanda daha iri bir dəstə ilə rastlaşdılar. Onların da hamısının çiynində iri torbalar var idi. Bu əsgərlərdən dördünün əlində kəsilmiş başlar da var idi. Onların saçları dibindən qırxıldığından, əsgərlər başların saqqallarından yapışıb sallamışdılar. Saqqallardan baş sahiblərinin ahıl, yaxud qoca kişilər olması aydın olurdu. Rəşid və qızı aparan əsgərlər bir tərəfə çəkilib onlara yol verdilər. Əsgərlərdən biri o birinə dedi:

—Camaatın baxtı var. Bnzim beşimiz cəmisi iki əsir götürə bilmişik, ancaq onlar gör nə qədər götürüblər.

İkinci əsgər dilləndi: — Ay kişi, sən öləsən, Sahibqran xəbər tutsa ki, biz baş gətirməmişik, öz başımızı kəsdirib Sahibabad meydanında təbrizlilərin başı ilə yanaşı ehrama qoydurar.

Üçüncü əsgər də danışdı:

– Sahibqran niyə? Elə öz yüzbaşımız başımızı kəsdirər. İntəhası bizim hələ vaxtımız var.—O sözünə ara verib əli ilə əsirləri—qızla Rəşidi göstərib,—bunları yerinə aparaq, sonra geri qayıdıb əlavə əsir götürərik, eyni

zamanda baş da gətirərik. Baş gətirməkdən asan nə ola bilər ki? Nə çoxdur qocalar, əfəllər.

Teymurləngin əsgərlərinin söhbətini dinləyən Rəşidin adam başını toyuq başı kimi kəsməyə öyrəşmiş bu quldurlara qarşı küdurəti elə coşdu ki, nə ilə nəticələnə biləcəyini düşünmədən, həyatını təhlükə altına ataraq dartındı, əllərini bağlayan kəndiri qırmaq, əsgərlərin üstünə atılmaq istədi, ancaq kəndir açılmadı. Əsgərlər onun hərəkətlərini gördülər. Rəşidin vurub yıxdığı əsgər yükünü yerə qoyub ona yaxınlaşdı, bütün gücü ilə onun üzünə yumruq endirdi. Yumruq zərbəsi Rəşidin düz gözünə düşdü. Onun gözləri qaraldı, burnundan qan açıldı. Həmin əsgər ikinci zərbəni endirməyə hazırlaşanda Rəşid daha cəld tərpənib onun qarnına möhkəm bir təpik vurdu. Arxası üstə sərilmiş əsgər zarıdı, qalxdı və xəncərinə əl atdı. Yoldaşlarından biri, ən canlısı onun boğazından yapışdı, üzünə bir sillə vurub dedi:

— Sənə dedik ki, o, təkcə sənin deyil, əl çək ondan. Bir də ona əl qaldırsan, özünü ölmüş bil, köpək oğlu.

Əskər dinməzcə yükünü ciyninə götürdü, yola düzəldi. Yenə hamı hərəkətə gəldi. Rəşidin burnundan axan qan dayanmaq bilmirdi. Onun sol üzü, gözünün ətrafı şişmişdi, gözü görünmürdü. Rəşidin vəziyyətini görən əsir qız ayaq saxladı, Rəşid onunla bərabərləşdi. Qız baş yaylığı ilə Rəşidin ağzını, burnunu, çənəsini qandan təmizlədi, əsgərlər ona mane olmadılar. Qız Rəşidin qanını silə-silə ağlayır, pıçıltı ilə deyirdi:

— Topal olasınız, tanrı cəzanızi verər inşallah, gör bir kişinin üz-gözünü nə hala salıblar.

Qız Rəşidin üz-közünü siləndən, qandan təmizləyəndən sonra irəliyə, əvvəlki yerinə getmədi, onunla yanaşı addımladı. Onlar artıq meydana yaxınlaşırdılar. Sahibabad meydanına çathaçatda onlar yeni bir dəstə ilə rastlaşdılar. Bu dəstə daha böyük idi. İyirmiyə qədər əsgər bir dəstə qız-gəlini və əlləri arxalarında bağlanmış cavanı qabaqlarına qatmışdılar. Rəşid onların arasında Əroğlanı da gördü. Dəstəni aparan əsgərlərik də çoxunun əllərində kəsilmiş baş var idi.

Rəşid Sahibabad meydanına girəndə ürəyi qısıldı. Burada nə qədər əsir qız-gəlin, cavan var idi. Bir yandan da ardı-arası kəsilmədən elə hey gəlirdi. O, ucu-bucağı görünməyən meydanın hər tərəfinə göz gəzdirdi. Onun nəzərləri bir tərəfə yığılmış kəsik başlara sataşdı. Bu başların arasında qadın, uşaq başları da var idi. Bir neçə əsgər başlardan ehram düzəldirdi. Rəşidin gözləri qaraldı, başı hərləndi, yıxıldı, lakin kiminsə qüvvətli əlləri onu tutdu, qaldırdı. Rəşid bir daha o tərəfə baxmamağa çalışdı, ancaq bacarmadı. Onun başı istəyindən asılı olmayaraq o tərəfə çevrilirdi. Birdən Rəşidə elə gəldi ki, Xavərin də başı o başların arasındadır. O, yenə kəsik başlara tərəf döndü, bir xeyli baxdı, tanış baş görmədi, daxilində bir sevinc duydu. Ancaq bir anlığa. Yenə Xavərini düşündü. Yox, onun başı burada ola bilməz. Onlar cavanların, gözəl qız-gəlinlərin başlarını kəsməkdənsə, onları bazara çıxarmağı, satmağı üstün tuturlar. Yəqin indi Xavər də bu meydandadır. Ancaq meydanın harasında? Onun sevgilisi otuz min adam tutan bu böyük meydanın hansı bucağındadır?

Günortadan sonra meydana üç nəfər sərkərdə gəldi. Ağız deyəni qulaq eşitməyən, qarışqa kimi qaynaşıb uğuldayan insan dənizi sakitləşdi. Rəşid əsgərlərdən birinin o birinə:

— Lələ Xoca da gəlib bura, bir işə bax ha... Onun gəlişi bizim xeyrimizə deyil. Yaqin ki, bəyəndiyi əsirlərin hamısını seçib özü ilə aparacaq,—dedi.

İkinci əsgər:

Təkcə Lələ Xoca deyil, o biriləri də ondan geri qalmayacaqlar. Bizlərə bir şey düşməyəcək.

Həqiqətən də elə oldu. Lələ Xocanın əmrilə meydanın ortasını təmizlədilər, əsirlərin hamısını meydanın kənarlarına itələdilər. Onların arasından cavan oğlanları seçib meydanın ortasında on sıra düzəltdilər. Rəşidi meydanın lap o biri başına aparıb üçüncü sıraya qoydular. O, ətrafına göz gəzdirəndə baxışları arxadakı sıradakı Əroğlanla rastlaşdı. Rəşid başını sağa çevirib orada böyük bir dəstə qız-gəlinin yığışdığını gördü. Rəşid əvvəlcə onların əsir olmadıqlarını zənn edib onlara məhəl qoymadı. Ancaq tezliklə bu fikrindən daşındı. Belə vaxtda

tamaşaçı? Özləri də cavan qız- gəlin ola. Rəşid yenə başını həmin tərəfə çevirdi, əsgərlərin mühasirəsində olan qız-gəlinlərin qəmli-qəmli gözlərini gördü. Ürəyi yenə Xavərini görə bilmək ümidi ilə qısıldı. Bütün diqqətini toplayıb nəzərlərini əsir qız-gəlinlərə zillədi. Şişmiş gözü yaxşı görməyə imkan verməsə də, Rəşidə elə gəldi ki, ona lap yaxın duran əsir qız-gəlinin arasında sevgilisini gördü. O, əllərinin arxadan bağlı olduğunu unudub gözlərini silmək istədi, ancaq... Yenə baxışlarını Xavəri gördüyü istiqamətə yönəltdi. Odur, özüdür ki var. Heç bir şübhə ola bilməz. Yanında dayanmış bir gəlin onu qucaqlamış, Xavər başını onun çiyninə qoyub gözlərini yummuşdu. Rəşid bilaixtiyar:

– Xavər,—deyib elə qışqırdı ki, onun səsi meydanın o biri başında əks-səda verdi. Xavər Rəşidin səsini eşidib boylandı. Rəşid bir də qışqırdı. Xavər ona tərəf baxdı, onun belindən tutmuş gəlinin əllərindən qopub Rəşidə sapı qaçdı, ancaq heç on addım aralanmamışdı ki, əsgərlər onu tutdular. Rəşid də sevgilisi tərəfə götürüldü, bir qədər aralıda əsir cavanları sıraya düzməklə məşğul olan əsgərlər ona mane olmağa imkan tapmadılar. Rəşid sevgilisinə yaxınlaşdı, qollarını açıb, onu qucaqlamaq istədisə də, aldığı ağır zərbədən yıxıldı. Güc-bəla ilə yerdən qalxanda əsgərlərin huşunu itirmiş Xavəri sürüyüb apardıqlarını gördü. O, əsgərlərin üstünə yeridi. Arxadan özlərini yetirmiş iki əsgər onun qollarından yapışıb apardılar, düzdükləri sırada öz yerinə qoydular. Rəşid gözlərini Xavəri sürüyə-sürüyə aparan əsgərlərdən çəkmirdi. Ona elə gəlirdi ki, Xavəri də onun kimi əvvəlki yerinə aparacaqlar. Ancaq elə olmadı. Xavəri qız-gəlinlərin toplaşdığı yerdən keçirib arxaya apardılar. Rəşid bir daha sevgilisini görə bilmədi.

Sevkilisini gözdən qaçırmış, itirmiş Rəşidə elə gəldi ki, Təbrizin üstündən tufan keçdi, şəhəri bu tufan öz ağuşuna alıb yerlə-yeksan etdi, o öz sevgilisi ilə birlikdə uçmuş evlərdən birinin altında qaldı, sevindi, son nəfəsində onunla bir yerdə olmasına sevindi. Rəşid o qədər dərin xəyala dalmışdı ki, Lələ Xocanın qarşısında dayanıb ona baxdığını görmür, hiss etmirdi. O, Lələ Xocanın ona

müraciətini də eşitmədi. Lələ Xocanın yanında dayanmış şişman kişinin onu itələyib:

– Adə, köpəkoğlu, görmursən səninlə kim danışır? Niyə susmusan? Cavab versənə,—deməsi onu xəyal aləmindən ayırdı, nəzərlərini qaldıranda qarşısında bayaq əsgərlərin Lələ Xoca adlandırdıqları sərkərdəni gördü, dinməzcə ona baxdı. Lələ Xoca Rəşiddən aralanıb onunla yanaşı dayanmış əsgərin önündə durdu və onun addımlarını saymağa hazır olan şişman kişiyə dedi:

– O gözü şişmiş cavanı da yaz, onu da Sahibqranın xidmət,ilərinin sırasına qat.

Şişman kişi Lələ Xoca sözünü deyən kimi yanındakı yüzbaşıya döndü və dedi:

– Bunu da oraya apar.

Yüzbaşının arxasında dayanmış əsgərlərdən biri onun işarəsilə Rəşidin qolundan tutub dartdı, yola düzəldi. Rəşid onun ardınca getdi. Onu meydanın əks istiqamətinə, Xavəri gördüyü yerdən aralıda saxladılar. Buraya xeyli cavan, sağlam əsir toplanmışdı. Əsirlərin hamısının əllərini adılar. Əsir cavanlar üzük qaşı kimi əsgərlərin mühasirəsində idilər, ancaq onlar öz hərəkətlərində tam sərbəst idilər və mühasirə dairəsinin içərisində istədikləri kimi hərəkət edə, istədiyi əsirə yaxınlaşıb onunla söhbət edə bilərdilər. Rəşiddən bir az sonra buraya gətirilmiş Əroğlan bu imkandan istifadə edib Rəşidə yaxınlaşdı, əlini onun çiyninə qoydu. Yenə xəyal dünyasında olan Rəşid diksindi. Əroğlan ondan:

– Bayaq gördüyün qız Mahmud Ağanın qızı idi?—soruşdu.

Rəşid başını tərpətdi. Əroğlan Rəşidin gözlərinə işarə eləyib:

– Nahaq yerə o vəhşilərlə əlbəyaxa olursan. Bilmirsən məgər onlar çoxdurlar? Tək, özü də yalın əllə onlara nə eləyə bilərsən?

Rəşid yenə cavab vermədi. Əroğlan Rəşidin danışmağa meyl göstərmədiyini görüb susdu. Onlar bir xeyli dinməz dayandılar.

Yenə birinci Əroğlan danışdı. O əyilib Rəşidin qulağına pıçıldadı:

— Axşam qaranlığı düşənə kimi bizi burada saxlasalar yaxşı olar. Əl-qolumuz açıqdır, qaçarıq. Ya ölərik, ya da qurtararıq bunların əlindən. Qul kimi bazara çıxarılmaqdan ölmək yaxşıdır.

Rəşid bir anın içində dəyişdi, onun gözlari parıldadı:

— Bir gör nə qədərik? Tökülərik üstlərinə. Kimin baxtı gətirsə, sağ qalsa, qaçıb qurtara bilər.

İki dost danışan zaman Teymurləngin əsgərləri onların fikirlərini oxuyublarmış kimi hərəsi bir yerdən qışqırmağa başladılar:

— Düzülün, tez olun, hamınız düzülün, beş-beş düzülün, gedirik.

Dostlar bir-birinə baxdılar. Rəşid dedi:

— Sən saydığın qalsın, gör fələk nə sayıb,—deyiblər babalar.

Yüzbaşıların əmri ilə əsgərlər əsirləri düzəndən sonar yenə onların əllərini arxadan bağladılar və yola düzəldilər. Şər qarışanda Şeşgilan məhəlləsindəki böyük karvansaraya yetişdilər, lakin əsirlərin hamısını oraya yerləşdirmək olmadı, bir qismini başqa yerə apardılar. Rəşidi karvansaraya doldurulmuş mindən çox əsirlə birlikdə burada bir müddət dindirib-danışdıran olmadı. Vaxtında yeməklərini verir, heç bir iş-güc görmürdülər. Bir səhər əsirləri qaldırdılar, sıraya düzdülər, yenə əllərini arxadan bağlayıb apardılar. Tezliklə onları Təbrizdən çıxardılar. Onlar Təbriz darvazalarından çıxanda burada böyük qoşun gördülər. Rəşidlə yanaşı addımlayan Əroğlan qoşunları, onların önunda ağ atın üstunda təşəxxüslə əyləşmiş Lələ Xocanı göstərib dedi:

— Lələ Xocanın qoşunun başında olması o deməkdir ki, harasa gedir. Bir şey aydın deyil, onlar bizi niyə çıxarıb buraya gətiriblər?

Rəşid çiyinlərini çəkdi:

— Tələsmə, indicə hər şeyi bilərik. Hər halda bizi satmağa aparmırlar. Biz bu qədər qoşunun müşayiətilə satılmağa getmək şərəfinə yetə bilmərik,—deyə zarafat da etdi.

Rəşid sözlərini deyib qurtarmamış bir yüzbaşı qışqırdı:

— Ardımca gəlin.

Rəşidgil başqa əsirlərlə birlikdə yola düşdülər. Onlar mindən cox əsirin lap orta hissəsində idilər. Bnr müddət dinməz yeridilər. Təsadüfən arxaya boylanmış Əroğlan dilləndi:

— Rəşid, bir arxana bax. Bütün qoşun başda Teymurləngin özü olmaqla bizim dalımızca gəlir. Lələ Xoca onun yanındadır.

Rəşid arxasına qanrıldı və dedi:

— Qoşunların davaya getməsinə şübhə ola bilməz. Bəs belə olan surətdə bizi haraya aparırlar. Satmağa?

Rəşid öz süalına özü də cavab verdi.

— Yox, onlar bizi də davaya aparırlar, yoxsa Lələ Xocanın meydanda əsirlərin arasında ən cavanlarını, sağlamlarını seçmək nəyinə gərəkdi!

Rəşid bir xeyli susandan sonra yenə özü-özünə sual verdi:

— Haraya və kiminlə davaya aparırlar bizi?

O, Əroğlana döndü, onun sual dolu baxışlarını üzünə zillənmiş gördü:

— Dostum, onlar bizi Şirvan darvazalarından çıxardılar, demək biz yuxarıya doğru gedirik. Şirvana? Yox. Deyirlər əmir Teymur Şirvanşah İbrahimlə dostluq eləyir, onun xətrini çox istəyir, onun məmləkətinə soxulmaz.

Əroğlan sadəlövhlüklə:

— Bəlkə bizi ona barat aparırlar,—dedi.

Rəşid gülümsündü:

— Bu qədər qoşunla? Yox, ola bilməz, əmir Teymur davaya gedir, qonaq gedənə oxşamır. O bu tərəflərdə kimgilə davaya gedə bilər?

Birdən Rəşidin sifəti dəyişdi:

— Bir gör ha... Heç ağlıma gəlməzdi. Bəli, bu yerlərdə əmir Teymurun bir düşməni var. O da Qara Məhəmməddir. Yəqin ki, onun yolu Naxçıvanadır, Səd Cuxuradır.

Rəşid öz-özünə danışsa da onun hər hərəkətini diqqətlə izləyən Əroğlana dadi:

— Elə isə onlar bizi belə əlləri bağlı oraya aparıb neyləyəcəklər?

— Hər halda bizi barat aparmırlar, o ki Qara Məhəmmədə ola. Görünür bu davada biz onlara lazımıq ki, aparırlar. Allaha təvəkkül.

Rəşidgil qoşunla necə gün yol getdilər. Onlar yolları üstündə xeyli dağıdılmış kəndlər gördülər. Bütün yol uzunu Teymurləngin əsgərləri əsirlərdən yemək-içməyi əsirgəmirdilər. Nəhayət, onları sinəsində bir dənə də olsun ot, yaşıllıq olmayan dağlı-təpəli bir yerə gətirdilər və orada əylədilər. Yazın ən gözəl çağı olmasına baxmayaraq yalnız təpələrin ətəklərində tək- tük ot bitmişdi. Əsirlərin arasındakı təbrizlilərdən biri vaxtilə atası ilə birlikdə bu yerlərdə olduğunu bildirib dedi:

— Bura Naxçıvan torpağıdır.

Rəşid dostuna zənninin düz çıxdığını söylədi. Əroğlan isə elə hey deyirdi:

— Axı bizi buraya niyə gətiriblər?

Rəşid isə bu sualın cavabını tapıbmış kimi dilləndi:

— Mənə indicə aydın oldu ki, bizi niyə buraya gətiriblər. Yəqin ki, bizi türklərə satacaqlar. Bizim kimi seçmə cavanları Türkiyə sultanı göydə axtarır.

Həqiqətən də Lələ Xocanın fikri belə idi. O, Sahibqranın ona bağışladığı iki min seçmə əsiri baha qiymətə satmaq üçün Naxçıvan səfərinə çıxmalarından istifadə edib, onları da bu yerlərə gətirmişdi. O, Naxçıvanı alandan sonra onları türk paşalarına satmağa göndərəcəkdi.

Əsirlər onları əylədikləri çılpaq, yaşıllıqdan məhrum yerdə bir həftə qaldılar, qoşunlar çoxdan getmiş, onların üzərində nəzarətçilər qoymuşdular. Bir səhər onları yenə sıraya düzüb irəli getmələrini əmr etdilər. Əsir cavanlar arxalarınca yenə böyük qoşunun gəldiyini görüb təəccübləndilər. Bu dəfə qoşunların önündə Teymurləng yox idi: Lələ Xoca idi.

Bir gün də yol gəlib gecələməyə əylənəndə Əroğlan Rəşidə dedi ki, əsirlərin o biri yarısı qoşunların arxasında gəlir. Rəşid yavaşdan, öz-özünə danışırmış kimi:

— Bu da bir tapmaca,—dedi.

— Səhərə yaxın yağış yağmağa başladı, əsirlər yağışın altında yola düşməli oldular. Əroğlan dilxor halda havaya baxıb deyindi:

— Andıra qalmış elə hey yağır, kəsmək bilmir.

Rəşid yaxınlıqdakı tək ağaca qonub civildəşən sərcələrə baxıb gülümsündü:

— Tələsmə, kəsər, özü də lap tez.

Əroğlan dilxor halda:

— Zarafat eləməyə vaxt tapdın?

Rəşid isə ona əhəmiyyət verməyib qımışmaqda davam etdi:

— Mən axşamdan bilirdim ki, bu gün səhər tezdən yağış yağacaq. Dan yeri söküləndə gözlərimi geyə dikəndə yağışın tezliklə başlayacağına əmin oldum.

Əroğlan əllərini oynatdı:

— Göyə baxanda yəqin qara bulud görmüsən də... Bunu bilməyə nə var idi ki?

— Yox, elə deyil. Söylədim ki, yağışın yağacağını hələ axşamdan bilirdim. Bəs niyə soruşmursan ki, nədən bilirdim?— Dostu dinmədi, Rəşid davam etdi:

—Yatmamışdan qabaq qulaqlarıma lap uzaqdan xoruz banlaması gəldi. Sən də eşitdin?

Əroğlan başını buladı və:

— Yox, eşitmədim,—dedi.

— Xoruzlar axşam, yaxud gecə banlasa, səhəri yağış yağar.

Əroğlan qımışdı və dedi:

— Tutaq ki, elədir. Bəs yağışın tezliklə kəsəcəyini haradan bildin?

Rəşid hələ də civildəşməkdə olan sərçələri göstərdi:

— Bax, o sərçələrdən.

— Sərçələrdən?

Rəşid gülümsünə-külümsünə başını tərpətdi:

— Hə, sərçələrdən. Sərçələr yağışın başlanacağını da, qurtaracağını da qabaqcadan bilirlər. Bax, gör onlar necə civildəşirlər? Onlar yağışın tezliklə kəsəcəyini bilir və sevinirlər.

— Bəs sərçələr yağış gözləyəndə nə edirlər?

– Toz torpaqda eşələnirlər.

Həqiqətən də Rəşid deyən kimi oldu, yağış kəsdi, tezliklə gün də çıxdı. Alt paltarlarına kimi islanmış əsirlər əylənmək, paltarlarını qurutmaq istədilər, lakin əskərlər icazə vermədilər.

Daha bir gün keçəndən sonra axşama yaxın arxada gələn əsirləri də onlara qatıb dağlar-təpələr arxasındakı dar yollardan çıxararaq bir qədər aralıda əyləmələri əsirlərə qəribə göründü. Lakin arxadakı əsirlərin gətirdikləri xəbər onlara hər şeyi agah etdi. Onlar söylədilər ki, Lələ Xoca gəldikləri dar yolun sağ və solundakı təpələrin arxasında düşmən görüb. Həmin əsirlərdən biri pıçıltı ilə dedi:

– Teymurləngin əsgərlərindən birinə pul verib onunla dostlaşmışdım. Məni əsir götürəndə cibləriml eşələməmişdilər, kiçik pul kisəmi də görməmişdilər. Tanışlığın başlanğıcında həmin əsgərə bir qara pul verib çörək aldım ondan. İkinci dəfə də ona pul verəndə ciblərimi eşdi, amma zirəklərdən deyildi, əfəldi, tapa bilmədi, papağımda gizlətmişdim. Onu aldadıb dedim ki, istədiyim vaxt əlimi göyə qaldırıb allaha üz tutsam, ovcuma bir qızıl düşər. Axşam qaranlığı düşməsindən istifadə eləyib əlimə bir qızıl pul göturüb göyə qaldırdım. Sonra əlimi açıb ovcumu ona göstərdim. O, qızılı qapıb göturdü və əlimi yenə göyə qaldırmamı tələb etdi. Dedim ki, bunu gündə bircə dəfə eləmək olar.

Əsirlərdən biri:

– O lap üfləmə imiş ki,—deyib güldü.

O biri əsir davam etdi:

– Həmin üfləmə dediyin əsir mənə söylədi ki, Lələ Xoca Naxçıvanda ələ keçirə bilmədiyi Qara Məhəmmədin ardınca gedir, Biz əsirləri də iki yerə bölüb ona görə qoşunun qabağına və arxasına yığıblar ki, Lələ Xoca dar yolda Qara Məhəmmədin qəfildən hücum eləyə biləcəyindən qorxur. O yaxşı bilir ki, hücum ya irəlidən, ya da geridən ola bilər, ona görə də istəyib ki, Qara Məhəmmədin ilk zərbəsinin qurbanı biz olaq, sonra isə o, hücuma keçsin.

Rəşidin yoldaşlarından biri:

— Ay namərdlər,—dedi, sözunə bir qədər ara verib davam etdi,—bəs indi bizi nəyə görə onlardan ayırıb buraya yığıblar?

— Ona görə ki, Qara Məhəmmədi görüblər. O bu təpələrin arxası ilə irəliləyir. Deмək, hücum eləmək istəsə daha irəlini, yaxud gerini gözləməyəcəklər. Hər tərəfdən qoşunlarını Lələ Xocanın qoşunlarının üstüna tökəcək. İndi biz artığıq, həm də Lələ Xoca indi bizdən qorxur. O qorxur ki, əllərimizi açıb Qara Məhəmmədə kömək eləyək.

Əsir yoldaşının dediklərini diqqətlə dinləyən Rəşidin ürəyində bu günlər ərzində neçə dəfə parlayıb sönmüş ümid qığılcımı yenidən işıldadı. O fikirləşdi ki, Lələ Xocanın onlardan qorxmağa haqqı var, bir şey olsa, əlbəttə, biz Qara Məhəmmədə, onun qoşunlarına qoşulub Teymurləngin əsgərlərinin boğazını üzəcəyik. Rəşid və yoldaşları gecədən xeyli keçənə kimi söhbət etdilər. Yenicə közərən ümid qığılcımı onların qəlbini qızdırmış rahatlıq yaratmışdı, onlar quru yerdə uzanan kimi yuxuya getmişdidər;

Dan yeri söküləndə qılıncların, əmudların, nizələrin, qalxanların bir-birinə toqquşmasından qopan səs, yara alıb haray qoparanların bağırtısı, əsgərlərin nərəsi Rəşidi və yoldaşlarını ayıltdı. Nə baş verdiyinn dərk etməyə macal tapmamış, bir dəstə əsgər onların əl-qolunu açdı, silah verdilər və dedilər:

— Ardımızca gəlin, qardaşlar, qırın yağıları qırın, Təbrizdə qocalarınızın, ata-analarınızın, bacı-qardaşlarınızın, uşaqlarınızın başlarından ehram düzəldənləri.

Rəşidin qollarına sanki yeni qüvvə gəldi, gözlərinin önünə Xavərini gətirdi, Teymurləngin əsgərlərinin onu Sahibabad meydanında sürüyüb aparmalarını gətirdi, ürəyində, varlığında intiqam hissi təlatümə gəldi, özünü qoşuna vurdu. Onun ardınca qoşmuş Əroğlan tez-tez qışqırır. Rəşidi ehtiyatlı olmağa çağırırdı. Əroğlan o qədər Rəşid, Rəşid dedi ki, Təbrizli əsirlər, onu tanıyanlar da, tanımayanlar da bu adı qeyri- nxtiyari təkrar etdilər, vuruşa-vuruşa bir-birindən onun kim olduğunu soruşdular. Rəşidin hərdən nərə çəkib həmşəhərlilərini döyüşün ən qızğın yerinə səsləməsi, əsirlərin çoxunu bu qənaətə gətirdi ki, Rəşid

onların başçısıdır. Misir Xocanı mühasirədə görən Rəşidin, «ardımca, qardaşlar, mühasirəyə düşmüş xilaskarlarımızın köməyinə qoşaq» deməsilə əsir döyüşçülərin böyük bir dəstəsinin onun ardınca qoşması bir oldu. Lələ Xoca öldürüləndən, düşmən qoşunları tarmar edildikdən sonra isə sağ qalmış təbrizlilər Rəşidin başına yığışdılar.

Ertəsi gün Misir Xocanın göndərdiyi əsgər Qara Məhəmmədin onu görmək istədiyini xəbər verəndə Rəşid özünü itirdi. «məni Qara Məhəmməd haradan tanıyır? Nə mən onun, nə də o mənim üzümü görüb...»—deyə fikirləşdi.

* * *

Qara Məhəmməd Rəşidi gülərüzlə qarşıladı. Oğlanları Misir Xoca ilə Qara Yusif də onun yanında idilər. Qara Məhəmməd Rəşidə suallar verdi, onun kim və nəçi olduğunu, necə əsir düşdüyünü öyrəndi, adını çox eşitdiyi Mahmud Ağa barəsində Rəşidin söylədiklərini məmnuniyyətlə dinlədi və dedi:

– Həmşəhərlilərinin səni özlərinə böyük tikməsi barəsində bir söz söyləmədin.—Sonra üzünü oğlu Misir Xocaya çevirib davam etdi,—Misir Xoca deyir ki, sənin başçılıq elədiyin təbrizlilər özlərini vaxtında yetirməsəydilər, işi fəna olacaqdı.

Qara Məhəmmədin sözlərini təəccüblə dinləyən Rəşid hamının nəzərlərini ona dikib, cavab gözlədiyini görüb:

– Düzü, heç kim məni özünə böyük seçməyib. Hamı vuruşdu, mən də onlarla bir yerdə,—deyə söylədi.

Qara Məhəmməd Rəşidin sözlərini onun təvazökarlığının təzahürü kimi qəbul etdi və gülə-gülə:

—Yaxşı, onlar səni özlərinə böyük tikməyiblərsə, bu onların öz işidir, mən səni yüzbaşı təyin eləyirəm,—dedi, oğlanlarına, onu əhatə eləmiş əmirlərə baxdı,—birdən fikirləşərsən ki, axı təbrizlilər yüz deyil, iki mindir. Elədir. Sən hələlik onların yüzünə başçılıq eləyərsən, sonra baxarıq.

Rəşid Qara Məhəmmədin gözlənilməz sözlərindən özünü itirmişdi. Lakin ona zillənən mehriban baxışların təsiri altında özünü ələ alıb, fikrini cəmləşdirə bildi və Qara Məhəmmədə öz minnətdarlığını bildirərək getmək istədi. Lakin Qara Məhəmməd onu əylədi, oğlu Qara Yusifə təbrizliləri başçılıq elədiyi qoşunların sırasına daxil etməyi, onları yüzlüklərə və minliklərə bölüb, minbaşıları və yüzbaşıları təyin etməyi, Rəşiddən muğayat olmağı, birinci savaşda qabiliyyətini yoxlayıb, onu minbaşı təyin etməyi tapşırdı, və yalnız bundan sonra getməyə icazə verdi.

* * *

Lələ Xoca üzərində parlaq qələbədən sonra atası, qardaşı, yaxın əyan-ərkan tərəfindən Naxçıvanamı qayıtmaq, yoxsa birbaşa Təbriz üzərinə getmək barədə aparılan müzakirədə Qara Yusif iştirak etmir, böyük həyəcanla hansı qərarın qəbul ediləcəyini gözləyir, son sözün atasının olacağından gözlərini onun dodaqlarından çəkmirdi. Qara Yusif Təbrizə getmək, bu şəhərə yiyələnmək, atasının və bütün Qaraqoyunlu soylarının və başçılarının arzusu və istəyi olan Qaraqoyunlular dövlətinin əsasını bu şəhərdə qoymaq istərdi. Lakin indi o, Təbriz səfərinin bir qədər təxirə salınmasını, əvvəlcə Naxçıvana qayıdıb, onun yolunu gözləyən sevçilisini, bütün rahatlığını əlindən almış, varlığına, qəlbinə hakim kəsilmiş gözəlini, qədəm Paşasını görmək, onu bağrına basmaq, onunla evlənmək, özü ilə Təbrizə aparmaq hüququnu əldə etmək istəyirdi. Ona elə gəlirdi ki, buradan birbaş Təbrizə getmək lazım gəlsə, Qədəm Paşasının ayrılığına dözə bilməyəcəkdi. Atasını dinləyən Qara Yusifin xəyalını yalnız bu məsələ məşğul edirdi. O, atasının birbaşa Təbrizə getmək əmrini verəcəyi təqdirdə, onun icazəsilə bir necə günlüyə Naxçıvana gedib Qədəm Paşanı özü ilə Təbrizə apara biləcəyi barəsində fikirləşəndən sonra yüngülləşdi, gülümsündü, belə sadə bir şeyi özünə dərd eləməsi ona qəribə göründü, kefi kökəldi və

arxayınlıqla atasının söyləyəcəklərini gözlədi. Misir Xoca, bəzi sərkərdələr birbaşa Təbrizə getməyi təklif etdilər:

— Əmir Teymur yolunu yuxarılara salmaq fikrindədir. O, Qarabağda qışlayandan sonra Şirvanşah İbrahimlə Qızıl Ordaya, Toxtamış xanın üstünə gedəcək. Deməк o, ən azı bir il Təbriz tərəflərdən uzaqda olacaq. Teymurləng Toxtamış xanın öhdəsindən gələ bilsə də, qoşunlarının xeylisini itirəcək. Təbriz onun gözündə olmayacaq, yurduna qayıdıb təzə qüvvə toplayacaq. Bu da onu bir neçə ay, bəlkə daha çox məşğul eləyəcək. Buradan belə qənaətə gəlmək olar ki, əmir Teymur azı iki, bəlkə də üç il bu yerlərdə görünməyəcək. Ondan sonra nə olacağını söyləmək çətindir, hər günün bir hökmü var. Sərkərdələrdən biri özünü dava qurtarandan sonra qardaşına yetirə bilmiş Misir Xocaya baxdı. Misir Xoca da qardaşına baxandan sonra həmnn sərkərdəyə döndü:

— Sözlərin yaxşı sözlərdir, ağlabatandır. Ancaq bəs Lələ Xocanın qaçıb dağılmış qoşunlarını hara qoyaq? Lələ Xoca öldürülsə də, onun qoşununda bacarıqlı sərkərdələr yox deyildir. Onlar dağınıq qoşunları yığıb üstümüzə gələ bilərlər. Sayca da bizdən çoxdurlar. Siz onları tələyə salıb məğlub eləyə bilmisiniz. Açıq döyüşdə, məsələn Naxçıvanda, yaxud Təbrizdə onlara zorumuzmu çatar?

Misir Xoca sözlərini söyləyib qardaşına baxdı, onun rəyini öyrənmək istədi. Ancaq gözləri atasında olan, onun fikrini oxumağa çalışan Qara Yusif cavabı çox sadə görünən bu mülahizə barədə bir fikir söyləmədi. Misir Xoca bayaqkı sərkərdələrə döndü. Sərkərdə dilləndi:

— Dağılmış qoşunu bir yerə yığmaq mümkün olsa da, əvvəlki inamı geri qaytarmaq mümkün deyil. Lələ Xoca öldürülməsəydi, bəlkə də bu işi görə bilərdi. İndi qoşunun başçısı yoxdur, öldürülüb. Başcılığı öz üzərinə götürmək istəyən tapılsa da, nə o, Lələ Xoca ola biləcək, nə də qoşun onu Lələ Xoca hesab eləyəcək.

Qara Məhəmməd çəribaşının cavabından razı qaldı, gülümsündü, onu təriflədi:

— Çəribaşının sözlərinə əlavə eləməyə ehtiyac görmürəm, o çox düz söylədi. O ki qaldı Naxçıvana, yaxud Təbrizə getməyə, bizim məqsədimiz Təbrizdir. Belə bir qələbədən sonra ayrı cür ola bilməz. Fərq bircə ondadır ki, biz oraya indi gedəcəyik, yoxsa bir müddətdən sonra?

Qara Məhəmmədin sözləri heç kimə çatmadı. Qara Məhəmməd bunu hiss etdi:

— Əmir Teymur indi Qarabağdadır. O, Təbrizə deyil, Qızıl Ordaya getməyə hazırlaşır. Biz indi Naxçıvana deyil, Təbrizə getsək, o, Qızıl Ordaya səfərini təxirə salıb bizim üstümüzə gələ bilər. Biz hələlik onunla bacara bilmərik. Bu o deməkdir ki, biz indi Təbrizə deyil, Naxçıvana getməliyik.

Atasının qərarı Qara Yusifin ürəyindən oldu. Qədəm Paşasının məhəbbətinə tezliklə yetişəcəyinə sevindi. Bununla belə, o fikirləşdi ki, atası Təbriz səfərini əmir Teymurun Qızıl Orda üzərinə yürüşündən sonraya, yazın birinci, ya da ikinci ayına kimi təxirə salır, bu isə bir neçə ay eləyir. Qara Yusif Təbriz səfərinin bu qədər keçikdirilməsinə tərəfdar deyildi. O öz fikrini bildirmək istədi, ancaq qardaşı Misir Xoca onu qabaqladı:

— Babam, sözlərindən belə çıxmırmı ki, biz qışı Naxçıvanda keçirəcəyik?!. Belə olduqda Təbriz səfərimiz bir necə ay təxirə düşür...

Qara Məhəmməd başını buladı:

— Niyə ki, ən çoxu bir ay.

— Axı əmir Teymur bir aydan sonra da Qarabağda olacaq, qışı da orada keçirəcək. O, qış çıxmayınca Toxtamış xanın üstünə getmək fikrində deyil.

Qara Məhəmməd başını tərpətdi:

— Elədir, oğlum, elədir,—dedi.

Misir Xoca çiyinlərini çəkdi:

— Bəs onda...

O, sözlərinin ardını deyə bilmədi. Qara Məhəmməd davam etdi:

— Bəli, ən çoxu bir ay gözləyəcəyik. Sonra qlavuzlarımızı Qarabağa göndərəcəyik. Onlar orada şayiə yayacaqlar ki, mən Təbriz üzərinə getməyə

hazırlaşıram. Bu xəbər, əlbəttə, əmir Teymura çatacaq və onun qəti qərarı bizə məlum olacaq, biz də ona uyğun hərəkət eləyəcəyik. Əmir Teymur Toxtamış xanın üzərinə yürüşünü təxirə salmaq istəməsə, mən buna əminəm, biz Təbrizə gedəcəyik, heç bir təhlükə gözləmədən gedəcəyik,—dedi, ayağa durdu və,—indi isə hazırlaşın, Naxçıvana gedirik,—dedi.

Qara Yusifin sevincinin hüdudu yox idi. O, atını dördnala çapmaq, hamıdan qabaq Naxçıvana çatmaq istərdi. Ancaq atasının icazəsi olmadan bir addım da ata bilməzdi, icazə almaq üçün isə bəhanə tapa bilmirdi. Qara Yusif oynaq atının başını çəkib, atasının arxasınca, qardaşı Misir Xoca ilə yanaşı sürə-sürə, Qədəm Paşasını fikirləşirdi. Qara Yusif yaşı otuzu keçdiyi bir vaxtda, artıq iki arvadı, üç oğlu olduğu halda belə dəlicəsinə sevməsinə heyrət edirdi. İndiyə kimi onun ürəyi məhəbbət nə olduğunu bilməmişdi, məhəbbət atəşinə yanmamışdı. Bəyənib xoşladığı qızlarla evlənmişdi, vəssalam. Ailə qurandan sonra isə səadəti uzun sürməmişdi. Qədəm Paşa ilə rastlaşması isə tamam başqa cür olmuşdu. Üzü açıq, kişilərdən yaşınmadan gəzən Qaraqoyunlu qızlarından fərqli olaraq, başına örtük salmış sənətkar qızı bir anlığa ona bir mələk kimi, ilahə kimi görünmüş, varlığına hakim kəsilmişdi. Qara Yusifə elə gəlmişdi ki, bu qız ona yaz səhərinin sərin mehini, bütün arzularının yerinə yetməsinin müjdəsini, qışda günəş ziyasını, yayda yaylaq sərinliyini gətirəcək, ürəyinin atəşinə su çiləyəcək, daxilinə soyuq çökəndə baxışları ilə onu qızdıracaqdır. Qara Yusifə elə gəlmişdi ki, Qədəm Paşa ilə rastlaşandan sonra o, xeyli cavanlaşmış, on səkkiz yaşlı igid olmuşdur, qollarına yeni qüvvə, qıçlarına taqət gəlmiş, daha çevik olmuş, at üstündə yel kimi istədiyi səmtə uçması Qədəm Paşanın məhəbbəti ilə bağlıdır. Lələ Xocanın boynuna əmudu tuşlayanda da, Qara Yusif bir anlığa sevgilisinin ala gözlərini görmüşdü və əmudu hədəfə həmin gözlərin nuru istiqamətləndirmişdi.

Qara Yusif atının başını buraxıb fikirləşir, xəyal dənizində üzür, tez-tez gülümsünürdü. Atını qardaşının atı ilə yanaşı sürən Misir Xoca Qara Yusifin xəyala dalmasına o qədər də əhəmiyyət vermədi. Döyüşdən sonra bu adi bir şey idi. O ki olsun təkbətək döyüşdə Lələ Xoca kimi bir çəribaşı üzərində parlaq

qələbə çalasan. Bircə Qara Yusifin hərdən gülümsəməsi Misir Xocaya qəribə göründü, özünü saxlaya bilməyib soruşdu:

— Qardaşım, yamanca xəyala dalmısan, gülümsəyirsən də. Hər halda səbəbsiz olmaz, elə deyilmi?

Qara Yusif qardaşına tərəf əyilib dedi:

— Bilsən ki, niyə belə xəyaldayam, niyə belə xoşhal oluram, gülümsünürəm, mənə həsəd aparарsan...

Misir Xocanı maraq götürdü:

— Yaxşı, bir söylə görək nə olub?

Qara Yusif sənətkar qızı Qədəm Paşanı görməyini bütün təfərrüatı ilə qardaşına danışır, gözlərini ondan çəkmirdi. O, bir qədər danışandan sonra Misir Xocanın ona təəccüblə baxdığını görüb pərt oldu, sözünü tez bitirməyə çalışdı. Misir Xoca yarızarafat, yarıistehsza ilə dedi:

— Sənin kimi cəngavər, ağıllı, igid bir cavanın belə boş şeylər barəsində bu cür coşğunluqla, həvəslə danışması cox qəribə görünür. İki arvad almısan, istəyirsən bundan sonra da ikisini, lap üçünü al, kimdi sənə mane olan? Qara Məhəmmədin oğlu Qara Yusif kimi pəhlivan kimin qızını istəsə ala bilər. Nə çox gözəl qız?! Heç onların barəsində bu qədər danışmağa dəyər? Qız qızdır da... Yoxsa başlamısan günəş belə gəldi, ay belə getdi, belə batdı, belə çıxdı...

Qara Yusif qardaşına ağır söz deməmak üçün atının başını çəkmək, qardaşından geri qalmaq istədi. Ancaq tezliklə bu fikrindən daşındı, fikirləşdi ki, Qədəm Paşanı görənə kimi onunla da bu mövzuda söhbət aparsaydılar Misir Xoca kimi hərəkət edərdi, bəlkə də ağır söz də deyərdi. Deyərdi ki. ə... kişi kişi olar, arvad söhbəti eləməz, arvad nə olan şeydir ki, onun barəsində belə ağızdolusu danışasan. Qara Yusif bu fikirlərini qardaşına açdı, gülümsünüb əlavə etdi:

— Tanrıdan istəyirəm, o mənim ürəyimə düşən oddan sənin də ürəyinə salsın. Misir Xoca özündən kiçik olan Qara Yusifə tərs-tərs baxaraq atını məhmizləyib ondan aralandı. Naxçıvana çatana kimi bnr daha Qara Yusifə yaxın düşmədi.

Qara Məhəmməd Naxçıvana çatanda artıq qaranlıqlaşırdı. Qara Yusif atasından, qardaşından aralanan kimi yatmağa ketməyi qət etdi. O dincəlmək, yolun yorğunluğunu canından çıxarmaq, səhər tezdən qalxıb bazara, sənətkarların dükanları olan yerə getmək fikrində idi. O, yatağına girən kimi mürgülədi, ancaq bir anlığa. Qədəm Paşa gəlib gözlərinin önündə dayandı, canına od, yerinə qor töküldü, yuxusu ərşə çəkildi. İndi Qara Yusifi Qədəm Paşanın ona bəsləyəcəyi hissləri narahat edirdi. Bu vaxta kimi yalnız öz məhəbbəti barəsində fikirləşən, bu məhəbbətin qarşılıqlı olub-olmadığına əhəmiyyət verməyən Qara Yusif belə fikirləşirdi: görəsən ondan ötrü yanıb külə dönməyə dəyərmi? Bəlkə o məni heç sevmədi? Bəlkə bü heç gərək də deyil. Təkcə mənim onu dəlicəsinə sevməyim kifayət edər?! Yavaş-yavaş mənə alışar, sonra sevər. Yox. O da məni sevsə daha böyük səadət olmazmı? Qara Yusif bir daha Qədəm Paşanın örpəyinin başından düşməsini, onu cəld üzünə çəkməsini, həmin anda nəzərlərinin sataşmasını yadına saldı. Qara Yusif sanki indi bu baxışın adi baxış olmadığını dərk etdi. Qara Yusif titrək səslə pıçıldadı: əlbəttə, adi deyildi. O baxışlarda hərarət var idi, qəlbin hərarəti. Məgər elə bu hərarət onun qəlbində atəşə çevrilib ürəyini yandırmadımı? Axı adi baxışda ürəyə yanğı salan alov ola bilməz. Demək o mənə biganə olmayacaq, mənim Qədəm Paşamın da qəlbi məhəbbət atəşi ilə alovlanır. Yoxsa o məni görərkən dodaqlarına təbəssüm qonmazdı, Qara Yusif birdən-birə dəyişdi: eh, mən də özümə təskinlik verirəm. Bəlkə o təbəssüm təsadüfi bir təbəssüm olub, indi heç yadına da düşmür. Yox, o mənə biganədir. Bütün gecəni Qara Yusif qızın da onu sevib, sevməməsi barəsində fikirləşdi və yalnız səhərə yaxın yuxuya getdi. Buna baxmayaraq, o, ilk xoruz banında yatağından qalxdı, tez geyinib həyətə düşdü, atını həmişə hazır saxlamağa adət etmiş, ağasının qulluğunda canbaşla duran, yalnız o, uzaqlarda olanda dincəlməyə uzanan nökər onun atını çəkdi. Qara Yusif atına sıçrayıb birbaşa bazara sürdü, sənətkar dükanlarının qarşısınla saxladı, Dükanların çoxu, o cümlədən Qədəm Paşanın atasının dükanı bağlı idi. Qızın atası ilə danışmağı, elə bu axşam elçi düşmək fikrində olduğunu ona bildirməyi qət etmiş Qara Yusif

dükanın açılmasırı səbrsizliklə gözlədi. O, xeyli gözləməli oldu, dükanların çoxu açıldı, ancaq gələcək qayınatasının dükanı bağlı qaldı. Bir qədər də keçdi, bazar adamla doldu, bütün dükanlar açıldı, Qədəm Paşanın atasının dükanı açılmadı ki, açılmadı. Qara Yusif atından düşdü, onun dükan qonşusunun yanına gəldi. Başını aşağıya dikib işini görən misgər, dükanından bir qədər aralı dayanmış adama əhəmiyyət vermədi, Qara Yusif üç-dörd addım irəli gəldikdən sonra usta başını qaldırdı, dərhal da onu tanıdı. (Naxçıvanda Qara Yusifi tanımayan tapılmazdı.)

— Sən çox xoş gəlib, səfa gətirmisən, başına dönüm. Gözlərimin işığı azalıb, səni uzaqdan tanıya bilmədim, keç günahımdan.

Qara Yusif salam verdi, gülümsünüb soruşdu:

— Bu qonşu dükanın açılmasını gözləyirəm.

— İpək parça almaq istəyirsən?—sonra əlinin işarəsilə başqa bir dükanı göstərib davam etdi,—bax, o dükanda da ipək parça toxuyurlar, o da yaxşı ustadır, toxuduğu parça da yaxşıdır.

Qara Yusif ona üzüncü görünən misgərin sözünü kəsdi:

— Ay kişi, mən parça almağa gəlməmişəm, mənə bu dükanın sahibinin özü gərəkdir.

Misgər dərindən köks ötürdü?

— Məhəmməd Mustafa kişi lap canına qurban olduğum peyğəmbərimiz Məhəmməd Mustafanın özü kimi kişidir. Ancaq, cifayda, allah başından bir-birinin dalınca dörd qız töküb, hamısı da bir-birindən gözəl. Bircə oğul vermədi tanrı o kişiyə ki, qızlarının keşiyində duran olaydı. Məhəmməd Mustafa kişi lap əldən düşüb, qocalıb, əlindən bir iş gəlmir.

Kişinin əsl mətləbi deməkdənsə, uzun-uzadı danışması Qara Yusifi dilxor elədi, bir yandan da ikibaşlı sözlər onu narahat etdi. Qara Yusif misgərin sözünü kəsməli oldu:

— Ay kişi, sən allahın, mətləbə keçginən, bir açıq söylə görək o Məhəmməd Mustafa dediyin kişinin dükanı niyə bağlıdır? Sözlərindən belə çıxır ki, onun başına nəsə gəlib.

Misgər başını tərpətdi:

— Düz tapmısan. ağa, evi yıxılıb Məhəmməd Mustafanın, dünən onun qızını qaçırıblar,—dedi.

Qara Yusif qeyri-ixtiyari:

— Söylədin ki, dörd qızı var, hansını?—soruşdu.

Misgər təəccüblə:

— Sən ki, onu tanımırsan, səndən ötrü nə fərqi varmış ki hansını, qızlarının ikisi ərdədir.

Qara Yusif yersiz sualına körə xəcalət çəkdi. Ancaq ona elə gəldi ki, qaçırılan məhz onun sevgilisidir. Qara Yusif usta Məhəmməd Mustafanın evinin yerini soruşdu, misgər söylədi ki, Mömünə Xatun məqbərəsinin lap yaxınlığındadır. Qara Yusif cəld atına mindi, ancaq birbaşa Məhəmməd Mustafagilə sürmədi, öz evinə qayıtdı, özü ilə altı nəfər atlı götürdü. Usta Məhəmməd Mustafanın evini asanlıqla tapdı, həyətə girəndə ustanı, onunla yanaşı dayanmış iki cavanı qəm içində gördü. Qara Yusif ətrafına göz gəzdirdi, qadın xeylağı görmədi. Onsuz da ağır vəziyyətdə olan usta Qara Yusifi silahlı atlılarla görüb qorxdu, yanında dayanmış iki cavana—kürəkənlərinə baxıb dedi:

— Başına dönüm, ağa, nə günah işləmişəm ki, üstümə qoşun gətirmisən, özün gəlmisən?

Qara Yusif onu sakitləşdirməyə çalışdı, ancaq tutarlı söz tapmadı. O dedi:

— Mənə söylədilər ki, Naxçıvanın ən yaxşı ipək parça toxuyanı sənsən. Mənə parça lazımdır, ona görə də gəldim sənin yanına. Bazara getmişdim, dükanın bağlı idi.

Məhəməd Mustafa istədi desin ki, ay kişi, mən nə haydayam, sən nə hayda, ancaq fikirləşdi ki, Qara Yusifə belə sözü demək olar? Odur ki, dərdini söyləməyi lazım bildi:

— Vallah, ay ağa, düz deyiblər ki, qızın olunca daş olsa daha yaxşıdır. Vallah, billah mən qabaqlar həmişə belə söz deyənin ağzından vururdum, deyirdim tanrı verən paydır, asi olma. Qızlarım mənə oğul kimi olublar. İkisi də ərə gedib, iki

oğlum daha artıb. Ancaq indi görürəm ki, atalarımız düz söyləyiblər. Qızımın əvəzinə daş olsaydı bu hala düşməzdim.

Qara Yusif ustanın nə demək istədiyini yaxşı bilsə də, özünü o yerə qoymadı:

— Nə olub, usta? Axı babalarımız başqa söz də deyiblər, özün də bilirsən: övlad allah verən paydır, onun qızlığına, oğlanlığına qulp qoymaq günahdır.

Dindar adam olan Məhəmməd Mustafaya Qara Yusifin sözləri xoş gəldi. O dedi:

— Düz söyləyirsən, ağa, ancaq qızın dərdi böyükdür. Belə də olur ki, gözünün qabağında onu qaçırdılar.

— Kim qaçırıb qızını, usta?

Ustanın dili açıldı, «sizinkilər» deməkdən çəkindi, ehtiyatla dedi:

— Dünən axşamçağı kiçik qızım yanıma gəlmişdi. Böyüyü yanıma hər gün gəlirdi, günorta yeməyi gətirirdi. Dünən axşamçağı yanıma gəldi desin ki, qonşu ipək parça istəyir, axşam evə gələndə özümlə gətirim.

Qara Yusifin gözləri ustada olsa da onu dinləmirdi, qaçırılmış qızın onun sevgilisi olmasına daha şübhəsi qalmamışdı. İndi Qara Yusifin fikrini bircə sual məşğul edirdi: onu qaçıran kimdir? Həm də başlıcası bu deyildi, ən başlıcası o idi ki, həmin adam onu özünə arvad edibmi? Usta Məhəmməd Mustafa isə Qara Yusifin gözlərini ondan çəkmədiyin görüb davam etdi:

— Qızlarım yanıma gələndə artıq hava qaralmışdı, tək qayıtmamaq üçün məni gözləmək istədiklərini bildirdilər. Mən arvad-uşaqla bir yerdə getməyi xoşlamıram, ona görə də onları özümdən qabaq yola saldım. Düzünü axtarsan, mənimlə olsaydılar da əlimdən bir şey gəlməyəcəkdi. Onlar dükandan heç yüz addım aralanmamışdılar ki, qışqırıq eşitdim, cəld o tərəfə qaçdım, gördüm kiçik qızım yerə sərilib, Qədəm Paşa isə yoxdur. Qızımı yerdən qaldırdım. O məni görüb ağlaya-ağlaya dedi:

— Babam, Qədəm Paşanı qaçırdılar. Özümü bərk itirdim, nitqim batdı, soruşa bilmədim ki, ay bala kim qaçırdı, necə qaçırdı, hansı tərəfə qaçdılar. Qızlarımın qışqırtısına yığışmış ustalardan biri soruşdu:

– Ay qızım, gördün kim qaçırdı?

Körpə qızım göz yaşları içində dedi:

– Onların hamısını gördüm, dörd adam idilər, hamısının da əynində qarağoyunluların paltarı var ndi.

Qara Yusif ev sahibindən əlavə bir söz öyrənə bnlməyəcəyini yəqin eləyib atına mindi, həyətdən çıxdı, ancaq hara gedəcəyini müəyyənləşdirə bilməyib küçədə dayandı. Atlarını onun atının ardınca sürən Qaraqoyulu əsgərləri də dayanmalı oldular. Qara Yusif fikrə getdi. O fikirləşirdi ki, onlar Naxçıvana gedəndə artıq şər qarışmışdı. Qaraqoyunlu əsgərlərinin heç biri şəhərə girməmiş, şəhər kənarındakı düzənlikdə qurduqları çadırlarda yerləşmişdilər. Onlar şəhərə ertəsi gün, hissə-hissə, yer düzəldikcə girməli idilər. Demək Qədəm Paşanı əsgərlər və səfərlərində daima onları müşayiət eləyən ailə üzvlərindən heç kim qaçıra bilməzdi. Bəlkə bu işi çəribaşılarından biri özü ilə şəhərə gətirdiyi nökərlərinin köməyi ilə görmüşdür. Qara Yusif atını çəribaşıların, əyanların yerləşdiyi məhəlləyə sürdü. Lakin həmin məhəlləyə çataçatda fikrindən daşındı. Axı ustanın dediyinə görə qızını qaranlıq qarışanda qaçırmışdılar, bu vaxt onlardan heç biri şəhərdə ola bilməzdi.Onlar şəhərə girəndə tam qaranlıq idi. Heç kim dəstədən ayrılıb qabaqcadan Naxçıvana girə bilməzdi, o bunu mütləq bilərdi. Heç kim Qara Məhəmmədin rizası olmadan özbaşına irəli soxula bilməzdi, lap vacib işi olsaydı belə şəhərə birinci Qara Məhəmməd girməli idi. Qız qaçırmaq adi hal olduğundan, heç kim belə sadə işdən ötrü Qara Məhəmmədin qəzəbinə düçar olmaq istəməzdi. Deməli, Qədəm Paşanı yerlilər qaçırıblar, onlar izi itirmək üçün qaraqoyunluların paltarını geymişdilər —başlarına qara qoyunun dərisindən şələ papaq qoymuş, əyinlarinə xələt geyib, bellərinə qurşaq bağlamışdılar.

Qara Yusif atının başını geri çevirib yenidən Məhəmməd Mustafanın həyətinə girdi. Hələ də həyətdə key keçmiş usta Qara Yusifin geri qayıtmasını görüb təəccüblə:

– Xeyir ola, ağa?—soruşdu.

Qara Yusif:

— Usta, kimdən şübhələnirsən?—soruşdu.

Məmməd Mustafa kişi əllərini oynatdı:

— Bayaq özün eşitdin ki, kimsə sizinkilərdən aparıb.

Qara Yusif narazı halda:

— Usta, bizimkilər də bizimdir, sizinkilər də, ayırmaq nəyə gərəkdir? Biz ki çoxdan qaynayıb-qarışmışıq,—dedi, susdu, həyətin o biri başında on-on iki yaşlı qızı görüb soruşdu:—Qədəm Paşa ilə bir yerdə olan o qız idi?

Usta başını tərpətdi. Qara Yusif qızı yanına çağırdı. Qız qorxa-qorxa gəlib atasına sığındı və gözlərini Qara Yusifə qaldırdı. Qara Yusif ustaya baxıb dedi:

— Sənin bayaq dediyin sözlər həqiqət ola bilməz. Sənin təbirincə desək, bizimkilər Naxçıvana girəndə artıq qaranlıq idi, qızını şər qarışan vaxt qaçırıblar. Demək onu qaçıran şəhərlilərdəndir, özü də izi azdırmaqdan ötrü paltarlarını dəyişib, qaraqoyunluların paltarını geyiniblər.

Usta Məhəmməd Mustafa fikrə getdi. Qara Yusif soruşdu:

— Şübhələndiyin adam var?

Usta başını tərpətdi. Qara Yusiflə ustanın söhbətini diqqətlə dinləyən qız atasına dedi:

— Babam, elə dünəndən sənə demək istəyirdim ki, bacımı qaçıranlardan birinin paltarı başqa olsa da, Rzaquluya oxşayırdı.

Qara Yusif ustadan soruşdu:

— Rzaqulu kimdir, usta?

Usta Məhəmməd Mustafa xeyli tərəddüddən sonra:

— Elə həmin şübhələndiyim adam,—dedi, susdu, ah çəkib davam etdi,—gərək qızı verəydim ona, indi belə biabırçılıq olmazdı.—Qara Yusif ustanın sözünü yarımçıq qoyaraq axıra kimi söyləmək fikrindən daşındığını görüb əsəbi halda:

— Kişi, sözünü axıra kimi söylə, mən sənin qapına dost kimi gəlmişəm, sənə kömək əli uzatmağa gəlmişəm.

Usta əllərini oynatdı:

― Olan olub, keçən keçib. bundan sonra danışmağın nə xeyri? Mən əminəm ki, qızım ölümünə razı olacaq, ancaq namussuzluğa yol verməyəcək. Ancaq bunun nə xeyri? Qaçırılmış qız ay kimi gözəl qalsa da, nə üzünə baxmaq istəyən tapılar, nə də istəməyən...

Qara Yusif qətiyyətlə:

― Tapılar, ay usta Məhamməd Mustafa, tapılar. Bir söylə görək o Rzaqulu dediyin kimdir?

― Avaranın, yolkəsənin biri. Yaxşı bir kişinin oğludur. Ata öldü, qoşuldu haramzadalara. İndi minbir pis əməlin sahibidir. Elçi göndərdi, qızımı istədi, vermədim. Qızımı çöldən tapmışdım ki, hər yetən avaraya verəydim?

Qara Yusif ustanın yanına qayıdanda kürəkənlərinin orada olmadığına əhəmiyyət verməmişdi. Qədəm Paşanın atası ilə söhbəti əsnasında onlar həyət darvazasından içəri girdilər! Onlar ustanın sual dolu baxışlarına əllərini yellətməklə cavab verdilər.

Qara Yusif ustadan soruşdu:

― Harada yaşayır o Rzaqulu?

Nəzərləri kürəkənlərində olan usta Qara Yusifə çevrildi.

― Neynəyirsən onu? Olan olub, iş işdən keçib, qismətimiz belə imiş.

Qara Yusif hirsləndi:

― Kişi, bəs bir az əvvəl deyirdin ki, qızın özünə əl qaldırar, ancaq namusuna toxunmağa yol verməz.

Usta çiyinlərini çəkdi, gözlərindən iki gilə yaş yuvarlanıb artıq ağarmış pırtdaşıq saqqalının tükləri arasında itdi. Qara Yusif üzünü kürəkənlərə tutub:

― Rzaqulunun evini tanıyırsınız?—soruşdu.

Onların ikisi də başlarını tərpətdilər. Qara Yusif cəld atına sıçradı və onlara qışqırdı:

― Tez olun, minin mənim əskərlərimin tərkinə.

Kürəkənlər qorxu dolu nəzərlərlə bir-birinə baxdılar və:

– Ağa, onlar çoxdurlar, getməyin, sizin hamınızı qırarlar,—dedilər. Qara Yusif onlardan birinə:

– Tez ol otur o əsgərin tərkinə,—deyə yanındakı əsgəri göstərdi və elə qışqırdı ki, o, istər-istəməz Qara Yusifin əmrinə əməl etməli oldu. Atlar götürüldü. Atlılar tezliklə şəhərin kənarında, bağlı-bağatlı bir həyətin darvazasının qabağında dayandılar. Qara Yusif atdan birinci düşdü, darvazanı itələdi. Bağlı idi. Yanındakı əsgərə darvazanı döyməyi əmr etdi. Əsgər yerdən bir daş götürüb darvazanı bərkdən döydü. Bir az keçmiş həyətdən söyüş qarışıq qışqırıq eşidildi:

– Ə... Köpəkoğlu, qapını niyə sındırırsan? Gəlirəm da...

Darvazanın kiçik qapısı açıldı. Ucaboy, üzü tüklü bir cavan Naxçıvan camaatının yaxşı tanıdığı Qara Yusifi qarşısında görən kimi dəyişdi, üzündəki sırtıqlıq, əzazillik yaltaqlıqla əvəz oldu:

—Xoş gəlmisən, ağa, içəri buyur.

Qara Yusif atına minib darvazanı açmağı əmr etdi. Darvaza taybatay oldu. Qara Yusiflə əsgərləri at üstündə, usta Məhəmməd Mustafanın kürəkəni sə piyada həyətə girib evin qarşısında dayandılar. Qara Yusif amiranə səslə qapını açmış cavana:

– Rzaqulunu çağır,—dedi.

Darvazanı açmış cavan Qara Yusifin Rzaqulunu haradan tanıya biləcəyi barəsində fikirləşib, əmrin icrasını ləngitdi. Qara Yusif onun üstünə kəkələidi:

– Nə gözünü döyürsən, eşitmədin, Rzaqulunu çağır dedim?

Bir dəstə cavanla evdə oturan Rzaqulu bayırdan amiranə səs eşidib dostları ilə eyvana çıxdı. hamısı silahlı idi. Qara Yusif cavanları diqqətlə gözdən keçirib soruşdu:

– Rzaqulu hansınızsınız?

Rzaqulu irəli çıxıb:

– Buyur, mənə təəllik qulluğun,—dedi.

Qara Yusif bu ortaboylu, tösmərək, üz-gözündən əzazillik yağan cavana baxıb soruşdu:

— Hanı dünən qaçırdığın qız?

Qara Yusifi görəndə üzünə süni təbəssüm qondurmuş Rzaqulu sual eşidən kimi dəyişdi:

— Ağa, hərə öz işi ilə məşğul olsaydı yaxşı olmazdımı? Sənin kimi bir igidə mənim arvadımın adını ağzına almağı cayiz deyil. El adəti var, onu qaçırmışam, demək mənim arvadımdır. Sən ki bu adətləri məndən pis bilmirsən. Belə işə qarışmağa qızın atası və qardaşlarından başqa heç kimin haqqı yoxdur. Onun atası qocadır, qardaşı yoxdur, iki əfəl kürəkəni var, onlar da mənə girişə bilməzlər.

Rzaqulunun sözləri Qara Yusifdə tərəddüd yaratdı. Qara Yusif fikirləşdi ki, kimliyindən, nəciliyindən asılı olmayaraq el adətinə xor baxmaq olmaz. Qızı qaçırıb, demək artıq onun arvadıdır. Qaçırılmış qıza elə belə baxıb sonradan geriyə, atası evinə qaytarsalar da, onu özünə arvad eləmək istəyən tapılmaz. Ancaq Qədəm Paşaya məhəbbəti onu buraya gətirib, özü istəmədən el adəti barəsində fikirləşməyə mane olub. O, Qədəm Paşanın Rzaqulunu görmək belə istəmədiyini düşünüb, qız toxunulmaz qalıbsa onu zorla geri almağı, atasına qaytarmağı qət edib, sərt nəzərlərlə Rzaquluya baxıb soruşdu.

— Haradadır qız?

Rzaqulu hırıldadı:

— Naxçıvanda başına qiymət qoyan, onu ölənə kimi çiyinləri üstündə görmək istəyən adam həyatimə girib o qızın barəsində mənimlə danışa bilməz.

Qara Yusif rişxəndlə:

— Bu sözlər mənə də aidir?—soruşdu.

Rzaqulu eyni həyasızlıqla:

— Elə sənin özünə də. Namus məsələsi olanda mən nəinki ağa heç padşahın özünü də tanımaram.

Qara Yusif daxilindəki təlatümü boğmağa çalışıb təmkinlə:

— Demək belə. Yaxşılıqla qızı vermək istəmirsən, eləmi?

— Nə yaxşılıqla, nə də qeyri-yaxşılıqla verməyəcəyəm. Axı artıq o mənim arvadımdır.

Kürəkən qışqırdı:

— Yalan deyirsən, o ölər, amma sənə arvad olmaz.

Rzaqulu qəzəb dolu baxışlarını ona çevirdi. Kürəkən buna əhəmiyyət verməyib qışqırdı:

— Yerini de qızın, onun qardaşı yoxdur, mən varam. Tək-təkinə gəlsən, boğazını cücə boğazı kimi üzərəm.

Rzaqulu onun üstünə şığımaq istyəndə Qara Yusif qılıncını çəkib onun qabağına kçdi:

— Bayaqdan kişilikdən danışırdın, indi bıcaq götürüb silahsız adamın üstünə cumursan. Bıçağını yerə at.

Rzaqulu Qara Yusifin sözlərinə əhəmiyyət verməyib hücum etmək istədi. Atdan düşmüş əsgərlər onun bıcağını əlindən aldılar. Kürəkən bunu gözləyirmiş kimi, Rzaqulunun üstünə şığıyıb cənəsinin altından elə bir yumruq vurdu ki, Rzaqulu səndələyib arxası üstə yıxıldı, başı yaxındakı ağacın kövdəsinə dəydi, ufuldadı, qalxdı, eyvanda dayanıb onlara baxan dostlarına qışqırdı:

— Nə durmusunuz orada arvad kimi?

Onlardan səs çıxmadı. Qara Yusif onlara qışqırdı:

— Atın yerə əllərinizdəki xəncərləri, bıçaqları, özünüz də rədd olub gedin buradan.

Onlar dinməzcə əllərindəki bıçaqları, xəncərləri yerə atıb həyətə düşdülər. Onlara əhəmiyyət verməyən kürəkən Rzaqulunun yaxasından yapışıb ona bir yumruq da ilişdirmək istəyəndə Qara Yusif onun əlindən tutub:

— Bəsdir,—dedi.

Kürəkən əsəbi halda:

—Bəs niyə olur? Onun qanı da halaldır. Sən bilmirsən bu alçaq indicə buraxdığın dostlarıyla Naxçıvan camaatına nə qədər əziyyətlər verib, nə qədər ev yıxıb, qapı qaraldıb.

Qara Yusif darvazaya sarı addımlayan cavanları geri səslədi. Onlardan üçü dinməzcə əmrə əməl etdi, ikisi isə qaçdı. Qara Yusif yenə Rzaquluya döndü:

– Haradadır qız?—soruşdu.

Rzaqulu dinmədi, onun dostlarından biri həyətin bir küncündə olan tövləyə tərəf getdi, qapını açıb çağırdı:

– Aaaz, çıx bayıra.

Həyətdə səs-küy eşidib daha da qorxuya düşmüş Qədəm Paşa ətrafına boylana-boylana tövlədən çıxdı, hamını bir-bir gözdən keçirdi. Bacısının ərini görüb sevincək yüyürüb, onun yanında dayandı. Bu vaxt eyvanda əlində örpək. yaşlı bir qadın göründü. O, həyətə düşüb örpəyi Qədəm Paşaya uzatdı və:

—Ay qızım, al bunu ört başına, belə oğulun üzünü allah qara eləsin.

Gözlərini Qara Yusifə zilləmiş Qədim Paşa örpəyi qadından alıb başını örtdü və öz-özünə «odur, özüdür» deyə düşündü. Qara Yusnfin də gözləri Qədəm Paşada idi. O, gözlərini ondan çəkmədən atına mindi və əsgərlərinə dönüb dedi:

– Aparın qızı evlərinə.

Qara Yusif atını tərpətməzdən qabaq Rzaquluya və onun dostlarına dedi:

– Sizin əməlləriniz böyük tənbehə, lap dar ağacının altına getməniz üçün kifayətdir. Mən sizi bu ağ saçlı anaya bağışlayıram. Yaxşı bilin, əgər o ailənin başından bir tük əskik olsa, yaxud camaatı incidən bircə addımınız barəsində eşitsəm, özünüzdən küsün.

Qara Yusif atının başını darvazaya sarı çevirəndə ana dedi:

– Qurana and olsun ki, qızınız aydan arı, sudan durudur.

Qədəm Paşanın anası, bacıları onu böyük sevinclə qarşıladılar, Məhəmməd Mustafa kişi isə onun üzünə heç baxmaq belə istəmədi. Birbaşa dükanına getdi, ancaq iş görə bilmədi. Qonşuluğundakı ustalar onun evina gəldilər, əhval tutdular, ancaq Məhəmməd Mustafanın eyni açılmadı. Onun beynini bir fikir

gəmirirdi: «kimə lazımdır üzüqara qayıtmış qız?» Kürəkəni qayınatasına Rzaqulunun anasının sözlərini çatdırmışdı. Ancaq bunun ondan ötrü heç bir əhəmiyyəti olmamışdı. El adəti var: qız ki naməhrəm evinə düşdü, ona ki, naməhrəm əli dəydi, qurtardı getdi. o üzüqaradır. Usta qaranlıq düşənə kimi dükanında oturdu. Xəyal aləmindən ayrılanda bütün qonşu dükanları bağlı, bazarı boş gördü. Usta dükanını bağlayıb evə döndü. Qapısında bir neçə at görüb ayaq saxladı, öz-özünə bu atlar kimindir sualını verdi, həyətə girib evə qalxdı, içəri girib Qara Yusiflə iki ağsaqqalı orada gördü, salamlaşdı, xoş gəlmisiniz deyib oturdu. O, qızını xilas etdiyi üçün Qara Yusifə minnətdarlıq eləmədi. Ağsaqqallardan biri dilləndi:

— Usta Məhəmməd Mustafa, bizim Qara Yusifi tanıyırsan. O istəyir sənə damad olsun, qızına evlənsin.

Fikirli oturmuş usta Məhəmməd Mustafa ağsaqqalın sözlərini eşitdi. Ancaq ona elə gəldi ki, qulaqları onu aldadır. Ona görə də ağsaqqalın sözlərinə əhəmiyyət vermədi. Ağsaqqal ustanın dinmədiyini görüb soruşdu:

— Niyə dinmirsən, razı deynlsən?

Usta nəzərlərini ağsaqqala qaldırıb:

— Nəyə?—deyə soruşdu.

— Eşitmədin nə söylədim? Dedim ki, elçiliyə gəlmişik, sənin qızına elçi düşmüşük, Qara Yusifə almaq istəyirik.

Məhəmməd Mustafa kişi heyrət və sadəlövhlüklə:

— Doğru deyirsiniz?—soruşdu.

Ustanın sözləri ağsaqqallara qəribə gəlmədi. Onların da qızları qaçırılsaydı, elə onun kimi fikirləşərdilər. Başqa bir ağsaqqal söhbətə qoşuldu:

— Demək razısan. Allah xeyir versin. Sənin qızına böyük xoşbəxtlik nəsib olub. Onun Qara Yusif kimi əri olacaq.

Məhəmməd Mustafa xeyli yaşlı olmasına baxmayaraq, yerindən quş kimi qalxdı, kürəkənlərini, evdəkiləri səslədi:

— Evdə nə varsa, tez ortaya gətirih, əziz qonaqların qabağına süfrə sərin.

Qara Yusif etiraz etdi, ağsaqqallar qalxdılar. Qara Yusif də durdu. Ağsaqqallardan biri Məhəmməd Mustafa kişiyə bir kisə qızıl verdi və dedi:

— Bu sənin qızının başlığı. Sabah yüz qoyun, üç yanı balalı inək göndərəcəyik. Sabah yox, o biri gün toy olacaq.

Məhəmməd Mustafa ilə kürəkənləri elə hey:

— Allah mübarək eləsin, xoşbəxt olsunlar,—deyirdilər.

Elçilər və Qara Yusif gedəndən sonra hamı bir otağa yığışdı. Qədəm Paşanı azad etməyə gedənlərin arasında olmuş kürəkən dedi:

— Mən elə oradaca başa düşmüşdüm ki, Qara Yusifin gözləri Qədəm Paşanı tutub. Həm də mənə elə gəldi ki, o, Qədəm Paşanı qabaq da haradasa görüb, bəyənib, ona görə də onu o quldurların əllərindən almağa belə səy göstərib.

Bu sözlərin heç birinin Məhəmməd Mustafa kişidən ötrü əhəmiyyəti yox idi. Onun üçün ən başlıcası o idi ki, üzüqara qızını alan tapılıb. Usta durub o biri otağa keçdi, soyunub yatağa girdi. Kürəkənlər də yığışıb evlərinə getdilər. Ana ilə qızları qaldılar. Bacılar Qədəm Paşanın üz-gözündən Qara Yusifə ərə getməsindən çox razı qaldığını görürdülər. Qədəm Paşa ürəyini onlara açmadı, Qara Yusifi sevdiyini demədi. Müəyyən edilmiş gün toy oldu. Qara Yusif ömründə birinci və sonuncu dəfə sevərəkdən evləndi, qarşılıqlı məhəbbətin dadını bildi.

* * *

Qara Məhəmməd Naxçıvanda çox qalmaq fikrində deyildi. O, bir aya qədər hazırlıq işləri gördükdən sonra Teymurləngin Qarabağdakı düşərgəsinə göndərilmnş kəşfiyyatçıların gətirəcəkləri xəbərə uyğun hərəkət etmək fikrində idi. Onların Qarabağa gedib-qayıtmalarını bir aydan çox gözləmək lazım gəldi. Kəşfiyyatçılar qayıdıb gələn kimi onların başçısı artıq gecədən xeyli keçməsinə baxmayaraq Qara Məhəmmədin yanına gəldi. Qara Məhəmməd ona oturmağa yer göstərib:

— Hə, bir söylə görək göndərdnyin qlavuzlar nə xəbərlə qayıdıblar?—soruşdu.

Kəşfiyyat rəisi gülumsündü:

— Sənin yanına yaxşı xəbərlə gəlmişəm. Əmir Teymur sənin Təbriz üzərinə gedəcəyinə inanmır. Bununla bərabər, o deyib ki, sən Təbriz deyil, lap Səmərqənd üzərinə də yerisən, o, yolundan dönən deyil. Yaz girən kimi dəmir qapı Dərbənddən keçib Qızıl Ordaya, Toxtamış xanın üzərinə gedəcək.

Kəşfiyyatçıların gətirdikləri xəbər Qara Məhəmmədin lap ürəyincə oldu, Təbrizə səfəri sürətləndirməyi əmr etdi və səfərqabağı oraya da qlavuzlar göndərmək tapşırığı verdi. Onların gətirdikləri xəbərlər Qara Məhəmmədin çox da ürəyincə olmadı. Təbrizi sultan Əhmədin əmirlərindən Şəbli və Şahəli tutmuşdular. Doğrudur, sultan Əhmədin bundan xəbəri yox idi və əmirlər Təbrizə özbaşlarına yiyələnmişdilər. Bu o demək idi ki, Təbriz uğrunda mübarizədə Qara Məhəmməd sultan Əhmədnn qoşunları ilə deyil, ondan üz döndərmiş, ona xəyanət etmiş əmirlərin qoşunları ilə qarşılaşmalı olacaqdı. Bu isə, əlbəttə, Qara Məhəmmədin işini xeyli yungülləşdirirdi.

Qara Məhəmməd yayın axırına yaxın Təbriz üzərinə yürüş təbili vurdurmaq istədi, lakin ağsaqqallar ona səfərini bir- iki gün ləngitməyi məsləhət gördülər.

Qara Məhəmməd heç bir maneə olmadığı halda səfərini təxirə salmaq fikrində deyildi. Ona görə də məsləhətçilərdən soruşdu:

— Niyə ləngidim, bir maneə var?

Ağsaqqal dedi:

— Sabah hava korlanacaq.

Qara Məhəmməd narazı halda:

— Nə olar ki, korlananda. Bir də haradan bilirsən ki, korlanacaq?

Ağsaqqal əlini batmaqda olan günəşə uzadıb dedi:

— Bir bax, gör günbatan necə al rəngə boyanıb, özü də rəng pozulmaq bilmir. Payızqabağı, payız vaxtı günbatan belə olanda hava mütlaq korlanır.

Qara Məhəmməd ağsaqqala gülümsündü, səfəri təxirə salmalı, təbili vurdurdu. Qoşunlar yola girdilər. Lap irəlidə Qara Məhəmməd və onun mühafizə dəstəsi, onun ardınca isə Qara Yusiflə Misir Xocanın başçılıq etdikləri qoşunlar

irəliləyirdilar. Qara Yusaf qaraqoyunlulardan olan qoşunlarını təbrizlilərdən ayırmamışdı. Onun təbrizlilərlə birlikdə yeddi min nəfərlik qoşunu yeddi minliyə bölünmüş və onların hər birinə bir minbaşı başçılıq edirdi. Hər minliyə təbrizlilərdən düzəldilmiş iki, yaxud üç yüzlük daxil edilmişdi. Təbrizə yürüş xəbərini alanda qanad açmağa hazır olan yüzbaşı Rəşid, Qara Yusifin qoşunlarının birinci minliyinə daxil edilmiş yüz nəfəri ilə lap minbaşının arxasında dayandı. Qarşısında irəliləyən Qara Yusif də, ondan qabaqda at sürən Qara Məhəmməd də daima onun gözlərinin önündə olurdular. Yalnız dincəlməyə əylənəndə və axşamlar düşərgə salınanda Rəşid öz çadırlarına çəkilmiş Qara Məhəmmədlə Qara Yusifi görmürdü. Ürəyinin ən ümdə arzularının həqiqətə çevrilməsində Qara Məhəmmədi ilahiləşdirən Rəşid, ona baxdıqca elə bil qollarına yeni qüvvət, gözlərinə işıq gəlirdi. Ona görə də o dincəlməyə əylənəndə darıxır, qoşunun tez yola düşməsini, Qara Məhəmmədi gözləri önündə görməyə tələsirdi. Qoşunlar Təbrizə yaxınlaşanda isə Rəşid həyəcanlanmağa başladı. Nədənsə evlərindən nigaran deyildi. Rəşidə elə gəlirdi ki, evdən çıxarkən hamını sağ-salamat qoyub getdiyi kimi indi də allahın köməkliyi ilə ata-anasının, bacılarının, Mahmud Ağa ilə Həcər xanımın və qızlarının başları əllərindədir. Bəs Xavər? Görəsən o, Təbrizdədirmi? Mahmud Ağa ondan xəbər tuta bilibmi?

Qara Məhəmmədin əmrilə Təbrizin iki ağaclığında qoşun gecələməyə əyləndi. Rəşid bütün gecəni yata bilmədi, yuxusu ərşə çəkildi. Səhəri dirigözlü açmış Rəşid ətrafına boylananda təbrizlilərin böyük əksəriyyətnndən başqa hamını şirin yuxuda gördü. Onların da çoxu Rəşid kimi əyləşib həndəvərlərinə tamaşa edirdilər. Rəşid ətrafını gözdən keçirdi. hər tərəf gül-çiçək içində, gözəl və cazibədar idi. Lakin kənardan baxana onun bu gözəlliyə laqeyd-laqeyd tamaşa etməsi qəribə görünərdi. O, nə sağ tərəfə burula-burula axıb çox da böyük olmayan, göz yaşı kimi şəffaf gölə tökülən kiçik çayın şırıltısına, nə də göldən bir qədər aralıdakı yaşıl çadralı meşənin əsrarəngiz cazibədarlığına, soldakı və arxasında baş alıb uzanan, gül-çiçəyə qərq olmuş çəmənlikdə torağayların gəzişməsinə, qaranquşların gah alçaqdan, gah da hündürdən uçub onun başı

üstündən keçməsinə əhəmiyyət vermirdi. İki nəfər təbrizli ona yaxınlaşdı, lakin onu xəyaldan ayırmağa cürət etmədilər. Ancaq onlardan cavanı çox dözmədi, Rəşidin çiynindən itələdi:

— Yaşı, bəsdir də, bir başını qaldır görək. Təbriz budu ha, lap bığlarının altında.

Rəşid istər-istəməz başını qaldırdı, dostlarına gülüm- sündü və dedi:

– Hə, elədir, az qalıb Təbrizə.

Yaşlı təbrizli dilləndi:

– Gərək lap tezdən yola düşəydik, yağış tutacaq bizi yolda.

Cavan təbrizli gülümsündü, Rəşid isə göyə baxdı və dedi:

– Bir göyə bax, heç əl boyda da bulud yoxdur, göyün üzü təptəmizdir.

Yaşlı təbrizli qarşıdakı meşəni göstərib dedi:

— Bir yaxşı baxın, indicə meşənin dalından qara bulud qalxdı.

Cavan təbrizli əllərini oynatdı:

– Nə olsun ki?

– O olsun ki, qaranquşlar gah hündürdən, gah da alcaqdan uçurlar. Bu o deməkdir ki, hava tezliklə korlanacaq.

Cavan təbrizli yenə gülümsündü:

– Mən qaranquşları həmişə belə uçan görmüşəm.

Yaşlı təbrizli onun sözlərinə əhəmiyyət vermədən çəmənliyin ortası boyu uzanan cığırı göstərdi:

– Bir o cığıra baxın, görün nə qədər qurbağa yığılıb ora.

Rəşidlə cavan təbrizli başlarını göstərilən istiqamətə döndərdilər. Cavan təbrizli ciddiləşdi:

– Bunun da yağışa dəxli var?

Yaşlı təbrizlinin əvəzinə ona Rəşid cavab verdi:

– Var, əzizim, var. Yağışqabağı quru qurbağaları yola çıxarlar,—deyib gülümsündü, gölə tərəf döndü və davam etdi,—bir bax, su qurbağalarının hamısı üzdədir. Yağışqabağı su qurbağaları suyun üzərinə çıxarlar.

Başını gölə sarı çevirmiş cavan təbrizli yalnız indi gölün üzərində üzən quru budaqların üstündə onlarla qurbağanın çıxıb quruldadıqlarını gördü. Cavan təbrizli təəccüblə soruşdu:

– Ay Rəşid, bu kişi yaşlıdır, belə şeyləri bilir, bəs sən haçan öyrəndin bunu?

Rəşid ona baxıb gülümsünməklə kifayətləndi və yığışmağa başladı. Yaşlı təbrizli ona qoşuldu. Cavan təbrizli hövsələsizlik göstərdi və dedi:

– Ay kişilər, hara tələsirsiniz? Elə çıxır ki, özbaşınayıq, bu qədər məxluqu gözləməyəcəyik.

Meşənin üstünə qalxmış bulud parçası sürətlə böyüməyə, göyün üzünü tutmağa başladı. Dostlar birdən-birə havanın qaraldığını görüb bir-birlərinə baxdılar. Bir az keçdi, yağış başladı. Düşərgə oynadı, hərə birtəhər yağışdan qorunmağa çalışdı. Rəşid zənn etdi ki, indicə təbil vurulacaq, yola düşəcəklər. Ancaq onun gözlədiyi təbil vurulmadı. O qalxdı, bir də oturdu, deyindi ki, bu təbil niyə vurulmur? Bəlkə Qara Məhəmməd yuxuya qalıb? Yox, bu ola bilməz. Bəs onda qoşun niyə hərəkətə gəlmir? Nəhayət, səs yayıldı ki, Qara Məhəmmədin qoşunları Təbrizdən uzaq da olanda Şəbli ilə Şahəli sultan Əhmədin onların üzərinə gəlməsi xəbərini alıb Maraqaya qaçmışlar. Qara Məhəmməd bu şayiənin doğru olub-olmamasını yoxlamaq üçün həm Təbriz, həm də sultan Əhmədin gələ biləcəyi Bağdad yoluna kəşfiyyatçılar göndərmişdi.

Kəşfiyyatçılar günortaya az qalmış qayıtdılar. Məlum oldu ki, sultan Əhmədin Təbrizə yürüşü şayiəsi əsassızdır, sultan Əhməd Bağdaddan tərpənməyib. İkinci şayiə isə düz çıxdı, həqiqətən də Şəbli ilə Şahəli Marağaya qaçmışdılar.

Qara Məhəmməd günün düz günorta çağı yola düşmək təbilini vurdurdu, artıq yağış kəsmiş, gün çıxmışdı. Rəşid çox da uzun olmayan ömrü boyu çox səslər eşitmişdi, lakin onlardan heç biri ona bu təbilin gurultusu qədər əziz olmamışdı. Təbilə ilk zərbənin dəyməsilə Rəşidin yerindən sıçraması, öz dəstəsini düzməsi bir oddu. Qoşun tezliklə tərpəndi və axşamçağı Təbrizə çatdı. Təbrizin bütün darvazaları taybatay idi. Təbriz camaatı, bir qismi qorxudan, bir qismi şəhər başçılarının çağırışı ilə, bir qismi Toxtamış xanın, ondan sonra isə əmir

Teymurun şəhərə vurduğu yaraları Qara Məhəmmədin sağaldacağını zənn edib onu qarşılamağa çıxmışdı. Qara Məhəmmədi qarşılayanların arasında Mahmud Ağa da var idi. O, Qara Məhəmmədin Təbrizə gəlməsinə çox şad idi və bu şadlığını, sevincini Qara Məhəmmədi bilavasitə qarşılayıb Təbrizin açarlarını təqdim edəndə onun özünə də bildirdi. Qara Məhəmməd də, öz növbəsində Mahmud Ağanın barəsində eşitdiyini bildirib, onun ünvanına xoş sözlər söylədi.

Qara Məhəmmədin qoşunları Təbrizə Şirvan darvazalarından girdi. Onlar küçələrə çıxmış Təbriz camaatının bəzisinin gözlərində qorxu, narahatlıq gördülər. Onlar Toxtamış xanla əmir Teymurdan sonra Şəbli ilə Şahəlinin də soyğununa məruz qalmışdılar. İndi inana bnlmirdilər ki, Qara Məhəmmədin qoşunları camaatın malına, canına daraşmayacaqdır. Öz həmşəhərlilərinin —Teymurləngin əsir apardığı oğlanlarının və qardaşlarının Qara Məhəmmədin qoşunları ilə birlikdə qayıtmaları təbrizlilərin böyük sevincinə səbəb oldu.

Qara Məhəmməd atını birbaşa saraya sürdü. Dincəlməzdən qabaq bəzi əmirləri və minbaşıları yanına çağırıb dedi:

— Öz əsgərlərinizə bir də tapşırın, bir təbrizlinin də burnu qanamamalıdır, onların bir çöpünə də toxunmamalıdır. Taqsırkarı ən ağır cəza gözləyir.

Minbaşılar getmək istəyəndə Qara Məhəmməd onları əylədi:

– Çərilərinizi yaxşı yerləşdirin, yemək-içməyinə fikir verin, təbrizlilərn isə evlərinə buraxın. Onlara deyin ki, şəhərdən çıxanda təbil vurduracağam, kim istəsə yenə bizə qoşula bilər.

Qara Məhəmməd saraya gələn kimi, onu qarşılayandan sonra qoşunlardan aralanıb evinə getmiş Mahmud Ağanı saraya çağırtdı, onun məsləhət gördüyü şəhərin adlı-sanlı adamlarını da saraya dəvət etdi. Qara Məhəmməd onlara bildirdi ki, o, Təbrizi bir daha heç kimə vermək fikrində deyildir. Təbrizdə bütün Azərbaycanda əmin-amanlıq yaratmaq istəyir. Bu işdə Təbriz kübarları, sənətkarları və tacirləri ona kömək etməlidirlər. Yaxın günlərdə o, Marağaya səfər etmək. Təbriz üçün təhlükəli olan Şəblini və Şahəlini məğlub edəndən sonra yenə Təbrizə qayıtmaq fikrindədir. Lakin Qara Məhəmməd tezliklə bu

fikrindən daşınmalı oldu, Marağaya oğlu Qara Yusifin başçılığı altında qoşun göndərdi.

Qara Yusif üzərinə duşmüş ilk müstəqil əməliyyatı muvəffəqiyyətlə başa çatdırmaq üçün ciddi tədbirlər gördü. O, qoşunlarını Marağaya aparmazdan qabaq kəşfiyyat rəisini, minbaşıları və yüzbaşıları çağırdı. Rəşid onların arasında yox idi. Qara Yusif Şəbli ilə Şahəlinin qüvvələri barəsində məlumat toplamağı kəşfiyyat rəisinə tapşırıb onu yola saldıqdan sonra minbaşılara və yüzbaşılara dedi:

— Döyüşçülərimizə çatdırın ki, Marağanı alanda müqavimətə rast gəlsə, şəhəri talan etməyə izn verəcəyəm.

Qara Yusif günəşdən yanmış mis rəngli sifətini, şabalıdı saqqalını sığalladı, həmişəki sərt baxışları ilə minbaşıları və yüzbaşıları bir də süzüb davam etdi:

— Çoxdandır çərilərinizin əllərinə bir şey keçmir. Doğrudur, Lələ Xocanı əzişdirəndən sonra silah və başqa qənimətləri oldu. Ancaq çox az. Onları şirnikləndnrmək gərəkdir. Onlara söyləyin ki, Marağa camaatı müqavimət göstərməsə, onları qarət etmək lazım gəlməsə də eyb eləməz. Şəbli ilə Şahəlinin mal-dövləti çoxdur, hamısı da Marağada. Bu mal-dövlətin xeylisini onlara naylayacağam.

Qara Yusif müəyyən etdiyi vaxt Təbrizdən çıxdı. Şəhəri tərk edəndən bir gün sonra yolda kəşfiyyatçıları ilə rastlaşdı. Onların gətirdikləri xəbər Qara Yusifin gözlədiyi kimi oldu. Şəbli ilə Şahəlinin qoşunları o qədər də çox deyildi və Marağa camaatı onları müdafiə etmirdi.

Marağa camaatının şəhər darvazalarını Qara Yusifin üzünə açmaq cəhdi nəticə vermədi. Şəbli ilə Şahəli şəhərə doldurduqları qoşunları bürclərə yığıb döyüşə girişdilər. İki gün davam etmiş vuruşmadan sonra bir qrup marağalı qəflətən arxadan hücum edib Marağa darvazalarından birini aça bildi. Qara Yusifin qoşunları şəhərə doluşdu. Şəbli Qara Yusifi təkbətək döyüşə çağırdı. Şəhər meydanında baş vermiş bu döyüşdə Şəbli öldürüldü, Şahəli isə yoxa çıxdı. Sonra məlum oldu ki, o, dilənçi paltarınla şəhərdən qaça bilmişdi. Şəbli ilə Şahəlinin

qoşunları silahlarını töküb təslim oldular. Qara Yusif şəhər camaatına toxunmamağı əmr etdi. Bir dəstə şəhərlinin qala darvazalarını açıb Qara Yusifə kömək göstərməsi Marağa camaatını talandan və qırğından xilas etdi.

Qara Yusif tezliklə Təbrizə qayıtdı. Qara Məhəmməd oğluna mehribanlıq göstərdi, onun şərəfinə ziyafət məclisi qurdu. Ziyafət qurtaranda və hamı gedəndən sonra Qara Məhəmməd yanında qalmış yaxın adamlarını da mürəxxəs etdi. Bircə Qara Yusifi əylədi və dedi:

— Sən getmə, otur, oğlum.

Qara Yusif oturdu. Atasının ciddi söhbətə başlamaq istəyəndə yerini rahatlamaq şakərindən xəbərdar idi. Qara Yusif oturan kimi Qara Məhəmməd yerinlə qurcalandı, oturduğu döşəyin yanına qoyulmuş söykənəcəyə dirsəkləndi, oğluna bir xeyli baxandan sonra dedi:

— Maşallah, lap əməlli-başlı kişi olmusan, elə mənim istədiyim kimi.—Qara Məhəmməd boğazının altını şəhadət barmağı ilə qaşıya-qaşıya davam etdi. —Mənim yeganə ümidim həmişə sən olmusan, Marağa səfərin bu ümidimi lap doğrultdu,—dedi, saqqalını sığallamağa başladı,—sözümün canı başqadır, oğlum. Təbriz indi bizimdir, ancaq biz hələ bütün Azərbaycanı, İraqı tuta bilmərik, zorumuz çatmaz. Hər dərədə biri bu taxta göz dikib. Bir yandan da əmir Teymurla Toxtamış xan. Ancaq əvvəl-axır bu taxt bizim olmalıdır, geci-tezi var. Bax, məni düşündürən bu gec-tez məsələsidir. Məncə bu tez olmayacaq, bir az gec olacaq, onu mən görmədim bəlkə,—Qara Məhəmməd boğazını arıtladı və davam etdi,—Bax, sözümün canı budur, oğlum. Bu iş bir qədər gecikəcək və onu sən görməli olacaqsan. Məndən sonra mənim vəsihim sən olacaqsan, oğlum.—Qara Məhəmməd Qara Yusifin nəsə demək istədiyini, onun sözünün qurtarmasına müntəzir olduğunu görüb gülümsündü.—Bilirəm, söyləyəcəksən ki, səndən böyük qardaşın var. Elədir, oğlum, ancaq o bu işi görməyə qabil deyil. Tanrı bu iş üçün səni verib mənə. İmkan düşən kimi Misir Xocanın iştirakilə öz fikrimi sərkərdələrə, əmirlərə söyləyəcəyəm.

Qara Yusif atasına cavab verməyə lüzum görmədi. Qara Məhəmməd səsini lap alçaldıb dedi:

—Belə görünür ki, bu yaxınlarda Təbrizdən getməli olacağıq, Cəlayir nəslindən olan bir çox əmirlər, bəzi yerli əmirlər də bu taxta göz dikiblər. Bir yandan da əmir Caliklə Qara Bistam, o biri yandan Şeyx Adi Məhəmməd Ərəb və Məhəmməd Hilal Cahanşahi, Əlincə hakimi Xoca Cövhər, nə seyləyim, o qədərdirlər ki, it ilxısı, köpək sürüsü. Onların özlərinin arasında birlik yoxdur, çoxunun öhdəsindən gələ bilərik, ancaq bu, qüvvələrimizin parçalanmasına səbəb ola bilər. Biz əlverişli şəraitin yetişməsini gözləməliyik.

Qara Yusif atasından Təbrizi nə vaxt tərk etmək fikrində olduğunu soruşmaq istədi, lakin soruşmadı, fikirləşdi ki, lazım bilsəydi, özü söyləyərdi. Başını yerə dikib oturmuş Qara Məhəmməd oğlunun fikrini oxuyubmuş kimi dedi:

— Oğlum, Təbrizdən gedəcəyimiz barəsində sənə söylədiklərim gizli qalmalıdır, ikimizdən başqa kimsə bilməməlidir. Bəlkə bir neçə ay qalmalı olduq, bəlkə də günü sabah şəhərdən çıxmaqlazım gəldi.

Qara Məhəmməd gərnəşdi. Qara Yusif atasının yorulduğunu görüb getməyə icazə istədi və onun yanından çıxıb sevimli arvadı Qədəm Paşanın yanına gəldi.

Qara Yusif Qədəm Paşa ilə artıq iki ay idi ki, evlənmişdi, lakin sevimli arvadından yarımca gün ayrı düşəndə darıxır, işini tez qurtarıb onun yanına qayıtmağa can atırdı. Naxçıvandan Təbrizə uzanan yolboyu Qara Yusif gündüzlər at belində qoşunun önündə gedir, qaranlıq düşən kimi Qədəm Paşa üçün qurulmuş çadıra qaçırdı. O, gündüzlər qoşun dincəlməyə əylənəndə də Qədəm Paşanın yanında olmaq istərdi. Lakin Qədəm Paşa bütün Qaraqoyunlu qoşunlarının minbaşılarının və saray əyanlarının ailələri ilə, həmçinin Qara Yusifin digər iki arvadı ilə qoşunların arxasında, xüsusi arabalarda gəlirdi. Qara Yusif həmin arabalara yaxınlaşmağa həya edir, atasından, digər ağsaqqallardan utanırdı. Axşam olduqda isə onun hər arvadına ayrıca bir çadır qurulurdu və Qara Yusif hər dəfə Qədəm Paşanın çadırına gəlirdi. Qara Yusif, əlbəttə, yaxşı başa düşürdü ki, onun bu hərəkəti o biri arvadlarını rəncidə salır, lakin buna

əhəmiyyət vermirdi. O, arvadlarının tam ixtiyarlı sahibi, ağası idi və onların heç birinin ona söz demək, narazılıq eləmək hüququ yox idi. Bunu arvadlar özləri də yaxşı bilir, şikayətlənmirdilər. Ancaq onlar yolboyu Qədəm Paşaya acı sözlər deməkdən çəkinmirdilər. Qədəm Paşa onların tikanlı sözlərinə əhəmiyyət vermir, hər axşam sevimli ərinin qolları arasına girəndə gündüzkü iztirablarını tezliklə unudurdu. Təbrizə gələndən sonra da Qara Yusif yalnız Qədəm Paşanın yanına gecələməyə gəlirdi. O, yalnız bir dəfə gündüz oğlanları İspəndlə İsfəndiyarın anasına baş çəkmiş, ondan qabaq aldığı birinci arvadının görüşünə isə nahar vaxtı, onu təkidlə nahara çağırandan sonra getmiş və oğlu Şah Məhəmmədi də anasının yanında görmüşdü. Qara Yusif Marağa səfərindən geri qayıdan günü, ziyafətdən sonra da atasının yanından sevimli arvadı Qədəm Paşanın yanına tələsəndə Qədəm Paşa onu həmişəki kimi gülərüzlə, nazlana-nazlana qarşılasa da, Qara Yusif onda dəyişiklik baş verdiyini, nəvazişlərindəki süniliyi duydu, özünü bilməməzliyə vurdu. Ona elə gəldi ki, o biri arvadları onu incidiblər. Qara Yusif Qədəm Paşadan qabaqkı arvadları arasında onun bu və ya digərinin yanında daha çox gecələməsinə görə dava-dalaş olmasından xəbərdar idi. Qara Yusif Qədəm Paşanın könlünü almaq üçün Marağada bir zərgərdən aldığı boyunbağını onun boynuna saldı. Boyunbağıda sıralanmış kiçiyi noxud, böyükləri isə fındıq boyda olan yumru və arpavari gümüş bəzəklərinin hamısının üzərinə müxtəlif böyüklükdə mina həkk edilmiş, minaların ətrafı qızılla işlənmişdi. Qədəm Paşa sevimli ərinin hədiyyəni boynuna keçirmiş əllərindən öpmək istədi, lakin Qara Yusif buna yol vermədi. Qədəm Paşanı qucaqladı, öpüşə qərq etdi. Ərinin oxşamasından məst olmuş Qədəm Paşa yatağa girəndə onun qulağına pıçıldadı:

— Bizim oğlumuz olacaq.

* * *

Qara Məhəmməd təbrizli əsirlərə öz evlərinə getməyə icazə verən kimi Rəşid evə qanad açdı. Lakin o heç bir tin getməmişdi ki, ayaq saxladı. O, Mahmud

Ağanı Qara Məhəmmədi qarşılayanların arasında, sonra isə onunla söhbət eləyən görmüş, həmin anda da gözdən itmişdi. Rəşid fikirləşmişdi ki, yəqin Mahmud Ağa yenə saraya qayıtmışdır, o, Qara Məhəmmədin təklifindən boyun qaçırmazdı. Rəşid cəld saraya tərəf qaçdı, lakin onu içəri buraxmadılar və gözətçilərdən Mahmud Ağanı tanıyan yox idi ki, onun sarayda olub-olmadığını öyrənə bilsin. Rəşid Mahmud Ağanı buralarda tapa bilməyəcəyini yəqin edib evə götürüldü.

Rəşid həyətə girəndə birinci qarşılaşdığı adam anası oldu. Rəşid başı aşağı həyəti süpürən anasını diqqətlə nəzərdən keçirdi, o, necə də dəyişmiş, qocalmışdı. Ana süpürgəni atıb, carhovuzun yanına gəldi, küvəci götürəndə başını qaldırdı, ona baxıb gülümsünən oğlunu görüb özünü itirdi, əlindəki küvəc yerə düşüb çilik-çilik oldu. Rəşid tez özünü irəli atıb onu tutmasaydı yıxılacaqdı. Oğlunun qolları arasında sevinc yaşı axıdan ananın heyrətdən səsi çıxmadığı üçün nə Rəşidin bacısı, nə də Mahmud Ağanın ailəsi Rəşidin gəlişindən xəbər tutmuşdu. Anasının çoxdan həyətə çıxıb qayıtmadığından narahat olmuş Rəşidin bacısı Səriyyə eyvana çıxıb anasını qardaşının qolları arasında görəndə qışqırıb Rəşidin üstünə atıldı. Səriyyənin qışqırtısına Mahmud Ağa, Həcər xanım, onların iki qızı da eyvana çıxdılar. Xavərin də onun kimi evlərinə qayıda biləcəyini ehtimal etmiş Rəşid, eyvana çıxanların arasında onu görmədikdə, qanadları qırıldı, ürəyindəki ümid qığılcımı söndü. O, ehtiyatla anasından aralanıb eyvana yaxınlaşdı. Eyvandakılar artıq pillələrlə həyətə düşürdülər. Mahmud Ağa Rəşidlə birinci qarşılaşdı, onu qucaqladı, Həcər xanım da adət-ənənəni pozub Rəşidin boynunu qucaqlayıb ağladı. Rəşid Xavər barəsində sual verməyi artıq bildi. Həcər xanımın göz yaşları hər şeyi aydın söyləyirdi. Rəşidin gözləri atasını axtardı. O soruşdu:

— Bəs babam hanı, ana?

— Şəhri-Rəşidə bacına baş çəkməyə gedib, başına dönüm,— dedi.

Rəşid bir tərəfə çəkilib Xavərlə Sahibabad meydanında son görüşü barəsində Mahmud Ağaya məlumat verdi. Mahmud Ağanın bundan xəbəri var idi. O, Rəşidin sözlərinə əlavə etdi:

– Ancaq sonra onları hara apardıqlarını heç cürə öyrənə bilmədim. Səmərqənd tərəfə getdikləri dəqiq məlumdur. Qalır bir istiqamət—Şirvan. Yesir gəlin-qızların bir qismini Şirvan yolunda görənlər də olub. Ancaq haraya, hansı şəhərə aparıblar? Bax, bunu bilən yoxdur. Şübhə ola bilməz ki, onları satmağa aparıblar. Elə də ola bilər ki, onları Şirvana deyil, başqa yerə, Şamaxıdan o yana aparsınlar. Onların yarıdan çoxunu isə meydandan aparandan sonra gördüm deyən olmayıb. Haradadırlar? Bunu bir olan allah bilir.

Rəşid səbirsizliklə:

– Mahmud Ağa, elə ola bilərmi ki, onların bir qismini Təbrizdə saxlasınlar?—soruşdu.

Mahmud Ağa ümidsizliklə çiyinlərini çəkdi, əllərini oynadıb dedi:

– Nə söyləyim, vallah, sən gedəndən mən də saraydan kənar gəzirəm. Heç kimdən heç nə öyrənə bilməmişəm. Ancaq bircə onu bilirəm ki, Teymurləng şəhərdən çıxanda əsirləri burada qoyub getməzdi. Çox güman ki, onları xarici tacirlərə satıblar. Yenə təkrar eləyirəm, bütün bunlar mənim mülahizələrimdir, qız-gəlinləri görən olmayıb.

Mahmud Ağa hələ də həyətdə olub onlara baxan Həcər xanımı, qızlarını evə göndərdi. Rəşidin də anası və bacısı evə girdilər. Mahmud Ağa Rəşidi çarhovuzun kənarında əyləşdirdi:

– Mənim mülahizəm əsassız deyil, axı əmir Teymurun adamları öz əsirlərini qoyub getməzdilər, tacirlər isə onları Təbrizdə satmağa cürət eləməzdilər. Demək onları mütləq Təbrizdən çıxarıb harayasa aparıblar.

Rəşid Mahmud Ağanın sözlərinin qabağına söz qoymaq istəmirdi, bunu ona hörmətsizlik sanırdı. Ancaq söhbət çox vacib bir mövzuda, canından artıq sevdiyi adam barəsində getdiyindən, o, çəkinə-çəkinə olsa da öz fikrini söyləməyi lazım bildi:

– Ağa, onlar iynə deyildilər ki, şəhərdən çıxarsınlar, amma heç kim görməsin. Hər halda görən olardı. Məncə əsirləri almış tacirlər onları Təbrizdə, yaxud Şəhri-Rəşiddə, ya da Qazaniyyədə gizlədə bilərlər, satmağa aparmağa imkan düşənə kimi.

Mahmud Ağa çiyinlərinn çəkdi, o, Rəşidin sözləri ilə şərik olduğunu bildirdi. Lakin eyni zamanda fikirləşirdi ki, bəlkə də Xavər Şirvan tərəfə göndərilmiş əsir qız-gəlinlərin arasında olub. Rəşid də eyni anda belə fikirləşdi:

– Ağa, sən Qara Məhəmmədlə görüşsəydin, yaxşı olardı. Çox güman ki, o səni saraya məsləhətçi dəvət eləyəcək. Ondan Təbrizi, onun ətrafını yaxşı axtarmağı xahiş elə. Burada olanlar tapılsa, Xavər onların arasında olmasa, mən Şirvan tərəfə yola düşərəm, mütləq taparam Xavəri.

Mahmud Ağa onunla razı olduğunu, sabah saraya gedəcəyini bildirdi. Rəşid sıxıla-sıxıla:

– Sabah niyə, ağa, bu gün getmək olmaz?

Mahmud Ağa Rəşidə baxıb gülümsündü, başını tərpətdi və saraya yollanmaq üçün ayağa durdu. Bu vaxt Əliabbas kişi həyətə girdi. O, Rəşidi görüb donub qaldı, ayaqları yerə mıxlanıbmış kimi tərpənə bilmədi. Bir anlığa dili də tutuldu. O, yalnız əllərini irəli uzada bildi. Gözlərindən axan yaş artıq ağarmış saqqalında yumurlanıb qaldı. Rəşid özünü atasına yetirdi. Kişi onu qucaqlayıb, tez də aralandı, özünü ələ aldı, gülümsünməyə çalışdı və dedi:

– Səfa gətirmisən, ay oğul, gözümün işığı.

Mahmud Ağa yaxınlaşıb Əliabbas kişiyə gözaydıllığı verdi. Sonra pillələrə doğru getdi. Əliabbas kişi bunu görüb onu səslədi və dedi:

Şəhri-Rəşiddə qəribə bir şey eşitdim. Deyirlər oradakı iyirmi dörd karvansaradan həmişə girimli-çıxımlı olan ən böyüyünün qapı-darvazası bağlı qalıb. Belə bir şayiə yayılmışdı ki, əsir qız-gəlinləri satın almış İran tacirləri onları orada saxlayırlar. Camaat bundan xəbər tutub karvansaraya hücum eləyib, qapı-bacasını sındırıb içəri girib.

Əliabbas kişinin sözlari Mahmud Ağanı da, Rəşidi də həyəcanlandırdı. Mahmud Ağa Əliabbas kişiyə sarı gəldi:

— Bəs sonra, sonra?—soruşdu.

Əliabbas kişi davam etdi:

— Ancaq karvansaradan heç nə tapa bilməyiblər, onu tamam boş görüblər.

Mahmud Ağa demək istədi ki, burda qəribə nə var ki, ancaq Əliabbas kişinin xatirinə dəyəcəyindən ehtiyat etdi. Əliabbas kişi Mahmud Ağaya baxmırdı, gözləri oğlunda idi.

— Qəribəsi budur ki, camaat karvansaradan çıxan kimi, cəld qapıları qayırıb daldan bağlamaq istəyəndə camaat mane olub. Qız-gəlinləri əsir aparılmış beş kişi təzədən karvansaraya girib hər yeri ələk-vələk eləmək istəyib. Onlar içəri giriblər, ancaq axşama kimi geri qayıtmayıblar. Bundan xəbər tutan camaat ertəsi gün səhər tezdən karvansaraya doluşmuş, hər yeri axtarmış, onları tapa bilməyib əliboş qayıdıb.

Mahmud Ağa ilə Rəşid bir-birilərinə baxdılar. Mahmud Ağa tam qətiyyətlə dedi:

— Karvansara o adamları uda bilməzdi ki. Hec şübhə yoxdur o karvansarada gizli yol var, xəlvət yerlər var. Buna da şübhə yoxdur ki, o karvansarada nəsə yaşırıblar. İçəri girmiş adamlar axtardıqlarının izinə düşə biliblər, ona görə də karvansaradakı gizli qüvvələr onları da xəlvəti yerə soxublar,—dedi, cəld evə sarı getdi, həmin an da evdən çıxdı. Tez geri qayıtdı, bildirdi ki, sarayda ziyafətdir və yalnız sabah səhər oraya gedə bilər.

Ertəsi gün Mahmud Ağa saraya getməyə hazırlaşsa da, tərəddüd içində idi. O, əslində saraya getmək istəmirdi, ancaq əlacı yox idi, bəlkə də sarayda Şəhri-Rəşiddəki karvansaranın sirrindən xəbərsiz idilər, bu xəbəri Qara Məhəmmədə çatdırmaq lazım idi. Ancaq Qara Məhəmməd onu necə qəbul edəcəkdi?

...Qara Məhəmməd Mahmud Ağanı yaxşı qarşıladı dalınca adam göndərməyə hazırlaşdığını bildirdi. Qara Məhəmməd Mahmud Ağanı maraqla dinlədi və

karvansaranı yoxlamaq ücün üç yüz nəfərlik qoşun dəstəsi göndərdi. Əsgərlər karvansarada yeraltı hücrələr, yollar tapdılar. Burada gizlədilmiş yüzlərlə əsir qız-gəlini azad etdilər. Xavər onların arasında olmadı.

Yesir qız-gəlinləri axtarmaqdan ötrü Şəhri-Rəşidə qoşun göndərilməsindən xəbər tutmuş Təbriz camaatı buraya axışmışdı. Onlar karvansaradan çıxan qızlarını, gəlinlərini bağırlarına basır, sevinc yaşı axıdırdılar. Bütün əsir qızlar-gəlinlər çıxıb qurtarandan sonra karvansaranın yanında əsl yas quruldu. Öz qızlarını, bacılarını, gəlinlərini burada tapmaq ümidi ilə Şəhri-Rəşidə gəlmiş, lakin onları azad edilmiş əsirlər arasında görməyib fəryad qoparan anaların, bacıların ağlaması, hönkürməsi kənardan baxanların ürəklərini qana döndərirdi. Kişilər göz yaşlarını səssiz axıdırdılar. Ağlayanlar arasında Həcər xanımla Mahmud Ağa da, Əliabbas kişilə arvadı və oğlu Rəşid də var idi. Həcər xanım hönkürur, Rəşidin anası isə onu qucaqlayıb göz yaşı tökə-tökə ovutmağa çalışırdı. Əliabbas kişi elə hey gözlərini silir, Mahmud Ağa ilə Rəşid isə keyləşmişdilər.

Özünü birinci Mahmud Ağa ələ ala bildi, Həcər xanımı sakitləşdirməyə çalışdı. Onlar evlərinə yollandılar. Rəşid hələ yolda ikən günü sabah Şirvan tərəfə yola düşəcəyini Mahmud Ağaya bildirdi, ancaq sözlərinin hamısını söyləyə bilmədi. O, Mahmud Ağaya deyə bilmədi ki, Xavəri tapsa da onu almağa pulu yoxdur, pulu o verməlidir. O, evdə bir də söhbət salıb sözlərini Mahmud Ağaya deyə biləcəyini fikirləşib sakitləşdi. Həyətə girəndə qonşu kişinin həyətdə oturub onları gözlədiyini gördülər. Yaxşı qonşular olsalar da aralarında get-gəllər olmayan Mehdi kişini həyətdə gördükdə Mahmud Ağa təəccüb etdi, lakin bunu büruzə verməməyə çalışdı və qonşuya xoşgəldin elədi. Onu evə dəvət etdi. Mehdi kişi dəvətdən boyun qaçırdı və dedi:

— Bir-iki kəlmə sözüm var sənə, Mahmud Ağa. Bu sözləri sənə söyləməyi özümə borc bildim.

Qadınlar getdilər. Mahmud Ağa, Əliabbas kişi və Rəşid Mehdi kişini dörəyə aldılar. Mehdi kişi:

- Mənə xoşbəxtlik üz verib, Mahmud Ağa, qızım Şəhri-Rəşiddəki karvansarada olan əsirlərin arasında idi.

Nə Mahmud Ağanın, nə də Rəşidlə onun atasının Mehdi kişinin qızının əsir alınmasından xəbəri var idi. Onlar Mehdi kişiyə gözaydınlığı verdilər. Mehdi kişi Mahmud Ağanın qızının onların arasında olmamasına təəssüfləndi və dedi:

— Mahmud Ağa, mənə məlumdur ki, sənin qızın Şirvan tərəfə aparılmış əsirlərin arasında olmayıb.

Mahmud Ağz ilə Rəşidin ürəkləri sıxıldı. Bir anın içində ildırım sürətilə onların beyinlərindən min fikir keçdi. Burada da yox, orada da. Bəs necə oldu qız? Demək... Yox, aman allah, yox... Gözləri Mahmud Ağada olan Mehdi kişi onda əmələ gəlmiş ani dəyişikliyi görüb səbəbini başa düşdü və sözünün canını deməyə tələsdi:

— Bizim qız söyləyir ki, Xavər Rəşidi görəndən bir necə gün sonra onlar saxlanılan yerə üç nəfər üzü örtüklü arvad gəldi, qızların-gəlinlərin hamısını bir-bir gözdən keçirib gözəllərindən on nəfərini seçib apardılar. Üzü örtülü bu arvadlar kimlər idi, qız-gəlini haraya apardılar? Bax bunu bizim qız bilmir.

Mahmud Ağa soruşdu:

— Onda onlar harada imişlər?

— Elə həmnn karvansarada. Söyləyir ki, bir gün onlara dedilər ki, yığışın gedirik. Həyətdə yığışıb xeyli gözləyiblər.

Axşama yaxın deyiblər ki, daha gedəsi olmadıq. Onda sənin qızın artıq orada yox imiş. Mənim qızımla orada qalanları fars tacirləri satın alıb, amma apara bilmayiblər və onların hamısını kücla yeraltı hücrələrə doldurublar.

Mahmud Ağa daha sual vermədi. Mehdi kişi sözünü bitirdi, qalxdı və:

— Mən gedim,—deyib yola düzəldi. Mahmud Ağa əziyyət çəkib gəldiyinə görə ona minnətdarlığını bildirdi və Rəşidlə birlikdə darvazaya kimi ötürdü.

* * *

Qara Məhəmməd rəqiblərinin hər an Təbriz üzərinə gəlməyə hazır olmalarını görüb, şəhəri tərk etməyi qərarlaşdırdı. Qara Bistamla əmir Calik artıq qılınclarını sıyırıb, Təbriz üzərinə gəlirdilər. Qara Məhəmməd oğlanlarını, qoşun başçılarını yanına çağırıb öz qərarını onlara bildirdi. Onu da bildirdi ki, payızla qışı Xoy tərəfdə keçirəndən sonra Aladağa, yaylağa getmək fikrindədir.

Qara Məhəmməd qoşunlarını Təbrizdən hissə-hissə çıxarmağa başladı. Təbrizi tərk edən ilk qoşun dəstəsinə Qara Məhəmmədin özü başçılıq edirdi. Təbriz camaatının bir qismi tamaşa etmək üçün, maraq xatirinə, bir qismi isə Qaraqoyunluların başçısını yola salmaqdan ötrü küçələrə çıxmışdı. Qara Məhəmmədin şəhərdən getməsn təbrizlilərin çoxunu narahat edirdi. Son iki ildə Təbrizin bir fatehin əlindən digərinin əlinə keçməsi, şəhərin talan edilməsi, xeyli təbrizlinin əsir aparılması, öldürülməsi, ehram düzəltmək xatirinə günahsız qocaların və uşaqların başlarının kəsilməsi camaatı səksəkəli etmişdi. Qara Məhəmmədin Təbrizi tutandan sonra heç kimə toxunmaması əksinə, əmir Teymurun əsir elədiyi qız-gəlinlərin bir çoxuna azadlıq bəxş etməsi təbrizlilərdə ona rəğbət oyatmışdı. İndi həmin adam Tabrizi tərk edirdi və onun bu hərəkətini hərə özü bildiyi kimi qiymətləndirirdi:

– Vallah, ay kişi, məəttəl qalası işdir. Niyə bizim bu Təbrizə yiyə duran tapılmır? Biri gəlir, dağıdır, öldürür gedir, o biri gəlib eynən talan eləyir. Bunun camaatla işi olmadı. Heyf ki, bu da gedir.

– Niyə gedir axı? Ona ki, toxunan yoxdur, üstünə heç kim gəlmir.

—Qara günlərimiz qabaqdadır. Bu gedəcək, heç bir həftə keçməyəcək o biri təşrif buyuracaq. Allah bilir o nə oyun acacaq bu qaragün Təbriz camaatının başına.

— Deyirlər Qara Bistam hazır dayanıb, qaraqoyunlular gdən kimi özünü Təbriza salacaq.

Təbrizlilər öz aralarında belə söhbətlər edir, Qara Məhəmmədin Təbrizdən getməsinə heyfsilənirdilər. Qadınlardan ağlayanlar da var idi.

Qara Məhəmməd şəhərdən çıxandan iki gün sonra Qara Yusif, daha iki gün sonra isə Misir Xoca Təbrizlə vidalaşdı.

Təbrizi tərk etmiş Qara Məhəmməd axşama kimi at sürdü. O, şər qarışanda qoşunlarını əylədi, düşərkə qurdu və hava tamam qaralandan sonra çadırına çəkildi, heç kimlə görüşməyəcəyini, dincəlmək istədiyini bildirdi. Təbrizdən çıxandan bəri birbaşa, dincəlmədən yol gəlmiş poşun başçıları da yorulmuşdular deyə, yatağa girməyi üstün tutmuşdular. Beləliklə axşamdan bir az keçmiş artıq bütün düşərgə yatmışdı. Təkcə düşərgənin, Qara Məhəmmədin və qoşun başçılarının qoruqçuları gəzişir, növbəsinin başa çatmasını, əvəzedicilərinin gəlməsini gözləyirdilər.

Qoşunlar dincəlməyə tez uzandıqları kimi tez də qalxdılar, lakin Qara Məhəmməd yola düşmək əmri vermədi, bildirdi ki, onlar burada Qara Yusiflə Misir Xocanı gözləyəcəklər. Həmin gün axşam olan kimi qoşunlar dincəlməyə getmədilər. Onlar tomqal yandıraraq ətrafında oturub söhbət edir, zarafatlaşırdılar. Qara Məhəmməd də həmişəkindən fərqli olaraq bu gün çox gümrah və gülərüz idi. O, qoşun başçılarını çadırına yığmış, şam yeməyi süfrəsinin çoxdan yığışdırılmasına baxmayaraq qonaqlarını buraxmır, söhbət edir, danışırdı. Qara Məhəmməd onları keçədən xeyli keçmiş azad etdi. Qara Məhəmmədin çadırını tərk edən qonaqlar tonqalların söndüyünün, bütün düşərgənin sükuta qərq olduğunun şahidi oldular. Təkcə düşərgənin müxtəlif yerlərində vargəl eləyən qoruqcuların ayaqlarındakı yumşaq məstlərin altında qalan qurumuş otların və çör-çöpün xırıltısı, bir də Qara Məhəmmədin çadırının yaxınlığında əyləşmiş iki gözətçinin pıçıltısı eşidilirdi. Qoşun başçıları Qara Məhəmmədin çadırından çıxanda gözətçilər qalxdılar, onlar ötüb gedəndən sonra yenidən əvvəlki yerlərində oturdular, pıqqıldaşmağa başladılar. Gecə yarısı onları iki başqa gözətçi əvəz etdi. Təzə gözətçilər yuxudan yenicə qaldırıldıqlarından gəzişə-gəzişə tez-tez gərnəşib əsnəyirdilər. Bir qədər gəzişəndən sonra onlardan biri cadırın yanında, daşın üstündə oturdu və yoldaşını da oturmağa dəvət etdi. O, oturacaqları təqdirdə onları yuxu başa

biləcəyini söyləyib yoldaşının təklifini rədd etdi. Lakin yoldaşı təkid edəndən sonra əyləşdi onun yanında və dedi: — Ə... sən öləsən, qorxuram oturduğumuz yerdə yuxulayaq. Birinci qoruqçu yarızarafat, yarıciddi dedi:

—Yuxulasaq nə olacaq ki? Düzünu axtarsan burada qoruqçuya heç ehtiyac da yoxdur, nə olacaq ki?

– Ə, boş-boş danışma, qoruqçu həmişə lazımdır, heç təhlükə gözlənilməyən yerdə də. Sən öləsən, bizi yuxu aparsa, yüzbaşı da tənbəllik eləmayib bizi yoxlamağa gəlsə dərimizə saman təpdirər.

– Eh, sən də söz danışdın. Yüzbaşı bilir ki, bizi səhər açılana kimi dəyişmək lazım gəlməyəcək, ona görə də indi elə yatıb ki, qulağının dibində qışqırsan da ayılmaz.

– Ə, sən özün bilirsən, amma məni öldürsən də yuxulaya bilmərəm. Axı biz qoruqcuyuq, özü də gör kimi qoruyuruq,—deyib qalxdı və yenə vargəl etməyə başladı. Birinci qoruqçu:

– Özün bil, onda qoy mən yuxulayım,—deyib əlindəki əmudu yerə dirədi, ona söykəndi. Bir az keçmiş onun zəif xorultusu eşidildi. O biri qoruqçu bir xeyli vargəl eləyəndən sonra yoruldu. Yoldaşının yanındakı iri daşın üstündə oturdu, onu yuxu tutdu, bir anlığa mürgülədi də. Ancaq tez də ayıldı və cəld oturduğu daşın üstündən qalxmaq istədi, ancaq macal tapa bilmədi, böyrünə işləmiş bıcaq öz işini gördü. Yerə sərildi və həmin anda hiss etdi ki, torpağa deyil, yumşaq şeyin üstünə yıxıldı və artıq sönməkdə olan şüuru ilə bunun öz yoldaşı olduğunu anladı.

Dan yeri sökülləndə qoruqçulara baş çəkməyə gəlmiş yüzbaşı onların ikisini də al-qan içində görüb özünü itirdi. O fikirləşmədən Qara Məhəmmədin çadırına girdi. Çadır qaranlıq olsa da, onu yatağında uzanmış gördü. Yüzbaşı tərəddüd içində qaldı, lakin bu tez keçdi, o, Qara Məhəmmədin yatağına yaxınlaşdı, onun boynunu qan içində görüb qışqırdı, hövlnak çadırdan çıxıb elə bağırdı ki, bütün düşərgə ayağa qalxdı. Heç bir an keçməmişdi ki, Qara Məhəmmədin öldürülməsi xəbəri bütün düşərgəyə yayıldı. Qoşun başçılarının hamısı—minbaşılar da,

yüzbaşılar da Qara Məhəmmədin çadırının yanına toplaşdılar. Onlar özlərini itirmişdi, nə edəcəklərini bilmirdilər. Hamısının fikri bir sual ətrafında cavlan edirdi:

– Bunu kim elədi. hansı namərd ona qıydı?

Minbaşılardan biri, ən yaşlısı, təmkinlisi özünü tez ələ ala bildi və iki yüzbaşını bir tərəfə çəkib dedi:

– Öz əsgərlərinizlə atlanın, bütün həndəvəri yaxşı-yaxşı yoxlayın, rastınıza kim çıxsa, kimliyindən və nəçi olmasından asılı olmayaraq tutub buraya gətirin.

Minbaşı onların başına yığışmış əsgərlərə dağılışmaq əmrini verdi, qoşun başçılarını öz çadırına dəvət edib necə hərəkət etmək barəsində məsləhətləşmək istədi. Lakin minbaşılardan birinə bu yaşlı minbaşının özünü ortaya atıb başçı kimi danışması xoş gəlmədi və dedi:

—Heç bir məsləhətə ehtiyac yoxdur. Yüzbaşıları göndərdin, lap yaxşı. Bu gün axşama yaxın, bəlkə də daha tez Qara Yusif gəlib çıxar. O nə eləmək lazım gəlməsini özü deyər.

Üçüncü, Qara Yusifi sevməyən minbaşı dilləndi:

– Qara Yusifi niyə, biz Misir Xocanı gözləməliyik. Böyük qardaş odur, demək varis də o olmalıdır.

O biri minbaşı əsəbi halda:

– Ay kişilər, söhbət hələ vəliəhddən getmir. Qara Yusif bu gün gəlib çıxacaq, Misir Xoca isə iki gündən sonra. Demək Misir Xoca gəlib çıxana kimi böyüyümüz Qara Yusif olacaq.

Birinci, yüzbaşıları kəşfiyyata göndərmiş minbaşı, artıq çoxdan çallaşmış bığlarını və saqqalını sığallaya-sığallaya dedi:

— Niyə Misir Xoca gələnə kimi? Məncə, bizim başçımız, Qara Məhəmməddən sonra onu əvəz eləyə biləcək yeganə adam olan Qara Yusif olmalıdır. Düzünü axtarsanız, mərhum Qara Məhəmməd öz yerində oğlu Qara Yusifi görmək istəyirdi. O bu barədə mənə söyləmişdi. O burada, bütün qoşunları və qoşun başçılarının yanında öz iradəsini bildirəcəkdi.

Qara Yusifi sevməyən minbaşı əsəbi halda:

– Utan ağarmış saç-saqqalından, kişi. Niyə olmayan şeyi özündən uydurursan?

Yaşlı minbaşı hirsini boğa bilmədi:

– Tfu sənə, bu yaşımda mənə yalançı deyirsən?—dedi.

Üçüncü minbaşı araya girdi:

— Yaxşı, bəsdirin, görün sizə nə qədər göz baxır? Bir də mərhumun cənazəsi hələ torpağa verilməyib. Başlamısınız olmayan taxt-tacın davasına. Qardaşların ikisi də gəlib çıxar, baxarıq, görək onların özləri nə deyirlər?

Qara Yusifi sevməyən minbaşı dil-boğaza qoymadıq

– Nə deyəcəklər ki? Ata-babadan qalmış qayda var, qanun var. Atadan sonra onun yerini böyük oğlu tutur.

Üçüncü minbaşı onun qolundan tutub çadırına çəkdi, mübahisəyə son qoydu. O, Qara Məhəmmədin meyidinə oğlu Qara Yusif gəlib çıxana kimi əl vurmamağı əmr etdi.

Qara Yusif günortadan keçmiş gəlib çıxdı, atasının öldürülməsi xəbərindən sarsıldı və onu əhatəyə almış minbaşılara və yüzbaşılara elə qışqırdı ki, az qaldı onların bağrı yarılsın:

– Bəs siz harada idiniz, yatmışdınız?

Heç kimdən səs çıxmadı. Qara Yusif öz əsəblərini tez cilovlaya bildi, indi sözlərinin mənasız olduğunu dərk etdi. O, kəşfiyyata atlılar göndərmək barəsində fikirləşdi ki, bu vaxt qarşıdakı təpənin arxasından bir yüzbaşının dəstəsi çıxdı. Yaşlı minbaşı bu dəstəni göndərməsi barəsində Qara Yusifə məlumat verdi. Yüzbaşı Qara Yusifə yaxınlaşıb, getdiyi istiqamətdə hər tərəfi yoxladığını, şübhəli bir şey görmədiyini bildirdi. Yaşlı minbaşı Qara Yusifə başqa istiqamətə ikinci bir dəstəni də göndərdiyini bildirdi. Həmin dəstə ikindi çağı qayıdıb gəldi və özü ilə iki nəfər də gətirdi. Onlar Qara Yusifə bildirdilər ki, onun duşərgəsindən dörd-beş ağac aralıda böyük qoşun dəstəsi ordugah qurub. Kəşfiyyat dəstəsi başqa istiqamətə getdiyi üçün ordugahı görə bilməmiş, öz

qərargahlarına yaxınlaşanda həmin iki nəfərlə rastlaşmış və minbaşının verdiyi əmrə görə onları buraya gətirmişdir.

Qara Yusif fikrə getdi. Bu yerlərdə qoşun dəstəsinin özü böyük qoşun dəstəsinin olması ona qəribə göründü. Hələ ki, Təbriz üzərinə Qara Bistamdan başqa gedən yoxdur, həm də onun yolu bambaşqadır. Bir də o bu tezliklə getməz Təbriz üzərinə, bilir ki, biz şəhərdən öz xoşumuza gedirik və qoşunun bir hissəsi hələ oradadır. Bəs elə isə buradan dörd-beş ağaclıqda ordugah quran kimdir? Qara Yusif aldığı məlumatın dəqiq olub-olmadığını, əgər məlumat düzdürsə, ordugahın kimə məxsus olduğunu yoxlamaqdan ötrü kəşfiyyatçılar göndərdi. Onlar lap tez qayıtdılar. Kəşfiyyatçılarla birlikdə on atlı da gəlmişdi. Atlılardan biri minbaşı idi. O, Qara Yusifə yaxınlaşıb salam verdi. Qara Yusif bu minbaşını yaxşı tanıyırdı və onun Pir Həsənlə birlikdə qaçdığını bilirdi. Qara Yusif atasının qatilinin kim olmasını indi başa düşdü, daxili qaynadı, qılıncını çəkib qarşısındakı minbaşının başına endirmək istədi, ancaq etmədi. Onlarda özünü qoruyası vəziyyətdə olmayan adama silah qaldırmaq adət deyildi, belə adam bişərəf hesab olunurdu. Qara Yusif özünü ələ alıb soruşdu:

— Hə, bir söylə görək o öz qan qohumunun, əmisinin qatili bişərəf Pir Həsən nə deyir, nə istəyir?

Minbaşı Qara Yusifin Pir Həsənin ünvanına söylədiyi təhqiramiz sözlərə əhəmiyyət vermədi:

— Pir Həsən söyləyir ki, Qaraqoyunlu soylarının başçısı o olmalıdır. Sən və qardaşın Misir Xoca bu təklifi qəbul etsəniz, o sizə əl uzadacaq, eləməsəniz qılınc.

Qara Yusif coşdu:

— İtil buradan, bişərəf. Get o əmi qatili bişərəfə söylə ki, biz əmisinin qanına bulaşmış əli qəbul eləmirik. O qatildir. Əgər kişiliyi çatırsa, gəlsin bura, təkbətək döyüşə. Yoxsa qoşunları boş yerə qırdırmağa, qardaş qanı axıtmağa məcbur olacağıq.

Minbaşı atına sıçrayıb götürüldü. Onunla gəlmiş süvarilər də atlarını qamçıladılar.

Qara Yusif Pir Həsənin kəmhövsələ olmasını nəzərə alaraq onun tezliklə gələcəyini fikirləşib, uzun yoldan yorulmasına, atasının öldürülməsindən sarsılmasına baxmayarayq təkbətək döyüşü qəbul etməyə məcbur olacağını düşündü və döyüşə hazırlıq görməyə başladı. O, birinci Növbədə aclığını dəf etmək qayğısına qaldı, daha sonra isə əmudunu, qılıncını, qalxanını gözdən keçirdi. Ancaq Pir Həsən gəlib çıxmadı. O, ertəsi gün də görünmədi. O biri gün Misir Xoca gələndən bir az sonra Pir Həsən öz qoşunu ilə mərhum əmisinin qurduğu qərargaha yaxın laşıb, üç min addımlıq məsafədə dayandı və atlı göndərib əmisinin böyük oğlu Misir Xocanı təkbətək döyüşə çağırdı. Pir Həsənin göndərdiyi minbaşı bildirdi ki, Pir Həsən məhz Misir Xoca ilə, əmisinin varisi ilə təkbətək döyüşə girmək fikrindədir. O, belə hesab edir ki, Qaraqoyunlu soylarının başçısı onların ikisindən biri olmalıdır. Təkbətək döyüşdən kim saf çıxsa, məhz o da başçı olacaqdır. Bundan sonra üçüncü adamın, yəni Qara Yusifin buna heç bir hüququ qalmır.

Pir Həsənin elçisi o vaxt gəlmişdi ki, qüvvələr parçalanmış, hər iki qardaş atasının yerini tutmaq üçün bir-birilə deyişirdi. Yaşlı minbaşının Qara Məhəmmədin iradəsini bildirməsinə, Qara Yusifin atası ilə söhbətinin məzmununu qoşun başçılarına—minbaşılara və yüzbaşılara çatdırmasına baxmayaraq, onların çoxu deyilənlərə inanmamış, yaxud da inanmaq istəməyib Misir Xocanın tərəfini tutmuşdular. Vəziyyət çox gərgin şəkil almışdır. Pir Həsənin elçisinin gəlməsi iki qardaşın hakimiyyət uğrunda toqquşmasını bir növ təxirə saldı. Misir Xoca da Qara Yusif kimi cüssəli adam idi. Lakin o, təbiətən bir qədər qorxaq olduğundan, heç vaxt təkbətək döyüşdə rak etmədiyindən tərəddüd içində ətrafına boylandı. Qara Yusif qardaşının çətin vəziyyətə düşməsini görüb sevindi, bundan istifadə etməyi qərara aldı və elçilərə dedi:

— Gedin Pir Həsənə deyin ki, indi günəş günorta yerindədir. O, qüruba enməyə başlayanda Qara Məhəmmədin varisi gəlib ona öz varislik zorunu və bacarığını göstərər.

Elçiləri yola salandan sonra Qara Yusif nəzərlərini qardaşına qaldırıb gülümsündü, dedi:

— Pir Həsən də səni varis hesab eləyir. Mərhum babamızın mənə söylədiklərinə baxmayaraq, mən bununla, həmçinin qoşun başçılarının çoxunun sənin tərəfində olduğu ilə hesablaşmalıyam. Mən də səni varis hesab eləyirəm. Sənə ixlasla xidmət eləyəcəyimə and içirəm.

Qoşun başçıları, əyanlar Qara Yusifi alqışladılar, qardaş qanının axmasının qarşısının alınmasını təriflədilər. Ancaq Misir Xoca özündə deyildi. Qara Yusif bunu görür, özünü bilməməzliyə vurur, qəlbən sevinirdi. O, qardaşına yaxınlaşıb ona əl uzatdı, Misir Xoca da əlini ona uzatdı. Qara Yusif dedi:

— Qardaşım, get Pir Həsəni, atamızın qatilini atdan salıb o dünyalıq elə, onun qanını al, qayıt dəfn eləyək babamızı, torpağa tapşıraq onu. Bundan sonra bizim zorumuz daha da artacaq, çünki Pir Həsəni o dünyalıq eləyəndən sonra onun qoşunları bizim tərəfimizə keçəcək, sənə tabe olacaq.

Misir Xoca Qara Yusifə cavab vermədi. Onun döyüş qabağı tərəddüd, hətta qorxu keçirməsi, tərəfdarları olan minbaşıların və digər qoşun başçılarının nəzərindən qaçmadı. Misir Xoca fikirləşir, takbətak döyüşdən yaxa qurtarmaq üçün çarə axtarırdı. Misir Xoca əmisi oğlu Pir Həsəni neçə dəfə təkbətək döyüşdə görmüşdü. O, Pir Həsənin öhdəsindən gələ bilməyəcəyinə əmin idi, məğlub olacağı, yüngül bir yara alacağı təqdirdə öldürüləcəyindən qorxurdu. Misir Xoca indi varislikdən məmnuniyyətlə əl çəkərdi, ancaq tərəfdarlarından çəkinirdi, həm də fikrini deməyə müvafiq söz seçə bilmirdi. Gözlərini Qara Yusifdən çəkməyən Misir Xocanın qəlbində həsəd hissi baş qaldırdı, onun Pir Həsənlə döyüşə getməyə məcbur olmayan, qarşısında dayanıb gülümsünən qardaşına paxıllığı tutdu, özünü onun yerində görmək istədi. Qara Yusif Misir

Xocanın tərəddüdünün son həddə catmasını, bundan istifadə vaxtının yetişdiyinə özlüyündə yəqin edib dedi:

— Qardaşım, gözlərimə birtəhər dəyirsən. Naxoş deyilsən?

Misir Xoca bir anın içində dəyişdi, gözləri parıldadı.

Qara Yusifin sözlərində xilas olmaq məlhəmi gördü:

— Elədir, qardaşım, canına-sağlıq, nəsə özümü çox pis hiss eləyirəm. Heç bilmirəm o bişərəflə təkbətək döyüşə necə gedəcəyəm?

Qara Yusif çiyinlərini çəkdi:

— Onun elçisi söylədi ki, təkcə səninlə qabaqlaşmalıdır, cünki varis sənsən,—dedi.

Misir Xoca yavaşdan, ətrafdakıların eşidə bilməyəcəyi pıçıltı ilə dedi:

— Mən elə haldayam ki, onu üstələyə biləcəyimə inanmıram. Belə olan surətdə, mən varisliyi itirsəm, varis o olur,—dedi, səsini hamının eşidə biləcəyi ahəngdə qaldırıb,—yaxşı olmazmı ki, elə indidən varislikdən əl çəkim. Varislik o şərəfsizə, babamızın qatilinə qismət olunca, doğma qardaşıma qismət olsun?

Misir Xocanın tərəfdarları onun sözlərini eşitdilərsə də, mənasını dərk etmədilər. Misir Xoca onlara döndü:

— Çox pisəm, deyəsən naxoşam, Pir Həsənlə qabaqlaşmağa gedəsi halda deyiləm. Belə fikirləşmişəm ki, varisliyi qardaşım Qara Yusifə verəm, savaşa da o getsin.

Misir Xocanın sözləri onun tərəfdarlarını şaşırdı, çoxunun daxilində Misir Xocaya ikrah hissi baş qaldırdı. Əslində elə onlar da Qara Yusifi varis görmək istərdi, ancaq əsrlər boyu davam etmiş, nəsildən-nəslə keçmiş adət-ənənəyə sadiq olmaq, onu müqəddəs hesab etmək onları Misir Xocaya tərəf keçməyə məcbur etmişdi. İndi onun qorxaqcasına meydandan qaçması onların əl-qollarını açdı, Misir Xocanın başına yığışmış on minbaşıdan altısı Qara Yusifin tərəfinə kecdi. Onlardan biri dilləndi:

— Biz mərhum atanın varisi olmaq adət-ənənəmizə sadiq qalıb sənin arxanda dayandıq, Misir Xoca. İndi də sənin iradən bizdən ötrü qanundur.

Qara Yusifi sevməyən minbaşı etiraz etdi:

— Bu necə ola bilər? Məgər Misir Xoca Pir Həsənlə qarşılaşmağı sabaha kimi təxirə sala bilməz?

Misir Xoca onu uzunçuluq eləməyə qoymadı:

— Sən danışdığını başa düşürsən? Belə şey harada görünüb? Yox, necə söyləmişəm, elə də olacaq. Varis qardaşım Qara Yusifdir, vəssalam. Mən səhv eləmişdim. Sənə uymuşdum, mərhum babamın müqəddəs vəsiyyətinə əməl eləməmişdim.

Misir Xocanın bu sözlərindən sonra Qara Yusifi sevməyən minbaşı gələcəyindən ehtiyat edib gülümsünməyə çalışdı və dedi:

— Mənim başqa məramım yoxdur, Misir Xoca. Mən dədə-baba adətimizi gözləyirdim. İndi ki, sən belə istəyirsən, varislik hüququndan əl çəkirsən, qoy elə olsun. Borcumuz sənin fərmanına əməl etməkdi.

Qara Yusif bütün minbaşıları və digər qoşun başçılarını, əyanları ətrafında görüb nəzərlərnni Misir Xocaya qaldırdı. Misir Xoca bu baxışların mənasını tez aldı və:

— Qurana and içirəm ki, sənə sadiq qalacağam,—dedi.

Qara Yusif atını tələb etdi. Gətirdilər, mindi, bir neçə minbaşının və böyük qoşun dəstəsinin müşayiətilə Pir Həsənin ordugahına yola düşdü. Günəş qüruba əyiləndə Qara Yusif danışdıqları yerə gəldi və qabaqcadan fikirləşdiyi kimi, təyin olunmuş vaxtın ondan ötrü çox əlverişli olmasını gözlərilə gördü. Günbatana əyilmiş günəşin şüaları Pir Həsənin əsgərlərinin üzlərinə, Qara Yusifin çərilərinin isə peysərinə düşürdü. Pir Həsən rəqibinin hiyləsini başa düşdüsə də artıq iş işdən keçmişdi. O, döyüşdən boyun qaçıra, yaxud vaxtını dəyişə bilməzdi. O, hücuma keçərkən günəşin şüalarının üzünə, gözlərinə düşəcəyini, bunun ona çox baha tamam ola biləcəyini fikirləşdisə də bir çarə tapa bilmədi. Misir Xoca onun təklifini qəbul etmiş, o isə təyin olunmuş vaxtla razılaşmışdı. İndi işi dəbbələmək, meydandan qaçmağa bərabər idi, bu isə onun qüruruna sığmazdı. Həm də o öz rizası ilə varislik hüququndan əl çəkməli olurdu. Pir Həsən

istər-istəməz atına minib talanın ortasına, rəqibinin dayandığı yerə sürdü. Qarşısında Misir Xocanın əvəzinə Qara Yusifi görmüş Pir Həsən qaldı sevincindən qışqırsın. Onun sevinməsinin səbəbi, əlbəttə, Qara Yusifi zəif rəqib hesab etməsi deyildi, o, Qara Yusifi Misir Xocadan daha qüvvətli rəqib hesab etsə də, onunla təkbətək döyüşdən çəkinmirdi. Onun sevinməsinin başlıca səbəbi ondan ötrü əlverişsiz olan döyüş vaxtını dəyişmək üçün əlinə imkan düşməsi idi. O, qarşısında qürurla dayanmış Qara Yusifi aşağıdan yuxarı süzüb kinayə ilə dedi:

— Səni yox, varisi çağırmışam təkbətək döyüşə, sən niyə özünü soxmusan ortaya? İki varisdən biri ölməlidir. Ya o, ya da mən.

Pir Həsən bir anlığa susdu, qalxanını üzünə qaldırıb gözlərinə düşən günəş şüasının qarşısına tutdu və davam etdi:

— Şübhəm yoxdur ki, onu cəhənnəmlik eləyəcəyəm, varis də özüm olacağam. Bax ohda babamla əmimin yanında mənim üstümə şığımağının qisasını səndən alacağam.

Qara Yusif Pir Həsənin sözünü kəsmir, səbrlə dinləyirdi. Pir Həsən isə doğrayıb tökürdü:

— Sən elə zənn eləmə ki, səni dama basdıracağam, dustaq elətdirəcəyəm, yaxud xəlvəti öldürəcəyəm. Yox, namərd deyiləm. Səni bax belə, üz-üzə döyüşdə murdar eləyəcəyəm.

Qara Yusif Pir Həsənin cərənləməsinə dözmədi:

— Doğma, qanbir əmsinin,çadırına girib onu yatağında öldürənin bircə adı var: bişərəf. Bu ad naməruddən də pis addır,—dedi.

Pir Həsən kinayə ilə gülümsündü:

— Sən elə hesab eləyirsən ki, onu mən öldürmüşəm? Axmaq adamsan. Mənim əllərim tərtəmizdir. Onu mənim göndərdiyim adamlar qanına qəltan eləyiblər. Buna mənim haqqım var idi.

Qara Yusif danışıqdan işə keçdi və qışqırdı:

— Qalxanını üzünə qaldır, bişərəf, namərd,—deyib əmudunu qaldırdı. Lakin Pir həsənin heç tükü də ürpəşmədi. O, istehza ilə gülümsünməkdə davam edə-edə dedi:

— Söylədim ki, səninlə yox, varislə, Misir Xoca ilə vuruşacağam.

Qara Yusif bu dəfə hirsini cilovlayıb soyuqqanlıqla:

— Varis sənin qarşındadır,—dedi.

— Necə? Sən varis? Bəs böyük qardaş?

— Onu özümüz bilərik, qalxanını üzünə qaldır. Bu dəfə mütləq vuracağam,—deyib əmudunu qaldıraraq Pir Həsənə tuşladı. Pir Həsənin qalxanı onu Qara Yusifin endirdiyi zərbədən xilas etdi. Pir Həsən istər-istəməz döyüşə girməyə məcbur oldu.

Qara Yusiflə Pir Həsənin təkbətək döyüşü uzun çəkdi. Hər iki rəqib cəld, güclu və təkbətək döyüşdə təcrübəli idi. Lakin döyüş uzandıqca onların özləri də, atları da yorulurdular. Qara Yusif də, Pir Həsən də əldən düşmüşdülər. Onların ikisi də yaxşı başa düşdülər ki, qələbə son qüvvəsini toplayıb zərbə endirənin tərəfində olacaqdır. Günəşin şüalarının üzünə düşməsinə, gözlərini qamaşdırmasına baxmayaraq, böyük təcrübə sahibi blan Pir Həsən, çox ciddi-cəhddən sonra bu maneəni də aradan qaldıra biddi. O, qalxanından elə ustalıqla istifadə edirdi ki, rəqibinə zərbə endirməyə yaxınlaşanda, qalxanının kənarı gözlərinə düşən şüanın qabağını kəsirdi. Lakin günəş sabah bir də görünmək üçün üfüqlə birləşdiyi yerə enib al rəngə boyananda daha cavan, ona görə də daha çox qüvvə qoruyub saxlaya bilmiş Qara Yusifin zərbəsi dəqiq oldu. Onun yuxarıya qaldırılmış əmudu enəndə Pir Həsən qalxanını başının üstünə qaldırmağı gecikdirdi, əmud düz başına endi. O, səndələyib atından yıxıldı, başından qan fışqırdı. Pir Həsən bir anlığa dikəldi, ancaq bir anlığa, sonra üzü üstə sərilib canını təslim etdi. Qara Yusif əmudunu bir kənara fırladıb atının üstündə dikəldi və Pir Həsənin qoşunlarına müraciətlə dedi:

— Qardaşlar, Pir Həsən bizim aramıza rəhnə salmışdı, o sizləri aldadıb öz ardınca aparmışdı. Bizim sizinlə bir yerdə Qaraqayunlu soylarına başçılıq

eləmək iddiasına düşüb mənim babamı, öz əmisini gecəliklə çadırında namərdcəsinə öldürüb. Mən qardaş qanının tökülməsinin əleyhinəyəm. Hamınız qayıdın öz qardaşlarınızın yanına.

Qara Yusif sözünü bitirib atının başını çevirdi və birbaşa ordugaha qayıtdı. Axşam qaranlığı düşənə qədər Pir Həsənin qoşunları Qara Yusifin düşərgəsinə axışdılar. Ertəsi gün Qara Yusif atasını dəbdəbə ilə dəfn etdirdikdəv sonra bütün qəbiləsilə Xoya getdi.

* * *

Qara Məhəmmədin qoşunları hələ Təbrizdə ikən və Təbrizi tərk etdikdən sonra da Mahmud ağa, Əliabbas kişi və Rəşid Təbrizi ələk-vələk etdilərsə də Xavəri, onunla birlikdə satılmış doqquz qızı gördüm deyən olmadı. Mahmud Ağa carçıya Sahibabad meydanında və Təbrizin bazarlarında car çəkdirdi, qızını görmüş və qaytarmağa kömək göstərmiş adama qulun dəyərindən iki qat artıq mükafat boyun oldu. Ancaq bunun da bir faydası olmadı. Mahmud Ağa ilə Əliabbas kişini qorxudan Xavərin-bu ahu kimi gözəl qızın qul kimi satılmasıqndan, evlərdə qulluqçu kimi işləməsindən, hətta ölümündən daha çox onun Təbrizdə və başqa şəhərlərdə tək-tük də olsa fəaliyyət göstərən ümumi evlərə düşə bilməsi idi. Xavərin anası Həcər xanımı da bu fikir əldən salmışdı. Onun göz yaşları nə gündüzlər, nə də gecələr quruyurdu.

Qonşu Mehdi kişinin Xavər barəsində məlumat verdiyi anda Rəşid də bu barədə fikirləşmiş, dəhşətə gəlmişdi. Necə gün idi ki, atasına bildirmədən hər gecə evi tərk edir, Təbrizin xəlvəti küçələrində olan ümumi evlərə gedirdi. Doğrudur, başqaları kimi orada səhərə kimi qalmır, ümumi evdə olanların kimliyini öyrənəndən sonra geri qayıdırdı. Rəşidin bu günlər ərzində gördükləri onda ruh düşgünlüyü əmələ gətirmişdi. Bu evlərdə olan qız-gəlinin çoxusu hiylə ilə buraya gətirilmiş, ümumi evin sahibinin amansız caynaqlarına keçmişdi. Onların bəziləri çıxıb evlərinə gedə bilsələr də bunu etmirdilər. Ümumi evdə

olmuş qızı, gəlini hansı ata-ana, bacı-qardaş bir daha qəbul edərdi? Belə qızların bəziləri isə ümumi evlərdən qaçır, ayrı çıxış yolu görməyib canlarına qəsd edir, özlərini çaya atırdılar. Rəşid ümumi evdəki gəlinlərin arasında əsir alınıb bu evlərin sahiblərinə satılmış olanları da görmüşdü.

Rəşidin gecələr evdən getməsindən, əvvəl anası, sonra isə atası duyuq düşdü. Onlar Rəşidin gecədən xeyli keçmiş qayıtmasına əvvəlcə əhəmiyyət verməmiş, lakin bu halın hər gün təkrar olunması onları narahat etməyə başlamışdı. Rəşidin günü-gündən bədbinləşməsi, heç kimlə danışmaq istəməməsi, hamıdan uzaq gəzməyə çalışması da onların narahatlığını artırmışdı. Oğlanlarında əmələ gəlmiş bu dəyişikliyi Xavərin itgin düşməsi ilə bağlasalar da, eyni zamanda bu dəyişikliyin əvvəllər o qədər də gözə çarpmayıb, məhz son günlər, gecələr evdən getməyə başlayandan sonra daha da kəskinləşməsindən şübhələnirdilər. Əliabbas kişi fürsət düşən kimi oğlu ilə danışmağı qət etdi, ancaq belə bir fürsət yaranmırdı. Onlar hər gün Mahmud Ağa ilə birlikdə evdən çıxır, hər biri ayrılıqda Təbriz küçələrinə düşür, yorğun-arğın qayıdır, yeyib-içəndən sonra yatağa can atırdılar. Bir səhər yenə üç kişi yığılıb bu gün kimin hansı məhəllədə, hansı küçədə olacağını müzakirə edəndə Mahmud Ağa dedi:

—Vallah, sizə əziyyət vərməyimə görə xəcalət çəkirəm. Verdiyim əziyyətin bir xeyri olsaydı, dərd yarı olardı. Ot tayasında itmiş iynəni tapmaq, Xavəri Təbriz boyda şəhərdə axtarıb tapmaqdan asan olardı.

Əslində Rəşid çoxdan bu fikirdə idi, ancaq atasının təkidinə görə dinmirdi. Əliabbas kişi elə hey deyirdi ki, axtarmaq gərəkdir, gəzən ayağa daş dəyər. İndi Mahmud Ağanın dediyi sözlər Rəşidin ürəyindən oldusa da, dinmədi, atasına baxdı. Bu dəfə Əliabbas kişi də etiraz etmədi və soruşdu:

—Bəs neyləyək, əllərimizi yanımıza salıb oturaq?

Mahmud Ağa dinmədi. Rəşid olan-olmaz pullarını xərcləyib qurtarmış, ancaq ümumi evlərin hamısında ola bilməmişdi. O belə hesab edirdi ki, Təbrizdəki bütün belə evləri gəzməlidir. Lakin buna pul lazım idi. Rəşid fikirləşmişdi ki, başladığı işi davam etdirmək üçün pulu ancaq Mahmud Ağadan almaq olar. Rəşid

fikrini Mahmud Ağaya açmağa çoxdan imkan axtarırdı. İndi belə bir imkan düşmüşdü. Ancaq o, atasının yanında belə söhbəti açmağı cayiz bilmirdi. Rəşid bir qədər fikirləşdi, belə bir imkanın bir də ələ düşəcəyini gözləməməyi lazım bildi. O, bir Mahmud Ağaya, bir atasına baxıb dedi:

— Siz necə söyləsəniz, mən ona razıyam, ancaq axtarışı yarımçıq qozmalıq.

Əliabbas kişi kəmhövsələlik göstərdi:

— Ay oğul, bir yandan deyirsən ki, siz söyləyənə razıyam, o biri yandan da deyirsən ki, axtarışı davam eləyək.

Rəşid atasının Təbriz küçələrində axtarışı davam etdirməyi lüzumsuz sayıb, hövsələdən çıxmasına əhəmiyyət vermədi, sözünə davam etdi:

— Ağa, vallah sənin yanında, atamın yanında o yerlərin adını çəkməyə həya eləyirəm, ancaq ayrı yol görmürəm.

Mahmud Ağada da, Əliabbas kişidə də çoxdan bəri ürəklərini, beyinlərini didib parçalayan hisslər yeni qüvvə ilə baş qaldırdı. Onlar Rəşidin nə demək istədiyini hərə özlüyündə aldısa da, dinmədi. Gözlərini Rəşiddən çəkmədilər. Rəşid sözünə davam etməyi lazım bildi:

— Mən neçə gecədir ümumi evləri gəzirəm. Düzü, heç sizə söyləmək istəmirdim, ancaq məcburam, pulum qurtarıb, borc almağa da elə bir adamım yoxdur.

Rəşid sözünə ara verib Mahmud Ağaya baxdı, onun böyük iztirab içində olduğunu gördü, başını aşağı dikib davam etdi:

— Bir-iki elə ev qalıb, onlarda da mütləq olmalıyam. Mən əminəm ki, Xavər özünü öldürər, ancaq elə yerlərda qalmağa razılıq verməz.

Rəşid sözünü bitirib atasına çevrildi. O dedi:

— Ay oğul, əgər Xavər oralarda qalan deyilsə, onu orada axtarmağın nə mənası?

Rəşid fikrini düzgün deyə bilmədiyini başa düşdü:

— Mən elə demək istəmirdim. Demək istəyirdim ki, Xavəri oralarda tapsaq da, onun təmizliyinə heç bir şübhə ola bilməz.

Rəşid atasından Mahmud Ağaya çevrildi, onun gözlərində giləlnmiş yaşı görüb kövrəldi:

—Deyirlər belə xanələrin sahibləri çox səbrli olurlar. Gələcəkdə yaxşı qazanc götürmək xatirinə müqavimət göstərən qızları səbrlə yedirib-içirib saxlayır, bir gün onların müqavimətini qıra biləcəklərini zənn edirlər. Mənim yeganə ümidim bunadır.

Mahmud Ağanın qəmli, nəmli gözlərində ümid qığılcımı yandı, o, cəld evə yüyürdü, tez də qayıtdı. Onun hər əlində bir kisə var idi. Mahmud Ağa kisələri Rəşidə uzadıb dedi:

– Al, oğlum, iki kisə qızıl.

Rəşid kisələri Mahmud Ağadan alıb hərəsini bir cibinə qoydu və başı aşağı darvazaya sarı getdi.

Rəşid iki gecə də dalbadal bir ümumi evdə oldu, ancaq yenə də evə boş əllə qayıtdı. Olda Xavəri tapmaq ümidi lap azaldı. Fikirləşdi ki, axı Xavərdən başqa daha doqquz gözəli də satıblar. Onlar, həqiqətən də ümumi evlərin sahiblərinə satılıblarsa, bəs niyə gəzdiyi xanələrin heç birində onlarla rastlaşmadı? Doğrudur, o, həmin qızlardan heç birini üzdən tanımırdı. Lakin o, xanələrdə görüşdüyü qızların hamısı ilə söhbətləşir, onların haradan və kim olmaları ilə maraqlanır, suallar verirdi. Qızların çoxu onun bu suallarına cavab vermək istəməsələr də Rəşid onların dilini aça bilirdi. Onların heç biri Xavərlə birlikdə satılanlardan olmamışdı. Çox fikirdən sonra Rəşid belə bir qənaətə gəldi ki, əgər onlar, həqiqətən, ümumi evlərə satılıblarsa, demək hamısını bir xanənin sahibi almış, Xavərin tapılması, onların da tapılması olacaqdır.

Növbəti gecələrdən birində Rəşid Xavərlə birlikdə satılmış qızlardan biri ilə rastlaşdı. Bu qız Rəşidin bütün suallarına həvəslə cavab verirdi. Rəşid çox ehtiyatla danışır, özünü qızın və onunla birlikdə satılmış doqquz qız-gəlinin taleyinə biganə göstərirdi. Rəşid qızın dilini daha da açmaq üçün ona bir qızıl da verdi və soruşdu:

– Səndən başqa da burada təbrizlilər var?

Qız qəhqəhə çəkdi:

— Niyə yoxdur? Buradakıların çoxu təbrizli deyil bəyəm?

Rəşid istədiyi cavabı almadığı üçün bir qədər fikirləşib başqa sual verdi:

— Buraya çoxdan düşmüsən?

Qız bir qədər duruxub:

— Yox,—dedi.

— Necə olub buraya düşmüsən?

Gözəl sifətində həyasızlıq, sırtıqlıq cizgiləri, ala gözlərində hərislik həkk olunmuş qız səsini qaldırdı:

— Bura bax, buraya mənimlə sual-cavaba gəlmisən? Yoxsa...

Rəşid sifətində süni ehtiras yaratmağa çalışıb dedi:

— Əvvəl sual-cavab, sonra...

— Neynəyirsən bu sual-cavabı?

— Hərə bir şeyin xəstəsi olur, mən də bunun xəstəsiyəm.

— Nəyin, sual-cavabın?

— Yaxınlaşdığım qız barəsində hər şeyi bilməyin xəstəsiyəm,—deyib,əlini cibinə atdı, bir qızıl da çıxarıb ona uzatdı:

—Al, bu da sənin suallarıma verəcəyin cavabın haqqı.

Qız qəhqəhə çəkdi və:

— Gör bir nədən ötrü pul xərcləyir? Özü də nə az, nə də çox, bircə qızıl.

Rəşid də güldü və dedi:

— Bütün suallarıma ətraflı cavab versən, bir qızıl da alacaqsan.

Qız yenə qəhqəhə çəkdi:

— Nə qədər istəyirsən, soruş.

Rəşid üzünün ifadəsini dəyişmədən:

— Özün barədə, harada, necə, nə vaxt buraya düşməyin barəsində danış, ətraflı danış.

Qız atasının çoxdan, anasının bu yaxınlarda öldüyündən, tək yaşadığından, nişanlı olduğundan, Teymurləngin əsgərlərinin onların evlərinə soxulmağından, onlardan birinin onu otaqlardan birisinə sürüməsindən, həyətə düşən kimi ikinci bir əsgərin onu yenidən evə sürümək istəməsindən, müqavimət göstərməsindən, onu döymələrindən, evlərini yandırmalarından, onu əsir alıb əsir qız-gəlinlərin sırasına qatmalarından. sonra bu evin sahibinin onu almasından, buradakı günlərindən əvvəl gülə-gülə, getdikcə isə kədərli-kədərli danışdı. Başına gələnləri danışıb qurtaranda artıq ağlayırdı

— İndi mən kimə gərəyəm? Evim yox, eşiyim yox. Nişanlımsa heç üzümə də baxmaz. İndi mənim yeganə sığınacağım buradır, başqa yerdə mənə yer yoxur.

Qızın yenə əsas məsələyə toxunmaması Rəşidi bir də sual verməyə məcbur etdi:

— Təkcə səni bu evin sahibinə satdılar?

— Bunun mənim üçün nə əhəmiyyəti?—dedi, susdu və əlavə etdi,—Sənin üçün maraqlıdırsa, qoy deyim biləsən. Yox, biz düz on qızıq.

Rəşidin ürəyi şiddətlə döyünməyə başladı. O, qızın sözünü davam eləyəcəyini zənn edib sual vermədi. Qız isə daha danışmağa həvəs göstərmədi. Rəşid soruşdu:

— Onlar da indi buradadırlar?

Qız Rəşidə tərs-tərs baxıb:

— Bir mən sənə bəs eləmirəm?—soruşdu.

Qızın belə açıq danışması Rəşiddə ikrah hissi oyatdı, ancaq bunu büruzə verməməyə çalışdı:

— Niyə elə deyirsən, gözəl qız? Axı dedin ki, istədiyin sualı verə bilərsən.

Rəşid əlini cibinə atıb bir qızıl da çıxardı, qıza uzadıb dedi:

— Gözəl qız, o sualı vermək olmazdı?

Qız qızılı Rəşidin əlindən alıb gülümsündü:

— Onların hamısı buradadır, özləri də mənim günümdədirlər, nəm-nüm eləyəndən sonra axırı razı olublar.

Rəşidin əhvalı dəyişdi, elə dəyişdi ki, qız da başa düşdü və:

— Sənə nə oldu, cavan oğlan, lap birtəhər oldun.

Rəşid özünü tez ələ aldı, gülümsünməyə çalışdı və dedi:

— Heç, keçdi, getdi, məndə hərdən belə ürək qısılması olur. İndi lap yaxşıyam, sözünü danış.

Qız gözlərini Rəşiddən çəkmədən davam etdi:

— Sahibimiz dedi ki, onsuz da evinizdə bilsələr ki, buraya ayağınız dəyib, sizi heç kim yaxına buraxmayacaqdır, öldürəcəklər sizi. Buna baxmayaraq qızların ikisi dedi ki, ölsələr də razı olmayacaqlar. Onlardan biri hələ də buradadır, o birini isə dünən sahibimiz satdı bir arvada. Deyəsən o arvad Xoydan idi, onu özünə qulluqcu alıb.

Rəşid cəld soruşdu:

— Onların adlarını bilirsən?

— Niyə bilmirəm, bilirəm. Birinin adı Sitarə, o birisinin adı Xavərdir.

Rəşid yenə cəld soruşdu:

— Sahibiniz onların hansını satdı?

— Xavəri.

Rəşid cəld qalxdı, qıza üç qızıl verib sürətlə otaqdan çıxdı. Qız təəccüblə onun ardınca baxa-baxa qaldı.

* * *

Təbriz camaatı Qara Bistama müqavimət göstərmədi, əslində müqavimət göstərməyə hazırlaşmamışdı da. Qara Məhəmməd qoşunlarını Təbrizdən çıxaranda Təbriz əhalisi bunun səbəbsiz olmadığını, yeni bir fatehin tezliklə Təbriz qapılarının üstünü kəsdirəcəyini fikirləşmişdi. Qara Məhəmmədin qoşunlarının axırıncı dəstələri Misir Xocanın başçılığı altında şəhərin şimalında yerləşən Surxab məhəlləsindən keçib, Surxab dağının ətəyində salınmış qəbiristanlığa çatmamışdı ki, Qara Bistamla əmir Calikin qoşunları Təbrizin kün- çıxar tərəfində Şeşgilan məhəlləsindəki darvazalardan şəhərə doluşdular. Qara Bistam Təbrizdə hakimiyyətini möhkəmlətmək üçün qoşunları ilə bərabər şəhər əhalisinə də arxalanmaq fikrində idi. Ona görə də qoşunlarına Təbriz camaatına toxunmamağı bərk-bərk tapşırmışdı. Ancaq Qara Bistamın bütün cəhdlərinə baxmayaraq, Təbrizdə payızın ikinci ayına kimi qala bildi. Tezliklə şəhərə Şeyx Adi Məhəmməd Ərəbin və Məhəmməd Hilal Cahanşahinin qoşunları girdilər. Məhəmməd Hilal Cahanşahi Qara Bistamı öldürdü. Onların hamısı Cəlayirlərdən olduqlarından Qara Bistamın qoşunları şəhərin təzə ağalarının tərəfinə keçdilər. Şeyx Adi Məhəmməd Ərəblə Məhəmməd Hilal Cahanşahi Caliki həbs edib Əlincə hakimi Xoca Cövhəri Təbrizə çağırdılar. O, payızı, qışı Təbrizdə keçirib yazda Əlnncəyə qayıtdı, yerinə isə Caliki təyin etdi. Qara Bistamın vaxtında da, Şeyx Adi Məhəmməd Ərəblə Məhəmməd Hilal Cahanşahin və daha sonra Xoca Cövhərin və nəhayət, Calikin vaxtında da Mahmud Ağa sarayda məsləhətçi qalırdı. Bütün bu hakimlər Mahmud Ağanın ağıllı məsləhətlərinn məmnuniyyətlə dinləyir, ona böyük hörmət göstərirdilər.

Mahmud Ağa Qara Bistamın qoşunları şəhərə girən kimi onun köməyindən isifadə edib Rəşidin tapdığı xanədən doqquz qızı azad etməyə təşəbbüs göstərmiş, lakin qızlardan yalnız biri, axıra kimi müqavimət göstərmiş qız öz evinə qayıtmışdı. Mahmud Ağa Qara Yusifin Xoyda olmasından istifadə edib, onun köməyilə qızını tapa biləcəyini fikirləşərək Rəşidi Xoya göndərmişdi. Rəşid Xoya gələndə Qara Yusif artıq oradan getmiş, yerinə qoyduğu adam isə onunla danışmaq belə istəməmişdi. Beləliklə, Xavərin izinin tapılmasından iki ildən çox keçməsina baxmayaraq, onun özünü tapmaq mümkün olmamışdı. Xanənin sahibi əvvəlcə Xavəri kimə satmasını deməkdən imtina etmiş, yalnız qısma-boğmaya salandan sonra and-aman eləyib demişdi ki, Xavəri almış arvadın xoylu olmasından başqa heç nə bilmir. Ona görə də Rəşid Xoya birinci gəlişində çox da böyük olmayan şəhərin küçələrini gəzmiş, əliboş qayıtmışdı. Mahmud Ağa sarayda eşitdiklərindən belə bir nəticəyə gəlmişdi ki, Qara Yusif yaxın vaxtlarda yenə Xoya qayıdacaqdır. Rəşid Mahmud Ağanın bu fikrini biləndən sonra ona dedi:

– Ağa, onlar Təbrizdə otura-otura haradan bilirlər ki, Qara Yusif Xoya qayıdacaq?

Mahmud Ağa həvəssiz cavab verdi:

– Oğlum, onlar Qara Yusifin tezliklə yenə Təbrizə qayıdacağını bilirlər, bundan qorxurlar, ona görə də onların xəfiyyələri Qara Yusifin addımlarını sayırlar.

– Onlar bilirlər ki, indi Qara Yusif haradadır?

– Bunu bilmək o qədər də çətin deyil, bilirlər ki, indi o Aladağdadır.

Rəşid hövsələsini basmağa çalışdısa da bacarmadı:

– Ağa, Qara Yusifin Xoya qayıtmasını nə qədər gözləməli olacağıq?

Mahmud Ağa çiyinlərini çəkib əllərini oynatdı:

– Kim bilir? Bəlkə bir il, bəlkə daha az,—dedi, dərindən ah çəkdi.

—Eh, ay oğul, elə bilirsən Qara Yusif Xoya gələn kimi Xavəri tapacaq? Olsa-olsa on çəri verib deyəcək ki, axtarın. Belə axtarışla onu tapmaq muşgul işdir.

Rəşid qətiyyətlə:

– Yox, elə deyil. Fikirləşmişəm. Bazarda car çəkdirərik, onu almış adama iki qat haqq boyun olarıq. Bir də onun özü də carçını eşidə bilər, qaçıb Qara Yusifin iqamətgahına gələr. Bunlar baş tutmasa, başqa şey də fikirləşmək olar.

Mahmud Ağa bir söz demədi, pillələrə sarı getdi. Rəşid də könülsüz öz evlərinə tərəf addımladı.

Ertəsi gün Mahmud Ağa saraya gələndə Əlincə hakimi Xoca Cövhərin ölüm xəbərini aldı. Bu xəbər Aladağ yaylasından Xoya qayıtmağa hazırlaşan Qara Yusifə də çatdı.

Qara Yusif atası Qara Məhəmmədin Təbrizdək getməsinin əleyhinə olsa da, onun qərarını sükutla qarşılamışdı. Atasının yerini tutub qaraqoyunluların başçısı olandan sonra isə Təbrizə yenidən yiyələnmək fikri bir an da olsun onun başından çıxmamışdı. Qara Yusif Təbrizdən iki günlük yolda atasının düşərgə saldığı yerə çatıb Qara Məhəmmədin öldürülməsi xəbərini alandan və Pir Həsən üzərində qələbə qazanıb qoşunlarının sayını artırandan sonra xəyalından Təbrizə qayıtmaq keçdi. O, Qara Bistamın, həmçinin Təbrizi tutmaq istəyən digər fatehlərin öhdəsindən asanlıqla gələ biləcəyinə əmin idi. Ancaq o bu addımın atasının Təbrizi tərk etmək iradəsinin əleyhinə getmək kimi qiymətləndiriləcəyindən ehtiyat edib fikrindən daşındı, Xoya gəldi, yaylağa köçdü, əlverişli vaxt gözləməyə başladı. Qara Yusif Xoyda və yaylaqda olduğu müddətdə də əvvəlki fikrində qalır, istədiyi vaxt Təbrizi tuta biləcəyini düşünürdü. İti ağla malik olsa da, cavanlıq hissiyyatı ağlını bəzən üstələyir, öz gücünə həddindən artıq arxalanırdı. Qara Məhəmməddən sonra onun yerini tutmağa Qara Yusifi yeganə ləyaqətli adam hesab eləyən minbaşı, Qara Yusifə məsləhətlər verməkdən çəkinmir, onu Təbrizə vaxtından qabaq hərəkət etmək fikrindən daşındırırdı. Əlvərişli şəraiti gözləmək fikrini də Qara Yusifin başına o salmışdı. Çox hörmət

bəslədiyi bu müdrik minbaşını Qara Yusif axırıncı dəfə yaylaqdan Xoya dönəndən sonra özünə məslahətçi təyin etdi və soruşdu:

— İndi fikrin nədir, vəzir? Xocə Cövhər ömrünü sənə bağışladı, söylədiyin əlverişli vaxt deyilmi indi? Görünür, bir başqası da Təbrizə yiyələnmək istəyəcək, biz onu qabaqlasaq olmazmı? Bəlkə özümüzü tez Təbrizə yetirək?

Məsləhətçi həmişə gülər gözlərini oğlu kimi sevdiyi Qara Yusifə dikdi, gülümsündü və dedi:

—Vaxt əlverişlidir. Təbrizi tutmaq olar, sənin qabağına çıxam atmaz, qan da axmaz, ancaq...

Məsləhətçi sözünün ardını deməmişdən qabaq qalın bığlarına və saqqalına əl gəzdirdi. Qara Yusif sükutun uzanmasınaa dözmədi:

— Hə, nə amma, vəzir?—soruşdu.

Vəzir başını tərpədib:

— Hə, amması var. Amma həmişə var, həmişə ciddi bir iş görəndə ammaların sayını artırmaq lazımdır. İşi ammalarla tamam bişirmək olur.

Qətiyyətli adam olan Qara Yusif ammaları sevmirdi. Buna baxmayaraq, o. məsləhətçinin sözünü kəsmədi. Məsləhətçi sözünü bitirəndən sonra Qara Yusif dilləndi:

— Hər şeyi ölçüb-biçmək yaxşıdır, vəzir, ancaq ammasız.

Məsləhətçi onu tez-tez vəzir adlandıran Qara Yusifə gülümsündü və dedi:

— Ölçüb-biçmək ammalara cavab vermək deyil?

— İndi nə amma meydana çıxıb?

— Heç, elə şey deyil. Bircə amması budur ki, əmir Teymur hələ bizdən uzaqdadır, amma bir, yaxud ikiş ildən sonra üzünü bu yerlərə çevirəcəyi şübhəsizdir. Sənin atanla da, demək səninlə də düşmən olan əmir Teymurun Təbriz üzərinə yürüşü, sənin Təbrizi ələ keçirməyini sürətləndirə bilər.

Qara Yusif də bu barədə çox fikirləşmişdi. O da atası Qara Məhəmməd kimi, Teymurləngi Qaraqoyunların dövlətinn yaratmaq yolu üstündə ən böyük maneə

hesab edirdi. Ağıllı məsləhətçinin sözləri ona təzə görünmədisə də, fikirləşməyə məcbur etdi:

— Demək istəyirsən ki, Təbriz camaatının başına gələ biləcək bəlaların baisi biz olarıq? Şəhəri o topalın qırğnına verməyi sürətləndirərik?

Məsləhətçi Qara Yusifə cavab vermədi, onu sona kimi dinlədi. Qara Yusif həqiqətən də öz sözünü söyləyib qurtarmamışdı:

— Belə də ola bilər. Ancaq hələlik onun başı qarışıqdır, görünür, bu yaxınlarda bu tərəflərə gəlmək fikrində deyil. Deyirsən ki, bir, yaxud iki ilə gələ bilər. Ola bilər ki, heç gəlməsin, bu iki ildə davaların birində bir oxun qurbanı olsun. Bir də inanmıram ki, əmir Teymur mənim vücuduma belə yüksək qiymət qoyub, məhz məndən ötrü Təbrizin üstünə gəlsin.

Vəzir, hələ nisbətən cavan olmasına görə məsələnin dərinliklərinə varmayan Qara Yusifin son sözlərini də cavabsız buraxdı. O, demək istərdi ki, məsələ sənin şəxsiyyətində deyil, iş burasındadır ki, Teymurləng Azərbaycanda, xüsusən onun günbatanında, öz istəkləri qarşısına qoyduğu məqsədləri yoluada yeganə əngəl qaraqoyunluları, bir də ağqoyunluları görürdü. Ağqoyunlular hələ nisbətən zəif idilər, ona görə də əmir Teymur ilk növbədə qaraqoyunluları səhnədən sıxışdırmaq barəsində fikirləşir, buna imkan axtarırdı. Qara Yusifin Təbrizi tutması Teymurləngə qaraqoyunluların daha da güclənməsi əlaməti kimi görünəcək və o özünün ən təhlükəli rəqiblərindən birini məhv etməyə çalışacaq. Məsləhətçi bütün bu fikirləşdiklərini demədi, ancaq o, Qara Yusifə nəsə bir söz deməyi zəruri hesab etdi və dedi:

— Bir-iki gün də götür-qoy eləsən yaxşı olar, onsuz da qabağı qışa gedir.

Qara Yusif çənəsini örtmüş şabalıdı saqqalını ovcuna doldurdu, vəzirə ani nəzər saldı, gözlərini yana çevirib dedi:

— Neynəyək, qoy sən deyən olsun, bir-iki gün də fikirləşək. Ancaq qışın yaxınlaşması, lap girməsi də Təbrizə aparan yolun üzərində əngəl ola bilməz.

Məsləhətçi onunla razılaşmaqdan başqa əlac görmədi:

— Orası elədir, baxmayaraq ki, bu il qış sərt və uzun keçəcək.

Qara Yusif nəzərlərini yenə məsləhətçisinə çevirdi, ancaq sual da vermədi, soruşmadı ki, qışın sərt keçəcəyini haradan bilirsən. Vəzir Qara Yusifin onun sözlərinin mahiyyətini eşitmək istəməsini başa düşdü və dedi:

— Bu il ağaclar yarpaqlarını tez tökdü. Bu, qış fəslinin sərt və uzun keçəcəyinə işarədir. Bu ki yayın yağmurlu, payızın isə isti keçməsi də qışın uzun keçəcəyinə işarədir.

Məsləhətçi sözlərini bitirib məmnun halda gülümsündü, saqqalını sığallaya-sığallaya Qara Yusifə baxdı. Onu maraqla dinlədiyini görüb bir neçə söz də əlavə etməyi lazım bildi:

— Heç bağlarda yarpaqların tökülməsinə fikir vermisən?— Məsləhətçi yenidən danışmağa başlayanda başını aşağı dikmiş Qara Yusif nəzərlərini ona qaldırdı. Msləhətçi Qara Yusifin onun sualına cavab verməyə hazırlaşmadığını görüb davam etdi:

— Bu il bağlarda xəzan yarpaqlarının çoxu üzü yuxarı düşüb. Bu da qışın sərt keçəcəyinə işarədir. Yarpaqlar üzü aşağı düşən illərdə qış mülayim keçir. Deyirlər meşədə dələ tükünü başdan quyruğuna doğru tökəndə də qış sərt keçir, quyruğundan başına doğru dəyişəndə isə yumşaq.

Qara Yusif zarafata keçdi:

— Deyirsən meşəyə adam göndərib bunu öyrənək?

Gülüşdülər.

Vəziri ilə son söhbətindən bir neçə gün sonra Təbrizdən alınmış yeni xəbər Qara Yusifi qəti tədbir görməyə tələsdirdi. Xoca Cövhərdən sonra Əlincə hakimi olmuş əmir Altun Təbrizi tutmuşdu. Qara Yusif səfər təbilini vurdurmaq istədi. Ancaq məsləhətçisinin sözünü eşidib səfərini yaza kimi təxirə saldı. Bununla belə əllərini yanına salıb sakit oturmadı, Təbrizə kəşfiyyatçılar göndərdi, atasının yaxşı münasibət bəslədiyi saray məsləhətçisi Mahmud Ağa yadına düşdü, onu Xoya çağırtdırdı.

Mahmud Ağa Qara Yusifin Xoya qayıtması xəbərini alıb Rəşidi oraya göndərməyə, qızını Qara Yusifin köməyilə axtarmağa hazırlaşırdı. Qızının itgin

düşməsindən xeyli vaxt keçməsinə baxmayaraq nə Mahmud Ağa, nə də Rəşid onu tapmaq ümidini itirmişdilər. Xavərin anası Həcər xanım bu illər ərzində ən azı on beş il qocalmışdı. Onun mərmər kimi sığallı sifətində bala dərdi cığırlar açmış, gözlərinin parıltısı sönmüş, şabalıdı saçları callaşmışdı. O, bu müddətdə qızını bir gün də olsun unuda bilməmiş, göz yaşı axıtmadığı gün olmamışdı.

Qara Yusifin elçisi Mahmud Ağanın evinə gələndə Həcər xanım artıq yetkin bir qız olmuş, Xavər kimi gözəl olmasa da gözəgəlimli ortalcıl qızı və on iki-on üç yaşlı kiçik qızı ilə həyətdə idi. Onlar darvazadan tanımadıqları bir kişinin, həm də təbrizliyə oxşamayan bir kişinin içəri girdiyini görüb qorxdular, ortancıl qız nakahani qışqırdı. Onun qışqırtısına son zamanlar çox tez-tez xəstələndiyindən evdən çox nadir hallarda çıxıb dükan-bazara gedən Əliabbas kişi göründü. O, həyətə gəldi, orada qaraqoyunluların libasında cavan bir oğlan dayandığını görüb soruşdu:

— Nə istəyirsən, ay oğul?

Kişi xeylağı görüb sevincək olmuş oğlan Əliabbas kişinin sualına sualla cavab verdi:

— Bura Mahmud Ağanın evidir?

Sualına müsbət cavab almış cavan elçi gəlişinin səbəbini deyib getdi. Həcər xanım ərinin Xavəri axtarmaq üçün Rəşidi Xoya göndərmək istədiyindən xəbərdar idi. Özünün son ümidini, qızı ilə qovuşmaq ümidini bu səfərə bağlamış ana elçinin sözlərini böyük həyəcanla dinlədi, o gedən kimi isə halsızlaşdı. Qızları onu çəkib çarhovuzun kənarında oturtdular. Xavərin Xoyda olduğunu bilməyən bacılar analarının əhvalının birdən-birə dəyişməsindən qorxdular. Həcər xanım qızlarını sakitləşdirmək üçün özünü toxtatmağa çalışdısa da, buna müvəffəq ola bilmədi. Həcər xanımın vəziyyətinin dəyişməsinin səbəbini yaxşı başa düşən Əliabbas kişi qızları sakitləşdirmək istədi:

— Qorxmayın, qızlarım, qorxmayın, elə bir şey yoxdur, indicə keçib gedər.

Həcər xanım, nəhayət, özünü ələ alıb diz çökdü, gözlərindən yaş axa-axa əllərini göyə qaldırdı:

— Sənin dərgahına uzadıram əllərimi, ey tanrı, ey gözə görünməyən xaliq, bu dəfə mənim ümidimi qırma, balamı mənə yetir,—dedi, göz yaşı axıda-axıda əlləri göydə xeyli dua etdi. Analarının ağlaması, hərdən hönkürməsi, onsuz da onun bu halına ağlayan qızlarının ikisini də hönkürtdü. Nəhayət, Həcər xanım susdu, qızlarının köməyilə evə getdi. Onların halını görüb kövrəlmiş Əliabbas kişi də öz evinə getdi və arvadını Həcər xanımın yanına göndərib dedi:

— Mahmud Ağa evə gələn knmi gəl mənə xəbər gətir.

Mahmud Ağa evə günortadan keçmiş qayıtdı. Qara Yusifin elçi göndərdiyini bilən kimi həyətə düşdü, Əliabbas kişini səslədi. Rəşidin yerini soruşub dedi:

— Sabah Xoya gedirəm, istəyirəm Rəşidi də özümlə aparım, nə deyirsən?

Əliabbas kişi:

— Çox yaxşı olar,—dedi və əlavə etdi ki, Rəşid səhərdən gedəndi, harada olsa indicə qayıdar.

Mahmud Ağa ilə Rəşid Təbrizdən çıxan gün hava birdən dəyişdi, şıdırğı yağış yağmağa başladı, Onları yola salmaq üçün şəhərin Surxab məhəlləsinə kimi gəlmiş Əliabbas kişi gecə qaranlığı rəngini almış göyə baxıb dedi:

—Su aydınlıqdır, səfərə çıxanın dalınca su atarlar, indi tanrının özü sizin ardınızca su atır. İnşallah əlidolu qayıdacaqsınız.

Mahmud Ağa Xoydan keçib günbatana gedəcək karvan sahibilə qabaqcadan sövdələşmişdi və karvan onları Surxab məhəlləsindəki karvansarada gözləyirdi. Rəşid karvanla getməyin əleyhinə idi, o, at üstündə getməyi daha üstün tuturdu. Mahmud Ağa da at üstündə getməyin əleyhinə deyildi, lakin o ehtiyat edirdi. O, Xavəri satın almağa ümid bəslədiyindən xeyli pul götürmüşdü, yollar isə qarmaqarışıq və təhlükəli idi. Ona görə də silahlı dəstənin müşayiət etdiyi karvana üstünlük vermişdi.

Karvanın və onun sahibinin yağış altında yol getmələri az olmamışdı və yağış onları qorxutmurdu. Karvan sahibi Mahmud Ağa ilə Rəşid üçün bir dəvənin üstündə hazırladığı kəcavəni göstərdi. Dəvə diz üstündə çökmüşdü. Onlar öz yerlərini tutandan sonra dəvəci dəvəni qaldırdı, o biri dəvələrin sıra- sına qoşdu,

dəvələr hərəkətə gəldi. Dəvələrin boyunlarından asılmış zınqırovların hər biri bir cür səslənir, dəvələr yeridikcə bir-birinə qarışan bu səslər gözəl, qəlbəyatan bir ahənglə qulaqları oxşayırdı. Mahmud ağa ilə Rəşid karvan şəhərdən aralanandan sonra ətrafdakı sükutun yeganə qənimi olan bu zınqırovların sədaları altında hərəsi öz xəyalına dalmışdı.

Qara Yusif Mahmud Ağanı yaxşı qarşıladı, onunla birlikdə gəlmiş qəşəng, pəhləvan cüssəli Rəşidi diqqətlə gözdən keçirib dedi:

— Bu pəhləvan oğlan mənim gözlərimə şirin gəlir, ancaq onu harada gördüyümü yadıma sala bilmirəm.

Mahmud Ağa Rəşidə baxıb fərəhləndi, gülümsündü. Rəşid özünü Qara Yusifə nişan verdi:

— Siz Lələ Xocanın qoşunları ilə çarpışan çağda mən də sizinkilərin azad elədikləri təbrizli əsirlərin arasında idim.

Qara Yusif dalğın-dalğın saqqalını ovuşdurdu. Və birdən sanki yuxudan ayıldı, Rəşidə baxıb gülümsündü, baxışlarındakı sərtliyi mülayimlik əvəz etdi:

— Tanıdım səni, yüzbaşı Rəşid, tanıdım. Yüzbaşı rütbəsini sənə mərhum babam verdi. Sənin qocaqlığın qardaşım Misir Xocanın dilindən düşmürdü. —Qara Yusif danışığına ara verdi, yenə əlini saqqalına apardı. —Beş il keçib o vaxtdan, sən xeyli dəyişmisən, xeyli. Onda hələ uşağa oxşayırdın. İndi isə, maşallah, lap yetgin igidsən, əsl pəhləvansan.

Mahmud ağa Rəşidin ünvanına deyilən xoş sözlərdən fərəhlənirdi. Qara Yusif Mahmud ağaya döndü:

— Təbrizdə baş verən qəziyyələrdən xəbərdaram, xəbər gətirənlərim az deyil. Fikirləşdnm ki, Təbrizin başındakı qəzavü-qədər, Təbrizə yiyə durmaq istəyənlər barəsində sən, mərhum babamın çox böyük hörmət bəslədiyi müdrik kişi bizə daha dəqiq məlumat və məsləhət verərsən.

Qara Yusif son sözlərini deyəndə artıq ağarmış gur saqqalını sığallaya-sığallaya bayaqdan susaraq onu dinləyən vəzirinə baxdı. Sonra Qara Yusif özü Təbrizdə hakimiyyətin tez-tez bir əldən o biri ələ keçməsindən xəbərdar

olduğunu, onun üçün də Təbrizə tezliklə, yəni qarşıdakı ilin yazında yürüş etmək istədiyini, vəzirin isə bu işi təxirə salmağı məsləhət görməsini Mahmud ağaya söylədi və əlaaə etdi:

– Mahmud Ağa, bilmək istəyirəm ki, söylədiklərimdə səhv varmı? Başlıcası isə odur ki, bu əmir Altunu tanımıram. O mənim Təbrizə gəlməyimə necə baxar?

Mahmud Ağa Qara Yusifin məlumatının dəqiqliyinə heyran qaldığını söylədi, əmir Altunu tanımadığına görə onun barəsində bir söz deməyə çətinlik çəkdiyini bildirdi. Ancaq vəzirdən fərqli olaraq, Mahmud Ağa Qara Yusifin Təbriz üzərinə yerimək istəməsini alqışladı:

– Çox yaxşı olar sənin Tzbrizi ələ keçirməyin. Başı bəlalı şəhər əldən-ələ keçir, camaatın günü qaradır. Bir də iş təkcə Təbrizlə bitmir. Böyük Azərbaycanın bütün torpaqlarını vaxtilə Şəmsəddin Eldənizin etdiyi kimi bir dövlətdə birləşdirib əmin-amanlıq yaratmaq çox yaxşı olardı.

Vəzir söhbətə qoşulmaq vaxtının çatdığını qət etdi:

– Hörmətli Mahmud Ağa, necə deyərlər, avazın yaxşı gəlir,oxuduğun Quran ola. Heç şübhə ola bilməz ki, Azərbaycan torpaqlarını Qara Yusifin yaradacağı Qaraqoyunlular dövlətində birləşdirmək yaxşı olardı. Ancaq indi yox, hələ vaxtı çatmayıb. Cəlayirlərin öhdəsindən gəlmək olar, əmir Teymur isə çox zorludur, onun qabağında dayana bilmərik, gücümüz çatmaz.

Mahmud Ağa Qara Yusifə baxdı, onun danışmaq istəmədiyini, gözlərini ona dikdiyini görüb vəzirə cavab verməyi lazım bildi:

– Sən düz buyurdun, əmir Teymur zorludur, amma o həmişə belə güclü qalmayacaq. Həm də o zorludur deyə əllərimizi yanımıza sala bilmərik. Onsuz da onun bu yerlərdə ən çox ehtiyat etdiyi qaraqoyunlulardır. Lakin siz Təbrizn tutsanız da, tutmasanız da Azərbaycan qarışıq qonşu torpaqları birləşdirib dövlət yaratsanız da, yaratmasanız da, o bu yerlərə gələcək, mütləq gələcək. Amma belə böyük bir dövləti yaratmaq mümkün olsa, ona müqavimət göstərmək, bəlkə də məğlub eləmək də olar.

Mahmud Ağa sözlərini deyib qurtarandan sonra öz-özünə danışırmış kimi dodaqaltı mızıldadı:

— Lələ Xocanı əzişdirən kimi.

Hər şey Qara Yusifə aydın idi. İndi onu səfərini yaza kimi təxirə salıb-salmamaq barəsində Mahmud ağanın son fikri maraqlandırırdı. Odur ki, Mahmud ağanın daha danışmaq istəmədiyini görüb onun rəyini soruşdu. Mahmud ağa Qara Yusifin vəzirin məsləhəti ilə qəbul etdiyi qərarının əleyhinə getməyi lazım bilmədi, halbuki o, üç aylıq əlverişli vaxtın itirilməsinə heyfsilənirdi. Mahmud ağa əmir Teymurun uzaqda olduğu bir vaxtda bu yolu doğru hesab etdiyini deməyi də özünə sığışdırmadı:

— Madam ki, belə bir fikrə gəlmisiniz, mən nə söyləyə bilərəm? Ancaq şərait indi çox əlverişlidir, əmir Altun sizin qabağınızda dayana bilməz. .

Qara Yusif yenə saqqalını ovcuna doldurdu, vəzirinə baxdı, ancaq bir söz demədi. Mahmud Ağa sözlərinin yaratdığı gərginliyi aradan qaldırmaq üçün:

— Deyirlər əmir Altun Təbrizdə yaza kimi qalmaq fikrindədir, yaz girən kimi Xalxala gedəcək.

Qara Yusif söhbətin istiqamətini dəyişdi:

— Mahmud Ağa, səni Xoya çağırmağımın başlıca səbəbi səninlə bir iş barəsində məsləhətləşməkdir. Biz, mənim müdrik vəzirimlə məsləhətləşmişik və belə bir rəyə gəlmişik ki, sən sultan Əhmədin vəzirinin yanında olduğu kimi, mənim vəziri min yanında da məsləhətçi olasan.

Qara Yusif bu barədə vəzirlə məsləhətləşməmişdi. Mahmud Ağanı Xoya dəvət edəndə də bu barədə fikirləşməmişdi. Bu fikir onda Mahmud Ağa ilə etdiyi söhbətin əsnasında doğmuşdu. O öz fikrini söyləməyi təxirə salmaq, eyni zamanda vəzirinin də xatirinə dəymək istəmədi, ona görə də Mahmud Ağaya vəzirlə məsləhətləşdiyini dedi və vəzirə baxdı. Vəzir Qara Yusifə baxıb gülümsündü və dedi:

— Mahmud Ağa, səni təkcə Təbriz camaatı deyil, qaraqoyunlular da yaxşı tanıyırlar. Sultan Əhmədin sarayında verdiyin müdrik məsləhətlər də məlumdur.

Ona görə də biz belə məsləhət bildik. Onu da nəzərə aldıq ki, sən indicə haqqında danışdığın böyük Qaraqoyunlular dövlətinə xidmət eləməkdən boyun qaçırmazsan.

Vəzir sözlərini deyib Qara Yusifə baxdı və yenə gülümsündü. Qara Yusif də ona təbəssümlə cavab verdn. Mahmud Ağa ona edilən təklifi məmnuniyyətlə qəbul etdi:

— Bu məndən ötrü çox böyük şərəfdir, lakin mən hələlik Təbrizə qayıtmalıyam. Yaz girən kimi sizi doğma şəhərimdə qarşılayıb qulluğunuzda dayanaram.

Qara Yusif etiraz etmədi, üzünü bir tərəfdə sakit oturub söhbətə qulaq asan Rəşidə çevirdi:

— Cavan dostum, bəs sən necə baxırsan qaraqoyunluların qoşunlarında minbaşı olmağa?

Rəşid cəld ayağa durdu. Qara Yusif onu oturmağa dəvət etdi. Rəşid sıxıla-sıxıla:

— Min adama başçılıq eləmək, həm də savaş meydanında başçılıq eləmək mənə ağır olar, hökmdar,—dedi.

Rəşidin ona hökmdar deyə müraciət etməsi Qara Yusifin xoşuna gəldi, gülümsünüb dedi:

— İgid oğlansan, bacararsan, bir az məşğul olub öyrənərsən, minbaşılara tapşıraram öyrədərlər.

Rəşid etiraz etmədiyini, ancaq onun qoşunlarının Təbrizə daxil olmasından sonra saraya gələcəyini bildirdi. Sözünə ara verib Mahmud ağaya baxdı və davam etdi:

— hökmdar, Mahmud Ağa ilə mənim sənii köməyinə cox böyük ehtiyacımız var.

Qara Yusif üzünü Mahmud Ağaya çevirdi. Mahmud Ağa qızının başına gələnləri qısaca danışdı, onun hazırda Xoyda olmasıkı bildirdi. Rəşidin car çəkdirib böyük məbləğdə pul, bəxşiş təklif etmək fikrini də dedi... Qara Yusif elə

həmin gün car çəkdirdi, ancaq heç kimdən səs çıxmadı, gələn olmadı. Mahmud Ağa ilə Rəşid böyük intizar içində iki gün də gözlədilər, ancaq Xavər barəsində eşitdim, gördüm deyən olmadı. Bu iki gündə Mahmud ağa beli sınıbmış kimi dərddən əyildi, sıxıldı. Axı o, həmişə ümidli olmuşdu, içində bir arxayınçılıq var idi.

İndi ümidinin son qığılcımları da sönürdü, daxilinə zülmət çökürdü. Ağır iztirab keçirən Mahmud ağa bu iki gündə Rəşidə fikir verməmiş, onun çəkdiklərini duymamışdı. Bircə yola düşmək vaxtı çatanda Rəşidi çağırıb:

— Ay oğul, yığış qayıdaq,—deyib nəzərlərini ona qaldıranda gözləri dörd oldu. Rəşidin zil qara saçlarının alnından peysərinə qədər ağardığını, gözlərinin şişdiyini gördü. Rəşidin bütün sifətini örtmüş qısa qara saqqalının altında yanaqlarının mütəmadi titrəməsi aydın görünürdü. Mahmud Ağa nə qədər çalışdısa da özünü ələ ala bilmədi, Rəşidi qucaqlayıb ağladı. Rəşid də ağladı, lakin bir fərqi var idi ki, Mahmud Ağanın çiyinləri qalxıb enirdi, Rəşid isə sakit ağlayır, qara gözlərindən axan yaş qara saqqalında yumrulanıb Mahmud Ağanın onun sinəsinə dirədiyi başına düşərək tüklərinin arasına hopurdu.

Mahmud Ağa ilə Rəşid yenə tacir karvanına qoşulub Təbrizə yola düşdülər, ancaq bu dəfə kəcavədə deyil, at üstündə getdilər. Onlar evə girəndə gözlərinə, gördüklərinə inanmadılar. Ev bayram içində idi. Qızları Mahmud Ağanı görən kimi boynuna sarıldılar. Həcər xanım göyün yeddinci qatında idi. Rəşidin də anası ilə bacısı burada idilər. Hamı sevinir, şadlanırdı. Atası ilə Rəşidi görmüş Xavər bir tərəfə çəkilib heykəl kimi dayanmışdı, o, canlı insandan daha çox mahir tişə ustasının şah əsərinə bənzəyirdi.

* * *

Sahibabad meydanında sevgilisini görəndən onun səsini eşidib əsir qız-gəlinlərin arasından çıxmağa can atmış, Teymurləngin əsgərləri onu sürükləyib aparanda özündən gedib huşunu itirmiş Xavər gözlərini yolda,

uzandığı arabada açdı. O, İran tacirinə satılmasından xəbərsiz idi. Xavər bir neçə gün karvansarada qaldıqdan sonra doqquz gözəl qızla buradan çıxarılıb aparılanda sevindi. O elə zənn etdi ki, onları təbrizlilərdən kimsə satın almışdır və tezliklə evlərinə xəbər çatdırıb əsirlikdən qurtaracaqdır. Xavər hara gətirildiklərindən xəbər tutanda dəhşətə gəldi. Ümumixanənin sahibi, üzünə baxanda ikrah hissi doğuran arvad o biri qızlarla olduğu kimi onunla da təklikdə danışdı:

— Haraya düşdüyünü yaxşı bilirsən, artıq uşaq deyilsən. Buradan qurtarmaq barəsində fikirləşməyə belə dəyməz. Evə gedə bilsən də, qaçsan da, səni heç kim qəbul eləməyəcək, ata-anan da yaxın buraxmayacaqdır. Sənin bircə yolun qalır ki, o da mən deyənləri eləməkdir. Səni almaq üçün bir ətək pul vermişəm, səni kişilərlə görüşdürüb bu pulu çıxarmalıyam. Yemək-içməyin, geyinməyini də verəcəyəm. Bütün günü boş olacaqsan, əllərini ağdan qaraya vurmayacaqsan. İşin axşamlar və gecələr olacaq. Sənin yanına gələn adamdan mən öz haqqımı alacağam, cox gözəlsən, fərasətin olsa o kişilərdən əlavə qızıl, pul qopara bilərsən, beş-on ildən sonra əməlli varlanarsan. Onda mənim haqqımı verərsən, səni buraxaram, gedərsən uzaq, tanımadığın bir kəndə. Pulun olandan sonra nə var ki? Ev də alarsan, özünə ər də taparsan, uşaq da doğarsan. Görürsənmi, qızım, buraya düşmək o qədər də pis deyil.

Xanə sahibinin dediklərini eşidən, ancaq öz fikirlərilə məşğul olduğundan sözlərinin mənasını dərk etməyən Xavər, o susandan sonra dinmədi, sahibinə heç nə demədi. Xanə sahibi Xavərin sükutunu razılıq əlaməti sanıb məmnun halda dedi:

— Bax belə ha... ağllı qızsan, xeyrini başa düşürsən. Dur get, əlini-üzünü yu, özünü qaydaya sal, axşama hazırlaş, birinci görüşə.

Elə bil Xavəri əqrəb çaldı. O qışqırdı:

— Nə dedin?

— Bəs bayaqdan sənə bir Quran söz dedim, eşitmədin?

— Quran sənə qənim olsun.

Xanə sahibi səbrli adam idi. Təcrübədən keçirmişdi ki, tərs qızların çoxu ilə şirin dillə danışıb yola gətirib. Ona görə də sözlərini bir də təkrar etdi. Xavər qışqırdı:

— Cəhənnəm ol buradan, əqrəb. Onu heç vaxt görməyəcəksən.

Xanə sahibi sakit halda:

— Nahaq yerə tərslik eləyirsən. Hər gün tərslik eləməyin səni bir-iki qızıl geri salır, əvvəl-axır razı olacaqsan, ayrı yolun yoxdur. Tutaq ki, qapını açıb səni buraxdım, hara gedəcəksən? Sənin bircə çıxış yolun mənim göstərdiyim yoldur.

Xavər sakitləşdi və güclə eşidilən, ümidsiz səslə dedi:

— Var, başqa çıxış yolu var.

— Nədir o yol?

— O yol abrı, isməti qoruyub saxlayan, ləkələnməyə qoymayan yoldur. Məni məcbur eləməyə çalışsan, o yolu seçməli olacağam, başqa yol ola bilməz.

Sahibə belə sözləri birinci dəfə eşitmədiyindən Xavərin sözlərinin mənasını tez başa düşdü. O, söhbəti davam etdirməyin lüzumsuz olduğunu, onun müqavimətini sonrakı danışıqlarında qıra biləcəyini fikirləşib qalxdı və:

— Adın nədir Daşdəmir... —deyib getdi.

İki gündən sonra xanə sahibi yenə Xavərlə görüşdü, üçüncü gün bir də görüşdü. Bu dəfə Xavər göz yaşı axıda-axıda yalvarmağa başladı:

— Mən Təbrizin abırlı, varlı adamlarından birinin qızıyam, burax məni gedim evimizə, məni aldığın iki qiyməti verərəm sənə.

Xanə sahibi Xavərin kimin qızı olmasilə maraqlandı, ancaq Xavər ona bir söz demədi. O istəmədi ki, belə bir murdar məxluq onun kimlərdən olduğunu bilsin. Xanə sahibi isə ona görə maraqlanmırdı ki, onun ailəsinin kimliyini biləndən sonra Xavəri buraxacaqdı. Xavər iki qiymət deyil, lap beş-on qiymət də versəydi, onu buraxmazdı. Əvvələn ona görə buraxmazdı ki, o, çox yaxşı bilirdi ki, Xavər kimi gözəl, canlara atəş vuran qıza verdiyi pulu qat-qat artıqlamasilə çıxaracaqdır. İkincisi, ən başlıcası o idi ki, o qorxurdu, qorxurdu ki, qızın

valideynləri, qardaşları ondan intiqam alarlar, xanəsini yandırarlar. Bütün bunlara görə o, Xavərə qəti cavab verdi:

– Bircə yolun var, o da mən deyəndir.

Xavər yalvarmaqda davam etdi:

– Məni kamsız qoyma, sevgilim var, bir-birimizi çox sevirik. Məni indi buraxsan, təmizliyimi sübuta yetirmək çətin olmaz. Bir həftə sonra bu gec olar.

Xanə sahibi həyasızlıqla güldü:

– Bir həftə gözləyərəm, onda mənim dediyimdən başqa garən qalmayacaq.

Xavərin yalvarışı, ağlaması birdən kəsildi, arvadın üstünə şığıdı, onun boğazından yapışıb altına ala bildi. Ancaq bu, bir an çəkdi. O, arvadı buraxdı, ayağa durdu. Özünü itirmiş arvad cəld qalxdı, Xavərə yaxınlaşıb onun saçlarından yapışaraq silkələdi, üzünə bir şillə vurdu:

– Sənin kimilərini çox görmüşəm, səni məcbur eləyərəm, məcbur,—deyib getdi.

Xavərdən çox əsəbi ayrılmış xanə sahibi onun müqavimətini qıra bilməyəcəyini, özünü öldürəcəyi tərzdə ona verdiyi pulu da itirəcəyini yəqin etdi və bir həftə də gözləməyi, müqavimətini qıra bilmədikdə onu satmağı qərara aldı. O bilirdi ki, müştərini xanəsinə gətirə bilməz. Təbriz bazarında qul alanlar, onları əsasən ev işləri görmək üçün alırdılar və heç kim onun xanəsindən çıxmış qızı alıb evinə aparmazdı. Xanə sahibinin belə hallara qarşı da tədbiri hazır idi. O, xanəsindən aralı bir ev tutmuşdu və belə qızları satmaqdan ötrü bu evdən istifadə edir, müştərini oraya çağırırdı. Həm də o heç vaxt qızları təbrizliyə deyil, mütləq başqa şəhərlərdən gəlmiş müştərilərə satırdı. Bu dəfə də o, dəllala başqa şəhərli bir müştəri tapdırdı və Xoy şəhərindən gəlmiş yaşlı bir qadının kəniz axtardığını eşidib şad oldu və Xavəri ona aldığı qiymətdən də xeyli baha qiymətə satdı.

Xavəri satın almış qadının adı, onun mehriban cöhrəsi ilə tam uyğunluq təşkil edirdi, onun adı da özü kimi Mehriban idi.

Mehriban xalanın Xavərin əsirlikdən sonra haralarda olmasından xəbəri yox idi. Bircə onu bilirdi ki, Xavər Teymurləngin qoşunları tərəfindən əsir alınıb

satılmışdır və onu satan adam da Xavəri qazanc məqsədilə ikinci əldən almış və aldığı məbləğin üstünə bir qədər də əlavə edib ona satmışdır.

Xavəri satın alıb Xoya gətirmiş Mehriban xala varlı-dövlətli arvad idi, ancaq oğul-uşağı yox idi. O, qızını bir təbrizliyə ərə vermiş, Toxtamış xan Təbrizi alıb talan edəndə onun əri ilə iki uşağı öldürülmüş, evləri isə yandırılmışdı. Qızı o vaxtdan itgin düşmüşdü. Oğlunun da müqəddəratı qızınınkı kimi olmuşdu. O, sultan Əhmədin apardığı müharibələrdə öldürülmüşdü. Ona görə də Mehriban xala qulluqcu adı ilə elə bir qız almaq istəmişdi ki, həmin qız onun evində kəniz olmaqdan ziyadə, ona qız olsun, hami olsun. Mehriban xala Xəvəri ilk görüşdən bəyənmişdi, ancaq bu hissini sahibinin yanında büruzə verməmişdi. Dünyagörmüş adam olan Mehriban xala bilirdi ki, Xavəri bəyəndiyini, ürəyindən olduğunu bir balaca bildirsə, sahibi onun qiymətini birə iki-üç artıracaqdır. Odur ki, qul sahibinin:

— Hə, görürsən ki, ahu kimi qızdır, özü də abırlı-həyalı,— deməsinə əhəmiyyət verməyib dedi:

— Onun gözəlliyi, sən demişkən, ahu kimi olması mənim nəyimə gərəkdir? Bəlkə bir ayrı qız göstərəsən.

Xavərin sahibi:

— Yox, olanım budur,—deyib onu daha baha qiymətə satmaq fikrindən daşınmalı oldu.

Mehriban xala Xavəri alan kimi karvansaraya gəldi və qabaqcadan danışıb behini verdiyi kəcavədə yerini tutdu, Xavəri ikinci kəcavədə əyləşdirdi. Uzun yol boyu yalnız karvan əylənib yeməyə oturanda, bir də axşamlar yatmaq qabağı görüşüb danışa bilirdilər. Bu hallarda da Xəvər danışmağa qəti meyl göstərmir, Mehriban xala isə təkid etmirdi.

Xoya çatandan sonra Mehriban xalanın ev işlərinin hamısı Xavərin üstünə düşdü. Onlar cəmi iki nəfər idilər və ev işləri o qədər də çox və ağır deyildi. Ona görə də Mehriban xalanın ikimərtəbə dörd otaqlı, şüşəbəndli evini və çox da böyük olmayan həyətini yığışdırdıqdan sonra Xavərin yenə də boş vaxtı çox

olurdu. Əvvəllər Mehriban xala onu bazara da göndərirdi. Onun üzü çadra altında olsa da, bazarda pis, hərzə adamların şit sözlərini, kobud danışıqlarını eşidir, bəzən həddini aşanlarla da rastlaşmalı olurdu. O, bir neçə dəfə onunla çox yaxşı rəftar eləyən Mehriban xaladan bazara göndərilməməsini xahiş etmək istəmişdisə də, tezliklə bu fikrindən daşınmışdı, fikirləşmişdi ki, bəs onda bazara kim getsin? Lakin sonuncu dəfə bazara gedəndə baş vermiş hadisə məsələni öz-özünə həll etdi. Xavər bu dəfə də bazardan lazımi şeylari alandan sonra Mehriban xalanın tapşırığı nlə Xoy ustalarının toxuduğu parçadan almaqdan ötrü, həmin ustaların cəmləşdiyi məhəlləyə getməli oldu. O, məhəlləyə çatanda, əlindəki şeylər ağır olduğundan çadrasını başında saxlaya bilmədi, üzü açıldı. Bu vaxt təsadüfən onun yanından üç nəfər avara xoylu gənc keçirdi. Onlar Xavərin gözəlliyi qarşısında heyran oldular, gözləri kəllələrinə çıxdı. Xavər cəld çadrasını başına çəkdi, cavanlar ötüb bir necə addım uzaqlaşdıqdan sonra onlardan biri soruşdu:

— O ahu kimin qızıdır görəsən?

İkinci cavan Xavərin üzünü heç vaxt görməsə də, başına saldığı çadradan onu tanıdı;

— O bizim qonşuluqdakı arvadın kənizidir,—dedi.

Birinci cavanın gözlərində ehtiras alovu alovlandı və dedi:

— Bəs o burada nə eləyir?

— Görünür sahibi parça almağa göndərib.

Birinci cavan dostlarına:

— Ardımca gəlin,—deyib geriyə döndü, Xavərə yaxınlaşdı, səsinə mehribanlıq qatıb dedi:

— Bacı, mən səni tanıyıram, bizim qonşumuz Mehriban xalanın yanında olursan. Bu məhəlləyə nə əcəb gəlmisən?

Xavər ona inandı və dedi:

— Mehriban xala parça istəyib.

Cavan yoldaşlarına döndü, onlara göz vurdu və:

— Gedək, mən yaxşı usta tanıyıram,-deyib Xavərin əlindəki zənbili ondan aldı.

Xavər cavanların ardınca getməyə başladı. Xoyu yaxşı tanımayan Xavər cavanların toxucular məhəlləsindən uzaqlaşmalarını görüb dayandı və soruşdu:

— Hara gedirsiniz, ustalar arxada qaldılar.

Cavan güldü:

— Narahat olma, bacım, çatmışıq, ən yaxşı usta bax buradadır,—dedi və dalana bənzər xəlvəti yerə girib qapını ütələdi, həyətə girib Xavəri içəri çağırdı. Xavər həyətə girməkdən imtina etdi. Cavan əl çəkmədi:

— Nədən ehtiyat eləyirsən, ay bacı, gir həyətə, parçanı bu saat gətirərəm,—dedi.

Xavər həyətə girmək təklifini qəti rədd edib dedi:

— Yox, parçanı buraya gətir— dedi.

Cavan nə qədər dil tökdüsə də Xavər dediyindən dönmədi. Cavan sağ-soluna boylanıb birdən Xavərin əlindən tutaraq həyətə dartdı, o biri cavanlar isə onu arxadan itələdilər. Xavərdən qulaqbatırıcı qışqırtı qopdu, onun xoşbəxtliyindən, adətən az adam olan bu xəlvəti yerdən iki cavan keçirdi. Onlar çığırtıya yüyürüb, məsələnin nə yerdə olduğunu bilərək qızın köməyinə gəldilər. Bu boylu-buxunlu cavanlar üç avaranın öhdəsindən asanlıqla gəldilər. Onların hər birinə bir yumruq kifayət elədi, üçü də aldıqları zərbədən yerə sərildilər. Göməyə gəlmiş cavanlar Xavəri həyətdən çıxaranda yerə sərilmiş avaralardan biri bıcaq çıxarıb, cavanlardan birini vurmaq istəyəndə o, zərbədən yayına bildi. Bıcaq vurmaq istəyən cavan müvazinətini itirib yıxıldı. Zərbədən yayınmış cavan yoldaşına:

— Gəl bu biqeyrətlərin əl-ayaqlarını sarıyıb öz həyətlərinə ataq, qoy haraylarına adam yetincə orada çapalasınlar.

Onların üçünün də ağız-burnu qan içində idi. Cavanlar onların əl-ayaqlarını bellərindən açdıqları qurşaqları ilə sarıdılar, ağızlarına əsgi basmağı da unutmadılar. Onlardan biri dilləndi:

— Ə... birdən haylarına gələn olmaz, gəbərərlər.

— Qoy gəbərsinlər, it uşaqları, yer üzündə üç biqeyrətin sayı azalar.

Gözləri önündə baş vermiş hadisədən dəhşətə gəlmiş, ayaq üstündə uçunan Xavər, cavanlardan biri:

— Gedək, bacım, harada olursan?—soruşanda hönkürdü.

Cavanlar onu sakitləşdirməyə çalışdılar:

— Bacım, ağlama, neynəmək olar ki, bizim şəhərimizdə belə bişərəf cavanlar da var,—dedilər, Xavərin zənbilini götürüb birbaşa Mehriban xalanın evinə gəldilər. Onlar narahat halda qapıya çıxmış Mehriban xalaya:

— Xala, qızını təhvil al,—deyib, Mehriban xala ağzını açmağa macal tapmamış həyətdən çıxdılar.

Xavər Mehriban xalaya söykənib acı-acı ağladı, Mehriban xala onu güc-bəla sakit eləyəndən sonra Xavər başına gələnləri danışdı. Mehriban xala:

Onların cavanəzən canları yansın,—dedi, bir qədər susandan sonra əlavə etdi.—Mən də fikirləşirəm, deyirəm görəsən bu qız harada qaldı. Heç bu qədər gecikən deyildi. Qızım, sən daha bir də bazara getməzsən. Qonşunun oğlu Cəlilə deyərəm özlərinə bazarlıq eləyəndə bizə də eləyər, çox yaxşı oğlandır allah saxlamış.

Günlər keçdikcə Xavərə bağlanan Mehriban xala düz bir il onu sorğu-suala tutmadı, kimliyini, haradan olmasını soruşmadı, özünün danışmasını gözlədi. Lakin ona böyük hörmətlə yanaşan, bir sözünü iki eləməyən, həmişə qulluğunda duran, Mehriban xalanın ona çox yaxşı, mehriban münasibətindən sui-istifadə etməyə çalışmayan Xavər, öz keçmişi barəsində bir kəlmə də danışmırdı. O, Mehriban xalanın yanında bikef görünməməyə, gülüb-danışmağa böyük səy göstərsə də, çox vaxt buna, müvəffəq ola bilmirdi. Mehriban xala tanış-bilişlərə, yaxud qonşulara dəyməyə gedib qayıdanda bəzən Xavəri ağlamış görürdü. Doğrudur, Xavər bunu da Mehriban xaladan gizlətməyə çalışırdı, lakin çox vaxt cəhdləri boşa çıxırdı. Belə hallarda Mehriban xala onu sorğu-suala tutmurdu, ancaq təskinlik verməyə də söz tapmır, bir gün onun dilinin açılacağını göləyirdi.

Xavər artıq bir ildən çox idi, Mehriban xalanın yanında idi, ona ana kimi alışmışdı. Mehriban xala da Xavəri doğma qızı kimi əzizləyirdi. Bir yaz günündə Mehriban xala həyətdə, yaşıl otların üzərinə sərilmiş xalçanın üstündə oturub corab toxuyur, Xavər isə həyət-bacanı yığışdırırdı. Xavərin kefi kök idi. Yazın gözəlliyi onun qəlbini doldurmuş, ona fərəh gətirmişdi. Corab toxusa da fikri onda olan Mehriban xala Xavərin əhvalının yaxşı olmasını görüb onunla danışmaq, kimliyini soruşmaq istədi. Əlində toxuduğu corabı bir tərəfə qoyub Xavəri səslədi:

– Qızım, Xavər, neyləyirsən orada?

Xavər başını qaldırıb Mehriban xalanın ona dikilmiş səmimi baxışlarını görüb mehribanlıqla gülümsündü və dedi:

– Yır-yığış eləyirəm, Mehriban xala.

– Bir yanıma gəl, otur mənimlə.

Xavər gəlib Mehriban xala ilə üzbəüz dayandı, oturmadı. Mehriban xala ona böyük ana məhəbbətilə baxıb gülümsündü və:

– Otur, qızım, sənə sözüm var,—dedi.

Xavər oturdu. Mehriban xala onun ala gözlərinə qorxu, həyəcan dolduğunu gördü, Xavərin sifəti də dəyişdi. O bunun səbəbini başa düşdüsə də, Xavəri sorğuya tutmaq fikrindən daşınmadı. Axı o, yerin göbəyindən çıxmayıb, ata-anası varmı, varsa kimdirlər onlar, hansı şəhərdədirlər? Təbrizdə kimləri var? Bəlkə yaxın adamları var? Qoy istəsə getsin onların yanına, istəməsə həmişəlik qalsın yanında, qızı olsun onun. Bütün bunlar neçə vaxt idi ki, Mehriban xalanı məşğul, hətta narahat edirdi. Xavərlə yaxından təmasda olandan sonra onun nə qədər də yaxşı, səmimi, tərbiyəli qız olduğunu görən Mehriban xalanın Xavərin kimliyini öyrənmək, ona kömək əli uzatmaq arzusu daha da möhkəmlənirdi. Xavərlə danışmağa əlverişli vaxt axtaran Mehriban xala bu gün necə olursa-olsun, ondan söz qoparmağı qət etmişdi. Ona görə də o, Xavər əyləşən kimi dedi:

– Qızım, bu yaxınlarda iki il olacaq ki, biz səninlə bir yerdə, bir damın altında, ana-bala kimi yaşayırıq. Yəqin ki, məndən incikliyin də yoxdur.

Xavər cəld cavab verdi:

— Nə danışırsan, Mehriban xala? Sən mənə öz qızın kimi baxırsan.

Mehriban xala başını tərpətdi:

-Elədir, qızım, elədir. Sən mənə doğma qızım kimisən. Ancaq sən mənə ana kimi baxmırsan.

Xavər Mehriban xalanın nə demək istədiyini başa düşdü, fikrə getdi, lakin sualını da cavabsız buraxmadı:

— Mən səni bir ana kimi istəyirəm, Mehriban xala.

Mehriban xala məhəbbət dolu gözlərini ona qaldırıb:

— Elə isə, mənim balam, bəs niyə ürəyini deşən dərdlərini mənimlə bölüşmürsən ki, bir az yüngülləşəsən.

Xavər gülümsəməyə çalışdı:

— Şükür olsun allaha, sənin kimi ananın yanında nə dərdim ola bilər? Mən sənin yanına düşdüyümə görə allahıma gündə min dəfə şükür eləyirəm.

Mehriban xala onun dodaqlarındakı qondarma təbəssümü də, gözlərinə dolmuş kədəri, iztirabı da gördü:

— Söylə mənə, qızım, ürəyindəkiləri danış, başına gəlmiş qəzavü-qədərdən məni hali elə, bəlkə sənə kömək eləyə bildim.

Xavər Mehriban xalaya yaxınlaşıb onu qucaqladı, üz-gözün dən öpüb durdu və evə qaçdı. Bundan sonra Mehriban xala Xavərlə bu mövzuda söhbət etməməyi qət etdi.

Mehriban xala Xavəri Təbrizdən alıb Xoya gətirəndən sonra Təbriz bir neçə dəfə əldən-ələ keçdi. Teymurləngdən sonra Cəlayir əmirləri, Qara Məhəmməd, yenə başqa əmirlər, nəhayət, Qara Yusif. Keçən bu dörd ildən artıq müddətdə Mehriban xala Xavərlə onun keçmişi barəsində söhbət etməməyi qərarlaşdırsa da, onun iztirabına son qoymaq naminə bu fikrindən daşınmamış, bir neçə dəfə onunla danışmağa səy göstərmişdi, lakin səmərəsiz. Bu müddətdə Mehriban xala Xavəri artıq özünün qızı, varisi hesab edir, onu ağır işləri görməyə qoymur, əlavə qulluqçu da tutmuşdu. Xavər də Mehriban xalaya bərk bağlanmışdı. Lakin o yenə

də hərdənbir ağlayır, Mehriban xalanın ürəyini qana döndərirdi. Xavərin öz keçmişi barəsində bir söz demək istəməməsi Mehriban xalada belə bir yaqinlik yaratmışdı ki, Xavərin valideynləri, qohum-qardaşı yoxdur. Və demək onun heç bir niskili, heç bir həsrəti də yoxdur. Belə olan surətdə bəs niyə hərdən qəm dəryasında boğulur, sanki burulğana düşüb, capalayır, özü öz göz yaşlarında qərq olur? Bu sual Mehriban xala üçün bir sirr olaraq cavabsız qalırdı. Mehriban xala artıq qət etmişdi ki, qızı, varisi olan Xavəri bir oğlana ərə verəcək, onu öz evinə gətirəcək, ömrünü onlarla, onların uşaqları ilə bir yerdə başa vuracaqdır. Mehriban xalanın yanına dəfələrlə elçilər də gəlmişdi, lakin o hər dəfə onları bir bəhanə ilə yola salmışdı, çünki əvvəlcə Xavərin özü ilə bu barədə danışmaq istəyirdi, onun razılığını almaq istəyirdi.

Yaşı altmışı çoxdan keçmiş Mehriban xala bir gün yatağa düşdü. Xəstəliyi çox ağır idi. Xavər pərvanə şamın başına dolanan kimi onun başına dolandı, tez-tez artıq yaxşı tanıdığı qonşulara qaçdı, həkim çağırmaqda, dava-dərman almaqda onlardan kömək istədi. Mehriban xala huşunu tez-tez itirirdi. O, bir dəfə də gözlərini açanda Xavərlə qulluqçunu, bir də qonşu Xəlil kişini başının üstündə gördü. O, Xəlil kişiyə müraciətlə dedi:

— Xəlil, sənə zəhmət vermək istəyirəm. Mümkünsə axundun köməkçisini bizə çağır.

Xəlil kişi Mehriban xalanın sözlərinə başqa məna verib gülümsünərək dedi:

— Sənə nə olub ki, ay Mehriban, allah qoysa, tezliklə ayağa duracaqsan, axund-molla nəyinə gərəkdir?

Mehriban xala israr etdi:

— De ki, gələndə kağız-qələm də gətirsin.

Xəlil kişi Mehriban xalanın niyyətini başa düşməsə də, onun arzusuna əməl etdi, axşamüstü şəhər axundunun köməkçisini gətirdi. Mehriban xala birbaşa mətləbə keçdi;

— Görürəm, halım yaxşı deyil. Ölüm haqdır, vəsiyyət eləmək isə heç vaxt tez olmur. İstəyirəm mənim vəsiyyətnaməmi yazasan.

Axundun köməkçisi bir soz demədən kağız-qələmini götürdü.

Mehriban xala dedi:

— Yaz ki, mən Xavəri qızlığa götürürəm və bütün variyyətimi ona vəsiyyət eləyirəm.

Axundun köməkçisi yazmağa başladı, ancaq bir neçə söz yazıb əl saxladı və yanında dayanmış iki üzüörtülü qıza müraciətlə soruşdu:

— Xavər hansınızsınız?

Xavər özünü nişan verdi, axundun köməkçisi soruşdu:

— Atanın adını söylə, qızım, vəsiyyətnamədə yazmalıyam.

Mehriban xalanın gözlənilməz tədbirindən özünü itirmiş Xavər tərəddüd içində qaldı. Axundun köməkçisi ondan səs çıxmadığını görüb səsini bir qədər qaldırıb yenə soruşdu:

— Qızım, atanın ismini soruşuram.

Xavər qeyri-ixtiyari:

— Mahmud Ağa,—dedi.

Axundun köməkçisi vəsiyyətnaməni yazıb qurtardı, imzaladı, möhrünü basdı, Xavərə verdi və haqqını alıb getdi. Vəsiyyətnaməni mollanın əlindən almış Xavər onunla necə rəftar edəcəyini bilməyib, diz çökdü, onu Mehriban xalanın mütəkkəsinin altına qoydu. əyilib Mehriban xalanı öpəndə diksindi, ona elə gəldi ki, o ölüb. Xavər qışqıra-qışqıra qonşulara yüyürdü, onlar tökülüb gəldilər. Onlar Mehriban xalanın əllərini, ayaqlarını, sinəsini ovuşdurdular. Haçandan-haçana o, gözlərini açdı, hərləyib Xavərə baxdı. Xavər ağlaya-ağlaya onun üzünü, gözlərini öpüşə qərq etdi və pıçıldadı:

-Mənim varım da, yoxum da sənsən, anam, məni qoyub getmə, amandı.

Mehriban xalanın gözlərinin kənarlarında iki gilə yaş yumrulandı.

Mehriban xala vəsiyyətnaməni yazdırandan sonra düz bir ay ölümlə həyat arasında əlləşdi, Xavərin böyük səyi nəticəsində həyat ölümü üstələdi, o, sağalmağa başladı. Xavərin sevincinin hüdudu yox idi. O gedir-gəlir, Mehriban xalanı qucaqlayır, tez- tez diz çöküb zərif əllərini göyə qaldırıb.

— Şükür sənə, ey ulu tanrı, şükür ki, mənim axırıncı ümidgahımı əlimdən almadın.

Belə hallarda artıq yatağında otura bilən, lazım gələndə ayağa da qalxan Mehriban xala onun başını sinəsinə dirəyib gur, şabalıdı saçlarını sığallayırdı. Mehriban xala bu gözəl, ağıllı, mərifətli qızın həm də çox sədaqətli olmasını da görür, sevinirdi. O, sağalıb ayaq üstə durmasının birinci səbəbkarı Xavəri hesab edir, tez-tez alaha şükür edirdi ki, tanrı onu bu qoca vaxtında övladsız qoymamış, belə qızı ona ürcah etmişdir.

Mehriban xala tamam sağalandan bir müddət sonra Xavərdə yenə dəyişiklik gördü. O, bəzən saatlarla oturub fikrə gedir, dinib-danışmırdı. Bir dəfə də Mehriban xalaya yaxınlaşıb, onun yanımda oturdu. Aydın görünürdü ki, nəsə söyləmək istəyir. Mehriban xala onun qəlbini açacağını zənn etdi, lakin Xavər birdən oturduğu yerdən sıçrayıb qaçdı. Mehriban xala onun qərara gələ bilmədiyini başa düşdü. Ona görə də o, Xavəri danışdırmaq vaxtının yetişdiyini qət edib belə görüşlərdən birində soruşdu:

—Qızım, axır vaxtlar yenə çox bədbinləşmisən. Görürəm ki, mənə nəsə söyləmək istəyirsən, ancaq nədənsə çəkinirsən.

Belə bir söhbətin başlanmasını gözləyirmiş kimi Xavər Mehriban xalanın yanında oturdu, başını tərpədib dedi:

— Mehriban xala, sən nahaq yerə mənim adıma vəsiyyətnamə yazdırdın.

Mehriban xala, son zamanlar onu ana çağıran Xavərin ona Mehriban xala deyə müraciət etməsindən diksindi. Xavər sözlərini deyəndən sonra təəccüblə soruşdu:

— Niyə, ay bala?

— Mənə bala, qızım demə. Mehriban xala, mən buna layiq deyiləm.

Mehriban xalanın təəccübü heyrətlə əvəz oldu:

— Niyə, qızım? Tanrının mənə sənin kimi qız yetirməsinə gündə min dəfə şükür eləsəm, yenə azdır.

Xavər fikrini cəmləşdirmək, söyləmək istədiklərini Mehriban xalaya çatdırmaq üçün ağlamaq istəmirdi, ancaq gözlərindən istər-istəməz yaş axırdı:

— Mehriban xala, mən səndən yerdən göyə qədər razıyam. Özümü danlayıram ki, niyə bu vaxta kimi sənə deməmişəm. Mən sənə ancaq kənizliyə layiqəm.

Mehriban xala böyük mehribanlıqla:

— Qızım, sözünün canını söylə, de görüm axı sən nə günahın sahibisən ki, belə sözlər danışırsan?

Xavər pıçıltı ilə:

— Mən orada olmuşam, Mehriban xala,—dedi.

— Harada, qızım?

Xavər qızardı, başını aşağı dikib olduğu yerin adını çəkdi. Mehriban xala dik atıldı, sifəti zəfəran rəngi aldı. Xavər başını qaldırmadan davam etdi:

— Mehriban xala, and olsun bir olan Tanrıya, mən təmizəm. O ifritə arvad məni çox dilə tutdu. Ona axır sözüm bu oldu ki, özümü öldürəcəyəm. Ona görə də məni sənə satdı.

Mehriban xalanın çiynindən sanki ağır yük götürüldü. O köks dolusu nəfəs aldı, ayağa durub Xavəri qucaqladı:

— Mənim aydın arı, sudan təmiz qızım, burada nə var ki, özünə belə dərd eləmisən?

Xavər Mehriban xalanın qolları arasından çıxmağa təşəbbüs göstərmədən:

— O ifritə dedi ki, ayağının buraya dəydiyini bilən səni qapısından içəri buraxmaz. Mən isə orada bir həftədən çox oturmuşam.

Mehriban xala Xavəri qolları arasından buraxdı, çoxdan görməyibmiş kimi ona bir xeyli baxdı, yenidən qucaqladı:

— Çox qələt eləyib. Onun söylədiyi sözlər, o ifritə dediyinin caynaqlarına keçənlərə, onun dediklərini eləyənlərə aiddir,—dedi, söhbəti dəyişdi,—dur ayağa, qızım, kəniz qonşuya gedib, Yemək gətir yeyək, yoxsa acından lap birtəhər olduq.

Xavər yenə qanadlandı. O, Mehriban xalanı bərk-bərk qucaqladı, öpüşə qərq etdi və:

— İndicə gətirərəm, mənim canım anam,—dedi.

Mehriban xala ilə Xavərin bu söhbətindən bir neçə gün sonra yaxın qonşu Mehriban xalanın yanına elçiliyə gəldi, Xavəri oğluna istədi. Mehriban xalanın bu qonşuya böyük hörməti var idi və özlüyündə həmişə fikirləşərdi ki, Xavəri onların oğlu alsa, çox yaxşı olar, var-dövlətinin salim adamın əlin düşməsini yəqin edib gözlərini bu dünyaya rahat yuma bilər. Buna baxmayaraq Mehriban xala qonşuya bir cavab verə bilmədi, Xavərin rəyini öyrənməyi lazım bildi. Mehriban xala həmişə fikirləşmişdi ki, ola bilməz ki, əsir düşməmişdən qabaq arqıq yetgin qız olmuş Xavər kimi çox gözəl, həm də ağıllı bir qızı istəyən, onların arasında Xavərin də meyl göstərə bildiyn cavan olmasın. Mehriban xala Xavərin tamamilə dəyişdiyini görüb, öz keçmişini danışacağına şübhə etmirdi, ancaq ona sual da vermək istəmirdi. Elçinin gəlməsi, onu oğluna istəməsi barəsində Xavərə məlumat verməyi lazım bilən Mehriban xala dediyi ilə qızlığının dilini açacağına ümid etdi və elçi gedən kimi Xavəri səslədi:

— Qızım, bilirsən qonşu niyə gəlmişdi?—soruşdu.

Xavər çiyinlərini çəkdi. Mehriban xala gülə-gülə:

— O səni öz oğluna istəyir. Özün bilirsən ki, çox yaxşı, təmiz adamdırlar. Oğluna da söz ola bilməz, həm ağıllı, fərasətli, həm də, maşallah, boylu-buxunlu, qəşəng.

Xavər bulud kimi doldu. Mehriban xala yəqin etdi ki, Xavərin sevdiyi oğlan olub. Ancaq özünü o yerə qoymadı:

— Niyə tutuldun, qızım? Zor yoxdur, sən necə istəsən, elə də olacaq, ancaq çox yaxşı oğlandır, beləsi hər deyəndə ələ düşməz.

Xavər oğlanı çox görmüşdü. Doğrudan da çox yaxşı, mərifətli, həm də gözəl oğlan idi:

— Ana, onu tanıyıram, çox yaxşı oğlandır. Ancaq...

Mehriban xala istədi soruşsun ki, nə ancaq? Lakin susmağı, Xavərin özünün danışmasını gözləməyi üstün tutdu. Mehriban xala çağırandan bəri ayaq üstündə olan Xavər onun yanında oturdu və yavaşdan dedi:

– Ana, sən neçə dəfə keçmişimi bilmək istəmisən, hər dəfə bir bəhanə eləyib danışmamışam, qorxmuşam danışmağa. Mən sənə axırıncı dəfə söylədiklərimi də demək istəmirdim, qorxurdum, qorxurdum ki, sən mənim orada olmağımı bilib məni atasan, qovasan. Məni qızlığa götürməyin sözümü deməyə məcbur etdi. Ayrı cür eləsəydim ömrüm boyu əziyyət çəkərdim. Sən isə yenə alicənablıq göstərdin, yenə mənə qızım dedin.

Mehriban xala sağ əlini Xavərin boynuna apardı, onu özünə tərəf çəkib üzündən öpdü:

– Sən necə də gözəl insansan, ay mənim ahu qızım. Sənin heç bir günahın olmayıb, səni oraya güclə, sürüyə-sürüyə aparıblar. Sən axıra kimi namusunu qorumusan, namusunu əldən verməkdənsə ölümü üstün tutmusan. Sənin kimi gözəl, ağıllı, alicənab qıza evlənən cavan dünyanın ən xoşbəxti olacaq.

Xavər Mehriban xalaya qısındı və:

– Ana, doğru deyirsən?—soruşdu.

– Əlbəttə, qızım, lap doğru sözümdür.

Xavər yenə pıçıldadı:

– Təbrizə qayıtsam, məni istəyən oğlana həqiqəti söyləsəm, məni qəbul eləyər?

– Səni çox istəyirdi o oğlan?

– Cox, lap çox.

– Sən necə?

Xavər başını aşağı dikib titrək səslə:

– Mən də, ana,—dedi.

Mehriban xala onu bir də qucaqladı, ağladı:

– Sənə qurban olum, mənim əziz balam, beş ilə yaxındır məhəbbətini ürəyində gəzdirirsən, bir söz də demirsən.

Xavər də ağlayırdı. Mehriban xala Xavəri özündən araladı və:

—Ay qızım, Təbrizdə ata-anan da varmı?—soruşdu.

Hələ də ağlamaqda davam edən Xavər başını tərpətdi. Mehriban xala heyrət içində:

— Bunu da ona görə demirdin ki, səni zorla oraya aparıblar?

Xavər yenə başını tərpətməklə kifayətləndi, Mehriban xala gözlərini silib:

— Buna görə də evinizi, ata-ananı dilinə gətirmirdin?— soruşdu.

Xavər dinmədi. Mehriban xala ayağa durdu:

—Qızım, sabah çatdıra bilmərik, birisi gün Təbrizə yola düşürük.

Mehriban xala qonşusunun köməyilə Təbrizə gedən karvanda iki kəcavə kirələdi. Beş gündən sonra isə Xavər artıq anasının qolları arasında idi. Qızı kimi Xavərə bağlanmış Mehriban xala Həcər xanımın ikinci təklifini gözləmədən həmişəlik Təbrizdə, onlarla birlikdə qalmağa razı oldu. Sevincinin hüdudu olmayan Xavər gah anasını, gah Mehriban xalanı, gah Rəşidin anasını və bacılarını qucaqlayırdı. Xavər Əliabbas kişini də qucaqlamaqdan çəkinmədi. Onun sevinci göz yaşlarına qarışmışdı. O gülür, oynayır, ağlayırdı. Beş il sərasər göz yaşı axıtmış Həcər xanım qızını görüb bir an içində xeyli dəyişmiş, sanki cavanlaşmış, gözlərinə işıq gəlmişdi. Xavər hamıdan çox anasını qucaqlayır, hər dəfə də deyirdi:

— Sənə qurban olum, anam, səni itirib təzə ana tapmışdım, indi səni də təzədən tapdım. Gör necə xoşbəxtəm. İndi iki anam var mənim, bir böyük anam, biri də sən, sən anam.

Sevinc dəryasında üzən Xavərin gözləri daima qapıda, qulaqları səsdə idi. O, elə bilirdi ki, atası sarayda, Rəşid də haradasa onunladır. Artıq şərin qarışmasına baxmayaraq onların gəlib çıxmadıqlarını görən Xavər dözmədi, soruşdu:

— Ana, bəs babam niyə gəlib çıxmır?

Xavər təkcə atasını soruşsa da nəzərlərini Rəşidin anasına çevirdi. Həcər xanım gülə-gülə:

— Sənin ardınca Xoya gedib, qızım, Rəşid də onunladır,— dedi.

— Onlar haradan biliblər ki, mən Xoydayam?

Biz bunu çoxdan bilirdik, Sən itgin düşəndən bəri haralarda olduğunu da bilirik, hamısını bilirik. Bircə onu bilmirdik ki, Xoyda kimin yanındasan. Yəqin atanla Rəşid Xoyda car çəkdiriblər, səni tapa bilmədiklərinə görə iztirab içindədirlər.

* * *

Mahmud Ağa ilə Rəşidin Xoydan qayıtmasından dörd ay keçəndən sonra, yazın lap əvvəllərində Təbrizdə hakimiyyətdə olan Əlincə hakimi əmir Altun Xalxala getdi. Doğrudur, o öz yerinə Cəlayir əmirlərindən birini qoyub getmişdi, ancaq əmir Altun Təbrizdən bir ağaclıq məsafədə olanda, Təbrizə yiyələnmək isqəyən digər əmirlər baş qaldırdılar, ancaq onların heç biri Təbrizi tuta bilmədi, Qara Yusifin Təbrizə yaxınlaşması xəbərini alıb geri qayıtdılar. Altunun təyin etdiyi əmir də Təbrizdə qalmağa qorxdu və qaçmalı oldu.

Qara Yusif Təbrizdə müqavimətə rast gəlmədi, camaat onu qarşılamağa çıxdı. Onların arasında Mahmud Ağa ilə Rəşid də var idi. Qara Yusif Mahmud Ağa ilə mehribanlıqla görüşdü və onu saraya dəvət etdi:

– Xoydakı danışıqlarımız öz qüvvəsində qalır, elə deyilmi, Mahmud Ağa? Səni axşam sarayda gözləyirəm. Rəşidi də.

Qızı Xavərin qayıtmasından keçən qısa müddət ərzində Mahmud Ağa əməlli dəyişmiş, gümrahlaşmışdı. O, Mehriban xalanı gözləri üstündə saxlayırdı, onun bir sözünü iki etmirdi. Mahmud Ağa Mehriban xalanın Xoydakı ev-eşiyinin satılmasının əleyhinə olsa da, onun sözündən çıxa bilmədi, ancaq onu Xoya qayıtmağa qoymadı, hər işi Rəşidin köməyilə özü gördü. Mahmud Ağa Mehriban xalanın ciddi müqavimətinə baxmayaraq, həyətinin o biri başında, sahibi başqa məhəlləyə köçmüş binanı satın aldı, onu yaxşı təmir etdirdi. Mehriban xalanın zarafatla verdiyi:

– Niyə məni qızımdan ayırırsan?—sualına:

– Qızın həmişə səninlə olacaq, özü də tək deyil, Rəşidlə birlikdə,—cavabını vermişdi.

Qara Yusifin Təbrizə səfəri ərəfəsində Mahmud Ağa ilə Əliabbas kişi artıq toy hazırlığını görməkdə idilər. Onlar övladlarının səadət gününü tez görmək istəyirdilər.

Xavər evlərinə qayıdandan dörd gün sonra Xoydan geri dönmüş atasını qucaqlayıb öpüşə qərq edəndə, bir gözü kənarda dayanıb onlara baxıb gülümsünən Rəşiddə idi. Mahmud Ağa qızının da, Rəşidin də görüşə necə can atdıqlarını görürdü. Əsl duyğunun nə olduğunu bilən Mahmud Ağa sevgililərin görüşünə şərait yaratmaqdan ötrü qızını özündən aralayıb:

– Qızım, bir Rəşidlə də görüşsənə,—deyəndə, Xavər qollarını atasının boynundan çəkdi. Gülumsünməkdə davam edən Rəşid Xavərin ona döndüyünü görüb utana-utana:

– Xoş gördük, Xavər,—dedi.

Xavər cavabı Rəşidə nisbətən cürətlə verdi:

– Sən xoş gəlmisən, Rəşid.—dedi, ancaq söz tapıb davam edə bilmədi, onları əhatə eləyən atasına, anasına, Rəşidin anasına və bacısına, Əliabbas kişiyə baxıb utandı, başını aşağı dikdi. Tezliklə süfrə açıldı, hamı onun ətrafına toplaşdı. Mahmud Ağa ilə Əliabbas kişi yeyə-yeyə cavanlara Qara Yusifin Təbrizə gəlişindən sonra toy etməyi qərarlaşdırdılar.

Mahmud Ağa saraya dəvət olunarsa, bu əhdini Qara Yusifə bildirməyi fikirləşdi. Dəvəti çox gözləməli olmadı. Axşam saraya gələndə artıq böyük məclis qurulmuşdu. Qara Yusif vəzirinin yanında Mahmud Ağaya yer göstərdi. Mahmud Ağa ilə birlikdə saraya gəlmiş Rəşid minbaşıların yanında oturdu. Yeyib-içəndən, rəqqasələrin rəqsindən, sazəndələrin çalğısından, xanəndələrin oxumasından sonra məclis dağılışdı. Qara Yusif getməyə hazırlaşan Mahmud Ağanı əylədi, ətrafa göz gəzdirib soruşdu:

– Mahmud Ağa, Rəşid minbaşı səninlə gəlməmişdi?

Mahmud Ağa başını tərpətdi. Qara Yusif camaata qoşulub saraydan çıxmış Rəşidin ardınca adam göndərib onu geri qaytardı. Rəşid gəlib Mahmud Ağanın yalında dayandı. Qara Yusif ona oturmağı təklif etdi. Rəşid nəzərlərini Qara Yusifi əhatə eləyən əyan və minbaşıların üzərində gəzdirəndən sonra, əvvəl Qara Yusifə, sonra isə Mahmud Ağaya baxdı və göstərilən yerdə oturdu. Qara Yusif Mahmud Ağaya müraciətlə dedi:

— Bu gündən başlayaraq, sən mənim müdrik vəzirimlə birlikdə məsləhətçim olursan. O vəzir, sən isə baş məsləhətçi.

Mahmud Ağa ayağa durdu, əllərini sinəsində çarpazlayıb:

— Mən Təbriz taxtı ətrafında bütün Azərbaycanı birləşdirib vahid dövlət yaratmaq arzusunda olan hökmdara həmişə sədaqətlə xidmət edəcəyəm,—dedi.

Mahmud Ağanın sözləri Qara Yusnfia xoşuna gəldi, gülümsündü və üzünü Rəşidə çevirdi:

— Rəşid bəy, səni saray mühafizə dəstəsinin başçısı, qoruqçubaşı təyin eləyirəm, sənə bəy rütbəsi bəxş edirəm,—dedi.

Rəşid cəld ayağa durdu, o da Mahmud Ağa kimi əllərini döşündə çarpazladı və Qara Yusifə təşəkkür etdi:

— Sənin qulluğunda dayanmaq səadətdi, hökmdarım,—dedi.

Qara Yusif gülümsündü və dedi:

— Mənim yox, sarayın, mən həmişə sarayda bulunmayacağam.

Rəşid bir an tərəddüd keçirib dedi:

— Mən istərdim sənin qoruqçubaşın olam, hökmdar,—dedi.

Qara Yusnf yenə gülümsündü:

— Onda evdən-eşikdən aralı düşməli olacaqsan. Mən bir gün saraydayam, beş gün başqa yerdə.—Qara Yusif üzünü əyanlara, minbaşılara çevirdi,—mən Təbrizin istisində qalmaq fikrində deyiləm, bir həftədən sonra Aladağa yaylaqlanmağa gedəcəyəm.—dedi və yenə Rəşidə döndü. Rəşid yenə tərəddüd keçirdi və dedi:

— Sən harada, mən də orada, hökmdar.

Qara Yusif etiraz edib dedi ki, onun şəxsi mühafizə dəstəsinin başçısı var. Üzünü yenə əyanlara çevirdi:

—Mən Aladağa kedəndə Təbrizdə əmir Satilmişlə əmir Xəlil qalacaqlar,— dedi.

İki əyan cəld ayağa durdu. Qara Yusif əlilə onlara oturmaq işarəsi etdi.

Bir az keçəndən sonra Qara Yusif yanına toplaşanları mürəxxəs etdi, Mahmud Ağa sarayı tərk etməmişdən qabaq toy məsələsini Qara Yusifə dedi. Qara Yusif cavanlara xoşbəxtlik arzuladı, ancaq toya qalmaq barəsində bir söz demədi.

Qara Yusif Təbrizdən Aladağa gedəndən bir həftə keçməmiş, Cəlayir əmirlərinin böyük qoşunla Təbriz üzərinə gəlməsi xəbəri saraya çatdı. Əmir Xəlil özünü itirdi, əmir Satilmiş isə tez Mahmud Ağanı çağırtdırdı və məsləhət istədi. Mahmud Ağa qətiyyətlə:

— Hökmdar şəhəri sizə tapşırıb. Bu o deməkdir ki, onu qoruyub saxlamalısınız,—dedi.

Əmir Xəlil dedi:

— Biz azıq, onlar isə çox, zorumuz çatmaz.

— Biz qala içindəyik, müdafiə oluna bilərik. Tez hökmdarın yanına elçilər göndərib onu xəbərdar eləmək,kömək istəmək gərəkdir.

Qara Yusifin yanına getmiş atlılar qayıdana kimi əmir Satilmiş əmir Xəlillə birlikdə düşməni məğlub edib, geri oturda bildi. Qara Yusifin göndərdiyi üç atlıdan biri əmirlərə dedi:

— Hökmdardan kömək istəməniz onun narazılığına səbəb oldu, o söylədi ki. bir-iki əmir nədir ki, onların öhdəsindon gələ bilmirsiniz. Hökmdarın fərmanı belədir: Təbrizdə əmir Satilmiş qalsın, əmir Xəlil iSə Aladağa, onun yanına getsin.

Cəlayir əmirlərinin Təbriz üzərinə yürüşü dəf edildikdən sonra Mahmud Ağa uşaqların toyunu eləməyi qərara aldı. Əliabbas kişi ilə toy gününü də

müəyyənləşdirdi, ancaq yenə onun istədiyi kimi olmadı. O, əmir Altunun Təbriz üzərinə gəlməsi xəbərini alıb başını buladı və dedi:

— Doğru söyləyiblər atalar, sən saydığını qoy qalsın, gör fələk nə sayır.

Əliabbas kişi başını tərpədib dedi:

— Yenə şəhərdə ah-nalə ərşə ucalacaq, toyu necə eləmək olar?

Mahmud Ara saraaya gələndə əmir Satilmişi təlaş içində gördü:

— Əmir Altuna müqavimət göstərməyin xeyri olmayacaq. O zorludur, mənimsə beş-on çərim var. hökmdar hova yetmək barəsində heç fikirləşməkdə istəmir.

Mahmud Ağa soruşdu:

— Neyləmək fikrindəsən, müqavimət göstərməyəcəksən?

Əmir Satilmiş birbaşa cavab vermədi:

— Səncə neynəyək, Mahmud Ağa?

— Zorun çatmayacaqsa, şəhər camaatını qırğına verməsən yaxşıdır.

Əmir Satilmiş fikirli halda:

— Orası elədir. Ancaq hökmdar müqavimət göstərmədən şəhəri təslim eləməyi mənə bağışlamaz.

Mahmud Ağa ona cavab vermədi, əmir Satilmiş dedi:

— Bircə yolum var, onunla şəhərdən kənarda rastlaşım, vuruşum.

Mahmud Ağa etiraz etdi:

— Bu ki öz ayaqlarınla ölümə getmək deməkdir. Özün söyləyirsən ki, əmir Altun çox zorludur.

Əmir Satilmiş dinmədi. O, axşam qaranlığı düşən kimi Tabrizdən çıxdı. Ertəsi gün əmir Altun Təbrizi tutdu. Ancaq o da Təbrizdə çox qala bilmədi, şəhəri Cagirli Qara Bistamla qardaşı əmir Mənsur və əmir Calik tutdular.

Təbrizdə baş vermiş hadisələrdən xəbər tutmuş Qara Yusif Aladağda çox qala bilmədi, Təbriz üzərinə qoşun çəkdi. Qara Yusifin nəinki qoşunu, adı gələndə belə canına qorxu düşən əmir Bistamla qardaşı əmir Mənsur, həmçinin əmir Calik onun şəhərə yaxınlaşmasını eşidən kimi qaçdılar, Qara Yusif müqaviməqə rast gəlmədən Təbrizə girdi.

Qara Yusif keçən dəfəkindən fərqli olaraq bu dəfə sarayda məclis düzəltmədi, axşama yaxın minbaşıları, əmirləri yanına çağırdı. Mahmud Ağa da Qara Yusifin hüzurunda idi. Rəşid də sarayın qoruqçubaşısı kimi tez-tez taxt salonuna girməli olurdu. Qara Yusifin əhvalı yaxşı deyildi. O, zəif işıqlandırılmış sarayda həndəvərində oturanları çoxdan görməyibmiş kimi bir-bir gözdən keçirib dedi:

— Biz zorluyuq. Bir-birilə düşmən olan Cəlayir əmirlərinin öhdəsindən asanlıqla gələ bilirik. Sultan Əhməd də bir o qədər zorlu deyil. Mərhum babamın vəsiyyətinə əməl etməkdən ötrü çox gözəl imkan yaranmışdır, amma...—Qara Yusif danışığına ara verdi, saqqalını adəti üzrə ovcuna yığdı. Onun əsəbi olduğunu sezmək asan idi. Qara Yusif sözunə davam etdi,—ancaq hələlik bu işi görə bilmayəcəyik. Nə qədər ki, əmir Teymur var, bunu eləyə bilməyəcəyik, zorumuz çatmaz.

Minbaşılardan biri dilləndi:

– O ki buralardan gedib. Deyirlər Şirvanşah Şeyx İbrahimlə birlikdə Toxtamış xanın üstünə getməyə hazırlaşır.

Qara Yusif onunla razı olduğunu bildirmək üçün başını tərpətdi və dedi:

– Sözlərin düzdür, əmir. Ancaq aldığım xəbərə görə, o söyləyib ki, Toxtamış xanı əzişdirəndən sonra birbaşa bu tərəflərə gələcək. O, sultan Əhmədi qovub Bağdadı ələ keçirmək, bir də ki, məni özünə tabe eləmək istəyir,—Qara Yusif danışığına yenə ara verdi, saqqalını dartışdıra-dartışdıra pıçıldadı— o bunu heç vaxt görməyəcək.—Sözünü dəyişib,—hələlik bu qışı buradayam, yenkidə baxarıq,—deyib üzünü Mahmud Ağaya çevirdi. Gülümsündü:—Mahmud Ağa, Rəşid bəyin toyunu elədin?

Mahmud Ağa başını buladı:

– İstəyirdik, ancaq əvvəl əmir Altun, sonra Cagirli Bistamla qardaşı və müttəfiqləri gəldilər Təbrizə. Təbrizin əldən- ələ keçdiyi bir vaxtda toy eləmayə imkan olmadı.

Qara Yusif gülə-gülə:

– Lap yaxşı olub, bir yerdə eləyərik,—dedi və soruşdu,— hacan eləmək fikrindəsən, Mahmud Ağa?

Mahmud Ağa tərəddüdlə:

– Sən haçan buyursan, hökmdar. Mən də hazıram, Rəşidin atası da.

Qara Yusif Mahmud Ağanın sözlərinə düzəliş etdi:

– Rəşid yox, Mahmud Ağa, Rəşid bəy.

Mahmud Ağa gülümsünməklə kifayətləndi. Qara Yusif taxtından qalxdı, hamı ayağa durdu:

– Gecədən keçib, dincələk,—dedi, üzünü Mahmud Ağaya çevirdi:

– Mahmud Ağa, deyirlər şənbə günü başlanan iş həmişə uğurlu olub, toyu şənbəyə qoy.

Mahmud Ağa iki kəlmə:

– Baş üstə,—dedi.

Toya hələ dörd gün qalırdı. Təbrizdə bu il yayın ilk ayları o qədər də isti keçmirdi. Havalar toy üçün əlverişli idi. Toya hazırlıq işləri hələ keçən ay başa çatmışdı. Buna baxmayaraq görüləsi iş də qalırdı. Qara Yusifin, onun məiyyətinin toya gələcəyi gözlənilmirdi. İndi onun da toya gələcəyini gözləyən ev sahibləri onun təhlükəsizliyini təmin etməli idilər. Buna görə də Mahmud Ağa əvvəl-əvvəl hakmdarın onun təklifini qəbul etməsinə sevinmədi. Axı onun həyatı ücün məsuliyyət daşımaq lazım gələcəkdi. Bir də onun peşmançılığının başqa, daha tutarlı səbəbi də var idi. Təkcə Qara Yusifin təhlükəsizliyi məsələsi olsaydı, bunun öhdəsindən gəlmək olardı. Birincisi, onun öz qoruqçu dəstəsi var idi, sarayın qoruqcubaşısı Rəşid də öz dəstəsini gətirəcəkdi. Mahmud Ağa ona görə peşman idi ki, Qara Yusifin toya gəlişi məhəllə adamlarının xeyli hissəsinin toyda iştirakına mane olacaqdı. Buna baxmayaraq, Mahmud Ağa bilirdi ki, Qara Yusiflə bərabər, çox küman ki, onun özü də sarayda müəyyən mövqeyə malikdir və buna görə də saray adamlarının da toya gələcəyi gözlənilirdi. Bütün bu böyük dəstəni yerləşdirmək gərək idi.

Bütün bunları nəzərə alan Mahmud Ağa toya üç gün qalmış böyük bir mağar qurdurdu, toya iki gün qalmış isə həyətdə qoyun sürüsü, bir neçə kisə düyü, bir neçə tay un yığıldı. Elə həmin gün mağarın yaxınlığında ocaq yerləri hazırlandı. Toya bir gün qalmış isə həyətdə iş görməklə məşğul olan o qədər qadın toplaşmışdı ki, tərpənməyə yer yox idi.

Şənbə günü, axşamçağı mağar adamla doldu. Çalan kim, oxuyan kim, oynayan kim. Qara Yusif böyük dəstə ilə toya gəldi, mağarın yuxarı başında onun üçün, onunla gələn əmirlər üçün ayrılmış yerdə oturdu. Mağarda yemək verilmirdi, toya gələnlər əvvəl yemək üçün ayrılmış başqa mağara dəvət edilir, yeyib-içəndən sonra toy mağarına keçirdilər. Qaraqoyunlularda qadınlar kişilərdən yaşınmadıqlarından, Qara Yusifin məiyyətinə qadınlar da daxil idilər. Onlar minbaşıların, əmirlərin arvadları və qızları idilər. Qara Yusif də, onunla gələnlər də yeməkdən imtina etdilər, xanəndələrin oxumasına da o qədər də əhəmiyyət vermədilər. Təbriz cavanlarının rəqs etməsi onlara xüsusi ləzzət verdi. Rəqs etməyi çox sevən Qara Yusif də cavanlara qoşuldu, heç də onlardan geri qalmayan çevikliklə rəqs etdi. Qara Yusiflə gəlmiş minbaşılardan və əmirlərdən də oynayanlar oldu.

Toy gecədən xeyli keçənə kimi davam etdi. Adətə görə kişi toyunun ertəsi günü gəlin bəy evinə köçürülürdü. Mahmud Ağa qızını Mehriban xalanın evinə köçürdü. Burada onun ulduzu Rəşidin ulduzu ilə birləşdi.

* * *

Necə gün idi ki, Qara Yusif fikirli idi. Saray əyanları şən, qətiyyətli görməyə adət etdikləri hökmdarlarının nədən belə dəyişdiyini başa düşürdülər. Qara Yusif özü də vəzirindən, məsləhətçisi Mahmud Ağadan, digər yaxın adamlarından narahatlığının səbəbini gizlətmirdi. Doğrudur, o hələ onların heç biri ilə açıq danışmamışdı, lakin vəzir ilə, Mahmud Ağa ilə söhbətlərində tez-tez əmir Teymurun Təbrizə gəlmək istədiyi barədə fikrini söyləmişdi. Əvvəllər Qara Yusif Teymurləngin Toxtamış xanın üzərinə yürüşə hazırlaşdığını bildiyindən belə

hesab edirdi ki, o, tezliklə bu tərəflərə üz çevirməyəcəkdir. Ancaq kəşfiyyatçıların gətirdikləri xəbərlərdən aydın olurdu ki, Teymurləng Qara Yusifin fikirləşdiyi kimi birbaşa Qızıl Orda üzərinə yürüş etmək fikrində deyildir. Qara Yusifin tutduğu mövqe, Təbrizi alması, Azərbaycan taxtına yiyələnmək cəhdi Teymurləngi qıcıqlandırdığından o, əvvəlcə ağıllı və onun üçün çox təhlükəli düşmən olan Qara Yusifi aradan götürmək istəyirdi.

Qara Yusif Teymurləngin bu məqsədindən bir neçə gün əvvəl xəbər tutmuşdu və son günlər fikirli olmasının da səbəbi bu idi. Qara Yusif özlüyündə əmir Teymur yaxınlaşan kimi Təbrizi tərk etməyi qərarlaşdırmışdı. O, qüvvələri əlverişli şərait yetişənə kimi qoruyub saxlamağı, atasının vəsiyyətini yerinə yetirmək, qarşısına qoyduğu məqsədinə nail olmaq üçün əsas şərt hesab edirdi. Bunun üçün isə hələlik Teymurlənglə üz-üzə gəlməmək məsləhət idi. Qara Yusif bütün bunları götür-qoy edir, eyni zamanda özünə təskinlik də verə bilirdi. Qara Yusif fikirləşirdi ki, dünya hansı cahangirə qalıb ki, əmir Teymura da qalsın, keci-tezi onun da qüvvələri parcalanacaqdır. Qara Yusif əmin idi ki, Teymurləngin məğlubedilməz qoşunu üzərində yalnız onun vəfatından sonra qələbə çalmaq olar. Çünki onun oğlanlarından heç biri ataları kimi güclü sərkərdə deyil, həm də onların hec biri o birinin atalarının yerini tutmasına razı olmayacaqdır, demək onlar öz aralarında boğuşacaqlar. Bu isə qüvvələrin parçalanması deməkdir. Bax onda öz qüvvələrini qoruyub saxlaya bilən Qara Yusif məqsədinə nail ola biləcəkdir.

Bununla belə Qara Yusifi yaranmış vəziyyət də çox narahat edirdi. O fikirləşirdi ki, Təbriz camaatı hazırda ümidini ona bağlayıb. İndi o yığışıb Qəbrizdən gedərsə, şəhər camaatını müdafiəsiz qoyarsa təbrizlilər buna necə baxacaq? Qara Yusif Teymurləngin hücumuna məruz qalacaq Təbriz camaatının taleyinə acıyır, həm də öz gələcəyini düşünürdü. İndi onun şəhərdən çıxıb getməsini, camaatı başsız qoyub Teymurləng qoşunlarının qırğınına verməsini Təbriz əhli düşmən qabağından qaçmaq kimi qiymətləndirərsə, məqsədə yetməyinə imkan düşən zaman, Təbriz taxtına yiyələndiyi vaxt ona necə

münasibət bəsləyəcəkdir? Bir qərara gələ bilməyən Qara Yusif vəzirlə, Mahmud Ağa ilə, əyanlarla və minbaşılarla məsləhətləşmək üçün onları Novruz bayramına iki gün qalmış yanına çağırdı və fikirləşdiklərinin hamısını danışdı. Əslində o, dinləyicilərinə yeni bir söz demədi, onsuz da hacı qabaqcadan söhbətin nədən gedəcəyini bilirdi. Ancaq onlardan heç biri Qara Yusifi Təbriz camaatına belə böyük qiymət verməsini, neçə-neçə ildən sonra, Təbriz taxtına sahib ola biləcəyi təqdirdə camaatın onun indiki hərəkətini necə qiymətləndirəcəyindən narahat ola biləcəyini ağlına da gətirmirdi. Qara Yusifin sözləri onu əhatə eləyən əmirlərə, əyanlara, xüsusən Mahmud Ağaya çox yaxşı təsir bağışladı. Qara Yusif yanındakılarla gələcək barədə düşüncələrini bölüşmədi, bunu heç lazım da bilmədi. O, söhbətini:

– İndi mənə məsləhət verin. Mən Təbrizdən necə gedim ki, Təbriz camaatı bunu qaçmaq kimi qiymətləndirməsin?—sözlərilə bitirdi.

Birinci sözü vəzir dedi:

– Hökmdar, sənin məlumatın dəqiqdirmi? Axı hələ payızda məlum olmuşdu ki, əmir Teymur birbaşa Toxtamış xanın üstünə getmək fikrindədir, xəbəri də kəşfiyyatçılarımız gətirmişdilər. İndi də onlar bu xəbərimi gətiriblər?

Qara Yusif qətiyyətlə:

– Keçən müddətdə əmir Teymur fikrini dəyişib, onun Təbriz üzərinə gəlməsi şübhəsizdir.

Vəzir davam etdi:

– Hansı tərəfə getmək fikrindəsən, hökmdar?

Qara Yusif bu barədə çoxdan fikirləşmişdi, odur ki, düşünmədən cavab verdi:

– Muşa gedəcəyik. Vəzir başını buladı:

– Teymurləngin əli çox uzundur, ora da çatar.

— Elədir, onun əli uzundur, ancaq o yerlərin sahibləri də qabaqlarından yeyən deyillər, hər halda əmir Teymurun qabağına çıxarlar.

Vəzir bir qədər fikirləşdi və davam etdi:

— Demək sənin Muşa getmək fikrin qətidir, əmir Teymurla savaşa girməyəcəksən.

Qara Yusif razılıq əlaməti olaraq başını tərpətdi, vəzir davam etdi:

— Onda sənin təkcə bir çıxış yolun qalır: Təbriz camaatına elan eləyəsən ki, keçən dəfə olduğu kimi, yenə Aladağa gedirsən, şəhərdə hakim əmir Satilmiş qalır.

Qara Yusif gülümsündü, əmir Sat;lmiş qalxdı:

— Nə olar, Lan yaxşı fikirdir. Əmir Teymur Təbrizə yaxınlaşanda mən qaçaram, camaat da gələcəkdə hökmdarımızı onları qoyub qaçmaqda təqsirləndirməz, günah düşər mənim boynuma.

Əmir Satilmişin sözlərindəki kinayə hamıya çatdı. Qara Yusif buna əhəmiyyət verməyib taxtından qalxdı:

— Vəzirin məsləhəti yaxşıdır,elə də edəcəyik. Novruz bayramından sonra Təbrizdən gedəcəyik.

* * *

Qarabağda qışlamağa qalıb Toxtamış xanın üzərinə yürüşə hazırlaşan əmir Teymur qəti qərara gələ bilmirdi. O, Qara Yusifi mütləq aradan götürmək istəyirdi, ancaq bu işi daha güclü və təhlükəli düşmən saydığı Toxtamış xanı məğlubiyyətə uğradıb qayıdandan sonra görmək istəyirdi. Ancaq hələlik çox da böyük qüvvə təmsil etməyən Qara Yusifin onun Toxtamış xanın üzərinə yürüşü zamanı vaxt qazanıb daha da güclənə biləcəyindən, Toxtamış xan kimi böyük təhlükəyə çevrilə biləcəyindən qorxurdu. Bütün qışı tərəddüd içində boğulan Teymurləng yalnız yaz girəndən sonra qəti bir fikrə gələ bildi və Təbriz üzərinə yeridi. Teymurləngin gəlişindən xəbər tutmuş əmir Satilmiş Təbrizdən qaçmağa tələsdi. Teymurləng Təbriz tərəfə dönməyi lazım bilməyib Bağdad üzərinə getdi. Sultan Əhməd Cəlayir də Bağdaddan qaçdı. Teymurləng Bağdada girdi və saraya gələn kimi vəzirinə dedi:

– Mosula, Erbilə elçi göndər, qoy onların əmirləri öz xoşlarilə təslim olsunlar.

Vəzir baş üstə deməyə macal tapmamış Teymurləng davam etdi:

– Muşa elçi göndər, barat da göndər, qoy Qara Yusif saraya gəlsin.

Vəzir bu dəfə baş üstə deməyə macal tapdı. O, Teymurləngin sözünü hələ deyib qurtarmadığını, indicə davam edəcəyini bilirdi. Ancaq Teymurləngin susması bu dəfə nisbətən uzun çəkdi:

– Vəzir, o haramzada Bağdad darvazalarının kandarından içəri ayaq qoymamalıdır.

Vəzir ehtiyatla:

– Bəs onu harada dustaq eləyək?—soruşdu.

– Onu dustaq eləmək kimə gərəkdir?

– Bəs onda neyləyək? Buyurdun ki, Bağdada buraxma. Bəs çoxlu hədiyyələrlə gəlsə necə?

Teymurləng ona tərs-tərs baxdı. Vəzir döyükdü:

– Deyirsən dustaq eləməyək. Bəs onda neynəyək, geri qaytaraq?
Elə isə bəs onu niyə çağıraq buraya?

Teymurləng əsəbini boğa bilmədi:

– Vəzir, axı sən mənim sözlərimi adətən tez başa düşürdün, bu gün sənə nəolub? Yoxsa gecəni pis yatmısan?

Vəzir gülümsünməyə çalışdı:

—Böyük Sahibqran, başını gətirim, yoxsa o da gərək deyil?

— Teymurləng üzünü yana çevirib xırıldadı:

—Gərək deyil.

—Bəs Mosul və Erbil hakimlərini necə eləyim?

– Nəyə layiq olsalar, elə də hərəkət elə.

Teymurləngl ə bu söhbətindən bir həftə sonra axşamçağı vəzir Sahibqranın yanına gəldi:

—Böyük Sahibqran. Mosul hakimi Berdi Xoca öz oğlu Yarəli ilə Erbil əmiri Şeyx Əli böyük baratla gəliblər, əmrə müntəzirdirlər, mütiliklərini bildirməkdən ötrü sənin görüşünə müntəzir dayanıblar.

Teymurləng vəzirinə baxıb gülümsündü və:

– Deyirsən gəliblər?—soruşdu, qıçını çəkə-çəkə taxtına sarı getdi, başını tərpədib onları qəbul etməyə hazır olduğunu bildirdi, sol əli ilə sağ qolunu ovuşdurmağa başladı. Berdi Xoca, Yarəli və Şeyx Əli içəri girib Teymurləngin taxtının önündə üz üstə qapandılar. Teymurləng onlara qalxmağa icazə verdi. Əmirlər qalxdılar, ancaq Sahibqran onlara oturmağı təklif etmədi və dedi:

– Sizə aman verirəm. Gedin, öz əmirliklərinizə başçılıq eləyin, sədaqətinizi sübuta yetirin, ikinci dəfə sizləri buraya çağırmalı olsam, bir də öz yerlərinizi görməyəcəksiniz.

Əmirlər əllərini sinələrində çarpazlayıb əmir Teymurun qarşısında ikiqat oldular və dal-dalı yeriyib taxt salonundan çıxdılar. Teymurləng vəzirinə döndü:

– Qara Yusiflə qurtardınmı?

Vəzir ehtiyatla dilləndi:

– Gəlmədi, hökmdar. xəbər göndərib ki, kefsizdir.

Teymurləng əsəbi halda taxtından durdu:

– Yaxşı, nə olar ki, o gəlmədi, mən gedərəm, gedib onun o Muş vilayətinin daşını daş üstündə qoymaram. And olsun atamın ərvahına, heç südəmər uşaqlara da aman verməyəcəyəm.

Teymurləng sözlərini deyəndən sonra bir qədər sakitləşdi, qıcını çəkə-çəkə taxtına sarı gəldi, oturdu və dedi:

– Vəzir, Mosul əmirinə söylə ki, bir həftədən sonra Mosula gəlib, oradan Mərdinə gedəcəyəm.

Vəzir cəld qalxdı, baş üstə deyib getdi.

Mosul hakimi Berdi Xoca əmir Teymuru təntənə ilə qarşıladı. O, oğlu və əyanlarla birlikdə Mosuldan xeyli aralıda düşərgə salmış Teymurləngin yanına gəldi, onu Mosula gətirdi. Onun əmrilə bütün Mosul camaatı küçələrə çıxmışdı.

Teymurləng Mosul hakiminin onun şərəfinə düzəltdiyi böyük ziyafət qurtarandan sonra vəzirinə dedi:

— Mosulda çox əylənmək fikrində deyiləm, biz sabah Mərdinə yola düşürük. Oradan Qara Yusifin üstünə gedəcəyik.

Vəzir etiraz etdi:

— Sən boyda hökmdara bir soy başçısının dalınca düşmək yaramaz, Sahibqran. Əmirlərdən birinin başçılığı altında qoşun göndər, başını gətirsin.

Teymurləng bir qədər fikirləşdi və:

—Yaxşı, qoy sən deyən kimi olsun. Bürhanoğlunun başçılığı altında qoşun göndərərik,—dedi.

Vəzir soruşdu:

— Böyük Sahibqran, Mərdindən haraya getmək fikrindəsən? Axı qarşımızda cox böyük səfər durur—Toxtamış xanın üzə- rinə ketmək istəyirsən.

— Elədir, vəzir, elədir. Biz bu yerlərdə cox qala bilmərik. Yəqin əmir Şeyx İbrahim bizim yolumuzu gözləyir. Biz Van gölünə sarı irəliləyib, Ərzurumdan keçərək Gürcüstana gedərik. Abxaz çarı Gürcü yenə baş qaldırıb. Onun burnunu ovandan sonra Şirvana, oradan isə Dəmir qapı Dərbənddən keçib Qızıl Ordaya, Toxtamış xanın üstünə gedərik.

Teymurləng Bağdaddan çıxanda Qara Yusifin kəşfiyyatçıları Muşa gəldilər və Sahibqranın Qara Yusifin üzərinə Bürhanoğlunun başçılığı altında qoşun göndərməsini xəbər verdilər. Qara Yusif Teymurləngin hansı yollarla gələcəyini xəyalından keçirib qardaşı Misir Xocanın Ərzurumdakı Əvnik qalasının da təhlükə qarşısında olduğunu başa düşdü, onu xəbərdar etmək üçün Əvnik qalasına çapar göndərdi. Yayın lap qızğın vaxtında Teymurləngin qoşunları Mərdinə gəldi. Teymurləng Bürhanoğlunu buradan Qara Yusifin üstünə göndərdi. Qara Yusif Bürhanoğlunun qoşunlarını geri oturtdu və qardaşı Misir Xocaya kömək etmək üçün Əvnik qalasına qoşun göndərdi.

Bürhanoğlunun Qara Yusifin öhdəsindən gələ bilməməsindən dilxor olmuş əmir Teymur yolunu Əvnik qalasından salmağı qərara alıb hücuma bilavasitə

özü başçılıq edəcəyini bildirdi. Lakin qoşunlar qalaya çatandan sonra qızğın başla qəbul etiiyi qərarını dəyişdirib, hücuma başlamazdan qabaq Misir Xocaya təslim olmağı təklif etdi. Bir-birinin içində iki qaladan ibarət olan Əvnik qalasının möhkəmliynnə və qala müdafiəçilərinin müqavimət göstərə biləcəklərinə əmin olan Misir Xoca əmir Teymurun təklifini rədd etdi. Misir Xocanın bu hərəkəti Teymurləngi lap haldan çıxardı, qoşunun bütün əmirlərini yanına çağırdı. Əmirlər yığılan kimi iri bir ağacın kölgəsində oturub özünü qızmar günəşdən qoruyan Teymurləng ayağa durdu, qıçını çəkə-çəkə bir-iki addım irəli yeriyib sağ əlini qaldıraraq qalaya tuşladı və:

— Bu qala günü bu gün alınmalıdır,—qışqırdı.

Əmirlər Əvnik qalasının həndəvərinə nəyə görə gəlmələrini bilirdilər, hücum əmrini gözləyirdilər. Ancaq onlara gün kimi aydın idi ki, Əvnik kimi möhkəm qalanı belə tez, bir-iki gün içində almaq mümkün deyildir. Onların bir çoxu hələ də mühasirədə olan Əlincə qalasına hücumda iştirak etmişdi və qala fəth etməyin nə qədər ağır olduğundan xəbərdar idi. Buna baxmayaraq, əmirlərin heç biri etiraz etmədi. Ona görə yox ki, onunla razı idilər. Ona görə ki, əmir Teymura etiraz etmək olmazdı, Teymurləng buna cürət edənlərin başını sığallamırdı.

Qalaya birinci hücum heç bir nəticə vermədi, nərdivançılar heç qala hasarlarına yaxın dura bilmədilər. Onlar qaladan yağdırılan ox yağışının altına duşüb geri çəkilməli oldular. Teymur qalaya ikinci dəfə hücum etmək əmrini vermədi. Günəş artıq qüruba əyilmişdi və o, əmirlərilə çərilərini geri çəkib, əmirlərin çadırına çağırdı. Qoşun başçıları əmir Teymurun çadırına gələndə hava artıq qaralmışdı. Çadırın içərisi boğanaq olduğundan Sahibqran əmirləri çadırının yanındakı iri gövdəli qarağacın altına yığdı və sözə onları danlamaqla başladı. Qoşun başçıları Sahibqranın danlağını həmişə olduğu kimi sükutla qarşıladılar, onun əsas sözünü deməsini gözlədilər. Onlara aydın idi ki, Sahibqranın onları çağırmaqda məqsədi təkcə danlamaq deyildir. Teymurləng fövqəladə hallarda əmirlərini çağırıb danlayardı və belə hallarda bugünku kimi sakit, təmkinlə danışmazdı. Bu gün elə

bir fövqəladə hadisə baş verməmişdi. Teymurləng kimi təcrübəli bir sərkərdəyə, verdiyi əmrə baxmayaraq, tamamilə aydın idi ki. Əznik kimi möhkəm bir qalanı birinci həmlədə almaq mümkün deyildir. Əmirlərin onun əsl mətləbə keçməsinə müntəzir olduqlarını hiss edən Teymurləng dedi:

— Əvnik möhkəm qaladır, Misir Xocanın camaatı da belə görünür ki, az deyil, oxu lap yağış kimi yağdırırlar.

Bayaqdan onları danlayan əmir Teymurun gözlənilmədən belə bir fikir söyləməsi onu dinləyənlərin təəccübünə səbəb oldu və əmirlərdən biri cürətləndi:

— Deyirlər, qardaşı Qara Yusif ona kömək göndərib.

Teymurləngin bundan xəbəri var idi və bu barədə söz eşitmək onun heç də ürəyindən deyildi. O, həmin əmirə tərs-tərs baxdı. Ancaq qaranlıq olduğundan əmir nə onun baxışlarını, nə də o baxışlardakı qəzəbi gördü. Teymurləng də baxışının boşa getdiyini başa düşüb səsinin ahəngini dəyişərək narazı halda:

— Yaxşı, kim göndərib, nə göndərib bunun bizdən ötrü heç bir əhəmiyyəti yoxdur. Bir şey aydındır ki, qalada müdafiəçi çoxdur.

Teymurləngin sözünün qabağına söz qoyan olmadı. Teymurləng sol əli ilə sağ qolunu ovuşdura-ovuşdura davam etdi:

— Belə görünür ki, mancanaqları işə salmaq da mümkün olmayacaq. Məsafə uzaqdır, mancanaqlarla atdığımız daşların çoxu qalanın içinə düşməyəcək, mancanaqları ox mənzilindən qabağa aparmaq da müşgül işdir. Nərdivançılarımız da, bayaq gördünüz ki, ox mənzilindən irəli gedə bilmədilər. Bizim bircə çarəmiz qalır...

Teymurləng sözünə ara verdi, bir xeyli susdu. Onun sükutu o qədər uzun çəkdi ki, hövsələsiz əmirlərdən bəzisi az qaldı ki, «Nədir o çarə?», deyə soruşsun, ancaq ehtiyat etdi. Nəhayət, Teymurləng davam etdi:

— Biz Əvnik qalasına ancaq gecə qaranlığından istifadə eləyib hücum eləyə bilərik.

Qoşun başçılarına, əmirlərə, minbaşılara məlum idi ki, əmir Teymur nəinki gecələr, heç axşamlar belə müharibə eləməyi xoşlamır. Buna görə də onun sözləri

hamıda çaşqınlıq yaratdı. Teymurləng qaranlıqda əmirlərin sifətini görməsə də, onların təəccüb içində onu dinlədiklərini bilib davam etdi:

— Hə, gecə. Oxatanlar gecə qaranlığında bir iş görə bilməzlər. Qalaya yaxınlaşan kimi mancanaqları işə salıb qala divarlarını bəzi yerlərdə uçura bilərik. Nərdivançılardan da istifadə etməyə imkanımız olar.

Teymurləng yenə sözünə ara verdi və:

—Bu hücumda bizim bir müttəfiqimiz də ola bilər. Çox güman ki, Misir Xoca gecənin sakit keçəcəyinə arxayın olacaq. Bu o deməkdir ki, qala müdafiəçilərinin əksəriyyəti yuxuda ola bilər,—dedi, bir az sözünə ara verdi və əlavə etdi:—Gedin, səhər açılana bir az qalmış, yuxunun ən şirin vaxtında qalaya həmlə edəcəyik, əmrimi gözləyin.

Teymurləng ağıllı, uzaqgörən sərkərdə olsa da. Misir Xoca barəsində düz fikirləşməmişdi. Teymurləngin qoşunlarının birinci həmləsnin dəf etmiş Misir Xoca şər qarışmamış qoşun başçılarını yığıb gülə-gülə dedi:

— Teymurləng kimi bir əjdahanın qoşunlarının birinci həmləsini dəf eləyə bildik, tanrının köməyilə o birn həmlələrinin də öhdəsindən gələrik. Ancaq arxayın ola bilmərik. Teymurləng gündüz qalaya yaxın düşə bilmədiyini gördü, odur ki, elə bu gecə həmləsini təkrar eləyə bilər.

Misir Xocanın sözlərinə qoşun başçıları şərik olduqlarını bildirdilər, ancaq əleyhdarları da oldu. Minbaşılardan biri:

— Misir Xoca, əmnr Teymurun gecələr hücuma keçməsi olmayıb,—dedi.

Misir Xoca qoşun başçılarını gözdən keçirib daha heç kimin danışmaq istəmədiyini gördü və dedi:

— Əvvələn, bizim heç birimiz Teymurləngin hansı qalaya gündüz, hansına gecələr hücuma keçməsini bilmirik. Bir də qardaşım Qara Yusif göndərdiyi qoşunun başçısı mənə onun dilindən söyləyib ki, Teymurləng Əvnik qalasına gecə hücum eləyə bilər. Görünür qardaşım nəsə bilir ki, belə bir xəbər göndərib.

Misir Xoca sözünü itirib Qara Yusifin göndərdiyi minbaşıya baxdı. Hamının nəzərlərn ona çevrildi. O, Misir Xocanın sözlərini təsdiq edirmiş kimi başını tərpətdi. Misir Xoca sözünü deyib qurtarmağa tələsdi:

– Gedin, bürclərin üstünə nöyüt tuluqlarını, küplərini yığın, çoxlu təzək, cındır tədarük eləyin. Çərilərinizə tapşırın ki, hənirti eşidən kimi başçılarına xəbər versinlər, siz də təzəklərin, cındırların nöyütə batırılıb yandırılaraq qaladan kənara atılmasına əmr verin ki, onun işığında Teymurləngin çərilərini oxa bassınlar, Ancaq çəriləriniz səhəri dirigözlü açmasınlar, yatıb dincəlsinlər, keşikçilərin sayını birə-üç artırın, özü də tez-tez dəyişin ki, bütün çərilər dincələ bilsinlər. Keşikçilərə çox ayıq olmağı tapşırın, hənirti eşidən kimi müdafiəçiləri qaldırsınlar.

Misir Xoca qoşun başçılarını azad edib uzandı, lakin nə qədər çalışdısa da yata bilmədi. Teymurləngin qoşunlarının hər an hücuma kecə biləcəyini gözlədiyindən səksəkə içində olması onu yatmağa qoymurdu. O, balaca bir səs eşidən kimi yatağından sıçrayır, qapını açıb baxır, qayıdıb yenə uzanırdı. Beləliklə yatağında neçə dəfə qalxıyb uzanmışdı. Sonuncu dəfə səs eşidəndə bunun yenə aldadıcı olduğunu zənn edib yatağından qalxmadı, azca da olsa gözlərinin açısını almaq istədi. Ancaq bu dəfə aldanmamışdı, Birdən qapı döyüldü və arxasından həyəcanlı səs eşidildi:

– Misir Xoca, əmir Teymurun çəriləri hücuma keçiblər...

O, yatağından hövlnak qalxdı, tələsik evdən çıxıb birbaşa yaxınlıqda olan bürcün üstünə gəldi.

1394-cü il temmuz ayının 31-i idi. Havanın işıqlanmasına xeyli qalmışdı. Üfüq də hələ seçilmirdi. Buna baxmayaraq bürkü idi. Yarpaq belə tərpənmirdi. Sanki hər şey havadan sallanıb qalmışdı. Bürcün üstündə dayanıb gözlərini qaranlığa zilləmiş Misir Xocanı tər aparmışdı. Həyəcan, qorxu, isti— hamısı bir-birinə qarışmışdı. Misir Xocanın ürəyinə dammışdı ki, bu dəfə əmir Teymurun hücumunun qarşısını ala bilməyəcəkdir. Lakin o, səhv eləyirdi.

Qalaya hücum eləyən qoşunlar çox ehtiyatla, səs salmadan irəliləməyə çalışsalar da keşikçilər onları görmüş və müdafiəçiləri qaldırmışdılar. Müdafnəçilər artıq hasarların və bürclərin üstündə öz yerlərini tutmuş, əmrə müntəzir dayanmışdılar. Misir Xoca isə əmr verməyi gecikdirirdi. O, Teymurləngin qoşunlarını ox mənzilinə yaxın məsafəyə buraxandan sonra neft hopdurulmuş təzək və əsgini yandırıb atmaq, onun işığında düşmən qoşunlarını qəflətən ox atəşinə tutmaq fikrində idi. Ancaq qaranlıqda qoşunun qala hasarlarından hansı məsafədə olmasını müəyyənləşdirmək çətin idi. Misir Xoca bunu qoşun nəfərlərinin ayaq səsi, hənirtisi ilə müəyyən etməyə çalışırdı. Nəhayət, qala müdafiəçilərinin gözlədiyi an yetişdi, Misir Xocanın səsi eşidildi:

— Nöyütlü əskiləri, təzəkləri yandırıb atın.

Bir anın içində qalanın ətrafı gündüz kimi işıqlandı. Qala müdafiəçilərini yatmış zənn edib arxayınlıqla irəliləyən çərilər şaşırdılar. Qaladan tüstü kimi yağan oxlar isə öz işini gördü. Minbaşıların və yüzbaşıların cidd-cəhdinə baxmayaraq əsgərlər vahimə içində geri qaçmağa başladılar. Döyüş meydanında yüzlərlə meyid qaldı. Yaralıların isə sayı-hesabı yox idi.

Artıq səhər açılmış, üzündə əlcim boyda da olsa bulud olmayan göyə dartınan günəş üfüqdən xeyli aralanmış, onun telləri Teymurləngin ağ çadırının üzərində oynamağa başlamışdı. Teymurləng qoşunlarının az-az belə məğlubiyyətə uğradığı hallarda çox qəzəbli olurdu, lakin bu səfər nədənsə belə deyildi. Teymurləngin iri çadırında əmrə müntəzir dayanmış əmirlər, minbaşılar Sahibqranın hirsli olmadığına sevinsələr də onun qıçını çəkə-çəkə çadırında var-gəl eləməsini tufanqabağı sakitlik kimi qiymətləndirib həyəcan keçirir, indicə göylər kimi gurlayacağından qorxurdular. Ancaq onların fikirləşdiyi kimi olmadı. Teymurləng bütün səfərlərində özü ilə daşıdığı taxtında əyləşdi, əvvəl sağ qolunu, sonra isə şikəst qıçını dizdən yuxarı övkələdi, kürən saqqalına əl gəzdirdi, sərt baxışlarını əmirlərin üzərində fırladıb xırıldadı:

— Afərnn Misir Xocaya. Belə bir sərkərdə, çəribaşı kimliyindən—dost, yaxud yağı olmasından asılı olmayaraq, hörmətə və tərifə layiqdir.

Teymurləngin taxtına oturması ilə ayağa qalxması bir oldu. Hamı durdu, əmir Teymur əlinin işarəsi ilə onllrı oturtdu, var- gəl eləməyə başladı, yenə çadıra sükut çökdü. Teymurləng qəflətən çadırın lap ortasında dayandı və dedi:

– Düşməni zəif, hərif hesab eləyənlərin özləri bizim kimi axmaq vəziyyətə düşürlər. Sizin heç birinizin ağlına gəlmədi ki, Misir Xoca gecə hücumuna qarşı tədbir görə bilər.

Sahibqran «sizin» sözünü çox yavaşdan, güclə eşidilə biləcək səslə dedi. Axı bu əmr onun öz əmri idi. Teymurləng bunu çox yaxşı başa düşürdü. Lakin bir sərkərdə kimi heç hesab etdiyi Misir Xocanın qarşısında məğlubiyyəti özünə sığışdıra bilmirdi, bu onu əsəbiləşdirirdi. Teymurləng birdən dəyişdi, keçib taxtında oturdu. Qoşun başçıları bunu sezdilər, indica coşacağını gözləyib özlərini yığışdırdılar. Teymurləng birdən qışqırdı:

—Nə oturmusunuz burada?! Durun rədd olun! Gedin, nə eləyirsiniz eləyin, ancaq qala bu gün alınmalıdır.

Qoşun başçıları qalxdılar, ancaq heç kim yerindən tərpənmədi, çıxışa sarı getmədi. Sahibqranın əmri onlara aydın deyildi. Onlardan biri, Teymurləngi bütün səfərlərində müşayiət etmiş qoca əmir dilləndi:

– Böyük Sahibqran, fərmayişin aydın olmadı. Qoşunları indi, hazırlıqsız hücuma aparmaq, onları boş yerə qırğına vermək deyilmidir?

Teymurləng əsəbi halda, düşünülməmiş əmr verdiyini başa düşdü. O, başını qaldırmadan:

– Gedin fikirləşin, günortaya kimi fikirləşin, tədbir görün, günortadan sonra hamınız burada olun. Sabah sübhdən qalaya hücum eləyib onu almalıyıq.

Əmirlər dərindən köks ötürüb Teymurləngin çadırını tərk etdilər və deyilən vaxtda yenə onun yanına yığışdılar. Teymurləng bu dəfə onları xürrəm qarşıladı, səhərki hirsindən əsər- əlamət də qalmamışdı. O, əmirlərə oturmağı təklif edib:

– hə, söyləyin görüm nə fikirləşmisiniz? Qalanı sabah səhər ala biləcəyikmi?—soruşdu.

Əmirlərdən səs çıxmadı, Sahibqran özündən razı halda gülümsündü. Qoşun başçılarının nəzərləri onun üzündə idi. Onların çoxu Teymurləngin səfərlərinin əksəriyyətində iştirak etmiş, onu acıqlı da, mülayim də görmüşdü. Ancaq heç biri Teymurləngi indiki kimi görməmişdi. Bu gün onun dodaqları qəribə bir təbəssümlə əyilmişdi. Gözləri isə həmişəki kimn qorxunc idi. Teymurləng üzündəki ifadəni dəyişmədən:

– Nə oldu, bir söz söyləmək istəyən yoxdur?—soruşdu.

Yenə qoca əmir dilləndi:

– Böyük Sahibqran, biz sənin fərmayişlərinə əməl eləməyə, tökdüyün tədbirləri eşitməyə adət eləmişik. Sənin kimi böyük Sahibqranın ağlına gəlməyən şey biz miskinlərin yox ağlına haradan gələ bilər?

Qoca sərkərdə Teymurləngin dodaqlarındakı təbəssümdən onun tədbirinin hazır olmasını duyduğundan, bəzi fikir irəli sürmək arzusunda olan əmirlərin danışıb, Sahibqranı haldan çıxarmaması üçün belə deməyə məcbur idi. Qoca əmir yaxşı bilirdi ki, əmirlərdən ağıllı bir söz söyləyən, ürəyəyatan tədbir irəli sürən olsa da Sahibqranın və tədbiri olduğundan hirslənəcək, hamının dünyasını burıundan tökəcəkdir.

Qoca əmirin sözləri Teymurləngə öz təsnrini göstərdi. O, saqqalını və bığlarını sığallaya-sığallaya dedi:

– Yaxşı, o Misir Xoca ibn Məhəmməd olsun, mən də əmir Teymur. Günü sabah görər ki, onun başına nə oyun acacağam. Bir ona baxın, siz allah, görün kim özünü mənə qarşı qoyur?—Teymurləng yenə sol əlilə sağ qolunu ovuşdura-ovuşdura,—burada çox əylənə bilmərik. İndi günortadır, yay günü uzundur. Qoy çəriləriniz yaxınlıqda olan ağacları qırıb budaqlarından özlərinə sipər düzəltsinlər. Bu işi axşama kimi qurtarmaq lazımdır. Sabah sübhdən hücuma keçəndə sipərləri irəli verib qalaya yaxınlaşaraq mancanaqları işə salın. Qoy Misir Xoca nə qədər istəyir ox yağdırsın. Oxların hamısı ya sipərlərə sancılacaq, ya da onlara toxunub yerə düşəcək.

Teymurləng özündən razı halda taxtından durdu və:

– Aydın oldu?—deyə soruşdu.

Teymurlənglə eyni vaxtda ayağa durmuş əmirlər bir ağızdan:

– Aydındır, böyük Sahibqran,—dedilər.

Qoca sərkərdə Teymurləngi tərifləməyi lazım bildi:

– Həmişə olduğu kimi, yenə sən, ulu Sahibqran, böyük çəribaşı olduğunu göstərdin.

Sahibqranın dodaqlarındakı təbəssüm yavaş-yavaş əriyib yox oldu. O daha bir söz deməyib əmirləri azad etdi.

...Teymurləngin qoşunlarını şilküt eləyəndən sonra Misir Xoca səhər açılan kimi məğlubiyyəti özünə sığışdıra bilməyəcək əmir Teymurun var qüvvəsi ilə qala üzərinə hücuma keçəcəyini fikirləşdi və qala müdafiəçilərinə hücumu dəf etməyə hazır olmağı tapşırdı. Dan yeri sökülməyə başlayanda o, bürcə qalxıb gözlərini əmir Teymurun alaqaranlıqda ağaran çadırına zillədi. Misir Xoca orada bir hərəkət görmədi. Hava tezliklə tamamilə işıqlaşdı, üfüqdə günəş göründü. Misir Xoca gözlərini dünən baş vermiş döyüş meydanına çevirdi. Burada Teymurləngin əsgərləri qorxa-qorxa, ətraflarına boylana-boylana ölüləri və yaralıları yığırdılar. Qala müdafiəçiləri onları oxa baxmaq istədilər, ancaq Misir Xoca icazə vermədi:

– Qoyun aparıb basdırsındar. Yoxsa bir azdan günəş ətrafı qızdırar və axşama yaxın ətrafı üfunət basar. Yəqin bir azdan hücum başlanacaq, oxlarınızı ona saxlayın.

Misir Xoca xeyli gözlədi, ancaq hücum olmadı. O, yüzbaşılardan birini çağırdı;

— Çərilərinizə yemək verin, növbə ilə verin. Nəzarəti bir an da olsun zəiflətməyin. Bir şey görsəniz, mənə tez xəbər göndərin,—deyib evə getdi, səhər yeməyindən sonra uzandı. Misir Xoca bütün gecəni yatmadığından uzanan kimi yuxuya getdi. O, yalnız günortadan sonra qan-tər içində yuxudan ayıldı. İstidən nəfəs almaq mümkün deyildi. Misir Xoca yüzbaşılardan birini çağırıb, Teymurləngin qoşunu barədə məlumat alandan sonar əl-üzünü yuyub nahara

oturdu. Günəş qüruba əyilməyə başlayanda o bürcün üstünə gəldi. Qalanı əhatə eləyən meşədən yaxınlıqdakı meyvə bağlarından balta səsi eşitmiş Misir Xoca yanındakı minbaşıya dedi:

– Deyəsən meşələri, bağları doğrayırlar. Bu istidə odun onların nəyinə gərəkdir görəsən?—dedi.

Minbaşı çiyinlərini çəkib dedi:

– Mənə də bu qəribə gəldi, günortadan bir az keçmiş başlayıblar qırmağa. Görəsən ağac onların nəyinə gərəkdir ki, meşələrlə kifayətlənməyib o gözəllikdə olan bağları qırıb tökürlər?

Misir Xoca bir xeyli fikirləşib dedi:

– İndi mənə agah oldu ki, əmir Teymur səhərdən niyə hücuma keçməyib. Teymurləng işini yaxşı bilən çəribaşıdır. Bağları, meşələri qırdırması da aydındır. Daha bizim oxlarımız onun çərilərinə qarşı bir iş görə bilməyəcək. Sabah bizdən ötrü çox ağır gün olacaq.

Ertəsi gün dan yeri sökülməmiş Misir Xoca bürcün üstünə gəldi. O, əmir Teymurun qoşunlarını sübhdən hücuma aparmaq şakərindən xəbərdar idi. Həqiqətən də Misir Xocanın gözlədiyi kimi oldu. Hava işıqlanmağa başlayan kimi o, Teymurləngin qoşunlarının qala üzərinə yeridiyini gördü. Çərilərin hər birinin əlində ağac budaqlarından hörülmuş qalxanaoxşar adam boyu sipər var idi. Misir Xoca düşmən üzərinə ox yağdırmağın əhəmiyyətsiz olacağını görsə də, qala müdafiəçilərinə ox atmaq əmri verdi. Ttılan oxlar Teymurləngin əsgərlərin xətər yetirmədi. Onlar irəliləməkdə davam edirdilər. Misir Xoca minbaşıları və yüzbaşıları yanına çağırdı:

– Müqavimətin heç bir əhəmiyyəti olmayacaq, çərilərimizi iç qalaya keçirməyə hazırlıq görün. Teymurləng qoşunları qoçbaşıları işə salıb birinci qalanın hasarlarını uçuran kimi, cəld ikinci, iç qalaya çəkilib orada müdafiə olunacağıq. Dış qaladakı camaatı—arvad-uşağı indidən iç qalaya köçürdün,—dedi.

Yüzbaşılardan biri dedi:

– Misir Xoca, əgər biz iç qalaya köçəcəyiksə nəyi gözləyirik, indidən niyə köçmürük?

Misir Xoca ona tərs-tərs baxdı:

– Biz axıra kimi vuruşub sonuncu imkana kimi nərdivançılara hasarlara qalxmağa mane olacağıq. Və yalnız düşmənə böyük tələfat verib, bu qalada qalmaq ümidini itirəndən sonra iç qalaya çəkiləcəyik.

Qala müdafiəçiləri günortaya kimi müqavimət göstərə bildilər. Teymurləngin qoşunları xeyli itgi hesabına qala hasarlarını bir neçə yerdən uçurub şəhərə doluşa bildilər. Misir Xoca iç qalaya çəkilmək əmri verdi.

Teymurləngin qoşunları dış qalını viranəyə çevirdilər. Minbaşıların əmrilə tezliklə dış qalaya mancanaqlar gətirib iç qalaya daş yağdırmağa başladılar. İri daşlar ara vermədən iç qalaya düşür, evləri dağıdır, camaata, əsgərlərə böyük xətər yetirirdi. Vəziyyəti ağır görən qala naibi Misir Xocaya dedi:

– Belə getsə, bu gün olmasa da, sabah qala daşla dolacaq. Nə eləmək fikrindəsən?

Misir Xoca ümidsiz halda:

– Bircə çarəmiz qalır—təslim olmaq.

Teymurləng qaş qaralanda qalaya daş yağdırmağı dayandırmağı əmr etdi və dedi:

– Qoy səhər açılana kimi fikirləşsin o Misir Xoca, görək o böyük çəribaşı nə fikirləşəcək?—Teymurləngin səsindəki kinayəni hiss etmək üçün deyildi. O davam etdi:—Ağlı hələ başındadırsa, sabah hüzuruma gələr.

Teymurləng səhv etməmişdi, ancaq bircə fərqi onda idi ki, Misir Xoca özü gəlməmiş, hədiyyələrlə oğlunu və qala naibini göndərmişdi. Teymurləng əvvəl onları qəbul etmək istəmədi, ancaq tezliklə bu fikrindən döndü. O, elçilərlə Misir Xoca üçün kəmər və xələt göndərməyi, onu hüzuruna gağırmağı əmr etdi.

Misir Xoca əmir Teymurun göndərdiyi hədiyyələri yaxşı əlamət kimi qəbul etdi:

— Görünür, əmir Teymur məni əfv edir, o, elçilərə də toxunmadı, mənə qiymətli barat da göndərib,—dedi, ancaq çox keçmədi ki, birdən-birə dəyişdi, canına qorxu düşdü:—Yox, Teymurləng hiyləgər adamdır, yəqin mənə kələk gəlir. O, müqavimət göstərənləri heç vaxt bağışlamır.

Teymurləng Misir Xocanı günortaya kimi gözlədi. O, darıxmamaq üçün bir necə əmirini yanına çağırmışdı. Misir Xocaya xəbər göndərəndən sonra özünü sakit aparır, hətta gülümsünürdü. Lakin Misir Xocanın elçilərinin geriyə dönməsindən keçən vaxt uzandıqca o dəyişirdi. Nəhayət, Teymurləng tamamilə susdu, çadıra elə sükut çökdü ki, sanki burada bir kimsə yox idi.

Günortaya yaxın isə o, əsəbiləşməyə başladı və birdən coşdu:

—Bir buna baxın, siz allah, günorta da oldu, ancaq gəlib çıxmadı Qara Məhəmmədin oğlu.

Qoca əmir dilləndi:

— Sahibqran, belə görünür ki, o gəlməyəcək.

Teymurləng taxtından durdu:

— Ziyanı yoxdur, mən onu gətirdərəm. Gedin mancanaqlarınızı işə salın, onun o iç qalasını daşla doldurun, görək ondan sonra neynəyəcək mənim sərkərdə sandığım Misir Xoca.

Əvnək qalasına sözün əsl mənasında daş yağışı yağmağa başladı. Qalada elə vahimə yarandı ki, Misir Xoca ağ bayraq aldırmağı əmr etdi. O, oğlunu, minbaşıları, bir neçə başqa əyanı və qala naibini yanına çağırdı:

— Bizim yeganə çarəmiz qalır. Mən boynuma kəfən salıb əlimə yalın qılınc göturərək əmir. Teymurun hüzuruna gedib aman istəyəcəyəm. Başqa yol yoxdur, onsuz da kəndir boğazımızdadır, bəlkə bu yolla əmir Teymuru yumşalda bildim.

Misir Xoca ağ bayraq qaldırandan sonra mancanaqları saxladılar. Hamı nəzərlərini qala hasarlarının başına dikdi.Tezliklə Misir Xoca, ardınca oğlu və naib, həmçinin bir neçə əyan boynu kəfənli, yalın qılınclı qala darvazalarından çıxıb, qalaya hücuma başçılıq edən əmir Məhəmməd Sultanın yanına gəldilər. Məhəmməd Sultan onları dış qaladan bir qədər aralıda qurulmuş Sahibqranın

çadırına gətirdi. Teymurləng Misir Xocanı və onun müşayiətçilərini çadırından bayırda qarşıladı. Əsirləri onun hüzura gəldiyi zamanlar olduğu kimi bu dəfə də təşəxxüsünü gizlətmədi, öz üstünlüyünü nümayiş etdirməkdən çəkinmədi. O, gizildəyən sağ əlini belinə qoymuş şikəst qıcını qarşısındakı götüyün üstünə qoyub dayanmışdı. Misir Xoca ilə müşayiətçilərn onunla bərabərləşən kimi üzü üstə qapanıb qılınclarını başları üzərinə qaldırdılar. Misir Xoca dedi:

– Vöyük Sahibqran, bir qələtdir eləmişik, bu qılınc, bu da bizim boynumuz.

Teymurləng Misir Xocanın ağ bayraq qaldırması, boynuna kəfən salıb onun hüzuruna gəlməsi xəbərini alan kimi onu bağışlamağı qət etmişdi. Əslində Misir Xoca onun gecə hücumunu dəf etdikdən sonra o, döyüşün nə vaxt və necə qurtarmasından asılı olmayaraq onu öldürmayib, Səmərqəndə, paytaxtına göndərməyi qərarlaşdırmışdı. Və indi Misir Xocanı qarşısında üzü üstə qapanmış görüb onun düşdüyü vəziyyətdən həzz alır, ayağa qaldırmağa tələsmirdi. Nəhayət, o dilləndi:

– Yaxşı, qalxın..

Teymurləng onları bir-bir gözdən keçirir, dinmirdi. Misir Xoca nəzərlərilə Teymurləngin baxışlarını tutmaq, onun qərarını gözlərindən oxumaq istədi. Ancaq onun bu cəhdindən bir şey çıxmadı. Ona elə gəldi ki, Sahibqranın heç nə ifadə etməyən gözləri şüşədəndir. Misir Xocanın şübhələr içində vurnuxduğunu görən Teymurləng dilləndi:

— Keçirəm gunahlarınızdan.

Ölümlə həyat arasında çarpışan Misir Xocanın da, onun müşayiətçilərinin də gözlərində ümid qığılcımı parladı. Teymurləng rəngi özünə gəlmiş Misir Xocaya dedi:

–Mənə müqavimət göstərənləri heç vaxt bağışlamıram, ancaq səni bağışladım. Hec bilirsən niyə?

Misir Xoca ayrı bir söz tapmayıb:

– Sən adilsən, böyük Sahibqran,—dedi.

Teymurləng istehza ilə gülümsündü:

– Adiləm, söylədin? Qəribə sözdür bu söz: adilsən. Yox, səni gecə döyüşünü udduğuna görə bağışlamışam.—Teymurləng bir qədər susandan sonra davam etdi:

– Bu gecə vuruşuna qabaqca hazırlaşmışdın, yoxsa bu bir təsadüf idi:

Misir Xoca ehtiyatla: .

– Qabaqcadan fikirləşmişdim, hazırlaşmışdım, böyük Sahibqran, qardaşım Qara Yusifin məsləhətilə.

Teymurləng yenə gülümsündü:

– Deyirəm axı, Qara Məhəmmədin təkcə bir oğlu ona çəkib, o da qardaşın Qara Yusifdir.—O, yenə sözünə bir qədər ara verdi:—Qardaşın səni ikinci dəfə ölümdən qurtarır. Buna üçüncü dəfə ehtiyac qalmasın deyə səni Səmərqəndə göndərirəm.—dedi, dönüb çadırına girdi. Sonra əmirləri içəri çağırdı və üzünü onlardan birinə tutub:

– Əvnik qalasını sənə verirəm, əmir Atlamış,dedi.— Daha vaxt itirmək olmaz, Gürcüyə qulaqburması verib Toxtamışın üstünə ggedirik.

* * *

Qardaşının məğlub edilməsi, Əvnik qalasını Teymurləngin əmir Atlamışa verməsi, Sahibqranın Gürcüstanı talan edib Şirvanşah əmir İbrahimlə birlikdə Toxtamış xanın üzərinə getməsi xəbərini almış Qara Yusif yenə fəaliyyətə başladı. Uzaqgörən adam olan Qara Yusif Teymurləngin Toxtamış xanı məğlub edib, yenə bu yerlərə gələ biləcəyi fikrini başından çıxarda bilmirdi. Bununla bərabər Qara Yusif Toxtamış xanın Qızıl Ordasında əmnr Teymurun başına bir iş gələ bilməsinə də ümid bəsləyirdi. Bir də onun kəşfiyyatçıları Teymurləngin Hindistana da yürüşü hazırlaşdığını xəbər gətirmişdilər. Odur ki, Qara Yusif bu qısa müddət ərzində özünə müttəfiqlər də tapmaq, onlarla birləşmək fikrinə düşdü. Doğrudur, o, müttəfiqlərə o qədər də bel bağlamırdı, onların çoxu zəif

əmirlər, kiçik vilayətlərin başçıları idilər. Qara Yusifi ən çox maraqlandıran sultan Əhməd Cəlayir idi. O, güclü idi, Azəbaycanın, Bağdad da daxil olmaqla İraqın böyük hissəsi onun tabeliyində idi. Qara Yusif Osmanlıların sultanı İldırım Bəyazidə də belə bağlayırdı. O da Teymurləngin güclü olmasından narahat idi.

Qara Yusif payızın çoxdan girdiyini, qışa az qaldığını nəzərə almayıb Van gölü ətrafına gəldi. Teymurləng bu yerlərə əmir İzzəddin Şiri hakim təyin etmişdi. Qara Yusif ondan təslim olmağı tələb etdi. Öz hakimiyyətindən əl çəkmək fikrində olmayan əmir İzzəddin Şir Qara Yusifi döyüş meydanına çağırdı. Lakin döyüş başlanan kimi əmir İzzəddin Şir səhvə yol verdiyini başa düşdü və barışıq təklif etdi. Qara Yusif bu təklifi qəbul edib onu öz çadırına çağırdı, barışıq münasibətilə ziyafət verdi. Ziyafətdə əmir İzzəddin Şirin qoşunlarının bir neçə əmiri də iştirak edirdi. Ziyafətin qızğın vaxtında Qara Yusifin qoruqçubaşısı içəri girib onun qulağına əyildi:

— İndicə xəbər gətirdilər ki, əmir Teymurun Əvnik hakimi təyin elədiyi əmir Atlamış öz qoşunu ilə əmir İzzəddin Şirin köməyinə gəlir.

Kefi kök, yeyib-içmiş Qara Yusif sağ əlinin kəfəsilə qoruqçubaşının ağzını qulağından kənar etdi, yanında əyləşmiş əmir İzzəddin Şirə döndü və gülə-gülə dedi:

— Eşitdin qoruqçubaşı nə söylədi?

İzzədin Şir, əlbəttə, qoruqçubaşının Qara Yusifin qulağına dediklərini eşitməmişdi. Gülümsünüb dedi:

— Qulaqlarım çox iti olsa da, pıçıltı ilə özgə qulağına deyilmiş sözləri eşitmək qabiliyyətindən məhrumam.

Qara Yusif gülümsünməkdə davam edib dedi:

— Belə görünür ki, mənimlə barışıq eləməyə tələsmisən, əmir. Qardaşım Misir Xocanın Əvnik qalasına şərik çıxmış əmir Atlamış sənin köməyinə gəlirmiş.

Əmir İzzəddin Şir daxilən barışığa peşman oldusa da, bunu büruzə verməməyə çalışdı.

—Yox, sənin söylədiyin kimi deyil, Qara Yusif. Mən peşmanlıq keçirmirəm və həmişə səninlə olacağam.

Qara Yusif əmir İzzəddin Şirin riyakarlığını hiss etdi, ancaq bunu üzə vurmadı:

– Mən sənə inanıram, ancaq sən həqiqətən də həmişə mənimlə olmaq istədi yini sübuta yetirməlisən, bunu əmir Atlamış ilə təkbətək döyüşdə eləyə bilərsən.

İzzədin Şir yaxa qurtarmaq üçün:

– Atlamış mənimlə təkbətək döyüşə girməyə layiq əmir deyil,—dedi.

Qara Yusif daha bu barədə söhbəti davam etdirməyi lazım bilmədi. Ertəsi gün əmir Atlamışın Ercis ovlağında olmasını öyrənib onun üzərinə getdi və asanlıqla məğlubiyyətə uğratdı.

Qara Yusif artıq əvvəlki zorunu bərpa edə bilmişdi. O, tezliklə əmir Teymura tabe olmuş əmnsi oğlu Yarəlinin hakimiyyəti altında olan Mosulu da ələ keçirdi, artıq boya-başa çatmış kiçik qardaşı Yarəlini Mosul hakimi təyin etdi. Böyük bir ərazini öz hakimiyyəti altında birləşdirmiş Qara Yusif artıq qarşısına qoyduğu məqsədə yetişmək, Təbriz taxtına yiyələnmək, Azərbaycan hökmdarı olmaq arzusunu həyata keçirmək vaxtının çatdığını zənn edib, yaxın adamlarını başına yığaraq məsləhət istədi. Həmişə olduğu kimi bu dəfə də Qara Yusifi bütün səfərlərində müşayiət eləyən, ondan heç vaxt ayrılmayan vəzirinin daima güləş sifəti ciddiləşdi. O dedi:

– Sən ölçüb-biçməmiş söz söyləyən deyilsən. Ancaq deyəsən bu dəfə nəzərə almamısan ki, əmir Teymurun dəli oğlu Miranşah Təbrizdə oturub, özü də sənin üstünə gəlməyə hazırlaşır. O biri yandan da Topal Teymur Hindistanı qarət edib geri qayıdır, yəqin ki, üzünü yenə bu tərəflərə çevirəcəkdir.

Qara Yusif təəccüblə:

– Vəzir, bəs bütün bunları bilə-bilə niyə mənə xəbər verməmisən?—soruşdu.

Vəzir gümrah sifəti, iti gözləri ilə tam əkslik təşkil edən ağappaq saqqalını və şələ bığlarını sığallayıb dedi:

– Hökmdar, bu xəbəri indicə gətiriblər. Sən bizi yanına çağıranda qapıda kəşfiyyatçı başçısı ilə rastlaşdım. Kəşfiyyatçıların gətirdikləri xəbərə görə əmir Teymur yenə Bağdadı tutmaq, sultan Əhmədi oradan uzaqlaşdırmaq fikrindədir.

Vəzirin sözləri Qara Yusifin kefini pozdu. O, fikrə getdi və gecdən-gec pıçıldadı:

– Bəli, deməek yenə gzləməli olacağıq. Nə qədər çəkəcək görəsən bu gözləmək?

Vəzir sualın ona verildiyini zənn edib:

– Nə qədər ki, Teymurləng var, bu mümkün olmayacaq. Hələ ki, onun qarşısında dura biləcək qüvvə yoxdur. —Vəzir sözlərini deyib Qara Yusifə baxdı, onun dinmədiyini görüb davam etdi,—zorunu qoruyub mühafiyə eləməkdən ötrü, çərilərini hələlik Mosulda cəmləşdirsən yaxşıdır. Mosul Teymurləngin çərilərinin yolunun üstündə deyil.

Qara Yusif etiraz etmədi:

– Yaxşı məsləhətdir, qüvvələrimizi qardaşım Yarəlinin Mosul vilayətinə yığıb səbrlə gözləyək.

Qara Yusif dediyi kimi etdi, Mosulda əyləşib səbrlə gözləməyə başladı. Lakin o boş oturmur, Teymurləngin bütün hərəkətlərini izləyirdi. Qara Yusifin kəşfiyyatı çox yaxşı fəaliyyət göstərirdi. Qara Yusif artıq bilirdi ki, Temurləng əmir Rüsləmin başçılığı altında Bağdada, sultan Əhmədin üstünə qoşun göndərib. Saray adamlarından şübhəyə düşmüş sultan Əhməd müqavimət göstərməkdənsə, düşmənlə döyüşə girməkdənsə, ətrafındakı əmir-əyanı qırıb-tökməyi üstün tutmuş, sonra isə Bağdaddan qaçmışdır. Qara Yusifin onun hara qaçmasından xəbəri yox idi, kəşfiyyatçılar bu barədə xəbər gətirməmişdilər. Lakin tezliklə Qara Yusif bunu da öyrənə bildi. Bir yay axşamı ovdan qayıdandan sonra vəzir ona bildirdi ki, sultan Əhməd artıq üç gündür ki, buradadır, ondan sığnaq istəyir. Qara Yusif vəzirinə cavab vermədi, gülümsunməklə kifayətlənib ondan aralandı və:

— Vəzir, ovdan oonra çox yorğunam, inşallah sabah günortaçağı görüşüb danışarıq bu barədə,—dedi.

Ertəsi gün Qara Yusif vəzirinə təyin etdiyi vaxtda qardaşı Yarəli ilə birlikdə saraya gələndə vəziri və əyanları orada gördü. Qara Yusif sultan Əhmədi onların arasında görməyib soruşdu:

— Vəzir, bəs sultan Əhməd haradadır?

Vəzir təəccübləndi və dedi:

— Sultanı onun üçün ayırdığın evdə yerləşdirmişəm, fikirləşdim ki, sən gələndən sonra çağırarıq.

Qara Yusif gülümsündü:

— Deyirsən sultandır? Elə isə taxt-tacı hanı?

Vəzir Qara Yusifin sözlərindən və hərəkətindən narazı qaldı. O hesab edirdi ki, Qara Yusif sultanı gözlətməməli, onunla hələ dünən görüşməli idi. Vəzir sultan Əhmədi Qara Yusifin Təbriz taxtına yiyələnməsi üçün ən yaxşı müttəfiq hesab edirdi. Drğrudur, vəzir, gözü Təbriz taxtında olan sultan Əhmədi bu taxtdan imtina etdirməyin çətin olacağını da fikirləşmişdi. Bununla belə o hesab edirdi ki, sultan Əhməd bir müttəfiq kimi öz borcunu yerinə yetirdikdən sonra Təbriz taxtını xoşla və yaxud zorla onun əlindən almaq olacaqdı. Vəzir, sultan Əhmədin öz ayağı ilə Qara Yusifin yanına gəlməsini gələcək müttəfiqlik üçün möhkəm bünavrə hesab edirdi. Hərcənd Qara Yusif demişkən, sultan Əhməd taxtsız-tacsız sultandır, lakin bunun o qədər də əhəmiyyəti yoxdur. O, əmin idi ki, Teymurləngin qoşunları Bağdaddan çəkilən kimi sultan Əhməd yenə də Bağdad taxtına əyləşəcəkdir. Bütün bunları fikirləşən vəzir Qara Yusifdən sultan Əhmədi ehtiramla qarşılamağı xahiş etdi va sultan Əhmədin ardınca yollandı.

Qara Yusif vəzirə dediyi zarafatyana sözlərə baxmayaraq sultan Əhmədi padşaha layiq hörmətlə qarşılamaq fikrində idi. O da vəziri kimi fikirləşir, sultan Əhmədin şəxsində özünün müttəfiqini görürdü. Dünən onunla görüşməməsinin səbəbi, həqiqətən də yorğunluğu ilə bağlı idi. Vəzirlə sultan Əhmədin gəlməsi

Qara Yusifi xəyaldan ayırdı. O, cəld ayağa durub qapıdan içəri girmiş sultan Əhmədi qarşıladı, onu qucaqladı və:

— Sən xoş gəlib, səfa gətirmnsən. Çox düz iş tutmusan, sultan. Bərkə düşəndə ən yaxşı arxa qardaş olur, məni özünə qardaş hesab elə,—deyib onun qoluna girdi, gətirib yanında saldırdığı döşəkdə əyləşdirdi.

Qara Yusifin sözləri vəziri narahatlıqdan qurtardı, o gülümsünüb razı halda gur saqqalına və şələ bığlarına sığal verdi. Sultan Əhməd Qara Yusifə öz minnətdarlığın bildirdi:

— Sənə qonaq gəlmişəm. Elə zənn eləyirəm ki, döşək çürüdən qonaqlardan olmayacağam. Əmir Rüstəm Bağdadda çox qalmaz. Teymurləng nədənsə bu yerlərdə çox qalmağı xoşlamır.

Qara Yusif onunla razılaşmadı:

— Teymurləng Bağdadı boş yerə tutmayıb. Sən doğru deyirsən ki, Teymurləngin əmiri Rüstəm Bağdadda çox qalmayacaq. Ancaq ona görə yox ki, o, Bağdaddan əl çəkmək fikrindədir. Xeyr, əsla. Əmir Teymur bütün Azərbaycanı, İraqı və bir çox başqa torpaqları oğlu Miranşaha verib. Bizim xoşbəxtliyimizdən Miranşah ağılda, sərkərdəlikdə əmir Teymurun heç dırnağı da deyil. Buna görə də əmir Rüstəm Bağdaddan gedəndən sonra onu almaq olar, bu o qədər də çətin olmayacaqdır.—Qara Yusif sözlərinin təsirini yoxlamaq üçün sultan Əhmədi diqqətlə süzüb davam etdi,—özü də sən təklikdə bu işin öhdəsindən gələ bilməzsən. Görünür heç qoşunun da yoxdur.

Sultan Əhməd Qara Yusiflə, xüsusən onun son sözlərilə tamamilə razı idi. Hətta Qara Yusifdən bu sözləri eşitdiyinə sevindi də. Axı Qara Yusifin yanına gəlişindən başlıca məqsədi təkcə onun qonaqpərəstliyindən istifadə etmək deyil, onun köməyilə yenidən Bağdad taxtına yiyələnmək idi. Sultan Əhməd Bağdaddan qaçan gündən bu barədə fikirləşmiş və onu Bağdad taxtında oturda biləcək yeganə qüvvə Qara Yusifi hesab etmişdi. Ona görə də sultan Əhməd Qara Yusifin dedikləri ilə razı olduğunu bildirməyə tələsdi:

— Sən lap düz söylədin, qardaşım.

Qara Yusif qımışdı. Sultan Əhməd ona qardaş deyə müraciət etməsindən xoşhal oldu. Vəzir də sultan Əhmədin sözlərindən xeyli razı qaldı. Sultan Əhməd davam etdi:

– Mən Bağdaddan, saraydan qaçandan sonra, sənin yanına gəlməmişdən qabaq Bağdad yaxınlığında bir kənddə bir həftədən çox gizlənməli oldum. Oradan sənin yanına yola düşəndə Rüstəmin Bağdaddan getməyə hazırlaşdığını eşitdim. Onda söylədilər ki, o, Bağdadda ən çoxu on-on beş gün qalmaq fikrindədir. Mən sənin zoruna arxalandığım üçün yanına gəlmişəm,

Sultan Əhməd gah Qara Yusifə, gah da vəzirin üzünə baxır, onların rəyini gözlərindən oxumaq istəyirdi. Öz fikrini gizlətməyə çalışmayan Qara Yusiflə vəzirin onun sözlərini razılıqla qarşılamalarına sevindi, təşəkkürünü bildirmək istəyirdi ki, duruxdu. O belə fikirləşirdi ki, yəqin Qara Yusif Bağdadı, Bağdad ətrafını əmir Rüstəmdən sonra ikinci dəfə qarət etmək məqsədilə bu işə razı olur. Sultan Əhməd bunu istəmirdi:

—Sənin köməyin əvəzsiz qalmaz, qardaşım. Bir vaxt gələr mən də kömək əlimi sənə uzadaram.

Qara Yusif sevincdən qanad açmağa hazır olan sultan Əhmədin birdən-birə dəyişməsinin səbəbini başa düşdü. Ona görə də onu sakitləşdirməyə çalışdı:

– Mən sənə hər cür köməyi eləyəcəyəm. sən Bağdad taxtında oturacaqsan, əvəzində səndən heç bir şey istəmirəm.

Sultan Əhməd razı olmadı:

– Yox. Niyə ki? Qaçmamışdan qabaq xəzinəni gizlədə bilmişəm, əgər əmir Rüstəm onu tapa bilməyibsə, çərilərinə çoxlu ərmağan verərəm,—dedi, bir qədər susandan sonra davam etdi,—düzünü axtarsan, xəzinəni tapa bilməsəm də, onları əliboş yola salmaram.

Qara Yusif gülümsünməklə kifayətləndi. Onlar belə qərara kəldilər ki, əmir Rüstəmin Bağdaddan getməsi xəbərini alan kimi yola çıxsınlar.

Əmir Rüstəmin Bağdadı tərk etməsi xəbərini çox gözləmək lazım gəlmədi. Bu xəbəri alan kimi Bağdad üzərinə səfərə, çıxmış Qara Yusiflə sultan Əhməd heç

bir müqavimətə rast gəlmədilər. Atını sultan Əhmədin atı ilə yanaşı sürən Qara Yusif Bağdada çathaçatda atının başını çəkdi və dedi:

— Bağdada sən özün gir, qoşunun az olsa da, özün tək gir, şübhəsiz ki, heç bir müqavimətə rast gəlməyəcəksən. Mən öz qoşunlarımı Bağdad divarlarından kənarda əyləyib, elə oradaca ordugah quracağam.

Sultan Əhməd Qara Yusifin sözlərindən sevindi, ancaq bu hissini müsahibindən gizlətməyə çalışıb:

— Niyə, Qara Yusif, biz ki səninlə qardaşıq,—dedisə də gözlərindəki sevinci gizlədə bilmədi.

Qara Yusif bunu görməməzliyə vurub:

— Biz qardaşıq, ancaq bura sənindir, istəmirəm çərilərim şəhərə girib səni narahat eləsinlər,—dedi.

Sultan Əhməd gülümsünüb:

— Yaxşı, qoy elə olsun. Bəs sənin özün? Mənimlə birlikdə saraya getmək istəmirsən?

Qara Yusif etiraz etmədi. Bağdad hasarlarının yanında düşərgə salmağı qardaşı Yarəliyə əmr edib, qoruq dəstəsi ilə Bağdada girdi. Bağdad camaatı sultan Əhmədi çox soyuq qarşıladı. Buna heç bir əhəmiyyət verməyən sultan Əhməd atının üstündə təşəxdüslə oturub, bir əlini belinə, atının cilovunu tutmuş o biri əlini isa xəncərinin üstü daş-qaşla bəzədilmiş qızıl qəbzəsinin üstünə qoymuşdu. Onu nə camaatı, nə də ətrafında baş verənlər maraqlandırırdı. Onu heç yanında at sürə-sürə heyrətlə Bağdad küçələrinə baxan Qara Yusif də maraqlandırmırdı. Sultan Əhməd xəyalən artıq özünü gah cah-cəlallı sarayında gözəl hərəmləri, cariyələri arasında hiss edir, gah eyş-işrət məclisində qabağında göbək rəqsi eləyən rəqqasələri bir-bir öpür, gah da... Qara Yusifin:

— Sultan, Bağdad doğrudan da gözəldir,— deməsi sultanı xəyaldan ayırdı. Sultan Əhməd bundan narazı qaldı. Az qaldı qəzəblənsin də. Ancaq yanındakının kimliyini yadına salıb hirsini uddu, gülümsünməyə çalışıb dedi:

– Bağdad yer üzünün göbəyidir, Qara Yusif. Neçə yüz il idi ki, dünyanın ən yaxşı sənətkarları buraya gətirilirdi, hərəsi də bir şey tikirdi.

Qara Yusif öz-özlüyündə sultan Əhmədin Bağdadı dünyanın göbəyi adlandırmasına haqq qazandırdı.

Sultan Əhməd qədəmlərini saray qapılarının kandarından içəri qoyan kimi əmr verdi:

– Mənimlə Qara Yusifin gəlişi şərəfinə elə bir ziyafət düzəldin ki, heç bu sarayı tikdirmiş xəlifə harun-ər-Rəşid belə bir ziyafəti görməmiş olsun.

Ömrünü at belində keçirmiş, bir-iki dəfə sultan Əhmədin Təbrizdəki sarayında olmuş Qara Yusif Bağdad sarayının gözəlliyinə heyran qaldı. Bir sarayda nə qədər zənginlik, sərvət olarmış?

Qara Yusif bir həftə sultan Əhmədin hər gün dəyişdiyi saraylarda oldu. Sultan Əhməd məhz öz saraylarını Qara Yusifə göstərməkdən ötrü hər gün bir saraya köçürdü. O, sonuncu sarayda gecələyəndən sonra sultan Əhmədə dedi:

– Mən qayıdıram ordugahıma. Bir-iki gündən sonra Mosula yola düşmək istəyirəm.

Sultan Əhməd ona təəcüblə baxıb:

– Nə söyləmək istədiyini başa düşürəm. Bağdada gəldiyimizin ertəsi günü sənin əsgərlərinin ərmağanını göndərmişəm, özü də lap bolluca, kefləri istəyən qədər,—dedi.

Qara Yusif eşitdiklərindən razı qaldı, ancaq özünü o yerə qoymadı və dedi:

– Mənim sözüm başqadır, sultan. Göstərdiyin qonaqpərvərliyə görə sənə minnətdarlıq eləmək istəyirdim.

Sultan Əhməd Qara Yusifin çıxıb getməsini istəmirdi. O bilirdi ki, əmir Teymur öz yurduna qayıtsa da, yenə üzünü bu tərəflərə çevirmək fikrindədir, özü də başlıca hədəfi İldırım Bəyaziddir. Onun çox güclənməsindən qorxuya düşüb. Ancaq sultan bütün bunları Qara Yusifə demək istəmirdi. Fikirləşirdi ki, bu sözləri deyib Qara Yusifi əyləsə yenə xeyli ərmağan vermək lazım gələcikdir. Sultan Əhməd bu barədə düşünə-düşünə gülümsündü və dedi:

— Hara tələsirsən? Ordugahına dəymək istəyirsən. Get dəy, istəsən lap bir-iki gün qal orada, sonra qayıt gəl bura, arvad-uşağı da gətir. Bu saraylardak birini ayırım sizin üçün. İndi yaydır, qoy payız da, qış da keçsin, yazda qayıdarsan. inşallah.

Qara Yusif Mosula qayıtmaq istəməsə də, hələlik Bağdadda ləngiməyin də əleyhinə deyildi. O da Teymurləngin tezliklə bu yerlərə gələcəyinə əmin idi. Lakin haçan və sultan Əhməddən fərqli olaraq, kimin üstünə gələcəyini bilmirdi. Ona görə də o, sultan Əhmədin təklifini qəbul etdi, yaz girənə kimi Bağdadda qaldı. O bu müddətdə dəfələrlə sultan Əhmədlə görüşdü, onun düzəltdiyi ziyafətlərdə oldu, özü də sarayında ziyafətlər verdi, qayğısız yaşadı. Yazın birinci ayının sonunda Qara Yusif Teymurləngdən səs- səmir çıxmadığını görüb, onun bu il bu yerləri dinc buraxacağını zənn edib Mosula dönməyi qərara aldı və fikrini sultan Əhmədə bildirdi. Sultan bu dəfə etiraz etmədi. O da Teymurləngdən bir xəbər çıxmadığını görüb arxayınlaşdı:

— Nə deyirəm? Qalsan əziz qonağımsan,—dedi, qabaqcadan hazır saxladığı qızıl qəbzəli xəncəri və bir başqa ərmağanı gətirdib ona bağışladı və ona yenə nəsə demək istəyirdi ki, saray qoruqcubaşısı içəri girdi və:

— Əlahəzrət, kəşfiyyat rəisi gəlib, səni görmək istəyir,— dedi.

Sultan Əhməd başını tərpətdi, kəşfiyyat rəisi içəri girib:

— Əlahəzrət, indicə kəşfiyyatçılar xəbər gətirdilər ki, əmir Teymurun qoşunları bizim tərəfə gəlir.

Sultan Əhməd təşviş içində soruşdu:

— Bizim üstümüzə gəlir əmir Teymur?

Kəşfiyyat rəisi çiyinlərini çəkdi. Bu vaxt qoruqçubaşı yenə içəri girdi:

— Əlahəzrət, Yarəli gəlib qardaşı Qara Yusifi görmək istəyir.

Sultan Əhməd Qara Yusifə baxıb:

— Qoy gəlsin,—dedi.

Yarəli içəri girdi, sultan Əhmədə təzim edib qardaşı Qara Yusifə döndü:

– Qardaşım, əmir Teymur yenə üzünü bu yerlərə tutub gəlir. Bu dəfə onun hədəfi Sivasdır.

Sultan Əhmədlə Qara Yusif yenə baxışdılar. Sultan Qara Yusifin gözlərində qürur gördü. 0, bunun mənasını başa düşdü, Qara Yusifin kəşfiyyatçılarının onunkundan üstün olmasını fikirləşdi. Sultan Əhməd Yarəliyə oturmağı təklif etdi və dedi:

– Nə eləyək, Qara Yusif, bir fikirləş.

Qara Yusif qətiyyətlə:

—Fikirləşməyə yer qalmayıb. —deyib ayağa durdu, sultanın lap önündə dayanıb davam etdi,—Teymurləngin hədəfi Sivasdırsa, o bizim arxamıza keçib geri çəkilərək yolumuzu bağlayacaq. Biz vaxt itirmədən bu yerlərdən uzaqlaşmadıyıq.

Sultan Əhməd ümidsizliklə:

– Haraya?—soruşdu.

Qara Yusif bir qədər fikirləşib dedi:

—Bizim yeganə ümidimiz sultan Fərəcdir, Misir məmlükü sultan Fərəc.

Sultan Əhməd əllərini yellətdi:

– Elə deyirsən ki, elə bil sultan Fərəclə danışmısan, ya o sənin elə yaxın adamındır ki, bizə sığnaq verməyə razı olacaq.

Qara Yusif sultan Əhmədin özünü itirdiyini görüb hirsləndi:

– Ay kişi, xəbər göndərərik, razılığını versə gedərik, verməsə başqa yer barəsində fikirləşərik.

Sultan Əhməd Qara Yusifin ona sultan əvəzinə kişi deyə müraciət etməsinə əhəmiyyət verməyib soruşdu:

– Bəs hara gedərik?

—Allah kərimdir, sultan Fərəc razı olar, çünki o da Teymurləngi xoşlayanlardan deyil.

– Onun razılığını burada gözləməliyik? Birdən bizim elçi qayıdanca əmir Teymur keçdi arxamıza, onda nə olsun?

—Ona görə də bir-iki günə yola çıxıb Hələb tərəfə getməliyik. Elçilərimiz yolla geri qayıdıb sultan Fərəcdən xəbər gətirər.

Sultan Əhməd etiraz etmədi.

İki gündən sonra sultan Əhmədlə Qara Yusif öz qoşunları və müşayiətçilərilə yola girdilər. Onlar Hələb şəhərinə bir ağac məsafə qalmış düşərgə saldılar. Qara Yusiflə sultan Əhməd sultan Fərəcə tabe olan Hələb atabəyi Canibəy əl-Yəhyanın onlara münasibətini müəyyənləşdirməkdən ötrü onun yanına elçi göndərməyi qət etdilər. Lakin buna ehtiyac olmadı, sultan Fərəcin yanına göndərdikləri elçilər qayıdıb gəldilər və bildirdilər ki, sultan Fərəc onlara sığnaq verməyə etiraz etməzdi. Ancaq əmir Teymurdan qorxur. Elçilərin gətirdiyi xəbər sultan Əhmədi şaşırdı:

—Bəs indi biz neyləyək?—deyə Qara Yusifə müraciət etdi.

Qara Yusif fikirləşməyə macat tapmamış qoruqçubaşı xəbər gətirdi ki, Hələb atabəyi Canibəy əl-Yəhyanın elçiləri onları görmək istəyirlər. Sultan Əhməd bunu yaxşı əlamət sayıb sevindi. Qara Yusif isə tutuldu:

— Görünür, bizi başdan eləmək istəyir.—dedi və qoruqçubaşıya dönüb davam etdi,—çağır onları.

Hələb atabəyinnn elçiləri çadıra girib salam verdilər və dedilər:

— Atabəy Canibəy əl-Yəhya buyurdu ki, öz xoşunuza çıxıb gedəsiniz bu yerlərdən, əks halda üzərinizə qoşun yeritməli olacaq.

Qara Yusif qəzəblə qışqırdı:

— Cəhənnəm olun buradan, haramzadalar. Gedin atabəyinizə deyin ki, sabah bizi Hələbdə gözləsin. Biz Hələbə girmək üçün ondan icazə istəmək fikrində deyilik.

Elçilər getdilər. Sultan Əhməd Qara Yusifə:

— Sən nə elədin, niyə sultan Fərəci bizə düşmən elədin?— dedi.

Artıq sakitləşmiş Qara Yusif dedi:

— Narahat olma, sultan Fərəcin Teymurləngin qabının dibini yalayan atabəy Yəhyəvidən zəhləsi gedir.

Bir qədər arxayınlaşmış sultan Əhməd dedi:

— Qoşunlarımızı nahaq yerə qırğına veririk, onlar bizə daha bərk gündə gərək olarlar.

Qara Yusif sultan Əhmədə məmnuniyyətlə cavab verərdi, ancaq onu incik salmaq istəmirdi:

— Əvvələn qoşunlarımızı qırğına verməyəcəyik, Canibəy o qədər də zorlu deyil. İkincisi, başımızı götürüb qaçan çağda qoşuna heç bir ehtiyac qalmayacaq.

— Hara qacacağıq?

— Qoy sabah Canibəylə haqq-hesabı çürüdək, ondan sonra fikirləşməyə vaxtımız olacaq. İndi sən gəl Canibəylə sabahkı savaşımız barəsində danışaq.

Sultan Əhməd həmişə bərkə düşəndə olduğu kimi əllərini oynatdı.

— Onu sən özün bildiyin kimi elə. Maşallah, yanında qardaşın Yarəli bəy, Pir Həsən, İlyas, Pir Ömər Kirmani, Qasım, Qaracük var, onları çağırıb məsləhətləş.

Qara Yusif sultan Əhmədin adlarını saydığı əmirləri və bəzi minbaşıları çağırtdırdı, amma məsləhətləşməyə yox. O, qardaşına və əmirlərə müraciətlə dedi:

— Qardaşım sultan Əhməd məndən inciməsin, onun xoşuna gəlməsə də deyəcəyəm. Bizə, Təbriz taxtı uğrunda çarpışanlara gör bir kim meydan oxuyur—Hələb atabəyi Canibəy əl-Yəhya. Sabah onunla döyüş meydanında görüşəcəyik.

Qara Yusifin söylədiyi əvvəlcə, doğrudan da, sultan Əhmədin xoşuna gəlmədi. Sultan Əhməd vaxtilə Qara Məhəmməddən, indi isə Qara Yusifdən şübhələnir, özünün hesab etdiyi Azərbaycan taxtında onların gözü olduğunu bilirdi. Sultan Əhməd Cəlayir belə hesab edirdi ki, onlar padşah nəslindən olmadıqlarına görə Azərbaycan taxtında oturmağa ixtiyarları yoxdur. Buna görə də güman edirdi ki, Qara Yusif güclü olsa da, zorla Təbrizə yiyələnmək iqtidarında olsa da, Təbriz ona qismət olmayacaqdır. İndi Qara Yusif Azərbaycan taxtına yiyələnmək istədiyini açıq söyləyəndə, sultan Əhməd nə cavab verəcəyini bilmədi. O, indiki vəziyyətdə, Qara Yusifin göməyinə arxalanmaqdan başqa, çarəsi olmadığı bir

vaxtda hələlik öz narazılığını gizlətməyi, yeri düşəndə fikrini Qara Yusifə çatdırmağı qərarlaşdırıb onun sözlərini qulaqardına vurdu.

Qara Yusif sözlərini deyəndən sonra diqqətini sultan Əhmədin üzərində cəmləşdirdi. Ondan səs çıxmaması Qara Yusifə qəribə görünmədi. O başa düşürdü ki, fikrindəkini deməyə elə bir vaxt seçmişdir ki, sultan Əhmədin dinib-danışmağa imkanı olmayacaqdır. Qara Yusif yaranmış vəziyyətdən sona kimi istifadə edərək əmirlərə dedi:

– Görürsünüz ki, sultan Əhməd də mənim dediklərimlə şərikdir, onun sükutunu razılıq əlaməti hesab eləməliyik.

Qara Yusifin sözləri sultan Əhmədi yerindən oynatdı, az qaldı qışqırıb içərisindəkini bayıra töksün. Ancaq zorla özünü saxladı, dinmədi. Sultan Əhmədin narazılığını, daxili əzabını, iztirabını görən Qara Yusif buna əhəmiyyət vermədən yerindən durdu və əmirlərə:

– Gedin dincəlin, sübhçağı ayaq üstə olan,—sonra üzünü sultan Əhmədə çevirdi,—mən də gedim dincəlim,—dedi və öz çadırına getdi. Sultan Əhməd ona bir söz demədi.

Ertəsi gün Qara Yusifin ilk həmləsi Canibəy əl-Yəhyanı geri oturtmağa kifayət etdi. İgid adam olan Canibəy qoşunlarının pərən-pərən düşdüyünü görüb atının başını çəkdi və Qara Yusifi təkbətək döyüşə çağırdı. Qaçan qoşun ayaq saxladı. Döyüşü Yarəli qəbul etdi. Hələb atbəyinin qoşunları Canibəy təkbətək döyüşdə öldürüləndən sonra silahlarını yerə tökdülər.

Axşam hələb şəhərində, hələ dünən onlara meydan oxuyan Canibəyin sarayında oturmuş Qara Yusif sultanın üzərində öz üstünlüyünü nümayiş etdirmək istədi, ancaq üz-gözündən yazıqlıq tökülən sultan Əhmədə baxıb fikrindən daşındı. Sultan Əhməd gözlərini Qara Yusifin ağzına dikib oturmuşdu. Nəhayət, o dözmədi:

– Ay Qara Yusif, bir söylə görək bundan sonra nə eləyəcəyik? Canibəyi üstələdin. Bu cox yaxşı. Ancaq bu qələbənin elə böyük xeyri yoxdur. Biz sultan

Fərəcin yanına gedə bilmərik. Hələbi zorla almağın işimizi daha da korladı. Belə olan surətdə biz kimin yanına gedə bilərik?

Qara Yusif sultan Əhmədi narahat eləyən məsələ barəsində hələ dünən fikirləşmişdi, cavabı da hazır idi. Ancaq o bunu hələlik demək istəmir. Sultan Əhmədi intizar içində saxlamaq, Qara Yusifdən asılılığını bu yolla nümayiş etdirmək istəyirdi.

— Sultan sənsən, sən buyur, biz də əməl eləyək.

Qara Yusifin səsindəki kinayəni duymaq üçün çox da böyük həssaslıq lazım deyildi. Ancaq öz fikri-xəyalı nlə əlləşən sultan Əhməd bunu hiss etmədi. O, heç bir çıxış yolu tapmır, ümidini Qara Yusifə bağlayırdı. Qara Yusif sultanın danışası halda olmadığını görüb fikrini söyləməli oldu:

— Bizim bircə çarəmiz var, o da İldırım Bəyazidə sığınmaqdır.

Sultan Əhməd də bu barədə fikirləşmişdi, ancaq iki səbəbə görə bu fikrindən vaz keçmişdi. Birincisi, özünə düşmən hesab etməsə də, o qədər də xoşlamadığı İldırım Bəyazidin ona sığnaq verməyəcəyini zənn edirdi. İkincisi, ən başlıcası isə o, Qara Yusifin heç vaxt İldırım Bəyazidə sığınmaq istəməyəcəyini düşünürdü. Qara Yusif İldırım Bəyazidi öz yolu üzərində ən başlıca maneələrdən biri hesab edirdi. İndi Qara Yusifin belə bir təklifi irəli sürməsi sultan Əhmədin lap ürəyindən oldu. O soruşdu:

— İldırım Bəyazid bizə sığnaq verər?

— Elçilərimizi göndərib öyrənərik.

Teymurləngin onun üzərinə gələn qoşunlarının qabağına öz qoşunu ilə birlikdə Qara Yusiflə Sultan Əhmədin qoşununu verə biləcəyini nəzərə alan İldırım Bəyazid onlara sığnaq verməyə etiraz etmədi. Qara Yusiflə sultan Əhməd yubanmadan İldırım Bəyazidin yanına yola düşdülər. 1400-cü ilin iyunun 19-u idi.

Qara Yusif sultanla birlikdə iki gün at sürdü. Birinci gün sultan Əhməd şad-xürrəm görünür, hətta Qara Yusiflə zarafatlaşırdı. Ertəsi gün o nə fikirləşdisə Qara Yusnfdən soruşdu:

– Qara Yusif, sənin neçə yaşın var?

Qara Yusif bayaqdan sultan Əhmədin kefinin kök olduğunu görür, təəccüblənirdi. O düşünürdü ki, insan nə qəribə məxluq olurmuş, taxt-tacını, məmləkətini, hər şeyini qoyub, yalnız qardaşını, arvadlarını və qızlarını götürüb, baş alıb qaçan bu adam nəyə sevinir? Qara Yusif bu fikirdə ikən sultan Əhmədin yersiz sualı ona qəribə göründü. O gülümsündü və dedi:

– Yaşımı neynəyirsən, sultan? Qızlarından birini mənə ərə vermək istəyirsənsə, yaşın nə əhəmiyyəti?

Qara Yusifin cavabı sultanın xoşuna gəlmədisə də, bunu büruzə vermədi. Sultan Əhməd iki-üç gün əvvəl Bərkdə olarkən Qara Yusif Təbriz taxtına-yiyələnmək istədiyini açıq söyləyəndə, qızlarından birini ona verməyi xəyalından keçirmişdi də. Ancaq bu gün şərait bambaşqa olan bir vaxtda Qara Yusifin sözlərindən diksinən kimi oldu. Ona elə gəldi ki, Qara Yusif onun qızlarından birinə ona görə evlənmək istəyir ki, Təbriz taxtına aparan yolun üzərindəki ən böyük maneələrdən birini aradan götürsün. Qara Yusif padşah nəslindən olan qızla evlənməklə sultan Əhmədin kürəkəni kimi taxtda oturmaq hüququnu qazanmasa da, dolayı yolla buna nail olur. O, padşah qızından olan oğlunu hələ qundaqda ikən padşah elan etdikdən sonra özü onun naibi, əslində isə padşah olacaqdı. Bu fikirlər Təbriz taxtını heç kimə güzəştə getmək istəməyən sultan Əhmədin xəyalından ildırım sürətilə keçdi. Hələlik Qara Yusiflə aravurmanın ona ziyan gətirəcəyini nəzərə alıb ötəri cavab verməyi üstün tutdu, gülümsündü və dedi:

– Düz fikirləşməmisən, Qara Yusif, yaşını soruşmaqda fikrim ayrı idi. Deyirəm görən əmir Teymur o dünyalıq olanda çox qoca olmayacaqsan ki, at üstündə otura biləcəksən?

Qara Yusif, həqiqətən də, sultan Əhmədin qızlarından birinə evlənmək istəyirdi. Ancaq o, yaxşı bilirdi ki, sultan Əhməd qızını ona, padşah nəslindən olmayan köçəri elat başçısına verməz. Bununla belə, sultan Əhməd ona sual verəndə Qara Yusif məhz bu barədə fikirləşdi, zənn etdi ki, bərkə düşmüş sultan

Əhməd gələcəkdə taxtına qayıtmaqdan ötrü onunla daha da yaxın olub zorundan istifadə etmək xatirinə qızını elat başçısına verməyə razı olub. Sultan Əhmədin cavabından səhvə yol verdiyini başa düşdü. Ancaq özünü sındırmadı və dedi:

— Yaşım qırx beşdir. Zənn eləyirəm ki, əmir Teymur o dün- yalıq olanda hələ qıvraq qalacağam, Təbrizi almağa da kücüm catacaq.

Qara Yusif son sözlərini xüsusi vurğu ilə dedi. Sultan Əh- məd tutuldu. O daha Qara Yusifə nəinki sual vermədi, heç onunla danışmadı da. Hətta Qara Yusif son sözlərini dediyi zaman atının başını çəkmək istədi, ancaq fikrindən daşındı, ehtiyat etdi. Bir qədər keçəndən sonra isə o:

— Görüm arvad-uşaq neynəyir?—bəhanəsilə Qara Yusifdən aralandı.

Qara Yusif sultan Əhmədin bütün hərəkətlərini diqqətlə izləyirdi. Dediyi sözlərdən sonra Əhməd padşahın əhvalının dəyişməsi Qara Yusifin nəzərindən qaçmamışdı. Sultan Əhmədin ona verdiyi cavab Qara Yusifi təmin etmədi və onun yaş barəsində verdiyi sual Qara Yusifə sirr olaraq qaldı. Sultan Əhməd bəhanə ilə ondan aralandığı zaman Qara Yusif onun beynindən keçənləri gözlərindən oxudu.

Ertəsi gün Qara Yusif atını ondan aralı sürən sultan Əhmədi xeyli kefsiz gördü. Onun sifətindən zəhrimar yağırdı. Qara Yusif atını onun atı ilə bərabərləşdirib sultanın kefini soruşdu. Bütün gecəni yata bilməyən, Qara Yusifin açıq-açığına Təbriz taxtına, Azərbaycana yiyə çıxmaq istəməsindən hədsiz əsəbiləşən sultan Əhmad İldırım Bzyazidin onlara sığıncaq versə də, nə cür münasibət bəsləyəcəyindən nigaran olduğuna görə Qara Yusifə bir söz deməyə çəkinirdi, yenə do onun köməyinə möhtac ola biləcəyini fikirləşirdi. O, bir neçə gün əvvəl Qara Yusiflə xəlvəti İldırım Bəyazidin yanına elçilər göndərmişdi. Onların geri qayıtmamaları da sultanı hirsləndirirdi. Ancaq öz hisslərini cilovlamağa, hələlik Qara Yusifin rəğbətini itirməməyə çalışırdı. Ona görə də sultan Əhməd Qara Yusifin sualını cavabsız qoymadı:

— Şükur olsun allah, pis deyiləm.

Qara Yusif səsinə kinayə qatıb dedi:

– Səni kefsnz körürəm.

Sultan Əhməd kinayəni duydu, icərisi qaynadı, ancaq əsəblə- rini cilovlaya bildi:

– Bir az nasazam, deyəsən gecə soyuqlamışam.

Qara Yusif sultan Əhmədin onunla danışmaq istəmədiyini görürdü. Gecə istidən heç yatmaq olmurdu, bu istidə sultan soyuqlaya bilməzdi. Qara Yusif sultan Əhmədi qıcıqlandırmaq, daha da hirsləndirmək üçün soruşdu:

– Çox isti idi bu gecə. Belə istidə necə olub ki, soyuqlamısan?

Sultan Əhməd Qara Yusifə cavab vermədi, üzünü ona yaxınlaşmış qoruqçubaşıya çevirdi. Qoruqçubaşı onun qulağına nəsə pıçıldadı. Qara Yusif sultanın qulağına deyilmiş sözləri eşitmədi, ancaq bu sözlərin təsiri göz önündə idi. Sultan Əhməd birdən-birə dəyişdi, kefi kökəldi. Qara Yusif bilmədi ki, ona o qədər də inanmayan sultan Əhmədən ondan xəlvəti İldırım Bəyazidin yanına göndərdiyn elçilər müsbət cavab gətirmişdilər. Sultan Əhməd bir qədər geriyə qalmış atını Qara Yusifin atı ilə bərabərləşdirdi. Qara Yusif yenə kinayə ilə soruşdu:

– Tamam başqa adam olmusan, sultan. Deyəsən qoruqçubaşının qulağına dediyi sözlər sənə məlhəm oldu. Soyuqdəymən canından çıxıb, elədirmi?

Artıq arxayınlaşmış, atı Qara Yusifin atı ilə bərabərləşdirəndə ona qulaqburması verməyi qarşısına məqsəd qoymuş sultan Əhməd Qara Yusifin sözlərini kinayə ilə deməsindən istifadə etdi:

– Sənə elə gəlmirmi ki, yanında at sürənin kim olduğunu çox tez-tez unudursan?

Qara Yusif rişxəndlə:

– Yox, niyə ki? Mənim yanımda at surənin kim olmasını yaxşı bilirəm. Taxt-tacını itirmiş, başında cəmi-cümlətanı beş-on çəri qalmış sultan Əhməd deyilsən?

Elə bil sultan Əhmədə od qoydular:

– Nə sarsaqlayırsan? Sənə yaxşı üz göstərdikcə çaşma, fikirləş ki, adi elat başçısı ola-ola padşahla yanaşı at sürmək şərəfinə nail olmusan.

Qara Yusifə artıq tamamilə aydın idi ki, qoruqçubaşının sultanın qulağına dediyi sözlər sehrli olmasa da, sultan Əhmədə qüvvət vermişdir və o, Qara Yusifdən ayrılmağa bəhanə axtarır. Qara Yusifin kəşfiyyatçıları xəbər gətirmişdilər ki, Teymurləngin qoşunları onların lap yaxınlığındadır. Belə olan surətdə sultan Əhməd, Teymurləngin kölgəsindən də qorxan bu taxt-tacsız padşah nə üçün ondan ayrılmaq, özü də onu acılayıb ayrılmaq xəyalına düşüb. Qara Yusif istehzailədedi:

– Hə, elədir, gərək doğrudan da belə şərəfə yetməyimi unutmayaydım.—Sonra ciddiləşib hiddətlə davam etdi,—haçandan bəri belə dil-dil ötən olmusan? Bir neçə gün əvvəl, lap elə dünənin özündə mənim sağıma-soluma keçən Əhməd deyilsən?

Qara Yusifin onu sultan deyil, adicə Əhməd çağırması sultanı daha da coşdurdu:

– Belə görünür mənimki səninlə tutmayacaq. Götür çərilərini hara istəyirsən rədd ol get, səni gözlərim görməsin. O rəiyyət başından padşahlıq iddiasını, Təbriz taxtına sahib olmaq xülyasını da çıxar. Mən hələ ölməmişəm ki, sən Təbrizə, Azərbaycan taxtına yiyə çıxasan.

Qara Yusif gülümsündü:

– Əhməd, elə danışırsan, elə bil əmir Teymurun bütün çəriləri onu atıb sənin arxana keçiblər. Görünür, əmir Teymurun qoşunlarının lap yaxında olmasından xəbərin yoxdur.

Sultan Əhməd diksindi:

– Necəəəə?—deyə uzatdı.

Qara Yusif istehza ilə:

– Bəli, lap bığlarının altındadır,—dedi, üzünü qardaşı Yarəliyə cevirib davam etdi:—Qoşunları burada əylə, bir azdan öz yurdumuza, Mosula qayıdırıq.

Sultan Əhməd özünü itirdi, üzünün əvvəlki ifadəsi tamamilə dəyişdi, iki gün əvvəlki adam oldu:

– Ay kişi, səanində zərafat elədim, hara gedirsən? Sultan İldırım Bəyazidin yanına elçilər göndərmişdim. Bəyazid xəbər göndərib ki, əziz qonaqımsınız.

Sultan Əhmədin dil-dil ötməsinin səbəbi Qara Yusifə agah oldu. O, sultan Əhmədə baxıb acı-acı gülümsünərək atının başını çevirdi, onun qoşunları sultan Əhməddən aralandı. Qara Yusif qardaşı Yarəliyə dediyi kimi Mosula qayıtmaq fikrində deyildi. O bilirdi ki, Teymurləng oraya qoşun göndərib onu təslim etməyə çalışacaqdı. Qara Yusif Teymurləngin qoşunlarına müqavimət göstərə-göstərə aradan çıxa biləcəyinə əmin idi. Lakin bu öz qoşunlarını lazımı, əlverişli vaxta kimi heç bir itki vermədən qoruyub saxlamaq məqsədinə uyğun gəlmirdi. Teymurləngin qoşunları ilə döyüşə girmək isə itkisiz olmayacaqdı.

Qara Yusif sultan Əhmədi tərk etdiyi yerdən xeyli aralı ordugah qurub onu Teymurləngin qoşunlarının keçəcəyi yolun üstündə qoymaqla, ondan intiqam almaq istəyirdi.

İki gün sonra yerindən tərpənib. İldırım Bəyazidin yanına yollandı. O, bir həftədən sonra artıq İldırım Bəyazidin qonağı idi. Qara Yusif bir səhər İldırım Bəyazidlə görüşə gələndə sultan Əhmədi onun yanında gördü. Sultanın o qədər yazıq görkəmi var idi ki, elə bil ki, İldırım Bəyazid oıu indicə dar ağacından asılmağa göndərəcəkdi. Qara Yusif sultan Əhmədə əhəmiyyət vermədi, onun tərəfinə baxmadı və göstərilən yerdə oturdu. Sultan Əhməd isə Qara Yusifi görməsinə xeyli sevindi və dedi:

– Qoydun məni quru yurdda, getdin. Teymurləngin çəriləri səndən ayrılandan sonra məni haxladı, hər şey cəhnnəm, arvadlarımı, qızlarımı və qardaşımı əsir apardı.

Qara Yusif ona cavab vermədi, ancaq sultan İldırım Bəyazidin ona məzəmmətlə baxmasını görüb danışmalı oldu:

– Sən mənimlə bir yerdə olmaq istəmədiyini bildirdin, mən də sultanın fərmanına əməl eləməli oldum.

İldırım Bəyazid də, sultan Əhməd də Qara Yusifin sözlərindəki kinayəni duydular. Bunun səbəbi sultan Əhmədə aydın idi. İldırım Bəyazidi isə bu kinayə təəccübləndirdi. Qara Yusif yolda sultan Əhmədlə onun arasında baş verənləri sultan İldırım Bəyazidə danışmalı oldu. İldırım Bəyazid dilləndi:

— Sultan Əhməd, elə söyləmişdin ki, az qalmışdı igidlik, dostluq, sədaqət təcəssümü kimi tanıdığım Qara Yusif kimi kişidən üz döndərəm.

Sultan Əhməd deməyə söz tapmadı. İldırım Bəyazid onları barışdırmağı lazım bildi və Qara Yusifə dedi:

— Olan olub. o səndən böyükdür, barışın.

Qara Yusif İldırım Bəyazidin belə bir təklif edəcəyini gözləyirdi və müqavimət göstərməməyi qət etmişdi. Odur ki, o qalxdı, sultan Əhmədə yaxınlaşıb əlini ona uzatdı. Sultan Əhməd elə zənn edirdi ki, Qara Yusif onun yanına gəlmək istəməyəcək və o, padşah, köçəri elat başçısının ayağına getməli odacaqdır. Ancaq Qara Yusif bunun, qonağı olduğu İldırım Bəyazidə xoş gəlməyəcəyini bilirdi. O, ev sahibinə hörmət əlaməti olaraq sultan Əhmədə sarı gedəndə, İldırım Bəyazidə baxdı, onun sifətində razılıq nişanələri gördü, Sultan Əhməd yerindən qalxdı, Qara Yusifin əlini sıxıb onu qucaqladı.

Qara Yusiflə sultan Əhmədə sığnaq verəndən üç ay sonra bir axşam İldırım Bəyazid onları yanına çağırıb dedi:

— Əmir Teymurun elçiləri gəlmişdi. Sizi tələb eləyir əmir.

Sultan Əhməd əvvəl Qara Yusifə baxdı və İldırım Bəyazidə döndü.

— Bizi vermək istəyirsən? İldırım Bəyazid fikirli:

—Elçilərin gəlib qayıtdıqlarından bir ay keçir. Mən əmir Teymurun yanına minnətə adamlarımı göndərmişdim. Teymurləng indi Qarabağdadır, orada qışlayacaq.

Sultan İldırım Bəyazid susdu. Sultan Əhməd sükutun uzanmasına dözmədi:

— Nə cavab verib əmir Teymur?—soruşdu.

İldırım Bəyazid Qara Yusifin oxuya bilmədiyini unudaraq əmir Teymurun naməsini ona uzatdı. Qara Yusif naməni sağ əlindən sol əlinə ötürdü, sultan Əhmədə verdi, dedi:

– Oxu görək nə yazır əmir Teymur?

Sultan Əhməd naməni gözdən keçirdi. Gözlərini ona zilləmiş Qara Yusif naməni oxuduqca sultanın eyninin açılmasına təəccüb etdi. Sultan Əhməd naməni oxuyub qurtaran kimi:

— Sultan İldırım Bəyazid, əmir Teymurun mənimlə işi yoxdur, məni istəmir, Qara Yusifi istəyir,—dedi.

Sultan Əhmədin sevinclə dediyi sözlər İldırım Bəyaziddə ikrah hissi doğurdu. Ancaq bunu bildirmədi:

– Elçilər səni də istəyirdilər. Mənim Qarabağa getmiş minnətçilərim sənin canını qurtara bilmişlər,—deyib naməni ondan alaraq vəzirinə uzatdı və,—oxu,—dedi.

Vəzir məktubu oxumağa başladı:

"Həşəmətli sultan İldırım Bəyazid. Mən səni özümə qardaş hesab eləyirəm. Qoy məğrib sənin olsun, məşriq mənim. Sənin torpaqlarında gözüm yoxdur, səninlə savaşa girmək də istəmirəm. Ancaq sən o haramzada Qara Məhəmmədin haramzada oğlu Qara Yusifi zəncirləyib mənim hüzuruma, Qarabağa göndərməsən, səninlə üzləşməyə məcbur olacağam. Başını da göndərə bilərsən.

Məşriqin hökmdarı Sahibqran əmir Teymur.

Son Terşin 804-cü il hicri"

Qara Yusif naməni başıaşağı dinlədi. Namə oxunub qurtarandan sonra o, başını yavaş-yavaş qaldırıb:

– Sənin ixtiyarındayam, sultan, istədiyin kimi elə,—dedi. Sultan İldırım Bəyazid qətiyyətlə dedi:

– Sən mənim qonağımsan. Mən də sənin kimi türkəm. Türk öz qonağının təhlükəsizliyi üçün canını belə verməyə hazırdır. Bu müqəddəs adəti pozmaq

fikrində deyiləm. Bunu əmir Teymur da bilməli idi, axı o da türkdür. Qoy əmir Teymur gəlsin üstumə, mən də zorsuz deyiləm. Tanrı ya ona verər, ya da mənə.

Qara Yusif minnətdarlığını bildirdi və dedi:

– İzn versəydin qış çıxan kimi sənin torpaqlarından uzaqlaşardım. Bəlkə bu, əmir Teymuru sənin üstünə gəlmək fikrindən daşındıra.

Sultan İldırım Bəyazid etiraz etmədi. Yaz girən kimi Qara Yusif öz qoşunları ilə Bağdad tərəfə hərəkət etdi. Şəhərin cənubunda olan Xet kəndində qərargah qurdu. Sultan Əhməd də aralarında heç bir şey olmayıbmış kimi ona qoşulub gəldi, lakin Bağdada girə bilmədi. Oğlu Tahir bir neçə əmirlə birləşib atasına qarşı çıxdı. Sultan Əhməd Qara Yusifdən gömək istəməkdən başqa çarə tapmadı:

– Sən mənim qardaşımsan, neçə dəfə mənə dar günümdə əl uzatmısan. Yenə də məni darda qoymazsan.

Qara Yusif sultan Əhmədi bir müttəfiq kimi qiymətləndirməkdə davam edirdi. Ona görə yox ki, sultanı güclü şəxsiyyət hesab eləyirdi. Əksinə, o, zəif adam idi və Qara Yusif onu hansı istiqamətə istəsə yönəldə biləcəyinə arxayın idi. Ona görə də Qara Yusif sultan Əhmədin taxtının oğlunun əlinə keçməsini istəmirdi. Lakin o, razılığını verənə kimi sultan Əhmədi nigaran qoymağı, ondan vədlər almağı lazım bildi:

– Elədir, sultan, sənin dadına çox yetişmişəm, həmişə də qardaşlıq naminə. Ancaq belə görünür ki, dövlət işlərində qardaşlıq boş əfsanədir. Bunu özün də göstərdin, bir balaca işin düzələn kimi mənə arxa çevirdin. Qardaşlığa sadiq qalan yenə mən oldum, səninlə barışdım. İndi sənə qardaş kimi kömək eləyəcəyəm, amma əvəzsiz yox.

Sultan Əhməd yenə Təbriz taxtını gözləri önünə gətirdi. Qara Yusifin Təbrizi istəyəcəyini fikirləşdi və dedi:

– Qardaş kimi qalmanı söylədin, daha bu şərtlər nəyə gərəkdir?

Qara Yusif gülümsündü:

– Ay kişi, dost-doğma oğlun sənə qarşı çıxıb. Nə qardaş, qardaş salmısan? Şərtlərimi qəbul eləsən səninləyəm, eləməsən qoy oğlun səni üstələsin.

Sultan Əhməd çarəsiz qalıb dedi:

— Sənə Tavirin əmirliYini bağışlayıram.

Qara Yusif razı halda:

— Bu bir. Daha nə?

— Ay kişi, alverə başlama. Qoy o haramzada Tahiri cəzasına çatdıraq, onda görərsən ki, sənin üçün nələr eləyəcəyəm.

Qara Yusif saqqalını ovcuna doldurdu, dartışdırdı və:

— Yox, nisyə yox. Hillə hakimiyyətini də mənə verməlisən,— dedi.

Sultan Əhməd Qara Yusifin Təbriz barəsində danışmamasından razı qaldı və dedi:

— Yaxşı, qoy sən deyən olsun. Daha ayrı sözün yoxur ki?

— Var. Bəs qardaşım Yarəliyə nə düşür?

Sultan Əhməd cəld dedi:

— Yaxşı, bəsdir bu qədər, danışdıq. Bir vilayətin əmirliyini də ona verərəm.

Qara Yusif daha bir söz demədi. Sultan Əhməd dedi:

— Başlayaq, ay Qara Yusif. Deyirlər Tahir Bağdaddan çıxıb üstümüzə gəlir. İndi o, Mehranrud çayının o tayındadır.

Qara Yusif cəld qardaşını və əmirləri çağırdı:

— Qoşunları Mehranrud çayının sahilinə aparın. O biri tayda Tahir düşərgə salıb, siz də bu tayda salın,—dedi, üzünü sultan Əhmədə çevirdi:—Sən də qoşunlarını çayın sahilinə göndər.

Sultan Əhməd əmirlərindən birini çağırıb qoşunları Mehranrud sahilinə aparmağı tapşıraraq Qara Yusifə baxdı. Qara Yusif ona, qardaşı Yarəliyə və əmirlərə müraciətlə dedi:

— Çayın sahilində mövqe tutun, hücum isə sabah olacaq. Biz çay sahilinə sultan Əhmdlə sabah səhər tezdən gələcəyik. Bütün qoşunlara başçılığı mən eləyəcəyəm. Tahir cürət eləyib çayı keçmək istəsə, imkan verməyin, onu oxa basın.

Ertəsi gün Qara Yusiflə sultan Əhməd Mehranrud çayının sahilinə gələndə günəşin ilk şüaları çayın göz yaşı kimi dumduru sularında oynamağa başlamışdı. Qara Yusif sahilə çatan kimi hündür yerə çıxıb düşmənin qüvvələrini nəzərdən keçirdi. O, üzünü yanında dayanmış sutan Əhmədə tutub dedi:

— Satqınlar sadiqlərdən xeyli çox imiş, sultan Əhməd. Sənin qoşunlarının çoxu oğlun Tahirin tərəfindədir. Onun zoru böyükdür, əzişdirmək çətin olacaq.

Qara Yusif təpədən aşağı endi, sultan Əhmədlə birlikdə çayın sahilinə gəldi, əmirləri çağırıb dedi:

—Dünən söylədiyim kimi eləməyəcəyik, hücuma keçməyəcəyik. Gözləyəcəyik Tahir hücuma keçsin.

Sultan Əhmədin əmirlərindən biri dedi:

— Niyə gözləyək, zorumuz çatmaz? Axı o bizi qorxaq sayar.

Qara Yusif əmirə diqqətlə baxdı və:

— Elə mənə də o lazımdır. Qoy o bizi qorxaq sanıb üstümüzə gəlsin.

Sultan Əhməd dilləndi:

— Oğul mənimdir, yaxşı bilirəm, onu aldatmaq o qədər də asan olmayacaq, bizim hücuma keçməməyimizin səbəbini başa düşəcək. Bir də o başa düşür ki, çayı keçmək istəyən daha çox tələfat verəcək, demək zəif düşəcək.

Qara Yusif fikrə getdi və:

— Düz deyirsən, sultan Əhməd, sənin bu oğlun fərasətsiz deyil hücuma biz başlamalı olacağıq,—dedi, bir qədər də fikirləşib davam etdi:—O sahilə çıxmaq üçün bizim əsgərlərimiz suya girən kimi Tahirin çəriləri onları oxa basacaq, nəinki ağır yaralılar, lan yüngül yara alanlar da suya yıxılıb boğulacaq və çayın dibinə gedəcəkdir.

Qara Yusif sözlərini deyib əmirlərə baxdı, onların heç biri danışmadı. Yarəli dilləndi:

— Bəlkə çoxlu sal qayıraq, ətrafda ağac çoxdur. Sallara doluşub o taya keçə bilərik.

Qara Yusif qardaşının təklifini bəyəndi və dedi:

– Yaxşı fikirdir. Əlbəttə,Tahirin əsgərləri sallardakı çərilərimizi oxa basacaqlar. Nə olar, əsgərlərimiz özlərini qalxanları ilə oxlardan mühafizə eləyərlər.

Qara Yusifin əmrilə ətrafda olan ağacları qırıb çoxlu sal qayırdılar. Bu işə bütün gün sərf olundu. Qara Yusif düşməni ayıq salmamaq üçün salları qaranlıq düşəndən sonra suya salmağı əmr etdi. Ertəsi gün hava işıqlaşmağa başlayanda Qara Yusif çərilərini sallara doldurub hücuma apardı. Hücum o qədər gözlənilməz və sürətli oldu ki, Tahirin əsgərləri heç bir şey eləyə bilmədilər Qara Yusif çayın o biri sahilinə çıxdı. O, cayın lap sahilində qardaşı Yarəlinin Tahirlə təkbətək vuruşunun, Tahirin aldığı zərbədən suya yıxılmasının, boğulub suyun dibinə getməsinin şahidi oldu, Sultan Əhməd də oğlunun boğulmasını gördü. Onun gözlərindən iki gilə yaş yuvarlanıb artıq çoxdan callaşmış pırtlaşıq saqqalında görünməz oldu.

Oğlunun məğlub edilməsindən sonra sultan Əhməd Bağdada gəldi. O, xəyanət etmiş əmirləri dara çəkdirdi. Tahirin tərəfinə keçmiş qoşunlar sultan Əhmədə sadiq olacaqlarıia and içdilər. Qüvvələrinin xeyli artdığını görən sultan Əhməd onu sarayına gəlmiş Qara Yusifə verdiyi vədlərdən imtina etdi və dedi:

– Səni Hillə əmiri təyin eləyirəm.

Qara Yusif hirsləndi:

– Bəs başqa vədlərin?

Sultan Əhməd hücuma keçdi:

– Allahına şükür elə ki, Hilləni sənə verirəm.

Qara Yusif sultan Əhmədə çımxırdı:

– Sultan Əhməd, ikinci dəfədir vədinə xilaf çıxırsan. Axı sən sultansan, sözünə ağa olmalısan.

Sultan Əhməd həyasızcasına:

– Elədir, sözümün ağasıyam, onu necə istəsəm dəyişə bilərəm.

– Yaxşı, sənin sözünə belə ağalıq eləməyin sənə baha başa gələr.

Sultan Əhməd coşdu:

– Necə? Mənim sarayımda məni hədələyirsən?

Sultan Əhməd Qara Yusifi həbsə almağı əmr etdi, amma o bilirdi ki, Qara Yusif saraya hazırlıqlı gəlmişdi. O, qılıncın zoruna qırx nəfərlik qoruqçu dəstəsinin köməyilə vuruşa- vuruşa saraydan, daha sonra isə Bağdaddan çıxa bildi.

Qara Yusif Bağdad hasarlarının yaxınlığındakı düşərgə salmış qoşunlarının yanına gəldi, əmirləri yığıb dedi:

– Biz sabah Bağdada hücum edəcəyik, onu alıb Əhmədi cəzasına çatdıracağıq.

Qara Yusifin qardaşı Yarəli ehtnyatla dedi:

— Bizim Bağdad kimi möhkəm bir şəhəri almağa zorumuz çatır? Axı indi sultan Əhməd çox zorludur.

Qara Yusif qardaşına cavab vermədi, əmirlərə döndü:

– Gedin, dincəlin, sabah Bağdadı almalıyıq,—dedi.

Qara Yusif bütün gecəni çimir almadı. O, Bağdad hasarlarını aşa bilməyəcəyinə əmin idi, divarları uçurmağa da gücü çatmazdı. Bağdada yalnız hiylə ilə girmək olardı, əsas məsələ Bağdad darvazalarını açdırmaq idi. Çox fikirləşəndən sonar Qara Yusifin eyni birdən açıldı, gülümsündü, rahatlandı və tezliklə yuxuya getdi.

Qara Yusif qoruqçubaşına onu subhçağı durquzmağı əmr etmişdi. Qoruqçubaşı onun yalnız səhərə yaxın yuxuya getdiyini bilsə də, əmr əmr idi. Heç gözünün açısını almağa belə macal tapmamış Qara Yusif, qoruqçubaşı çağıran kimi yatağından qalxdı və əmirləri çağırdı:

– Gedin arvad uşaqlarınızı doldurun arabalara, atları, dəvələri yükləyin, bir neçə nəfərə tacir paltarı geyindirin və tez Bağdada yola salın. Çərilərimizin hamısı atlansınlar. Keşikçilər ticarət karvanını içəri buraxmaq üçün darvazaları açan kimi atları dördnala çapıb şəhərə doluşmalıyıq. Ondan sonra işimiz çətin olmayacaq.

Yarəli dilləndi:

— Birdən keşikçilər Bağdad darvazalarını açmadılar. Axı sənin saraydan vuruşa-vuruşa çıxmağın hamıya məlumdur. Həm də sultan Əhmədi hədələmisən. Çox güman ki, o, şəhər darvazalarını möhkəm bağladıb.

Qara Yusif onunla razılıq əlaməti olaraq başını tərpədi vədedi:

—Bəli, elə də ola bilər. Bu barədə də fikirləşmişəm. Karvanı içəri buraxmasalar üç atlı ağ bayraqla darvazaya yaxınlaşacaq. Mənim sultan Əhmədə namə yazdığımı deyib, onun yanına getmək istədiklərini bildirəcəklər. Gözətçilər elçiləri buraxmaq üçün darvazaları aralayan kimi karvandakı əsgərlər tökülüşüb içəri doluşacaq, keşikçiləri aradan götürüb darvazaları taybatay açacaq, hamımız içəri doluşacağıq.

Qara Yusifi dinləyən əmirlər başçılarının hərtərəfln fikirləşmək qabiliyyətinə valeh olur, fərəhlənirdilər. Onların məhəbbət dolu gözləri Qara Yusifə zillənmişdi.

Müəyyən olunmuş vaxtda karvan yola duşdü. Yarəli fikirləşən kimi oldu, keşikçilər darvazaları açmaqdan imtina etdilər. Dedilər ki, sultan Əhmədin əmri belədir. O bildirib ki, Qara Yusifin qoşunları Bağdad ətrafından getməyincə darvazalar açılmayacaq. Qara Yusifin ağ bayraqla üç atlı göndərmək tədbiri nəticə verdi, onun qoşunları yarıaralı darvazaları zəbt edib şəhərə doluşa bildilər. Qara Yusif çox da ciddi müqavimətə rast gəlmədi, Bağdadı asanlıqla aldı və atını tələsik saraya çapdı. Qara Yusif sultan Əhmədi sarayda tapmadı, onun bir az əvvəl şəhərin əks istiqamətində olan sarayın yaxınlığındakı darvazalardan qaçdığını bildirdilər. Qara Yusif sultanı əsir eləyib gələcəkdə ondan istifadə etmək fikrində idi. Buna baxmayaraq o, sultan Əhmədi təqib etməyi lazım bilmədi.

Qara Yusif Bağdadı aldığı günün səhəri oğlanları İsfəndiyar və İspəndlə, onların anası, dağlar gözəli arvadı Şəhla ilə sultan Əhmədin sarayında yeməyə əyləşəndə quşbaşı qar yağmağa başladı. Bağdada girmələrinin birinci günü üstünlüyü ona vermiş ərinin nəvazişindən qanadlanmış Şəhla xanım Qara Yusifin başına dolanır, xidmətçiləri azad edib ona özü qulluq göstərirdi. Şəhla xanım elə

zənn edirdi ki, əri onu çox sevdiyinə görə üstünlüyü ona vermişdir. Əslində isə Qara Yusif o birinci gecə, sevimli oğlanları İsfəndiyarla İspəndin xatirinə onların anasına üstünlük vermişdi. Bağdadı almasına, Şəhla gözəlin onun başına dolanmasına baxmayaraq, Qara Yusifin eyni açılmırdı. O, əmir Teymurun İldırım Bəyazidi məğlub etməsi, hətta onu əsir alması xəbərini eşitmiş və çox narahat idi. Ona tamamilə aydın idi ki, Teymurləng onu İldırım Bəyaziddən sonra ən təhlükəli rəqib hesab edir və şübhəsiz ki, tezliklə Bağdada hücum edib onunla haqq-hesabı çürütməyə çalışacaq.

Şəhla xanım ərinin onun canfəşanlığına əhəmiyyət verməməsindən pərt oldu, bir kənara çəkilib bikef oturdu. Oğlanları İsfəndiyarla İspənd də süfrənin arxasından qalxıb analarının sağında və solunda oturdular. Qara Yusif xəyal aləmindən ayrılıb başını qaldıranda süfrənin ətrafını boş, arvadının və oğlanlarının bir tərəfdə oturub ona baxdıqlarını gördü. O gülümsündü:

– Nə olub belə kənara çəkilmisiniz?—soruşdu.

Şəhla xanım küsgün:

– Elə fikrə getmisən ki, elə bil Bağdadı almamısan, sarayda deyilsən, səni Bağdadda zindana salıblar.

Qara Yusif xəyala dalmasının səbəbini açmadı. Həm də o fikirləşdi ki, Teymurləng artıq Səmərqəndə qayıdıb, bu yerlərə gəlmək istəsə də, ancaq yaz girəndən sonra gələ bilər. Hələlik qışdır, allah kərimdir. Qara Yusif durdu, artıq yetkin oğlanlar olmuş İsfəndiyarla İspəndin çiyinlərindər tutub silkələdi, arvadının da ürəyini almağa çalışdı və dedi.

– Yaxşı, siz gedin, indicə Yarəlini, əmirləri buraya məsləhətləşməyə çağıracam.

Şəhla xanımla oğlanları gedəndən sonra vəzir gəldi, Qara Yusif əmirləri çağırmağı təxirə saldı, ağıllı vəzirlə səhərdən bəri ona əziyyət verən fikirlər barəsində məsləhətləşməyi qət etdi və öz mülahizələrini ona danışdı. Qara Yusifi diqqətlə dinləyən vəzir, son vaxtlar titrəməyə başlamış sağ əlini adəti üzrə saqqalına apardı, bığlarını eşdi və dedi.

— Hökmdar, sən düz fikirləşmisən. Mən də belə hesab eləyirəm ki, Teymurləng səni rahat buraxmayacaq. Ancaq sən nahaq yerə əmir Teymurun Səmərqənddən buraya gəlməsini gözləyirsən. Bilirsən ki, əmir Teymur qocalıb, tutduğu yerləri oğlanlarının arasında pay-püşk eləyib. Təbriz, Azərbaycan, bütün bu yerlər onun dəli oğlu Miranşaha düşüb. Teymurlənk sənin üzərinə Miranşahı göndərə bilər.

Qara Yusif vəzirin sözünü kəsmədi, o çox geniş danışdı, hücumun nə vaxt ola biləcəyi, qoşunların nə qədər olacağı, hər şey barəsində öz mülahizələrini bütün təfərrüatı ilə söylədi. Qara Yusif onun cavabında dedi:

— Elədir, vəzir. Dünya fatehi Teymurləng qocalıb, bir olan tanrının hüzuruna getməsinə bir şey qalmayıb. Mərhum babamın arzusunun həqiqətə çevrilməsi bununla bağlIdır. Biz indi zorluyuq və məncə, biz bu dəfə qaçmamalıyıq. Miranşah əmir Teymur deyil, onun öhdəsindən gələ bilərik.

Vəzir dinmədi. Qara Yusif Bağdadı alması münasibətilə sarayda böyük ziyafət qurmaq əmrini verib vəzirini yola saldı və əmirləri çağırmaq fikrindən daşındı.

Qara Yusif qış aylarını Bağdadda kef məclislərində, ziyafətlərdə keçirdi, arada ova da çıxdı. Lakin Qara Yusifin fikri-xəyalı həmişə qarşıda onu gözləyəcək və ola bilsin ki, həlledici olacaq döyüş idi. Qara Yusif Miranşahla Bağdad divarları arxasında gizlənib hücumları dəf etmək yolu ilə vuruşmaq istəmirdi. O, açıq döyüş meydanında düşmənlə üzləşmək fikrində idi. O bu fikrini uzun müddət ürəyində fırladı, yalnız yaz girəndə vəzirini, qardaşı Yarəlini, əmirləri yanına çağırıb onlara dedi:

— Yaz qapının ağzındadır, havalar yaxşı, yumşaq keçir, biz əmir Teymurun qoşunları ilə döyüşə hazır olmalıyıq.

Vəzir Qara Yusifə sözünü sona kimi söyləməyə imkan vermədi:

— Hökmdarım, lap vaxtında çağırmısan əmirləri. Kəşfiyyat xəbər gətirib ki, əmir Teymur sənin üzərinə oğlu Miranşahı deyil, nəvəsi Əbubəkri, Miranşahın oğlunu göndərib. Əbubəkr artıq yoldadır, Fərat çayına tərəf gəlir. Yolboyu bir çox

əmirlər ona qoşulublar, qoşunları lan çoxalıb. Ancaq bizi Bağdad divarları qoruyar.

Qara Yusnf ciddiləşdi. Gündən yanmış sifəti daha da qaraldı, baxışları daha da sərtləşdi. O, saqqalını ovcuna doldurub dartışdırdı. Hamının gözləri onda idi və bilirdilər ki, hökmdar indicə qərar qəbul edib söyləyəcəkdir. Qara Yusif tezliklə əlini saqqalından çəkdi və dedi:

— Vəzir, nahaq elə hesab eləyirsən ki, Bağdad hasarları bizi qoruya. Söyləyirsən ki, onlar lap coxdurlar. Şəhəri mühasirəyə salıb lap bir il oturarlar. Məgər bilmirsən ki, onlar Əlincə qalasını on ildən artıq mühasirədə saxladılar. Onlar Bağdadı da beləcə mühasirəyə salıb camaatı acından, susuzluqdan qırarlar, qoşunlarımızı da həmçinin. Bağdad tələyə çevrilər bizdən ötrü. Yox, biz Bağdadda oturub düşməni gözləməyəcəyik, Əbubəkrlə açıq savaşa girəcəyik.

Qara Yusifin sözlərini bir neçə əmir, həmçinin Yarəli tam sükutla qarşıladılar. Vəzir də bir söz demədi. Lakin əmirlərin bir neçəsi narazı qaldı və onlardan biri dilləndi:

— Onlar çoxdurlar, lap çox, zorumuz çatmaz.

Qara Yusif başını tərpətdi:

— Ola bilər ki, bizlərə zor gəldilər. Ancaq bizim ayrı yolumuz yoxdur, biz onlarla mutləq vuruşmalıyıq,—dedi, vəzirinə və qardaşı Yarəliyə baxdı. Qara Yusif onların heç birinin danışmaq fikrində olmadıqlarını görüb:

— Yaxşı, gedin, hazırlıq görün. Biz Fərat çayının sahilinə, döyüş meydanına Əbubəkrdən tez çatmalıyıq.

Qoşun başçıları getdilər. Bir həftədən sonra Qara Yusifin qoşunları artıq Fərat çayı yaxınlığındakı böyük düzənlikdə səf-səf Əbubəkrin qoşunları ilə üz-üzə düzülmüşdülər. Qara Yusif qoşunlarının sayca onunkundan azı üç qat çox olmasını görüb döyüşə girməyə hazırlaşmasına ötəri də olsa peşman oldu. Ancaq daha gec idi, həm də o necə olursa-olsun. Teymurlngin qoşunları ilə üzləşmək, zorunu sınamaq istəyirdi.

Döyüş Əbubəkrin qoşunlarının hücumu ilə başladı Böyuk talanın bahar günəşinin ılıq şüaları altında nazlanan gülü-çiçəyi bir an içində tapdalanıb məhv edildi.

Qan su yerinə axdı. Düşmən qoşunlarının sayca xeyli üstün olmasına baxmayaraq, Qara Yusifin əsgərlərinin saflərinin uzun müddət dağıtmaq mümkün olmadı. Günortadan sonra Yarəlinin başçılıq etdiyi sağ cinah geriləməyə başladı Qara Yusif o tərəfə baxanda qardaşı Yarəlinin atdan yıxıldığını gördü. Onu düşmən əsgərləri mühasirəyə salıb neçə yerdən yaralandı. Bu mənzərəyə çox baxa bilməyən Qara Yusif elə bir nərə çəkdi ki, qarşısındakı rəqibləri özlərini itirdilər. Qara Yurif onları ot kimi biçməyə başladı. Ancaq bu uzun sürmədi. Sağ cinahı sınmış qoşunun üstünə Əbubəkrin sel kimi axan qoşunları Qara Yusifin qoşun səflərinin arxasına keçə bildilər. Bütün səflərdə ərlərini, qardaşlarını müşayiət eləyən qaraqoyunlu ailələri bu qoşunun hücumuna məruz qaldılar. Qara Yusif arxadan gələn çığır-bağırı eşidib geri çəkilməli, arvad-uşağın müdafiəsinə tələsməli oldu. Qara Yusif əsir alınmış ailələrin bir çoxunu, o cümlədən öz arvadlarını və uşaqlarını xilas edə bildn, ancaq Şəhla xanımı tapa bilmədi. Onu əsir edib apara bilmişdilər. Qara Yusif əsirlikdən xilas edilmiş ailələri, onlarla birlikdə hərəkət edən bütün mal- qaranı böyük bir silahlı dəstənin əmirinə tapşırıb dedi:

– Siz geri çəkilin, birbaşa Dəməşqə tərəf. Siz uzaqlaşana kimi düşmənin qabağını saxlamağa, sonra sizin ardınızca Dəməşqə tərəf geri çəkilməyə çalışacağıq.

Qara Yusif sözlərini deyib əhatəsində olan əsgərlərlə döyüş meydanına atıldı.

Qara Yusif böyük rəşadət, dəyanət hesabına Teymurləngin qoşunları ilə hava qaralana kimi vuruşa bildi. Qaranlıq düşən kimi tərəflər çəkildilər, artıq özününkü ilə düşməni müəyyən etmək mümkün deyildi. Qara Yusif təcili Dəməşqə sarı geri çəkilməyi əmr etdi. O, Əbubəkrin onları təqib edəcəyinə əmin

idi, ancaq Əbubəkrə böyük itki verdiyindən, onun tezliklə özünə gələ biləcəyinədə o inanmırdı. Ertəsi gün Qara Yusifin toşunlarını qarşısında görməyən Əbubəkr onu təqib etmək fikrinə düşmədi və kəşfiyyat rəisini çağırdı:

– Təcili kəşfiyyatçılar göndər Qara Yusifin haraya çəkildiyini öyrənsinlər,—deyib kəşfiyyat rəisini yola salaraq qoruqçubaşına çevrildi:—Əmirlərə çatdır döyüş meydanında şəhid olanların hamısını yığıb basdırsınlar. Qara Yusifin əsgərlərini də, onlar da bizdəndirlər, müsəlmandırlar.

Əbubəkr çadırın çıxışına tərəf gedən qoruqçubaşını əylədi:

– Qara Yusifin də yaralı çərilərinə yardım göstərsinlər. Sağalmış əsirlər bizə lazım olacaq,—dedi. Qoruqçubaşı çadırdan çıxanda Əbubəkr onu bir də əylədi:—Əmirlərə de yanıma gəlsinlər.

Əmirlər gələn kimi Əbubəkr onlara oturmağı təklif etmədən dedi:

– Daha burada qalmağa ehtiyac görmürəm. Şəhid olanların dəfn mərasimini başa çatdıran kimi yola düşürük, birbaşa Təbrizə. Qoy kəşfiyyatçılar Qara Yusif barəsində xəbəri oraya gətirsinlər.

Təbrizə kələndən bir necə kün sonra Qara Yusifin Dəməşqdə olması xəbərini almış Əbubəkr mirzəsini çağırtdırdı və dedi:

– Yaz, Şam naibi Tahirə yaz ki, Qara Yusifi həbs etsin və mənim sərəncamımı gözləsin.

...Şam naibi Tahir Qara Yusifi həbs etməyi Dəməşq hakimi Şeyx Mahmuda tapşırdı. Şeyx Mahmud isə Qara Yusif Dəməşqə gələni onunla dostlaşmışdı. O, əmir Tahirdən dostunu həbs etmək tapşırığını alanda özunü itirdi. O, əvvəl Qara Yusifə qaçmağı təklif etmək istədi, ancaq bu fikrindən daşındı, fikirləşdi ki, madam ki, Əbubəkr Qara Yusifi həbs etmək əmrini verib, Qara Yusif hara qaçsa, onu tapdırıb öldürtdürə bilər, indi həbsxana ondan ötrü ən təhlükəsiz yerdir. O, Qara Yusifi yanına çağırıb dedi:

– Əmir Əbubəkr əmir Tahirə əmr edib ki, səni həbsə alsın. Əmir Tahir səni dustaq etməyi mənə tapşırıb.

Qara Yusif acı-acı gülümsündü:

– Bəs nə əcəb öldürmək əmrini verməyib?—soruşdu və sualına özü cavab verdi:

—Görünür babası əmir Teymurun sərəncamını gözləyir.

Şeyx Mahmud Qara Yusifin gülümsünməsini yersiz saydı:

– Səni dustaq eləyəcəyəm. İndi səndən ötrü ən təhlükəsiz yer mənim çərilərimin nəzarəti altında olan dustaqxanadır,—dedi, Qara Yusifin onun sözlərinə necə münasibət bəsləməsini yoxlamaq üçün diqqətlə ona baxdı, onda heç bir dəyişiklik görməyib əlavə etdi:

– Tək olmayacaqsan, darıxmazsan, dostun sultan Əhmədlə bir yerdə olacaqsan.

Qara Yusif ürəkdən küldü:

– Sən nə danışırsan, ay kişi, haradan kəlib bura cıxdı mə- nim dostum sultan Əhməd?

– Onu da Əbubzkrin əmri ilə dustaq eləmişik, sənin bura gəlişindən bir neçə gün qabaq.

Qara Yusif ciddiləşdi:

– Yox, mən onu görmək belə istəmirəm. O mənə iki dəfə xəyanət eləyib, namərddir. Bir görmüsən namərdi, bir də görsən namərdsən, deyiblər ata-ababalar.

Şeyx Mahmud çiyinlərini çəkdi:

– Özün bilən yaxşıdır. Ancaq yaxşı imkandır. Axı o sultandır, padşahdır, onunla müttəfiqlik gələcəkdə, əmir Teymur o dünyalıq olandan sonra sənə gərək olar. Ataların başqa məsəli də var: qurdla yoldaşlıq elə, çomağını yerə qoyma, indi sən də çomağını əlində həmişə hazır saxlarsan.

Qara Yusif xeyli fikirləşdi və:

– Yaxşı, qoy sən deyən olsun,—dedi.

Sultan Əhməd Qara Yusifi görəndə aralarında heç bir şey baş verməyibmiş kimi onu sevinclə qarşıladı.

— Xoş gördük, qardaşım. Qəribədir, neçə illərdir ki, biz bir-birimizdən ayrıla bilmirik. Yollarımız ayrılır, gedirik, ancaq haradasa yenə qarşılaşırıq, birləşirik,—dedi.

Qara Yusif Şeyx Mahmudla söhbətini unutmasa da, sultan Əhmədi görəndə daxili qaynadı, onu gülərüzlə qarşılamış sultanı zəhərləmək istədi, ancaq boğazına gəlmiş sözləri geriyə qaytardı. Sultan Əhmədin ona uzadılmış əlini tutdu və dedi:

— Elədir, sultan Əhməd. Bizim yollarımız ayrılır, tale elə gətirir ki, yenə birləşirik. Ancaq bir şeyi düz demədin. Biz səninlə qarşılaşmırıq, yollarımız birləşir, yapaşı oluruq. Çalışmalıyıq ki, həmişə yanaşı olaq, qarşılaşmayaq, qarşı- qarşıya gəlməyə məcbur olmayaq.

Sultan Əhməd Qara Yusifin sözlərinin mənasını yaxşı başa düşdüsə də, özünü bilməməzliyə qoydu. Qara Yusif bunu gördü, gülümsündü, saqqalını ovcuna doldurdu, ancaq bu dəfə onu didişdirmədi, səliqə ilə sığalladı.

Qara Yusifi həbs edəndən yarım ay sonra Şeyx Mahmud onun yanına gəldi və Misir məmlükü sultan Fərəcin əmrini ona və sultan Əhmədə oxudu. Əmrdə deyilirdi ki, Şeyx Mahmud bu sərəncamı alan kimi Qara Yusifi edam etsin, sultan Əhmədi isə onun yanına göndərsin.

Həmişə ölümün gözünə dik baxmış, heç bir şeydən hürkü bilməyən Qara Yusif bu dəfə özünü bir qədər itirdi. Bu. Şeyx Mahmudun nəzərindən qaçmadı, o, cəld dedi:

— Sultan Fərəc deyil, lap əmir Teymurun özü belə yazsa, əmri heç vaxt yerinə yetirən deyiləm. Şübhəsiz ki, bu mənə çox baha otura bilər, ancaq mən dosta əl qaldıran namərdlərdən deyiləm. Necə deyərlər, dost yolunda tufan gərək.

Qara Yusif özünü toxtatdı və dedi:

— Dostum Şeyx Mahmud, bilirsən ki, ölümdən Qorxum yoxdur,ancaq indi ölmək istəmirəm. Ona görə istəmirəm ki, əmir Teymurun axırının çatdığını hiss edirəm. İndi babamın müqəddəs arzusunun həqiqətə çevrilməsinə az qalan bir vaxtda, Təbriz taxtını tutmaq, qüdrətli Azərbaycan dövləti yaratmaq imkanı

qapının ağzında olan bir vaxtda ölümə getmək istəməzdim. Ancaq kəndiri öz boğazımdan çıxarıb sənin boğazına keçirilməsinə də razı olmaram.

Sultan Fərəcin əmrindən xəbər tutandan sonra nitqi batmış sultan Əhməd Şeyx Mahmudla Qara Yusifin söhbətləşməsi zamanı özünü ələ ala bildi və dedi:

– Yaxşı, ay kişi, kimdir indi Şeyx Mahmudun boynuna kəndir salan? O öz işini yaxşı bilir. Bilir ki, əslində sultan Fərəc də bizim öldürülməyimizin tərəfdarı deyil, əmirlərini Teymurləngin qorxusundan verir.

Şeyx Mahmud söhbəti uzatmaq istəməyərək qalxdı və:

— Sultan Əhməd düzkün fikirləşib. Teymurləng uzaqdadır, onun əlinin bir də bu yerlərə catmasına inanmıram. Görünür, ömrünün axırının çatmasını hiss eləyib, yoxsa torpaqlarını oğlanları arasında bölüşdürməzdi. Deyirlər, o, Qarabağdan Səmərqəndə yola düşəndə, yolda, Nemətabad civarında nəvəsi Ömər Mirzəyə böyük toy eləyib, Azərbaycanı, Ərməniyyəni, bir sıra başqa torpaqları oğlu Miranşahın, Ömər Mirzənin atasının əlindən alıb ona bağışlayıb,—dedi, qapıya sarı getdi, kandardan addayıb döndü.—Qardaşım, əmir Teymur o dünyalıq olunca burada mənim qonağımsan. Qonağın ev sahibindən ötrü qiymətini məndən pis bilmirsən.

Şeyx Mahmud getdi. O, hər gün olmasa da, hər iki-üç gündən bir dustaqxanaya gəlir, Qara Yusiflə sultan Əhmədə baş çəkirdi. Əslində, sultan Əhmədlə Qara Yusifin olduğu bina dustaqxana olmayıb, ikimərtəbəli, möhtəşəm bina idi və Şeyx Mahmud öz qonaqlarını hər şeylə, dünyanın bütün naz-neməti ilə təchiz edirdi. Qara Yusifin arvadları və uşaqları burada idi. Onlar dustaq ikən Qara Yusifin sevimli arvadı Qədəm Paşa bir oğlan doğdu. Qara Yusif gələcək arzuları üçün bu gözəl hadisədən istifadə etməyi qərara aldı və sultan Əhmədin yanına gəldi. O, gülə-gülə dedi:

– Sultan Əhməd, mənim indicə bir oğlum da dünyaya gəldi, istəyirəm onun adını sən qoyasan.

Şahlıq, sultanlıq adətlərinin bütün incəliklərini bilən sultan Əhməd Qara Yusifin uzaqgörənlnyinə heyran qaldı və dedi:

— Belə görürəm, mənim arzumdan asılı olmayaraq, sən Təbriz taxtına yiyələnmək fikrindən əl çəkməmisən.

Qara Yusif ona fikrini sona kimi söyləməyə nmkan vermədi:

— Bu məndən ziyadə mərhum babamın arzusu idi. Bir də indi bunun işə nə dəxli? Söhbət sadəcə olaraq oğluma ad qoymaqdan gedir.

Sultan Əhməd gülümsündü:

— Bəli, elədir, əgər sənin oğluna adı mən versəm, demək onu özümə oğul da hesab eləyə bilərəm. Buradan belə cıxır ki, sənin oğlun Pir Budaq özünü şah nəslindən hesab eləyə bilər.

Qara Yusif də külmsündü:

— Demək, oğlumun adını Pir Budaq qoyursan.

Sultan Əhməd dodaqlarına qondurduğu təbəssümlə:

— Hə, Pir Budaq qoyuram, and icirəm ki, bundan sonra Təbriz taxtında gözüm olmayacaqdır. O taxtı səninlə mənim oğlumuz Pir Budağa bağışlayıram. Ərəb İraqı isə mənim olmalıdır. And iç ki, Ərəb İraqını, Bağdad taxtını qaytarmaqda mənə kömək eləyəcəksən.

Sultan Əhməd danışdıqca dodaqlarındakı təbəssüm qeyb olurdu. O ciddiləşdi, Qara Yusif də tam ciddi görkəm alaraq:

— And içirəm,—dedi.

Pir Budağın dünyaya gəlməsilə əlaqədar söhbətlərindən bir müddət keçmiş bir gün nahardan sonra Qara Yusif sultan Əhmədlə nərd oynayan zaman dedi:

— Artıq bir ilə yaxındır ki, səninlə dustağıq. Bu müddətdə heç vaqiyə gördüyüm olmayıb. Ümumiyyətlə, çox nadir hallarda yuxu görürəm. Bu gecə çox qəribə bir vaqiyə görmüşəm.

Sultan Əhməd Qara Yusifin yuxusunda nə gördüyü ilə maraqlanmadı, heç nə soruşmadı. Qara Yusif buna əhəmiyyət verməyib sözünə davam etdi:

— Yuxumda vördüm ki, əmir Teymurun yanına vəlmişəm, o da məni çox yaxşı qarşıladı, barmağından bir üzük çıxarıb mənə bağışladı.

Sultan Əhmədin üzü güldü və dedi:

– Çox yaxşı yuxu görmüsən, hökmdarlığa çatacaqsan. Bu isə əmir Teymurun ölümündən qabaq mümkün deyil. Deməк, o ya ömrünü sənə bağışlayıb, ya da ki, bağışlamağa hazırlaşır.

Sultan Əhməd sozlərini deyib qurtarmamışdı ki, Şeyx Mahmud içəri girdi, onun kefi kök idi. O, gülə-gülə dedi:

– Siz bu gündən azadsınız, əmir Teymur Sahibqran ömrünü sizə bağışlayıb.

Qara Yusiflə sultan Əhməd heyrətlə baxışdılar. Şeyx Mahmud bu baxışların mənasını başa düşmədi, bunu onların sevinməsi əlaməti kimi qəbul edib:

– Sultan Əhməd, sən tamamilə təksən, həndəvərində bir adamın da yoxdur. Sənə yüz min dirhəm pul, üç yüz də at verəcəyəm. Adamları özün yığarsan,—dedi və üzünü Qara Yusifə çevirdi:

– Sənin elə burada, Dəməşqdə xeyli adamın var. Buna baxmayaraq sənə də yüz min dirhəm pul və üç yüz at verəcəyəm.

Şeyx Mahmud sözlərini deyib bir müddət dinməz dayandı, Qara Yusiflə sultan Əhmədə baxmaqda davam etdi. Hiss olunurdu ki, o daha nəsə demək istəyir, ancaq tərəddüd içindədir. Qara Yusif bunu hiss etdi və dedi:

– Deyəsən yenə nəsə söyləmək istəyirsən?

Qara Yusifin gsöməyə yetməsi Şeyx Mahmudun tərəddüdünə son qoydu. O dedi:

– Düzünü axtarsan, demək istəməzdim, ancaq başqa çarəm yoxdur. Sizi azad etməyi sultan Fərəc tapşırmayıb, bunu mən özüm eləyirəm. O özünü həmişə əmir Teymurun yaxın adamı kimi aparıb, axıra kimi də ona sadiq qalıb. İndi o, əmir Teymurun oğlanlarına, nəvələrinə quyruq bulamağa başlayacaq. Fikrim onu aradan götürməkdir və bu işdə sizə arxalanmaq istərdim.

Sultan Əhməd o saat baş qaçırdı:

– Özün indicə söylədin ki, mənim başımda bir kimsəm yoxdur, sənə necə kömək əli uzada bilərəm?

Qara Yusif isə qətiyyətlə dedi:

— Biz bütün zorumuzu birləşdirib nakahani hücuma keçsək, üstünlüyün bizim tərəfimizdə olacağı şübhəsizdir.

Teymurləngin ölümündən sonra Qara Yusif bu yerlərdə qalmaq fikrində deyildi, onun xəyalı daima Təbriz, Azərbaycan taxtı ətrafında cövlan edirdi. O, Teymurləng öləndən sonra Ömər Mirzənin ona qarşı çıxmış atası Miranşah, qardaşı Əbubəkrlə Azərbaycan, Ərməniyyə və Əcəm İraqı üstündə əlbəyaxa olması xəbərini almışdı və artıq vəziyyəti əlverişli hesab edirdi. O, yeni qüvvə yığmaqdan ötrü Mərdinə, oradan Bidlis hakimi əmir Şəmsəddin Şərəf oğlunun yanına gəldi, daha sonra isə Teymurləngin tərəfinə keçmiş Van hakimi İzzəddin Şiri məğlub etdi. Qara Yusifin qüvvələri xeyli artdı, onun başında artıq on min nəfərlik ordu var idi.

Qara Yusif Təbriz üzərinə birbaşa gəlməyib, daha əlverişli şəraiti gözləməyi qət etdi. O, Təbriz taxtı uğrunda mübarizə aparanları bir gün də gözdən qoymur, kəşfiyyatçıları ona tez- tez xəbər gətirirdilər. Qışı Van vilayətində keçirən Qara Yusif, demək olar ki, hər gün kəşfiyyat rəisini çağırır, məlumat istəyirdi. Qara Yusifin növbəti çağırışı zamanı kəşfiyyat rəisi ona ətraflı məlumat verib dedi:

— Hökmdar, keçən ilin haziran ayından, ocaq və şubat ayına kimi neçə yerdə olmusan, axırı burada məskən salmısan. Bu müddətdə Ömər Mirzə hakimiyyət uğrunda mübarizədə, artıq atası Miranşaha və qardaşı Əbubəkrə qalib gəlmiş, onları tutub dustaq etmişdir. Ömərin qardaşı yaxın adamlarının köməyilə tezliklə dustaqxanadan qaça bilmiş, atasını da dustaqdan qurtarıb Sultaniyyəni zəbt edərək, onu yenidən taxtda oturtmuşdur.

Kəşfiyyat rəisini diqqətlə dinləyən Qara Yusif rəisin təfərrüata varmasından darıxdı və qətiyyətlə onun sözünü kəsdi:

— Kişi, Təbriz taxtı ətrafında baş verənlərdən danış,— dedi.

Kəşfiyyat rəisi hökmdarının hövsələsiz, ancaq mühüm bir məsələ barəsində qərar qəbul edəndə yüz ölçüb bir biçən adam olmasını bildiyindən təfərrüata yol verməyi lazım bilmişdi. Onun söylədiyi bütün hadisələr—Ömər Mirzə, Əbubəkr

və Miranşah arasında gedən vuruşmalar bilavasitə Azərbaycanla, Qara Yusifin dili ilə desək, Təbriz taxtı ilə bağlı idi. Bir fərqi var idi ki, o, Qara Yusifi maraqlandıran məsələləri əavələ salmamasına heyfsləndi. Kəşfiyyat rəisi davam etdi:

– Elə indicə Təbriz barəsində danışmağa hazırlaşırdım,— dedi, boğazını arıdıb davam etdi:

– Əbubəkr atasını Sultaniyyədə taxta əyləşdirəndən sonra Təbrizə, qardaşı Ömər Mirzənin üzərinə yeridi. Ömər Mirzə Təbrizdən İsfahana qaçmalı oldu. Əbubəkr qardaşını təqib etmək məqsədilə Təbrizdə çox qalmadı, İsfahana tərəf getdi. Əbubəkr Təbrizin bir darvazasından çıxıb qurtarmamış, şəhərin o biri darvazlarından ocaq ayında əmir Bistam Cagir Təbrizə girdi. İndi nisan ayının başlanğıcıdır, amma Təbriz hələ ki, Bistam Cagirin əlindədir.

Başıaşağı oturub kəşfiyyat rəisini dinləyən Qara Yusif o, sözünü bitirəndə başını qaldırdı və:

– Hələ ki niyə?—soruşdu.

Kəşfiyyat rəisi son sözlərini deyib qurtaranda içəri girmiş vəzir kəşfiyyat rəisinin əvəzinə cavab verdi:

Ona görə ki, Şirvanşah əmir Şeyx İbrahim Təbrizə gəlməyə hazırlaşır. Şirvanşah indi çox zorludur, o, Gəncəni, Qarabağı da tutub, gürcü çarı da Şeyx İbrahimə qoşulub, Şəki hakimi Oeyid Əhməd də. Məsələ burasındadır ki, qaramanlı Yarəhməd, ərdəbilli Bistam Cagir də onun tərəfindədirlər.

Vəzir sözlərinin Qara Yusifə təsirini yoxlayırmış kimi danışığına ara verib ona baxdı. Adətən danışıqları başıaşağı oturub dinləyən Qara Yusif, bu dəfə nəzərlərini ondan çəkmirdi. Vəzir onun baxışlarını tutdu, Qara Yusif soruşdu:

– Vəzir, sözünü qurtardın?

– Yox.

– Bəs niyə susdun?

Vəzir nəzərlərini Qara Yusifdən cəkmədən davam etdi:

– Deyirlər Təbriz camaatını Baba Niki adlı bir dərviş Ömər Mirzəyə qarşı çıxmağa çağırıb. Təbrizlilərin müqəddəs adam hesab elədikləri Baba Nikin hərəkətləri Ömər Mirzəni qorxuya salmış, Ömər Mirzə hiylə yolu ilə onu saraya gətirdib öldürtmüşdür. Onu da deyim ki, Baba Nikidən sonra Təbriz camaatı Şeyx Əxi Qəssabla Qazi İmadəddinin başçılığı altında üsyan eləmiş və Şeyx İbrahimin yanına öz elçilərini göndərərək onu Təbrizə çağırmışdır.

Vəzir sözünü bitirib oturdu. Qara Yusif ondan yenə soruşdu:

– Sözünü söyləyib qurtardın, daha ayrı bir təzə xəbər yoxdur ki?

– Var,—deyə kəşfiyyat rəisi ayağa durmaq istədi. Qara Yusif onu oturtdu. Kəşfiyyat rəisi dedi:

– Lap təzə xəbər budur ki, Bağdada yiyələnə bilmiş sultan Əhməd də Təbriz üzərinə yürüşə hazırlaşır.

Qara Yusifin dalğın baxışları birdən dəyişdi, gözləri hiddətlə parladı:

– Nə söylədin? Sözlərin dəqiqdir?

– Kəşfiyyatçılarımız dünən axşam gəliblər, hökmdar. Onlar bu xəbəri Bağdadda öz qulaqlarıyla eşidiblər. Əlbəttə, sultan Əhmədin dilindən yox, yurüşə hazırlaşan minbaşıların, yüzbaşıların dilindən.

Qara Yusif vəzirinə:

– Vəzir, səni Mərdində tapandan sonra başıma gəlmiş qəzavünqədərin hamısını söyləmişdim. Bircə sultan Əhmədlə dustaqxanada bir yerdə olanda aramızdakı əhd-peyman barəsində bir söz danışmamışdım. Yox, unutmamışdım deməyi, fikirləşmişdim ki, görən bu neymanın axırı necə olacaq? Bu dəfədəmi sultan Əhməd mənə xəyanət eləyəcək?

Qara Yusif vəzirinə Pir Budağın dünyaya gəldiyi gün sultan Əhmədlə danışdığını söylədi. Vəzir gülümsündü və zarafatla dedi:

– Keçən ilin yayında, mənimlə Mərdində rastlaşanda dünyaya oğlun Cahanşah gəldi. Məncə o, dünyaya şahlıq eləmək üçün gəlib. Ona görə də sənin icazənlə adını Cahanşah qoydum. Deyəsən indi ondan əl çəkib Pir Budağı şah eləmək istəyirsən.

Qara Yusif vəzirin zarafatına əhəmiyyət vermədi, ciddiyyətlə sözünə davam etdi:

– Mən ona demişdim ki, çalış mənimlə üz-üzə gəlmə, əgər o, Təbrizi tutmaq fikrindədirsə, demək mənimlə üz-üzə gəlməli olacaq.—Qara Yusif kəşfiyyat rəisinə döndü:—Sultan Əhmədin o qədər qoşunu haradan ki, Bağdadı əldə saxlaya-saxlaya Təbrizin də üzərinə gəlir?

Kəşfiyyat rəisi cavabı kecikdirmədi:

– Sultan Əhməd kürdlərdən, hoyrotlardan, başqa soylardan başına xeyli çəri toplaya bilmişdir.

Vəzir Qara Yusifin güclə eşidiləcək səslə, ancaq çox böyük qətiyyətlə deyilmiş sözlərdən və kəşfiyyat rəisini azad etdikdən sonra dedi:

– Hökmdar, bəlkə gözləməyək, Şeyx İbrahimi də, sultan Əhmədi də qabaqlayıb Təbrizi tutaq?

Qara Yusif başını buladı:

– Yox, hələ vaxtı deyil. Şirvanşah İbrahimin təkcə Şirvanda deyil, Təbriz qarışıq bütün Azərbaycanda hörməti böyükdür. Təbriz camaatı onu yaxşı qarşılayacaq. Sultan Əhməd Şeyx İbrahimlə toqquşmalı olacaq. Bax, bu toqquşma bizə Təbrizin darvazalarını açacaq.

Qara Yusifin fikirləşdiyi kimi olmadı. Təbrizə daha yaxın olmaq üçün Naxçıvana gəlmiş Qara Yusif eşitdi ki, Şeyx İbrahim sultan Əhmədin Təbrizə yaxınlaşmasından xəbər tutub yazın ikinci ayında Təbrizə girməsi ilə çıxması bir olub. Naxçıvandan Van vilayətinə gəlib hadisələrin gedişini diqqətlə izləyən Qara Yusif payızın ilk günlərindən birində günortaya qalmış ikimərtəbəli evinin səfalı həyətinin bir tərəfində çarhovuzun kənarında oturub, orada sağ-sola üzən xırda, rəngarənk balıqlara tamaşa eləyə-eləyə dərin xəyala daldığı vaxt qoruqçubaşı ona yaxınlaşdı. Qara Yusif onun gəlişini hiss etməyib başını qaldırmadı. Qoruqçubaşı hökmdarı çox fikirli görüb sözünü demədi, dayandı, onun xəyaldan ayrılmasını gözlədi. Qara Yusif qeyri-ixtiyari başını qaldırdı, qoruqçubaşını görüb təəccübləndi. Qoruqçubaşı tez dilləndi:

— Hökmdar, Təbrizdən bir nəfər gəlib səni görmək istəyir,— dedi.

Təbriz sözünü eşitmiş Qara Yusif soruşdu:

— Kimliyini demədi?

— Dedi ki, sən onu tanıyırsan, adı Rəşiddir.

Qara Yusif nə qədər fikirləşdisə Rəşid adlı adamı yadına sala bilmədi və dedi:

— Qoy gəlsin.

Rəşid çarhovuzun yanına gəlib Qara Yusifə baş əydi. O, Qara Yusifi görən kimi tanıdı, ancaq onun artıq on üç il əvvəlki Qara Yusif olmadığı da xəyalından keçdi. Qara Yusif xeyli qocalmış, gündən yanmış sifətində, alnında zaman öz cığırlarını açmış, gözlərinin kənarları yığışmış, saqqalı, bığları callaşmışdı. Qara Yusifdə dəyişməz qalan bircə baxışlarındakı sərtlik, gözlərindzki od, bir də qıvraqlıq idi. Qara Yusif qarşısında dayanıb ona baxa-baxa gülümsünən cavanı tanımadı. Bu ucaboy, enlikürək, qara gözlü, qara saçlı, çatmaqaş, uzunsov sifətini qısa saqqal örtmüş cavana baxır, onu tanımaq istəyir, tez-tez Rəşid sözünü təkrar edirdi. Birdən Qara Yusifin sifəti dəyişdi, qətiyyətli gözlərinə mülayimlik çökdü və gülümsündü:

— Qoruqçubaşı yüzbaşı Rəşid bəy, eləmi?—soruşdu.

Rəşid gülümsünməkdə davam edə-edə başını tərpədib dedi:

— Elədir, hökmdar, Rəşidəm, sənin Təbriz sarayının qoruqçubaşısı.

Qara Yusif Rəşidi yanında əyləşdirdi və soruşdu:

— Danış görək Təbrizdə nə var, nə yox. İndi orada hakim kimdir?

Qara Yusif Təbrizdə baş verənlərdən xəbərdar idi. O bilirdi ki, sultan Əhməd Əbubəkrin Təbrizə yaxınlaşması xəbərini alan kimi yenə Bağdada qayıtmışdır. Ancaq o, Əbubəkrin şəhərə girib-girməməsindən xəbərsiz idi. Qara Yusifin sualı Rəşidin sifətindəki təbəssümü silib apardı. Rəşid dərindən köks ötürdü:

— Başı bəlalıdır Təbrizin, əldən-ələ keçir. Hər gələn də camaatı bir cürə soyur, qarət edir. Ancaq şükür ki, daha camaatın başlarından ehram düzəldən yoxdur.

Qara Yusifin Təbriz camaatının sultan Əhmədi necə qarşılaması maraqlandırdı. Rəşid dedi:

— Təbriz camaatı elə hesab eləyirdi ki, başı daşdan-daşa dəymiş sultan Əhməd Təbriz taxtında möhkəm oturacaq, şəhəri basqınçılardan qoruyacaq, Təbriz bir daha əldən-ələ keçməyəcək. Ona görə də şəhərlilər sultan Əhmədi yaxşı qarşıladılar. Ancaq tezliklə səhv etdiklərini başa düşdülər. Sultan Əhmədin başı yenə eyş-işrətə qarışdı, şəhərin qayğısına qalmadı, Əbubəkrin qoşunları görünən kimi Təbrizdən Bağdada qaçdı.

— Bəs Əbubəkr Təbrizi tutub?

Rəşid yenə ah çəkdi:

— O, Təbrizə gələn günə daş düşəydi. Əbubəkr şəhərə yaxınlaşanda Təbrizdə vəba xəstəliyi başlandı. İndi bu yayın istisində Təbriz camaatı vəba xəstəliyindən milçək kimi qırılır. O özü ilə atası Miranşahı da gətirib. Onlar şəhərə girmədilər, Təbriz yaxınlığındakı Şənbi Qazanda məkan tutdular.

Rəşid sözünü bitirdi, gəlişinin səbəbini demədi, Qara Yusifin soruşmasını gözlədi. Qara Yusif isə dinməz oturmuş, əlini çənəsinə dirəyib fikrə getmişdi. Rəşid sözünə davam etməyi lazım bildi:

— Hökmdar, sənin şöhrətin hər yana yayılıb. Məni sənin yanına Mahmud Ağa göndərib. O hesab edir ki, sənin Təbriz taxtına sahib durmaq vaxtın çatıb, hazırda sənə qarşı dura biləcək qüvvə yoxdur. Yeganə rəqibin Əbubəkrin öhdəsindən gələ bilərsən.

Rəşidi diqqətlə dinləyən Qara Yusif onun sözlərinə münasibətini bildirmədən Mahmud Ağanı soruşdu. Rəşid dedi:

— Qocalıb Mahmud Ağa. Deyir ki, gözümü bu dünyaya yumana kimi Təbrizin başı üstündə toplaşmış qara buludların dağılacağını, qüdrətli, özünü basqınlardan qoruya bilən Azərbaycan dövlətinin yarandığını görsəm özümü dünyanın ən xoşbəxt adamı sanaram.

— Çox qocalıb o?

— Çox qocalsa da, qıvraqdır.

Qara Yusifin dodaqları təbəssümlə kölgələndi:

— Toyun yaxşı yadımdadır. Neçə körpən var, Təbrizin əldən- ələ keçməsi sizinkilərə də ziyan gətiribmi?

Rəşidin gözləri nəmləndi:

— Babam rəhmətə getdi, əmir Teymurun dəli oğlu Miranşahım çəriləri onu böyük bacımın görüşünə Şəhri-Rəşidə gedəndə öldürdülər,—dedi, bir qədər susdu və:—Dölətindən beş körpəm var, böyük oğlum on iki yaşındadır. Daha iki oğlum, iki qızım da var. Böyük oğlumdan sonra dünyaya gəlmiş qızımı, bu yaxınlarda sultan Əhmədin çəriləri oğurlayıb onun sarayına aparmışlar. Sultan Əhməd mənim bu on yaşlı qızımı özü ilə Bağdada apardı. Mahmud Ağa nə qədər çalışdısa, qabaqlar məsləhətçisi olduğu, gecə-gündüz eyş-işrətdə olan sultan Əhmədi görməyə müvəffəq ola bilmədi.

Qara Yusif Rəşidin son sözlərinə o qədər də əhəmiyyət vermədi, onun fikrincə qəşəng qızın padşah hərəmxanasına aparılması adi haldır. Padşah gördüyü gözəli onun yaşından asılı olmayaraq rəiyyətindən ala bilər, qız xeylağının böyüməsinə nə var ki? O, bir neçə ildən sonra onun hərəmxanasındakı hərəmlərdən biri olacaqdı. Bu barədə fikirləşən Qara Yusif soruşdu:

— Necə dəfə evlənmisən?

Qara Yusifin sualı Rəşidə qəribə görünmədi, Təbrizdə də hər kişinin bir neçə arvadı olması təbii hal idi. Onun tanıdığı kişilərdən bircə atası ilə Mahmud Ağa istisna təşkil edirdi. O, Qara Yusifin sualını cavabsız buraxmasını onun nəzakətsizlik kimi qiymətləndirə biləcəyini fikirləşib dedi:

— Mən bir dəfə evlənmişəm, hökmdar.

Qara Yusifin xəyalı yenə Təbrizə ucduğundan verdiyi sualın cavabını eşitmədi. Qara Yusifi qoruqçubaşının gəlişi xəyaldan ayırdı. O dedi:

— Hökmdar, kəşfiyyat rəisi səni görmək istəyir.

Qara Yusif başını tərpədib razılığını bildirdi. Kəşfiyyat rəisi tələsik ona yaxınlaşıb dedi:

— Hökmdar, Əbubəkr Şənbi Qazandan çıxıb birbaşa sənin ustünə, Naxçıvana gəlir.

Qara Yusif yerindən durdu, Rəşid də qalxdı. Qara Yusif pıçıltı ilə dedi:

— Mən bunu çoxdan gözləyirdim, onun ardımca gəlməməsi məni təəccübləndirirdi. Fikirləşdiyim kimi oldu, bu lap yaxşıdır. Təbrizə gedən yol bu döyüş meydanından keçir.

Kəşfiyyat rəisinin gətirdiyi xəbərin Qara Yusifin ürəyindən olması Rəşidə qəribə göründü. O, Rəşidin yanında olmasını unudubmuş kimi öz-özünə danışır, pıçıldayırdı. Qara Yusif səsini birdən qaldırdı:

— Hə, Rəşid yüzbaşı, necə eləmək fikrindəsən? Qalıb Əbubəkrlə vuruşmaq, yoxsa Təbrizə qayıtmaq istəyirsən?—soruşdu.

Rəşid qətiyyətlə:

— Pıçıltı ilə söylədiklərini eşitdim. Sənin Təbrizə yolun bu döyüş meydanından keçir. Mən səninlə yanaşı həmin meydanda qılınc vurmaq istərdim.

Qara Yusif gülümsünüb onun çiyinlərini qucaqladı:

— Rəşid bəy, indicə əmirləri çağırtdıracağam. Onlar gələnə kimi bilmək istəyirəm—səni minbaşı eləyimmi?

Rəşid fikirləşdi:

— Yox, hökmdar, naşıyam, min nəfəri ölümə verərəm. Döyüş meydanında sənin qoruqçubaşın olmaq istərdim.

Qara Yusif vaxtilə Rəşidin, döyüş meydanında onun qoruqçubaşı olmaq istəməsini, lakin onu Təbriz sarayının qoruqçubaşısı təyin etdiyini yad eləyib gülümsündü:

— Qoy sən deyən olsun. Sənə yüz nəfər seçmə, igid çəri verərəm, onlar olarlar qoruqçu, sən də qoruqçubaşı,—dedi, hələ də ayaq üstə dayanıb sərəncam gözləyən kəşfiyyat rəisinə dedi:

— Tapşır Sədli oymağının başçısı əmir Pir Hüseyni, Əli Qaşini, əmir Qaranı, ümumiyyətlə Naxçıvandakı əmirlərin hamısını çağırsınlar mənim yanıma. Qoy onlar axşam namazından sonra gəlsinlər. Bir də Urmuya atlı göndərib xəbər elə ki, Urmu hakimi əmir Dizək öz qoşunu ilə Araz sahilinə gəlsin.

Kəşfiyyat rəisi baş üstə deyib getdi. Qara Yusif durdu və:

– Qoruqçubaşı Rəşid bəy, gedək nahar eləyək. Yoldan gəlmisən, mən də səni ac-susuz saxlamışam.

Rəşid Qara Yusiflə birlikdə onun iqamətkahına getdi. Əbubəkr qoşunlarının Naxçıvan üzərinə gəlməsi xəbərini alandan bir həftə sonra Qara Yusif öz qoşunlarını Arazın sol sahilnnə topladı. Arazın o biri, sağ sahilində Əbubəkrin qurduğu ordugahın ağ çadırları axşam qaranlığında görünürdü. Artıq payızın ikinci ayı olduğundan axşamlar nisbətən soyuq olurdu. Arazın sağ sahilində ucalan, yay vaxtları bomboz olan təpələr yaşıl rəngə girmişdi. Yarım ay əvvəl yağmış yağışlar bu torpaqları diriltmiş, sinəsinə yaşıl örpək çəkməyə şərait yaratmışdı.

Əbubəkrin ordugahını hərtərəfli öyrənməyə müvəffəq olmuş Qara Yusif düşmən qoşunlarının sayca çox olmasını nəzərə alıb, Arazı keçməməyi, düşməni bu işə sövq etməyi, Arazı keçməyə cəhd göstərərkən ona çoxlu itgi verib zəif salmağı qərara aldı. Qara Yusif əmin idi ki, Naxçıvanı tutmağı, onu məğlub edib əsir götürməyi qarşısına məqsəd qoymuş Əbubəkr Arazı keçməyə cəhd edəcəkdir. Qara Yusif onu tam hazırlıqla qarşılamaqdan ötrü qoşunlarını üç hissəyə böldü. O, sağ və sol cinaha nisbətən az qoşun yığıb, əsas qüvvəni hücumun gözlənildiyi mərkəzdə cəmləşdirdi. Qara Yusif sağ cinahdakı qoşunların başçılığını Sədlü oymağının başçısı əmir Pir Hüseynə, sol cinahı isə Urmu hakimi əmir Dizəkə tapşırdı, onların hər birinin ixtiyarına bir necə əmir verdi. Qara Yusifin özü isə Əli Paşa və əmir Qara ilə birlikdə mərkəzdə mövqe tutdu.

Döyüşə birinci Əbubəkr başladı, lakin o, çayı keçməyə təşabbüs göstərmədi. O, Arazın sağ sahilindən Qara Yusifin ordugahına ox yağdırdı. Qara Yusif də ox yağdırmaq əmrini verdi. Lakin oxlara qənaət etməyi, onları Əbubəkrin çayı keçməyə təşəbbüs göstərdiyi zaman üçün saxlamağı da tapşırdı.

Birinci döyüş hər iki tərəfə elə bir ziyan vermədi. Çərilərin bəzisi uzaq məsafədən atılan oxlardan yüngül yara almışdı. Ertəsi gün səhər tezdən Əbubəkr qoşununu sallara doldurub Arazı keçməyə başladı. Hava çiskin olduğundan ətraf

o qədər də yaxşı görünmürdü. Əbubəkrin Arazı keçmək məqsədinə mane olmağa hazır olan Qara Yusifin qoşunları düşmənin üzərinə ox yağdırmağa başladılar. Qalxanlarının arxasında daldalana bilmiş düşmən çəriləri də ox atmağa macal tapırdılar. Bir əlləri qalxanla məşğul olan düşmən çərilərinin tək əllə ox ata bilmələri Qara Yusifə, onun əmirlərinə qəribə göründü. Sallar sahilə yaxınlaşanda məlum oldu ki, əsgərlərdən biri iki qalxan saxlayır, o, biri isə ox atır. Buna baxmayaraq Əbubəkr Arazı böyük itgi hesabına keçə bildi. Oxdan yara almış düşmən əsgərləri Araza yıxılır, yaraları ölümcül olmayanlar da suda boğulurdu.

Qara Yusifin qoşunlarının ciddi müqavimətinə baxmayaraq, Əbubəkr öz qoşunlarını Arazın sol sahilinə çıxara bildi. Qanlı döyüş başlandı, vuruşmanın qızğın çağı Qara Yusifin səsi eşidildi:

– Haradasan, Əbubəkr? Bizim şəxsi düşmənçiliyimiz üzündən bu qədər adam tələf olur. İgidlik və bahadurluq naminə ikimizin qarşı-qarşıya gəlib vuruşmamız gərəkdir,—deyib Əbubəkri təkbətək döyüşə çağırdı. Əbubəkr Qara Yusifin çağırışını qəbul etmədi, qoşunlarını hücuma aparmaqda davam etdi. Qara Yusif Əbubəkrin onunla təkbətək döyüşdən imtina etməsini görüb özünü döyüşün ən qızğın yerinə vurdu. Hökmdarlarının igidliyindən, rəşadətindən, qorxmazlığından ruhlanmış Qaraqoyunlu çəriləri düşməni Araza tərəf sıxışdırmağa başladı. Əbubəkr vəziyyətinin ağırlaşmasını görüb böyük mühafizə dəstəsinin müşayiəti ilə özünü sala yetirib, Arazın sağ sahilinə çıxa bildi. Əbubəkrin qaçması döyüşün taleyini Qara Yusifin xeyrinə həll etdi. Cığatay qoşunu basıldı. Vahimə içərisində özlərini Araza atmaqla can qurtarmağa çalışan düşmən əsgərlərinin çox az qismi Arazın sağ sahilinə üzə bildi. Onların çoxu Qaratoyunlu əsgərlərinin oxlarının hədəfinə çevrilib çayın dibinə getdi. Qara Yusif çoxlu əsir götürdü.

Əbubəkrin üzərində parlaq qələbədən sonra Qara Yusifin Arazı keçib Təbriz üzərinə yürüş əmrini verəcəyini gözləyən, döyüş meydanında hökmdarı göz

bəbəyi kimi qorumuş, ona yaxın düşmək istəyən düşməni bir əmud zərbəsinin qurbanı etmiş Rəşid hökmdarın:

— Qənimətləri yığışdırın, ölüləri dəfn edin, yaralıları aparıb Naxçıvana gedirik,— deməsini eşidib möhkəmcə pərt oldu. O, hələ döyüşün qızğın çağında Əbubəkri üstələyəcəklərini hiss etmiş, Qara Yusifin tezliklə təntənə ilə Təbrizə daxil olacağını xəyalından keçirmnş, sevinmişdi. Rəşid Naxcçıvana kimi kefi kök, həmişə ciddiliyi, sükutu sevmiş, indi isə dil-boğaza qoymayan, gülüb danışan Qara Yusiflə birkə at sürüb, dinmirdi. Qoşun başçılarının əhatəsində olan Qara Yusnf onu görmürdü. O, birdən söhbətinə ara verib arxasına qanrıldı, gözləri nisbətən geridə qalmış Sədlü oymağının başçısı Əmir Pir Hüseyni axtardı. Onu görməyib Rəşidi səslədi.

— Rəşid bəy, gör əmir Pir Hüseyn harada qaldı?

Pir Hüseyn Qara Yusifin səsini eşidib atını mahmızladı, hökmdara yaxınlaşdı. Rəşid də özü hiss etmədən atını əmir Pir Hüseynin atı ilə yanaşı sürdü. Qara Yusif yenə əmirlərlə söhbətə girişdi. Ancaq o, hərdənbir qəm dəryasında üzən Rəşidə baxırdı. Qara Yusif bir qədər də irəlilədikdən sonra Rəşidə döndü:

— Rəşid bəy, hamı şadlanır, sən niyə belə qaradinməz olmusan? Lap ər kimi vuruşdun, igid oğlansan,—dedi, üzünü yenə əmirlərinə çevnrdi və yenə başı qarışdı. Bir neçə dəqiqədən sonra yenə Rəşidə döndü və dedi:

— Bildim niyə kefsizsən. Birbaşa Təbrizə getmədiyimizə görə, eləmi? Fikir eləmə, Təbrizə də gedəcəyik. Ancaq qabaqca Təbriz özü Naxçıvana gələcək, axı o, artıq bizimdir.

Rəşid Qara Yusifin sözlərini almadı. Qara Yusif bunu hiss etdi, ancaq Naxçıvana catana kimi daha Rəşidə fikir vermədi:

Naxçıvanlılar Qara Yusifi böyük təntənə ilə qarşıladılar. Onun çox güclü, məğlubedilməz hesab olunan düşmən üzərində qələbə çalması Teymurləngin çoxdan bəri ürəklərə doldurduğu gizli narahatlığı, qorxunu silib atdı. Qara Yusif həmin gün sarayda böyük ziyafət verd.

Arazsahili qələbədən bir həftə keçməmişdi ki, artıq Qara Yusifin sarayında qoruqçubaşı olmuş Rəşid nahardan sonra onun yanına gəlib sevinclə dedi:

— Təbrizdən sənin yanına elçilər gəlib.

Qara Yusif gülümsündü və:

— Sənə söylədim ki, Təbriz özü mənim yanıma gələcək,—dedi, elçilərin gəlməsinə icazə verdi. Rəşidə Qara Yusifin yolda ona dediyi sözlərin mənası indi gatdı, o gülümsünüb çıxdı.

Rəşid bilirdi ki, Qara Yusif heç bir elçini vəziri yanında olmadan qəbul etmir. O, xeyli qocaldığına görə son vaxtlar, əsasən çağırışla hökmdarın qulluğuna gələn vəzirin dalınca adam göndərəndən sonra elçilərin yanına qayıtdı, vəzir gəlib çıxan kimi onları əylədi, sonra onlarla birlikdə Qara Yusifin hüzuruna gəldi. Adətən Rəşid Qara Yusif bir adamı çağıranda ona xəbər verir, onu hökmdarın yanına müşayiət edir, ancaq özü Qara Yusifin yanında qalmayıb yan otağa keçirdi. Lakin o bu dəfə elçiləri içəri ötürəndən sonra getmədi, onların Qara Yusiflə danışıb danışıqlarına qulaq asmaq istədi. Ancaq o, Qara Yusifdən icazə almağı lazım bildi. Qara Yusif Rəşidin adətinə rəğmən çıxıb getməməsini nəzərdən qaçırmadı, bunun səbəbini duydu, Rəşidi icazə istəmək Əziyyətindən xilas etdi:

— Rəşid bəy, elçilər sənin doğma şəhərindəndir, istəyirsən qalıb onlara qulaq as.

Rəşid razılığını bildirib bir tərəfdə oturdu. Qara Yusifin göstərdiyi yerdə oturmuş elçilərdən biri, hökmdarın:

— Buyurun, mətləbinizi söyləyin,—deməsilə ayağa durub dedi:

— Hökmdar, mənim adım Xoca Seyid Məhəmməd Gecəcidir. Məni sənin hüzuruna Şeyx Qəssab göndərib.

Qara Yusif Şeyx Qəssabın adını eşitmişdi, onun Təbrizin hörmətli adamlarından olmasını bilirdi. Buna baxmayaraq, elçinin sözləri ona qəribə göründü. Şeyx Qəssab Təbrizin nə kələntəri, nə də naibi idi. Xoca Seyid

Məhəmməd Kecəci onun sözlərinin təəccüblə qarşılandığını görüb sözünə davam etdi:

— Sən əmir Əbubəkri Araz sahilində əzişdirəndən sonra, o, Təbrizə qayıtdı, quduz canavar kimi camaatın canına düşdü. Həmin gün qaranlıq düşən kimi şəhəri talan etdirdi. Əbubəkrin çəriləri qarəti ertəsi gün də davam etdirmək fikrində idilər. Ancaq Şeyx Qəssab gecə ikən şəhər camaatını qaldırdı, yağıları Təbrizdən sıxışdırıb çıxara bildi.

Qara Yusif Əbubəkrin ünvanına bir neçə acı söz deyəndən sonra Xoca Seyid Məhəmməd Kecəciyə döndü:

— Şeyx Qəssaba mənim salamımı yetirərsən. Sizi yola salanda vəzir Təbriz camaatına aman naməsi verəcək. Onu Şeyx Qəssaba çatdırarsan, deyərsən ki, indi üzü qışa gedir, inşallah yenkidə yazda Təbrizə gələcəyəm,—dedi və vəzirinə çevrildi:

— Vəzir, mirzəyə tapşır aman naməsini yazsın.

Elçilər qalxdılar. Qara Yusif onları əyləmədi. Onlar icazə alıb çıxışa gedəndə dedi:

— Şeyx Qəssab çatdırarsınız ki,—Qara Yusif əlini Rəşidə tərəf uzatdı—bax o cavanı, sizi qarşılamış Rəşid bəyi Təbriz şəhərinin naibi təyin eləyirəm.

Əbubəkrin qoşunlarının Təbriz camaatının başına gətirdiklərini böyük həyəcanla dinləmiş Rəşid sevimli Xavərini, uşaqlarını düşündü. Onların da əsir alınıb aparıla biləcəyindən dəhşətə gəldi. Ona görə də Qara Yusifin elçilərə dediklərini eşitmədi, eləcə adının çəkildiyini eşitdi, ancaq buna əhəmiyyət verməyə imkanı olmadı. Sözlərinin soyuqqanlılıqla qarşılanması Qara Yusifə qəribə göründü:

— Rəşid bəy, deyəsən məndən ayrılmaq istəmirsən?—soruşdu.

Rəşid cəld ayağa durdu. Hökmdarın sözlərinin mənasını almadığından cavabı ümumi oldu:

— Mən heç vaxt səndən ayrılmaq istəməzdim, hökmdar.

Qara Yusif nəzərlərini ondan çəkmədən:

– Deməк Təbrizin naibi olmaq istəmirsən?—soruşdu.

Rəşid gözlərini döyə-döyə qaldı. Qara Yusif sözlərini təkrar etdi:

– Səni Təbrizin naibi təyin eləyirəm. Getmək istəyirsən, yoxsa,yox?

Qara Yusifin sözləri, narahat, Rəşidə çatdı:

– Sən çox lütfkarsan, hökmdar,—dedi, ona yaxınlaşıb əlindən öpdü.

Qara Yusif:

—Onda yığış, Xoca Seyid Məhəmməd Kecəci ilə birlikdə yola düş, yazda Təbrizdə görüşərik.

Rəşidlə elçiləri yola salmış Qara Yusif vəzirinə dedi:

– Vəzir, istəyirəm qışı Naxçıvanda qalmayaq, buranın qışı çox sərt olur. Yaxşısı budur Mərənddə qışlayaq.

Vəzirin nurani sifətini həmişəki gülüş bəzədi:

– Buyruq sənindir, hökmdar.

Qara Yusif Mərəndə gəlib rahatlanmağa macal tapmamış Rəşidin yerinə təyin olunmuş qoruqçubaşı onun yanına gəlib dedi:

– Hökmdar, Ərdəbil hakimi əmir Bistam Cagir Mərəndə gəlib, məramı səninlə görüşməkdir.

Qoruqçubaşının sözləri Qara Yusifi sevindirdi. O, yanına təzəcə gəlmiş vəzirə:

– Vəzir, əmir Bistam Cagirin buraya gəlişinin nə demək olduğunu yəqin ki, yaxşı bilirsən, eləmi?—dedi, vəzirin gülə-gülə başını tərpətməsinə baxa-baxa davam etdi,—bu o deməkdir ki, Azərbaycan əmirləri mənim hökmdarlığımı qəbul eləyirlər. Bu da o deməkdir ki, Azərbaycan torpaqlarının hamısının Təbriz taxtı ətrafında birləşməsi artıq başlanmışdır.—Qara Yusif sözlərini bitirib məmnun halda gülümsündü və qoruqçubaşına döndü:

—Ərdəbil hakimi əmir Bistam Cagirə çatdırarsan ki, o, nahara mənim qonağımdır.

Qara Yusif əmir Bistam Cagirin şərəfinə verdiyi nahara başqa əmirlərini də dəvət etmişdi. O, Bistam Cagirə böyük qonaqpərvərlik göstərdi, onunla gəlmiş əmirləri mükafatlandırdı və dedi:

– Əmir Bistam Cagir, səni bu əmirlərin başçısı təyin eləyirəm, sənə əmir-ül-ümara rütbəsi verirəm.

* * *

Rəşidi Naxçıvana, Qara Yusifin yanına göndərmiş Mahmud Ağa onun qayıdıb gəlməməsindən çox narahat idi. O, Qara Yusifin ona hörmət bəsləməsinə, Rəşidi yaxşı qarşılayacağına əmin idi. Mahmud Ağa ona da əmin idi ki, Rəşidin Təbrizdən Naxçıvana gedib qayıtması ən azı yarım ay, uzağı iyirmi gün çəkər. İndi onun gedişinin bir aydan çox çəkməsi və bu müddət ərzində özü barəsində xəbər göndərməməsi Mahmud Ağanın nigarançılığını gündən-günə artırırdı. Ancaq, qızı Xavərlə görüşəndə özünü ələ alır, narahatlığını gizlədirdi. Sevimli ərinin qayıdıb gəlməməsinə darıxan Xavər isə əvvəl-əvvəl narahat deyildi. O, elə hesab edirdi ki, Rəşid vacib iş dalınca gedib, gecikməsi də təbii haldı. Mahmud Ağa ilə Həcər xanım qızlarını köçürəndən sonra bir müddət tək yaşamış, sonra böyük nəvələrini,—Xavərlə Rəşidin oğlu Rüstəmi öz yanlarına götürmüşdülər.

Əbubəkr qoşunlarının Araz sahilində Qara Yusiflə müharibədə məğlub olub yenidən Təbrizə qayıtması xəbərini almış Mahmud Ağa, Təbrizə edilən bütün basqınlarda olduğu knmi cəld evə qaçdı, uca hasar içində olan həyətinin darvazalarını möhkəm bağlatdı, Xavəri də uşaqları ilə birlikdə öz yanına köçürtdü. Mahmud Ağa yaxşı bilirdi ki, qarətçi əsgərlər onun darvazalarını qıra bilərlər. Lakin bu da Mahmud Ağaya məlum idi ki, onlar adətən özlərini çətinə salmır, qapı-darvazası nisbətən asanlıqla açılan evlərə soxulurdular. Bu dəfədə Mahmud Ağanınkı gətirdi, Əbubəkrin əsgərləri onun darvazalarından yan keçdilər. Qışın girməsinə bir ay qalmış şəhərin qar örtüyünə büründüyü, Xavərin

daxilini didən nigarançılığın son həddə çatdığı günlərin birində Rəşid gəlib çıxdı, evdəkilərin ürəyinə özü ilə bir istilik, bir rahatlıq gətirdi.

Mahmud Ağa Rəşidin gətirdiyi xəbərdən razı qaldı, Qara Yusifin yazda Təbrizə gələcəyi isə onu sözün əsl mənasında qanadlandırdı. Rəşid Təbrizin naibi təyin olunmasını Mahmud Ağaya demədi, nədənsə demək istəmədi. Yalnız iki gündən sonra Mahmud Ağa Rəşidin şəhər naibi olması barəsində xəbər tutdu, ancaq da dinib danışmadı. Nəhayət, Rəşid özü utana-utana dedi:

– İşimin əslində nədən ibarət olmasını bilmirəm. Hər gün Şeyx Qəssabın yanına gedirəm, soruşuram, o da mənə bir söz deyə bilmir.

Mahmud Ağa, əlbəttə, şəhər naibinin hüquq və vəzifələri ilə tanış idi, bu işdə təcrübəsi var idi. O, Rəşidn bir kənara cə- kib dedi:

– Bu sənin işin deyil. hələlik hökmdar Təbrizə kələnə kimi şəhərdən göz-qulaq ol, Qara Yusifi təntənə ilə qarşılamağa hazırlaş. O, gələn kimi xahiş edərsən, sani naiblikdən azad eləyər.

Təbriz şəhərinə qış tez gəldiyi kimi tez də getməyə tələsirmiş kimi sürətlə mövqelərini tərk etməyə başladı. Yazla eyni zaxtda Qara Yusif də Təbrizə gəldi. Bütün Təbriz camaatı onu qarşılamağa çıxdı. İzdihamlı qarşılanmağı çox sevən Qara Yusif təbrizlilərin küçələri doldurmasından razı saldı. O, Şeyx Qəssaba və Rəşidə öz razılığını bildirib hər ikisinə axşam saraya ziyafətə gəlməyi təklif etdi. Qara Yusif Rəşiddən ayrılanda Mahmud Ağanı soruşdu və onu da axşam ziyafətinə dəvət etdi.

Ziyafətin ertəsi günü Qara Yusif Mahmud Ağanı və Rəşidi saraya çağırıb vəzirinə dedi:

– Vəzir, Mahmud Ağa, əlbəttə, daha da müdrikləşib, yenə səninlə birlikdə mənim məsləhətçim olmasına etiraz etməzsən.

Vəzirin ağıllı gözləri güldü. O dedi:

– Mən də qocalmışam. Fikrimcə, iki qoca birləşib sənə elə məsləhətlər verə bilər ki, dövlət işlərində heç bir nöqsan olmasın.

Qara Yusif Rəşidə döndü:

– Rəşid bəy, sənin işlərin necədir?—soruşdu.

Rəşid hökmdara cavab verməyib Mahmud Ağaya baxdı. Mahmud Ağa Rəşidin dadına çatdı:

– Hökmdar. Rəşid deyir ki, naiblik onun işi deyil.

Qara Yusif gülümsündü:

– Yaxşı, Rəşid bəy, səni naiblikdən azad eləyirəm, ancaq minbaşılıqdan boyun qaçıra bilməzsən. Yüzbaşı kimi necə vuruşmanın şahidi olmuşam, minbaşı ola bilərsən.

Rəşid cavab vermədi, Qara Yusif davam etdi:

– Sən mənim bilavasitə özüm başçılıq elədiyim qoşunda minbaşı olacaqsan.

Rəşidlə Mahmud Ağa Qara Yusifə təşəkkür etdilər. Qara Yusif qoruqçubaşına əmirləri çağırmağı əmr etdi. Onlar çox tez gəldilər. Qara Yusnf əmirlərə mehribanlıq göstərdi, oturmağı təklif etdi və dedi:

– Dəmiri isti ikən döyüb qurtarmaq lazımdır. Əbubəkr Təbrizin başına min oyun açıb, Sultaniyyə qalasında gizlənibdir. Mən onunla əlbəyaxa olmaq istəmirəm. Axı qıran da bizlərdəndir, qırılanlar da. Ancaq əlac yoxdur, o çox baş aparır.

Vəzir ciddi görkəm aldı, əlini saqqalına çəkdi, Qara Yusifin başında olan əmirləri diqqətlə nəzərdən keçirib baxışlarını Mahmud Ağada saxladı, ancaq yenə Qara Yusifə döndü və dedi:

– Elədir, hökmdar, qıran da bizik, qırılan da. Biz çoxuq, lap çox. Hamımızın kökü birdir, dillərimizin də kökü eynidir. İntəhası ləhcələrimiz fərqlənir, həm də çox qədimik. Firdovsinin Şahnaməsindəki Əfrasiyab hələ iki min il bundan qabaq türklərin böyük sərkərdəsi və başçısı olmuşdur. Gəncə şəhərini o salmışdır. Əfrasiyabın əsl adı Alp Artunqa imiş, Firdovsi ilə eyni vaxtda yaşamış Yusif Xas Hacib yazır ki, onu taciklər Əfrasiyab adlandırmışlar. Qıpçaqların başçısı olan Əfrasiyabı Alp Əfrasiyab, Türk Əfrasiyab da adlandırmışlar.

Qoca əmirlərdən biri dilləndi:

– Vəzir, söylədin ki, Əfrasiyab iki min il bundan əqdəm yaşamışdır. İndi isə deyirsən ki,o, qıpçaqların başçısı idi. Qıpçaqlar, bilirsən ki, bu yerlərə dünən-srağa gün gəliblər, özləri də sən deyən qədim də deyillər.

Vəzir özündən razı halda yerində qurcalandı, bir Qara Yusifə, bir əmirə baxdı:

– Sözlərim doğrudur, əmir, Əfrasiyab qıpçaqların başçısı olmuşdur, özü də hələ miladdan qabaq Gəncə şəhərini bina eləmiş və bu yerlərdə yaşamışdır.—Sonra Qara Yusifə dönüb:— Hökmdar, deyirlər Əfrasiyabın Qaz adlı gözəl bir qızı var imiş, Qaz-qaz dağlarının adı da onun adı ilə bağlıdır.

Kəşfiyyat rəisinin içəri girməsi söhbətin istiqamətini dəyişdi.

– Hökmdar, indicə xəbər gətirdilər ki. əmir Əbubəkr Sultaniyyədə Dərviş Quşçunun başçılığı altında iki yüz çəri qoyub oradan çıxmışdı. Əmir Əbubəkr Rey yaxınlığındakı Dəmavəndə getmək fikrindədir.

Qara Yusif deyindi:

– Yenə qaç. Ancaq o, uzağa gedə bilməz, əvvəl-axır qarşılaşmalı olacağıq. Bu qarşılaşma onun sonuncu döyüşü olmalıdır.—dedi və əmirlərə döndü,—fərqi yoxdur, Sultaniyyəni alıb, camaatını Təbrnzə, Marağaya, Ərdəbilə köçürməliyik.

Qara Yusif Sudtaniyyəyə yaxınlaşanda Dərviş Quşçu qaçdı. O, Sultaniyyəni aldı, camaatını köçürüb geriyə qayıtdı. Lakin bu hadisədən heç bir ay keçməmişdi ki, Qara Yusif Əbubəkrin yenə Sultaniyyəyə qayıtması, Marağanı və Ərdəbili qarət etməsi xəbərini aldı. Qara Yusif onu qışı başa vurandan sonra, yazda cəzalandırmağı qərara aldı və əmirlərinə dedi:

– Əbubəkr indi zəifdir, biz yazda onun öhdəsindən asanlıqla gələ biləcəyik.

İş elə gətirdi ki, yazda, Qara Yusif Əbubəkrin qüvvələri barədə fikrini dəyişməli oldu. Kəşfiyyat xəbər gətirdi ki, Səmərqənddən Reyə hərəkət edən üç çığatay əmiri Əbubəkrin tələbi ilə öz hərəkət istiqamətini dəyişib onunla birləşmiş və Əbubəkr bütün Azərbaycanın üstünə gəlir. Qara Yusif onunla rastlaşmağa ciddi hazırlaşmalı oldu. O, əmir Bistam Cagiri, onun qardaşı Məsumun oğlu Əli Fərəci, Bistamın qardaşı Mənsuru. Sədlu boyunun başçısı

əmir Hüseyn bəyi, başqa əmirləri, həmçinin Rəşidi yanına çağırdı, qarşıdakı döyüşlə əlaqədar məsələləri müzakirə edib dedi:

— Bu döyüş əmir Teymur nəsli ilə Təbriz taxtı uğrunda axırıncı döyüş olacaq. Biz bu savaşı mütləq udmalıyıq.

Düzənlikdən qar çəkilən kimi Əbubəkr qoşunlarını Təbriz üzərində hərəkətə gətirdi. Qara Yusif onu Təbrizdən aralı, Şənbi Qazan yaxınlığında Sərd rudda qarşıladı. Qoşun səfləri üz-üzə dayandı. Qara Yusif qoşunlarının sağ cinahının başçılığını əmir Bistam Cagirə, sol cinahına başçılığı isə Sədlu oymağının başçısı Hüseyn bəyə tapşırdı. Onlara bir neçə əmir, həmçinin Mənsur, Məsum, Əli Fərəc kömək edirdi. Qoşunun mərkəz hissəsinə başçılığı öz üzərinə götürmüş Qara Yusifə bir neçə əmirlə birlikdə Rəşid də kömək edirdi. Qara Yusif düşmənin səflərini çox diqqətlə gözdən keçirəndən sonra soruşdu:

— Bu gün nisanın neçənci günüdür? Bu tarixi yadda yaxşı saxlamaq lazımdır. Bu gün Qaraqoyunlular dövlətinin yaranması günüdür.

Kimsə cavab verdi:

— Bu gün nisanın 21-dir.

Qara Yusif əmir Bistam Cagirlə əmir Pir Ömərə hücum əmri verdi. Onların qoşunları düşmənin üzərinə atıldılar. Əbubəkrin qoşunlarının hücuma məruz qalmış sağ cinahı sındı, çərilər qaçmağa başladı. Əbubəkr qaçan qoşunlarının ardınca gedib onların əmirlərini öldürdü. Geriyə qayıtdığı zaman dəhşətli bir hadisənin şahidi oldu. O, Qara Yusifin əsgərlərindən birinnn atası Miranşahın başını bir qılınc zərbəsi ilə vurub yerə saldığını, atından düşüb onu soyundurmağa başladığını gördü. Belə görünürdü ki, çəri öldürdüyü adamın kimliyini tanımamış, onun zəngin paltarına tamah salmışdı. Onun bu tamahı başı ila xudahafizləşməklə başa çatdı. Əbubəkr bir qılınc zərbəsilə onun başını bədənindən ayırandan sonra atının başını Sultaniyyə tərəfə çevirib dördnala çapdı.

Əbubəkr üzərində qələbə Qara Yusifin kefini elə kökəltmişdi ki, şadlığından hərəkətləri üzərində nəzarəti itirmişdi. O, başına yığılmış vəzirinə, əmirlərə dalbadal:

— Mərhum babamık arzusuna, vəsiyyətinə əməl olundu, Təbriz taxtı bizimdir—Qaraqoyunlularındır.

Qara Yusif danışa-danışa ətrafa göz gəzdirir, ələ keçirilmiş külli miqdarda qənimətə baxdıqca həzz alırdı. Birdən gözünə bir araba sataşdı, arabada başsız bədən vardi. Cəsədin yanındakı başı görmüş Qara Yusif əmirlərin əhatəsindən çıxdı, arabaya yaxınlaşdı, bir cəsədə, bir yanına qoyulmuş başa xeyli baxdı. Sonra əmirlərinə döndü və soruşdu:

— Bilirsiniz bu baş kimindir?

Əmirlərdən heç biri dinmədi, onlardan Miranşahı görən olmamışdı, onu bircə vəzir tanıyırdı. O, əzik başa baxdı, gözləri böyüdü və pıçıltı ilə dedi:

— Hökmdar, bu ki, əmir Miranşahın başıdır, Azərbaycan hökmdarı Miranşahın, əmir Teymurun böyük oğlunun.

Qara Yusif arabanı sürən əskərdən soruşdu:

— Kim kəsib onun başını?

Arabanı sürən əskər çiynini çəkdi, onun yanındakı əsgərlər də bir söz deyə bilmədilər. Yüzbaşı irəli çıxıb:

— Onu ölülərin arasından götürmüşük, hökmdar,—dedi, onun paltarlarını göstərib davam etdi:—onun patarlarını kimsə soyundurub, ancaq apara bilməyib. Miranşahı bir qoca çəri tanıdı.

Qara Yusif Miranşahı şahlara layiq hörmətlə dəfn etməyi tapşırdı:

— Əmir Miranşah mənim əlimə sağ keçsəydi, ona hörmətdən başqa heç nə etməzdim,—dedi, dönüb atına sarı getmək istərkən bir dəstə zəngin geyimli qadın gətirdiklərinn görüb ayaq saxladı və soruşdu:

— Bunlar kimlərdir?

Çərilərdən biri gülə-gülə:

— Deyirlər əmir Miranşahın hərəmləriyik, hökmdar.

Çərilərin qarətinə məruz qalacaqlarına, başlarına başqa oyun da Gələ biləcəyindən ehtİyat edən qadınlar qorxularından tir-tir əsirdilər. Çəridən hökmdar sözünü eşitmiş qadınlardan biri ona yaxınlaşdı. Qadınların hamısı kimi onun da sifəti çadrada idi. O, hökmdara yaxınlaşıb çadrasını üzündən araladı və dedi:

— Əmir Qara Yusif, biz mərhum əmir Miranşahın hərəmləriyik. Aramızda Miranşahın kiçik yaşlı qızları da var. Bizi çərilərinin əlinə vermə, namusumuzu qoru.

Qara Yusif çadranın altından ona zillənmiş canalıcı gözlərə baxır, lakin bu ayüzlü gözəlin sözlərini eşitmirdi, onun zərif səsi gözəl sehrli musiqi kimi qulaqlarında cingildəyirdi. O, möcüzələr aləminə düşmüş adamlar kimi əfsunlaşıb qalmışdı. Qadın Qara Yusifin onu dinləmədiyini başqa cür qiymətləndirib ağlamağa, yalvarmağa başladı:

— Başına dönüm, hökmdar, bizi çərilərinə vermə.

Nəhayət, Qara Yusif qadının ağladığını və ona yalvarmasını eşidib təəccübləndi, onları aparan əsgərlərin yüzbaşısına dedi:

— Onları birbaşa saraya aparın. Başlarından bir tük əskik olsa, özündən küs.

Qara Yusif əmirlərə döndü:

— İndi yolumuz Təbrizədir,—dedi.

Təbriz camaatı Əbubəkr üzərində böyük qələbə çalmış Qara Yusifi böyük təntənə alə qarşıladı. Bircə lap bu yaxınlarda, cəmi iki il əvvəl Şirvanşah Şeyx İbrapimi qarşılayanda belə olmuşdu. Onda da bütün təbrizlllər küçələrə tökülmüşdülər, indi də. Ancaq bir fərqi var idi ki, onda camaatın hamısı özü, öz xoşuna çıxmışdı, onları Şirvanşahı qarşılamağa çağıran olmamışdı. Qara Yusifi qarşılamağa isə, Təbriz camaatı sara yın çağırışı ilə çıxmışdı, Təbrizliləri Qara Yusifi qarılamağa çıxmasının təşkilində Mahmud Ağanın rolu az olmamışdı. O, saray əyanları ilə birlikdə Təbriz darvazalarına kimi gələrək Qara Yusifin qarşılanmasında bilavasitə iştirak etdi. Mahmud Ağa hökmdarı müşayiət edən

qoruq dəstəsinin ardınca gələn qoşunların önündəki əmirlə yanaşı at sürən Rəşidi görəndə ürəyi dağa döndü, ona baxıb fərəhlə gülümsündü.

Qara Yusif bütün əmirlərini, qələbəni qazanmış minbaşıları axşam sarayda düzəldilmiş böyük ziyafətə çağırdı. O, Yemək-içməkdən, xanəndələrin oxumasından, rəqqasələrin rəqsindən qabaq əmirləri, minbaşıları bir-bir yanına çağırdı, üz-gözündən öpüb qiymətli hədiyyələrlə mükafatlandırdı. Əmir adları olmayanlara əmir rütbəsi verdi, məclisdən sonra isə onlara öz vilayətlərinə dönməyə icazə verdi. Qara Yusif təkcə əmir Bistam Cagirə Ərdəbilə qayıtmağa icazə vermədi:

– Əmir-ül-ümara Bistam Cagir, səni Əcəm İraqının hakimi təyin eləyirəm, gedib o yerləri tutmalısan,—dedi.

Əmir-ül-ümara Bistam Cagir Qara Yusifə təşəkkür etdi:

– İzn ver, əvvəl başdan Sultaniyyəni tutum, qardaşım əmir Məsumu qalaya hakim dikim.

Qara Yusif etiraz etmədi və əlavə etdi:

– Uğur olsun, əmir-ül-ümara.

Qara Yusif Təbrizdə çox qalmayıb, yayı çox sevdiyi Aladağa yaylaqlamağa getdi, artıq boya-başa çatmış oğlu İsfəndiyarı isə Kərkükə göndərdi. Oğlunun boy-buxununa həmişə fərəhlə tamaşa eləyən Qara Yusif, hər dəfə onu görəndə vəzirin deyirdi:

– İsfəndiyar böyük igid olub, ancaq hələ öz igidliyini göstərə bilməyib, bir kənd də olsun almayıb.

Vəzir isə hər dəfə eyni cavabı verirdi:

– Vaxt gələr göstərər.

Bir dəfə Qara Yusif bir neçə əmiri onun yanında cəmləşəndə vəzirinə yenə eyni sözləri dedi:

– İgid cahıldır, gedib Kərkükdə oturub..

Vəzir gülümsündü, qar kimi ağ saqqalını sığalladı və dedi:

– Hökmdar, görürəm, İsfəndiyarın boş oturması səni çox narahat eləyir. Elə isə göndər onu bir qalanı alsın.

– Hansı qalanı? Alınmamış qala qalıb bəyəm?

Əmirlərdən biri dilləndi:

– Kürdüstandakı Kavərud qalasının hakimi Baba Hacı hələ də sənin hakimiyyətini tanımır. Göndər İsfəndiyar Mirzəni o qalanı alsın.

Qara Yusif sevindi, vəzirinə tapşırdı ki, İsfəndiyar Mirzəyə məktub göndərib, əmrini ona yetirsin. Qara Yusif fikrini bu sözlərlə bitirdi:

– Yaz ki, Kavərud qalasını ona bağışlayıram.

* * *

Qara Yusifin Əbubəkrin qoşunlarını darmadağın etməsi xəbərini almış sultan Əhməd həm sevindi, həm də kədərləndi. O, əmir Teymur nəslinin təqibindən əbədilik can qurtara bilməsinə sevindi. Sultan Əhməd Qara Yusiflə son görüşündə yenə onunla əhd-peyman bağlamış, onunla dost olacağına and içmiş, Qurana əl basmışdı.. Beləliklə, o, Qara Yusif sarıdan tam arxayın idi və ömrünün sonuna kimi Bağdadda oturub heç kimdən çəkinmədən, qorxmadan padşahlıq eləyə biləcəyinə əmin idi. Sultan Əhmədin kədərlənməsinin səbəbi isə Təbriz taxtı ilə əbədilik vida etməsi idi. Lakin Sultan Əhməd aldığı xəbərdən heç iki ay keçməmişdi ki, birdən-birə dəyişdi, Qara Yusifdən şübhələnməyə başladı. Ona elə gəldi ki, Qara Yusif vədinə xilaf çıxıb Bağdada soxula bilər. Sultan Əhməd fikirləşirdi ki, o, dəfələrlə Qara Yusifə vəd vermişdi, ancaq hər dəfə ona əməl etməmişdir. Elə indinin özündə də Təbriz barəsində Qara Yusifə söz verməsinə, Qurana əl basmasına baxmayaraq imkan düşən kimi Təbriz üzərinə gedərdi. Deməк, Qara Yusif də onun kimi hərəkət eləyə bilər.

Sultan Əhməd artıq qocalıb əldən düşmüş vəzirini çağırıb onunla məsləhətləşdi, fikirlərini onunla bölüşdü. Qoca olsa da, fikri hələ də aydın olan vəzir sultan Əhmədlə razılaşmadı:

– İnanmıram ki, Qara Yusif elə bir iş görə. O, verdiyi sözlərə kişi kimi əməl eləyir.

Vəzirin sözləri sultan Əhmədin xoşuna gəlmədi. O, istehza ilə dedi:

– Vəzir, elə çıxır ki, göyün altında bircə kişi var, o da Qara Yusifdir. Belə işlərdə söz vermək çox azdır.

Qoca vəzir sultan Əhmədlə aralarındakı münasibətlərə də yaxşı bələd idi və sultan Əhmədin bərkə düşəndə onu qardaş adlandırıb, yeri düşəndə isə qılınc sıyırmasından da xəbərdar idi. O, sultanın bu nöqsanını dəfələrlə üzünə demişdi. Vəzir indi də sultan Əhmədin nöqsanını, namərd hərəkətini üzünə demək üçün əlivə düşmüş fürsətdən istifadə etdi:

– Sultanım, Qara Yusif sözünə bütöv adamdır, o sənə dəfələrlə deyib ki, səninlə yanaşı olmaq istəyir, üz-üzə yox. Bilirəm ki, o öz sözünün ağası olaraq qalacaq, ancaq o vaxta kimi ki, sən öz sözündən dönməyəsən.

Sultan Əhməd vəzirin sözünü kəsdi:

– Yaxşı, yaxşı, tərif eləmə o çobanı,—dedi, əlini əlinə vurub qoruqçubaşını çağırdı. O, içəri girən kimi dedi:

– Get əmirləri, minbaşıları çağır.

Sultan Əhməd içəri girmiş əmirlərə oturmağı təklif etmədən sözə keçdi:

—Qorxuram Qara Yusif üstümuzə gələ, o indi çox zorludur. Ona görə də Bağdad hasarlarını möhkəmlədin, bürcləri qaydaya salın, qalaətrafı xəndəyi dərinləşdirin, genişləndirin, xəndəyi lazım olanda su ilə doldurmaq üçün bəndlər düzəldin.

Əmirlərdən biri etiraz etmək istədi, hətta ağzını doldurdu da. Ancaq sultan Əhməd ona danışmağa, sözlərini deməyə imkan vermədn:

– Yaxşı, yaxşı, gedin buradan. Sarayımda bu çobanın nə çox tərəfdarı varmış,—dedi.

Əmirlər gedəndən sonra qoca vəzir sultan Əhmədə yenə bir-iki kəlmə deməyi lazım bildi:

— Sultan, Qara Yusifdən nahaq yerə şübhələnirsən. Nə mən, nə də əmirlərdən heç biri çox vaxt qardaş, indi isə çoban çağırdığın Qara Yusifin tərəfdarı olmamışıq. Biz özümüzə borc bildik ki, fikirləşdiklərimizi sənə deyək. Sən hökmdarsan, söylədiklərimizi qəbul eləyib eləməməyi sənin işindir.

Sultan Əhməd daha bu mövzuda danışmaq istəmədi, təkcə onu əlavə etdi ki, əlinə imkan düşən kimi Təbriz taxtını Qara Yusifin əlindən alacaqdır. Kefi pozulanda günün hansı vaxtının olmasından asılı olmayaraq, kef məclisi düzəltməyə adət etmiş sultan Əhməd qoruqçubaşını çağırdı və dedi:

— Tez məclib düzəlt, ziyafət məclisi, əmnrləri, minbaşıları, əyanları çağır...

Başı kef məclislərindən ayılmayan sultan Əhməd bir səhər yatağından yenicə qalxmışdı ki, oğlu Əla Üd-dövlənin içəri girdiyini görüb az qala qışqırdı, yatağındak sıçrayıb onu bağrına basdı.

— Şükür, gəlib çıxdın, mənim balam,—dedi.

Əla üd-dövlə də atasını qucaqlayıb dedi:

— Əmir Teymurun məni əsir alıb Səmərqəndə göndərməsindən neçə illər keçib, babam. Orada günlərim çox da pis keçmirdi, mənə hörmət eləyirdilər. Əmir Teymur ölən kimi məni buraxacaqlarını zənn eləyirdim. Ancaq yalnız indi buraxdılar, o da əmir Teymurun alim nəvəsi Uluq bəyin köməkliyi nlə.

Atasını qolları arasından buraxmış Əla Üd-dövlət ona diqqətlə baxırdı. Sultan Əhməd gülümsünməyə çalışıb dedi:

— Baban yaman qocalıb, oğlum. Daha az qalıb. Sən mənim vəliəhdimsən. Hələlik isə Hilləni sənə verirəm. Səmərqənddə evlənmisən?

Yaşı artıq otuzu çoxdan kecmiş Əla üd-dövlə atasına təəccüblə baxıb gülümsündü və:

— Mən özümlə hərəmxanamı da gətirmişəm,— dedi.

Oğlunu Hilləyə yola salandan sonra da sultan Əhməd səfil həyat tərzini davam etdirir, eyş-nşrət məclislərindən başı açılmırdı. Sultan Əhməd Qara Yusnfin teziklə Bağdada hücum edəcəyi fikrini başına elə yerləşdirmişdi ki, yalnız çaxır onun xəyalını dumanlandırır, bu fikri müvəqqəti də olsa ondan kənar edə bilirdi.

Ayıq vaxtlarında isə həmişə səksəkədə olurdu. Əla üd-dövlənin oğlu olması xəbərini almış sultan Əhməd bir müddət içkini özündən uzaqlaşdıra bildi, hətta Bağdadı qoyub nəvəsini görmək üçün Hilləyə gəldi. Əla üd-dövlə atasının gəlişinə çox sevindi. Sultan Əhməd navəsinə adqoydu məclisi düzəltdi, elə bir toy vurdurdu ki, hillə camaatı belə toyu heç vaxt görməmişdi. Toy məclisinin başında əyləşmiş sultan Əhməd nəvəsini gətirtdi, qollarının üstünə götürdü, elə bu vaxt gözləri önündə Pir Budaq canlandı, Qara Yusifin oğlu, Sultanın Pir Budağa ad qoyub üzərinə atalıq götürməsi də yadına düşdü. O, kefini pozmamağa, o hadisəni tez unutmağa, fikrini nəvəsinin üzərində cəm etməyə çalışdı və dedi:

— Nəvəmin adını Şah Hüseyn qoyuram.

Şah Hüseyn sultan Əhmədin birinci nəvəsi deyildi, ancaq onu ürəkdən sevdi. Sultan Əhməd ömrünün sonuna knmi qəlbinə dolmuş bu nəvə məhəbbətinin illətini bilmədi. Bilmədi ki, o biri nəvələrini o qədər də istəmədiyi halda, Şah Hüseyni niyə belə sevir. Sultan Əhməd ölümünün lap yaxında olmasını, onu hər addımında təqib etdiyini bilmirdi. Yalnız bir ildən sonra, ölüm onun gözlərinin içinə baxıb güləndə sultan Əhməd başa düşdü ki, Şah Hüseyn onun ömründə sonuncu nəvə və sonuncu sevinc imiş.

Sultan Əhməd oğlu la üd-dövlə ilə nəvəsi Şah Hüseynin yanında bir neçə gün qalmaq niyyətində idi. O bunu oğluna da demişdi. Ancaq o, bir səhər yatağından qalxan kimi oğlunun təəccüblü baxışları altında Bağdada qayıtmaq istədiyini bildirdi və tez yola düşdü.

* * *

Aladağa getməmişdən qabaq atası sultan Əhmədin yanından qaçıb ona dəxil düşmək istəyən əmir Tahiri sultan Əhmədlə bağladığı əhd-peyman xatirinə qovmuş, yolda ikən Ağqoyunluların başçısı Qara Yuluk Osmanla toqquşmalı olmuş, Mosul hakimi əmir Yusifin qızına evlənmiş Qara Yusif üzü payıza dönəndə Təbrizə qayıtmışdı. Qış yenicə girmiş, ətraf yenicə ağ örpəyə bürünmüşdü ki, Qara Yusifə sultan Əhmədin elçilərinnn gəldiyini bildirdilər.

Sultan Əhməd Qara Yusifdən onu Həmədan yaxınlığındakı qışlağa buraxmağı xahiş edirdi. Elçiləri diqqətlə dinləmiş Qara Yusif onların başçısından soruşdu:

– Qışlaq nəyinə gərəkdir mənim qardaşımın? O, sürülərinn göndərmək istəyirsə, qışlaq ona qurbandır. Onun özünün qoşunla Həmədan tərəfə getməsini məsləhət görmürəm.

Qara Yusif elçiləri yola salandan sonra qoca vəziri ilə məsləhətləşdi:

– Sultan Əhmədin Həmədan qışlağı nəyinə gərək olar bilər?—soruşdu və sualına özü cavab verdi,—görünür. yenə hiyləyə əl atmaq, məmləkətimizə soxulmaq istəyir.

Qoca vəzir çox fikirləşmədi:

– Sən elçilərlə danışanda mən də elə fikirləşirdim. Belə görünür ki, sultan Əhməd qüvvə toplaya bilib, hiylə ilə Təbriz taxtını tutmaq fikrinə düşüb.

Qara Yusif fikirli halda həmişə sultan Əhməddən söz düşəndə söylədiklərini bir də təkrar etdi:

– Demişəm ona, axırıncı dəfə demişəm, mənimlə yanaşı olmağa çalış, üz-üzə gəlməyə yox. Deyəsən onunla toqquşmanın, həm də axırıncı toqquşmanın vaxtı çatıb.

Qış çıxıb yaz girən kimi yaşıl dağların sinəsində olmağı çox sevən Qara Yusif yenə Aladağa gəldi. O öz yerinə oğlu Şah Məhəmmədi qoymuşdu. Qara Yusif Aladağda yerini rahatlamağa macal tapmamış oğlu Şah Məhəmmədin elçiləri gəldilər və bildirdilər:

– Hökmdar, sən Təbrizdən çıxandan düz qırx gün keçmişdi ki, sultan Əhməd Bağdaddan yola düşüb Təbrizin üstünə gəldi. Onun qoşunu lap çoxdur. Bir tərəfdən də yolda kürd oymaqları ona qoşulublar. Şah Məhəmməd Təbrizdə qala bilməyib Xoya çəkildi. Sultan Əhməd təmmuzun 29-da Təbrizə girdi.

Elçilərin gətirdiyi xəbər Qara Yusifi hirsləndirdi. O, dodaqlarının altında:

– Nəhayət, onunla haqq-hesabı çürütmək çağı çatdı,—pıçıldadı və əmirlərini yanına çağırdı. Qara Yusif əmirlərlə məsləhətləşmək fikrində idi, bilirdi ki, əmirlərin arasında onunla sultan Əhməd arasındakı yaxşı müasibətlərin qorunub

saxlanılmasını istəyənlər var. Bu amirlər sultan Əhmədin riyakar hərəkətlərindən xəbərsiz idilər. Qara Yusif neçə illər boyu onunla sultan Əhməd arasındakı münasibətləri, sultan Əhmədin dəfələrlə xəyanət etməsini, hər dəfə onu bağışlamasını söylədi və danışığını aşağıdakı sözlərlə bitirdi:

— Görünür, bircə çarəmiz qalıb, sultan Əhmədlə vuruşmaq.

Qara Yusif sözünü bitirib əmirlərin hamısını bir-bir gözdən keçirdi. Nəzərlərini sultan Əhmədlə münasibətləri qoruyub saxlamaq tərəfdarı olan əmirlər üzərində cəmləşdirdi. Əmirlərin hamısının bir ağızdan:

— Sən bilən yaxşıdır, hökmdar,—deməsi onu sevindirdi. O, əmirləri bir-bir qucaqlayıb öpdü və dedi:

— Novşəhərdə qoşunlara baxış keçirəndən sonra Təbriz üzərinə gedəcəyik.

Təbrizə yaxınlaşanda sultan Əhmədin Şənbi Qazanda mövqe tutması xəbərini almış Qara Yusif, Təbrizdən iki fərsəx aralı Əeəd kəndi yaxınlığında qoşunlarını döyuş vəziyyətinə gətirdi, əmirləri yığıb sərəncamlar verdi:

— Sağ cinaha Hüseyn bəy başçılıq eləyəcək. Hüseyn bəyə qardaşı Pir Məhəmməd, dostlarımız Əsəd bəylə Busat bəy kömək eləyəcəklər. Sol cinaha Məhəmməd Cəngi başçı olacaq. ona Yadigar şah, Bistam bəy Cagir, Əli Paşa kömək eləyəcəklər. Mərkəzi hissəyə mənimlə birlikdə oğlanlarım İsfəndiyar, İspənd, Van hakimi İzzəddin Şir, onun oğlu Məhəmməd başçılıq eləyəcəklər,—dedi. Səsinin ahəigini azaldıb davam etdi,—bir olan tanrıya agahdır ki, mən sultan Əhmədlə dost olaraq qalmaq istəyirdim, bizi belə hərəkət eləməyə onun özü vadar elədi.

Avqust günəşinin qızğın şüaları yaşıllıq içində olan Əsəd kəndinin üstünə düşməmiş Qara Yusif qoşunlarını kəndin lap yaxınlığındakı düşərgəyə apardı. Qoşun səfləri üz-üzə dayandılar. Sultan Əhməd ağ atın üstündə qoşunlarının önünə çıxdı. Onu bir neçə əmir müşayiət edirdi. Üfüqdən qalxan günəşin şüaları onun üzünə qaldırdığı bərbəzəkli, qızılı qalxanında oynaşırdı.

Qara Yusif də atının üstündə oturub qoşunlarının səfləri önündə sultan Əhmədin hərəkətlərini izləyirdi. O, sultan Əhmədin hücuma başlamasını

gözləyirdi. Bu, sultan Əhmədin qoşunlarının onun qoşunları ilə əlbəyaxa olana qədər oxlardan aldıqları yaralardan xeyli itgi verməsinə səbəb olardı. Qara Yusif sultan Əhmədin o qədər də bacarıqlı və ağıllı sərkərdə olmadığını, həm də səbrsiz, hevsələsiz olduğunu bilirdi.

Günəş üfüqdən bir adam boyu qalxanda sultan Əhmədin qoşunları hərəkətə gəldi. Qara Yusifin əsgərlərinin bulud kimi yağdırdıqları oxlar günəşin qarşısını tutub kölgə salır, hücum edənlərin bir qismi aldığı ox yarasından yerə sərilib qalırdı. Buna baxmayaraq, sultan Əhmədin qoşunları bağıra-bağıra əcayib səslər çıxara-çıxara Qara Yusifin qoşunlarının üzərinə qaçışırdı. Düşmən qoşunlarının səfləri yaxınlaşanda Qara Yusif ox yağdırmağı dayandırıb sağ və sol cinaha hücum əmri verdi. Qanlı döyüş başlandı. Pir Hüseynlə Məhəmməd Cəngi sağdan və soldan qoşunlarını hücuma aparıb sultan Əhmədin qoşunlarını mühasirəyə saldılar, yalnız mərkəz hissəni açıq qoydular. Mühasirədən çıxmağa can atan düşmən qoşunları açıq yeri görüb o tərəfə qaçdılar və Qara Yusifin bilavasitə başçılıq etdiyi qoşunlarla üzləşərək darmadağın edildilər. Yaralıların və ölənlərin sayı-hesabı yox idi. Qaçıb canlarını qurtaranlar da oldu, lakin sağ qalanların çoxu əsir düşdü.

Qara Yusif döyüş meydanında kürən atının belində sağa-sola çapır, sultan Əhmədi axtarır, onunla haqq-hesabı təkbətək vuruşda çürütmək istəyirdi. Ancaq o, sultan Əhmədi tapa bilmədi. Kimdən soruşdusa, gördüm söyləyən olmadı. Əsir düşmüş əsgərlərdən biri dedi:

– Mən sudtan Əhmədin mühafizə dəstəsindənəm, hücum başlanmamışdan qabaq o, toşunların önündə idi, hücum başlananda arxasına keçdi, qoşunlar dağılanda isə onun ağ atını Şəmbi Qazan tərəfə çapan gördüm.

Qara Yusif təəssüfləndi:

– Yenə qaçıb aradan çıxdı.

İsfəndiyar Mirzə irəli çıxdı:

– Baba, qoy bir dəstə atlı ilə onu axtarım,—dedi.

Qara Yusif razı olmadı:

– Sən niyə, ay oğul? Bir-iki yüzbaşı göndərsən bəsdir, özü də təkcə Şənbi Qazan tərəfə deyil, bütün dörd cəhətə.

Qara Yusif əsirləri, qənimətləri yığışdırmaq, yaralıları rahatlamaq, ölüləri dəfn etmək əmrini verəndən sonra atının başını Təbrizə sarı çevirəndə Rəşid ona yaxınlaşdı.

Qara Yusnf bu gün Rəşidə xüsusi hörmət köstərirdi. Təbriz taxtına şəriksiz sahib olduğu gündə Rəşid onu ölümün amansız ağzından almışdı, xəlvəti Qara Yusifin arxasına keçməyə müvəffəq olmuş düşmən minbaşısı nizəsini Qara Yusifə tuşladığı vaxt onu atından salmışdı. Ölümdən qorxmağın nə olduğunu bilməyən Qara Yusif onu qucaqlayıb demişdi:

– Oğlum, Rəşid bəy, belə bir gündə ölmək istəməzdim. Bu gün ölsəydim, mənə çox ağır gələrdi.

Bu dəfə də Təbriz camaatı Qara Yusifi təntənə ilə qarşıladı. Keçən dəfəkindən fərqli olaraq, təbrizliləri küçələrə çıxaran olmamışdı, hamı öz xoşuna çıxmışdı. Qara Yusif şəhərlərinin əldən-ələ keçməsindən zinhara gəlmiş camaatın ona neçə böyük həyəcan və ümidlə baxmasına diqqət verdi. O, atını onun atı ilə yanaşı sürən qoca vəzirinə döndü:

– Vəzir, bəlkə şəhər camaatına bir neçə kəlmə söz deyəsən,— dedi.

Hökmdarın təklifi vəzirə yersiz göründü. O soruşdu:

– Nə deyim, hökmdar?

Qara Yusif gülümsündü:

– Söz əskikdir bəyəm? Mən camaatın gözündən oxuyuram ki, onlar bu axır vaxtlarda nələr çəkiblər, güzəranları necə olub? İndi onlara söyləmək lazımdır ki, Təbriz şəhəri daha əldən-ələ keçməyəcək, biz buna yol verməyəcəyik.

Vəzir başını tərpədib dedi:

—Yaxşı fikirdir, hökmdar, ancaq bu sözləri vəzir deyil. Hökmdar söyləsə yaxşı olar.

Qara Yusif ona cavab vermədi, atını sürməkdə davam etdi və saraya yaxınlaşanda dedi:

– Vəzir, dediyim sözləri carçılar vasitəsilə camaata çatdırmaq da pis olmazdı.

Qara Yusif saraya yaxınlaşanda sultan Əhmədin dalınca göndərdiyi yüzbaşılar qayıdıb gəldilər. Onlar sultan Əhmədi tapa bilmədiklərini söylədilər. Qara Yusif saraya girməyi ləngidir, fikirləşirdi, sultan Əhmədin yoxa çıxması onu narahat edirdi. Bu vaxt Rəşid ona yaxınlaşdı və həyəcanla:

– Hökmdar, izn ver saraya girib qızımı axtarım,—dedi.

Qara Yusifin başını tərpətməklə razılığını bildirməsilə Rəşidin saray qapısının arxasında görünməz olması bir oldu. Qara Yusif də tezliklə saraya girdi və birbaşa taxt salonuna gəldi, qızıl taxtda əyləşdi. Lakin o, taxtda çox oturmadı O, yanında dayanmış oğlanları Şah Məhəmmədə, İsfəndiyara, İspəadə, Pir Budağa və Cahanşaha baxdı, onlara mehribanlıqla gülümsündü, üzünü vəzirinə, əmirlərə çevirib:

– Gedin dincəlin, hamımız yorğunuq, dava yorğunuyuq. Sabah günortadan sonra yığışın saraya, bugünkü qələbəmizi, Qaraqoyunlular dövlətinin yaranmasını bayram eləyəcəyik, sarayda böyük ziyafət olacaq,—dedi, sonra vəzirə döndü:—Vəzir, Tabrizdə üç günlük bayram elan elə, qoy bütün Təbriz camaatı şadlansın.

Vəzir zarafatla:

– Hökmdar, biz Qaraqoyunlular dövlətinin yaranmasını iki il əvvəl, Əbubəkrlə Miranşahın qoşunlarını darmadağın eləyən gün bayram eləmişdik, deyirsən bir də bayram eləyək?

Qara Yusif də gülümsündü:

– Doğrudur, onda da bayram elədik. Ancaq əsl bayram indidir, daha Təbriz taxtının şəriki yoxdur.

Əmirlər bir hökmdara, bir vəzirə baxıb qalxdılar, taxt-tac salonunu tərk edəndə içəriyə Rəşid girdi. Onun əhvalı yaxşı deyildi. Qara Yusif başa düşdü ki, Rəşid qızını tapa bilməyib, ona ürək-dirək vermək istədi:

– Fikir eləmə, taparıq, mütləq taparıq,—dedi.

Ertəsi gün səhər açılar-açılmaz Təbriz camaatı küçələrə töküldü, şənliklər başlandı. Günəş hələ üfüqdən Təbriz evlərinin yastı damları hündürlükdə qalxmamış Sahibabad meydanı adamla doldu. Carçılar Qara Yusifin sözlərini camaata çatdıranda meydanı sevinc sədaları bürüdü. Günortaya qalmış meydanın ortasında geniş dairə açıldı. Bir neçə nəfər dairə boyu kəndir tutulmuş həmin yerə ayaqları bağlı canavarlar gətirdi. Canavarlar əhliləşdirilmişdi və onların sahibi yırtıcıların ayaqlarını açdı, onlarla müxtəlif oyunlar nümayiş etdirdi. Daha sonra bir neçə at gətirdilər. Atlar çəkinmədən canavarlara yaxınlaşdılar, canavarlar onların belinə sıçradılar. Atlar çapıb meydandan çıxdılar. Meydana bəbirlə aslan gətirdilər, onlarla da oyunlar nümayiş etdirdilər. Daha sonra fillər gəldi. Onların diz çöküb camaata baş əymələri meydanda gurultuya səbəb oldu. Həmin gün meydan axşama kimi boşalmadı, camaat əyləndi, şadlandı.

Təbrizin bütün məhəllələrində—Vicuyədə, Səncəranda, Şeşgilanda, Surxabda, Pole-Səngidə, Mahad Mehində, Dərbi Sərdə, Xiyabanda, Pərəndabda, Dərbi Əlada, Leylavada, Şatirbanda, Kəcildə, Kazəranda, Reydə, Cahar Minarda, Şamda, hökmabadda, Şərəfrürşanda, Bilankuh və başqa məhəllələrdə şənliklər keçirildi. Bu məhəllələrin hamısındakı məscidlər, meydanlar adamla doldu. Hamı sevinir, hamı Qara Yusifin: «Təbriz bir daha əldən-ələ keçməyəcək, biz buna yol verməyəcəyik» sözlərini təkrar edirdi. Təbriz ətrafında olan Mehranrud, Sərdrud, Bavilrud, Ərvənk, Rudtaq, Xanmurab, Bədvəstan, Ucan və Təsük mahallarının camaatı da təbrizlilərə qoşulmuş, bayram edirdi.

Günortadan sonra saray ətrafında canlanma başlandı. Qara Yusifin verdiyi ziyafətdə təkcə əmirlər, saray əyanları deyil, Təbriz camaatının nümayəndələri—adlı-sanlı əyanlar, sənətkarlar, tacirlər, ruhanilər iştirak edəcəkdi. Qara Yusif Mahmud Ağanın ardınca xüsusi adam göndərmiş və ondan ziyafət başlanmamışdan qabaq saraya gəlməsini xahiş etmişdi.

Mahmud Ağa hökmdarın müəyyən etdiyi vaxtda özünü saraya yetirdi. O, taxt-tac salonuna girəndə Qara Yusifi qoca vəzirin və oğlanlarının əhatəsində gördü. Qara Yusif Mahmud Ağanı mehribanlıqla qarşıladı:

— Mahmud Ağa, əminəm ki, daha saraydan getməli olmayacaqsan. Biz bir daha Təbriz sarayını tərk etmək fikrində deyilik. Təbriz taxtı artıq bizimdir, sən də bizim baş məsləhətçimizsən.

Mahmud Ağa təşəkkür edib dedi:

— Artıq qocalmışam, əldən düşmüşəm, sənə az xeyrim dəyər.

Qoca vəzirin sifəti təbəssümlə nurlandı. O, saqqalına sığal verə-verə dedi:

— Mahmud Ağa, bəs onda mən nə söyləyim? Biz səninlə qoca deyilik, yaşlıyıq, müdrikik. Qoca o vaxt olacağıq ki, yeriyə bilməyək. Birdə ki...—qoca vəzir gülümsünməkdə davam edə-edə əlini başına apardı,—bir də ki, bu işləməsin, xarab olsun. Həmd olsun tanrıya hələki danışanda sözümüzü yanılmırıq, çaşbaş salmırıq, hökmdara yaxşı məsləhətlər verə bilirik.

Çağırılanlar yavaş-yavaş gəlməyə başladılar.

Xanəndələr bir ağız oxumuş, rəqqasələr də bir dəfə rəqs edib qurtarmamışdılar ki, sarayın qoruqçubaşısı içəri girib hökmdara yaxınlaşdı və dedi:

— Hökmdar, Bəhaəddin Cüllah adlı bir Təbriz başmaqçısı səni görmək istəyir, deyir vacib sözüm var.

Qara Yusif narazı halda:

— Başmaqçının mənim məclisimdə nə işi? Get sənə desin ki, nə vacib işi var mənimlə.

Qoruqçubaşı getdi, lakin bir az keçmiş qayıtdı və dedi:

— Görünür tərs adamdır. Söylədi ki, padşaha de ki, özü bilən məsləhətdir, ancaq sonra məni taqsırlandırmasın. Mən istəməsəydim hökmdarın hüzuruna gəlməzdim, özüm də başmaqçılıqdan qurtarıb Təbrizin ən varlı adamlarından birinə çevrilərdim, lap Bağdada gedib padşah kimi ömr sürərdim.

Qara Yusif cəld:

— Çağır onu bura,—deyib vəzirə döndü,—belə görünür ki, bu cənədən boş başmaqçı sultan Əhməd barəsində nəsə bir söz demək istəyir.

Qoruqçubaşı ortayaşlı, arıq, ucaboy, qara bığlı-saqqallı, qorxaq görkəmli bir kişi ilə Qara Yusifin qarşısına gəldi. Başmaqçı Qara Yusifi taxtının önünə çatan

kimi üz üstə yerə qapandı. Qara Yusif qoruqçubaşına onu qaldırmağı işarə etdi. Başmaqçı qalxdı, Qara Yusif soruşdu: .

– Söylə görüm mənə nə sözün var?

Başmaqçı yenə üz üstə qapandı, ancaq bu dəfə qoruqçubaşının köməyi olmadan qalxdı, diz üstə çökdü, ətrafını diqqətlə gözdən keçirib üzünü Qara Yusifə çevirib dedi:

– Sənə fəda olum, padşah, mənim sözlərim sirdir, bu qədar camaatın yanında necə deyim?

Qara Yusif səsinə mehribanlıq qatmağa çalışıb:

– Eybi yoxdur, danış,—dedi.

Başmaqçı Bəhaəddin Cüllah qəti etiraz etdi:

– Uşaqların anası mənə möhkəm tapşırıb ki, təkcə padşaha, özü də qulağına deyərsən ki, heç kim eşitməsin,—dedi, bir az duruxdu və davam etdi,—düzünü axtarsan, mən sənin yanına gəlmək istəmirdim, uşaqların anası göndərdi.

Qara Yusif ağıllı qadının bu qədər səfeh görünən ərinin söylədiklərini dinləyir, əllərini oynatmasına, danışdıqca üz- gözünü müxtəlif şəkillərə salmasına maraqla baxır, gülürdü. Nəhayət, o, ciddi görkəm aldı və:

– Yaxşı, bəsdir, kişi, sözlərini söylə, mənim buraya yığışan camaatdan sirrim yoxdur,—dedi.

Başmaqçı padşaha cavab verməyə qorxdu. Ancaq arvadının da tapşırığını unutmamışdı. O, Qara Yusifə daha da yaxınlaşıb yavaşdan:

– Sənə fəda olum, padşah, sultan Əhməd mənim evimdədir,— deyib qorxu dolmuş gözlərini ətrafına fırladı, onu ayrı eşidən olub olmamasını yoxlamaq istədi. Bu arada Qara Yusifin qalxdığını hiss etmədi. Birdən bütün camaat ayağa durduğunu görən başmaqçının ürəyi dabanına düşdü. Ona elə gəldi ki, indicə onların hamısı üstünə təkülüb onu parçalayacaqdır. Başmaqçı bilaixtiyar Qara Yusifə dönüb bir addım da irəli getdi və onun önündə üzü üstə yıxılıb sızıldadı:

– Sənə qurban olum, padşah, nə günahın sahibiyəm ki, bu qədər camaatı mənim üstümə tökmək istəyirsən?

Qara Yusif qəhqəhə çəkdi və taxtında oturdu. Hamı gülə-gülə oturdu. Başmaqçı yenə diz üstə çökdü, hamının, o cümlədən padşahın da güldüyünü görən başmaqçı ürəkləndi və:

— Sənə fəda olum, keç günahımdan,—dedi, sonra öz-özünə deyindi.—arvad ağzı ilə iş görənin axırı belə olar. Dedim ki ona, ay mürtədin qızı, gedərəm özümü işə salaram. Dedi ki, yox, getməsən padşah bilib səni asdırar.

Başmaqçının sozlərini salonda olanların çoxu, həmcinin Qara Yusif eşitdi. O, yenə güldü və dedi:

— Kişi, dur ayağa, səninlə işim yoxdur, apar bizim camaatı evinə, sultan Əhmədi onlara təhvil ver,—Sonra qoruqçubaşıya dedi,—on nəfər çərini bir yüzbaşı ilə bu kişiyə qoş, gedib sultanı gətirsinlər. Tapşır sultana hörmətsizlik eləməsinlər. Bu kişiyə də xələt, barat verin.

Qoruqçubaşı baş üstə deyib başmaqçını qabağına qatdı. Başmaqçı əvvəl Qara Yusifə, sonra isə salonda oturanların hamısına baş əyə-əyə salonu tərk etdi.

Sultan Əhməd saraya daxil olanda Qara Yusifnn və onun ətrafındakıların heyrətdən gözləri böyüdü, ağızları açıla qaldı. Həmişə zər-ziba içində olan sultan Əhməd, cındır içində idi. O, əyninə şəhərlilərin geyindiyi nimdaş xoftan geymiş, başına da dilənçilərin qoyduğu təkyəni keçirmişdi. Onun lifəli şalvarı dizdən aşağı cırıq idi. Ayaqlarında nsə nisbətən təzə başmaq var idi. Qara Yusifni heyrəti birdən qəzəblə əvəz olundu, sultan Əhmədi gətirmiş yüzbaşıya qışqırdı:

— Niyə başmaqçını buraya gətirmədin ki? Sultan Əhmadi soyundurub dilənçi paltarı geyindirdiyinə görə onun başını üzdürəydim.

Yüzbaşı özünü itirdi. Onun harayına sultan Əhməd yetişdi:

— Başmaqçı yaxşı adamdır. Yaxşı ki, bu cır-cındırı verdi, yoxsa lap alt paltarında idim. Varını verən utanmaz. Evində olan təzə şey bircə başmaq idi ki, onu da verdi.

Qara Yusif da, əmir-əyanlar da gözləyirdilər ki, sultan Əhməd başına gəlmiş qəzavüqədəri danışacaq. Ancaq o, sözünü bitirib Qara Yusifə baxdı. Qara Yusif

sultan Əhmədin halına, görkəminə acıdı, onu aparıb geyindirməyi əmr etdi. Bir azdan sultan Əhməd Qara Yusifin şahanə paltarlarından geyinib gəldi. Bu paltarlar ona nisbətən dar və bir qədər də uzun olsalar da, indi tamam başqa görkəmi var ndi.

Qara Yusif taxtından durub sultan Əhmədin qoluna girdi, gətirib yanında əyləşdirdi. Hamı susur, sultan Əhmədin danışmasını gözləyirdi. Sultan Əhməd də nəzərlərin ona dikildiyini görüb ağzını açmaq istəsə də çəkinirdi. O, əhdinə xilaf çıxıb Qara Yusifə silah qaldırmasına heç bir sözlə haqq qazandıra bilməyəcəyi üçün Qara Yusifi daha da hirsləndirəcəyindən qorxurdu. Qara Yusif bunu hiss edib onunla mülayim olacağını bildirməyi qət etdi:

– Neçə dəfə söz verdin, ancaq müxalif çıxdın, hər dəfə də günahından keçdim. Bu dəfə də sənin günahından keçəcəyəm, öldürtməyəcəyəm. Ancaq səni daha heç bir taxta buraxmayacağam. Ömrünün axırına kimi bərbəzəkli saraylarda eyş-işrət içərisində yaşayacaqsan,—dedi, hərdən nəzərlərini ona qaldıran sultan Əhmədə gülümsündü və əlavə etdi,—indi söylə görək səni kim belə yoluşdurub, soyundurub, öldürməyib lüt-üryan yola salıb?

Sultan Əhməd dinmədi, Qara Yusif zarafata keçdi:

– Yaxşı, danış, utanma, hamımızın başına belə iş gələ bilər, o ki qala sənin kimi qoca əfəl ola. Sənin qoruqçuların harada ölmüşdülər ki, səni belə soyundura biliblər?

Sultan Əhməd cavab verməyə məcbur oldu, Qara Yusifin qəzəbindən qorxdu. Ancaq gözlətdi, haradan və necə başlamaq barəsində fikirləşdi. Özünü çox da alçaltmamaq üçün yalan uydurmaq istədi. Mahmud Ağa ilə yanaşı oturmuş Rəşid qəzəb dolu baxışları ilə sultan Əhmədi qarsalayır, Qara Yusifin onun nazı ilə oynamasına hirslənirdi. Rəşid sultan Əhmədin başını bədənindən ayırmaq hazır idi.

Nəhayət, sultan Əhməd düzünü deməyi qət etdi. Qara Yusifin başmaqçıdan həqiqəti öyrənib onu cəzalandıra biləcəyindən qorxdu:

– Qısası budur ki, sənin bir nəfər zırpı çərin məni xəlvətə çəkib soyundurdu, hamısını apardı, özü də elə bildi ki, mən də kimisə qarət etmişəm. O mənim kim olduğumu bilmədi.

Qara Yusif gülümsündü, əmirlər də, əyanlar da güldülər. Qara Yusif soruşdu:

—Bəs başmaqçıgilə haradan gedib çıxdın?

Sultan Əhməd su arxında gizlənməsini, gecənin soyuğunda tir-tir əsməsini, səhər tezdən arx qırağına dastəmaz almağa gəlmiş başmaqçının onu görüb evə aparmasını, özünün kimliyinn başmaqçıya bildirib, onu Bağdad sarayına çatdıracağı təqdirdə dünya malına qəni edəcəyini, başmaqçının tərəddüd içində olmasını, ancaq arvadının qətiyyətlə onu Qara Yusifin əlinə verməsini tələb eləməsini danışmaq istəmədi. Dedi:

– Səhər tedən qarşıma çıxan ilk qapını döydüm, gördüyün başmaqçı məni geyindirdi, ona kim olduğumu bildirib dedim ki, sənə xəbər gətirsin.

Qara Yusif sultan Əhmədin son sözlərinin həqiqətdən çox uzaq olmasına şübhə etmirdi. O bilirdi ki, sultan Əhməd heç vaxt öz ayaqları ilə onun yanına gəlməzdi, görünür, başmaqçı məcbur olub ki, xəbər gətirib. Ancaq o kişinin elə əfəl görkəmi var idi ki, onun kənar məsləhət olmadan belə qərara gələ biləcəyinə inanmırdı. Qara Yusif əvvəlcə başmaqçını çağırıb həqiqəti öyrənmək istədi. Sonra onun arvadının ünvanına deyinməsini yadına saldı, fikrini dəyişdi və sultan Əhmədə döndü:

– Sultan, düz danışmadın, Sən heç vaxt öz ayaqlarınla kəndiri boynuna keçirməyə gəlməzdin. Axı sən yaxşı bilirdin ki, mən səni bağışlamaya da bilərdim. Düzünü söyləsən yaxşı olmazmı?

Sultan Əhməd Qara Yusifdən kəndir sözünü eşidib qorxuya düşdü, bilaixtiyar həqiqəti söylədi:

– Başmaqçının arvadı onu məni buraxmağa qoymadı, dedi ki, get padşaha xəbər elə, ənam alarsan, yoxsa padşah özü xəbər tutub eləsə, boynunu sabunlu kəndirə keçirərlər.

Qara Yusif söhbəti dəyişdi:

– Əhməd, sən dəfələrlə Qurana and içmisən ki, mənə müxalif olmayacaqsan, üz-üzə gəlməyəcəksən mənimlə. Gəldin, basıldın, indi taxt-tacdan əl çəkməlisən.

Sultan Əhməd yazıq görkəm aldı. O, Qara Yusifin taxtı önündə diz üstə çöküb əllərini göyə qaldırdı:

– Qardaşım Qara Yusif, and olsun bir olan tanrıya, ölənə kimi səninlə olacağam, qoy Bağdad qarışıq İraq mənə qalsın. Bütün Azərbaycan isə sənin olsun.

Qara Yusif ona cavab vermədi, ayağa durmasını gözlədi. Sultan Əhməd Qara Yusifdən səs cıxmadığını görüb yenə yalvarmağına davam etmək istədi, ancaq Qara Yusifin hiddətli baxışları ilə rastlaşıb sözlərini udmalı oldu, qalxıb yerində oturdu. Qara Yusif sözlərinə mülayimlik qatdı:

– Əhməd, yadındadır, Dəməşqdə dustaq olanda mənim bir oğlum oldu, adını da sən qoydun—Pir Budaq, özün də dedin ki, o da oldu sənin oğlanlarından biri? Yadından çıxmayıb ki?

Sultan Əhməd Qara Yusifin ikinci dəfə ona sadəcə Əhməd deyə müraciət etməsindən onun fikrinin qəti olmasını. Heç bir güzəştə getməyəcəyini yəqin etdi və heç olmasa həyatını qorumaq, boynunu kəndirdən qurtarmaqdan ötrü onun bütün təkliflərini qəbul etməyi qərarlaşdırdı. O fikirləşirdi ki, min ilin ölüsündən, bir günün dirisi yaxşıdır, əsas sağ qalmaqdır. Kim bilir sabah, yaxud beş gündən, bir ay, yaxud bir ildən sonra nə olacaq? Bəlkə də o, tezliklə öz taxtına qayıda biləcək, Qara Yusifin arıq, uzun boğazını üzmək imkanına malik olacaq?! Sultan Əhməd Qara Yusiflə döyüşə girişməmişdən qabaq Şirvanşah Şeyx İbrahimin yanına elçilər göndərmiş, ondan Qara Yusifə qarşı kömək istəmişdi. Ancaq kömək gəlib çıxmamışdı. Lakin sultan Əhməd özündə belə bir ümidi yaşadırdı ki, Şeyx İbrahim gəlib Təbrizi alıb, onu xilas eləyə bilər. Bütün bunları fikirləşən sultan Əhməd üzünə gülümsər ifadə verməyə çalışaraq:



– Yadımdadır. Əlbəttə, yadımdadır, belə bir işi unutmaq olar?—deyib Pir Budağı tanıyırmış kimi salondakıları nəzərdən keçirdi, onu axtardı və soruşdu:

– Hanı mənim oğlum, buradadır?

Pir Budaq irəli çıxmadı, atasına baxdı. Qara Yusif baxışlarını Pir Budağın üstündə cəmləşdirib:

– Oğlum, Pir Budaq,—dedi.

Pir Budaq bir addım irəli çıxdı. Sultan Əhməd ona:

– Maşallah, lap igid olmusan, oğlum -dedi, qollarını açdı.—Yaxın gəl, oğlum, gəl səni qucaqlayım.

Yeddi yaşı yenicə tamam olmuş Pir Budaq, yenə atasına baxdı. Qara Yusif başını tərpətdi. Pir Budaq sultan Əhmədin yanına gəldi. Sultan Əhməd onu qucaqladı, öpdü və üzünü Qara Yusifə çevirdi:

– Təbriz taxtını tutmusan, ancaq sən padşah nəslindən deyilsən, padşah da ola bilməzsən. Pir Budaq mənim oğulluğumdur, oğlumdur, onun taxtda oturmağa, padşah olmağa ixtiyarı var. Mən fərmanla Təbriz taxtını ona bağışlayıram.

Sultan Əhmədin sözləri Qara Yusifi onunla bu mövzuda danışmaq əzabından xilas etdi. O, vəzirə baxdı. Vəzir qabaqcadan hazırladığı fərmanı sultan Əhmədə uzatdı. Sultan Əhməd buna təəccüb etmədi. O, bunu qabaqcadan Pir Budaq barəsində danışanda hiss etmişdi. Təbriz taxtından əl çəkməyə hazır idi. Sultan Əhməd möhürünü fərmana basıb onu bükdü, vəzirə qaytarmadı, Pir Budağa verdi:

– Al oğlum, bu da Azərbaycan taxtının sənə bağışlanması barəsində sultan Əhməd Cəlayirin fərmanı.

Pir Budaq fərmanı sultan Əhməddən alıb ondan aralandı, gətirib atasına verdi, yenə qardaşlarının yanında, ondan böyük İspəndlə kiçik qardaşı Cahanşahın arasında öz yerini tutdu. Qara Yusif yenə vəzirə baxdı. Vəzir sultan Əhmədə ikinci bir fərman uzatdı. Sultan Əhməd fərmanı alıb oxudu, yazıq-yazıq Qara Yusifə baxdı. Qara Yusif:

– Möhürünü bas, Əhməd,—dedi.

Sultan Əhməd xırıldadı:

— Oğlanlarımı da kənar eləyirsən, ay Qara Yusif?

Qara Yusif dinmədi. Vəzir sultan Əhmədə:

—Möhürünü bas, allahına min dəfə şükür elə ki, hökmdarımız Qara Yusif sənə həyat bəxş eləyir,—dedi.

Sultan Əhməd əlacsız qalıb möhürünü fərmana basaraq vəzirə verdi. Vəzir fərmanı oxudu:

> «Bağdaddakı oğlanlarım Məhəmməd və Əbülqasım! Siz və Tərkit qalalarının qalabəyləri bilin ki, padşahlığın paytaxtı Bağdadı və Ərəb İraqı ölkəsini oğlum Qiyasəddin Şah Məhəmmədə verdim. Onun gəlməsindən xəbər tutan kimi qalanın açarlarını və xəzinələri ona təslim eləyin.

Sultan Əhməd Cəlayir.

11 Temmuz 813-cü il hicri

Sultan Əhməd başqa bir fərmanı da imzalayacağını gözləyirmiş kimi gah Qara Yusifə, gah da vəzirə baxırdı. Lakin onun fikirləşdiyi kimi olmadı, ziyafət yenidən qızışdı, çalanlar, oxuyanlar və oynayanlar bir-birlərinə qarışdılar, Bistam Cagir dilləndi:

— Hökmdar, sən nahaq yerə o ilanı bəsləyirsən, ona zəhər yığmağa şərait yaradırsan ki, əlinə bir balaca imkan düşən kimi səni çalsın.

Qara Yusif ona cavab vermədi, əmir Bistam Cagirlə, vaxtilə sultan Əhmədə yaxın adamlardan olub, sonralar ondan üz döndərmiş əmirlər israr etdilər. Onların arasında vaxtilə sultan Əhmədin öldürtdüyü qardaşının intiqamını almaq eşqilə yaşayan Əhməd Xoca Qafar da var idi. Qara Yusif dəfələrlə:

— Axı mən onun həyatını bağışlamağım barəsində and içdim,—dedisə də əmirlər sözlərindən dönmədilər, onu tezliklə aradan götürməyi israr etdilər. Naəlac qalmış Qara Yusif dedi:

— Onda qoy onu Əhməd Xoca Qafar öldürsün.

Qardaşının intiqamını almaq üçün şəraitdən istifadə etməyə tələsən əmir Əhməd Xoca Qafar ləngimədi, sultan Əhmədi yaxalayıb qanına qəltan etdi.

Ertəsi gün Qara Yusif yatağından qalxan kimi əmirlərdən biri onun yanına gəldi:

—Hökmdar, Şirvanşah Şeyx İbrahimin oğlu çox da böyük olmayan qoşunla Təbrizin yaxınlığında ordugah qurub. Kəşfiyyatçıların gətirdikləri xabərə görə, o, sultan Əhmədin köməyinə gəlib, özü də onun məğlub olmasından xəbərsizdir.

Qara Yusif gülümsündü:

– Şeyx İbrahimin böyük oğlunu əsir almaq lap yerinə düşər. İndi o öz ayaqları ilə tələyə düşməyə gəlib. Gedin onun qoşunlarını mühasirəyə salın, çox qırmayın, əsir götürməyə çalışın. Şeyx İbrahimin oğlu Gövhər Ağanın başından bir tük də əskik olmasın. O mənə çox lazımdır.

Qara Yusifin qoşunu qəflətən haqladığı Kəyumərsin-Gövhər Ağanın qoşunlarını asanlıqla məğlubiyyətə uğratdı. Həmin günün axşamı, artıq əsir alınmış Kəyumərs Qara Yusifin Təbriz sarayının taxt-tac salonunda hökmdarla yanaşı oturmuşdu. QaraYusif onunla elə davranırdı ki, sanki yanındakı əsir deyil, Şirvanşah İbrahimin göndərdiyi elçidir.

Azərbaycan taxtını ələ keçirəndən sonra Azəbaycan torpağının bir parçası olan Şirvana göz dikmiş, Şirvanşahlar taxtını Azərbaycan taxtına tabe etməyi qarşısına məqsəd qoymuş Qara Yusif bu işdə Şirvanşahın böyük oğlu Kəyumərsdən istifadə etmək fikrində idi. O, görkəmli, müdrik dövlət başçısı Şirvan şahı İbrahimi silah işlətmədən özünə tabe edə biləcəyinə əmin idi. Bu işi qan tökmədən yoluna qoymağı üstün tutan Qara Yusif Kəyumərsi atasına qarşı qaldırıb onu Şirvanşah, Qaraqoyunlular dövlətinin ali hakimiyyətini qəbul etmiş Şirvanşah kimi görmək xəyalında idi.

Qara Yusif bir neçə axşam dalbadal Gövhər Ağanın şərəfinə ziyafətlər verdi, gündüzlər isə onunla görüşmədi, O, Kəyumərsin əsir düşdüyünün onuncu günü onu yanına çağırdı. Kəyumərs Qara Yusifin yanına gələndə onu vəzirlə, baş məsləhətçisi Mahmud Ağa ilə birlikdə gördü. O, sarayda olduğu on gün

müddətində bir çoxları kimi onlarla da tanış olmuşdu. Qara Yusif Kəyumərsi hər axşam olduğu kimi gülərüzlə qarşıladı, yanında oturtdu, müqəddiməsiz, əhval-pürsan tutmadan birbaşa mətləbə keçdi:

— Sən Şirvan taxtının vəliəhdisən, ona görə də fikirləşdiklərim barəsində səninlə açıq danışmaq istəyirəm. Vəzirlə, Mahmud Ağa ilə məsləhətləşmişəm, indi də sələ deyirəm,—dedi, sözünə ara verdi, əlini saqqalına apardı, dartışdıra-dartışdıra sözünə davam etdi:—bilirsən ki, mən zorluyam, Əhməd padşah mənimlə bacarmadı, basıldı. Sən də basıldın. Şirvana qoşun çəksəm, baban da basılacaq. Ancaq mən qardaş qanı axıtmaq istəmirəm. Mənim yaratdığım dövlətə Ərəb İraqının, Əcəm İraqının ərazisinin çoxu, bütün Azərbaycan daxildir. Şirvan da Azərbaycandır, o da mənim hakimiyyətimi qəbul eləməlidir. Sən elə fikirləşmə ki, mən Şirvanşahlar xanədanını dağıtmaq fikrindəyəm. Yox. Bunu heç xəyalımdan da keçirməmişəm, Şirvanşahlar xanədanı neçə yüz ildir ki, yaşayır, qoy yenə də yaşasın. Ancaq bir şərtlə. Azərbaycanın bir parçası olan Şirvan Azərbaycan dövlətinin tərkibində olmalıdır, sənin baban bizim hakimiyyətimizi qəbul etməlidir.—Qara Yusif sözünə ara verdi, əlini saqqalından çəkdi, gözlərinn Gövhər Ağadan çəkmədən:—indi səndən bir şey tələb olunur,—dedi. Kəyumərs yerində qurcalandı. Qara Yusif:—Sən Şirvan taxtının vəliəhdisən, Şeyx İbrahimin böyük oğlusan, ona mənim fikrimi çatdırmalısan. Özü də vəzifəni mənim sözlərimi babana çatdırmaqla bitmiş hesab eləməməlisən, bu işin baş tutmasına çalışmalısan,—Kəyumərs Qara Yusifə cavab vermədi. Qara Yusif Kəyumərsin susmasından hirslənməyə başladı. Lakin o, səbrini basdı, səsinin ahəngini dəyişməməyə çalışdı.—Səndən elə bir şey tələb olunmur ki, dinməz oturmusan. Sən mənim sözlərimi şah babana çatdırmalısan, vəssalam. Bir adamın sözünü o birinə çatdırmağa nə var ki?

Nəhayət, Kəyumərs başını qaldırdı:

– Bəs bu barədə mənim, Şirvanşahlar taxtının vəliəhdinin fikri səni maraqlandırmırmı?—soruşdu.

Qara Yusif ona cavab verməyib vəzirə baxdı... Vəzir vəliəhdin verdiyi ağıllı suala Qara Yusifin, əlbəttə, biganə qalmadığını, hökmdarın cavab verməyi ona həvalə etməsini başa düşdü, adəti üzrə saqqalına, bığlarına əl gəzdirdi və dedi:

– Düz söylədin, vəliəhd, əlbəttə, sənin də öz fikrin var. Ancaq sən hələlik vəliəhdsən, Şirvanşah sənin babandır, Şeyx İbrahimdir. Hökmdarın tələblərinə cavab o verməlidir. Madam ki, sən də öz rəyini bildirmək istəyirsən, buyura bilərsən.

Gövhər Ağa qətiyyətlə:

– Mənim babam heç vaxt sakkiz yüz il hökmranlıq eləmiş Şirvan şahlarının taxtının, şah nəslindən olmayan Təbriz taxtını zorla zəbt eləmiş Qara Yusifə tabe edilməsinə razılıq verməz. Mən də, gələcək Şirvanşah da sənə, möhtərəm Qara Yusif, heç vaxt tabe olmaram. Bu o deməkdir ki, heç vaxt səninlə babam arasında belə bir biabırçı işdə vasitəçi olmağı boynuma götürmərəm. Məndən ötrü ölüm daha şərəfli olardı.

Qara Yusif nə qədər çalışdısa, əsəblərini cilovlaya bilmədi. O, bağırıb cəlladı çağırdı. Cəllad yüyrək içəri girdi. Qara Yusif:

– Apar bunu,—deyib Kəyumərsi göstərdi. Cəllad Kəyumərsə çatıb dayandı və Qara Yusifin hökmünün ardını gözlədi. Qara Yusif apar bunu deməklə kifayətlənmiş, ancaq onunla necə rəftar etmək, öldürmək, yaxud dustaq etmək barəsində bir söz deməmişdi.

Qara Yusif cəlladı yalnız bir məqsədlə, Kəyumərsin başını onun qılıncının altına vermək məqsədilə çağırmışdı. Lakin cəllad gəlib Kəyumərsin yanında dayanana kimi o, fikrini dəyişdi. Kəyumərsin ona lazım ola biləcəyini qət edib dedi:

– Onu göndər Ərkiş qalasına.

Cəllad Kəyumərsi qabağına qatıb salondan cıxan kkmi Qara Yusif söhbətin istiqamətini dəyişdi:

— Vəzir, çoxdandır səninlə «Dar əş-şəfa» barəsində məsləhətləşmək istəyirdim. İndi bu barədə söhbət eləmək imkanı var, yaxşı ki, Mahmud Ağa da buradadır.

Qara Yusifi yaxşı tanıyan vəzir, hökmdarı bir az əvvəl tamamilə başqa məsələ düşündürdüyü halda, birdən Təbrizin «müa- licə evi» adlanan bu böyük tibb, elm və tədris ocağı barəsində danışığa keçməsinə təəccüb etmədi. O, Qara Yusifdə belə halla birinci dəfə rastlaşmırdı. Mahmud Ağa isə heyrət içində idi. O, hələ sultan Əhmədin vaxtında «Dar əş-şəfa» ilə maraqlanmış, sultanı Təbrizdə, şəhər içərisində ikinci şəhərə çevrilmiş bu çoxlu müalicə ocaqlarının, xəstəxanaların, məktəblərin, hətta ali məktəbin, həmçinin rəsədxananın onlarla binasının yerləşmiş olduğu elm və mədəniyyət mərkəzinə kömək göstərməyə sövq etməyə çalışmışdı. Fars, ərəb, türk dillərində müstəqil danışan, musiqi və nücum elmlərilə maraqlanan, özünü şairlərin, alimlərin hamisi kimi göstərməyə çalışan sultan Əhməd ya Təbrizi tez-tez tərk etməyə məcbur olduğuna görə, ya da çox vaxt başı eyş-işrətə qarışdığına görə dəfələrlə söz versə də, «Dar əş-şəfaya» heç bir kömək göstərə bilməmişdi. Mahmud Ağa Qara Yusiflə bu böyük, Şərqdə yeganə olan elm-mədəniyyət ocağı barəsində danışmağa imkan axtarır, bu ocağı öz himayəsinə götürməsini xahiş etmək istəyirdi. İndi Qara Yusnfin özü bu barədə danışmağa başladı. Mahmud Ağa öz mülahizələrini söyləmək istədi, ancaq nurani, ağıllı vəziri qabaqlamağı lazım bilmədi, ona baxdı. Vəzir əlini saqqalından çəkdi, bir qədər fikirləşib dedi:

— Qoy əvvəl Mahmud Ağa öz fikrini söyləsin. O, çox oxumuş alim adamdır, onun mülahizələri daha qiymətli olar.

Qara Yusif nəzərlərini Mahmud Ağaya çevirdi. Mahmud Ağa:

— Hökmdar, düzünü axtarsan mən özüm bu barədə səninlə danışmağa fürsət axtarırdım.

Qara Yusif Mahmud Ağanın fikrini istədiyi istiqamətə yönəltmək üçün «Dar əş-şəfa» barəsində bildiyindən bir neçə kəlmə danışmağı lazım bildi:

— Bilirsənmi, Mahmud Ağa, mən Təbrizə birinci dəfə girəndə kefsizləmişdim. Əmirlərdən bir mənə «Dar əş-şəfa» barəsində ötəri danışdı və oradan həkim çağırdı. Həkim mənə dava-dərman eləyəndən sonra ondan «Dar əş-şəfa» barəsində soruşdum. Onun sözlərindən elə çıxdı ki, bu şəfa ocağı artıq yüz ildir ki, yaranıb, padşahlar da həmişə ona lazımi diqqəti yetiriblər. Ancaq əmir Teymurun hücumları, Təbrizin əldən-ələ keçib qarət olunması öz işini görüb, «Dar əş-şəfa»ya xeyli ziyan dəyib. Həkimlə söhbətimdən xeyli vaxt keçib. O vaxt əhd eləmişdim ki, Təbriz taxtına oTuran kimi onu öz himayəmə götürəcəyəm, nə kömək lazım olsa eləyəcəyəm.

Mahmud Ağa sevindi, işığı azalmış gözləri işıqlandı:

— Hökmdar, «Dar əş-şəfa»da özümüzkülərdən başqa İran, Hindistan, Misir, Çin, Suriya, Yunan və başqa ölkələrdən gəlmiş alimlər, həkimlər çalışırdılar. Buradakı darülfünunda altı-yeddi min tələbə təhsil alırdı, özü də Şərq dünyasının çox yerindən. Görkəmli alimlər təbiət elmlərini, fəlsəfə, tarix, təbabət, nücum, məntiq, şəriət elmlərini onlara öyrədirdilər. Amma gözəl rəsədxanası var. Buranın kitabxanası dünyanın ən zəngin kitabxanalarından hesab olunur.

Qara Yusif Mahmud Ağanın sözlərini bitirib ona baxmasını görüb soruşdu:

— Mahmud Ağa, bəzi şeylər barəsində elə danışaın ki, elə fikir yarandı ki, daha əvvəlki işlərin çoxu görülmür. Məsələn, darülfünunun fəaliyyəti, orada dərs keçən alimlər barəsində.

Mahmud Ağa əllərini oynatdı:

— Təəssüf ki, elədir, hökmdar. Darülfününun müəllimləri və tələbələri xeyli azalıb. Məktəblər, onlarda təhsil alanlar da həmçinin. Xəstəxanaların, onlarda çalışan həkimlərin də sayı əvvəlki qədər deyil. Səbəbi də budur ki, neçə illərdir «Dar əş- şəfa» xəzinədən kömək görmür, ona görə də belə zəifləyib. Səndən xahiş eləmək istəyirdim ki, xəzinə, fəxrimiz olan bu nəhəng elm, tibb və mədəniyyət ocağını saxlamaq üçün vəsait ayırsın. İndi ki, sən özün «Dar əş-şəfa»da hamiliyi öz üzərinə götürmək istəyirsən, mənim ricama heç bir ehtiyac qalmır.

Qara Yusif başını qaldırıb Mahmud Ağa ilə razı olduğunu bildirdi, vəzirinə dönəndə saray xidmətçisi icazə alıb içəri girdi:

– Hökmdar, Şirvanşah Şeyh İbrahimin elçiləri səni görmək istəyirlər,—dedi.

Qara Yusif elçiləri çağırmağa icazə verdi. «Dar əş-şəfa»ya kömək göstərmək barəsində vəzirə bəzi göstərişlər verib xəzinədarla birlikdə bu işi həll etməyi tapşırdı və dedi:

– Vəzir, görünür, Şeyx İbrahim oğlunu qurtarmaq məqsədilə elçilərini göndərib.

Vəzir başını tərpətdi, bu vaxt elçilər içəri girib Qara Yusifə baş əydilər. Qara Yusif onlara oturmağı təklif etmədən dedi:

– Buyurun məramınızı söyləyin.

Elçilərdən biri:

– Hökmdar, Şirvanşah Şeyx İbrahim sənə salam göndərib, barat göndərib. Şirvanşah səndən vəliəhdi Gövhər Ağanı azad etməyi, əvəzində istədiyin qədər can xərci vermayi boynuna götürür. Şirvanşah Şeyx İbrahim sənə dostluq, müttəfiqlik əlini uzatmaq arzusundadır.

Gövhər Ağanın kəskin cavabından qeyzə gəlmiş Qara Yusif fikrini dağıtmaq üçün «Dar əş-şəfa» barəsində söhbət salsa da ondan qabaqkı danışıqları başından çıxara bilməmişdi. Odur ki, əsəbi halda taxtından durdu və dedi:

– Mənə dostluq, müttəfiqlik əli uzatmaq istəyən Şirvanşah Şeyx İbrahim, üstümə vəliəhdinin başçılığı altında qoşun yeritməyi nə tez yadından çıxarır, Mən Şeyx İbrahimlə yalnız bir şərtlə dost ola bilərəm. Şirvan Azərbaycan topaqlarının bir guşəsidir. İndi Azərbaycan torpaqlarının hökmdarı mənim oğlum Pir Budaqdır. Onu sultan Əhməd Azərbaycan hökmdarı eləyib, Şirvan torpaqları da bu dövlətin tərkibində olmalıdır.

Qara Yusif danışdıqca sakitləşirdi. O keçib taxtında oturdu, ancaq ovcuma doldurub dartışdırdığı saqqalını buraxmadı:

—Yox, mən Şirvanşah Şeyx İbrahimi onun taxtından kənar eləmək fikrində deyiləm. Şirvanşah öz taxtının sahibi olaraq qalacaq, ancaq xərac verəcək. Bütün

bunları öz Şirvanşahınıza yetirin,—deyib yenə taxtından durdu. Bu, söhbətin qurtarmasına işarə idi. Ancaq elçilər getmədilər. Onlar əsas suallarına hələ cavab almamışdılar. Qara Yusif indi onların getməyib, müntəzir dayandıqlarını gördükdə onlara cavab verməyi lazım bildi:

— O ki qaldı vəliəhdin azad edilməsinə, bu barədə heç söhbət də ola bilməz. O vaxta kimi ki, Şeyx İbrahim mənim təkliflərimə cavab verəcək.

Elçilər Qara Yusifə təzim edib çıxdılar. Özünü yorğun hiss eləyən Qara Yusif Mahmud Ağa ilə vəziri mürəxxəs eləyib dincəlməyə getdi.

* * *

Şirvan elçilərini yola salandan bir neçə gün sonra Qara Yusif Şirvan şahlığının vəliəhdi Kəyumərsi atasına qarşı qaldırmaq məqsədi ilə yenidən yanına çağırmaq istədi. Qara Yusif Kəyumərsi çağırmazdan qabaq məsləhət üçün vəzirlə Mahmud Ağanı dəvət etdi. O, Kəyumərslə onların iştirakı və köməyilə danışmaq fikrində idi. Qara Yusif öz fikrini onlara bildirəndən sonra Ərkiş qalasına, Kəyumərsin ardınca capar göndərmək əmrini verməyə macal tapmamış qoruqçubaşı içəri girdi və dedi:

— Hökmdar, İsfahan hakimi Rüstəmin elçiləri sənin görüşünə müntəzirdirlər.

Qara Yusif əmir Teymurun oğlu Şahruxun Farsı, İraqı və Azərbaycanı zəbt etmək üçün Xəlil Sultanın başçılığı altında göndərdiyi qoşunun hərəkət istiqamətinn diqqətlə izləyirdi. Belə bir ağır vaxtda Fars hakimi İskəndərlə, qardaşı, İsfahan hakimi Rüstəm arasında hakimiyyət uğrunda mübaribə də böyük əhəmiyyət kəsb edirdi. Əslində Qara Yusifi Xəlil Sultanın qoşunlarının hərəkətindən daha çox iki qardaş arasında gedən mübarizə maraqlandırırdı. Farsın ərazisini öz dövlətinnn tərkibinə qatmaq məqsədini çoxdan qarşıya qoymuş Qara Yusif qardaşlardan birinin onun köməyinə müraciət edəcəyini gözləyirdi. Qara Yusif İskəndərə nisbətən daha zəif olan Rustəmin kömək istəyəcəyinə daha çox umid bəsləyirdi, bunu Daha əlverişli hesab edirdi. Lakin

Rüstəmin, qardaşına qarşı ona deyil, Xəlil Sultana müraciət etməsi, ondan kömək istəməsi, onu İsfahanda təntənə ilə qarşılaması Qara Yusifin ümidlərini qırmış və o, yalnız İskəndərin ona müraciət edəcəyinə bel bağlayırdı. İndi, Kəyumərsi çağırmağa hazırlaşdığı vaxtda qoruqçubaşının gətirdiyi xəbər Qara Yusif üçün gözlənilməz oldu. O, Rüstəmin elçilərinin onun yanına bu tezliklə gələcəyinə inanmadı və soruşdu:

— Dedin kim gəlib?

Qoruqçubaşı cavab verməyə tələsdi:

— Rüstəmin, İsfahan hakimi Rüstəmin elçiləri.

— Nə deyirlər onlar?

— Sənin yanına gəlmək istəyirlər. Dedim sözlərini mənə söyləsinlər, əvvəl razı olmadılar, söylədilər ki, hökmdarı görməliyik. Amma nə fikirləşdilərsə, razı oldular. Söylədilər ki, İsfahan hakimi əmir Rüstəm Təbrizdən bir ağac aralıda dayanıb Təbrizə gəlməyə sənin icazə verməni gözləyir.

Qara Yusif bir qoruqçubaşına, bir vəzirlə Mahmud Ağaya baxdı və dedi:

— Get elçilərə söylə ki, əmir Rüstəm əziz qonağımız olar, gəlmək istəyir, xoş gəlib, səfa gətirib.

Qara Yusifin onlarla məsləhətləşmədən belə ciddi bir məsələni asanlıqla həll edib cavab verməsi vəziri də, Mahmud Ağanı da narahat etdi. Onlar da Qara Yusif kimi bilirdilər ki, Xəlil Sultan İsfahandadır, Rüstəm də onun müttəfiqi idi. Madam ki, o, Xəlil Sultanın yanından qaçıb, demək araları dəyib. Onun burada qəbul edilməsi, Xəlil Sultanın Azərbaycana basqını demək deyildimi?

Qorutçubaşı gedəndən sonra vəzir öz fikrini söylədi. Mahmud Ağa da vəzirin fikri ilə şərik olduğunu bildirdi, Qara Yusif ildən-ilə rəngini itirən saqqalını ovcuna doldurdu, ancaq adətinə rəğmən dartışdırmadı, sığalladı, gülümsündü, baxışlarındakı sərtlik mülayimliklə əvəz olundu:

— Elədir, mənim müdrik məsləhətçilərim, sizin ikiniz də eyni cür fikirləşmisiniz. Elə mən də sizin kimi fikirləşirəm— dedi, gülümsündü,—deyirlər böyük, müdrik adamlar həmişə eyni cür fikirləşirlər.

Görünür, sizinlə bir yerdə olmaq, məsləhətlərinizə qulaq asmaq, müdrik sözlərinizi eşitmək məni də müdrikləşdirib,—dedi, dodaqlarındakı təbəssüm qeyb oldu, baxışları qətiləşdi.—Hər iki hal bizi təmin eləməlidir. Əmir Rüstəm bizə gərəkdir. Onun bizim tərəfimizə keçməsi, Farsın Qaraqoyunlular dövlətinin tərkibinə girməsinin başlanğıcı olacaq. O ki qaldı Xəlil Sultanın bu yerlərə hücum eləməsi təhlükəsinə, elə mənə də bu lazımdır. Qoy o, qoşunlarının bir qismini Reydə, İsfahanda qoyub bu yerlərə gəlmək fikrinə düşsün. Biz onu Şənbi Qazanda, Əsədkənd yaxınlığında qarşılarıq, yoluşdurub yola salarıq. Farsa yiyələnmək üçün biz onunla geci-tezi üzləşməliyik.

Qara Yusif fikrini söyləyib qurtardı, vəzirlə Mahmud Ağanın onunla razı olduqlarını görüb davam etdi:

— Rüstəm əmiri cah-cəlalla qarşılamağa hazırlaşaq.

Payızın ikinci ayının başlanmasına baxmayaraq Təbrizdə havalar yenə isti keçir, yay geriyə çəkilmək istəmirdi. Əmir Rüstəm Təbriz darvazalarından şəhərə girən gün də hava çox isti idi. Qara Yusifin əmrilə bütün Təbriz camaatı küçələrə çıxmışdı. Camaatın təntənənin nə münasibətlə olmasına əhəmiyyət vermədən, cah-cəlallı günlərə sevinən qismi məmnuniyyətlə küçələrə tökülmüşdü. Ancaq şəhərlilərin xeyli hissəsi belə təntənəli qarşılama və yola salmalardan bezikmişdi. Onlara qalsaydı, heç biri evindən bayıra çıxmazdı:

— Nə olsun axı əmir Rüstəm gəlir Təbrizə? Nə böyük adam imış bu Cığatay əmiri? O da, qardaşı İskəndər də, onlardan sonra gəlmiş Xəlil Sultan da Fars üçün özgədirlər. Özgə torpaqlarını zor gücünə tutub oturublar.

Bu sözləri deyən şəhərli ilə yanaşı dayanmış ikinci təbrizli dilləndi:

— Sınamışam səni, kim gəlir gəlsin, deyinirsən. Ay kişi, Qara Yusif öz işini bilən adamdır. O ki əmir Rüstəmi belə qarşılayır, demək belə lazımdır. Bir də, ay qonşu, öz aramızdır, elə cığataylar da bizlərdəndirlər də...

Onun həmsöhbəti dözmədi:

– Ə... haradan bizdən oldular? Üzləri bizim üzlərimizə, gözləri bizim gözlərimizə oxşayır? Hələ onu demirəm ki, üzlərrində vur-tut dörd dənə tük olur, özü də təkcə çənələrində.

İkinci təbrizli şaqqanaq çəkdi:

– Ay kişi, bizlərdəndir deyəndə, demək istəmirəm ki, onlar bizim eynimizdirlər. Dillərimiz yaxındır, kökü birdir, türk dillidirlər. Demək onlar farslara deyil, bizə yaxındırlar.

Kişi yenə ağzını doldurdu, ancaq bu vaxt yanaşı at sürən Qara Yusiflə əmir Rüstəm onlarla bərabərləşdilər, həmsöhbətlər nəzərlərini onlara çevirdilər, gələnləri yaxından yaxşı- yaxşı görmək istəyən camaat basabas saldı, onlar bir-birindən aralı düşdülər. Qara Yusiflə əmir Rüstəm, onların müşayiətçiləri ötüb keçdilər, camaat dağılışmağa başladı. Qara Yusif qonağını birbaşa saraya, onun şərəfinə düzəltdiyi ziyafətə gətirdi. Əmir Rüstəm Qara Yusifin onu belə təntənə ilə qarşılamasını, şərəfinə ziyafət verməsinin səbəbini arayır, cavab tapmırdı. Lakin bundan bir şey itirməyəcəyini düşünub narahat olmağa heç bir əsas görmürdü. Hökmranlığının rəvan olduğu yeganə yer İsfahan idi ki, o da əlindən çıxmışdı. Əmnr Rüstəm Təbrizə gəlişinin üçüncü günü, başı ziyafətlərdən ayıq olan vaxt Qara Yusiflə söhbətlərindən Azərbaycan hökmdarının məqsədindən agah oldu. O, əslində qardaşı İskəndərin Farsın hakimi olmasının əleyhinə deyildi. Yalnız qardaşının İsfahanı da ona çox gördüyündən narazı idi. Odur ki, Farsın Qara Yusifin hakimiyyəti altına keçməsinin əleyhdarı idi. Doğrudur, Qara Yusif Farsın hakimliyini ona vəd etmişdi, ancaq o, Farsı cığatayların hakimiyyətinə tabe olan torpaqlardan ayırmaq fikrində deyildi. Hələlik Əmir Rüstəm Qara Yusifin İsfahanı Xəlil Sultanın əlindən alıb ona qaytarmağa hazır olduğuna görə onunla söhbətlərində fikrini gizlətməyə çalışır, özünü onun tökdüyü tədbirlərin tərəfdarı və iştirakçısı olmağa hazır olan yaxın adam kimi göstərməyə çalışırdı. Ancaq əmir Rüstəm bir şeyi başa düşmürdü ki, Qara Yusifi aldatmaq onun düşündüyü qədər asan deyildir, o, Rüstəmin fikirlərini onun gözlərindən çoxdan oxumuşdur.

Əmir Rüstəmlə növbəti söhbətindən sonra vəzirlə və Mahmud Ağa ilə görüşmüş Qara Yusif öz mülahizələrini onlara bildirdi:

– Əmir Rüstəm mənim fikirləşdiyim adam olmadı. Doğrudur, o, üzdə mənim sözlərimin hamısı ilə şərik olur, boyun-başını tərpədir, ancaq gözlərini susdura bilmir.

Vəzir qara rəngli saqqalına əl gəzdirə-gəzdirə dedi:

—Onunla tək bircə söhbətimdə mən də sənin gəldiyin qənaətə gəlmişəm. Ancaq onu incik salmaq gərək deyil. Kim bilir Farsda sonralar nə kimi hadisələr baş verə bilər və Rüstəm bizə lazım olar.

Qara Yusif onunla razı oldu:

– Elədir, vəzir, ona söz verdiyim kimi eləyəcəyəm. Havalar yavaş-yavaş dəyişir, soyuqlar düşməmiş onu yenidən İsfahan taxtında oturtmağa gedəcəyəm. Fikrim var yolüstü Marağaya da dəyəm, o tərəflərdə bəzi əmirlər baş aparmağa başlayıblar. Marağadan keçməyim həmin əmirləri yenə cızığına salar.

Qara Yusiflə vəzirin söhbətlərinə qarışmamağı, yalnız sorğulara cavab verməklə kifayətlənməyi qət eləmiş Mahmud Ağa onlar danışıqlarına ara verəndə dedi:

– Hökmdar, deyirlər Xəlil Sultan İsfahana girəndən sonra yaman qıtlıq başlanıb, buna görə də o, İsfahanda çox qalmaq fikrində deyil.

Qara Yusif sual dolu baxışlarını vəzirə çevirdi. Vəzir bu baxışların mənasını başa düşüb dedi:

– Elədir, hökmdar, xəbəri bu gün gətiriblər, sənə deməyi unutdum, yaxşı ki, Mahmud Ağa yada saldı.

Mahmud Ağa Qara Yusifin indiki vəziyyətdə məsləhət eşitmək istədiyini yaxşı bildiyindən öz fikrini söylədi:

– Hökmdar, Xəlil Sultanın İsfahandan getməyə hazırlaşdığı, İsfahandan çıxacağı təqdirdə sənin o şəhərə getməyinə ehtiyac qalırmı?!

Qara Yusif başını tərpətdi:

— Elədir. Ancaq Marağaya gedəcəyəm. Buna əmir Rüstəmi yola salmaq donu geyindirəcəyəm. Onu Marağadan yola salıb qayıdacağam. Hələlik, Farsın baş şəhəri olan İsfahanın hakimi əmir Rüstəm bnzim hakimiyyətimizi qəbul edir. Bu, bütün Farsın yaxın zamanlarda bizim Qaratoyunlular dövlətimizin tərkibində olacağının müjdəçisidir.—Qara Yusif sözlərini deynb qurtardı və gözlənilmədən ciddiləşdi. Vəzirlə Mahmud Ağa onsuz da qətiyyətli və çox təmkinli adam olan Qara Yusifin belə sərt olduğunu nadir hallarda, çox mühüm bir hadisə baş verəndə yaxud hökm verməyə hazırlaşanda görmüşdülər. Söhbətin o qədər də mühüm məsələdən getməməsinə görə Qara Yusifin belə tutulması, saqqalını qeyri-adi vəziyyətdə ovuclaması üçün heç bir əsas yox idi. Qara Yusif vəzirlə Mahmud Ağanın intizarını çox da uzatmadı:

— Mən son vaxtlar Təbriz taxtı əvəzinə Qaraqoyunlular dövləti sözlərini çox işlədirəm, ancaq bu vaxta kimi dövlətimizin padşahı yoxdur.

Uzun illər boyu dövlət, padşahlıq işlərilə məşğul olmuş vəzir Qara Yusifin fikrini tez aldı, Mahmud Ağa isə təcrübəsi vəzirdən az olmamasına baxmayaraq təəccübləndi:

— Hökmdar, bu nə sözdür? Məgər sultan Əhməd oğlun Pir Budağa Təbriz taxtını vermədimi? O, padşah olmadımı? Pir Budaq kiçik yaşlı olduğundan əslində bizim padşahımız sənsən. Demək, Qaraqoyunlular dövlətinin hökmdarı da sənsən.

Qara Yusif nəzərlərini Mahmud Ağadan çəkmədən onu sona kimi dinlədi və gülümsündü:

— Yox, Mahmud Ağa, yox, mənim padşah olmağa hüququm yoxdur.

Qara Yusif yaxşı başa düşürdü ki, yalnız Çingiz xan nəslindən, yaxud bu nəslə bağlı olan adamın taxtda oturmaq, özünü hökmdar elan etmək hüququ var. Bununla belə, Qara Yusifə aydın idi ki, hər şeyi zor həll edir. Hakimiyyət zora tabedir və o istədiyi vaxt özünü padşah, sultan elan eləyə bilər. Lakin onun bu hərəkəti yaranmış ənənəyə qarşı getmək olardı. Qara Yusif uzun illər boyu yaşayan bu ənənəyə qarşı getmək istəmirdi. Bir də ona görə istəmirdi ki, onun

çıxış yolu var idi. Oğlu Pir Budaq padşahlıq hüququ olan sultan Əhmədin oğulluğu, mənəvi oğlu idi. Sultan Əhməd xüsusi fərmanla Təbriz taxtını ona bağışlamağa məcbur olmuşdu. Pir Budağı padşah elan etmək olardı. Sultan Əhmədin oğulluğunun belə bir hüququ var idi. Qara Yusif bu kiçik yaşlı oğlunu padşah, özünü isə onun naibi elan etməklə işi yoluna qoymaq istəyirdi. Qara Yusif bu barədə fnkirləşə- fikirləşə üzünü vəzirə çevirdi:

— Vəzir, Pir Budağı padşah tikmək vaxtı çatıb. İstəyirəm üzümüzə gələn yazda böyük məclis düzəldim, bütün vilayətlərin, şəhərlərin əmirlərini Təbrizə yığıb bu işi görüb qurtarım. Artıq dövlətimiz var, mərhum babamın vəsiyyəti, arzusu həqiqət olub. Ancaq bu vaxta kimi padşahımız yoxdur.

Vəzir başını tərpətdi və:

— Çox yaxşı fikirdir, hökmdar,—deməklə kifayətləndi.

Qara Yusif:

— Vəzir, bu böyük işin cah-cəlallı olması üçün qonşu hökmdarların iştirakı da lazımdır. Sən Mahmud Ağa ilə birlikdə hazırlıq işlərinə başçılıq elə, mən əmir Rüstəmi Marağaya yola salıb qayıdandan sonra oğlanlarımı yığıb onlarla danışaram.

Qara Yusifin əmir Rüstəmlə Marağaya getməsi, onu Xəlil Sultanın başsız qoyub getdiyi İsfahana yola salıb qayıtması bir aydan çox vaxt apardı. O, Təbrizə qayıdanda vaxtından qabaq qapını kəsdirmiş qış özünü göstərmiş, soyuqlar düşmüş, əməlli-başlı qar yağmış, evlərdə yanan buxarılardan qalxan tüstü göyə millənmişdi. Qara Yusif, özü də səbəbini bilmədən qışı narahat keçirdi. Qışın orta ayında o, yenə Şirvan şahlığının vəliəhdini Ərkiş qalasından gətirdib onunla danışmağı qət etdi və arxasınca atlı göndərdi. Qara Yusif Gövhər Ağa ilə danışığa başlamamışdan qabaq, onu saraya gətirən kimi şərəfinə ziyafət verdi. Ziyafətdə Qara Yusifin böyük oğlu, Ərəb İraqına, atasının onun idarəsinə verdiyi ölkəni idarə etmək üçün Bağdada yola düşməyə hazırlaşan Şah Məhəmməd, Qara Yusifin əsir düşmüş arvadından olan oğlanları İsfəndiyarla İspənd, padşahlığa hazırlaşan səkkiz yaşlı oğlu Pir Budaq, yeddi yaşını yenicə başa vurmuş şair

ürəkli oğlu Cahanşah da iştirak edirdi. Qara Yusif də, onun oğlanları da Gövhər Ağaya mehribanlıq göstərirdnlər. Qara Yusifin hərəkətlərindən baş çıxara bilməyən Gövhər Ağa, onun bu mehribanlığının səbəbini dəqiq bilməsə də, nə ilə bağlı olduğu barədə təsəvvürü var idi. Kəyumərs Qara Yusifin təklifi ilə raşılaşmamağa, atasına Qara Yusifə tabs olmaq barədə heç bir söz deməyəcəyinə, bu yolda ölməyə belə and icmişdi. O, Ərkiş qalasına göndərilən gün həyatına vida demiş, hər gün qalaya ona yemək gətirəndə, cəlladın gəldiyini fikirləşmişdi. Qışın oğlan çağında Qara Yusifin Ərkiş qalasına göndərdiyi atlılar gəlib onu Təbrizə aparanda, Kəyumərs unu ömrünün son günü hesab etmiş, birbaşa ziyafətə düşəndə heyrət etmişdi. Ziyafətdə Qara Yusifdən, oğlanlarından hörmət görəndə qəlbinin ən dərin guşəsində ümid çırağı yanmışdı. Xəyalında min cür, hamısı da bir-birindən işıqlı, həyat eşqi ilə dolu mənzərələr canlanmışdı. Hətta bir anlığa ona elə gəlmişdi ki, atası ilə Qara Yusif ümumi dil tapıblar. Necə, hansı yolla? Yəni Şirvanşah Qara Yusifə xərac verməyə razı olmuş, onun hakimiyyətini qəbul etmişdir? Yox, heç vaxt. Kəyumərs atasını yaxşı tanıyırdı. Şirvan şahlığının istiqlaliyyətini, müstəqilliyini hər şeydən uca tutduğunu, bunun yolunda hər cəfaya, ölümə belə razı olacağını bilirdi. Bilirdi ki, Qara Yusif Şirvanşahın iradəsini yalnız zorla, qılınc gücünə qıra bilər. Bəs belə olan surətdə nə üçün Qara Yusif ona belə hörmət eləyir? Bəlkə o, fikrindən dönüb, Şirvanı Qaraqoyunlular dövlətinin tərkibinə qatmaq fikrindən daşınıb? Yox. Bu da ağlabatan deyil. Bütün Azərbaycan tornaqlarını Qaraqoyunlular dövlətinin tərkibində görmək xəyalı ilə yaşayan Qara Yusifi heç bir qüvvə bu fikrindən daşındırmağa qadir deyil. Bəs onda nədir bu, nə? Yəqin Qara Yusif yenə onu sınamaq, bəlkə də sındırmaq xəyalına düşüb.

Qara Yusif hamının şadlanmasına baxmayaraq Kəyumərsin xəyal içərisində olduğunu görür, ancaq üzə vurmurdu. O, Şirvan şahlığının vəliəhdinin fikirli olmasına sevindi. Qara Yusif Kəyumərsin daxili iztirabının onun dəyanətini sarsıda biləcəyinə də ümid bəsləyirdi. Gecəyarısı ziyafət qurtaranda Qara Yusif Gövhər Ağanı mehribanlıqla yola saldı. Ertəsi gün axşam da sarayda ziyafət

oldu, Kəyumərs də ziyafətdə iştirak etdi. Sonrakı gün isə Qara Yusif vəliəhdi oğlanları Şah Məhəmməd, İsfəndiyar və İspəndlə birlikdə böyük silahlı dəstənin müşayiətilə şimala, Şirvan torpaqları sərhədlərinə yaxın yerə ova göndərdi. Kəyumərs bunu onun üçün qurulmuş tələ sandı, fikirləşdi ki, Qara Yusif onu asdırmaq, cəlladın əllərinə vermək istəməyib, ovda öldürtmək, guya təsadüfi atılmış bir oxun qurbanı etmək istəyir. Lakin ovu da sağ-salamat başa vurub Təbrizə qayıdandan sonra Qara Yusifin yenə onunla danışığa başlayacağını, ona dil tökəcəyini yəqin etdi.

İki gün keçmiş, səhər yeməyindən sonra Kəyumərsin yanına gəlmiş saray xidmətçisi Qara Yusifin onu görmək istədiyini bildirdi. Hökmdarın belə bir çağırışını hər gün, har an gözləyən Kəyumərs, Qara Yusifin yanına gələndə, onu salonda, qızıl taxtda əyləşmiş gördü. Hökmdarın sağında vəzir, onunla yanaşı Mahmud Ağa əyləşmişdi. Qara Yusifin sağındakı kətil boş idi. Hekmdar Kəyumərsi gülərüzlə qarşılayaraq, ona həmin kətildə oturmağı təklif etdi.

Ortaboylu, sarıbəniz göy gözləri dalğın Kəyumərs göstərilən yerdə oturdu. Onun nazik qaşları yay kimi dartılmışdı O, Qara Yusifi, onun əhatəsini gözdən keçirib hər üçünün baxışından və lal-dinməz hərəkətindən söhbətin ciddi olacağını başa düşdü. Sözünü birbaşa deməyi xoşlayan Qara Yusif sözə başladı:

-Neçə vaxtdır Təbrizdəsən, bir müddət də Ərkiş qalasında oturmalı olmusan. Hamısının da səbəbi sənin tərsliyindir. Çərilərinin hamısını evlərinə buraxmışam, özü də can haqqı istəmədən. Şirvanşah elçilərini göndərmişdi, səni buraxmağı xahiş eləyirdi, özü də nə qədər istəsəm can pulu verməyə hazır idi

Kəyumərs atasının onun qayğısına qalmasına sevindi, onda Qara Yusifin təkliflərini sona qədər rədd etmək qətiyyəti daha da möhkəmləndi. O, dedi:

– Qara Yusif, mənim səni hökmdar çağırmağa da dilim gəlmir. Axı sən çoban nəslindənsən, səndən heç vaxt şah ola bilməz. İndi istəyirsən ki, mən, şah oğlu, Şirvan şahlığının vəliəhdi sən deyənə razı olum? Şirvan şahlığıın sənə tabe olmasına yol verim? Bu heç vaxt ola bilməz.

Kəyumərs sözlərini deyib susdu. O, indicə göy guruldayıb ildırım çaxacağını. Qara Yusifin coşacağını, cəlladı çağıra- çağını zənn etdi. Ancaq elə olmadı. Qara Yusif nəinki coşmadı, əksinə, gülümsündü və dedi:

– Sən nahaq elə hesab eləyirsən ki, mən səni yenə şah babanın yanına göndərmək, xərac verməsini sənin vasitənlə ona çatdırmaq istəyirəm. Xeyr. Bunu mən silah gücünə eləyəcəyəm, Şirvanşahı, sənin şah babanı mən, çoban nəslindən hesab elədiyin Qara Yusif diz çökdürəcəkdir.

Qara Yusif son sözlərini deyəndə dodaqlarındakı təbəssüm qeyb olmuş, sifəti dəyişmiş, gözlərn qorxunc ifadə almışdı. Lakin o, tezliklə, yenicə fikrinə gəlmiş sözləri Kəyumərsə deyəcəyini nəzərə alıb, yenə dodaqlarına təbəssüm qondurdu:

– Yox, mən sənin vasitənlə babana bir söz çatdırmaq fikrində deyiləm. Səni elə-belə, heç can haqqı belə tələb etmədən azad eləyəcəyəm. Yığışdanıb Şirvana qayıda bilərsən. Tapşıracağam sənə qızıl-gümüş əsləhəli at, bir neçə müşayiətçi versinlər.

Kəyumərsi çağıranda Qara Yusifin bambaşqa fikirdə olduğunu bilən vəzirlə Mahmud Ağa hökmdarın son sözlərini heyrətlə dinlədilər, bir-birinə baxıb çiyinlərini çəkdilər. Kəyumərs də heyrət içində idi. Qara Yusif qarşısındakıların üçünü də gözdən keçirib gülümsündü və davam etdi:

– Bəli, şahzadə, səni buraxıram. Ancaq sevinməyini görüb sənə acıyıram. Axı Şirvanda səni dar ağacı gözləyir.

Kəyumərsin sevinci hiddətlə əvəz olundu:

—Məni ölümlə, dar ağacı ilə qorxutma, Qara Yusif. Mən öz məmləkətimə heç vaxt xəyanət eləməmişəm, eləmərəm də. Məni doğma yurdumda dar ağacı niyə gözləməlidir?

Qara Yusif çiyinlərini çəkib:

– Gorünür, mənim sözlərim sənə çatmadı,—dedi, yenə vəzirlə Mahmud Ağaya baxdı və davam etdi:—Yaxşı fikirləş, şahzadə.

Neçə vaxtdır səni dustaq eləmişəm. Babanın xahişini, böyük can haqqı verməsinə baxmayaraq, rədd edib səni buraxmamışam. İndi birdən Şirvanda peyda olursan. Şah baban, özü də Şeyx İbrahim kimi ağıllı, mudrik, uzaqgörən hökmdar sənin barəndə nə fikirləşəcək? Nədən Qara Yusif oğlumu çoxlu qızıl müqabilində buraxmayıb, durduğu yerdəcə ödəncsiz-filansız buraxdı?

Kəyumərsin rəngi dəyişdi. O qeyzlə dedi:

– Sən namərdlik eləyirsən, Qara Yusif. Göndər məni dar ağacının altına. Şah babamın məni satqın, sənə satılmış hesab etməyindənsə ölüm yaxşıdır.

Qara Yusif təmkinini pozmadı. Vəzirlə Mahmud Ağa hökmdarın ağlına, uzaqgörənliyinə heyran qalmışdılar. Qara Yusif gözlərini Kəyumərsdən çəkmədən davam etdi:

—Bu xəyanət deyil, cavan oğlan, dövlət işidir. Çox da dar ağacı, dar ağacı deyib təkrar eləmə. Ölüm dəhşətlidir, ondan hamı qorxur, sən də qorxursan. Mən səni öldürməyəcəyəm, buraxacağam. Qoy orada səni şah baban öldürsün, əllərini oğul qanına bulasın.

Qara Yusif sözünə yenə ara verdi. Kəyumərs də dinmədi, ona cavab vermədi. O, başını aşağı dikib oturmuşdu. Qara Yusif bunu Kəyumərsin tərəddüd içində olması kimi qiymətləndirib qəti hücum anının çatdığını hesab etdi:

– Ölüm həmişə var, hamıya qismət olur, tələsmə. Padşah taxtında oturmaq, şah olmaq isə tək-tək adama tismət olur. Mən səni babanı öldürüb yerinə keçməyə çağırmıram, onsuz da qocalıb, ondan sonra Şirvan şahı sən olacaqsan. Bax onda sən xərac verəcəyini boynuna götürsən bütün işləri yoluna qoyaram, Şeyx İbrahim səndən şübhələnməz, vətənə qayıdarsan. Yenə deyirəm, Şirvanşahı diz çökdürə bilərəm, ancaq qardaş qırğını törətmək istəmirəm.

Kəyumərs qətiyyətlə:

– Yox, heç vaxt, heç vaxt mən bunu eləmərəm,—dedi.

Qara Yusif:

– Özün bilən yaxşıdır. Sabah yola düşürsən. Yol boyu fikirləşməyə vaxtın olacaq,—deyib taxtından qalxdı, taxt-tac salonunu tərk etdi. Onun ardınca vəzirlə

Mahmud Ağa da getdilər. Kəyumərs bir müddət yerində donmuş halda qaldı, ancaq çox qısa bir müddət. Sonra oturduğu kətildən qətiyyətlə qalxdı, çıxışa getdi, ertəsi gün isə Şirvana yola düşdü.

Qara Yusif Kəyumərsin yoldan qayıtmayacağına, Şeyx İbrahimin onu edam edəcəyinə əmin idi. Yazın girməsinə azca qalmış Qara Yusif, əmir Şeyx İbrahimin oğlunu edam etdirməsi xəbərini aldı. Bu xəbər onu bir anlığa pərişan etdisə də, tezliklə də onun qurduğu tələyə düşüb cavankən, vətən məhəbbətilə, yaşamaq, sevmək, sevilmək həvəsilə dolub daşan nakam ürəyi dayanmış Kəyumərsi unutdu, oğlu Pir Budağı padşah elan etməyə, Qaraqoyunlular dövlətinin taxtında əyləşdirməyə hazırlığa başladı.

Yazın birinci ayının ortalarında Qara Yusif oğlanları Şah Məhəmmədi, İsfəndiyarı, İspəndi, Pir Budağı, Cahanşahı, vəziri, Mahmud Ağanı, Təbrizdə olan əyanları, əmirləri, qoşun başçılarını sarayına çağırdı və dedi:

– İki həftədən sonra Pir Budağı Təbriz taxtında əyləşdirib onu padşah elan edəcəyik. Hçəmin günü Qaraqoyunlular padşahlığının yaranması günü kimi böyük bayrama çevirəcəyik. Təbrizdə, Azərbaycanın, Erməniyyənin, İraqın bütün şəhər və göylərində bayram şənliklərn keçirilməlidir... Təbrizdə, dövlətimizin paytaxtında keçiriləcək şənliklər daha təntənəli olmalıdır. Qoy bütün Təbriz camaatı bilsin ki, onların şəhərlərinin əldən-ələ keçməsinə, min cür əzab-əziyyətə düçar olmalarına həmişəlik son qoyulub.

Qara Yusif vəzirə döndü:

– Vəzir, bütün Barani-Baranlı oymaqlarının başçıları, əmirləri, əyanları qoy bayramda iştirak eləsinlər. Mənim adımdan namə hazırlayıb onlara göndər, Təbrizə dəvət elə. Sədlu, Baharlı əmirliyini, Düharlı oymağının başçısı Pir Əhmədi, Qaramanlı oymağının başçısı, Gəncənin və Bərdənin hakimi əmir Qaramanini, Həmədan torpaqlarında məskunlaşmış adı təkbaşına düşmənə qalib gələn mənasını daşıyan Alpavutların əmirini, Cagirli oymağından əmir ül-ümarə Bistam Cagiri, əmirlərdən Mənsur, Məsum və Ahu Fərəci, Ayinli oymağının başçısı əmir Bayazid bəyi, Hacılı oymağından əmir İlyas Hacılını, Aqac əri

oymağından Həsən bəyi, Bayramlı oymağının başçısı əmir Bayram bəyi, onun qardaşını dəvət edin, onların cah-cəlalla qarşılanmalarına xüsusi fikir verin.

Nəzərdə tutulan gün Təbrizin çoxdan bəri görmədiyi şənliklər başlandı. Təbrizlilərin hamısı, qadınlardan və kiçik yaşlı uşaqlardan başqa hamı küçələrə çıxmışdı. Sahibabad meydanında o qədər adam toplaşmışdı ki, alma atsaydın yerə düşməzdi. Bu meydanda da, Təbrizin digər, nisbətən kiçik meydanlarında da kütləvi oyunlar keçirilirdi, Təbrizin geniş məhəllələri də, məscidləri də adamla dolu idi.

Günortaya bir az qalmış şəhər əyanlarının, tacir və sənətkarların nümayəndələri həşt-behişt sarayına axışmağa başladılar. Çağırılmış əmirlər, Qaraqoyunlu oymaqlarının başçıları, qonşu dövlətlərin nümayəndələri də sarayda öz yerlərini tutmuşdular. Günortadan sonra həşt-behişt sarayının ağzına kimi dolmuş böyük salonunda Qara Yusiflə beş oğlu, əmir ül- üməra Bistam Cagir, vəzir və Mahmud Ağa görünəndə gurultu qopdu. Hamı ayağa durdu. Qara Yusif doqquz yaşın içində olan oğlu Pir Budağı lap irəliyə buraxmışdı. Ardınca özü, sonra oğlanları, vəzir, əmir ül-üməra və Mahmud Ağa gəlirdilər. Onlar salonda hündür yerdə düzəldilmiş iki qızıl taxtın yanında dayandılar. Qara Yusifin işarəsilə tacı gətirdilər. O, tacı Pir Budağın başına qoyandan sonra, əmir ül-ümaranın uzatdığı qızıl kəmərdən asılmış qızıl qınlı xəncəri Pir Budağın belinə bağladı və qızıl taxtda oturtdu, üzünü Qaraqoyunlu dövlətinin birinci padhaşını gurultulu alqışlarla təbrik eləyən əmirlərə, əyanlara, tacirlərin və sənətkarların nümayəndələrinə tutub dedi:

— Həzərat, bu gün bizim böyük bayramımızdır. Biz bu gün Qaraqoyunlular dövlətinin birinci padşahını taxtda əyləşdirir, onu padşah tikirik.

Salonda yenə gurultu qopdu. Qara Yusif əlini qaldırıb camaatı sükuta dəvət etdi:

—Oğlum Pir Budaq Qaraqoyunlular dövlətinin birinci padşahıdır.—deyib onun önündə diz çökdü. Hamı da onun kimi Pir Budağa təzim etdi. Yaşının azlığına baxmayaraq, atasından lazımi təlimat almış Pir Budaq özünü kifayət

qədər təmkinli, böyük adam kimi apara bilirdi. Gözləri oğlunda olan Qara Yusif Pir Budağın qürurla təzimlərə başını tərpətməsinə gülümsündü və ayağa durdu. Hamı qalxdı. Qara Yusif:

– Oğlum Pir Budaq padşah həddi-buluğa çatana kimi onun vəkili mən olacağam,—dedi, hamını süfrənin arxasına keçməyə çağırdı. Sarayda bayram şənlikləri başlandı. Gecədən xeyli keçmiş məclis dağılışanda Qara Yusif qonaqlarının hamısına qiymətli hədiyyələr verdi. Qara Yusifin əmrilə necə gün bayram etmiş Təbriz camaatına da hədiyyələr payladılar. Təntənədən bir həftə keçməmiş Təbriz bazarlarında təzə pul, üzərində Pir Budağın və Qara Yusifin adları həkk edilmiş qızıl və gümüş sikkələr göründü.

Qara Yusif Pir Budağı taxtda əyləşdirəndən sonra, onunla olaqədar tədbirləri yekunlaşdıran kimi böyük oğlu Şah Məhəmmədi yanına çağırıb dedi:

– Oğlum, bir işi görüb qurtardıq, indi növbə sənindir. Sultan Əhməd Ərəb İraqını Bağdad qarışıq sənə verib, o məmləkətin hakimliyini sənə bağışlayıb. Qoşun götürüb yola düş, get o yerləri tut.

Şah Məhəmməd qardaşı Pir Budağın taxt-taca yiyələnməsi ərəfəsində də, mərasim günlərində də əllərini yanına salıb oturmamış, Bağdada bir-birinin ardınca kəşfiyyatçılar göndərmişdi. Kəşfiyyatçıların gətirdikləri xəbərlər xoşagələn deyildi. Sultan Əhməd öləndən sonra sultan Hüseyn bəy Üveysin qızı Döndü Xatın taxtı tutmuş, əmirlərin çoxu onun tərəfinə keçmişdi. Şah Məhəmməd bu xəbəri atasına çatdırıb dedi:

– Döndü Xatın ağıllıdır, çoxbilmişdir. Onuİ öhdəsindən gəlmək bir o qədər də asan olmayacaq.

Böyük oğlu Şah Məhəmmədin qolca güclü olduğu qədər başdan zəif olduğunu fikirləşən Qara Yusif sultan Əhmdin Ərəb İraqının hakimliyini Qara İskəndərə, yaxud İspəndə deyil, məhz ona verməsinə heyfsiləndi, özünü danladı. Axı sultan Əhməd onun göstərişi ilə hərəkət etmişdi. Ancaq artıq gec idi, keçənə güzəşt deyərlər. Qara Yusif cavabı kecikdirməklə Şah Məhəmmədi pərt edə biləcəyini nəzərə alıb gülümsündü və dedi:

– Oğlum, o elə ağıllı, tədbirli olduğuna görə də sənə müqavimət göstərməyəcək. O bilir ki, zor səndədir. Bağdadı alandan sonra çərilərinə şəhəri yağmalamağa icazə verməyəsən.

Şah Məhəmmədin qoşunları Bağdadı mühasirəyə aldılar, Döndü Xatın oğlanları Üveys, Mahmud və Məhəmmədlə, həmçinin qızları ilə birlikdə yaxın adamlarının müşayiətilə Bağdaddan qaçdı, əmirlərin çoxu Şah Məhəmmədin tərəfinə keçdi və Bağdad darvazalarını açdı. Şah Mdhəmməd atasının tapşırığına əməl edib Bağdadı qarət etməyə icazə vermədi. Təkcə Döndü Xatına qoşulub qaçmış əmirlərin evləri yağmalandı.

Azərbaycan, Ermənistan, Ərəb İraqı torpaqlarını Qaraqoyunlular dövlətində cəmləşdirmiş Qara Yusif Əcəm İraqına hakim təyin etdiyi əmir ul-üməra Bistam Cagirin müstəqilliyə can atmasından, Əcəm İraqını müstəqil dövlətə çevirməyə çalışmasından narahat olurdusa da, çox sevdiyi əmir Bistam Cagiri güclə deyil, xoşluqla yola gətirməyə çalışır, onu öz yanına çağırmağa bəhanə axtarırdı. Çox fikirləşib, vəziri və Mahmud Ağa ilə məsləhətləşdikdən sonra Qara Yusif belə bir bəhanəni tapdı. Padşah Pir Budağa hələ kiçik yaşlı olmasına baxmayaraq toy vurdurmağı, bütün əmirləri, vilayət başçılarını bu toya çağırmağı qət etdi. Muşda qurulmuş toy məclisinə bütun əmirlər gəldilər, təkcə Bistam Cagir, onun qardaşları və oğlu gəlmədilər. Qara Yusif təmkinini pozmadı, hirsini içəri saldı, böyük toy qurdu, min qoyun, yüz dəvə kəsdirdi, qonaqlarının hamısına at, güləbətinlə işlənmiş kürk və başqa hədiyyələr verdi.

Toydan sonra Təbrizə qayıtmış Qara Yusif vəzirlə Mahmud Ağadan başqa bir necə əmir-əyanları yanına çağırdı. Onlar bir ağızdan, Bistam Cagiri, keçmiş xidmətlərinə baxmayaraq cəzalandırmağı məsləhət gördülər. Hamını diqqətlə dinləmiş Qara Yusif deyilənlərə yekun vurdu:

– Sizin hamınız düz söylədiniz. Bistam Cagirin mənə göstərdiyi xidməti onsuz da yüksək qiymətləndirmişəm, onu əmir ül- ümərа eləmişəm. Əcəm İraqının hakimi tikmişəm. İndi o mənə qarşı çıxır, xəyanət eləyir. Xainin bircə cəzası var. Ancaq mən Bistam Cagir kimi bir əmirlə üz-üzə gəlmək yox, həmişəki

kimi yanaşı olmaq istərdim. Ona görə onunla dil tapmağa bir də cəhd eləyəcəyəm.

Vəzir ondan Bistam Cagirlə dil tapmaqdan ötrü nə etmək istədiyini soruşmağa hazırlaşırdı ki, Qara Yusif özü davam etdi:

– Onun yanına Sultaniyyəyə elçi göndərib xəbərdarlıq eləyəcəyəm. Qəbul eləməsə, inadkarlıq eləsə o durur, biz dururuq. Onda qoşun çəkməli olacağam üstünə.

Yanındakıların heç biri onunla razılaşmadı. Onlar vaxt itirməyin əleyhinə idi, lakin Bistam Cagirin uzərinə dərhal qo- şun yeritməyin tərəfdarı olsalar da, onun sözünün qarşısına söz qoymadılar, elçilərin Sultaniyyəyə gedib qayıtmasını gözləməli oldular. Əmir ül-üməra Bistam Cagir nəinki elçilərlə danışmağa gəlmək istədi, onları heç Sultaniyyəyə buraxmadı.

Elçilərin gətirdikləri xəbər Qara Yusifi bərk hirsləndirdi. O, heç kimlə, hətta vəziri və Mahmud Ağa ilə belə məsləhətləşmədən qoşunların Sultaniyyə üzərinə yürüşə hazır olması əmrini verdi və ertəsi gün şəxsən özü onları döyüşə apardı. Qara Yusif Sultaniyyəni mühasirəyə aldı, ancaq döyüşə başlamadı, Bistam Cagirə namə göndərdi:

> «Məni özünə qardaş adlandırmış əmir ül-üməra Bistam bəy Cagirə! Mən sənə qonaq gəlmişəm, sənsə darvazaları mənim üzümə bağlamısan. El adətimizdə qonağın üzünə qapı bağlamaq qəbahət sayılır. Bir də axı sənə qonaq gələn qardaş adlandırdığın Qara Yusifdir, səni ev sahibi eləmiş adamdır. Allah şeytana lənət eləsin söylə, qardaşım, darvazaları aç. And olsun bir olan tanrıya, mən yenə də sənə qardaş olub qalaram.
>
> Qaraqoyunlular dövlətinin—Azərbaycan, Ermənuyyə, Ərəb İraqının və Əcəm İraqının padşahı Pir Budağın vəkili Qara Yusif».
>
> 2 cumad-alaxir 815-hicri

Qara Yusif Bistam Cagirdən aldığı cavab məktubundan elə hirsləndi ki, o an şəhərə hücum əmri verdi. Bistam Cagir də, qardaşları və oğlu da bildirirdilər ki,

onlar Əcəm İraqını Qaraqoyunlular dövlətinin tərkibindən çıxarıb müstəqil dövlət yaradıblar.

Qara Yusifin əmri ağılla. deyil, hissiyyatla verməsinə əmin olmuş vəzir, onu hələlik fikrindən daşındırmaq, götür-qoy etmək məqsədilə dedi:

— Vəkil Qara Yusif, bir az səbrini bas, bir fikirləşək görək bu Bistam haradan belə ağızbahəm eləyib ki, sənin məğlubiyyət bilməyən qoşunlarının onun paytaxtını mühasirəyə saldığı bir vaxtda namənə belə cavab yazıb? Bu səbəbsiz deyil. Bilirsən ki, Bistam Cagirə ağıl borc almaq gərək deyil, özününkü kifayətdir. O sənin çox zorlu olduğunu bilə-bilə niyə belə hərəkət eləyir?

Qara Yusif vəzirin sözlərində böyük həqiqət olduğunu başa düşurdü, ancaq qəzəbi ona düzgün mühakimə yürütməyə imkan vermirdi:

— Vəzir, nə səbəb olursa olsun, o satqını öz yerində oturtmaq gərəkdir.

— Elədir, cəzasını almalıdır. Ancaq onun belə hərəkət eləməsinin səbəbini biləndən sonra...

Vəzir sözlərini sona kimi deyib qurtarmamış kəşfiyyat rəisi gəldi və həyəcanla dedi:

— Hökmdar, Şirvanşah Şeyx İbrahim. Şəki hakimi Seyid Əhməd, bir də gürcü hökmdarı Kostandil birləşib sənin üstünə gəlirlər.

Vəzir Qara Yusifə:

— İndi aydın oldu ki, Bistam Cagiri yızışdıran kimdir, onun belə çaşmasının səbəbi nədir?

Qara Yusif fikrə getdi. Üz-gözündən aydın görünürdü ki, qəti qərara gələ balmir. Tez-tez vəzirə baxır, dinib-danışmırdı. Vəzir Qara Yusifi tərəddüddən qurtarmaq üçün dedi:

— Məncə qoşunlarımızı yığışdırıb buradan getməliyik. Bistam Cagirin öhdəsindən sonra da gələ bilərik. İndi bizim üçün ən təhlükəli Şeyx İbrahimlə onun müttəfiqləridir, əvvəlcə onları zərərsizləşdirmək gərəkdir.

Qara Yusif qətiyyətlə yerindən qalxdı:

— Sən düz fikirləşirsən, vəzir,—dedi. Gəncə və Bərdə hakimi əmir Qaramana döndü,—biz hamımız Təbrizə qayıdarıq, sən isə qoşunlarını Araz tərəfə apar, keç Qarabağa. mənn orada gözlə. Görünür, əmir Şeyx İbrahimlə haradasa Kür sahilində qabaqlaşmalı olacağıq.

Təbrizə qayıdandan oonra vəzir Qara Yusifdən Qarabağa birbaşa getmək istəməməsinin səbəbini soruşdu. Qara Yusif vəzirin onun fikrini duyduğunu bilib gülümsündü:

— Mən əmir Şeyx İbrahimlə toqquşmaq istəmirəm. Təbrizə qayıtmaqdan məqsədim budur ki, qoy əmir Qaraman Şeyx İbrahimə mənim adımdan namə göndərsin, barışıq təklif eləsin. Mənim qoşunumla Təbrizə qayıtmağımdan xəbər tutmuş Şeyx İbrahim həqiqətən də barışıq istəməyinə əmin olar, əmir Qaramanın təklifini qəbul eləməyə tərəddüd göstərməz.

Vəzir çiyinlərini çəkib dedi:

— Bəlkə də elədir. amma...

Qara Yusif:

— Nə amma, vəzir?

Vəzir cavab vermədi, Qara Yusif davam etdi:

— Demək istəyirsən ki. Şeyx İbrahim bizim barışıq təklifimizi zəiflik əlaməti kimi qəbul eləyə bilər, eləmi?

Vəzir onunla razı olduğunu bildirdi. Qara Yusif acı-acı gülümsündü:

— Mai də bu barədə fikirləşmişəm, müdrik vəzir. Buna baxmayaraq yenə belə hərəkət eləmək istəyirəm. Deyirəm, bəlkə...

Qara Yusif vəzirin yenə dinmədiyini, başıaşağı oturub saqqalını sığallamasına baxa-baxa:

— Deyirsən ki, bəlkəni əkiblər bitməyib, eləmi?

Vəzir gülumsündu:

— Mən demirəm, atalar məsəlidir,—dedi.

— Elədir. Ancaq hər halda Təbrizə gedirik. Qoy axıra kimi sınayaq mənim zənnimi. Ya buradan düz getdik, yaxud da Tzbrizə dəyib sonra getdik, fərqi böyük deyil. Biz Təbrizdə əmir Qaramanın göndərəcəyi xəbəri gözləyəcəyik.

Əmirlərdən biri dilləndi:

— Ona kimi də qış girər, biz isə qışda vuruşmağa bir o qədər adət eləməmişik.

Qara Yusif əmirə cavab vermədi, cavabı onunla yanaşı dayanmış minbaşı Rəşid verdi:

— Qarabağda sən deyən qış olmur.

Bir həftədən sonra Qara Yusif artıq Təbrizdə idi. O, əmir Qaramanın naməsini çox gözləməli olmadı, aldığı xəbər onu o qədər əcəbiləşdirdi ki, günortadan keçməsinə baxmayaraq yola çıxmaq əmri verdi və Qarabağa üz tutdu.

Qara Yusif Qarabağa gələn kimi hücuma keçmədi, düz iyirmi gün gözlədi. O, Şirvanşah Şeyx İbrahimə bir də barışıq təklif etdi, rədd cavabı alan kimi Kürü keçdi, axşama yaxın müttəfiqləri məğlubiyyətə uğratdı, müttəfiqlərin başçılarının hamısını əsir edib Təbrizə göndərdi, özü isə Şirvanı yağmalamağa getdi və Təbrizə iki aydan sonra qayıtdı.

Qara Yusif saraya gələn kimi böyük ziyafət düzəltdirdi, Şeyx İbrahimi məclisin lap baş tərəfində öz yanında əyləşdirdi. Seyid Əhməd, Kürcüstan çarı Kostandil də Qara Yusifin oğlanlarının əhatəsində idilər. Qara Yusif Şirvanşah İbrahimə, özünün digər əsirlərinə hörmət göstərirdi;

— Mən sizin heç birinizlə vuruşmaq fikrində deyildim. Bir olan tanrı şahiddir ki, mən bunu istəmirdim. Mənim oğlum Pir Budaq Təbriz taxtının padşahıdır. Təbriz bütün Azərbaycanın, Şəki-Şirvan da içində, əlbəttə, gözüdür. Ancaq sən, müdrik Şeyx İbrahim, bu dəfə müdrik olmadın. Mən sizin hamınızı bağışlayıram: sənin boyük qardaşın Bəhlulu da, oğlanlarını da, Seyid Əhmədi də, Konstandili də, onun aznaurlarını da sabah buraxacağam evlərinə, ancaq, əlbəttə, can bahası vermək şərtilə. Bu, ata-babadan qalma adətdir, mən bu adəti poza bilmərəm. Gedərlər, göndərərlər. Səni isə bir müddət qonaq saxlayacağam, möhtərəm Şeyx, can bahanı göndərənə kimi.

Qara Yusif sözlərini yenicə deyib qurtarmışdı ki, padşah Pir Budaq bir dəstə silahlı ilə girib gürcü aznaurlarını qılıncdan keçirdi. Qara Yusif oğlunun hərəkətindən hirsləndisə də, bir söz deyə bilmədi. Axı o, padşah idi.

* * *

Son zamanlar tez-tez təmtəraqlı olan Təbriz sarayı bu gün də bayram içində idi. Oğlu Pir Budağı padşah elan etsə də, özünü əsl padşah kimi aparan, lakin Pir Budaq məclisdə olanda onu taxtda əyləşdirib qulluğunda dayanmalı olan Qara Yusif, artıq neçə ay idi ki, belə bir məcburiyyət qarşısında qalmırdı. O, Pir Budağı Təbrizdən uzaqlaşdırmış, məclislərdə də, yığıncaqlarda da taxtda özü otururdu. Onlardan kiçik olmasına baxmayaraq padşah elan olunmuş qardaşları Pir Budağa həsəd aparan Şah Məhəmməd də, Qara İskəndər də, İspənd də atalarının son hərəkətlərinə haqq qazandırır, öz aralarında padşahtlığa təkcə atalarının layiq olması barəsində danışırdılar. Bu gün, yayın ilk ayında, Qaraqoyunlular dövlətinin yaranmasının dördüncü ildönümü günündə Qara Yusif Təbriz sarayındakı böyük ziyafətdə qızıl taxtda əyləşmişdi. Bu onun arxasında sıra ilə dayanmış oğlanlarının ürəyindən idi. Atalarının çağırışı ilə Bağdaddan gəlmiş Qara İskəndərlə İspənd də Pir Budağın çağırılmamasına sevinirdilər. Onlar Qara Yusifin son vaxtlar Pir Budaqdan şübhələnməyə başladığını bilirdilər. Qardaşları ilə yanaşı dayanmış, artıq on bir yaşın içində olan Cahanşahla kiçik qardaşı Əbu Səid isə bu fikirlərdən çox uzaqlarda idi. Sonralar Qaraqoyunlular dövlətinin ən görkəmli padşahlarından olacaq bu şairqəlbli yeniyetməni taxt- tac düşündürmürdü. Əbu Səid isə hələ çox kiçik idi, uşaq idi.

Qara Yusifin əyləşdiyi taxtın sağ əlindəki kətillərdə həmişə olduğu kimi artıq lap əldən düşmüş, sifətinin nuraniliyi daha da artmışqoca vəzirin və onun kimi ağsaçlı, ağ saqqallı Mahmud Ağa əyləşmişdilər. Sol tərəfdəki qızıl kətillərdə ona yaxın əmirlər oturmuşdular. Əmirlərin arasında Qara Yusifin ən yaxın silahdaşı,

yenicə əmir rütbəsinə layiq görülmüş Rəşid də var idi. Adlı-sanlı nəsildən olmayan Rəşidin Qara Yusifin taxtına yaxın kətildə oturması salondakı əyanların, əmirlərin bəzisinin təəccübünə, bəzisinin isə hiddətinə, narazılığına səbəb olmuşdu. Onların hamısı Rəşidin Qara Yusifin ən yaxın adamlarından biri olmasından, öz qılıncının gücü ilə hökmdarın rəğbətini qazanmasından xəbərdar idilər, Qara Yusifin ona bəylik rütbəsi verməsini də bilirdilər. Buna baxmayaraq, onların çoxu rəiyyət içərisindən çıxmış adamın əmir rütbəsi alması bir tərəfə qalsın, gəlib hökmdarın lap böyründə oturmasını özünə sığışdıra bilmirdi.

Həmişə olduğu kimi bu gün də məclisin başlanğıcında xanəndələr oxudular, sonra rəqqasələr gəldilər. Qara Yusif daxilən böyük narahatlıq və nikarançılıq keçirsə də özünü şad-xürrəm göstərməyə çalışırdı. Lakin onun süni əhvali-ruhiyyəsi Qara Yusifi yaxşı tanıyanların nəzərindən qaçmadı. Məhz buna görə də Qaraqoyunlular dövlətinin böyük bayramı çox davam etmədi, gecə yarısına az qalmış ,Qara Yusifin taxtdan qalxmasila bitdi. Bu, səhər açılana kimi davam etmiş keçənilki məclisin iştirakçılarına qəribə göründü. Bircə vəzirlə Mahmud Ağa Qara Yusifin narahatçılığının səbəbini bilirdilər. Ertəsi gün Qara Yusif vəziri, Mahmud Ağanı, böyük oğlanlarını, bəzi əmirləri yanına çağırdı. Onlar içəri girib oturandan sonra Qara Yusif bir müddət saqqalına divan tuta-tuta susdu. Söhbətinə hələ iki il əvvəl baş vermiş hadisədən, Əcəm İraqının hakimi Bistam Cagirin xəyanətindən, mərkəzi hakimiyyətə tabe olmaq istəməməsindən, onun oğlu Məhəmmədi Təbrizdə həbs etməsindən, sonra buraxmasından başladı, həmin il Təbrizdə baş vermiş qıtlıqdan, camaatın çəkdiyi böyük əziyyətdən danışdı, sözünə ara verdi, saqqalını dartışdıra-dartışdıra davam etdi:

—Məhəmmədi buraxdım, Farsı təzədən əlinə keçirmiş Mirzə İskəndərlə müttəfiq oldu. Mirzə İskəndər Əcəm İraqının da torlaqlarının çoxunu tutub Azərbaycanı zəbt etmək üçün Luristan yolu ilə Nihavəndə kimi gəldi. Mən zorumu toplayıb onun qarşısına çıxmalı oldum, ancaq-savaşa girə bilmədim, çərilərin arasına naxoşluq düşdü, geri qayıtmalı oldum. İskəndər elə zənn elədi ki, ondan qorxub qaçdım. Ancaq mənəhələ də məlum olmayan səbəbə görə

qoşunumu təqib eləmədi, dönüb İsfahana getdi. Bir müddətdən sonra isə biz öz torpaqlarımıza təzədən yiyələnə bildik.—Qara Yusif yenə sözünə ara verdi, boğazını arıtdadı, saqqalını övkələyib davam etdi.—İndi vəziyyətimiz daha ağırdır. Əmir Şahrux İraqı və Azərbaycanı zəbt eləmək məqsədilə yüz minlik qoşunla Səmərqənddən Xorasana gəlib. Özü ilə çoxlu fil də gətirib və onların köməyilə ən möhkəm qalanı uçurmağa qadirdir. Şahruxun qardaşı İskəndər nəinki onunla birləşmədi, əksinə, ona mane oldu, İsfahanı təslim eləmədi, Sistan və Qəndahar əmirlərini də ona qarşı qaldırdı. Bunun bizə xeyri oldu. Şahrux Təbriz üzərinə gələn qoşunlarının ağzını İsfahan tərəfə çevirdi, şəhəri tutub qardaşı Rüstəmə verdi. Bizdən üz döndərmiş əmir ül-üməra Bistam Cagir ona itaətini bildirdi. Xoşbəxtlikdən Şahrux qoşunlarını daha irəli aparmadı, Xorasana döndü, oradan da paytaxt şəhəri Herata getdi. Hec şübhə ola bilməz ki, Şahrux üzünü yenə bu tərəflərə çevirəcək. Doğrudur, o bizdən çəkinir, ehtiyat eləyir. Bununla belə, Təbriz taxtının bizim əlimizdə olması ilə barışa bilmir. Çağırmışam sizi məsləhətə, Şahruxun qoşunlarının hücuma başlamasına yol verməmək olmaz.

Hamı gözlərini vəzirlə Mahmud Ağaya çevirdi. Onlar bu iki müdrik qocanın ağıllı məsləhət verəcəklərinə şübhə etmirdilər. Ancaq elə olmadı. Vəzir Mahmud Ağanın söz deməyə hazır olmadığını zənn edib dedi:

– Hökmdar, yəqin ki, sənin özün bu barədə fikirləşməmiş, tədbir tökməmiş deyilsən. Sənin xəyalın hələ dünən axşam da bu məsələnin ətrafında cövlan eləyirdi, Yaxşı olar ki, tədbirlərini söyləyəsən, ehtiyac qalsa məsləhət verərik.

Vəzirin sözləri hamının, hətta Qara Yusifin də ürəyindən oldu. O gülümsündü, saqqalını ovcuna doldurdu. ancaq dartışdırmadı, sığal verdi və:

– Yaxşı, qoy sən söyləyən kimi olsun.—dedi, taxtında qurcalandı və davam etdi:—Fikrim belədir ki, Herata elçi göndərək, elə elçi ki, Şahruxun ürəyinə yol tapa bilsin, elçiliyə düşməyi zəiflik əlaməti kimi deyil, qardaş qanı tökülməsinə yol verməmək cəhdi kimi çatdıra bilsin. Bildirsin ki, Sultaniyyəni, demək Farsın

bir qismini bizə verəcəyi təqdirdə onunla müttəfiq olmağa, lap istəsə xərac da verməyə razıyam.

Vəzir başını tərpətdi:

— Hökmdar, heç bir məsləhətə ehtiyac qalmır. Bizim hamımızdan yaxşı və tədbirli fikirləşmisən. Bircə Şahruxun yanına kimi göndərmək məsələsi qalır.

Qara Yusif ayağa qalxdı və dedi:

— Həmişə olduğu kimi Mərdanşahı. Bilirsən ki, onun elə dili var ki, ilanı yuvasından çıxarar.

Vəzir Mərdanşahı məhz dilinə görə sevmirdi, ancaq Qara Yusifin sözünün qabağına söz qoymadı.

Mərdanşahın Herat səfəri iki aydan artıq çəkdi. Yazın orta ayında yolu əllərinə almış elçilər yayın başlanğıcındz qayıtdılar və Qara Yusif bir daha əmirləri yanına çağırdı. O, çox əsəbi idi:

— Şahrux xəbər göndərib ki, oğlanlarımdan birini amanat göndərəcəyim təqdirdə Sultaniyyənn mənə verməyə razıdır, Mən ona göstərərəm amanat istəməyi. Bir dəfə qardaşının burnunu ovmuşam, indi də onunkunu ovaram. Onda yaxşı bilər ki, Qara Məhəmmədin oğlu Qara Yusif kimdir.

Qara Yusifin əsəbi halda qərar qəbul etməsi vəzirin xoşuna gəlmədi. Aydın görünürdü ki, onu dinləyən əmirlər də hökmdarın qərarından razı qalmamışdılar, hamısının gözü vəzirlə Mahmud Ağada idi. Mahmud Ağa da Qara Yusifin fikri ilə şərik deyildi və öz mülahizələrini söyləməyə hazır idi. Lakin o, həmişəki kimi bu dəfə də vəziri qabaqlamaq istəmədi. Vəzir nəzərlərin ona dikildiynni görüb dilləndi:

— Yaxşı fikirləşmisənmi, hökmdar? Axı Xorasan, Mavərənnəhr, Xarəzm, Mazandaran, Sisian, Əfqanıstan, İskəndəri sıxışdırandan sonra İsfahan qarışıq Farsın da hakimi olmuş əmir Şahrux çox zorludur.

Qara Yusif dinmədi, vəzirin fikrini sona kimi söyləməsini gözlədi. Vəzir daha danışmadı, onun sözlərini Mahmud Ağa tamamladı:

– Hələ vəzir Sultaniyyədən Arana və Gilana qədər uzanan yerlərə sahib çıxmış Bistam Cagirin də Şahruxla həmrəy olmasını söyləmədi.

Qara Yusif, Mahmud Ağa susandan sonra da dinmədi. O, başını aşağı dikib fikirləşirdi. Gözlərnnin səyirməsindən və saqqalını aramsız tumarlamasından məlum olurdu ki, son dərəcə hirslidir. Nəhayət, soruşdu:

– Kimin nə məsləhəti var?—heç kimdən səs çıxmadı.—Necə olursa olsun, Şahruxun qabağından qaçmayacağam. Birinci zərbəni o satqına, əmir ül-ümməra rütbəsinə çatdırdığım Bistam Cagirə vuracağam. Gedin, hazırlaşın, üç gündən sonra Sultaniyyənin üzərinə gedirik.

Qara Yusifin Sultaniyyə üzərinə yürüşü o qədər sürətli və gözlənilməz oldu ki, əmir Bistam Cagir Quma qaçmaqdan başqa çarə tapmadı. Qara Yusif təcili tədbirlər görmək, Bistam Cagiri mütləq tutmaq məqsədilə Qum üzərinə yürüş əmri vermək istəyəndə Şahruxun böyük əmirlərinin başçılığı altında sərhəd şəhəri Reyə qoşun göndərməsi xəbərini alıb səfərini təxirə salmalı oldu. O, Quma, əmir Səd Vəqqasa namə göndərib, əmir Bistam Cagiri təslim etməsini tələb elədi. Qara Yusifin, Vəqqasın ona tabe olmamasına baxmayaraq ona fərman göndərməsi vəzirə qəribə göründü:

– Hökmdarım, Səd Vəatasa nahaq fərman göndərdin, gərək xahişnamə göndərəydin.

Qara Yusif atdığı addımın tam düzgün olmasına əmin idi. O, həmişə belə hallarda olduğu kimi saqqalını sığallayıb gülümsündü:

– Deyirsən düz eləmədim? Yox, vəzir, sənin fikirləşdiyin kimi deyil. Əlbəttə, Vəqqas mənə tabe deyil, ancaq o mənim fərmanıma əməl eləyəcək. Əmir Bistam Cahir Əcəm İraqının hakimidir. Vəqqasın da gözləri çoxdan Əcəm İraqındadır. O, əmir ül- ümməra Bistam Cagiri mənə təslim eləyəcək ki, onu edam etdirim, Əcəm İraqının hakimliyinə yol açılsın.

Vəzir titrək, damarları görünən, bir dəri, bir də sümük olan əlini saqqalında gəzdirdi:

— Hökmdar, deyəsən çox qocalmışam, daha burnumdan uzağı görə bilmirəm. Sən düz fikirləşmisən.

Qara Yusif özündən razı halda yerində qurcalandı:

— Vəzir, başıma bir fikir də gəlmişdi, ancaq o barədə namədə işarə eləmədim.

Vəzir maraq dolu gözlərini Qara Yusifin ağzına dikdi. Qara Yusif davam etdi:

— Bilirsən ki, əmir Şahruxun bacısı, əmir Miranşahın gözəl qızı indi Qumdadır. Vəqqas onu hərəmlərinin sırasına qatmaq istəyir. Ancaq qız müqavimət göstərir, razı olmur.

Vəzir Qara Yusifin fikrini başa düşdü:

—Əlbəttə, əmir Şahruxla qohum olmaq pis olmazdı, ancaq əmir Vəqqas razı olar ki, özünə arvad eləmək istədiyi qızı sənə güzəşt eləsin?

Qara Yusif inamla:

— Eləyər. Ona Əcəm İraqı lazımdır və elə zənn eləyər ki, mən Əcəm İraqına onu hakim təyin eləyəcəyəm.

Vəzir gülümsündü:

— Doğru sözdür. Yaxşı ki, namədə bu barədə yazmamısan, toxuna bilərdi ona. Burada onu him-cimlə başa salarıq.

Qara Yusif bir qədər susandan sonra vəzirə:

— Bu işi sən öz öhdənə götür.

Vəzir etiraz etmədi.

Qara Yusiflə vəzir arasında baş vermiş bu söhbətdən bir neçə gün sonra əmir Səd Vəqqas əmir ül-üməra Bistam Cagiri Sultaniyyəyə, Qara Yusifin yanına gətirdi. Qara Yusif onların hər birini ayrılıqda qəbul etdi. Əmir Səd Vaqqas Qara Yusiflə görüşənə kimi vəzirdən lazımi təlimat aldı, ancaq vəzirin sözlərini təəccüblə qarşıladı:

— Sən nə danışırsan, kişi, musulman-zad deyilsən? Kişi də arvadını başqa birinə verər? Bəs namus, qeyrət harada qaldı?

Vəzir Səd Vəqqasın boş damarından yapışdı:

— Ay əmir, o hələ sənin arvadın deyil, mənə çatan xəbərə görə olmaq istəmir. Demək namus, qeyrət məsələsinin dəxli yoxdur,— dedi, saqqalına əl gəzdirib qımışdı,—kişi, o boyda Əcəm İraqının hakimi olmaq istəyirsən, amma bir qızdan keçmək istəmirsən.

Səd Vəqqas yena müqavimət göstərdi:

— Ona evlənsəm, əmir Şahrux mənim arxam olar.

Vəzir Vəqqasa təəccüblə baxdı:.

— Əmir Şahrux da bir para əmirlər kimi belə şeylərə əhəmiyyət verən deyil. Sənə indi Əcəm İraqı gərəkdir, onu da sənə əmir Şahrux deyil, Qaraqoyunlular hökmdarı Qara Yusif verə bilər. Elə deyilmi?

Əmir Vəqqas təslim oldu. Vəzir dedi:

— Hökmdarla danışanda özün təklif eləyərsən ona əmir Miranşahın qızını.

Səd Vəqqas razılıq əlaməti olaraq başını tərpətdi Vəzir məmnun halda saqqalını sığalladı. qalxdı. Səd Vəqqas da qalxdı. Onlar Qara Yusifin yanın gəldilər. Qara Yusif Vəqqası mehribanlıqla qarşıladı, taxtının yanındakı kürsüdə oturtdu və dedi:

— Əmir, vaxtilə əmir ül-ümərа elədiyim, sağ əlim olmuş o satqın Bistam Cagiri tutub gətirdiyinə görə məndən ürəyindən keçəni istə, heç bir şeyi əsirgəmərəm.

Əmir Səd Vəqqas Qara Yusifin ürəyini daha çox ələ almaq məqsədilə şələ bığlarına əlç sonra gülümsündü:

— Hökmdar, mən sənə bir hədiyyə gətirmişəm—əmir ül-ümərа Bistam Cagiri. Ancaq sənə ikinci peşkəşim də var.

Qara Yusif Vəqqasın nə demək istədiyini tez aldı, ancaq özünü bilməməzliyə vurdu. Əmir Vəqqas davam etdi:

— Hökmdar, əmir Miranşahın gözəl qızı, əmir Şahruxun bacısı Qumda mənim əsirimdir. Mən özümlə onu da sənə barat gətirmək istəyirdim, ancaq sənin rizanı almadan bunu rəva bilmədim.

Qara Yusifin dodaqlarını təbəssüm bəzədi:

— Sən çox səxavətlisən, əmir, indi də sən istəyini dilə məndən.

Vəqqas müti görkəm alıb:

— Lütf qılsan, Əcəm İraqının hakimliyini. Mən sənə o xain kimi deyil, ixlasla qulluq eləyərəm.

Qara Yusif vəzirə döndü:

— Fərman yazarsan, vəzir, əmir Vəqqası Əcəm İraqınıi hakimi təyin edirəm. Qoy əmir on-on beş gün qonağımız olsun, sonra hörmət-izzətlə yola salarıq.

Əmir Vəqqas Sultaniyyədə qalmaq istəmirdi. O, Quma qayıtmağa tələsirdi. Ancaq Qara Yusifin iradəsinə qarşı çıxa bilmədi və başa düşmədi ki, Qara Yusif Quma adam göndərib, əmir Miranşahın qızını gətirtdikdən sonra onu mürəxxəs etmək fikrindədir.

Miranşahın qızı Qara Yusifin hərəmxanasına gəlməkdən imtina etdi. O, Qara Yusifin onun ardınca göndərdiyi Bistam Cagirin oğlu əmir Əbu Fərəci, başqa əmirləri öldürtdü. Qara Yusif əmir Vəqqasa Quma qayıtmağa icazə verməyə məcbur oldu.

Qara Yusif Vəqqası yola salandan sonra əmir ül-üməra Bistam Cagiri hüzuruna gətizdirdi. Bistam Cagir təzim etmədən, Qara Yusifin qarşısında günahkar, xəyanətdə ittiham olunan əmir kimi deyil, özündən razı, təşəxxüslü, heç bir təhlükədən çəkinməyən, qorxusuz ər kimi dayandı. Başıaşağı oturduğundan Qara Yusif Bistam Cagirin ona necə yaxınlaşdığını görmədi. O, yavaş-yavaş başını qaldırdı. Əmir ül-üməra Qara Yusiflə çox rastlaşmış, onun kefi kök və ya acıqlı vaxtlarını da çox görmüşdü. O, hökmdarın zəhmli baxışlarına da bələd idi. Ancaq heç vaxt Qara Yusifin gözlərindən bu qədər qəzəb və nifrət yağdığını görməmişdi. Bistam Cagirin əvvəlki qürurundan, təşəxxüsündən əsər-əlamət qalmadı. O, Qara Yusifin önündə diz çökdü. Qara Yusifin səyriyən gözlərindən qığılcım çaxdı. hamı, hətta ən uzaqgörən, Qara Yusifin baxışlarından onun hansı hökm çıxaracağını yaxşı bilən vəzirlə Mahmud Ağa indicə hökmdarın səsindən saray divarlarının titrəyəcəyini gözləyirdilər.

Qara Yusif gözlərini qırpmadan baxışlarını əmir ül-üməraya zilləyib ona xeyli baxdı və başını yenə aşağı dikdi. Bistam Cagir yünküllük hissi ilə dərindən köks ötürdü. Nəhayət, Qara Yusif başını qaldırıb, Bistam Cagirə baxmadan:

– Qalx, əmir ül-üməra, qalx ayağa. Sənin kimi nər kişiyə diz üstündə olmaq yaraşmır,—dedi, nəzərlərini ona çevirib davam etdi,—mən heç xəyalımdan belə keçirməzdim ki, sən bir candan ötrü diz üstündə sürünərsən,—sonra acı-acı gülümsündü,—belə görünür ki, xainliyi, satqınlığı elə qorxaq adamlardan gözləmək lazımdır. Yəqin ki, igid olsaydın satqınlıq eləməzdin, indi də diz üstündə sürünməzdin.

Artıq ayağa durmuş Bistam Cagir başını qaldırmağa cürət etmirdi. Qara Yusif vəzirə döndü:

– Vəzir, mən səhv eləmişəm, belə rəzillərin əmir ül-üməra kimi yüksək adı daşımağa haqları yoxdur. Fərman yazıb bu adı onun ustündən götür.—Sonra yenə üzünü Bistam Cagirə çevirdi,— mən əllərimi qardaş adlandırdığım, ancaq xain. satqın çıxmış adamın qanına bulaya bilmərəm, get, cəzanı bir olan tanrı versin,—dedi.—Bilərəkdən ki, bağışlanmış düşmən heç vaxt dost olmur, səni buraxıram. Qardaşın Məsuma söylə məndən əmir Şahruxa az casusluq eləsin, əlimə keçsə hər tikəsini qulağı boyda eləyərəm.

Bistam Cagir ağır addımlarla sarayı tərk etdi. Qara Yusif hamını azad edib Mahmud Ağa ilə vəziri əylədi:

– Şahruxun qoşunları yenə Farsa soxulublar. Kimsə bizim oradakı adamlarımızı nişan verib, onları tutublar. Ona görə də Şahruxun qoşunları barəsində dəqiq məlumatımız yoxdur. Başqa bir kəşfiyyatçımız xəbər gətirib ki, Şahrux Qumu, Kaşanı, Reyi, Gilanı, demək olar ki, bütün Əcəm İraqını tutub İlyas Xoyaya verib. Bir yandan da Qara Yuluk baş qaldırıb, Ərzincanı mühasirəyə alıb. Pir Ömər Ərzincanda oturub kömək gözləyir.

Vəzir dilləndi:

– Fikrin necədir, hökmdar. nə eləmək istəyirsən?

– Şahrux güclüdür ,onun uzaqlaşmasını gözləyək. O gedəndən sonra İlyas Xocanın öhdəsindən gəlmək çətin olmayacaq. Hələlik Qara Yuluku öz yerində oturtmaq lazımdır. Qara İskəndəri Ərzincana göndərək Pir Ömərə kömək eləsin. Görünür, bir neçə gündən sonra mən özüm də Qara Yulukun üzərinə getməli olacağam.

Qara Yusif vəzirlə, Mahmud Ağa ilə söhbətindən bir il sonra yaz günlərindən birində oğlu Qara İskəndərin göndərdiyi çapardan Qara İskəndərin Qara Yuluku üstələməsi, Qara Yuluk qaçarkən qəniməti belə apara bilməməsi xəbərini aldısa da Qara Yuluku öz yurdunda əzişdirmək, onu tamamilə zərərləşdirmək məqsədindən vaz keçmədi. Onun aldığı məlumata görə Misir məmlükü də Qara Yuluka kömək vəd etmişdi.

Yazın ikinci ayında Qara Yusif böyük qoşunla Qara Yulukun üstünə yeridi, Misir məmlükü özünü yetirənə kimi onu məğlub etdi. Bu dəfə Qara Yuluk qaçmadı. atını birbaşa Qara Yusifin çadırına sürdü. Qara Yusif məğlubiyyətə düçar etdiyi, hələ bir gün əvvəl düşmən olduğu Qara Yuluku mehribanlıqla qarşıladı, onunla görüşüb yanında əyləşdirdi və dedi:

– Axı bizim soylarımız qardaşdırlar. Birimiz Qaraqoyunlu soyundan, o birimiz Ağqoyunludanıq. Biz əl-ələ verib Şahzux kimi düşmənlərimizdən müdafiə olunmaqdansa, onu torpaqlarımızdan sıxışdırıb çıxarmaqdansa, bir-birimizlə əlbəyaxa oluruq.

Qara Yuluk başını tərpətdi, onunla razı olduğunu bildirdi:

– Gəlmişəm səninlə barışıq eləyəm. Saur qalasını da sənə peşkəş eləyirəm,—deyib sağ əlini ona uzatdı. Qara Yusif onun əlini sıxıb dedi:

– Mən də sənə min dirhəm, yüz at və yüz dəvə peşkəş verirəm.

Qara Yuluk Qara Yusifi qucaqladı, onlar öpüşdülər. Qara Yusif Qara Yulukun şərəfinə ziyafət verdi.

* * *

Neçə vaxt idi ki, Qara Yusifin fikri, xəyalı yenə Heratın ətrafında cövlan edirdi. Qaraqoyunlular dövlətinin sərhədlərinin genişlənməsi, yaxud da Azərbaycan çərçivəsində qalması əsasən Teymurləng nəslindən olan əmirlərin Əcəm İraqına, Farsa yürüşlərindən, bu yerlərin əmirlərinin tutduğu mövqedən asılı idi. Herat şəhərini özünə paytaxt seçmiş Şahrux yaz girəndən bəri yenə fəallaşmışdı. Doğrudur, o, bilavasitə Qaraqoyunlular dövətinin üzərinə yürüşə hazırlaşmırdı, ancaq sərhəddə olan əmirləri onu Qara Yusifə qarşı qalxmağa, onun torpaqlarını zəbt etməyə təhrik edirdilər. Keçən il yanına gəlib onunla barışıq eləmiş Qara Yulukun Şahruxun qurduğu tələyə düşənlərdən biri yox, elə lap birincisi olacağı Qara Yusifi narahat edirdi. Qara Yusif Qara Yulukun Herata, Şahruxun görüşünə getməsi xəbərini aldıqdan sonra bunun ona ziyan gətirəcəyinn yəqin edərək tədbirlər töklməyə başlamışdı. Ancaq öz nümayəndələrini Herata göndərmək barəsində fikirləşsə də, qəti qərara gələ bilmirdi. İş elə gətirmişdi ki, vəzir də, Mahmud Ağa da xəstələnmiş, Qara Yusif məsləhətləşməyə adam tapmamışdı. Qara Yusif bir-iki gün onların sağalmasını gözləməyi qət etdi. Lakin heç axşama kimi də dözmədi, vəzirin evinə adam göndərdi. Vəzir saray xidmətçisinin onun dalınca gəlməsini vacib bir səbəblə bağlayıb, ertəsi gün, hələ kifayət qədər sağalmasa da, birbaşa Qara Yusifin yanına getdi. Yatağından yenicə qalxmış Qara Yusif vəzirin gəlməsinə xeyli sevindi, tez geyinib salona çıxdı və dedi:

– Vəzir, sənin məsləhətinə ehtiyacım var. Qoy tapşırım səhər yeməyi gətirsinlər. Həm yeyək, həm də söhbətləşək.

Qara Yusif bilavasitə mətləbə keçməzdən qabaq Mahmud Ağanın səhhəti barədə maraqlandı. Vəzir gülümsünüb saqqalını sığalladı:

– Eh, daha bizimki keçib, qocalmışıq. Mahmud Ağa da elə mənim kimi yanından yel ötməyə bənddir, o saat naxoşlayır. Dünən adam göndərib yoxlatmışam, şükür olsun tanrıya, yaxşılaşıb. İnşallah bu gün saraya gələcək.

Qara Yusif saray xidmətçisini çağırıb Mahmud Ağanın ardınca göndərmək istəyəndə o:

— Mahmud Ağa sənin fərmayişinə müntəzirdir.

Mahmud Ağa Qara Yusiflə həmişə taxt salonunda, yaxud həmin salonun yanındakı otaqda, hökmdarın iş otağında görüşürdü. Heç vaxt onun yataq və yemək otaqlarında olmamışdı. O, içəri girəndə vəziri də hökmdarın yemək otağında, süfrə arxasında görüb sevindi, hökmdara təzim etdikdən sonra onun kefini soruşdu, əyləşdi. Qara Yusif ona süfrəyə yaxınlaşmağı təklif etdi. Mahmud Ağa söz güləşdirməmək xatirinə etiraz etmədi, süfrəyə yaxınlaşdı, ancaq bir şey yemədi, yemək istəmirdi, tox idi, Qara Yusif yeyə-yeyə məsləhətləşmək istədiyi məsələlər barəsində danışmağa başladı. Yeməklə məşğul olan vəzir üzünü Mahmud Ağaya çevirdi. Mahmud Ağa vəziri başa düşdü və dedi:

— Hökmdar, özün yaxşı bilirsən ki, hökmdarlar, əmirlər arasındakı barışıqların ömrü uzun olmur. Bu gün səninlə yaxın olan əmir, yaxud hökmdar, sabah mənafeyinin başqa hökmdarla daha uyğun gəldiyini görüb, səndən nəinki uzaqlaşır, hətta sənə düşmən də olur. Qara Yuluk da onlardan biri. Onu basdın, sənə barışıq təklif eləməyə məcbur oldu. İndi isə Herata elçilər göndərib. Şahrux ona bircə qarış artıq yer, bir kənd, yaxud şəhər boyun olsa, əlbəttə, şübhən olmasın ki, Qara Yuluk sənin üzünə duracaq.

Vəzir artıq əlini yeməkdən çəkib ona diqqətlə qulaq asırdı. Mahmud Ağa sözünün davamını ona vermək istədi, lakin vəzir danışmadı, başının işarəsilə onu dinləmək istədiyini bildirdi. Mahmud Ağa etiraz etmədi:

— Hökmdar, mənim fikrimcə biz də Herata öz elçilərimizi göndərməliyik, özü də lap tez, təcili göndərməliyik ki, Qara Yulukun elçiləri Heratdan getməmişdən qabaq Şahruxla görüşüb, bizim onunla əmin-amanlıq içində yaşamaq istədiyimizi bildirsinlər.—Mahmud Ağa sözünə yenə ara verdi, Qara Yusifin onun sözlərinə münasibətini bilmək istədi. Lakin onun susduğunu görüb sözünü bitirməyə tələsdi.—Hökmdar, əlbəttə, bizim elçilərimiz Şahruxun yanına sənin adına layiq baratla getməlidirlər.

Vəzir Mahmud Ağanın fikrini bəyəndiyini bildirdi, özünün də bəzi mülahizələrini söylədi. Nəhayət, Qara Yusif başını qaldırdı və dedi:

– Elçilər də, barat da artıq hazırdır. Yolu lap bu gün əllərinə ala bilərlər.

Şahrux Qara Yusifin elçilərini Qara Yulukun elçilərindən bir gün sonra mehribanlıqla qəbul etdi. O da Qara Yusiflə əmin- amanlıqda yaşamaq istədiyini bildirdi. Şahrux elçiləri o qədər yaxşı yola saldı ki, onların Teymurləng nəslinin bu nümayəndəsinin səmimiliyinə şübhələri qalmadı. Elçilər, həmçinin onların gətirdiyi xəbəri dinləmiş Qara Yusif bir neçə gündən sonra Şahruxun onlara kələk gəldiyini başa düşdülər. Qara Yulukun Mərdinə basqın etdiyini eşidən Qara Yusif taxtında oturuşunu dəyişmədən, dodaqları altda bircə "Ay namərd" deyə bildi.

Qara Yusiflə eyni vaxtda onun yanındakı əmirlər də Şahruxun ünvanına nalayiq sözlər deməyə başladılar. Vəzirlə Mahmud Ağa isə Şahruxun hərəkətinə pisləmədilər. Onlar bunu siyasətdə, dövlətlərarası münasibətlərdə adi hal hesab edirdilər. Və belə olan surətdə onun, uzağı görməyi bacaran hökmdarın Şahruxun ünvanına dediyi sözlər vəzirlə Mahmud Ağaya qəribə göründü. Qara Yusif saqqalını ovcuna doldurub xeyli dartışdırandan sonra dedi:

– Qara Yuluka ayrı söz yaraşmır. Basqın elədiyinə görə yox. Ancaq o niyə məni, onunla həmsərhəd qonşusunu qoyub, allahu- əkbərin qurtaracağında oturmuş Şahruxa sığınır. Bundan nə qazanır?

Qara Yusif sualını verib susdu, saqqalını dartışdırmaqda davam edə-edə özü cavab verdi.—heç nə! Əksinə o itirəcək, çox itirəcək,—deyib, əsəbi halda taxtından durdu.—Bu dəfə ona bir toy tutum ki, kömək gözlədiyi adamın adı bir yana qalsın, öz adı da yadından çıxsın,—dedi, Bistam Cagirdən sonra təyin etdiyi təzə əmir ül-üməraya döndü:—Deyirlər Qara Yuluk səkkiz qala alıb, iki yüzə qədər kəndimizin camaatını öz ölkəsinə köçürüb. Sənə bir həftə vaxt verirəm yola düşməyə. Qoşunu hazır elə, çərilərimizə özüm başçılıq eləyəcəyəm. Yolumuz Mərdinədir. Qara Yuluku diz çördürməmiş geri döndü yoxdur.

* * *

Qara Yusifin Qara Yuluk üzərinə səfərindən bir ildən çox keçmişdi. Qara Yulukun qoşunlarını darmadağın edib Təbrizə qayıtmış Qara Yusifin Təbriz camaatının bayram əhval-ruhiyyəsinin təsiri altında yalnız bir neçə gün qaşqabağı açıldı. Ancaq tezliklə yenə qaşlar çatıldı, alınlar düyünləndi, sifətlər dartındı, saqqallar didim-didim edildi. Vəzir, saray əyanları hökmdarın böyük qələbə ilə qayıtmasına baxmayaraq belə əsəbi olmasının səbəbini araşdırır, tapa bilmir, soruşmağa isə çəkinirdilər. Qara Yusifin Qara Yulukun üzərinə səfərində iştirak edə bilməmiş vəzirlə Mahmud Ağa öz aralarında məsləhətləşir, Qara Yusifin halını yüngülləşdirə biləcək bir şey fikirləşib tapa bilmirdilər. Bir dəfə Qara Yusif vəziri məsləhət üçün yanına çağıranda o, cürətə gəlib soruşdu:

– Hökmdar, neçə vaxtdır eynin açılmır. Pir Budaq padşahı torpağa tapşırıb Təbrizə qayıtdığın vaxt heç əhvalın belə deyildi. Bəlkə mənə, qoca vəzirnnə söyləyəsən dərdini.

Qara Yusif vəzirə cavab vermədi, Qara Yuluta qarşı səfərə çıxanda yerinə qoyub getdiyi oğlu Qara İskəndərin, özünü necə aparması, Təbrizə hansı elçilərin gəlməsi barəsində sual verib cavab alandan sonra vəziri mürəxxəs etdi.

Bu söhbətdən bir neçə gün sonra Qara Yusif yenə vəziri çağırıb oğlu İskəndər barəsində onu sorğu-suala tutdu. Bu, vəzirə hökmdarın öz oğlundan şübhələndiyini agah etdi. O bunun səbəbini araşdırmağa başladı. Ancaq nə qədər fikirləşdisə, atasının Təbrizdə olmadığı müddətdə Qara İsgəndəriq hərəkətlərində elə bir şübhə doğuracaq şey görmədi. Vəzir Mahmud Ağa ilə görüşüb öz mülahizələrini danışdı. Mahmud Ağa da bir söz deyə bilmədi. Onlar Rəşidlə bölüşməyi qət etdilər, fiknrləşdilər ki, bəlkə səfər zamanı Qara Yusifin qulağına oğlu barəsində şübhəli söz çatıb. Təbrizdən çıxandan geri qayıdana kimi həmişə Qara Yusifin yanında olmuş Rəşid bütün baş vermiş hadisələri xəyalından keçirdi və Qara Yusifi şübhələndirə biləcək bir söz eşitmədiyini bildirdi. Mahmud Ağa birdən Rəşidlə söhbətin istiqamətini dəyişdi:

– Rəşid, oğul, bir danış görək səfəriniz necə keçdi, haralarda oldunuz? Bircə onu bilirik ki, böyük qələbə qazanmısınız, vəssalam,—dedi.

Vəzir də baş məsləhətçinin sözlərinə şərik çıxdı. Rəşid səfər barəsində məmnuniyyətlə danışdı:

– Qoşunlarımız birbaşa, həm də böyük sürətlə Mərdinə girdi. Bizi belə tezliklə gözləməyən Qara Yuluk qaçmaqla canını qurtarmaq istədi. Ancaq onu daban-dabana təqib eləyən çərilərimizin əlindən qurtara bilmədi, qoşunları darmadağın edildi. Qara Yulukun Misir məmlükünə sığınmaqdan başqa çarəsi qalmadı. Qara Yuluku məğlub edəndən sonra eyni açılmış hökmdar bütün əmirləri yanına çağırdı və soruşdu:

– Biz Qara Yuluku məğlub elədik, ancaq özünü tuta bilmadik, qaçdı məmlükün yanına. Necə məsləhət bilirsiniz, geri qayıtmaq vaxtı deyilmi?

Əmirlərin hamısı bir ağızdan onunla razı olduqlarını bildirdilər. Qara Yusif saqqalını sığallaya-sığallaya gülümsündü:

– Nə tez darıxdınız Təbrizdən ötrü? Düşməni qovduq, məğlub elədik, ancaq onun belini qırmadıq. Bu işi görmədən geri qayıtmaq olmaz,—dedi.

Elə isti idi ki, yer də, göy də od tutub yanırdı. Yol isə uzaq, həm də bərri-biyaban. Qoşunlar Fərat çayının sahilinə yetişəndə istidən əldən düşmüş çərilərin sevincinin həddi-hüdudu yox idi. Qara Yusif qoşuna bir gün dinclik verəndən sonra Fərat çayını keçib qəflətən Qara Yulukun üstünə düşdü, onun olan olmaz qoşunlarını da tarmar elədi. Qara Yulukun özü isə bu dəfə də yaxasını ələ vermədi, Hələbə qaçdı, Qara Yusif ondan əl çəkmədi, təqibi davam etdirdi.

Söhbətin bu yerinə çatanda Rəşid gülümsündü, əlini artıq dən düşmüş saqqalına aparıb, onu barmaqları ilə daradı:

– Görəydiniz Hələb camaatı necə təlaş içində idi. Onlar Qara Yusifin şəhəri yağmalayacağından qorxaraq Hələbdən qaçmağa çalışırdılar. Biri əlli dirhəmdən baha olmayan uzunqulağın qiyməti beş yüz dirhəm, biri beş qızıla olan atın qiyməti qalxıb əlli qızıl oldu. Qara Yusif Qara Yulukun Hələbdən də qaçması

xəbərini alıb şəhərdən yan keçdi. O. şəhəri yağmalamaq eşqində olan əmirlərə dedi:

– Nə Hələb hakimi Şeyx Mahmud, bizimlə düşməndir, nə də Hələb camaatı bizə pis sifət göstərib. Ona görə də şəhəri yağmalamağı yasaq eləyirəm.

Əslində Qara Yusifi nə əl-Mahmud, nə də Hələb camaatının taleyi maraqlandırırdı. O, sadəcə olaraq çəkinirdi. Əl-Mahmud bütün əmirləri Hələbə yığmış, şeyx ül-islam isə Qara Yusifin üzərinə hücum fitvasını vermişdi. Ona görə də, Qara Yusif sultan əl-Mahmuda namə yazıb bildirdi ki, onun Hələbə girmək, ümumiyyətlə onun torpaqlarına girmək fikri olmayıb. Məqsədi onun torpaqlarına qaçmış Qara Yuluku tənbeh eləmək olub.

Qara Yusifin naməsini almış Suriya hökmdarı əl-Mahmud sevindi. Qara Yusifi Hələbə qonaq çağırdı, onun şərəfinə ziyafət verdi və təntənə ilə yola saldı. Qara Yusif Təbrizə yolucu Mərdindən saldı. O, burada oğlu Pir Budağın ölüm xəbərinn aldı, bir neçə gün yas tutandan sonra Təbrizə qayıtdı.

Rəşid söhbətini bitirəndən sonra vəzir də, Mahmud Ağa da bir müddət dinməz oturdular. Birinci vəzir dilləndi:

– Qara Yusifin ürəyinə şübhə qurdu girib. Hələ Qara Yulukun üstünə getməmişdən qabaq onun ürəyinə Şah Məhəmməd sarıdan şübhə dolmuşdu. Ərəb İraqına hakim təyin elədiyi Şah Məhəmməddən. Ona elə gəlmişdi ki, Şah Məhəmməd ona itaətsizlik göstərir. Əslində isə o heç bu barədə fikirləşmirdi də. Qara Yusif Təbrizə gələn kimi oğlu Şah Məhəmmədə namə göndərdi, onun könlünü aldı. İndi də hökmdarın ürəyində Yeni qurd baş qaldırıb, Qara İskəndərə şübhə qurdu. Allah axırını xeyir eləsin, şübhə yıxanı heç fələk də yıxa bilməz.

Vəzir axşam Qara Yusifin yanına edib oğlu Qara İskəndər barəsində onunla danışmağı, ürəyindəki şübhəni çıxarmağı qət etdi. Lakin o bunu eləyə bilmədi, saraya gələndə artıq Qara Yusifin oğlunu həbs etdirdiyini eşitdi.

Yalnız ertəsi gün vəzir Qara Yusiflə oğlu barəsində söhbət edib İskəndərin günahsız olmasına onu inandıra bildi. Qara Yusif İskəndəri Kərkükə hakim göndərdi.

Yayın qızğın günlərində Qara Yusif kimi Aladağa sərinləməyə getməyi xoşlayan Ərzincan hakimi Pir Ömər bu il də yolunu o tərəflərə salmışdı. Lakin keçən illərdən fərqli olaraq o bu il Aladağa sərinləməyə getmirdi. O, Qara Yusifin əmrinə əməl etməyə, Aladağda dincələn dörd əmirlə birləşib son vaxtlar çox baş aparan, Qara Yusiflə barışıq bağlamasına baxmayaraq Misir sultanının və əmir Şahruxun köməyilə Qara Yusifin torpaqlarına soxulan, həmin yerlərin camaatını qarət edən, əsir aparan Qara Yuluka qulaqburması verməyə tələsirdi. Aladağ yaylağında olan Ağqoyunlu soylarının başçısı Qara Yuluk da boş-bekar dayanmamışdı. O, Qara Yusifin əmirlərinin onun üzərinə gəlməsi xəbərini alan kimi oğlanlarını yanına çağırdı:

– Bizə Misirdən və əmir Şahruxdan kömək gəlib çıxmadı. Əslində kömək buraya gəlməyəcəkdi, onların hərəsi bir tərəfdən Qara Yusifin üstünə düşəcəkdi. İndi Qara Yusifik başı qarışıqdır, sözünə baxmayan oğlunu tənbeh eləmək üçün Bağdada gedib. Deyirlər o, Şah Məhəmmədi kənar eləyib, o biri oğlu İspəndi Ərəb İraqına hakim qoyub. Bunları söyləməkdə məqsədim odur deyəm ki, Qara Yusif hələlik bizə təhlükə deyil və Pir Ömərin köməyinə yetə bilməz. Biz Pir Öməri tək qarşılamalı, burada, Aladağda olan digər əmirlərlə birləşməsinə imkan verməməliyik,—deyə vəziyyəti onlara başa saldı.

Qara Yulukun oğlanlarından biri dilləndi:

– Babam, qardaşım Yaqubu Təbrizə göndərdin, Qara Yusif onu dustaq elədi. İndi biz Pir Ömərlə davaya girişsək Yaqubun halı pis olmazmı?

Qara Yuluk oğlanlarının hamısını közdən kecirib:

– Oğlum, dövlət işi qurban da tələb eləyir. Əlbəttə. mən Yaqubu qurban vermək fikrində deyiləm, ancaq bizim ayrı yolumuz yoxdur. Onsuz da Pir Ömər üstümüzə gəlir. Ona dikər əmirlərlə birləşməyə yol versək o bizi üstələyər. Ona görə biz onu qabaqlamalıyıq.

Qara Yulukun oğlanları, onlarla yanaşı dayanmış əmirlər bir ağızdan dedilər:

– Biz sənin əmrinə müntəzirik.

Qara Yuluq artıq bir dəri, bir də sümükdən ibarət olan quru əlini qırışmış sifətində gəzdirdi və dedi:

– Yaylağa elə ehtiyatla getmək lazımdır ki, Qara Yusifin qonşuluqda olan əmirləri xəbər tutmasınlar. Gecə yarısından xeyli keçmiş, daha yaxşısı, səhərə yaxın yola düşək.

Qara Yuluk əvvəl oğlanlarına döndü:

– Sizin biriniz sağ, o biriniz sol cinahla aşağıya enin. Aranızdakı məsafə ən azı iki min, iki min beş yüz addım olmalıdır. Beləliklə həræniz Aladağın bir tərəfinə düşmüş olursunuz. Mən iki əmirlə ortada irəliləyəcəyəm. Pir Öməri mən özüm üstələyəcəyəm. Onun sizlərdən xəbəri olmayacaq. Döyüşün qızğın çağında tökülərsiniz qəflətən onun üstünə.

Qara Yuluk əmrə müntəzir dayanmış əmirlərə döndü:

– Sizin ikiniz də ortada, mənimlə birlikdə olacaqsınız. Hər birinizik üç min qoşunu var, bu eləyir altı min. Pir Ömərin də qoşunları təxminən bu qədərdir. Biz cinahların köməyi olmadan da Pir Öməri üstələyə bilərik. Altı minə qarşı altı min. İlk baxışda üstünlük heç kimin tərəfində deyil, qüvvələr bərabərdir. Ancaq məncə üstünlük bizim tərəfdədir, çünki biz qəfildən hücuma keçəcəyik. Qəfildən hücumun isə üstünlüyü məlum məsələdir.—Qara Yuluk sözünə yenə ara verdi, quru əllərini yenə qırış sifətində gəzdirdi,—yaxşı, gedin, söylədiyim çağda, səsiz-küysüz yola düşün. Arvad-uşaq, mal-qara bizlə getməyəcək, öz yerlərində qalacaq.

Ağıllı, uzaqgörən tayfa başçısı Qara Yuluk pədənsə Pir Ömərin də tədbirli sərkərdə olduğunu unudurdu. Qara Yusifin ən sevimli əmirlərindən biri olan Pir Ömər Qara Yuluku yaylaqda yaxalamaq, onu üstələməkdən ötrü yaylaqdakı əmirlərlə birləşməyə tələssə də böyük ehtiyatla irəliləyirdi. O, Qara Yulukun sərkərdəlik qabiliyyətini yüksək qiymətləndirirdi. Odur ki, Qara Yulukun tədbirlərindən vaxtında xəbər tuta bilmişdi. Digər əmirlərlə birləşə

bilməyəcəynin yəqin etmiş Pir Ömər onların yanına qasidlər göndərməyi qət etmişdi. O, çağırdığı baş atlıya dedi:

—Elə gecə ikən yola düşün, əmirlərə xəbər eləyin ki, Qara Yuluk qüvvələrimizin birləşməsinə yol verməyəcək. Qara Yuluk hücuma keçməmişdən qabaq, yaxud hücum anında özlərini yetirib arxadan onun qoşunlarına zərbə vura bilməsələr, o məni üstələyə bilər.

Qasidləri yola salmış Pir Ömər kəşfiyyat rəisini çağırdı:

— Qlavuzlar göndər, özü də biri-birinin ardınca. Şübhəsiz, ələ keçənləri olacaq. Ancaq hər halda tapşırığı yerinə yetirib qayıdanları da olacaq. Onların bircə işi olmalıdır: Qara Yulukun nə vaxt yaylaqdan aşağı düşmək fikri olduğunu öyrənmək.

...Kəşfiyyatçıların gətirdiyi xəbər Pir Öməri şaşırdı:

– Demək, bu gecə. Demək, mənim qasidlərim xəbəri vaxtında əmirlərə çatdıra bilməyəcəklər. Mənə kömək gəlib yetişməyəcək.

Pir Ömərin xəbəri yox idi ki, onun qasidləri Aladağın ətəklərindən uzağa gedə bilməyiblər, Qara Yulukun adamlarının əllərinə keçiblər.

Pir Ömər geri çəkilmək istədi, ancaq bunu özünə sığışdırmadı, döyüşə girməyi qərara aldı. Pir Ömər Qara Yuluku təkbətək döyüşə çağırmaq və onu üstələməklə qoşunlarını qırğından xilas edə biləcəyinə ümid baqlayırdı.

Günəş Aladağın arxasından boylanan zaman artıq qoşunlar üz-üzə dayanmışdılar. Pir Ömərin səfləri ilə üzləşmiş, qəfləti hücumun baş tutmadığını görən Qara Yuluk qoşunlarını düzməyə məcbur oldu. O, sağ və sol cinahlarda irəliləyən oğlanlarına özlərini büruzə verməməyi xəbərini göndərdi.

Qara Yuluk sağ-solunda əmirlər, qoşunlarının önündə irəliləyirdi. Pir Ömər də öz qoşunlarının önündə idi. Pir Ömər əmudunu başı üzərinə qaldırıb qışqırdı:

— Qara Yuluk, səninlə dilimiz də, dinimiz də birdir, camaatımız, çərilərimiz qardaşdırlar, qohumdurlar. Gəl qardaş qanı axıtmayaq. Bu vaxta kimi tökdüklərimiz bəsdir. Hökmdarımız Qara Yusifə elədiyin xəyanətdən əl çək! Əks

təqdirdə çıx döyüş yazısına, mənimlə təkbətək savaşa. Qoy bu savaş çərilərimizi qırğına vermədən mübahisəmizi həll eləsin.

Qara Yuluk qoşunların arasındakı məsafə böyük olduğundan Pir Ömərin sözlərini eşitmədi, qoşunları irəli apardı. Oz mənzilinə çatanda Pir Ömər bir də tışqırdı. Qara Yuluk Pir Ömərin sözlərini eşitdi və qoşunlarını əylədi Qara Yuluk yanındakı əmirlərə baxıb gülümsündü və dedi:

— Bura bax, Pir Ömər, mən sənin tayın-bərabərinəm ki, məni təkbətək savaşa çağırırsan? Sən srağagün Qara Yusif Şamda dustaq olanda ona çörək daşıyan, dünən ona naiblik eləyən Pir Ömər deyilsən? Adi kəndçi, rəiyyət oğlu Pir, əmir deyil, istəyir lap padşah olsa belə, mən onunla təkbətək savaşa girmərəm. Heç mənim əmirlərimin də arasında səninlə təkbətək savaşa girmək istəyən tapılmaz. Çağır Qara Yusifini, girsin mənimlə savaşa.

Pir Ömər gördü ki, Qara Yuluk onunla təkbətək döyüşə girmək fikrində deyil, ona görə də onu çaşdırmağa çalışdı:

-Neynək, Qara Yuluk, Qara Yusifi istəyirsən, qoy elə olsun.

-O, harada olsa, indicə gəlib çıxar.

Qara Yusifin Bağdadda olduğuna və buralara gəlib çıxa bilməyəcəyinə əmin olsa da Qara Yuluk bir anlığa özünü itirdi, hətta soruşdu:

— Bəs haradadır?

Qasidlərinin ələ keçməsindən xəbərsiz olan, əmirlərindən kömək gözləyən Pir Ömər vaxt qazanmaq məqsədilə Qara Yulukla danışığı uzatmağa çalışdı:

— Deyirsən haradadır? Soylədim ki, harada olsa, indilərdə gələr.

Artıq özünü ələ almış Qara Yuluk qışqırdı:

— Ondan kömək gözləmə, o uzaqdadır, Bağdaddadır. Lap onun özü də gəlsə, mənə bir şey eləyə bilməzdi, ikinizi də bir-birinizə qatardım,—deyib qoşunlarına irəliləmək əmrini verdi.

Naəlac qalıb döyüşə girməyə məcbur olmuş Pir Ömər qoşunlarına düşmənin üzərinə ox yağdırmağı əmr etdi. Qara Yulukun qoşunları qalxanlarını üzlərinə

qaldırıb irəliləməkdə davam etdilər. Qoşunlar üzləşdilər. İlk həmlədə Pir Ömərin qoşunları üstünlük qazandılar. Bu Pir Öməri qanadlandırdı. O qışqırdı:

— Vurun, qırın, mənim igidlərim.

Pir Ömorin qoşunlarının üstünlüyü qısa müddətə oldu. Qara Yulukun oğlanlarının cinahlardan hücumu döyüşün müqəddəratını həll etdi. Qara Yulukun oğlanlarından biri bir dəstə atlı ilə Pir Öməri mühasirəyə saldı, çərilərdən biri kəmənd atıb onu atdan saldı. Atalarının atdan yıxıldığını görən Pir Ömərin iki oğlu onun köməyinə qoşdu. Onlar qışqıra-qışqıra irəliləyir, qılıncları ilə özlərinə yol açırdılar. Atalarına yaxınlaşanda onların da taleyi Pir Ömərinki kimi oldu, atılmış kəməndlər onları da yerə sərdi. Döyüşün müqəddəratı Qara Yulukun xeyrinə həll edildi. Pir Ömərin qoşunlarının bir qismi canını qaçmaqla qurtardı.

Tam qələbə qazanmış Qara Yuluk bir az əvvəl döyüşün ən qızğın yeri olmuş çəmənliyin ortasında çadır qurdurdu, lakin çadırın içində otura bilmədi, çox isti idi. Bayırda, otun üzərinə gecə döşətdirdi, əyləşdi, oğlanlarını sağında və solunda oturtdu, əsirləri gətirməyi əmr etdi. Bir azdan Pir Ömər iki oğlu, əmirləri, qohumları ilə Qara Yulukun qarşısında dayandı. Qara Yuluk qupquru əli ilə cığır-cığır sifətinə, saqqalsız çənəsinə sığal çəkə-çəkə Pir Öməri gözdən keçirdi və ətrafındakılara baxıb gülümsündü. Sifətinin qırışları qat-qat oldu, ağzındakı tək-tük sapsarı dişlərk ağardı:

— Bir buna baxın, sən allah. Dünən Qara Yusifin su daşıyanı olmuş rəiyyət üstümə ayaq alıb,—dedi, üzünü Pir Ömərə çevirib davam etdi.—indicə sənin başını kəsdirib itlərə atacağam.

Pir Ömər gülümsündü:

— Başımı kəsdirə bilərsən, buna sözüm yox, ancaq itlərə atmazsan. Mən də, sən də başımın qiymətini yaxşı bilirik. Başımı indi də olmasa, sabah kəsdirib ağalarından birinə göndərəcəksən, özü də ən qiymətli barat kimi.

Qara Yuluk rişxəndlə güldü:

– Özündən nə yaman razısan, Pir Ömər. Rəiyyət başının belə qiymətli olmasını eşitməmişdim.

Pir Ömər qürurla:

-Özün görürsən ki, rəiyyət başı, sənin kimi tayfa başçısının başından da qiymətli olub. Əminəm ki, sənin özün də belə fikirləşirsən.

Qara Yuluk hirsləndi;

– Yaxşı, qoy sən deyən olsun,—deyib oğlanlarından birinə döndü,—dur, bu kəli yerə sərib başını it qibləsinə kəs. Onu Misir sultanına göndərəcəyəm.

Pir Ömər təmkinini pozmadan istehza ilə gülümsündü:

– Mən elə bilirdim əmir Şahruxa göndərəcəksən, qiymətimi bir pillə aşağı saldın.

Qara Yuluk yenə əsəbi halda:

– Ona Qara Yusifin başını göndərəcəyəm,—dedi

– Bunu eləyə bilməyəcəksən, əksinə olacaq. Qara Yusif sənin başını kəsdirib itlərə atacaq, heç kimə göndərməyəcək.

Qara Yuluk əsəbindən müvazinətini itirdi. Pir Ömərin başını kəsmək əmrini almış oğluna qışqırdı: — Nə durmusan, kəs onun səsini.

Qara Zulukun oğlu yenə tərpənmədi. O, qardaşına, atası ilə deyişən Pir Ömərə baxan əmirlərə döndü. Onlardan biri Qara Yuluka yaxınlaşıb pıçıldadı:

-Sən nə eləyirsən? Pir Ömər Qara Yusifin ən sevimli əmiridir Onun intiqamı çox dəhşətli ola bilər. Bir də, axı sənin oğlun Təbrizdə onun əsiridir. Pir Ömərin əvəzinə o da sənin oğlunun başını kəsdirər.

Pir Ömərin sözlərindən həvsələdən tamamilə çıxmış Qara Yuluk qoca əmirin sözlərini sona kimi dinləmədi, yenə oğluna dönüb qışqırdı:

– Kəs onun səsini.

Üç nəfər əsgər bir anın içində Pir Ömərі yerə sərdi.Qara Yulukun oğlu bıcağını Pir Ömərin boğazına çəkdi. Qan fəvvarə vurdu, Pir Ömərin xırıltısı qulaqlara doldu. Qara Yulukun oğlu bıcağını ikinci dəfə çəkdi, baş bədəndən aralandı. Pir Ömər qıcıdı və tezliklə bu da keçdi.

Qara Yuluk Pir Ömərin başına baxa bilmədi. Qışqırdı:

— Aparın qalanlarını, aparın,—o qalxıb çadırına girdi.

* * *

Heratda yay çox isti keçirdi. Əmir Şahruxun sarayında nəfəs çəkmək mümkün deyildi. İstidən hərəsi bir tərəfə çəkilmnş əmirlərin heç biri sarayda yox idi. Qara Yusifi tabe hala salmaq, atası Teymurləngin böyük imperiyasını bərpa etmək xülyasından başqa ayrı bir şey barəsində fikirləşməyən Şahrux məsləhətləşmək üçün saraya çağırdığı əmirlərin yubanmasından hirslənirdi. Əmirlərin dalınca gedənlər bir-bir qayıdır, hərəsi bir söz deyirdi:

—Böyük əmir həyətindəki dərin quyuya yaxın bir yerdə düzəltdirdiyi səpsərin bir evdə dincəlirdi, sənin çağırışını eşidəndə üzünü turşutdu:—«Nə xəbərdir, axşam sərinini gözləmək olmazdı?» dedi. Dedim ki, məni əmir Şahrux göndərib. Naəlaclıqdan «İndicə gəlirəm» dedi.

Digər qasid dilləndi:

— Əmir Əlxasın qəribə evi var. Bir otağının divarlarını elə qurdurub ki, onların arasından həmişə su axır. Evi elə bil cənnətin bir guşəsidnr. İndicə gələr.

Üçüncü qasid əlavə etdi:

— Mən çağırmağa getdiyim əmir evinin zirzəmisini qazdırıb bir otaq düzəltdirib ki gəl görəsən. Sərinliyinə söz ola bilməz.

Vəzirin dalınca getmiş qasid dedi:

— Vəzir evində oturub tər tökürdü. Otağı çox isti idi. Nökəri ki vəzirin sözlərini təkrar edib deyir ki, tər tökmək çox xeyirdir insan üçün, tərlə birlikdə bədəndəki azar da çıxır.

Qasidlər gördüklərini danışıb qurtarmamışdılar ki, əmirlər bir-bir gəlməyə başladılar. İsti küçədən saraya birinci girmiş baş əmir dilləndi:

— Ay kişi, saray əməllicə sərindir ki.

Ondan sonra gəlmiş əmirlər də eyni sözləri dedilər. Onların hamısı birdən əmir Şahruxun yanına girdilər, ona baş əydilər, göstərilən yerdə oturdular.

Əmir Şahrux çox fikirli idi. O, əmirlərin gecikməsinə hirslənmişdisə də, onlara bir söz demədi. Onlar oturan kimi əmir Şahrux sözə başladı:

— Mərhum babam əmirlər əmiri Teymurun ən çox qorxduğu, ən böyük təhlükə sandığı adam Qara Yusif idi. O, nəhəng dövlətin başçısı Toxtamış xanı Qara Yusif qədər təhlükəli düşmən, daha doğrusu rəqib hesab eləmirdi. Tarix göstərdi ki, mərhum babam nə qədər haqlı imiş. Gör bir Qara Yusif nə qədər torpaqlarımıza şərik çıxıb. Buna baxmayaraq mən də Qara Yusifi özümə düşmən deyil, rəqib sanıram, vuruşmaq istəmirəm. onunla. Axı axan qan qardaş qanıdır. Mən Qara Yusifin yanına qasidlərimi göndərdim, tabe olmasını, qan tökmədən xərac verməsini tələb elədim. Ancaq rədd cavabı aldım. İndi bizim bircə yolumuz qalıb. O da səfərə çıxmaqdan ibarətdir. Birinci növbədə Əcəm İraqını, Sultaniyyə və Qəzvin şəhərlərini almalıyı!

Əmirlərdən biri dilləndi:

— Hökmdar, bu istidə çəriləri Heratdan Sultaniyyəyə aparmaq olar? Onların çoxu yolda qırılar.

Şahruxun cavabı qısa oldu: — Biz gecələr yol gedib, gündüzlər dincələcəyik.

Vəzir əlavə etdi:

— Həm də istilər həmişə belə davam eləməyəcək ki.

Bir-birilə yanaşı oturıuş iki əmirdən biri o birinə dönub dedi:

— Ona nə var ki? Bizi yola salıb oturacaq burada.

Vəzir əmirin sözlərini yeşitmədi, onun üzü əmir Şahruxa sarı idi. O dedi:

— Hökmdar, Misir məmlük sultanınıi qasidləri gəlib. Onlar dünən gəliblər, ancaq sənin yanına gətirə bilmədim. Başçılarını isti vurub, naxoşlayıb. Deyir ki, onun da sultanı Qara Yusifin üstünə getməyə hazırlaşır. Eelə bir xəbər də çatıb ki, Qara Yusifin əziz və sevimli əmiri Pir Öməri Qara Yuluk məğlubiyyətə uğradıb, başını onların sultanına göndərib.

Əmir Şahrux Misir sultanının Qara Yusifdən qorxduğunu, onun Suriyanı tuta biləcəyindən ehtiyat etdiyini bilirdi. Qara Yusifin üzərinə yürüş təşkil edəndə də məmlükün şəxsinda müttəfiq olacağına ümid bağlayır, onun yanına elçilərini göndərmək barəsində fikirləşirdi. İndi Misir sultanının elçiləri öz ayaqları ilə gəlib sultanlarının Qara Yusifə qarşı müharibəyə hazırlaşması xəbərini gətirmişdilər. Bu xəbər əmir Şahruxun kefini xeyli kökəltdi. Gözləri hökmdarda olan qazı vəzirin dediyi sözlərin hökmdara xoş təsir bağışladığını görüb dilləndi:

— Hökmdar. Bağdaddan xəlifə öz elçilərini göndərib. Xəlifə Qara Yusifə qarşı fitva verib. Şafi qazılarından Bədrəddin bir qatıra minib kəndbəkənd gəzir, camaatı Qara Yusifo qarşı hərbə çağırır.

Şahrux qazının verdiyi məlumatı da məmnuniyyətə dinlədi və:

— Görünür, bir olan tanrı bizim tərəfimizdədir. O görür ki, mən qan tökmək istəmirdim,—dedi, əmirlərə döndü:—İki gündən sonra yola düşürük,—dedi.

Əmirlər getdilər. Vəzirlə qazı Şahruxun yanında qaldılar. Ancaq Şahrux tək qalmaq istəyirdi. Vəzirlə qazı bunu başa düşdülər və durub getdilər.

Heratdan çıxandan düz iki ay sonra əmir Şahrux Reyin şimali-şərqində, Veramin adlı yerdə ordugah qurdu. Şahrux Veraminə gələnə kimi qoşuna qısa müddətli istirahət etmək üçün bir necə yerdə də düşərgə salmışdı. Birinci dəfə Heratdan xeyli aralanandan sonra Güli-Bəkan adlı yerdə , Fasiləsiz yağan yağışların ara verməsini gözlədi. O burada ikən Harizan valisi Şahpələng böyük qoşunla ona qoşuldu Şah Güli-Bəkan düşərgəsində beş gün qalandan sonra yola düşmək əmri verdi. Böyük tərxan həmişə onunla yanaşı at sürürdü. Şahruxun qoşunları Cam-Nişapuru keçib Rabata gəldi Şahrux burada da müvəqqəti düşərgə saldı. Şahrux Reydə ordugah qura kimi oğlu, Fars valisi İbrahim Mirzə, İsfahan hakim, Rüstəm və başqaları da öz qoşunları ilə onui qulluğuna qaldı. Şahruxun qoşunlarının sayı iki yüz mini ötmuşdü. Lakin o, Qara Yusifin üzərinə yürüşünü ləngidirdi. Hökmdarın bütün hərəkətlərini diqqətlə izləyən, yeri düşəndə ona məsləhətlər verməkdən çəkinməyən böyük tərxan Həsən Sufi bir-iki gündən artıq dözə bilmədi:

– Hökmdar, nəyi gözləyirsən? Bu boyda qoşunla Qara Yusif diz çökdürmək çətin olmayacaq.

Şahrux çox hörmət bəslədiyi tərxanın sözlərini cavabsız buraxmaq istədi. O, Qara Yusifin yanına, Təbrizə elçi göndərdiyini ona deməmişdi. Lakin böyük tərxan əl çəkmədi. Şahrux hamıdan gizlin saxladığı sirrini ona açmalı oldu:

– Həsən Sufi, bilirsən ki, mən Qara Yusiflə savaş, qan tökmək istəmirəm. Bir də... bir də düzünü axtarsan qoşunlarımızın sayca nox olmasına baxmayaraq ehtiyat eləyirəm Qara Yusifdən. Ona görə də yenə Təbrizə elçilərimi göndərmişəm. Qoy Qara Yusif xərac verməyə razı olsun, bu, daha yaxşı olar.

Böyük tərxan həsən Sufini hökmdarın sözləri düşündürdü. O, Qara Yusifi asanlıqla üstələyə biləcəklərnni desə də, sonradan qoşunda əhval-ruhiyyənin o qədər də yaxşı olmadığını, Qara Yusifin adı gələndə çərilərin canına qorxu düşdüyünü fikirləşmişdi. Döyüş qabağı qorxu hissi isə məğlubiyyətə bərabər idi. İki yüz min nəfərlik qoşunun çərilərinnn canına qorxu hakim kəsiləndə, onu əlli min nəfərlik qoşun belə üstələyərdi. Qara Yusifin qoşunlarının sayı isə, əlbəttə, əlli mindən xeyli çox idi. Böyük tərxan fikirləşdiklərini əmir Şahruxa söylədi.Şahrux dedi:

– Mənim bundan xəbərim var, əmirlər deyiblər mənə. Məni də ən çox qorxudan budur. Elçini də, düzünü axtarsan, elə bu səbəbdən göndərmişdim. Yol boyu bütün türbələri, ziyarətxanaları ziyarət eləməyimin də səbəbi bu olmuşdur.

Böyük tərxan dedi:

– Hökmdar, deyəsən Qara Yusif Təbrizdə yoxdur. O, oğlu Şah Məhəmmədi tənbeh eləməkdən ötrü Bağdada gedib.

Şahrux cavabını ləngitmədi:

—Elədir, getmişdi, ancaq indi Təbrizdədir. O, Qara Yulukun üstünə getməyə hazırlaşırdı, bizim gəlməyimizi eşidərək dayanıb. Görək elçilərimiz nə xəbərlə qayıdırlar?

Elçilər Şahruxla tərxan arasında gedən söhbətdən iki gün sonra qayıtdılar. Onlar rədd cavabı gətirmişdilər. Xəbər Şahruxu sarsıtdı. O, iki gün heç kimi,

hətta böyük tərxan həsən Sufini də yanına buraxmadı, hafizlərini çağırıb əmr etdi:

__ Gedərsiniz məscidlərə, sureyn-fəthi on iki min dəfə oxuyarsınız. Surəni bircə dəfə az oxumuş hafizin başını bədənindən ayıracağam.

On iki min dəfə süreyn-fəth oxunub qurtarandan sonra Şahrux əmir Yusif Xocanı yanına çağırdı:

— On min qoşun götürüb get, əvvəl Qəzvini, sonra Sultaniyyəni fəth elə. Müqavimət göstərməyən şəhərin camaatını talan eləməyəsən.

Əmir Yusif Xoca hökmdara baş üstə deyib getdisə də, şəhərləri qarət etməyə icazə verilməməsi onun xoşuna gəlmədi.

Qəzvin hakimi Kor Heydər oğlu Qasim müqavimət göstərməyib Sultaniyyəyə, Cahanşahın yanına qaçdı. Şahrux Qəzvin camaatının nümayəndələrini qəbul etdi, şəhərə aman verdi. Yusif Xoca Sultaniyyəni mühasirəyə aldı. Sultaniyyənin valisi Cahanşah şəhərin müdafiəsini möhkəmləndirdi.

* * *

Qara Yusifin başında olan əmirlər öz hökmdarlarının fikirli, acıqlı, əsəbi olduğunu çox görmüş və buna adət etmişdilər. Lakin onların heç biri Qara Yusifin bugünkü vəziyyətini görməmnşdi. Bu gün onun həmişə qığılcım saçan gözlərində, demək olar ki, işıq yox idi. Sifətinə zəfəran rəngi çökmüşdü. Tez-tez əlini qarnına tərəf aparırdı. Hərdənbir inildəyirdi də. Qara Yusifin yanındakı əmirlər onun ən sevimli əmiri Pir Ömərin Qara Yulukla döyüşdə məğlub olmasından, başının Misir sultanına göndərilməsindən xəbərdar idilər. Onlar elə zənn edirdilər ki, hökmdarın bugünkü vəziyyəti bununla bağlıdır. Əmirlərin çoxunun canına qorxu dolmuşdu. Aladağda olub Pir Ömərə kömək göstərə bilməmiş əmirlər isə ağır cəza gözləyirdilər. Adətən, acıqlı olanda xeyli müddət susub birdən coşan Qara Yusifin bu dəfəki sükutunun çox uzun çəkməsi də əmirlərə qeyri-adi görünürdü. Onların heç biri hökmdarın xəstə qarnında bərk

sancılar olmasını bilmirdi. Qara Yusifin isə xəstəliyini büruzə vermək adəti yox idi.

Nəzərlərini ondan çəkməyən əmirləri Qara Yusnfin sinəsindən qopan ah diksindirdi. Hökmdarın ah çəkdiyini birinci dəfə görürdülər. Əmirlər bunu da əmir Pir Ömərin ölümü ilə bağladılar. Əslində isə Qara Yusifin sinəsindən qopan ah deyildi. Sadəcə qarnındakı dözülməz ağrı səngimiş, hökmdar rahat nəfəs almışdı. Yalnız bundan sonra Qara Yusif ətrafındakılara, indicə görübmüş kimi, mehriban-mehriban nəzər saldı. Əmirlər təəccüblənsələr də köks dolusu nəfəs aldılar, yüngülləşdilər. Qara Yusif hərəkətə gəldi, qamətini düzəldib dedi:

– Qara Yuluk xəyanət elədi. Bu bir yana qalsın, o, Pir Öməri öldürdü, onu hörmətsiz elədi. Qara Yulukun baxtı gətirib ki, indi onu cəzalandırmağa gedə bilmirəm. Qulaqlar xəbər gətiriblər ki, əmir Şahruxun bac vermək təklifini rədd eləyəndən sonra böyük qoşunla üstümüzə gəlir. Biz onu qarşılamağa hazırlaşmalıyıq.—Qara Yusif birdən sözlərinin istiqamətini dəyişdi, qoruqçubaşını çağırıb dedi,—tapşır Qara Yulukun əsir oğlunu buraxsınlar, mən Pir Ömərin intiqamını əsirdən almayacağam.

Qoruqçubaşı əmirlərin təəccüb dolu baxışları altında baş üstə deyib getdisə də tez qayıtdı:

– Hökmdar, yenə əmir Şahruxun elçiləri gəlib,—dedi.

Qara Yusif onları içəri buraxmağı əmr etdi. Elçilər Qara Yusifə yüngülvari təzim etdilər. Geyimi ilə o biri elçidən fərqlənəni irəli çıxdı və dedi:

– Böyük hökmdarımız, babası əmir Teymur Sahibqrandan sonra onun bütün torpaqlarının hökmdarı olmuş əmir Şahrux sənə sülh, əmin-amanlıq, qardaşlıq təklif eləyir.

Qara Yueif gülümsündü və dedi:

– Qardaş olmaqdan ötrü bu qədər qoşunla mənim üstümə gəlmək nəyə gərəkdi?

Elçibaşı Qara Yusifin sözlərini qulaqardına vurdu:

— O səninlə qardaş olmaq istəyir, sənsə ona ağ olursan, torpaqlarını tutursan, xərac vermirsən. Əmir Şahrux deyir ki, xərac verməyə razı olsun mənim qardaşım. Onda o, Rey yaxınlığında toplanmış iki yüz minlik qoşununu götürüb geriyə qayıdar.

Elçibaşı iki yüz minlik qoşun sözlərini xüsusi vurğu ilə dedi və onun atdığı ox hədəfə dəydi. Əmirlər arasında narahatlıq, pıçıltı başlandı. Lakin Qara Yusifin bir sərt baxışı hər şeyi yerinə qaytardı, əvvəlki sükut bərpa oldu.

Qara Yusif cavabını gecikdirib elçibaşını bir xeyli intizarda qoydu:

— Deyirsən iki yüz minlik qoşunla gəlib əmir Şahrux?

Elçibaşı başını tarpətməklə kifayətləndi. Qara Yusif gülümsünməyə çalışdı və dedi:

— Gedin məni qardaş adlandıran əmir Şahruxa deyin ki, mənə çox böyük hörmət qoyub, o qədər qoşunla məni şərəfə yetirib. Ancaq nahaq yerə zəhmət çəkib. Bu torpaqlar heç vaxt nə onun babası əmir Teymurun, nə də ki onun nəvəsi əmir Şahruxun olub. Bura Azərbaycan torpağıdır, Təbriz şəhəri Azərbaycan hökmdarlığının paytaxtıdır. O hökmdarlığın taxtında mən oturmuşam, məndən sonra isə mznnm oğlanlarım oturacaqlar Bu torpağin lap qədim zamanlardan özünün padşahları olub Təkcə əmir Teymur və onun kimi cahangirlər zor işlədəndə, bu torpağın camaatı boyun əyməli olub, özü də müvəqqzti. Ancaq əlinə fürsət düşən kimn yenə baş qaldırıb, torpağına ağalıq eləyib. Biz qaraqoyunlular bu torpaqlara qəsbkar kimi gəlməmişik. Yüz ildən artıqdır ki, biz bu torpaqlarda yaşayırıq, yerli camaatla !aynayıb-qarışmışıq, yaratdığımız dövlət də Azərbaycan dövlətidir. Bu dövlət heç vaxt əmir Şahruxa tabe olmayacaq. Gedin və bu sözlərimi əmir Şahruxa yetirin.

Elçilər baş əyib qapıya dönmək istəyəndə Qara Yusif sözünə davam etdi. Elçilər ayaq saxladılar:

—Əmir Şahruxa yetirin ki, mən bütün Azərbaycan camaatını ayağa qaldıracağam. Onun iki yüz minlik qoşunu da məni qorxutmur. Biz sayca ondan az olsaq da, ondan güclüyük. Cünki bizim camaatımız başqa torpaqları zəbt

eləmək üçün vuruşmayacaq, öz yurdlarını, ana-bacılarının ismətini qorumaq ücün çarpışacaqdır. Bu ondan ötrü ölüm-dirim vuruşu olacaqdır.

Elçilər Qara Yusnfin susduğunu görüb yenə əllərini döşlərində çarpazladılar, dönüb getdilər. Qara Yusif başını qaldırıb onların ardınca da baxmadı. Elçilər gedəndən sonra Qara Yusif sərəncamlar verməyə baş Vəzir, Şah Məhəmmədə, Qara İskəndərə, İspəndə və Əbubəkrə mənim adımdan fərman hazırla, qoy tezliklə qoşunları ilə Təbrizə gəlsinlər. Cahanşaha fərman göndərməyə ehtiyac yoxdur. Görünür, Şahruxun birinci hədəfi Sultaniyyə olacaq. Biz Cahanşahın köməyinə getməliyik.

Vəzir titrək əllərilə ağappaq, gur saqqalını sığallaya-sığallaya başını tərpətdi. Qara Yusif davam etdi:

— On yeddi yaşdan əlli yaşa kimi bütün Təbriz camaatını səfərbər eləmək barəsində də fərman hazırla.

Qara Yusifin əmnrlərindən biri, hökmdarın son sözlərinin digər əmirlərə də qəribə görünməsinə təəccüb etmədi. O, cürəta gəlib dilləndi:

— Hökmdar, bu qədər adamı səfərbər eləyib neynəmək istəyirsən?—soruşdu.

Qara Yusifin əvəzinə əmirlərdən biri cavab verdi:

— Mən də əvvəl sənin kimi fikirləşirdim. Ancaq indi görürəm ki,. hökmdarımız hər şeyi düz ölçüb-biçib. Yəqin Təbriz camaatını xəndək qazmaq, ordugah qurmaq və başqa işlər üçün səfərbər eləyir.

Birdən əmir yenə dilləndi:

— Xəndək qazmağa o qədər adam nəyə, gərəkdir?

Qara Yusif başını qaldırdı və:

— Təkcə xəndək qazmaqdan ötrü yox,—dedi.

Bu dəfə əmirlərin arasında dayanmış Rəşid dedi:

— Hökmdar, axı camaat hərbi işi bilmir, o qədər camaat nəyə gərəkdir?

Qara Yusif Rəşidə döndü:

— Təbriz camaatını səfərbər eləməyi sənə tapşırıram, Rəşid bəy. O camaat bizə çox kömək eləyəcək,—dedi, yenə başını aşağı dikdi və pıçıldadı:—mən

Şahruxa göstərərəm ki, piyadalar, hətta əli silah tutmayan piyadalar da öz yurdlarının müdafiəsinə qalxanda düşməndən ötrü nə qədər təhlükəli zora çevrilir.

Rəşid Qara Yusifə baş üstə cavabını verib susdu. Birdən Qara Yusifin halı dəyişdi. O, iki əli ilə qarnını tutub büküldü, sifətinə zəfəran rəngi çökdü. Aydın görünür ki, qarnında bərk ağrı var. Rəşid saray həkimin dalınca qaçdı. Lakin o qayıdana kimi Qara Yusif böyük iradə hesabına dözülməz ağrını üstələdi, taxtından qalxdı və.

– Sabah səhər Sultaniyyəyə yola düşürük,—deyib yan otağa keçdi.

Ertəsi gün Qara Yusif yatağından gümrah qalxdı. Sevimli arvadı Qədəm Paşa yanında idi. Tezliklə Əvnək hakimi Misir Xocaoğlu Qazan padşah, Ərdəbil hakimi Yarəli oğlu Zeynal, Gəncə və Bərdə hakimi əmir Qaraman və bir neçə başqa əmir onun yanına gəldilər. Qara Yusifnn kefi yerində idi və səfərqabağı onların hamısına mülayimlik göstərdi. O, Təbrizdən yola düşmək əmrini verəndən bir az sonra vəzirinə dedi:

– Vəzir, sərəncam ver xəzinədara, qoy xəzinənin bütün qızıllarını çərilərə paylasın.

***

Rəşid fikirli halda oturmuşdu. O, ən əvvəl oğluna bir-iki tapşırıq vermək isqəyirdi:

– Oğlum, yena ara qarışıb, Şahrux üstümuzə gəlir sən da, dostların da başqa cavanlar kimi Təbriz müdafiəçilərinin arasında olmalısınız,—Rüstəm atasının sözlərinə diqqət kəsildi.—Təbriz camaatına silah işlətməyi də öyrətməlisiniz. Çox güman ki, hökmdar bu günlərdə Sultaniyyə, Qəzvin tərəfə qoşun göndərdi. Sən qoşununa başçılıq etməlisən.—Rüstəm atasına razılıq əlaməti olaraq başını tərpətdi və bir söz demədi.

Rəşid davam etdi:—Bir də. Baban Mahmud Ağanın halı o qədər də yaxşı deyil, həkimlər deyirlər ki, heç bir ümid yeri qalmayıb. Sənin burada, Təbrizdə olmağın vacibdir

Ata ilə oğulun söhbətini Rüstəmin kiçik bacısının səsi kəsdi:

– Ata, qağa, babam sizi çağırır.

***

Rəşidlə oğlu Rüstəm Mahmud Ağanın uzandığı otağa girdilər. Həcər xanımla Xavər başda olmaqla Mahmud Ağanın bütün qızları, nəvələri burada cəm olmuşdu. Hamının baxışları yatağa uzanıb hərdənbir gözlərini açaraq başına toplaşmış istəklilərinə baxan Mahmud Ağada idi. Onun son anlarını yaşaması göz önündə idi. Rəşidlə Rüstəm içəri girəndə Mahmud Ağanın göləri qapalı idi. Onlar da dinməz dayandılar. Mahmud Ağa növbəti dəfə gözlərini açdı və güclə eşidiləcək səslə dedi:

— Hanı Rüstəm balam?

Rüstəm babasının yatağı önündə diz çökdü. Mahmud Ağa yenə gözlərini yumdu. Yenə otağa sükut çökdü. Gecdən-gec Mahmud Ağa gözlərini açıb soruşdu:

— Bəs atan hanı?

Rəşid də irəli çıxdı. Mahmud Ağa pıçıldadı:

— Oğlum Rəşid, mən səndən çox razıyam. Oğlum olmayıb, amma sən mənə oğuldan artıq olmusan. Mən gözlərimi dünyaya arxayın yümuram, bilirəm ki, sənin kimi adamı evdə ağsaqqal qoyub gedirəm. Rəşidlə oğlunun gözlərindən yaş axmağa başladı. İki damla yaş da Mahmud Ağanın əbədi yumulmuş gözlərinin kənara yumrulanıb qaldı. Həcər xanımla Xavər Mahmud Ağanın meyidinin üstünə yıxılıb hönkürdülər.

Mahmud Ağanın ölməsi xəbəri Təbrizə ildırım sürətilə yayıldı, Təbrizdə çox böyük hörmət sahibi olmuş, Təbriz camaatının peyğəmbər kimi tanıdığı Mahmud Ağanın həyəti, ətraf küçələr adamla doldu. Axşama yaxın qoca vəzir saray əyanları, əmi1ər gəldilər. Ertəsi gün Mahmud Ağanı böyük şan-şöhrətlə dəfn etdilər. Təbriz camaatının böyük əksəriyyəti onun cənazənin ardınca getdi. Dəfn mərasimində Qara Yusif də iştirak edirdi.

Vəzir ehtiyatla:

—Hökmdar, deyirsən xəzinəni tamam boşaldaq?—soruşdu.

Qara Yusif qətiyyətlə:

— Vəzir, fərmanıma əməl elə,—dedi.

Vəzirin baş üstə deməkdən başqa çarəsi qalmadı. Qara Yusif atını gətirtdi, mindi, sevimli arvadı Qədəm Paşaya dedi:

— Niyə atını gətirtmirsən, mənimlə getmək istəmirsən?

Qədəm Paşa sevinclə:

—Məni də aparırsan?—soruşdu.

Qara Yusif başını tərpədib dedi:

—Urəyimə damıb ki, axır günlərimdir, istəyirəm gözlərimin işığı yanımda olsun.

Atına suvar olub onu hökmdarın atı ilə bərabərləşdirmiş Qədəm Paşa dedi:

– Sən nə danışırsan, hökmdar? Bircə dəfə naxoşlamaq bu sözləri söyləməyə əsas ola bilməz.

Qara Yusif dinmədi, atını tərpətdi, qoşunlar hərəkətə gəldi. Günortaya yaxın Qara Yusif onun yanında at surən əmir Qaramana:

– Nəsə özümü çox pis hiss eləyirəm. Qoşunları qarşıdakı Səidabad kəndində əylə.

Əmir Qaraman hökmdarın əmrinə əməl edib qoşunları əylədi, Səidabad kəndi yaxınlığında düşərgə saldırdı. Həmişə olduğu kimi, yenə Qara Yusifə şahanə çadır quruldu. Lakin atından düşmüş Qara Yusifə çadıra girmək qismət olmadı. O, çadırın girəcəyində üzü üstə sərildi və bir daha qalxmadı.

* * *

Adətən sakit olan, həyəcan keçirməyi xoşlamayan, ətrafındakı hadisələrə soyuqqanlılıqla yanaşan əmir Şahrux gecəni rahat yata bilmidi. Sabahkı döyüşün fikri heç cürə başından çıxmırdı. Şahrux öz acizliyinə hirsləndi. Əsəbləri o qədər gərkinləşdi ki, yatağından qalxmağa məcbur oldu. Candarını çağırmaq, geyinib havaya çıxmaq istədi. Ancaq pəncərədən bayıra baxıb fikrindən daşınmalı oldu. Yağış yağırdı. Qayıdıb yatağında oturdu və xəyala daldı: «Qəribədir, bu vaxta kimi döyüş meydanında onlarla çəribaşı ilə rastlaşmışam, heç vecimə olmayıb, gecəni rahat yatmışam. Amma bu Qara Yusiflə rastlaşmaq ərəfəsində niyə belə narahat oluram? Ondan qorxuram? Yox, qorxmuram. Mən ondan zorluyam, qoşunum onunkundan çoxdur. Nədənsə atam da, fatehlər fatehi əmir Teymur da ondan çəkinirdi. Ehtiyat elədiyini boynuna almasa da, əməlini yaşıra bilmirdi».

Şahruxun atasının vəzirinin dediyi sözlər yadına düşdü:

– Əmir Teymur həmişə deyirdi ki, Qara Yusif bizim ən təhlükəli düşmənimizdir, onu mütləq aradan götürməliyik. Ona görə təhlükəlidir ki, əvvələn, bizdən narazı olanlar onun başına yığılırlar. İkincisi və ən başlıcası odur ki, o, birinci çəribaşıdır. Öz çərilərinn döyüşə aparmağı yaxşı bilməsi bir yana qalsın, onun çəribaşılıq bacarığının ən əsas cəhəti odur ki, bizlərin, cığatayların döyüş sirlərindən xəbərdardır və bizə qarşı necə vuruşmağı, məsələn hətta iki-üç qat az qüvvə ilə necə döyüş aparmağı bilir.

Bütün bunları beynindən keçirən əmir Şahrux öz-özünə pıçıldadı: «Bəli, ondan əmir Teymur kimi fateh də çəkinirdi, demək yuxumun ərşə çəkilməsi səbəbsiz deyil.

Əmir Şahrux yenə yatağından qalxdı, candarını səslədi. Əmirinin yata bilmədiyini yəqin etmiş candar, hər gecə bu vaxtlar onu yuxuya verib yatağa getmək adətinə rəğbən gözləmnşdi. Ona görə də əmir Şahrux onu çağıran kimi içəri girdi:

– Buyur, ya əmir,—dedi.

Gecə yağışlı və zülmət olduğundan candar içəri girəndə ətrafını seçə bilmədi. Otağa yaxşı bələd oluğundan çırağı asanlıqda tapdı, yandırdı. Otaq işıqlandı. Candar gecə paltarında ayaq üstə dayanmış əmir Şahruxu görüb əmrə müntəzir dayandı. Yağışın şırıltısını dinləyirmiş kimi pəncərəni aralayıb bayıra baxan əmir Şahrux keçib yatağında oturdu. Onun nəsə bir qərar qəbul etmək istədiyi, ancaq tərəddüd etdiyi aydın görünürdü. Nəhayət, o dilləndi:

– Get vəziri çağır,—dedi.

Candar əmirin sözlərini eşitdi, ancaq qulaqlarına inanmırmış kimi dayanıb baxdı. Şahrux candarı tərəddüd içində görüb əmrini təkrar etdi, candar getdi. Bir xeyli keçəndən sonra hələ də yuxulu görünən vəzir içəri girdi, əmir Şahrux ona oturmağı təklif edib dedi:

– Vəzir, yuxum ərşə çəkilib, yata bilmədim, səni də narahat elədim.

Vəzir əlini cibinə atdı, təsbehini çıxardı, boğazını arıtlayıb dedi:

– Mən də çox pis yatmışam, ya əmir, gözlərimə yuxu təzəcə getmişdi. Nəsə sabahkı savaş məni yaman narahat eləyir.

Şahrux vəzirİn birbaşa mətləbə keçməsinə sevindi:

-Elə mənim də yuxumu ərşə çəkən sabahkı savaşın fikridir.

Təsbehini çevirməkdə davam edən vəzir:

– Qoşununuz çoxdur, sənin heç bu qədər qoşunun olmayıb. Qara Yusifin öhdəsindən asanlıqla gələcəksən. Buna baxmayaraq narahatam.

Əmir Şahrux başını tərpətdi:

– Bizim qoşunumuz çoxdur, onun hiyləsi. Götür elə aldığım təzə xəbəri. Deyirlər, o, Təbriz camaatını məmə yeyəndən pəpə yeyənə kimi hamını səfərbər eləyib. Niyə? Bu qədər piyadə, özü də əli qılınc tutmayan piyadə nəyə gərəkdir?

Vəzir əlini saxlayıb dedi:

– Hə, bilirəm, mənə də çatıb bu xəbər. Bir-iki əmirin bu barədə fikrini soruşdum. Dedilər ki, yəqin çoxlu xəndəklər qazdıracaq.

Əmir Şahrux başını buladı:

– Yox, təkcə xəndək məsələsi deyil, onun nəsə bir hiyləsi var, buna şübhən olmasın.

Vəzir dinmədi, çağırılmasının səbəbini öyrənənə kimi gözləməyi qət etdi. Vəzir bilirdi ki, əmir Şahrux onunla nə barədəsə, özü də çox vacib bir iş barədə məsləhətləşmək üçün çağırmışdır. O, əmir Şahruxla bir neçə kəlmə danışandan sonra onun nə deyəcəyini təxmini olsa da müəyyənləşdirmiş və öz fikrini bildirməyə hazır idi. Əslində Şahrux məsləhətləşmək deyil, özünün qəti sözünü demək istəyirdi. Ancaq o, əmir Teymur kimi bir hökmdarın oğlunun bu sözləri ağzına almasını özünə sığışdıra bilmirdi. Ona görə də öz fikrini vəzirin dili ilə dedirtmək üçün yollar axtarırdı. Elə bu məqsədlə də vəzirindən:

– Nə məsləhət görürsən?—deyə soruşdu.

Əmir Şahruxun artıq qəti qərar qəbul etdiyini yəqin etmiş vəzir özünü bilməməzliyə vurdu:

– Mültəfit olmadım, hökmdar. Mültəfit olmadım ki, nə barəsində məsləhət verməliyəm.

Əmir Şahrux dilxor oldu, vəzir bunu sözdisə də özünü o yola qoymadı. Şahrux davam etməyə məcbur oldu:

– Söhbət sabahkı savaşdan gedir, vəzir.

Vəzir çiyinlərini çəkdi:

– Vallah, ya əmir, söz söyləməyə çətinlik çəkirəm. Axı mən çəribaşı deyiləm, dava işlərindən də başım çıxmır. Qoy sabah açılsın, əmirləri yığıb məsləhətləşək.

Şahrux daha da pərt oldu, qətiyyətlə dedi:

– Vəzir, mən qət eləmişəm ki, sabah Qara Yusiflə savaşa girmiyim.

Vəzir əmir Şahruxun fikrini düz oxumasından məmnun oldu. O, eyni zamanda Şahruxun bu sözləri ona demək üçün gecənin yarısı onu yataqdan qaldırmasına hirsləndi, ancaq, əlbəttə, bunu büruzə vermədi, onun düşüncələrinə həmişə xəyanət etmiş gözlərini aşağı dikib:

– Nə olar, sabah olmasın, o biri gün olsun.

Şahrux vəzirin onu çoxdan başa düşdüyünü duydu və:

— Nə sabah, nə də o biri gün, vəzir. Qoşunları yığıb geri dönmək fikrindəyəm.

Şahruxun bu sözlərini gözləyən, buna qəlbən sevinən vəzir gözlərini hökmdardan gizlətməyi unutdu. Şahrux o gözləri gördü və dedi:

— Sən geri qayıtmağa çoxdan hazırmışsan, gözlərindən görürəm.

Vəzir bu dəfə hökmdara düzünü deməyi lazım bildi:

— Elədir, hökmdar, əl çək bu Qara Yusnfdən. Oturub Azərbaycan taxtında, sənin yerlərinə ki, soxulmur.

Əmir Şahrux vəziri sona kimi dinləmədi:

— Yaxşı, vəzir, get yat. Sabah əmirləri yığacağam. Mənim bu qərarımı onlara sən çatdıracaqsan.

Vəzir «ya allah» deyib qalxdı, çıxışa tərəf getdi, qapıya çatmamış əmirin səsini eşidib döndü:

— Qərarımı onlara mənim adımdan deyil, öz adından bildirərsən.

Vəzir gülümsündü, yaşının yetmişi keçməsinə baxmayaraq hələ də ağzında sıralanmış ağappaq dişləri göründü. O getdikdən sonra Şahrux yatağa girdi və tezliklə yuxuya getdi.

Səhər əmirlər Şahruxun yanına gələndə onun hələ yatağından qalxmadığını eşidib təəccüb etdilər. Onların hamısı döyüş əhval-ruhiyyəsində idilər.

Şahruxu yuxudan pəncərədən otağa düşmüş günəş şüaları ayıltdı. O, yatağından qalxıb gecədən açıq qalmış pəncərənin önünə gəldi, həyətə tamaşa eləməyə başladı. Gecə yağmış yağışdan əsər-əlamət yox idi. Elə bil heç payızın son ayı deyildi; Yalnız həyətdəki böyük, dayirmi çarhovuz boyu dövrələmə əkilmiş güllərin üzərində yumrulanmış, günəşin şüalarını əks etdirib parıldayan damlalar yağışın bir az əvvəl kəsməsini göstərirdi. Əmirləri yanına çağırdığını, bu günə döyüş təyin etdiyini tamamilə unudubmuş kimi Şahrux həyətə düşdü, çarhovuzun yanına gəldi, üzünə su çırpdı, gülləri iylədi və çarhovuzun kənarında oturmaq istəyəndə candar gəldi, təzim edib dedi:

— Hökmdar, əmirlər sənin görüşünə müntəzirdirlər.

Şahrux geri döndü, otağa girdi və soruşdu:

— Vəzir gəlib?

Candar cavab verə bilmədi, o, vəzirin gəlib-gəlməməsini bilmirdi. Şahrux buna əhəmiyyət vermədi və:

— Get əmirlərə söylə ki, gəlirəm. Vəzir gəlib çıxmayıbsa, dalınca adam göndər.

Candar əmirlərin yığışdığı otağa keçəndə vəzir də gəlib çıxdı və birinci sualı:

— Əmir durub?—oldu.

Candar başını tərpədib dedi:

— İndicə gələr, sənin dalınca adam göndərmək istəyirdi.

Əmir Şahrux salona daxil olanda əmirlər ona baş əydilər. Şahrux taxtında, vəzir isə onun yanında oturdu. Şahrux əmirlərə də əyləşməyə işarə verdi. Bu, əmirlərə qəribə gəldi. Hamı yola çıxmağa hazır olduğu halda, hara və necə, kimin hansı cinahda irəliləyəcəyi hələ dünən müzakirə və müəyyən edildiyi halda oturmağa nə hacət vardı? Əmirlər əyləşib nəzərlərini Şahruxa dikdilər. Ancaq onların heç biri başını aşağı salmış Şahruxun gözlərini görə bilmədi. Vəzir hamının diqqətinin Şahruxda olmasına əhəmiyyət verməyib boğazını arıtdadı, əlində çevirdiyi təsbehini cibinə qoydu və:

— Həzərat.—deyib yenidən əlini cibinə atdı, təsbehini təzədən çıxardı, ona çevrilmiş sifətləri süzüb davam etdi;—həzərat, əmir Şahrux bu gecə vağyada şah babasını, əmir Teymuru görüb, allah onun ruhunu cənnətlik eləsin.

Əmirlərin hamısı salavat çevirib ayağa durdu, «bismillahirrəhmanirrəhim» deyib oturdu. Vəzir:

— Əmir Teymur Sahibqran oğlunu vağyada danlayıb, deyib ki, axı o da bizdəndir, müsəlmandır, dili də dilnmizdəndir. Niyə onunla əlbəyaxa olursan?

Əmirlərin hamısı «allahummə səllü əla Məhəmmədin və ali Məhəmməd» deyib salavat çevirdi. Bütün gecəni fikirləşmiş, əmirlərlə söhbəti necə və nədən başlayacağını müəyyən edə bilməmiş, indicə əmirlərlə birlikdə əyləşəndə ağlına gələni söyləyən, lakin sözlərini necə bitirəcəyini heç özü də bilməyən vəzir

əmirlərin salavat çevirməsindən istifadə edə bildi, məmnun halda təsbehini cibinə apardı və:

— Hökmdarımız vağyada özünü itirməyib, söyləyib ki, sənin özün ona düşmən kəsilmişdin, indi belə deyirsən. Mərhum əmir Teymur oğlu Şahruxa cavab verməyib getmək istəyəndə o, tez əmirin baş barmağından yapışıb.

Əmirlərdən sonra gəlib çıxmış və bir kənarda əyləşmiş üləmalar salavat çevirdilər. Hamı onlara qoşuldu. Üzünü yana tutmuş vəzir bic-bic gülümsündü. Sonra davam etdi:

— Qazı həzrətləri özünü lap vaxtında yetirib. Mən səhv eləsəm o məni düzəldər. Ölmüş bir adamı vağyada görəndə onu axıra kimi danışdırmaq istəyən onun baş barmağını tutmalıdır.— Vəzir sözünü kəsib qazıya baxdı. Nəzərlər qazıya çevrildi. Qazı başını tərpətməklə vəzirin sözlərini təsdiq etdi. Vəzir özündən razı halda yenə təsbehinə əl atdı və dedi:—Əmir Teymur oğlunun sualına cavab verməli olub. O deyib ki, xudavəndi kərəmin qurduğu mizanda onun üzünə çox günahlarını oxumuşlar. Yüz minlərlə günahsız adamı öldürməsini, başlardan ehram düzəltməsini, saysız-hesabsız davalarının hamısını onun günahlarına yazsalar da sonra bağışlamışlar, demişlər ki, davada hər şey ola bilər.

Vəzirin sözləri hamını, hətta əmmr Şahruxu da heyrətə gətirmişdi.

Vəzir davam etdi:

— Bəli, xudavəndi-kərəm adildir, o Sahibqranın bütün günahlarını bağışlayıb. cənnətin ən yaxşı guşəsində ona yer verib, hurilər onun başına dolanırlar. Di gəl ki... Vəzir əmirlərin onu heyranlıqla dinləməsnndən aldığı ləzzəti uzatmaq istəyirmiş kimi sözünə ara verdi, dinləyicilərini intizarda qoymaqdan daha da nəşələndi və dedi — Di gəl ki, xudavəndi-aləm onu o ki var danlayıb, deyib ki, sənə öz həmdillərini və həmdinlərini qırmağını hec cür bağışlamaq olmaz. Mən bunu yalnız sənin böyüklüyünə görə bağışlayıram. Səndən sonra gələnlərin heç biri sənin böyüklüyündə olmayacaq. Onların arasında din-dil qardaşına qılınc qaldıran olsa, onu bağışlamayacağam, cəhənnəmin oduna yandıracağam.

Qazı başda olmaqla bütün əmirlər, üləmalar salavat cevir- dilər. Əmir Şahruxun da onlara qoşulub bərkdən: «Allahüm mə- səlln əla Məhəmmədin və ali Məhəmməd» deməsini körən vəzir də istər-istəməz salavat cevirdi, sağ əlini alnından aşağı sü- rüşdürüb saqqalının ucunda saxladı və dedi:

— Biz əmir Şahruxla məsləhətləşdik və belə qət elədik ki, Qara Yusifin üstünə getməyək, yoxsa bir olan xudavəndikərəmin qəzəbinə keçərik.

Hamı ilə birlikdə vəziri dinləyən, hamı ilə bir yerdə salavat çevirən, Teymur nəslinin Qara Yusifdən çəkinməsindən xəbəri olan əmirlərdən bir-ikisi vəzirin hədyan danışdığını başa düşür, biri-birinə baxıb him-cim eləyirdilər. Orduda yaxşı mövqe tutan, Qara Yusifi üstələyib çoxlu qənimət ələ keçirəcəklərinə ümid bəsləyən həmin əmnrlər vəzirin son sözlərinə etiraz etmək istədilər. Onların ikisi də ağızlarını doldurub əmir Şahruxa baxdılar. Sözlərini deməyə çəkindilərsə də sona kimi dözmədilər. Onlardan əmir Şahruxa lap yaxın olanı dedi:

— Ya əmir, vəzirin söylədikləri sənin fərmanındır, yoxsa məsləhət tərzilə söz söyləmək olar?

Əmir Şahrux vəzirinə baxdı. Vəzir başını tərpətdi. Əmir Şahrux ondan:

— Sənin ayrı təklifin var?—soruşdu.

Əmir yerindən qalxdı, hamının nəzəri ona çevrildi. O da öz növbəsində bütün əmirləri və üləmaları gözdən keçirib baxışlarını əvvəl vəzirə, sonra isə əmir Şahruxa çevirdi və dedi:

— Ya əmir, xudavəndi-aləm böyükdür, adildir, günahları bağışlayandır. Biz Qara Yusifin üstünə getmək istəmirik, bizi o məcbur eləyir. Padşah nəslindən olmayan, yəni allahın yer üzündə vəsihi sayılmayan adama öz yerini tanıtmağı tanrı nəinki bizim günahımıza yazar, əksinə, başqa günahlarımızdan da keçər.

Əmir sözlərinə ara verib tərəddüdlə Şahruxa baxdı. Onun dinmədiyini görüb ürəkləndi və davam etdi:

— Ona görə də mən belə hesab eləyirəm ki, Qara Yusifi cəzalandırmağı təxirə salmaq lazım deyil. Hər şey səfərə hazırdır, əmr et yola düşək.

Qənimət eşqi ilə yaşayan əmirlərin çoxu başını tərpətdi. Əmir Şahrux özünü itirdi. Onun bir kəlməsi onların hamısını öz yerində oturda bilərdi. Ancaq o belə etmək istəmirdi. Şahrux vəzirə baxdı. Onun baxışları imdad diləyirdi. Əmir danışanda təsbehini çıxarıb oynatmağa başlamış vəzir Şahruxun baxışlarını tutdu, O, təsbehi cibinə qoyaraq özünü qəzəbli göstərməyə çalışdı və dedi:

– Sən nə danışırsan, ay kişi? Mərhum əmir Teymur, allah ona min təsbih rəhmət eləsin, qəbrini nurla doldursun, allahın adından deyib ki, Qara Yusifin üstünə getmə, vəssalam. Bizim nə həddimiz var ki, onun bu müqəddəs sözlərini yerə salaq?

Əmirlərin heç biri dinmədi. Şahrux danışıqları uzatmağı lazım bilməyib ayağa durdu. Əmirlər qalxıb qapıya yönəldilər. Onların lap irəlidə gedəni əlini uzadıb qapını açmaq istəyəndə, qapı özü açıldı. Şahruxun candarı tələsik içəri girdi, əmirlərə baxmadan birbaş hökmdarın yanına qoşdu və:

— Ya əmir, Qara Yusif ömrünü sənə bağışlamışdır,—dedi.

Əmir Şahrux:

– Necə? Kim dedi sənə?

Candar sözünün ardını deməyə macal tapmamış kəşfiyyat rəisi özünü yetirdi, candara tərs-tərs baxıb dedi:

– Candar kəşfiyyatçılarla məndən qabaq rastlaşıb.

Əmir Şahruxun Qara Yusifin Təbrizdən çıxmasından xəbəri var idi, ancaq harada olmasını dəqiq bilmirdi. Soruşdu, öyrəndi, ayaq üstündə intizar keçirən əmirləri geri çağırdı və üzünü vəzirə çevirib soruşdu:

– İndi məsləhətin nədir, vəzir?

Qara Yusifin ölüm xəbərini alan kimi keçib yerində əyləşən, təsbehini çevirməklə məşğul olan vəzir onun bu sualını gözləyirmiş kimi cəld cavab verdi:

– Ya əmir, məsləhətə ehtiyac var? Qara Yusif yoxdur, deməli Qaraqoyunlular dövləti də yoxdur. Kidi onun başında olmuş əmirlərin hərəsi bir tərəfə dartışdıracaq. Sən özünü yetirməlisən, Azərbaycan torpaqlarını öz torpaqlarına qatmalısan.

— Bəs Qara Yusifin oğlanları?

– Onların hərəsi bir tərəfdədir. Qara İskəndərin başı Qara Yulukla savaşa qatışıb, Şah Məhəmməd Bağdadda, Cahanşah Sultaniyyədə, İspənd də haradasa uzaqdadır. Onların heç biri sənə qarşı çıxmaq iqtidarında deyil. Cahanşah isə bizim qoşunların mühasirəsindədir.

Şahrux oturdu və:

– Deyirsən Təbrizə qoşun göndərim?—soruşdu.

Vəzir əlini cibinə atıb:

– Göndərmək niyə, özün getmək istəmirsən?—soruşdu, təsbehini cibindən çıxardı.

– Yox, özüm istəyirəm Qarabağa gedəm, qışı orada keçirəm.

– Cavan Şirvanşah Xəlilüllahla üzləşmək istəyirsən?

Şahrux gülümsündü.

– Üzləşmək niyə, bilmirsən ki, məni qonaq çağırıb?

Vəzir başını buladı, Şahrux yenə gülümsündü:

– Dünən o qədər....—dedi, dayandı, həyəcanlı idim ki, demək istədi, demədi. Bunu vəzir başa düşüb gülümsündü:

– Bir işə bax, sən allah. Dünən nə fikirləşirdik, bu gün necə oldu?

Şahrux sözünə davam etdi:

– Dünən axşamüstü Xəlilüllahın elçiləri gəlmişdi. O, atası, mərhum Şeyx İbrahimin atam mərhum Sahibqranla dostluqda yaşadığı kimi, özü də mənimlə yaxın olmaq istəyir və mənn Qarabağa qışlamağa dəvət eləyir.

Vəzir başını tərpətdi, təsbehini cibinə qoyub dedi:

– Kimi göndərmək istəyirsən qoşunla?

– Əmir Əlikə Gültəki.

* * *

Qara Yulukun qoşunları ilə üzləşməyə hazırlaşmış Qara İskəndər Diyarbəkr yaxınlığında ordugah qurmuşdu. Artıq hər şey ölçülüb-biçilmişdi. Beş gündən sonra o, ordugahını yığışdırıb düşmən ilə qəti və həlledici döyüşə girəcəkdi. Qara İskəndər gününü əmirlərlə kiçik rütbəli qoşun başçılar ilə məsləhətləşmələrdə keçirir, hücum əməliyyatında dəyişikliklər edirdi. Qara İskəndər döyüş qabağı əmirləri sonuncu dəfə yığanda qoruqçubaşı Qara Yusifin elçilərinin gəldiyini bildirdi.

Elcibaşı Qara İskəndərin çadırına girib Qara Yusifin məktubunu ona uzatdı, o da öz növbəsində naməni mirzəsinə uzadıb dedi:

– Oxu görək hökmdar babam nə yazır?

Mirzə Qara Yusifin naməsini oxumağa başladı:

«Mənim zorlu, uca qara oğlum, Qara İskəndər! Bizim ata-baba düşmənlərimiz Cığataylar yenə üstümüzə gəlirlər. Bu dəfə Cığatay çərilərinə əmir Teymurun törəməsi Şahrux başçılıq eləyir. Sənin qardaşlarına da namə göndərmişəm. Biz bütün qoşunlarımızı cəm eləyib onu birdəfəlik öz yerində oturtmalıyıq. Qardaşın Cahanşah Sultaniyyədə mühasirədədir. Biz qoşunlarımızla oraya hərəkət eləyirik. Qoşunlarını cəm eləyib özünü oraya yetirməyə tələs.

Qaraqoyunlular xanədanının hökmdarı Qara
Yusif padşah.
3 Zülqadə 823 hicri.»

Qara İskəndər atasının naməsini diqqətlə dinlədisə də, naməni ikinci dəfə də oxutdu. Yuvaşdan öz-özü ilə danışırmış kimi dedi:

– Babam birinci dəfədir ki, özünü padşah adlandırır.—Səsini bir qədər ucaldıb:—deyəsən babamda ağıl qalmayıb, əmir Şahruxla savaşa girmək ona zarafat kimi görünür.—davam etdi, yenə xeyli susdu və:—yox, biz artıq savaşa

hazırıq. Geri çəkilsək Qara Yuluk dalımızca düşər, bu da Şahruxa kömək olar. Biz savaşacağıq, sabah sübhdən hücuma keçəcəyik.

Qara İskəndərin Qara Yulukla ilk toqquşması müvəffəqiyyətli oldu. Doğrudur, o Qara Yulukun qoşunlarını darmadağın eləyə bilmədi, lakin əzişdirdi, pərən-pərən saldı. Qara Yuluk qaçdı, Qara İskəndər onu təqib etdi, üç gündən sonra isə bunun əhəmiyyətsiz olduğunu yəqin edib ondan əl çəkdi, geri döndü. İndi məqsədi atasının göməyinə qoşmaq idi. On gün yol gəldikdən sonra yenicə ordugah qurmuşdu ki, atasının ölüm xəbərini aldı. Ertəsi günü o, ordugahı tərpətmədən, əmirlərlə məsləhətləşdikdən sonra kəşfiyyatçılar göndərib vəziyyəti öyrənməyi qət etdi. Kəşfiyyatın gətirdiyi xəbərdən məlum oldu ki, əmir Əlikə Gültək müqavimətə rast gəlmədən Təbrizi tutmuşdur, əmir Şahrux Qarabağa getmiş, Qara Yusifin əmirlərinin çoxu onun tərəfinə keçmişdir.

Qara İskəndər qışı ordugah saldığı yerdə keçirməyi, yaz girəndən sonra yenə elçilərini göndərməyi qərara aldı və belə də etdi. Aldığı xəbər sevindirici oldu. Kəşfiyyatçıların başçısı bildirdi ki, əmir ul-üməra Yar Əhməd Qaraman, Təbriz kübarlarının nümayəndəsi Xoca Cəfər Təbrizi, Kavərda hakimi əmir Baba hacı bəy Kavərd, həmçinin Şirvanşah Xəlilüllah, Şəki hakimi Seyid Əhməd Orlat, gürcü hakimi Aleksandr Şahruxun hakimiyyətini qəbul etmişdilərsə, indi əmir ül-üməra Yar Əhməd Qaraman Şahruxa qarşı çıxmışdır. Bu sonuncu xəbərdən hədsiz sevinmiş Qara İskəndər əmirlərini başına yığdı və dedi:

– Hazırlaşın, savaş çağı, babamın taxtına sahib çıxmaq vaxtı artıq yetişib... Günü sabah yolu əlimizə alırıq. Biz əmir Şahruxla savaşa girmiş əmir ül-üməra Yar Əhmədin qoşunları ilə birləşsək üstünlük qazana bilərik.

Gözəl yaz səhərində yola çıxmış Qara İskəndər bir neçə gündən sonra əmir ül-üməra Yar Əhmədin məğlubiyyətə uğrayıb əmir Şahruxdan aman istəməsi xəbərini aldısa da, bunu əmirlərdən gizlətdi və irəli getmək fikrindən daşınmadı. O, Təbrizə çatmağa iki gün qalmış qardaşı İspəndin yaxında olduğunu eşidib ona namə göndərdi, birləşməyi təklif etdi. İspənd də qardaşı ilə birləşməyə can atdı, lakin tezliklə mühasirəyə düşdü, iki aydan artıq qardaşının köməyinə gələ

bilmədi. Özünü yetirəndə Təbriz yaxınlığında əmir Şahruxun qoşunları ilə savaşa girmiş Qara İskəndər artıq məğlubiyyətə düçar olmuşdu. Şahruxun qoşunları İspəndi də üstələdi. Qara Yulukun qoşunlarının qalıqları da əmir Şahruxun köməyinə yetişə bildi. Qara İskəndər qardaşı İspəndlə birlikdə qoşunlarının xeyli hissəsini götürüb aradan çıxa bildilər.

Qardaşları məğlubiyyətə uğratmış əmir Şahrux Təbrizə girdi. Lakin bundan sonra da Qara İskəndəri təqib etmək əmri almayan əmirlər təlaşla dedilər:

– Qara Yusifin oğlanları məhv edilməyincə bu ölkədə bolluq, ticarət olmayacaq.

Əmir Şahrux vazirinə baxdı, onu başıaşağı oturub təsbeh çevirən gördü. Vəzir Şahruxun nəzərlərini hiss etdi, amma qəsdən başını qaldırmadı. Bu məsələdə məsləhətçi olmaq istəmirdi. Əmirlərin dediyi onun xoşuna gəlməmişdi. Qara Yusif öz ölkəsində kənd təsərrüfatının, sənətkarlığın, ticarətin inkişafına yüksək fikir verən hökmdar idi. Onun padşahlığının rifahını buraya soxulmuş Cığatay qoşunları pozurdular. Bununla belə vəzir Təbrizi, Azərbaycan torpaqlarını Cığatayların hakimiyyəti altında görmək istəyirdi və bilirdi ki, nə qədər ki, Qara Yusifin oğlanları var, hakimiyyət uğrunda döyüşlər də olacaqdır. O, böyük məmnuniyyətlə əmirlərə qoşular, Qara İskəndəri, onun ardınca Qara Yusifin o biri oğlanlarını da aradan götürmək məsləhətini verərdi. Ancaq bu məsləhətin əmir Şahruxun xoşuna gəlib-gəlməyəcəyinə əmin deyildi. Vəzir son zamanlar məsləhət verməkdən daha çox Şahruxa xoş gələ bilycək sözlər deməyə alışmışdı. Digər tərəfdən vəzir əmirlərin əleyhinə çıxmağa, yəni Qara Yusifin oğlanlarının təqib edilməsinə narazı olduğunu bildirməyə də ehtiyat edirdi. Doğrudur, vəzir sonuncu fikrinin Şahruxa xoş gələcəyinə əmin idi, onun öz dilindən «nahaq bu ölkəyə gəldik» sözlərini dəfələrlə eşitmişdi. Bir də yaxın günlərin hadisəsi, əmir Şahruxun Qara Yusiflə üzləşmək istəməyib, geri qayıtmaq arzusunda olması da vəzirin bu fikrini daha da möhkəmləndirirdi. Ancaq vəzir belə bir məsləhətlə qənimət hərisi olan əmirlərin xeylisini özünə düşmən etmək istəmirdi.

Şahrux vəzirin dinmədiyini görüb dedi:

– Vəzir, niyə ağzına su almısan? Sənin məsləhətini gözlayirəm.

Vəzir Şahruxun ona belə bir sualla müraciət edəcəyinn bilirdi. Ona görə də Şahruxun sualı onu qəfildən haqlamadı. Vəzir təsbehini cibinə qoya-qoya başını qaldırdı və:

– Vallah, ya əmir, bayaqdan bu barədə fikirləşirəm. Bilmirəm nə məsləhət verim, yuxarı tüpürürsən bığdır, aşağı tüpürürsən saqqal. Qara Yusifin oğlanlarını aradan götürək deyim, yoxsa qayıdaq gedək deyim, bilmirəm.

Vəzirin sözlərindən əmirlər narazı qaldılar, deyinənləri də oldu, sükut pozuldu. Şahrux narazı baxşlarını əmirlərə qaldırdı, qurbağa gölünə daş atıldı, sakitlik yarandı. Vəzir davam etdi:

– Əmirlər söylədilər ki, Qara Yusifin oğlanları ölkənin rifahını pozurlar. Mən də Azərbaycan torpaqlarını bizim məmləkətimizin tərkibində görmək istərdim. Ancaq təqsiri təkcə Qara Yusifin oğlanlarının ustünə atmaq düz olmazdı. Onları silah işlətməyə bizlər məcbur eləyirik.

Əmirlərdən biri dözmədi:

– Ya əmir, deyəsən bu gün vəzir Qara Yusifin oğlanlarının tərəfinə keçib,—dedi.

Vəzir iti baxışlarını həmin əmirə tuşladı, bir söz demə di, onu Şahrux qabaqladı:

– Ağzına gələnləri tullamaq ağıllılığa dəlalət eləmir, əmir.—dedi.

Əmir bərk pərt oldu. Vəzir həmin əmirin pərt sifətindən gözlərini çəkmədən baxışları ilə onun baxışına davam gətirib öz üstünlüyünü nümayiş etdirdikdən sonra yenidən danışmağa başladı:

– Əmirlərə elə gəlməsin ki, onlar Qara Yusifin oğlanlarını asanlıqla aradan götürə bilərlər. Qaraqoyunlular bu torpaqda dərin kök atıblar, çoxdan yerli olublar. O köklər çox dərin işləyib, onları çıxarıb atmaq, bütün yerli camaata qarşı durmaq deməkdir.

Yaşlı bir əmir ehtiyatla dedi:

– Vəzir, bu mənim beynimə batmadı. Söhbət yerli camaatdan, heç qaraqoyunlulardan da getmir. Söhbət Qara Yusifin oğlanlarından gedir. Məncə onları qarışdırmaq gərək deyil.

Vəzir başını tərpətdi, əmirlə razı olduğunu bildirdi və:

– Elədir, əmir, sözümün canını sən dedin, məni qabaqladın. Ancaq bir şeyi yaddan çıxardın. Mən dedim ki, Qara Yusif də, onun oğlanları da dərin kök atıblar bu torpaqda. Qara Yusif ziraətə, sənətkarlığa, ticarətə fikir verib, camaatın rəğbətini qazanıb. Camaat da onun oğlanlarına bel bağlayır, bizə yox. Nə eləsək də biz Qara Yusifin oğlanlarının hamısını məhv eləyə bilməyəcəyik, hansısa gizlənəcək, imkan gözləyəcək və camaatın göməyi ilə taxtı tutacaq. Mən sözlərimi söylədim, hökmdar. İndi məsləhət də sənindir, fərman da.

Şahrux əmirlərə baxdı və:

—Sizinlə məsləhətləşmək fikrim yoxdur. Məsləhətiniz də, fikriniz də mənə agahdır, və fikrimə ziddir. Biz sabah Təbrizdən çıxırıq.

Əmirlər narazı halda pıçıldaşdılar. Şahrux onlara əhəmiyyət verməyib vəzirə döndü və:

– Vəzir, mənimlə razı olub-olmadığını söyləmədin,—dedi.

Vəzir təsbehini yığışdırdı:

– Mənim nə həddim var ki, səninlə razı olmayam?

Şahrux gülümsündü:

– Fikrini söylə, vəzir.

Vəzir bir müddət susandan sonra:

– Soruşmaq olarmı ki, sən nəyə görə belə qət eləmisən?

– Elə sənin fikirləşdiklərinə görə. Ona görə ki, Qara Yusifin oğlanlarını aradan götürmək asan olmayacaq. Bu bir yana qalsın. Biz Qara Yusifin oğlanlarına toxunmasaq, onlar üzdə də olsa bizə tabe olmağa razı olacaqlar, necə ki Cahanşah tabe olub. Hələ onu demirəm ki, Qara Yusifin oğlanları ilə savaşa girsək Azərbaycanda olan Xəlilüllah, Seyid Əhməd kimi müttəfiqlərimizi itirə bilərik.

Vəzir razı hala başını tərpətdi. Şahrux taxtından durdu. Onun göstərişi qısa oldu:

— Üç gündən oonra, şənbə günü Təbrizi tərk edirik.

Şahruxun qoşunları Təbrizdən çıxandan düz iki həftə sonra, şənbə günü Qara İskəndər təntənə ilə Təbrizə daxil oldu. Təbriz camaatı onun pişvazına çıxmışdı. Onların arasında artıq saç-saqqalı callaşmış Rəşid, arvadı Xavər, onların oğlu Rüstəm də var idi.

**SON**

Bakı. Fevral 1982—may 1983

İsmayılov M.

Qara Yusif. Roman. B.: Yazıcı, 1991. 286 s.

İSBN 5—560—00570—3

“Qara Yusif” romanı yazıçı-alim kimi oxuculara yaxşı tanış olan Mahmud İsmayılovun qələminin məhsuludur. Bu romanda XV yüzilliyin əvvəllərində müstəqil Azərbaycan dövlətinin yaradılması uğrunda aparılan mübarizənin gedişində yetişən və ona müdrikliyi zəkası ilə istiqamət verən Qara Yusif kimi dövlət xadiminin görkəmli sərkərdənin bədii obrazı yaradılmışdır.

Nəşriyyat direktoru F. Məlikov.

Mətbəə direktoru Ə. Vəliyev.

Rəssamı N. İsmayılov.

Bədii redaktoru E. İsmayılov

Texniki redaktoru K. Bəşirova.

İB № 3302.
Yığılmağa verilmiş 8. 01. 1991-ci il.
Çapa imzalanmış 24. 07. 1991-ci il.
Kağız formatı 60*84  Mətbəə kağızı № 2.
Şriftin qarnituru ədəbi. Ofset çap üsulu ilə.
Şərti c. v. 16,74. Uçot nəşr vərəqi 18.87.
Tirajı 26500 Sifariş № 14. Qiyməti 4 man.

Azərbaycan Respublikası Dövlət Mətbuat komitəsi.
"Yazıçı" nəşriyyatı, 370005, Bakı, Natəvan meydanı 1.
Mətbuat İstehsalat Sənaye Birliyi.
"Qızıl Şərq" mətbəəsi.
370000, Bakı, Həzi Aslanov küçəsi, 80.